AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTU
FOLKLOR İNSTİTUTU

# GÖRKƏMLİ AZƏRBAYCAN FOLKLORŞÜNASI MƏMMƏDHÜSEYN TƏHMASİB

## mövzusunda Elmi Konfransın

# MATERIALLARI

## Bakı şəhəri, 05 oktyabr 2017-ci il

BAKI – 2017

**ELMİ REDAKTORU: Muxtar KAZIMOĞLU**
***AMEA-nın həqiqi üzvü***

**TƏRTİBÇİLƏR: Kamran ƏLİYEV**
***AMEA-nın müxbir üzvü, professor***

**Fidan QASIMOVA**
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

**"Görkəmli Azərbaycan folklorşünası Məmmədhüseyn Təhmasib" mövzusunda Elmi Konfransın materialları**. Bakı, Elm və təhsil, 2017, -344 səh.

Kitabda 05 oktyabr 2017-ci ildə Bakı şəhərində AMEA Nizami adına Ədəbiyyat İnstitutu və Folklor İnstitutunun təşkilatçılığı ilə, M.H.Təhmasibin anadan olmasının 110 illiyi münasibətilə keçirilən "Görkəmli Azərbaycan folklorşünası Məmmədhüseyn Təhmasib" mövzusunda Elmi Konfransın materialları toplanmışdır.

folklor.az

G $\frac{4603000000}{N\text{-}098\text{-}2017}$ Qrifli nəşr

© Folklor İnstitutu, 2017

## KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ

*Sədarət:*

**Akad. İsa Həbibbəyli** – AMEA-nın vitse-prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru
**Akad.Teymur Kərimli** – AMEA-nın Humanitar Elmlər Bölməsinin akademik-katibi, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru
**Akad. Muxtar Kazımoğlu** – AMEA Folklor İnstitutunun direktoru

*Elmi heyət:*

**AMEA-nın müxbir üzvü, prof. Kamran Əliyev** - AMEA Folklor İnstitutunun şöbə müdiri
**AMEA-nın müxbir üzvü, prof. Nüşabə Araslı** - AMEA Nizami adına Ədəbiyyat İnstitutunun şöbə müdiri
**Fil.ü.e.d., prof. Məmməd Əliyev** - AMEA Nizami adına Ədəbiyyat İnstitutunun direktor müavini
**Fil.ü.e.d., prof. Məhərrəm Qasımlı** - AMEA Nizami adına Ədəbiyyat İnstitutunun şöbə müdiri
**Fil.ü.e.d., prof. Tahirə Məmməd** - AMEA Nizami adına Ədəbiyyat İnstitutunun şöbə müdiri
**Fil.ü.e.d., prof. Füzuli Bayat** - AMEA Folklor İnstitutunun şöbə müdiri
**Fil.ü.e.d. Ramazan Qafarlı** - AMEA Folklor İnstitutunun şöbə müdiri
**Fil.ü.e.d. Əfzələddin Əsgər** - AMEA Folklor İnstitutunun şöbə müdiri
**Fil.ü.e.d. Seyfəddin Rzasoy** - AMEA Folklor İnstitutunun şöbə müdiri

**Sən.ü.e.d., prof. Nailə Rəhimbəyli** - AMEA Folklor İnstitutunun şöbə müdiri
**Fil.ü.f.d. Elxan Məmmədli** - AMEA Folklor İnstitutunun şöbə müdiri
**Fil.ü.f.d., dos. Ağaverdi Xəlil** - AMEA Folklor İnstitutunun şöbə müdiri
**Fil.ü.f.d., dos. Afaq Ramazanova** - AMEA Folklor İnstitutunun şöbə müdiri
**Fil.ü.f.d., dos. Rza Xəlilov** - AMEA Folklor İnstitutunun şöbə müdiri
**Fil.ü.f.d., dos. Fidan Qasımova** - AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi

***Katiblik:***

**Gülnar Osmanova** – AMEA Folklor İnstitutunun böyük elmi işçisi
**Nigar İmaməliyeva** – AMEA Folklor İnstitutunun böyük laborantı

# KONFRANSIN AÇILIŞ MƏRUZƏLƏRİ

## FOLKLOR NƏZƏRİYYƏSİNİN GÖRKƏMLİ YARADICISI

**İsa HƏBİBBƏYLİ**
*Akademik,*
*Azərbaycan Milli Elmlər Akademiyasının*
*vitse-prezidenti*

XX əsrdə həm Azərbaycan folkloru geniş miqyasda toplanılıb nəşr edilmiş, həm də folklorşünaslıq elmi yaradılmışdır. Ölkəmizdə folklorşünaslığın xüsusi bir elm sahəsi kimi formalaşdırılması və inkişaf etdirilməsində görkəmli elm xadimi Məmmədhüseyn Təhmasibin böyük xidmətləri olmuşdur.

Görkəmli folklorşünas alim və yazıçı Məmmədhüseyn Təhmasib çoxcəhətli yaradıcılıq fəaliyyətinə malik olan universal şəxsiyyətdir. Bu böyük yaradıcı şəxsiyyət ilk növbədə folklorşünaslığın elm kimi əsas yaradıcılarından olmaqla bərabər, həm də tanınmış yazıçı, ssenarist, dramaturq və tərcüməçi kimi də ad-san qazanmışdır. Məmmədhüseyn Təhmasibin ssenarisi əsasında çəkilmiş «Onu bağışlamaq olarmı» və «Bir qalanın sirri» filmləri Azərbaycanda məşhurdur. O, Azərbaycanın teatr səhnələrini özünün nağıl pyesləri ilə daha da zənginləşdirmişdir (4, 616).

Əlbəttə, filologiya elmləri doktoru, professor Məmmədhüseyn Təhmasib (1907-1982) ilk növbədə böyük folklorşünas alimdir. Onun XX əsrdə Azərbaycan folklorşünaslıq elminin formalaşması və inkişaf etdirilməsində böyük xidmətləri vardır. O, Azərbaycan folklorşünaslıq elminə bir çox cəhətdən mühüm xidmətlər göstərmişdir:

1. Məmmədhüseyn Təhmasib uzun illər Azərbaycan şifahi xalq ədəbiyatının toplanması, tərtib edilməsi və nəşr olunması yollarında yorulmadan çalışmış və bu sahədə ardıcıl və səmərəli fəaliyyət nümayiş etdirmişdir. Folklor irsinin toplanması və nəşri sahəsində Məmmədhüseyn Təhmasibin yorulmaz fəaliyyətini yalnız böyük folklorşünas Salman Mümtazla müqayisə etmək mümkündür. Məhz onun xidmətləri sayəsində məşhur «Koroğlu» dastanı bir neçə variantda toplanılıb sistemləşdirilmiş və nəşr edilmişdir. Aşıq Ələsgərin irsini də ilk dəfə Məmmədhüseyn Təhmasib toplayıb, mükəmməl bir müqəddimə ilə oxuculara çatdırmışdır. Məşhur Molla Nəsrəddin lətifələrinin toplanması və nəşri Məmmədhüseyn Təhmasibə məxsusdur.

«Kitabi-Dədə Qorqud» dastanlarının toplanması, tərtibi və nəşri istiqamətində Məmmədhüseyn Təhmasib dövrünün görkəmli alimləri ilə birlikdə mücadilə aparmış, təzyiqlərlə üzləşmiş, nəhayət, bu əhəmiyyətli ədəbi abidəni ölkəmizdə nəşr etdirməyə nail ola bilmişdir. Ümumiyyətlə, Azərbaycan dastanları onun fədakar işi sayəsində Azərbaycan oxucularının və tədqiqatçıların ixtiyarına verilmişdir. Şifahi xalq ədəbiyyatının toplanılması, tədqiqi və nəşri sahəsindəki çoxillik və səmərəli fəaliyyətinə görə professor Məmmədhüseyn Təhmasibi Azərbaycan folklorşünaslığının Fərhadı adlandırmaq olar.

2. Azərbaycan folklorşünaslıq elminə Məmmədhüseyn Təhmasib görkəmli folklor nəzəriyyəçisi kimi daxil olmuşdur. Böyük alimin aşıq yaradıcılığına, xalq satirasına, dastanşünaslıq məsələlərinə həsr olunmuş elmi irsində folklorşünaslıq nəzəriyyəsi mühüm yer tutur. O, istənilən məsələdən söhbət açarkən mahiyyəti açmağa üstünlük vermiş, məsələnin qoyuluşunun nəzəri istiqamətini müəyyən edərək ümumiləşmiş elmi nəticələr çıxarmışdır.

Professor Məmmədhüseyn Təhmasib Azərbaycan folklorşünaslıq elmində dastan poetikasının yaradıcısı kimi qəbul olunur. Dastan poetikasının tədqiqindəki yüksək nəzəri səviyyəyə,

elmi sistemə və orijinal nəzəri qənaətlərinə görə o, Azərbaycan folklorşünaslığının Jirmunskisi hesab oluna bilər.

1. Dastan poetikasının əsasında ilk növbədə «dastan nə deməkdir» sualı dayanır. Bu, dastanşünaslığın əlifbası, daha doğrusu isə təməli deməkdir. Professor Məmmədhüseyn Təhmasib Azərbaycan foklorşünaslığında ilk dəfə olaraq dastanın şifahi xalq ədəbiyyatının əsas janrlarından biri kimi mahiyyətini açmış, düsturunu müəyyən etmişdir.

Məmmədhüseyn Təhmasib ilk növbədə dastan sözünün etimoloji mənalarını müəyyən etmişdir. Onun axtarışları əsasında dastanın boy, oğuznamə, bəzən hətta nağıl, hekayə, qissə və sair ifadələrlə adlandırıldığı müəyyən olunur. O, bu sözlərin hansı mənbədə dastan mənasında işlədildiyini göstərməklə, həm də dastan anlayışının sinonim kimi zənginliyinə diqqət yetirir.

Bununla belə, Məmmədhüseyn Təhmasib dastanın aşıq yaradıcılığının mühüm janrlarından biri kimi aşağıdakı əsas xüsusiyyətlərini də müəyyənləşdirmişdir: «Hər şeydən əvvəl qeyd edək ki, dastan şeirlə nəsrin növbələşməsi prinsipinə əsaslanır… Dastan həmişə olmuş əhvalat, baş vermiş hadisə, tarixi həqiqət kimi danışılır» (3, 58; 61).

Bunlardan ümumiləşmiş nəticə çıxararaq dastana aşağıdakı kimi tərif vermək olar: Aşıq ədəbiyyatının şeirlə nəsrin növbələşməsindən yaranan, olmuş əhvalat, baş vermiş hadisə kimi danışılan geniş həcmə malik bədii formasına dastan deyilir.

2. Azərbaycan dastanlarının növlərə ayrılması təliminin yaradıcısı professor Məmmədhüseyn Təhmasibdir. Bu, Azərbaycan dastanşünaslığında toplama dövrünün başa çatmasından sonrakı prosesin yeni başlanğıcıdır. Toplanmış dastan materiallarının elmi cəhətdən təsnif edilməsi, dastanların mövzusu və qəhrəmanlarına görə növlərə ayrılması Azərbaycanda nəzəri dastanşünaslıq mərhələsinin başlanması demək idi.

Məmmədhüseyn Təhmasib Azərbaycan dastanlarını mövzu etibarilə 3 növə ayırmışdır: 1. Qəhrəmanlıq dastanları; 2. Mə-

həbbət dastanları; 3. Ailə-əxlaq dastanları, astral dastanlar (3, 112).

Məmmədhüseyn Təhmasib təsnifatında dastanların hər növünün səciyyəvi xüsusiyyətləri müəyyən edilib açıqlanır.

3. Dastan janrının strukturu haqqında nəzəri təlim də Məmmədhüseyn Təhmasibə məxsusdur. Görkəmli folklorşünas alimin müşahidələrinə görə «aşıq tərəfindən ifa edilən hər bir dastan… üç hissədən: ustadnamə, dastan özü və duvaqqapmadan ibarət olur» (3, 112).

Məlum olduğu kimi, müxtəlif mənbələrdə ustadnamə «Azərbaycan şifahi xalq ədəbiyyatında işlədilən lirik şeir» (2, 212), «məhəbbət dastanlarının əvvəlində oxunan aforistik məzmunlu qoşmalar» (1, 99) kimi fərqli mövqelərdən qiymətləndirilmişdir. Fikrimizcə, Məmmədhüseyn Təhmasibin ustadnamə haqqındakı fikirləri bu janrın təyinatını konkretləşdirməyə əsas verir: «Aşığın əsas dastana başlamazdan əvvəl dediyi ustadnamə bir tərəfdən qədim ustadları nəsildən-nəsilə yaşatmaq, digər tərəfdən də ustadnamədə deyilmiş hikmətamiz aforizmləri, ağıllı məsləhətləri dinləyicilərə çatdırmaq, onları tərbiyə üçün nəcib məqsədlərə xidmət edir» (3, 62).

Deməli, ustadnamə aşıq ədəbiyyatının janrıdır. Haqlı olaraq Məmmədhüseyn Təhmasib ustadnaməni aşıq ədəbiyyatının nizamnaməsi adlandırır.

Dastanların finalını təşkil edən, epiloq xarakteri daşıyan duvaqqapmanın da xarakteri professor Məmmədhüseyn Təhmasib tərəfindən elmi cəhətdən dəqiq ifadə olunmuşdur: «Dastan qurtardıqdan sonra… bir aşıq müxəmməsi oxuyurlar ki, buna duvaqqapma deyilir. Duvaqqapmalar dastanla, süjetlə, təsvir edilən hadisə ilə heç bir əlaqəsi olmayan müxəmməs, müqəddəslərdən ibarət olur» (3, 63).

Professor Məmmədhüseyn Təhmasib duvaqqapmanın dastanın süjeti bitəndən sonra aşığın oxuduğu müxəmməs olduğunu göstərir.

Bundan başqa, Məmmədhüseyn Təhmasibin araşdırmalarında duvaqqapmaların mənşəyi və etimologiyası da nəzəri cəhətdən izah olunur: «Aydındır ki, bu istilah (duvaqqapma – İ.H.) toyla əlaqədardır.

Hər bir toydan sonra gəlinin duvağını qapmaq bir adətdir... Məhəbbət dastanlarının da əksəriyyəti aşiqlə məşuqənin bir-birinə çatması ilə bitdiyi üçün sonda deyilən şeirin adını «duvaqqapma» qoymuşlar. Qədim dastanlarımızdan olan Dədə Qorqud boylarında dastanın bu hissəsinə «yum» deyilmişdir» (3, 85).

Bunlar Azərbaycan dastan poetikası sisteminin müəyyən edilməsi üçün mühüm prinsiplərdir.

4. Azərbaycan dastanlarının milli özünəməxsusluğu haqqında da ilkin nəzəriyyəni Məmmədhüseyn Təhmasib yaratmışdır. «Azərbaycan xalq dastanları» monoqrafiyasında dastanlarımızın ana xətlərinin, əsas motivlərinin xalqımızın adət-ənənələri, milli varlığı, həyat tərzi, dünya baxışı ilə əlaqədar olduğu əsaslandırılır. Məmmədhüseyn Təhmasibinin fikrincə, «məhəbbət dastanlarımızın demək olar ki, hamısının, «Kitabi-Dədə Qorqud» və «Koroğlu» kimi qəhrəmanlıq dastanlarımızın da bir sıra boy və qollarının əsas məzmunu, yəni süjeti qəhrəmanın öz butasına çatmaq uğrunda apardığı mübarizənin təsvirindən «ibarətdir» (3, 67). Məmmədhüseyn Təhmasib bu fikirdədir ki, «Kitabi-Dədə Qorquddan görünür ki, hələ bu boyların yazıya alınmış olduqları əsrlərdə «buta», «nişan» və «nişanə» kimi sözlər eyni mənada işlənirmiş» (3, 67).

Professor Məmmədhüseyn Təhmasibin Azərbaycan dastanlarını nağıl süjetləri ilə əlaqəli izah etməsi də təsadüfi olmayıb, eposun xalqımızın milli mənşəyi ilə bağlı olduğunu isbat etməyə xidmət edir. Bundan başqa, Məmmədhüseyn Təhmasib epos qəhrəmanlarının xalqın içərisindən çıxmış və onun arzularını və ideallarını ifadə edən obrazlar olduğunu diqqət mərkəzinə çəkməklə də dastanlarımızın milli özünəməxsusluğunu elmi

fikrin diqqət mərkəzinə çəkmişdir. Hətta Azərbaycan dastanlarında Şərq motivləri, yaxud Qərb süjetləri ilə səsləşən obrazların da tam mənası ilə milli kökə bağlı olması Məmmədhüseyn Təhmasib tərəfindən elmi şəkildə əsaslandırılmışdır. Bu baxımdan onun «Kitabi-Dədə Qorqud» dastanlarındakı Təpəgöz obrazının «Min bir gecə» nağıllarındakı Azman obrazı, antik yunan şairi Homerin məşhur «Odisseya» əsərindəki Polifemlə müqayisəyə dair elmi-nəzəri mülahizələri həm obyektiv reallığı, həm də alimin aydın milli mövqeyini dolğun şəkildə əks etdirir: «Məlum olduğu üzrə «Min bir gecə»də bu süjet (Azmanın adam yeməsi motivi – İ.H.) Sindbadın üçüncü səyahətinin kiçik bir hissəsini təşkil edir… «Min bir gecə» Azmanının bir deyil, iki gözü vardır. Yəni o təkgözlü Təpəgöz deyildir» (3, 116).

Eyni tutarlı dəlillər Təpəgözlə Polifemin müqayisəsində də irəli sürülür: «Sindibadla Azman, eləcə də Odisseylə Polifem arasında heç bir qohumluq, yavuqluq, hətta tanışlıq belə yoxdur… Basatla Təpəgöz isə bir yerdə böyümüş, … bəlkə də bir ananın südünü əmmişlər… Polifemə nisbətən Təpəgöz daha rəzil, daha eybəcərdir. Oğuzun südü ilə, çörəyi ilə böyümüş bu nankor axırda ona bəla kəsilmişdir. Nə Sindibad Azmanı, nə də Odissey Polifemi öldürə bilmirlər, ancaq kor edir və qaçıb canlarını qurtarırlar. Basat isə bir el qəhrəmanı kimi Təpəgözlə vuruşur, məğlub edir, öldürür, xalqı onun şərindən qurtarır» (3, 117-118).

5. Azərbaycanda folklorşünaslıq üzrə yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasında professor Məmmədhüseyn Təhmasibin böyük xidmətləri olmuşdur. Son yarım əsrdən artıq dövrdə folklorşünaslıq elmi sahəsində hazırlanmış elmlər doktoru və fəlsəfə doktorlarının formalaşmasında Məmmədhüseyn Təhmasibin özü şəxsən: elmi rəhbər, məsləhətçi, rəsmi opponent, rəyçi və ya elmi redaktor kimi yaxından iştirak etmişdir. Məmmədhüseyn Təhmasibin adı ilə əlaqədar olan yüksək ixtisaslı mütəxəssislərdən böyük bir folklorşünaslıq institutu yarat-

maq mümkündür. Azərbaycan foklorşünaslığında Məmmədhüseyn Təhmasib qvardiyası yaratmaq olar. Bu o deməkdir ki, folklorşünaslıq elmində Məmmədhüseyn Təhmasib məktəbi nəinki mövcuddur, yaşayır və davam edir. Bu məktəb üçün toplama və tərtib ilə yanaşı elmi-nəzəri təhlil xüsusilə aparıcıdır. Professor Məmmədhüseyn Təhmasib nəzəriyyə tərəfi ağır gələn görkəmli folklorşünas alimdir. Azərbaycan dastanının poetikası probleminin elmi-nəzəri həlli professor Məmmədhüseyn Təhmasibin adı ilə bağlı olan Azərbaycan folklorşünaslıq məktəbinin mühüm nəticəsidir.

Məmmədhüseyn Təhmasibin dastan poetikası məktəbi dastanların bədii forma, janr xüsusiyyətlərinin ideya-məzmunla üzvü əlaqədə araşdırılıb öyrənilməsi hüdudlarını əhatə edir. Bu poetik sistem dastan haqqında: tam, bütöv, hərtərəfli, bitkin bilikləri elmi-nəzəri təlimi meydana qoyur.

Professor Məmmədhüseyn Təhmasib Azərbaycan elminin tarixində görkəmli eposşünas alim kimi fəxri yer tutur.

6. Azərbaycanın ali məktəblərində foklorşünaslıq üzrə ixtisas fənlərinin və seçmə fənlərin təşkil edilməsi, bu fənlərin proqramlarının hazırlanması və nəşri Məmmədhüseyn Təhmasibin böyük xidmətlərinin nəticəsidir. Bu sətirlərin müəllifi də 1970-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutu Naxçıvan filialında Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə III kursda təhsil alarkən görkəmli folklorşünas alim Məmmədhüseyn Təhmasibin «Azərbaycan folklorşünaslığı»na həsr olunmuş seçmə fənnində folklorşünaslıq elmi haqqındakı dərslərini dinləmişdir.

Dastanşünaslıqla yanaşı, Məmmədhüseyn Təhmasib Azərbaycan foklorşünaslığında ilk dəfə olaraq mövsüm və mərasim nəğmələrinin poetikasını da sistemli şəkildə öyrənmiş, bu sahədə mükəmməl elmi təlim yaratmışdır.

8. Professor Məmmədhüseyn Təhmasib elmdə olduğu kimi, həyatda da, müəllim kimi də çox ciddi və tələbkar idi.

Bütün ömrünü Azərbaycan dastanlarının araşdırılıb öyrənilməsinə həsr etmiş professor Məmmədhüseyn Təhmasibin böyük zəhmətlə geniş dünyagörüşün üzvü əlaqəsini, vəhdətini əks etdirən şəxsi həyatı da mənalı və ibrətamiz bir dastandır.

Görkəmli folklorşünas alim, tanınmış ictimai xadim, filologiya elmləri doktoru, professor Məmmədhüseyn Təhmasibin ədəbi-nəzəri görüşləri geniş mənada folklorşünaslıq elminin, xüsusən də Azərbaycan epos sənətinin bundan sonrakı dövrdə də inkişaf etməsinə gur işıq salır.

Professor Məmmədhüseyn Təhmasibin sanballı elmi-tədqiqat əsərləri müasir dövrdə folklorşünaslıq üçün etibarlı istinad mənbəyi və mötəbər bələdçidir.

## QAYNAQLAR


1. Elçin, Vilayət Quliyev. Özümüz və sözümüz. Bakı, "Azərnəşr", 1993
2. Əziz Mirəhmədov. Ədəbiyyatşünaslıq. Ensiklopedik lüğət. Bakı, "Azərbaycan ensiklopediyası", 1998
3. Məmmədhüseyn Təhmasib. Azərbaycan xalq dastanları (orta əsrlər). Bakı, "Elm", 1972
4. Teymur Əhmədov. Azərbaycan yazıçıları. Bakı, "Nurlar", 2011

# USTAD XOŞBƏXTLİYİ

**Kamal ABDULLA**
*Akademik, əməkdar elm xadimi,*
*Azərbaycan Dillər Universitetinin rektoru*

Biz bu gün Məmmədhüseyn Təhmasibin dünyasını dəyişdiyi günü yad ediriksə, insanların minnətdar yaddaşının hesabına bunu edirik. Sağlığında onun elə böyük mükafatları olmayıb. Amma bu gün onu xatırlayan hər bir insan onun ən böyük mükafatıdır. Mənə belə bir şərəf nəsib olubdur ki, gözümü açandan, uşaq yaşlarımdan bu insanla, onun böyük qardaşı Rza Təhmasiblə, eyni zamanda Əli Sultanlı ilə yaxın ünsiyyətdə olmuşam. Onlar mənim dayılarım idi. Mən Məmmədhüseyn Təhmasibin yaşadığı mühiti, onun ətrafında olan doğma, əziz adamları tanımışam. Çoxunuz bilirsiniz, onun həyat yoldaşı bizim görkəmli ədəbiyyatsevər, ədəbiyyat müəllimi Bilqeyis xanım Təhmasib idi. 132 nömrəli məktəbdə ədəbiyyat dərsi deyirdi. Onun tələbələri, şagirdləri bu gün də onu böyük bir ustad kimi xatırlayır. O iki insanın bir-biri ilə münasibətini görmək, doğrudan da, bir nağıl kimi idi. Bu münasibət isti, səmimi, dostluq üstündə qurulmuş bir sevgi tarixçəsi idi. Onlar mənə uşaq yaşlarımdan Füzulini, Dədə Qorqudu sevdirirdilər. 60-cı illərdə Bakıda qohumlar bir-birinin evinə tez-tez qonaq gedərdi. Bu, xüsusi bir mərasim idi. Bir gün bir dayıgildə, bir gün başqasıgildə yığışardıq. İçərişəhərdə yaşayırdılar, böyük qardaşı Rza Təhmasib də elə yaxınlıqda yaşayırdı. Bu görüşlərdəki söhbətlər,həqiqətən də, bir məktəb idi. Bu iki qardaşın bir-biri ilə münasibəti ona gətirib çıxartdı ki, "Onu bağışlamaq olarmı?" kimi möhtəşəm Azərbaycan filminin biri quruluşçu rejissoru oldu, o biri də ssenari müəllifi. Ofilm Azərbaycan ədəbiyyatına, mədəniyyətinə ilk dəfə günah hissini yaşamaq prinsipini gətirdi. Bilirsiniz ki, ədəbiyyatın canında, mayasında günah hissi durur. Bax o günah nədir? Biz

onu necə yaşamalıyıq? Biz bağışlamağa qadirikmi? Film bizim kino sənətinə və dediyim kimi, ədəbiyyatımıza məhz bu hisslərin bədii ifadəsini gətirdi.

Anam Məmmədhüseyn Təhmasibin uşaqlığından danışardı. Naxçıvanda babamgilin evi Hüseyn Cavidgilin evinin qonşuluğunda idi. Həyətdən həyətə həmişə açıq qapı vardı. Onların evlərinin qarşısından Bazarçayı axardı. Anam deyir, balaca uşaq idik, həyətə toplaşıb oynayırdıq. Bir dəfə Məmmədhüseyn mənə dedi ki, bəs mən səni çaya susuz aparıb, susuz gətirərəm. Anam deyir ki, ömründə ola bilməz, gələcəm əlimi atacam, çayın suyunu vuracam üzümə, lap istəsəm o sudan içəcəm də.Mərc gəlirlər və çaya gedirlər. Anam deyir, elə əlimi atıb çayın suyuna salmaq istəyirdimki, Məmmədhüseyn dedi, dayan, bəs şahidlər? Kim inanacaq ki, mən səni çaya gətirmişəm, suya əl vurmadan yenə geri qaytarmışam?! Gedək şahid gətirək. Təzədən anamı götürüb gətirib həyətə. Anam deyir, bir az keçdi, gördüm Məmmədhüseyn öz işindədir, məni unudub,uşaqlarla oynayır, söhbət edir. Soruşdum ki, bəs getmirik? Məmmədhüseyn deyir, hara? Dedim, bəs çaya getməyəcəkdik?! Dedi: getdik gəldik də.

Sonradan lətifələrə, məzhəkəli söhbətlərə dönən o cür əhvalatlar məzəli folklorumuzun əsasını təşkil etdi. “Kimisə çaya susuz aparıb susuz gətirmək” deyimini Təhmasib müəllim özündən uydurmamışdı,kimlərdənsəgötürmüşdü. Xalqın canında yaşayan bu müdrik, yarıkomik, yarıciddi əhvalatlar, əlbəttə ki, sonradan Təhmasib qələmində folklor aləminin canlı mənzərəsini verməyə yönəldi. Məmmədhüseyn Təhmasib nəzəriyyə ilə praktik bilgini birləşdirən böyük alim kimi tanındı.

Mənə o xoşbəxtlik də nəsib oldu ki, aspiranturadan sonra bir müddət Dilçilik İnstitutunda çalışdım və o zaman Ədəbiyyat İnstitutunda işləyən Təhmasib müəllimlə tez-tez görüşə bildim. O zaman da o mənə mənəvi himayədarlıq etməyə çalışırdı. Amma bir xasiyyəti var idi: mülayim olduğu qədər də cod idi. Yəni, sözündən dönməzliyi, inandığını axıra qədər sübut etməyi və

inandığının yanında durmağı bacaran bir şəxsiyyət idi. Onun atası, babası böyük nəslin nümayəndələriydilər. Təhmasiblər nəsli Naxçıvanda böyük bir nəsildir. Mülayimliklə qəribə codluğun bir yerdə olması nəsildən gələn bir xasiyyətidi. O da yadımdadır ki, balaca uşaq idim, bizə gələndə onun zəhləsini tökürdüm ki, "Bir qalanın sirri" filmində qalanın sirri nədir? Film hələ çəkilirdi, bitməmişdi.Haqqında söhbətlər gəzirdi. Axıracan demədi, nədir. Dedi, baxarsan, özün görərsən. Balaca uşaq idim, aldada bilərdi. Amma aldatmadı, dedi, sonra özün biləcəksən. Son dərəcə ziyalı və son dərəcə işıqlı bir adam idi.

Bu gün bu konfransın proqramında maraqlı və rəngarəng məruzələrin adlarına baxıram və düşünürəm ki, folklorşünaslığımız irəliyə doğru ciddi addımlar atır. Folklorşünaslıq elmimizin inkişafına Məmmədhüseyn Təhmasib öz sanballı əsərləri ilə bu gün də köməyini göstərir. Bu konfransdan həm də o aydın olur ki, folklorşünaslarımız Məmmədhüseyn Təhmasib üçün darıxıblar. Bu darıxmaq ustad üçün darıxmaqdır və bu darıxmaq ustad üçün yaradıcılıq xoşbəxtliyidir.

# MƏMMƏDHÜSEYN TƏHMASİB VƏ FOLKLORUMUZUN BƏZİ AĞRILI NÖQTƏLƏRİ

**Muxtar KAZIMOĞLU (İMANOV)**
*Akademik, AMEA Folklor İnstitutunun direktoru*
*mukhtarkazimoglu@gmail.com*

Məmmədhüseyn Təhmasibin bir folklorşünas kimi gücü-qüdrəti ağrılı nöqtələri dərindən duyub Azərbaycan folklorunun ən vacib məsələləri ilə dünya nəzəri fikri səviyyəsində məşğul olmaqda, az öyrənilmiş məsələlərin elmi həllinə öz möhürünü vurmaqdadır. Məmmədhüseyn Təhmasibin araşdırdığı və haqqında həlledici söz dediyi ağrılı nöqtələri sadalamaq istəsək, çox da uzağa getmədən ilk növbədə görkəmli alimin "folklor nədir?" sualı ətrafındakı mülahizələrini xatırlatmalı olarıq. Ona görə ki, folklor dedikdə yalnız xalq ədəbiyyatını başa düşən və bu ədəbiyyata da yazılı ədəbiyyat meyarları ilə yanaşan mütəxəssislərə tez-tez rast gəlmək olur. Bu gün folklor anlayışı birmənalı şəkildə başa düşülmürsə, folklor nümunəsinin araşdırılması öz metodologiyasına görə yazılı sənət nümunəsinin araşdırılmasından o qədər də fərqlənmirsə, onda Məmmədhüseyn Təhmasibin ciddi elmi fəaliyyətə başladığı 1930-cu illərin sonu, 40-cı illərin əvvəllərində folklora münasibətin daha acınacaqlı vəziyyətdə olduğunu təsəvvür etmək çətin deyil. Həmin illərdə dissertasiya mövzusu kimi götürüb üzərində işlədiyi "Xalq ədəbiyyatımızda mərasim və mövsüm nəğmələri" adlı elmi əsər Məmmədhüseyn Təhmasibin folklorşünas mövqeyi barədə çox söz deyir. Hər şeydən qabaq onu deyir ki, Məmmədhüseyn Təhmasib folklorun yalnız xalq ədəbiyyatı ilə məhdudlaşmadığını, şifahilik ənənəsi əsasında yaranan müxtəlif sənət sahələrini əhatə etdiyini ciddi şəkildə nəzərə alır; folklorun ilkin mahiyyətini və təməl prinsiplərindən birini mərasimlərlə bağlılıqda görür. Xatırlatdığımız ilk irihəcmli və ciddi elmi əsərində Məmmədhüseyn Təhmasib ayin və mərasimlərin bir qayda

olaraq folkloru sinkretik şəkildə ortaya çıxardığını, ayin və mərasimlərdə ən azı şairlik, bəstəkarlıq, müğənnilik, rəqqaslıq, aktyorluq kimi sənət sahələrinin vəhdətdə təzahür etdiyini xüsusi olaraq diqqətə çatdırır. Qədim cütçü nəğmələrindən, həmin nəğmələrin hansı şəraitdə və hansı şəkildə ifa edilməsindən bəhs edən folklorşünas yazır: "Burada söz, səs, musiqi və işin yaratdığı ahəngə uyğunlaşdırılan bədən hərəkətlərinin, yəni şairlik, musiqişünaslıq, müğənnilik və rəqsin ən ibtidai şəkillərinin möhkəm və mürəkkəb birliyi yaranmaqdadır" (1, 22). Mövsüm və mərasim nəğmələrini ayrıca mətn kimi götürüb onların bədii-poetik xüsusiyyətlərindən danışmaq Məmmədhüseyn Təhmasibin bir folklorşünas kimi maraq dairəsinə daxil deyil. Məmmədhüseyn Təhmasibi maraqlandıran əsas məsələ indinin özündə belə çoxlarının o qədər də əhəmiyyət vermədiyi, amma folklorun əlifbası olan bir məsələ – mətnin ifa konteksti məsələsidir. Mövsüm və mərasim nəğmələrinin öyrənilməsində bu kontekst mətnin bədii-poetik cəhətlərini yox, arxaik-mifoloji mahiyyətini üzə çıxaran bir kontekstdir. Sovet hökümətinin dini fanatizmə qarşı amansız mübarizə apardığı bir şəraitdə, neçə-neçə folklorşünasın təzəcə repressiyaya məruz qaldığı bir mühitdə mövsüm və mərasim nəğmələrinin ifa kontekstini araşdırmaq gənc bir tədqiqatçı üçün siyasi baxımdan heç də sərfəli yol deyildi. Ona görə ki, mövsüm və mərasim nəğmələrinin ifa kontekstini araşdırmaq falçılıqdan, ovsunçuluqdan, bir çox ayinlərdən danışmaq demək idi. Tədqiqat zamanı folklorun öz təbiətindən çıxış etməyə çalışan Məmmədhüseyn Təhmasib o vaxt onun üçün sərfəli olmayan yolla getməyə məcbur idi. O, mərasim folklorunun mahiyyətini dərindən duyan bir təfəkkür sahibi kimi məcbur idi göstərsin ki, falçılıq prosesindən danışmadan fal nəğmələri olan vəsfi-halların əsas funksiyasından danışmaq məntiqsizlikdir. Ovun uğurlu keçməsinə, qurdun ağzını bağlamağa, küləyin kəsməsinə, yağışın yağmasına, günün çıxmasına magik təsir göstərmək üçün oxunan nəğmələri ovsunçuluqdan təcrid olunmuş şəkildə öyrənmək Məmmədhüseyn Təhmasibə, yəqin ki, absurd

bir iş kimi görünürdü. Belə olmasaydı, Məmmədhüseyn Təhmasib təbiətə magik təsir göstərməyə yönəlmiş ayin və mərasimlərdən geniş bəhs etməz, bir sıra nəğmələri Günəşi dəvət, Qodu-qodu, Xıdır Nəbi, Kosa-kosa və s. kimi oyun-mərasimlər tərkibində araşdırmaya cəlb etməyi vacib bilməzdi. Araşdırma boyu ara-sıra əfsanə və rəvayətlərə, nağıl və dastanlara istinad edilməsi bir daha göstərir ki, Məmmədhüseyn Təhmasib mərasimlərə bağlılığı mövsüm və mərasim nəğmələri ilə məhdudlaşdırmır və bu bağlılığı folklorun digər janırlarına da aid olan bir prinsip kimi görünür.

Şifahi xalq ədəbiyyatının, bütövlükdə folklorun yazılı və professional sənətdən fərqini doğru-düzgün başa düşməkdə ifa prosesini nəzərə almağın nə qədər vacib olduğunu diqqətə çatdırmaq istəyən Məmmədhüseyn Təhmasib yazır: "Xalq ədəbiyyatı ifaçısı ifadə etdiyi hər bir əsəri öz anladığı, öz istədiyi şəklə salır. Hətta eyni əsər eyni məclisdə iki ifaçının ifasında tamamilə başqa-başqa şəkillərə düşə bilər. Bu isə hər bir ifaçının özünəməxsus olan yaradıcılığı deməkdir. Müşahidələr sübut etmişdir ki, eyni nağıl bir peşəkar nağılçının ifasında daha çox qəhrəmanlıq xüsusiyyətləri kəsb etdiyi halda, bir başqasının ifasında tərbiyəvi mahiyyət alaraq didaktik bir əsər halına düşə bilər. Hətta... eyni əsər öz dinləyicilərinin tərkibinə görə bir-birindən tamamilə fərqli şəkillərdə ifa edilir. Beləliklə, tamamilə mübaliğəsiz demək olar ki, yazılı ədəbiyyatdan fərqli olaraq, xalq ədəbiyyatına aid olan hər bir əsərin ifaçısı eyni zamanda həm də ifa etdiyi əsərin müəyyən dərəcədə... yaradıcısıdır" (1, 20). Folklor nümunəsinin ifasını "yenidən yaratma prosesi" sayan Məmmədhüseyn Təhmasib bu prosesdə ifaçı marağını və dinləyici tələbini mühüm amillər kimi diqqətə çatdırır. Bu o deməkdir ki, məzmununda mərasim elementləri olsa da, mərasimin tərkibində yox, mərasimdən kənarda ifa olunan əfsanə, rəvayət, nağıl, dastan, lətifə və s. kimi janrlarin ifa prosesi söyləyici və dinləyici münasibəti üzərində qurulur. Bu janrlar içərisində özünün yaranma yoluna görə ən mübahisəli olanı dastan janrıdır. Çünki bu janrın mənsub olduğu və aparıcı yer

tutduğu aşıq yaradıcılığının özü bütövlükdə mübahisə doğuran bir sahədir və həmin mübahisə açıq və ya örtülü şəkildə bu gün də davam edir. Mübahisənin kökü aşıq yaradıcılığı nümunələrinin bir çoxunda, xüsusən möhürbəndlə bitən gəraylı, qoşma, təcnis, divani, müxəmməs və s. kimi şeir janrlarında müəllifin bəlli olmasında və bu cəhətdən aşıq yaradıcılığının yazılı ədəbiyyata yaxınlaşmasındadır. "Azərbaycan xalq dastanları (orta əsrlər)" adlı fundamental əsərində Məmmədhüseyn Təhmasib aşıq yaradıcılığındakı müəlliflik məsələsini bir az da qabardır və bu müəllifliyi nəinki aşıq şeirlərində, həm də dastanlarda axtarır, məşhur dastanlarımızdan hər birini hansısa ustad sənətkarın yaratmasını tədqiqat boyu xüsusi bir ideya kimi irəli sürür. Məmmədhüseyn Təhmasib belə hesab edir ki, "Dədə Qorqud" dastanının təməlini Dədə Qorqud adlı bir ozan, "Koroğlu"nun təməlini "Koroğlu" adlı bir şair, "Əsli-Kərəm", "Qurbani", "Abbas-Gülgəz" dastanlarının təməlini Dədə Kərəm, Qurbani, Aşıq Abbas Tufarqanlı kimi ustad aşıqlar qoyublar. Məsələnin bu cür qoyuluşu, yəni aşıq yaradıcılığında müəllif məsələsinin bu şəkildə qabardılması Məmmədhüseyn Təhmasibi heç də "aşıq yaradıcılığı şifahi ədəbiyyatdan daha çox yazılı ədəbiyyata bağlıdır" qənaətinə gətirib çıxarmır. Niyə? Ona görə ki, Məmmədhüseyn Təhmasib folklor nümunəsinin yaranma və yaşama mexanizmini çox gözəl bilir. Məmmədhüseyn Təhmasib çox gözəl bilir ki, folklor nümunəsi nə göydən düşür, nə yerdən çıxır, folklor nümunəsini hazır qəliblər əsasında ayrı-ayrı fərdlər yaradır, hamıya tanış və doğma bir tərzdə ərsəyə gələn nümunə dərhal kütlə içinə yol tapıb, hamının ortaq sərvətinə çevrilir. Məmmədhüseyn Təhmasibin qəti qənaitinə görə, müəllifin bir çox hallarda bəlli olması aşıq yaradıcılığını şifahi ədəbiyyat mahiyyətindən uzaqlaşdıra bilmir. Aşıq yaradıcılığında şifahi ədəbiyyat ənənəsinin qorunub saxlanmasının səbəbini Məmmədhüseyn Təhmasib belə izah edir: "Aşıq yaradıcılığına mənsub hər bir kiçik, yaxud böyük əsər xüsusi mənada məlum, bəlli tək "müəllif"ə malik əsər olsa da, eyni zamanda həm də kollektiv yaradıcı-

lıq məhsuludur. Bunun... müxtəlif səbəbləri var ki, ən əsasları aşağıdakılardır: 1. Hər bir aşıq öz əsərini yaradarkən özündən qabaq yaşayıb-yaratmışların kollektiv yaradıcılıq məhsuluna çevrilmiş irsindən əzəmi dərəcədə faydalanır. Bu zəngin xəzinənin bəzən hətta hazır sujetlərindən, təsvir vasitələrindən, üslub xüsusiyyətlərindən, hazır spesifik ifadələrindən... və s. istifadə edir. 2. Yaradılan hər bir əsər ağızlara düşür, ustad və yaxşı peşəkar aşıqların ifasında dəyişir, işlənir, cilalanır, mükəmmələşir. Sözün həqiqi mənasında bir fərdin əsəri olmaqdan daha çox kollektiv yaradıcılıq məhsuluna çevrilir. Bütün bunlara görə də bizdə aşıq yaradıcılığı folklorun özünəməxsus spesefik xüsusiyyətlərə malik bir qolu, bir sahəsi adlandırılır" (2, 52). Deməli, hansısa müəllif tərəfindən yaradılması aşıq ədəbiyyatı nümunəsinin dəyişib, cilalanıb kollektiv yaradıcılıq məhsuluna çevrilməsinə mane ola bilmir. Hazır ifadə formalarından istifadə olunan aşıq ədəbiyyatı nümunəsində fərdi uslubdan danışmaq xeyli dərəcədə çətinləşir. Tamamilə haqlı olaraq Məmmədhüseyn Təhmasib dastan yaradıcılığında aşığın fərdi üslubundan danışan tədqiqatçılara öz etirazını bildirir. Ustad aşıqların şeirləri əsasında sonradan başqa aşıqların dastan yaratması və həmin dastanın yurd hissəsində dastan müəllifinin, şeirlərində isə ustad aşığın üslubunun özünü göstərməsi ilə bağlı fikirlərə etiraz edən Məmmədhüseyn Təhmasib yazır: "Yaranan kimi elə o şəkildə yazıya alınmayan dastanların heç birinin yurd hissəsində heç bir vəchlə "müəllif" üslubu yaşaya bilməz. Dastanın yurd hissəsinin üslubu, onu yaradan müəllifdən daha çox hər dəfə onu ifa edən aşığın təhkiyə üslubudur. Belə olmasaydı, dastanların ayrı-ayrı variantları, versiyaları əmələ gəlməzdi" (2, 19). Əlbəttə, burada Məmmədhüseyn Təhmasib dastan ifaçısının "təhkiyə üslubu" ifadəsini şərti olaraq işlədir və bununla şifahi yaratma və yaşatma ənənəsinin başqa bir vacib məsələsini vurğulamaq istəyir. Görkəmli folklorşünasın bu məqamda vurğulamaq istədiyi məsələ variant və versiya məsələsidir. Variant və versiya məsələsi ortaya çıxanda istər-istəməz düşünməli və öz-

özünə sual verməli olursan: Ədəbiyyat fənninə az-çox maraq göstərən orta məktəb şagirdinin də əzbər bildiyi bu məsələyə lazımi şəkildə fikir veririkmi, folklor toplularının tərtib və nəşr olunmasında, folklor nümunələrinin araşdırılmasında çoxvariantlılıq əsaslı olaraq nəzərə alınırmı? Suala müsbət cavab verə bilmiriksə, deməli, variant və versiya da folklorumuzun ağrılı yerlərindən biri sayıla bilər. Variant və versiya məsələsinə Məmmədhüseyn Təhmasibin münasibətinə gəlincə, tərəddüdsüz-filansız deyə bilərik ki, araşdırmalarında həmin məsələnin əsaslı şəkildə nəzərə alınması baxımından da Məmmədhüseyn Təhmasib ustad folklorşünasdır. "Azərbaycan xalq dastanları (orta əsrlər)" monoqrafiyasında ustad folklorşünasın tədqiqata cəlb etdiyi variant və versiyaların miqyası kifayət qədər genişdir. Bu genişlik barədə aydın təsəvvür yaransın deyə bir-iki faktı xatırladaq: monoqrafiyada "Abbas-Gülgəz" dasta-nının 7, "Qurbani" və "Şah İsmayıl-Gülzar" dastanlarından hər birinin 10, "Tahir-Zöhrə" dastanının 20 variantı araşdırmaya cəlb edilir. Variantlar, həmçinin versiyalar əsasında aparılan müqayisə dastanların yaranma mənbələrini, dastanlarda tarixi hadisələrin əks olunma dərəcəsini, dastanların kim tərəfindən yaranmasını üzə çıxarmağa, bir çox başqa məsələləri aydınlaşdırmağa yaxından kömək edir.

Dastanlarımızın qidalandığı mühüm mənbələrdən biri "Dədə Qorqud" boylarıdır. "Basat", "Səgrək" və "Bamsı Beyrək" boyları əsasında neçə-neçə dastanın yaranmasını çoxlu nəşr və arxiv materialları əsasında araşdıran Məmmədhüseyn Təhmasib "ər arvadın toyunda" beynəlxalq sujetinin dəyişib "adaxlı adaxlının toyunda" formasına düşməsi və "Bamsı Beyrək", "Aşıq Qərib" dastanlarında məhz o şəkildə öz əksini tapmasından söhbət açır. Görkəmli folklorşünas təkzibolunmaz dəlillər gətirib "Aşıq Qərib"in "Bamsı Beyrək" təsiri altında yaranmasını sübuta yetirməklə kifayətlənmir və öz təhlillərində daha dərin qatlara enməyə təşəbbüs göstərir. O, "Bamsı Beyrək" boyundakı "Parasarın Bayburd hasarından pırlayıb uçan" təyininə əsaslanıb belə hesab edir ki, "boyun istifadə et-

miş olduğu daha qədim, daha arxaik variant-məxəzdə Beyrək nə kafir qızının köməyi ilə zindandan xilas olurmuş, nə də öz atını tapıb, ona minib düşmən əlindən qurtarırmış. O, "Parasarın Bayburd hasarından pırlayaraq" uçub gəlirmiş. Yəqin yazıya köçürən son dastançı, yaxud katib bunu "cahiliyyət dövrü"ndən qalma ağlabatmaz "əfsanə" sayaraq dəyişmiş, "kafir qızı" ilə, sonra da atla əvəz etmişdir" (2,217). Uçmaqla bağlı arxaik ünsürün təsdiqini Məmmədhüseyn Təhmasib "Aşıq Qərib"də tapır. Görkəmli folklorşünas belə hesab edir ki, həmin arxaik ünsür "Aşıq Qərib"ə də keçib və dastanın Soltana Məmmədova adlı söyləyicidən yazıya alınmış bir variantında Qərib Tiflisə atla yox, qanadla uçaraq gəlir. Məmmədhüseyn Təhmasib uçmaqla bağlı arxaik elementin daha bir tutarlı dəlilini dastanın başqa variantlarındakı qoşmalarda görür:

Hələbdə xəbəri verdilər bizə,
Günorta zamanı mən çıxdım düzə.
Mədəd deyib, gəlib çıxdım Tiflisə,
Mövlam qanad verdi, uçdum da gəldim (3, 102).

Azərbaycan dastanlarının variant və versiyalarını ciddi şəkildə nəzərə alan, 1938-1965-ci illər arasında 100-dən çox dastan toplamaqla bu sahədə faktik materiala dərindən bələd olan, istifadə etdiyi toplama, nəşr və arxiv materiallarını dünya nəzəri fikri səviyyəsində dəyərləndirməyi bacaran Məmmədhüseyn Təhmasib dastanların janr təsnifatını verməklə folklor elmimizdəki boşluqlardan birini doldurmuş olur. Məmmədhüseyn Təhmasibə qədər folklorşünaslıqda dastanların təsnifi təcrübəsi ilə, təbii ki, qarşılaşırıq və bu təcrübədə dastanların yaranma dövrü, dastanların qidalandığı mənbə və dastanların ifadə etdiyi məzmun əsas prinsiplər kimi götürülür, təsnifat həmin prinsiplərə nəzərən aparılır. Məsələn, V.Proppun təsnifatında dastanların meydana çıxdığı ictimai formasiyalar əsas götürülürsə, V.Jirmunski və H.Zərifovun təsnifatında dastanların məzmunu və mənbəyi əsas götürülür. V.Jirmunski və H.Zərifov özbək dastanlarını belə təsnif edirlər: 1. Bahadarlıq eposu; 2. əsgəri-hərbi povest; 3. tarixi məzmunlu dastan-

lar; 4. roman-dastanlar; 5. "Koroğlu" silsiləsi; 6. mənşəyini yazılı ədəbiyyatdan götürən dastanlar. Azərbaycan ədəbiyyatşünaslığında Məmmədhüseyn Təhmasibə qədərki dastan təsnifatından danışsaq, ilk növbədə, Həmid Araslı və Feyzulla Qasımzadənin adını çəkməliyik. Qeyd etməliyik ki, bu ədəbiyyatşünaslar əlavə bölgülərə çox da yer vermədən qəhrəmanlıq dastanları və məhəbbət dastanları bölgüsü üzərində dayanırlar. Məmmədhüseyn Təhmasib özündən əvvəlki təsnifatları nəzərə almaqla, əldə olan 150-ə yaxın irili-xırdalı dastan nümunəsinə əsaslanaraq, Azərbaycan dastanlarının dolğun təsnifatını verir. Dolğunluğun birinci göstəricisi ondan ibarətdir ki, Məmmədhüseyn Təhmasib qəhrəmanlıq və məhəbbət dastanları ilə yanaşı, dastanlarımızın başqa bir növünün də olduğunu aşkara çıxarır: ailə-əxlaq dastanları. Təsnifatda dolğunluğun ikinci mühüm göstəricisi isə odur ki, görkəmli folklorşünas qəhrəmanlıq və məhəbbət dastanlarının heç də yekcins olmadığını, daxilən neçə-neçə növə ayrıldığını inandırıcı şəkildə ortaya qoya bilir. Məmmədhüseyn Təhmasib təsnifatında qəhrəmanlıq dastanları üç daxili növə ayrılır: 1. qədim bahadırlıq nağılları, sehrli nağıllar və əsatiri görüşlərlə səsləşən qəhrəmanlıq dastanları; 2. tarixi hadisələrlə səsləşən qəhrəmanlıq dastanları; 3. adi qəhrəmanlıq dastanları. Məmmədhüseyn Təhmasib təsnifatında qəhrəmanlıq dastanları kimi, məhəbbət dastanları da üç daxili növə ayrılır; 1. məhəbbətlə qəhrəmanlıq hüdudlarında dayanan dastanlar; 2. əsil məhəbbət dastanları; 3. məcazi məhəbbətə həsr edilmiş dastanlar. Məhəbbət dastanlarının, məzmunca rəngarəngliyi və müxtəlifliyi Məmmədhüseyn Təhmasibi bu dastanlarla bağlı əlavə bir daxili bölgü aparmağa vadar edir. O, əsil məhəbbət dastanlarının dörd, məcazi məhəbbət dastanlarının isə iki növünü müəyyənləşdirməli olur. Görkəmli folklorşünasın nəzərində əsl məhəbbət dastanlarının növləri bunlardır: 1. Nağıllarla bağlı məhəbbət dastanları; 2. qədim eposla bağlı məhəbbət dastanları; 3. yazılı ədəbiyyatla bağlı məhəbbət dastanları; 4. Orijinal məhəbbət dastanları. Görkəmli folklorşünasın nəzərində məcazi məhəbbətə həsr edilmiş dastanla-

rın isə növləri bunlardır: 1. astral dastanlar; 2. rəmzi dastanlar (2, 112).

Faktik və nəzəri materialı incələyib dərin ümumiləşdirmələr aparmağın məhsulu olan bu təsnifatın təfsilatına varmadan Məmmədhüseyn Təhmasibin tarixi bir qənaətini – qəhrəmanlıq və məhəbbət dastanlarının yaranma şəraiti və dastanlarımızın bu iki növünün qarşılıqlı əlaqəsi ilə bağlı mühüm bir mülahizəsini xatırlatmaq istəyirik. Həmin qənaət və mülahizənin nədən ibarət olduğunu xatırlatmazdan qabaq qeyd etməyi vacib bilirik ki, qəhrəmanlıq və məhəbbət dastanlarının qarşılıqlı əlaqəsi ozan sənəti ilə aşıq sənətinin qarşılıqlı əlaqəsi deməkdir. Ona görə ki, məhəbbət dastanları XVI-XVII əsrlərdən etibarən ozan sənətinin yox, aşıq sənətinin məhsulu kimi meydana çıxır. Niyə belə olur? Necə olur ki, ozan sənətinin əsas göstəricisi olan bahadırlıq dastanları öz yerini məhəbbət dastanlarına verir? Hansı səbəbdən məhəbbət dastanları say etibarilə qəhrəmanlıq dastanlarını üstələməyə başlayır? Ozan sənətinin sirləri bu gün belə tam açılmayıbsa, bu sənətin özünəməxsus sistemi hələ də bizə qaranlıqdırsa, onda yuxarıda xatırlatdığımız suallara cavab verməyin nə qədər əhəmiyyətli olmasını aydınlaşdırmağa ehtiyac yoxdır. Aydın məsələdir ki, "aşıq" sözünü daha çox "eşq" sözü ilə əlaqələndirən Məmmədhüseyn Təhmasibin monoqrafiyada aşıq sənətinin mənşəyi və mahiyyəti ilə bağlı fikirləri ozan sənətinin də qaranlıq nöqtələrinə müəyyən qədər işıq salır. Məmmədhüseyn Təhmasib yazır: "Həsənoğlunun doğma dildə yazılmış şeirlərindən başlayaraq təriqət ədəbiyyatını yayan saysız-hesabsız mürşid və müridlərin hər gün, hər meydanda, hər məclisdə, hər yığıncaqda oxuduqları nəfəslərdə – "haqq", "haqq aşiqi" təbirlərini eşidə-eşidə gələn ozanlar dünyasında, bu doğma sənətkarlar aləmində də istər-istəməz sarsıntılar başlamalı, təlatümlər yaranmalı idi. Bu, belə də olmuşdu. Əsrlərdən bəri söylənən alplıq – qəhrəmanlıq "boy"larının əzəmətli bünövrəsi çatlamış, bu sənətin ürəyinə yeni ruhlu eşq qığılcımları, yeni mənalı məhəbbət qorları keçməyə başlamışdı. Bu

qorları közərdən Nəsiminin nəfəsindən gələn nəsim olmuşsa, Xətai ondan qığılcımlar qoparıb xətasız nişançı kimi tam hədəfə vurmuş, Füzuli fəziləti, Füzuli qüdrəti, Füzuli eşqi isə onu alovlandırıb yandırmış, aşığın ozana qalib gəlməsi üçün şərait yaratmşdı" (2, 44). Alimlik zəkası ilə yanaşı, yazıçılıq təxəyyülünə də sahib olan Məmmədhüseyn Təhmasibin obrazlı deyim tərzi ilə süslənmiş bu mülahizələrində təriqət ədəbiyyatının geniş miqyas alması ozan-aşıq qarşılaşmasının və ozan-aşıq əvəzlənməsinin başlıca səbəbi kimi nişan verilir. Bu tarixi qənaət ozan-aşıq qarşılıqlı əlaqələrindən bəhs edən sonrakı tədqiqatlar və tədqiqatçılar üçün mühüm elmi mənbəyə çevrilir. Bu, öz yerində. Amma Məmmədhüseyn Təhmasib sadəcə mülahizə irəli sürməklə vəzifəsini bitmiş saymır və aşıq yaradıcılığının təriqətlə, sufizm-panteizmlə bağlı tərəflərini araşdırmağa təşəbbüs göstərir. Bu araşdırmada əsas hədəf Qurbani irsi və məcazi məhəbbət dastanları olur. Folklorşünas-alim Qurbanini sufizmə bağlı olan ustad aşıq sayır, onun şeirlərində və "Qurbani" adlı üç versiyadan ibarət dastanda sufizmin əlamətlərni görür və bu dastanın başdan-başa rəmzi vüsalın, namümkün məhəbbətin vəsfinə həsr olunmuş bir əsər kimi yaranması, amma sonradan dəyişikliyə uğrayıb nikbin xalq dastanına çevrilməsi ehtimalını irəli sürür: "Qurbaninin özü tərəfindən yazılmış dastan, bizcə, daha çox məcazi, rəmzi bir əsərmiş. Bu gün əsər tam şəkildə əldə yoxdur... Aşıqlar və onların auditoriyasından ibarət olan geniş xalq kütləsi bu əsəri qavraya, həzm edə bilməmiş, gündən-günə, ildən-ilə onu öz ifalarında sadələşdirmiş, reallaşdırmış, yeni əlavələr, ünsürlər, epizodlarla "əsaslandırmağa" çalışmış, nəhayət, gətirib bir-birindən bu dərəcədə fərqli versiyalar şəklinə salmışdır. Xalqın, onun yaradan, düzən, qoşan dəstəsinin kollektiv yaradıcılıq qüdrəti də burada özünü göstərir. O, məcazi bir əsəri öz süzgəcindən keçirə-keçirə, öz darağı ilə daraya-daraya, öz rəndəsi ilə yona-yona gətirib Gəncə, yaxud Zəngan versiyası kimi nikbin bir xalq dastanı dərəcəsinə qaldırmışdır" (2, 370-371). Məmmədhüseyn Təhmasib rəmzi məhəbbət dastanları

bölgüsünə daha çox “Qurbani”ni daxil etsə də, istər “Tahir-Zöhrə” kimi astral dastanlarda, istərsə də nağıllara, qədim eposa, yazılı ədəbiyyata bağlı məhəbbət dastanlarında eşqin ilahi mənşə ilə əlaqələndirilməsini səciyyəvi bir xətt kimi diqqətə çatdırır və buta məsələsi üzərində ətraflı dayanmağı vacib sayır. Nurani dərviş, Xızır və yaxud Həzrət Əli dastan qəhrəmanına nur badəsi içirir və hansısa uzaq bir şəhərdə yaşayan gözəl bir qızı qismət kimi ona nişan verir. Dastan qəhrəmanı nur badəsini içməklə haqq aşığına, gözəl qızı görüb ona vurulmaqla haqq aşiqinə çevrilir. Qeyri-adi qüvvələrin kəraməti hesabına baş tutan bu cür butavermə əhvalatının məhəbbət dastanlarında təsvir edilməsinin mühüm səbəblərindən birini Məmmədhüseyn Təhmasib baş qəhrəmanların, xüsusən də məşuqənin öz davranışında sərbəstlik qazana bilməsi ilə əlaqələndirir: “Diqqət edilsə, dastanlarımızda buta (məşuqə – M.K.) yaşadığı mühitə, tabe olduğu cəmiyyət qaydalarına, hökmran din-əxlaq normalarına, ən hüquqsuz, ən müti, ən məzlum üzvü olduğu islam zehniyyətli partiarxal cəmiyyətin amansızlığına baxmayaraq, həddindən artıq sərbəst, müstəqil, hətta bir dərəcəyə qədər açıq-saçıqdır... Şəriətə görə naməhrəmlə görüşmək, danışmaq günah və yasaq olsa da, bu qızlar hətta oğlanı görən kimi “yıxılıb özündən gedir”, ayıldıqdan sonra da görüşüb, qucaqlaşıb, öpüşüb, “eyş-işrətə” başlayırlar... İslamiyyətlə, onun qadına münasibəti ilə daban-dabana zidd olan bu sərbəstlik nə ilə əlaqədardır? Bizcə, bu... Əlinin vermiş olduğu icazə, buta, badə ilə bağlıdır... Ətrafdakı hökmran qüvvələrin mənfi münasibətinə baxmayaraq, bu qəhrəmanların özlərini kəbinli ər-arvad kimi aparmalarının səbəbi həmin bu icazədə, bu intixabdadır” (2, 95-96). Düzdür, müəyyən qədər sərbəstliyi “Dədə Qorqud” və “Koroğlu” dastanlarında – Əlidən “icazə”si olmayan qızlarda da görürük, amma Məmmədhüseyn Təhmasibin bir az əvvəl misal çəkdiyimiz fikirlərində həqiqətin ifadə olunması da şəksiz-şübhəsizdir. Doğrudan da, məhəbbətin ilahi mənşəyə bağlanması sənətkarın məclisdə eşq macəraları üstündə saatlarla dastan danışması-

na geniş meydan açır. Onlarla məhəbbət dastanının əldə olmasını nəzərə alsaq, eşq macəraları ilə bağlı süjetlərin nə qədər müxtəliflik və rəngarənglik yaratmasını təsəvvür etmək çətinlik törətməz. Çətinlik bu müxtəliflik və rəngarənglikdə üst-üstə düşən, oxşarlıq yaradan məqamları aşkara çıxarmaqda, süjet xəttinin, bütün məhəbbət dastanları üçün səciyyəvi olan mərhələlərini müəyyənləşdirməkdədir. Məmmədhüseyn Təhmasib belə bir çətinliyin öhdəsindən yüksək səviyyədə gəlir və dastan poetikasının öyrənilməsi üçün vacib olan bir iş görür. Görkəmli folklorşünas belə hesab edir ki, məhəbbət dastanlarımızın hamısında, "Dədə Qorqud" və "Koroğlu" kimi qəhrəmanlıq dastanlarımızın da bir sıra boy və qollarında əsas məzmun qəhrəmanın öz sevgilisi uğrunda mübarizə aparmasının təsvirindən ibarətdir. Belə bir mübari-zədən bəhs edən süjet dörd mərhələyə bölünür: 1. qəhrəmanın anadan olması və ilk təlim-tərbiyəsi; 2. aşiq və məşuqənin buta almaları; 3. qabağa çıxan maneələr və onlara qarşı mübarizə; 4. müsabiqə və qələbə (2, 65). Aydınlıq naminə qeyd edək ki, bu bölgüdə "buta almaq" məsələsini Məmmədhüseyn Təhmasib geniş mənada – dastanın qız qəhrəmanının ortaya çıxması mənasında işlədir və bu hesaba bəzi başqa dastanlarla bir sırada "Dədə Qorqud" və "Koroğlu"nun məhəbbət motivli boy və qollarından da danışmaq imkanı qazanır. Bölgüdə müəllif "qabağa çıxan maneələr və onlara qarşı mübarizə"ni süjet xəttinin əsas hissəsi sayır və bu hissənin özünü də üç mərhələyə ayırır: 1. qəhrəmanın hələ öz vətənində rastlaşdığı maneələr; 2. yol; 3. butanın vətəninə çatdıqdan sonrakı macəralar (2, 76). Müəllif bütün bu bölgülər əsasında məhəbbət dastanlarına məxsus süjet poetikasını ortaya qoyur. Nağıllarla, eposla, yazılı ədəbiyyatla bağlı olan; orijinallığı ilə seçilən; astral və rəmzi məzmun daşıyan məhəbbət dastanlarından ayrı-ayrılıqda, həmçinin bir-biri ilə müqayisəli şəkildə bəhs edərək Məmmədhüseyn Təhmasib məhəbbət dastanlarının bütövlükdə poetik sistemini işləyib meydana çıxarır.

Məmmədhüseyn Təhmasibin məhəbbət dastanları ilə bağlı araşdırmalarından aydın olur ki, sufi-panteist ədəbiyyatın aşıq ədəbiyyatına təsiri özünün qabarıq ifadəsini məhz məhəbbət dastanlarında tapır. Ozan-aşıq qarşılaşmasında aşığın tədricən öz nüfuzunu artırıb dastan yaradıcılığı və ifaçılığının aparıcı fiquruna çevrilməsində məhəbbət dastanları mühüm göstəriciyə çevrilir. Bəs aşıq sənətinin get-gedə güclənməsi müqabilində ozan sənətinin taleyi necə olur? Ozan ənənəsi bu qarşılaşmaya tab gətirməyib sıradan çıxırmı? Əlbəttə, yox. Ozanın alplıq-bahadırlıq dastanı qoşmaq ənənəsi sıradan çıxmış olsaydı, "Koroğlu" kimi nəhəng epos yaranmaz və Məmmədhüseyn Təhmasib də dastanlara həsr etdiyi monoqrafiyada bu eposun təhlilinə geniş yer verməzdi. Məmmədhüseyn Təhmasibin monoqrafiyada aşıq sənətinin məhsulu kimi bəhs etdiyi "Koroğlu" alplıq-bahadırlıq ənənəsini başqa bir yerdən yox, ozan sənətinin məhsulu olan "Dədə Qorqud"dan götürür. Deməli, ozan ənənəsi aşığın ifasında yaşamaqda davam edir. Alplıq-bahadırlıq "Koroğlu"da o dərəcədə özünə möhkəm yer tutur ki, bəzi qolların məhəbbət motivi üstündə qurulması həmin qolları qəhrəmanlıq dastanı olmaqdan qətiyyən uzaqlaşdırmır. Bu cəhət də başqa bir yerdən yox, "Dədə Qorqud"dakı məhəbbət motivli boylardan gəlir. "Dədə Qorqud" boyları və "Koroğlu" qollarında bahadırlığın yerini doğru-düzgün müəyyənləşdirmək üçün Məmmədhüseyn Təhmasib məhəbbət dastanları ilə müqayisələr aparmağı lazım bilir: məhəbbət dastanlarının çoxunda qəhrəmanın butadan əvvəlki bacarığı ilə butadan sonrakı bacarığı arasında böyük fərq olur. Butaya qədərki Qurbani yer şumlamağı bacarmır, əmisindən borc aldığı öküzlərin birini canavara yedirdir, o birini palçığa batırır. Butaya qədərki Abbas oxuyub-yazmaqda məktəb yoldaşlarının hamısından geri qalır. Qərib isə atadanqalma mal-dövlətin qısa vaxtda axırına çıxıb qəpiyə möhtac vəziyyətə düşür. Buta veriləndən sonra haqq aşığına və haqq aşiqinə çevrilən bu qəhrəmanlar şəriətdən, təriqətdən, mərifətdən, həqiqətdən xəbər verir, böyük və

yenilməz qüdrət sahibinə çevrilirlər. Butadan əvvəlki fərasətsizliklə kəskin təzadın yaradılması butadan sonrakı qüdrəti daha qabarıq göstərməyə xidmət edir. "Dədə Qorqud" və "Koroğlu" dastanlarında, o cümlədən bu dastanların məhəbbət motivli boy və qollarında bu cür təzada rast gəlmirik. Beyrək Banuçiçəklə görüşənə qədər bazirganları qarətçilərin əlindən qurtarmaqla öz igidliyini artıq sübuta yetirmiş olur. Dəmirçioğlu Telli xanımın dalınca getməmişdən xeyli qabaq adlı-sanlı Koroğlu dəlisi kimi tanına bilir. İstər "Dədə Qorqud" boylarında, istərsə də "Koroğlu" qollarında qız arxasınca getmək baş qəhrəmanın bahadırlığını bir daha nümayiş etdirmək məqsədi daşıyır (2, 73-76).

Məmmədhüseyn Təhmasibin yığcam şəkildə xatırlatdığımız bu mülahizələri qəhrəmanlıq dastanlarına yanaşmada başlanğıc nöqtəsinə çevrilir. Aydın olur ki, qəhrəmanlıq dastanlarında yalnız məhəbbət yox, bütün digər motiv və süjetlər, bütün ünsür və elementlər bahadırlığın qabarıq ifadəsinə xidmət edir. Belə elementlər sırasına, heç şübhəsiz, mifoloji mahiyyət daşıyanlar da daxildir. Məhəbbət dastanlarına ozan epik ənənəsi əsasında yanaşıb butanı mifoloji baxımdan qəhrəmanın yenidən doğuluşu kimi mənalandıran Məmmədhüseyn Təhmasib bahadırlıq dastanlarındakı əsatiri qata biganə qala bilməzdi və biganə qalmır. Təsadüfi deyil ki, alimin monoqrafiyada ətraflı bəhs etdiyi qəhrəmanlıq dastanlarından biri və birincisi "Basat" boyudur. Alim həmin boyla bağlı təhlillərində Basatın aslan südü ilə bəslənməsinə, özünün mifoloji kökünü "qaba ağac" və "qoğan aslan"a bağlamasına (4, 93) xüsusi diqqət yetirir və bu cür möcüzəli doğuluşu Koroğlunun timsalında da axtarır: "Qədim türk eposunun bütün ünsürləri, yəni dağ kultu da, su kultu da, ağac kultu da, nəhayət və ən əsaslısı nur, işıq kultu da Qoşabulaqda birləşdirilir, adi kəndli balası olan Rövşən də məhz bu ünsürlərin sayəsində qəhrəman, Koroğlu dərəcəsinə yüksəlir" (2,148). Müxtəlif xalqlarda bu qəhrəmanın Koroğlu, Qaraoğlu, Goroğlu kimi adlar daşımasını xatırladan Məmmədhüseyn Təhmasib yazır: "Koroğlu da, Qaraoğlu

da, Goroğlu da qaranlıqla əlaqədardır. Birinci variantda o, korun, ikincidə qaranın, üçüncüdə isə qaranlıq qəbrin oğludur. Bütün dünya xalqlarının əsatirində isə qaranın, qaranlığın, korluğun, bir sözlə, zülmətin oğlu fəcrdir, günəşdir, işıqdır" (2, 146). İstər Basat, istərsə də Koroğludan bu yöndə və bu kontekstdə danışarkən Məmmədhüseyn Təhmasib janrın formalaşmasında mifoloji elementlərin yerini və funksiyasını aydınlaşdırmaq məqsədi güdür. Bu məqsədin Məmmədhüseyn Təhmasib yaradıcılığında ardıcıl şəkildə izləndiyinin şahidi oluruq. Həm dastanlara həsr edilmiş monoqrafiyasında, həm də həmin monoqrafiyadan xeyli qabaq yazılmış "Mövsüm və mərasim nəğmələri"ndə mif və ritual janrın məzmununa əsaslı təsir göstərən amillər kimi tədqiqata cəlb olunur. Məmmədhüseyn Təhmasib yaradıcılığında qabarıq şəkildə özünü göstərən bu istiqamət folklor elmimizdə Məmmədhüseyn Təhmasibdən sonra davam və inkişaf etdirilən, az-çox öz bəhrəsini verən istiqamətlərdəndir. Çağdaş Azərbaycan folklorşünaslığında janrın genezisinin janrın poetikası ilə vəhdətdə öyrənilməsində, söz yox ki, Məmmədhüseyn Təhmasib irsinin mühüm əhəmiyyəti və rolu vardır.

Folklor janrları içərisində epos, tarixi hadisələri daha qabarıq əks etdirən janr sayılır. Görkəmli folklorşünaslar, eləcə də Məmmədhüseyn Təhmasib nağıl janrı ilə müqayisədə eposun "uydurma" yox, "gerçək" hadisələri əks etdirən bir əsər kimi danışılması qənaətinə gələrkən, görünür, eposdakı tarixilik məsələsini də xüsusi nəzərə alırlar. Yəqin belə hesab edilir ki, xalqın öz varlığı uğrunda mübarizəsindən bəhs edən epos real hadisələrə daha çox bağlı bir janrdır. Eposda tarixilik məsələsinə xüsusi önəm verilməsi Məmmədhüseyn Təhmasibin dastan təsnifatında aydın ifadəsini tapır. "Tarixi hadisələrlə səsləşən qəhrəmanlıq dastanları"nın ayrıca qrup kimi nəzərdə tutulması, "Dədə Qorqud" və "Koroğlu"dakı bəzi boy və qolların həmin qrup daxilində təhlil edilməsi, Qıpçaq Məlik, Koroğlu, Eyvaz, Dəli Həsən və b. surətlərin tarixdəki prototiplərinin müəyyənləşdirilməsi tarixi-

lik məsələsinə Məmmədhüseyn Təhmasibin xüsusi diqqətlə yanaşdığını göstərir. Amma o da var ki, Məmmədhüseyn Təhmasib bir neçə dəfə "epos tarix kitabı deyil" deyib tarixilik məsələsi ilə bağlı nigarançılığını da bildirir. Nədir bu nigarançılığın səbəbi? Görkəmli folklorşünas bu məqamda nədən narahat olur, nədən ehtiyat edir? Məsələ burasındadır ki, tarixilik də folklorun ağrılı yerlərindən, o qədər də düzgün anlaşılmayan məsələlərindən biridir. Düzgün anlaşılsaydı, folklorşünaslıq məktəblərindən biri olan tarixi məktəb xalq ədəbiyyatının bütün janrlarında eyni dərəcədə tarixilik axtarmazdı. Tarixilik məsələsində folklor janrlarının özünəməxsusluğunu nəzərə almamaq folklorşünaslıqda tarixi məktəbin nöqsanı kimi qiymətləndirilir. Belə hesab edilir ki, tarixilik rəvayət, nağıl, epos və s. kimi janrlarda özünü daha qabarıq şəkildə göstərsə də, bu qabarıqlıq həmin janrların poetik sistemini dəyişdirə bilmir, əksinə, tarixi hadisələrin və tarixi şəxsiyyətlərin təsviri janrın poetikasına tabe olur. Tarixi şəxsiyyət konkret bir dövrdə yaşadığı halda, epos qəhrəmanı neçə-neçə əsri əhatə edən tarixi hadisələrlə əlaqələndirilə bilir. Ən möhtəşəm, ən təsirli tarixi hadisə belə folklorda məhz folklorun öz tələblərinə uyğun şəkildə əks olunur. Folklorun aparıcı janrlarından olan eposda tarixilik baxımından başlıca şərt tarixi gerçəkliyin epik gerçəkliyə uyğunlaşdırılmasıdır. Əgər tarixi gerçəklik konkret zaman və məkan daxilində baş vermiş hadisələrdən ibarətdirsə, epik gerçəklikdə bu cür konkretlik axtarmaq çox çətindir və yaxud heç mümkün deyil. Epos söyləyicisi iki zaman tanıyır: öz zamanını və epos qəhrəmanlarının zamanını. Real şəxsiyyət və real yer adlarının çəkilməsi epos qəhrəmanlarının yaşadığı zamanı konkretləşdirə bilmir. İfaçı sənətkar epos qəhrəmanlarının zamanını özünün yaşadığı zamandan tamamilə fərqli bir zaman kimi təqdim edir. Bu zaman, söz yox ki, şərtiliklərlə dolu zamandır və epos qəhrəmanlarının bir neçə əsri əhatə edən hadisələrlə əlaqələndirilməsi belə şərtiliklərdəndir. Eposda təsvir edilən əhvalatların tarixi hadisələrlə eyniləşdirilməsini yanlış bir

yol sayan Məmmədhüseyn Təhmasib yazır: "Tarixdə baş vermiş hadisələri eposda eyni ilə axtarmaq, hər epizodu, qolu tarixi hadisə kimi qəbul etmək, hər bir surətə tarixdə yaşamış bir şəxsiyyət kimi yanaşmaq doğru olmaz... Məsələ bu ünsürlərin bənzəyişində, eyniyyətində deyil, dövrün əsas... ictimai mənzərəsinin eposdakı inikasında, xalq kütlələrinin cərəyan edən hadisələrə münasibətinin doğru-düzgün ifadəsindədir" (2, 172). Epik əhvalatlarla tarixi hadisələrin, epos qəhrəmanı ilə tarixi şəxsiyyətin bir-birinə nə dərəcədə bənzəyib-bənzəməməsini yox, xalqın hadisələrə münasibətini əsas göstərici sayırsa, bu o deməkdir ki, Məmmədhüseyn Təhmasib folklorda tarixilik məsələsinə də bir çox başqa məsələlər kimi dünya elmi-nəzəri fikri səviyyəsində yanaşa bilir. Nəzərə alır ki, qabaqcadan xalqın təsəvvüründə formalaşıb yaşamaqda olan epik obraz ona az-çox uyğun gələn tarixi şəxsiyyətin timsalında ortaya çıxır. Tarixi hadisələri və tarixi şəxsiyyətləri dəqiqliklə əks etdirməkdən daha çox xalqın təsəvvüründəki epik obrazları, ilk növbədə isə yenilməz bahadır obrazını əks etdirmək qəhrəmanlıq eposunun səciyyəvi xüsusiyyətlərindən biri kimi özünü göstərir. Eposşünas V.Putilovun sözləri ilə desək, tarixi şəxsiyyətə qədər də mövcud olan epik obraza tarixi şəxsiyyət ad və bir az da "bioqrafik" material verir (5, 178).

Məmmədhüseyn Təhmasib irsi çərçivəsində Azərbaycan folklorunun mübahisəli məsələlərindən danışarkən "Koroğlu" dastanının tərtib probleminə toxunmamaq mümkün deyil. Əlbəttə, bu məqamda söhbət, ilk növbədə, Məmmədhüseyn Təhmasibin tərtib etdiyi "Koroğlu"dan gedir. O "Koroğlu"dan ki, Məmmədhüseyn Təhmasib onu sovet dövründə nəşrə hazırlamışdı. O dövrdə qəhrəmanlıq eposlarının sinfi mübarizə ideologiyasına uyğun şəkildə "hazırlanıb" ortaya çıxarılması təxirəsalınmaz vəzifələrdən sayılırdı. Qəhrəmanlıq eposunun roman kimi ölçülü-biçili olması qarşıya qoyulmuş vəzifələrin mühüm şərtlərindən idi. Bizim bəxtimiz onda kəsdi ki, bu vəzifəni yerinə yetirmək Vəli Xuluflu və Hümmət Əlizadədən sonra Məmmədhüseyn

Təhmasib kimi ciddi folklorşünas və söz sərrafının öhdəsinə düşdü. Məmmədhüseyn Təhmasib çox çətin ictimai-siyasi şəraitdə "Koroğlu"nun ruhunu qoruyub saxlaya bildi və onilliklər boyu eposun Məmmədhüseyn Təhmasib nəşri oxucuların stolüstü kitabına çevrildi. Bunu qeyd etməklə yanaşı, sovet dövründə "Koroğlu"nun necə, hansı şərtlərlə nəşrə hazırlanmasından, epos üzərində hansı istiqamətlərdə iş aparılmasından danışmağı da vacib hesab edirik. Belə düşünürük ki, o vaxt "Koroğlu" üzərində aparılan işin ümumi mahiyyəti eposu "nümunəviləşdirmək"dən ibarət olub. Və bu "nümunəviləşdirmək" qəhrəmanın, süjetin, kompozisiyanın, eləcə də dilin "nümunəviləşdirilməsi" kimi müxtəlif istiqamətləri əhatə edib. Ayrı-ayrı qollar arasında əlaqə yaratmaq tərtibçinin əsas qayğılarından biri olub. Bəs tərtib zamanı Məmmədhüseyn Təhmasib hansı mətnlərə əsaslanıb və o mətnlərdən necə istifadə edib? Bu sualın cavabını Məmmədhüseyn Təhmasibin mənbələrlə bağlı izahlarına baxmaqla tapmaq olar. "Alı kişi" qolunun mənbəyini Məmmədhüseyn Təhmasib belə göstərir: "Bu qolun tərtibində "Koroğlu-Əsəd", "Koroğlu-Bozalqanlı", "Koroğlu-Əli" və "Qaf-Penn" variantları əsas götürülmüşdür" (6, 398). Bu, o deməkdir ki, tərtibçi "Alı kişi" qolunu Aşıq Əsəd, Aşıq Hüseyn Bozalqanlı və Aşıq Əlinin dilindən ayrı-ayrılıqda yazıya alınan, o cümlədən A.Xodzko tərəfindən toplanıb, 1856-cı ildə S.Penn tərəfindən rus dilinə tərcümə edilən müxtəlif variantlar əsasında işləyib ortaya çıxarıb. Eposun yerdə qalan qollarının da tərtibində Məmmədhüseyn Təhmasib həmin prinsip üzrə hərəkət edib. Ayrı-ayrı söyləyicilərin dilindən yazıya alınan müxtəlif variantlar tərtibçi süzgəcindən keçirilib və oxucuya vahid təhkiyəçi dilindən çatdırılıb. Elə təhkiyəçi ki, bütün hadisələrin fövqündə dura və hadisələrin bir-biri ilə əlaqəsini görə bilir.

Bir vaxt Lyonrot Finlandiyada "Kalevala" üzərində necə işlədiyini, eposun ayrı-ayrı hissələri arasında necə əlaqə yaratdığını oxucudan gizlətmədiyi kimi, Məmmədhüseyn Təhmasib də

"Koroğlu" üzərində necə işlədiyini görkəmli folklorşünas olaraq, oxucudan gizlətməyə ehtiyac görməyib. Lyonrotun böyük zəhmət və istedad hesabına tərtib etdiyi "Kalevala" xalq arasında geniş yayıldığı kimi, Məmmədhüseyn Təhmasibin də böyük zəhmət və istedad bahasına tərtib etdiyi "Koroğlu" xalq arasında geniş yayılıb. Həm Lyonrot "Kalevala"sı, həm də Məmmədhüseyn Təhmasib "Koroğlu"su bir tarixə çevrilib. "Kalevala" və "Koroğlu"nu yeni tərtibdə oxucuya təqdim etmək istəyən folklorşünas, heç şübhəsiz, bu tarixə böyük sayğı və ehtiramla yanaşmalıdır. "Kalevala"nı finlərin öhdəsinə buraxıb söhbəti konkret olaraq bizim "Koroğlu"nun üstünə gətirsək, qeyd etməliyik ki, bu gün yeni tərtib arzusunda olan folklorşünasın başlıca işi əsil söyləyiciləri – koroğluxanları o taylı-bu taylı Azərbaycanda arayıb tapmaq, eposun qollarını ayrı-ayrılıqda canlı ifadan necə var, o şəkildə qələmə almaq, qələmə alınanı xüsusi əlaqələndirmə, xüsusi "nümunəviləşdirmə" qayğısına qalmadan bütün təbiiliyi ilə nəşr edib oxucuya çatdırmaqdır.

Amma qarşıya bir sual da çıxır: bütün bu şərtlər əsasında tərtib və nəşr edilən "Koroğlu" oxucu üçün Məmmədhüseyn Təhmasib "Koroğlu"sundan daha maraqlı olacaqmı? Suala dəqiq cavab vermək çətindir...

## QAYNAQLAR


1. Təhmasib M.H. Seçilmiş əsərləri. 2 cilddə, 1-ci cild. Bakı. Mütərcim, 2010
2. Təhmasib M.H. Azərbaycan xalq dastanları. Orta əsrlər. Bakı, Elm, 1972
3. Xalq dastanları. Bakı, 1961
4. Kitabi-Dədə Qorqud ensiklopediyası. 2 cilddə, 1-ci cild. Bakı, Yeni Nəşrlər Evi, 2000
5. Типология народного эпоса. Москва, Наука, с.164-181
6. Koroğlu. Tərtib edəni M.H.Təhmasib. Bakı, Azərbaycan EA Nəşriyyatı, 1969

# MƏMMƏDHÜSEYN TƏHMASİBİN YARADICILIĞI FOLKLORŞÜNASLIQ MƏKTƏBİDİR

**Kamran ƏLİYEV**
*Əməkdar Elm Xadimi,*
*AMEA-nın müxbir üzvü*
*kamran.aliyev.53@mail.ru*

Dünya xalqlarının ədəbi-elmi fikrinin tərkib hissələrindən biri olan folklorşünaslıq o qədər də qədim deyil. Folklora dair əsas tədqiqatlar daha çox folklorşünaslıq məktəbləri və nəzəriyyələri ilə birgə yaranmışdır. Azərbaycanda isə folklorun kütləvi şəkildə toplanması, yazıya alınması, nəşri, araşdırılması XX əsrlə bağlıdır. XX əsrin əvvəllərində Firudin bəy Köçərlinin "Balalara hədiyyə" kitabı, "Məktəb", "Dəbistan", "Rəhbər" kimi jurnallar folklora maraq oyatmaq baxımından ciddi bir nümunə idi. Sonralar bu iş ardıcıl xarakter daşımış, toplama və nəşr sahəsindəki fəaliyyət folklorşünaslıq tədqiqatlarının da genişlənməsinə və sistemli şəkildə aparılmasına təkan vermişdir.

Azərbaycan folkorşünaslığının formalaşması və inkişafında xidmətləri olan alimlər az deyil, amma bunların sırasında Məmmədhüseyn Təhmasib (1907-1982) öz mövqeyi ilə seçilir. Düzü, Azərbaycan folkorşünaslığı tarixində Avropa və Rusiyadakı kimi ayrıca bir folklorşünaslıq nəzəriyyəsi yaranmamışdır, bizim tədqiqatçılar həmin nəzəriyyələrdən bəhrələnərək araşdırmalar aparmış, yeni-yeni elmi nəticələr əldə etmişlər. Buna baxmayaraq, Azərbaycanda görkəmli tədqiqatçı Məmmədhüseyn Təhmasibin adı ilə bağlı folklorşünaslıq məktəbi formalaşmışdır. Azərbaycan folklorşünaslarının əksəriyyəti bu məktəbin yetirmələri hesab edilir.

M.Təhmasibin folkorşünaslıq fəaliyyəti mövsüm və mərasim nəğmələrinin araşdırılmasından başlayıb Azərbaycan xalq dastanlarına dair fundamental tədqiqatın yaranmasına qədər davam edib. Amma onun tədqiqatlarının obyekti mövsüm və məra-

sim nəğmələri ilə, xalq dastanları ilə məhdudlaşmır. M.Təhmasib Azərbaycan folklorunun qəhrəmanları, janrları, süjet və motivləri, başqa sözlə, ən vacib problemləri barədə dəyərli mülahizələr irəli sürmüş, elm adamları üçün qaranlıq qalan bir çox məsələlərə aydınlıq gətirmişdir. Folklorşünaslıqda bir sıra problemlərin öyrənilməsinə M.Təhmasibin araşdırmalarından sonra başlanılmışdır. Folklor mətnlərinə hansı mövqedən yanaşmaqla bağlı bir çox prinsiplər də elm aləminə M.Təhmasibin əsərlərindən yayılmışdır.

M.Təhmasib sözün geniş mənasında dastanşünas bir alim idi. Onun "Azərbaycan xalq dastanları (orta əsrlər)" tədqiqatı ilə Azərbaycan dastanşünaslığı yeni mərhələyə qədəm qoydu. Görkəmli folklorşünasın bu tədqiqatı Azərbaycan dastan fondunun zənginliyini təqdim etmək, folklor müstəvisində aşığın yerini müəyyənləşdirmək, dastanların təsnifatını aparmaq, dastan ənənələrini öyrənmək, dastan qəhrəmanlarının tipologiyasını vermək baxımından aktuallığını həmişə saxlamaqdadır. Eyni zamanda bu tədqiqatın özünün də hərtərəfli araşdırılmasına olan ehtiyac hələ də qalmaqdadır və bu məqalədə həmin ehtiyacı aradan qaldırmaq məqsədini biz də qarşımıza məqsəd kimi qoymamışıq.

M.Təhmasib yaradıcılığında keçmişə hörmət, ənənəyə sədaqət, əcdad kultuna rəğbət məsələləri həmişə diqqət mərkəzində olmuşdur. M.Təhmasibin dastanlarda tarixin izlərini axtarması etnosun keçmişi barədəki həqiqətləri ortaya çıxarmaq məqsədi daşıyır. Həm də əcdad kultuna rəğbət müəllifin el-obaya, doğma yurda tükənməz məhəbbətindən irəli gəlir. Folklorşünas alim "Ata-Baba günü" mərasimindən danışarkən əcdad ruhuna ehtiramın xalq tərəfindən necə qəbul edilməsinin məzmununu incələyir. M.Təhmasib "Səməni nəğməsi" adlı bayramlarda səməninin bişirilməsi zamanı ona qatılan unun bir evdən deyil, orada iştirak edən bütün evlərdən yığılmasının mühüm şərt olduğunu xüsusilə nəzərə çarpdırmaqla əsas diqqəti insanların birliyi məsələsinə yönəldir.

Folklorşünas alimin Aşıq Ələsgər də daxil olmaqla aşıq sənəti örnəklərinin, geniş mənada folklor nümunələrinin imkan ver-

diyi dərəcədə Göyçə mahalının, Kəlbəcər və Gəncə kimi Göyçəyə bağlı ətraf bölgələrin ta qədimdən şeir, sənət beşiyi olmalarını böyük qürurla səciyyələndirir. "Kitabi-Dədə Qorqud" dastanlarında, ozan şeirlərində olan arxaizmlərin qədim Azərbaycan torpaqlarının əhalisi tərəfindən indi də işlədilməsini bu torpaqlarda yaşayan insanların yaradıcılıq ənənəsinə bağlılıqları kimi dəyərləndirir.

Yeri gəlmişkən qeyd edək ki, M.Təhmasib yaradıcılığında bir sənətkarla, yaxud bir problemlə bağlı iki və daha çox məqaləyə rast gəlmək mümkündür. Bu tipli məqalələr görkəmli folklorşünasın yaradıcılıq özünəməxsusluqlarını müəyyənləşdirməyə geniş imkanlar açır. İlkin olaraq bildirmək lazımdır ki, həmin məqalələr eyni ildə, yaxud bir-birinə son dərəcə yaxın bir vaxtda qələmə alınıbsa, onlardan biri digərinin davamıdır. Yox, eyni mövzuya həsr edilən məqalələr bir-birindən xeyli fərqli zamanlarda (məsələn, 10 il fərqlə!) yazılıbsa, onda ikinci məqalədə folklorşünaslığın inkişafı nəzərə alınmaqla yeni məsələlər qaldırılır.

Yenə də ənənəyə sədaqət, əcdad kultu ilə əlaqədar olaraq 1964-cü ildə Aşıq Şəmşirə həsr edilmiş "Qocaman nəğməkar" məqaləsində Aşıq Şəmşirin atası Qurbanın, sadəcə olaraq, adı çəkilir, onun haqqında ümumi məlumat verilir. 1973-cü ildə yazılmış "Özü də Şəmşir, sözü də Şəmşir" məqaləsində isə Qurbanın adı çəkilməklə kifayətlənilmir, həmçinin Ağdabanlı Qurban yaradıcı şəxsiyyət kimi tanıdılır. Onun "Qurban bulağı" adında aşıqlar məclisi yaratmasından, aşıqların və el şairlərinin tez-tez oraya toplaşıb yaradıcılıq söhbətləri aparmalarından, şeir, sənət barədə müzakirə açmalarından bəhs edilir. Əslində bu, M.Təhmasibin xüsusi dəyər verdiyi aşıq mühiti məsələsi idi.

Həmişə aktual olan şifahi mətn və onun xüsusiyyətləri, şifahi mətnin yazıdan fərqli cəhətləri tədqiqat predmeti olaraq M.Təhmasibin yaradıcılığında xüsusi yer tutur. Şifahi mətn məsələsi foklorun əsas, aparıcı istiqamətlərindən biri olmaqla folkloru folklor eyləyən mövzulardandır. Şifahi və yazılı ədəbiyyatın qarşılıqlı əlaqələri, onların ayrılan və birləşən məqamları

folklorşünaslara kifayət qədər aydın olmadığı bir vaxtlarda M.Təhmasib peşəkar folklorşünas sözü söyləmişdir. O, ilk növbədə şifahi nümunə ilə yazılı nümunə arasında olan fərqliliyin mətnin səsləndirilməsi zamanı meydana çıxmasını əsl mütəxəssis kimi səciyyələndirir: "Eyni nağıl bir peşəkar nağılçının ifasında daha çox qəhrəmanlıq xüsusiyyətləri kəsb etdiyi halda, bir başqasının ifasında tərbiyəvi mahiyyət alaraq didaktik bir əsər halına düşə bilər". Bu, xalq ifaçılığında "yenidən yaratma prosesi" barədə olan orijinal mülahizədir. İfa zamanı söyləyicinin yaradıcılıq nümayiş etdirməsi üçün imkanlar açması yalnız folklor nümunələrinə xasdır. Şübhə yoxdur ki, dinləyici auditoriyası söyləyicinin hər birindən mətnə novator yanaşma gözləyir. Əks təqdirdə eyni bir dastanın müxtəlif aşıqlar tərəfindən söylənilməsi heç vaxt maraq kəsb edə bilməzdi. Yazılı ədəbiyyat nümunələrinə aid mətn isə bu mənada çox mühafizəkardır və onun ifa zamanı dəyişdirilməsi, sadəcə olaraq, qeyri-mümkündür, hərgah ifaçı heç nəyi nəzərə almadan müəllifi olan yazılı mətni dəyişdirərsə, bunu yalnız təhrif kimi başa düşmək lazımdır.

M.Təhmasib yazılı ədəbiyyat nümunələrini folklor mətnlərini qoruyub saxlamaq və təbliğ etmək baxımından da dəyərləndirir. O, "Məktəb" jurnalında folklora münasibət məsələsi" adlı məqaləsində (1977) nəsr əsərləri içərisində folklor mətninin qorunmasını təqdirəlayiq hadisə hesab edir. Ələkbər Naxçıvanlının "Bacı və qardaş" hekayəsində "Əkil-Bəkil quş idi" nəğməsinin, Ağa bəy İsrafilbəyovun "Novruz bayramı" hekayəsində "Gün çıx, çıx, çıx!" və "Mən anamın ilkiyəm" nəğmələrinin qorunmasına müsbət münasibət bəsləyir. Həmçinin onların folklordan istifadə məsələlərindən fərqləndiyini və uşaqların dünyagörüşünün formalaşmasına xidmət göstərməsini də nəzərə çarpdırır.

M.Təhmasib şifahi və yazılı ədəbiyyat nümunələrinin yaradıcılıq laboratoriyası baxımından da ciddi şəkildə fərqləndiyini dəlil və sübutlarla əsaslandırır. Doğru qeyd edir ki, yazılı ədəbiyyat nümunəsinin laboratoriyası yazı otağı, qələm və dəftərdir,

aşıq yaradıcılığı isə daha çox saz-söz məclislərində inkişaf edir. Tədqiqatçı toy şənliyini, yaylaq və çeşməni Göyçə üçün belə məclislərin nümunəsi sayır. Təsadüfi deyil ki, Aşıq Ələsgər çeşmə başını həm sevgi, məhəbbət məkanı, həm də özü üçün son mənzil – məzar yeri bilir.

M.Təhmasib Aşıq Şəmşirdən bəhs edən məqaləsində imkan taparaq yazılı ədəbiyyatın, folklorun və aşıq yaradıcılığının qarşılıqlı münasibətlərini Aşıq Şəmşirin simasında konkret faktlarla səciyyələndirir. Tədqiqatçının araşdırmasına görə, M.Füzuli "İldə bir qurban kəsərlər xəlqi-aləm qeyd üçün, // Dəmədəm, saətbəsaət mən sənin qurbanınam" beytini sevgilisinə qurban olan aşiqin obrazını yaradan məşhur xalq bayatısından götürmüşdür. Aşıq Şəmşir isə "Mən gündə qurbanın olum, olarmı?" misrası ilə onu Füzulidən alıb aşıq ədəbiyyatına qaytarmışdır.

M.Təhmasibdə belə bir fikir vardır ki, sənət adamlarının folklora bağlılığı ilk növbədə həmin sənətkarların ailəsindən, nəslindən, habelə uşaqkən ətrafında olan insanlardan gəlir. Ürəyi sözlə dolu yaşlı nəsil bir çox hallarda xalq ədəbiyyatı nümunələrini sonradan məşhurlaşmış sənət adamlarına onlar hələ uşaqkən nəql etmiş, onlarda folklora maraq yaratmışlar. Aşıq Ələsgərin ustadı Aşıq Alı, Aşıq Şəmşirin atası Qurban kişi, C.Cabbarlının bibisi Zərnişan bu sənətkarların yetişməsində mühüm rol oynamışlar.

M.Təhmasib çoxvariantlılığı da şifahi mətnin əsas əlaməti kimi səciyyələndirir. Bu baxımdan "Basatın Təpəgözü öldürdüyü boy"dan bəhs edərkən bu süjetin 200-dən çox versiyasının mövcudluğunu, "Pak məhəbbət aşiqi" məqaləsində Aşıq Ələsgərin "Anaxanımın küsməyi" dastanının iki variantından bəhs etməsi, "Cəfər Cabbarlı və şifahi ədəbiyyat" məqaləsində "Qız qalası" əfsanəsinin müxtəlif variantlarını qabartması və onların təhlilini verməsi təsadüfi deyildir.

M.Təhmasibin 1972-ci ildə "Ədəbiyyat və incəsənət" qəzetində çap etdirdiyi "Yüz ölç, bir biç" adlı məqaləsi çoxvariantlılığa dayanan şifahi mətnin xüsusiyyətlərini izah etmək baxımın-

dan son dərəcə aktualdır. Məqalədə Aşıq Ələsgərin ikicildliyi barədə çap olunan yazıya ("Ayna daşa toxunanda...") M.Təhmasibin elmi münasibəti ifadə edilmişdir. Amma məqalə rəy xarakteri daşımır və daha çox şifahi mətn məsələlərinə doğru yönəldilmişdir. Müəlliflərin öz yazılarında Aşıq Ələsgər şeirlərinin təhlilini apararkən "Çoxvariantlılıq şeirin siqlətinə ziyan vurur" hökmünə folklorşünas alim qəti şəkildə etiraz etmiş və Ələsgər şeirinin müxtəlif variantlarının yaranmasını folklorun təbii-tarixi prinsiplərindən irəli gəldiyini əsaslandırmışdır: "Ələsgərin bir misrası da öz sağlığında yazıya alınmamışdır. Şeirlərinin hamısı yaddaşlarda yaşayıb gəlmiş, hərə də özünə məlum olan şəkildə demişdir və deməkdədir. Beləliklə, əksər şeirlərin müxtəlif variantları əmələ gəlmişdir". M.Təhmasib "Ayna daşa toxunanda..." yazısının müəllifləri ilə, sadəcə olaraq, Aşıq Ələsgər "davası" aparmır. M.Təhmasibin əsas "davası" şifahi mətnin spesifikası məsələsidir ki, bu anlayış, bu istiqamət həmin məqalənin yazıldığı dövrdə bəzi folklorşünasların özlərinə də aydın deyildi. Folklorşünas alim bu məsələdə müəyyən bir sözün də ciddi əhəmiyyət daşıdığını qabarıq şəkildə xatırlatmalı olur: "Ələsgər kimi şair üç dağı sadaladıqdan sonra "bir neçə dağ var" deməzdi, məhz elə "neçə dağlar var" deyərdi. Çünki "bir neçə dağ var" məhdud ifadədir, "neçə dağlar var" isə belə dağların çox olduğunu göstərir". Bu mülahizə də, sadəcə olaraq, sözün misrada yerinə düşüb-düşməməsi, müəllifin müəyyən bir sözü düz işlədib-işlətməməsi məsələsi deyil, daha çox folklor nümunələrinin şifahi mətn nümunəsi kimi variantlaşmasının əhəmiyyət daşıması haqqında mühüm tezis deməkdir.

Yaxud M.Təhmasib Aşıq Ələsgərə həsr edilmiş məqalələrinin birində yazır: "Bəziləri oğlu Aşıq Talıbın və qardaşı oğlu Aşıq Nəcəfin xatirələrinə əsaslanaraq Ələsgərin heç dastan qoşmadığını, aşıq yaradıcılığının bu növünə hətta müsbət münasibət bəsləmədiyini iddia edirlər. Bəziləri isə onun bir neçə dastanı da olduğunu yazmışdır. Bizcə, bu iddiaların hər ikisi doğrudur". Folklorşünas alimin başqa məqalələrində də ikili xarakter daşı-

yan tezislərə münasibətdə "Bizcə, bu iddiaların hər ikisi doğrudur" fikrinə təkrarən rast gəlirik. Əslində bunun özü də çoxvariantlılıqla bağlıdır. M.Təhmasibin tədqiqatlarında folklor nümunələrinin variantları ilə əlaqədar irəli sürülən fikir və mülahizələr yalnız 50-60-70-80 il bundan əvvəlin deyil, həmçinin bu günün və gələcəyin aktual fikir və mülahizələridir.

M.Təhmasib folklorşünaslıqda özünə geniş yer tutmuş, müəyyən dövrlərdə isə kifayət qədər anlaşılmayan motiv məsələsinə də müəyyən aydınlıq gətirir. Tədqiqatçı bu məsələni Aşıq Ələsgər yaradıcılığı ilə Aşıq Şəmşir yaradıcılığının müqayisəsində əyani faktlarla canlandırır. Aşıq Şəmşirin "Dönüb səni", "Bilmədi", "Sənsiz", "Aşıq" şeirlərinin uyğun olaraq Aşıq Ələsgərin "Niyə döndü", "Çata bilməzsən", "Sənə qurban", "Gərəkdi" qoşmaları ilə əlaqələrini geniş təhlil edir. Onların bir-birinə bağlılığının səbəbini müəlliflərin aşıq olmasında, aşıq sənətinə xidmət etmələrində yox, oxşar motivlərə müraciət etmələrində görür.

M.Təhmasibin folklor janrlarının tipologiyası, onların spesifik cəhətləri və qarşılıqlı əlaqələri barədə mülahizələri folklorşünaslığın bir sıra məsələlərini aydınlaşdırmağa yönəldilmişdir. M.Təhmasib dastanların yaranmasının iki yolunu göstərir. Bunlardan biri aşıqların, yaxud aşıq şeirində yazan el şairlərinin özləri haqqında dastan qoşması, digəri isə əfsanə, rəvayət və qədim eposlardan istifadə yolu ilə dastan yaradılmasıdır.

Tədqiqatçı alim bayatının həm mənşəyi, həm etimologiyası, həm də digər poetik janrlar üçün mənbə rolunu oynamasını onun janr zənginliyi ilə əlaqələndirir. Bayatının qədim türk tayfalarından biri olan bayat qəbiləsi tərəfindən yaradılması, "bayatı" sözünün "bəy" və "ad" hissələrinin birliyindən formalaşması, nəhayət, bayatı janrının laylaların, holavarların, ağıların yaranmasında mühüm rolunun olması folklor janrlarının bir-biri ilə əlaqəsinin bariz nümunəsidir. Eyni zamanda bu, etnosun dərin kökləri barədə nəticə çıxarmağın da əsası olur.

M.Təhmasibin məqalələri bir vahid olaraq məktəb səciyyəsi daşıyır. Bu məqalələr əsl folklorşünas məqalələri kimi müraciət edilmiş tədqiqat obyektinin mahiyyətini dərindən açmaq baxımından öyrədici xarakterdədir. Belə bir məzmun M.Təhmasibin uzun müddət ali məktəb tələbələri qarşısında Azərbaycan folklorunun problemləri barədə yaradıcı bir pedaqoq kimi mühazirələr söyləməsindən irəli gəlir.

M.Təhmasibin "Azərbaycan nağıllarında keçəl" məqaləsi (1939) Azərbaycan folklorşünaslığının formalaşma dövrünün məqaləsidir və müəllifin bu məsələyə müraciət etməsi folklorumuzda keçəl obrazının özünəməxsus yerinin olması ilə əlaqədardır. Folklorşünas alim Keçəl obrazının səciyyəsini "Keçəl Məhəmməd", "İsfahan keçəli", "Keçəl", "İmam", "Keçəlin divanı" nağıllarına istinadən verir. Keçəlin mübarizədən əl çəkməyən, hazırcavab, qorxmaz, cəsarətli olmasını xüsusilə diqqətə çatdırır. Daha əhəmiyyətli cəhət ondan ibarətdir ki, M.Təhmasibin bu nağılların hər birindən ayrı-ayrılıqda və ardıcıl şəkildə bəhs etməsi taktiki xarakter daşıyır və tədqiqatçı Keçəlin ayrı-ayrı xüsusiyyətlərini meydana çıxarmağı qarşısına məqsəd qoyaraq onu reallaşdırır.

Keçəlin padşahın ağlını lağa qoyması ("Keçəl Məhəmməd"), darğanın bütün var-yoxunu ələ keçirməsi ("İsfahan keçəli"), şeytanla ittifaqa girməsi ("Keçəl"), rəqiblərini öldürməsi ("İmam"), ədalətli məhkəmə qurması ("Keçəlin divanı") bu obrazın mürəkkəb xarakteri barədə ilkin və tam təsəvvür yaradır. Doğrudur, M.Təhmasibdən sonra Keçəl obrazı ilə bağlı tədqiqatlar xeyli genişlənmiş, dünya və Azərbaycan folklorşünaslığının inkişafı ilə həmahəng olaraq bu barədə tədqiqatların şəbəkəsi böyümüş, yeni elmi mülahizələr söylənmişdir, amma bir fikir danılmaz olaraq qalır ki, folklorşünaslığımızda Keçəl obrazının sistemli təhlili M.Təhmasibdən başlayır. M.Təhmasibin "Əfsanəvi quşlar" (1945), "Azərbaycan xalq ədəbiyyatında div surəti" (1946) məqalələrini də folklorşünaslığımızda mifik düşüncə barədə ilk sistemli məqalələr hesab etmək olar.

“C.Cabbarlı və şifahi ədəbiyyat” məqaləsində (1959) ilk növbədə bədii əsərdə meydana çıxan obrazın ondan əvvəl xalq arasında formalaşmasının nəinki mümkünlüyü, hətta zəruriliyi ciddi bir tezis kimi irəli sürülür. Tədqiqatçı Nizaminin “ən parlaq, ən şöhrətli surətləri də hələ onun özündən qabaq xalq tərəfindən yaradılmışdır” mülahizəsinə öz inamını da əlavə edir. Eyni zamanda bir mahnını nümunə gətirməklə bu mahnının fonunda şifahi ənənənin yazılı ədəbiyyata daxil olmasının formasını da müəyyənləşdirir: “Bir başqa yazıçı bəlkə də bu mahnının elə bu bəndini, yaxud da hamısını sadəcə öz əsərinə köçürməklə kifayətlənərdi. Çünki məclis toy məclisi, mahnı da ənənəvi toy mahnısıdır. Lakin hər hansı bir mahnını, nəğməni belə passiv bir münasibətlə, olduğu kimi əsərə köçürmək Cabbarlını qənaətləndirmir. O, əsərin bu hissəsində demək istədiyi sözü daha kəsərli, daha təsirli bir şəkildə deyə bilmək üçün nəğməni dəyişir, ona yeni məna verir”. Əslində M.Təhmasibin bu tezisi yazılı ədəbiyyatla folklor mətni arasındakı əlaqənin yaradıcı xarakter daşımasının zəruriliyi barədə olan fikirdir.

Folklorşünas alimlə folklora istinad edən yazıçının bir şəxsiyyətdə birləşməsinin mahiyyəti Y.V.Çəmənzəminlinin yaradıcılığına həsr edilmiş “Ədib alim” məqaləsində (1967) aydınlaşdırılır. Görkəmli alim öncədən Y.V.Çəmənzəminlinin folklorla bağlı dünyagörüşünün formalaşma mühitini dəqiq müəyyənləşdirmişdir: “Onun yaşadığı illər həm də folklorşünaslıq elminin ilk nəzəriyyələrinin, məktəblərinin qızğın mübarizəsi, yaşadığı yerlər isə bu mübarizənin mərkəzləri olmuşdur”. Bununla yanaşı yazıçının folklor nümunəsindən necə istifadə etməsinin müəyyən bir üsulunu da müəyyənləşdirir. M.Təhmasib “İki od arasında” romanında istifadə edilmiş folklor janrlarını adbaad xatırladır: nəğmə, atalar sözü, məsəl, əfsanələr, rəvayətlər, nağıllar, lətifələr, hətta əsatirlər. Amma eyni zamanda qəti şəkildə bildirir ki, folklordan istifadə zamanı bədii əsər “folklor antologiyasına” çevrilməməlidir. Bu, həm yazıçılar, həm də folklorşünaslar üçün bir yaradıcılıq prinsipi kimi bugünkü yazıçılara və tədqiqatçılara da ünvanlanmış tövsiyədir.

Folklorşünas alimin "Bir ömür, dörd dövr" adlı məqaləsində (1972) Aşıq Ələsgərin yaradıcılığı ayrı-ayrı dövrlərə bölünür: uşaqlıq və gənclik, gözəlliyin tərənnümü, ahıllıq, kamillik. Onların hər biri özünəməxsus xüsusiyyətləri ilə təhlil edilir. Məsələ burasındadır ki, Ələsgərin tərcümeyi-halı ilə bağlı kifayət qədər konkret faktlar olmadığından M.Təhmasib bu bölgünü şeirlərinin məzmunu əsasında aparır və obyektiv nəticələrə gəlir. Hətta hər hansı bir dövrün hansı şeirlə qurtardığı barədə də inandırıcı mülahizələr irəli sürülür, sənətkarın yaradıcılıq dövrləri tarixi rəqəmlərə, tarixi hadisələrə görə deyil, şeirlərinin məzmun çalarları əsasında müəyyənləşdirilir.

M.Təhmasibin elmi irsi hər hansı bir sənətkarın yaradıcılığının mükəmməl və bütün incəlikləri ilə təhlili barədə olan nümunələrlə də zəngindir. Bütün gözəlliklərin insanla bağlı olması, gözəlin təsvirində əsatiri motivlərdən istifadə, daxili və zahiri gözəlliyin vəhdəti, gözəlin vəfalı və sədaqətli olması, eyham və müəmmadan baş çıxarması, əxlaqi kamilliyini qoruması Aşıq Ələsgər sənətinin əsas xüsusiyyətləri kimi müəyyənləşdirilir. M.Təhmasib Aşıq Ələsgər yaradıcılığını gözəllik estetikası ilə gözəlliyin tərənnümünün vəhdəti prinsipi ilə araşdırır.

Aşıq yaradıcılığında mövcud olan motiv, forma, qafiyə və rədifdən istifadə etməklə yeni məzmunlu şeir yazmaq, ustad şeirinin daha da inkişaf etdirilməsi əsasında yeni variantlar yaratmaq, yazılı və şifahi ədəbiyyatın yaradıcılıq ənənələrinə sadiq qalmaq və onlara oxşamasından doğan şeirlər qələmə almaq isə Aşıq Şəmşir bədii irsinin özəllikləri kimi təqdim olunur. M.Təhmasib Aşıq Şəmşir yaradıcılığını ənənə və novatorluğun qarşılıqlı əlaqələri prinsipi ilə tədqiq edir.

M.Təhmasib hər bir məqaləsi və kitabı ilə, hər bir mülahizəsi və tezisi ilə, hər məsələyə yanaşması və tədqiqat üsulu ilə, folklor mətninin duyulması və izahı ilə fərqli bir folklorşünasdır. M.Təhmasibin yaradıcılığı folklorşünaslıq məktəbidir.

# FOLKLOR KARVANIMIZIN ULU SARVANI

**Məhərrəm QASIMLI**
*Əməkdar elm xadimi, professor*
*AMEA Nizami adına Ədəbiyyat İnstitutu*

On doqquzuncu yüzillikdə təşəkkül tapmağa başlayan Azərbaycan folklorşünaslıq elmi özünün əsas formalaşma və inkişafını iyirminci yüzillikdə keçirmişdir. Əsrin ilk onilliklərində milli-mənəvi dəyərlərə həssas münasibətin ifadə formaları içərisində xalq ədəbiyyatı örnəklərinin toplanması, nəşri və tədqiqinə diqqətin xüsusi önəm kəsb etməsi də folklorşünaslıq işinin miqyas genişliyi alması ilə nəticələnmişdir. Sovet dönəminin başlanğıcında xalq ədəbiyyatını – folkloru sadə, zəhmətkeş, əməkçi xalqın yaradıcılıq məhsulu, aşağı təbəqəyə məxsus mədəniyyət tipi kimi dəyərləndirən yeni siyasi-ideoloji sistem də sözügedən istiqamətdə elmi-təşkilati işlər aparılmasına şərait yaratmışdır. Tarixi mənzərə göstərir ki, otuzuncu illərin məşum repressiya dalğasına qədər folklor və etnoqrafiya mədəniyyətimizin öyrənilməsi ilə bağlı həqiqətən də geniş planda işlər görülmüşdür. Ə.Abid, S.Mümtaz, H.Zeynallı, V.Xuluflu, B.Behcət və onlarla başqa folklorçunun həmin illərdəki fəaliyyəti işıqlı bir perspektivdən xəbər verirdi. Lakin dəhşətli otuz yeddinci il repressiyası Azərbaycan ziyalılığının bir çox başqa nümayəndələri kimi adıçəkilən görkəmli folklorçuların da həyat və fəaliyyətinə son qoydu. Bu illərdən etibarən «pantürkist» və «panislamist» damğalarından çəkinən bütün araşdırıcılar milli-mənəvi dəyərlərə, o cümlədən də folklora ehtiyatlı münasibət bəsləməyə başladılar. Xalq ədəbiyyatının toplanması, nəşri və tədqiqi işi Moskvanın – Kommunist Partiyasının icazə verdiyi meyar və istiqamətlər üzrə həyata keçirilə bilərdi. Türk-islam dəyərlərini əks etdirən folklor qaynaqları mürtəce mahiyyətli materiallar kimi çıxdaş edilir, zəhmətkeş xalqın is-

tismarçı təbəqələrə qarşı nifrət və etirazını ifadə edən örnəklər ön plana çəkilərək onların sinfi-ideoloji məzmunu qabardılırdı. Folklorşünaslıq ağır və məşəqqətli bir keçid dönəmi yaşayırdı. Repressiya olunan folklorçular nəslinin yerinə gələn yeni nəsil milli dəyərlərlə məşğul olanların acınacaqlı taleyini öz gözləri ilə görmüş və qorxunc ibrət almışdılar. Sonralar Azərbaycan folklorşünaslıq elminin bütün ağırlığını ləyaqət və dəyanətlə çiyinlərində daşıyan, siyasi-ideoloji maneə və yasaqların qarşısında müdrik, uzaqgörən maneralar işlədərək milli-mənəvi sərvətlərimizin toplanması, nəşri və tədqiqi işini uğurla davam etdirən Məmmədhüseyn Təhmasib məhz belə bir çətin şəraitdə, belə bir ağır dövrdə elmi fəaliyyətə başlamalı olmuşdur.

Otuzuncu illərin sonları, qırxıncı illərin əvvəllərindən başlayaraq «Məmmədhüseyn Təhmasib» imzası elmi və ədəbi orqanlarda ciddi və sanballı məqalələrin, ədəbi-publisist əsərlərin müəllifi kimi tanınmışdır. Müharibə illərində qələmə aldığı «Əfsanəvi quşlar», «Azərbaycan xalq ədəbiyyatında div surəti» kimi dərin elmi siqlətə malik məqalələr alimin elmi nüfuzunun artmasında mühüm rol oynamışdır. Yeri gəlmişkən, qeyd edək ki, bu əsərlərdə irəli sürülmüş nəzəri mülahizələr indinin özündə də folklorşünaslığın dinamik inkişafına müsbət təsir göstərməkdə davam edir və elmi dövriyyədə öz çəki və sanbalını qoruyub saxlayır.

M.H.Təhmasib müxtəlif illərdə Azərbaycanın çeşidli bölgələrində orta məktəb, daha sonra isə Bakıdakı bir sıra təhsil ocaqlarında ali məktəb müəllimi işləsə də özünün peşəkar folklorşünaslıq fəaliyyətini birmənalı şəkildə Akademiyanın Nizami adına Ədəbiyyat İnstitutu ilə bağlamışdır. O, 1944-cü ildən ömrünün sonuna – 1982-ci ilədək folklor şöbəsinə rəhbərlik edərək əvəzsiz milli sərvətimiz olan şifahi xalq ədəbiyyatının toplanması, öyrənilməsi işini yönləndirmişdir. Təqribən qırx ili çevrələyən həmin mərhələni folklorşünaslığımızın M.H.Təhmasib mərhələsi adlandırmaq onun bu sahədəki fəaliyyətinə

verilmiş ən obyektiv və qədirşünas qiymət olardı.

Görkəmli alimin zəngin və çoxşaxəli folklorşünaslıq fəaliyyətini üç istiqamət üzrə qruplaşdırmaq mümkündür:

*1)* folklorun toplanması, tərtibi və nəşri sahəsindəki xidmətləri;

*2)* nəzəri tədqiqatları;

*3)* elmi-təşkilati fəaliyyəti.

M.H.Təhmasib mərhələsində folklor toplanılmasının həm rahat, həm də çətin tərəfləri var idi. İşin rahatlığı onunla şərtlənirdi ki, həmin dövrdə folklor söyləyicisi problemi yox idi. Sinəsində elin söz yatırını daşıyan adamlara az qala hər addımbaşı rast gəlmək olurdu. Saz-söz bilicisi olan ustad aşıqların sayı da kifayət qədər çoxuydu. Ancaq bunun müqabilində işin başqa bir çətin tərəfi folklorçulardan xüsusi fədakarlıq tələb edirdi: yol-nəqliyyat çətinliyi kəndlərə, söyləyicilərin yanına getməyi problemə çevirirdi. Bəzən atla, bəzən də piyada saatlarla yol getmək lazım gəlirdi. Söyləyicinin danışdıqlarını yazmaq üçün lazımi texnoloji imkanlar (səs və görüntü qeydə alan cihazlar) olmadığından kağız-qələm vasitəsi ilə yazıya alma kimi ağır, yorucu üsul tətbiq edilirdi. Təhmasib müəllim digər əməkdaşlarla birlikdə illər uzunu Naxçıvanı, Göyçəni, Borçalını, Qazax-Qarabağı, Şəki-Şirvanı, Muğanı, Abşeronu addımadım gəzib dolaşaraq hər cür çətinlik və məşəqqətlərə qatlaşa-qatlaşa, yorulub usanmadan şifahi ədəbiyyat inciləri toplamaqla məşğul olur, Bakıya döndükdən sonra isə onların sistemləşdirilib nəşrə hazırlanması üzərində çalışırdı. Azərbaycan xalq nağıllarının, dastanlarının, eləcə də müxtəlif janrları əhatə edən antologiyaların ilkin hazırlıq işi belə bir fədakar fəaliyyətlə başlamışdır. Bu gün Azərbaycan folklorunun ən mötəbər nəşrləri sırasında ləyaqətlə yer alan beş cildlik «Azərbaycan xalq dastanları», «Azərbaycan xalq nağılları» seriyasının ərsəyə gəlməsində görkəmli alimin həm toplayıcı, həm də tərtibçi və elmi redaktor kimi müstəsna xidməti vardır. Əlli-yetmişinci illərdə

onunla çiyin-çiyinə çalışan Ə.Axundov, N.Seyidov, H.Qasımov və başqa folklorçuların hazırladıqları folklor mətnlərinin sistemləşirilməsi və elmi redaktəsi işində də M.H.Təhmasibin bilik və bacarığından faydalanılmışdır. «Azərbaycan folkloru antologiyası» (iki cilddə), «Bayatılar», «Tapmacalar», «Atalar sözləri», «Lətifələr», «Azərbaycan aşıqları» və s. çoxsaylı folklor nəşrləri buna əyani örnəkdir.

Əlbəttə, bütün bu deyilənlərlə yanaşı, M.H.Təhmasib adı çəkiləndə, şübhəsiz ki, ən möhtəşəm folklor nəşri kimi «Koroğlu» eposu yada düşür. «Koroğlu»nun canlı ifadan toplanıb yazıya alınması sahəsində iyirmi-otuzuncu illərdə V.Xuluflu və H.Əlizadə tərəfindən həyata keçirilən ilk cəhdlər yarımçıq qaldıqdan sonra M.H.Təhmasib qırxıncı illərdən bu istiqamətdə ardıcıl və sistemli fəaliyyətə başlayır. Təqribən iyirmi beş il ərzində o, yüzdən yuxarı aşığın repertuarındakı «Koroğlu» qollarını yazıya alır. Bu aşıqların içərisində Aşıq Əsəd, Aşıq Mirzə, Aşıq İslam, Aşıq Qara Movlayev və başqa onlarla azman sənətkarların adı vardır.

Bu gün Nizami adına Ədəbiyyat İnstitutunda saxlanılan «Koroğlu» arxivinin mənzərəsindən də göründüyü kimi, müxtəlif qolların ayrı-ayrı bölgələrə məxsus aşıqlar tərəfindən söylənilmiş əllidən yuxarı variantı səbir və təmkinlə toplanılmış, daha dolğun variant əsas götürülməklə, digər variantlardakı fərqləri əks etdirən şərh-açıqlamalarla birlikdə epos on yeddi qol şəklində nəşrə hazırlanmışdır. Sovet dönəminin bir sıra yasaq və qadağaları eposda bəzi motivlərin yer almasına yol verməsə də M.H.Təhmasib nəşri həm bir xalq qəhrəmanı kimi Koroğlu obrazının özünə, həm də eposa misilsiz bir möhtəşəmlik və əzəmət gətirmişdir. Təqribən yarım əsrdir ki, bu nəşr dəfələrlə və kütləvi tirajla çoxmilyonluq oxucu auditoriyasına çatdırılır. Cəsarətlə demək olar ki, milli şüur və qəhrəmanlıq-yurdsevərlik ruhunun güclənməsində Təhmasib «Koroğlu»sunun ölçüyəgəlməz dərəcədə mühüm rolu olmuşdur. Təəs-

süf ki, görkəmli alimin bu dəyərli xidmətinə bir sıra hallarda «Təhmasibin romanı» adı altında kölgə düşürülmüş, hətta sovet dönəmində üzdəniraq qonşularımızın Moskvadakı təmsilçiləri və sapı özümüzdən olan baltalar» eposun Moskvada nəşr olunmasına imkan verməmişlər. Bədxahların dünən və ya bu gün nə söyləməsindən, hansı səviyyədə irad tutmasından asılı olmayaraq «Koroğlu» eposunun nəşri təcrübəsinin ən mükəmməl örnəyi M.H.Təhmasibin hazırladığı mətn olaraq qalır.

Azərbaycan filoloji fikrində folklorşünaslığın ayrıca elmi istiqamət kimi formalaşmasında, bu sahənin sistemli elmi-nəzəri təhlillər kontekstinə çevrilməsində də M.H.Təhmasibin xidmətləri təkrarsız və unudulmazdır. Qırxıncı illərdə qələmə aldığı konseptual səciyyəli ilk məqalələrindən tutmuş iyirminci əsr Azərbaycan folklorşünaslığının şah əsəri saydığımız «Azərbaycan xalq dastanları (orta əsrlər)» monoqrafiyasına qədər irili-xırdalı hər bir tədqiqatında yüksək elmi erudisiya və nəzəri ümumiləşdirmə qabiliyyəti nümayiş etdirən görkəmli alimin elmi irsi sözün həqiqi mənasında bir məktəbdir. Onun hər bir əsəri yeni elmi tədqiqatlar üçün stimul verir, təkanverici qüvvə rolu oynayır. Azərbaycan xalq dastanlarının genezis, tarixi təşəkkül və poetika probleminə həsr olunmuş fundamental monoqrafiyası isə hər bir ciddi folklorçunun stolüstü kitabıdır.

«Xalq ədəbiyyatımızda mövsüm və mərasim nəğmələri» (1946) adlı namizədlik, «Azərbaycan xalq dastanları» (1965) mövzusunda doktorluq dissertasiyalarını o, sadəcə elmi dərəcə almaq üçün hazırlamamışdır. Hər iki əsər mükəmməl monoqrafik tədqiqat olmaqla yanaşı, həm də elmi-strateji proqram səciyyəsi daşıyır. Təsadüfi deyildir ki, məhz həmin proqram səciyyəli araşdırmalardan sonra Azərbaycanda mərasimşünaslıq və eposşünaslıq yüksələn xətt üzrə inkişaf etmiş, bir çox sanballı monoqrafiyalar böyük ustadın müəyyənləşdirdiyi elmi istiqamətin uğurlu nəticəsi olaraq ortaya çıxmışdır.

M.H.Təhmasibin epos nəzəriyyəsi üzrə görkəmli mütə-

xəssis kimi qəbul olunması təkcə Azərbaycan hüdudlarını əhatə etmir. Keçmiş Sovet məkanında, eləcə də qardaş Türkiyədə o, sözügedən sahənin ən nüfuzlu elmi söz sahiblərindən sayılmış və sayılmaqdadır. Altmış-səksəninci illərdə Moskvada keçirilən eposşünaslıqla bağlı bütün konfrans və elmi tədbirlərdə M.H.Təhmasibin adı ehtiramla çəkilmiş və onun mövqeyinə mötəbər, nüfuzlu elmi yanaşma kimi böyük əhəmiyyət verilmişdir. Bu barədə kifayət qədər sənəd və elmi qaynaq mövcuddur.

Epos mədəniyyətimizin dərin bilicisi olan görkəmli alimin «Kitabi-Dədə Qorqud» dastanının elmi dövriyyəyə qaytarılmasında da xidmətləri böyükdür. 1951-ci ildə Azərbaycan KP XVIII qurultayının qərarı ilə pantürkist, milliyyətçi əsər kimi damğalanıb yasaq edilən «Kitabi-Dədə Qorqud»a bəraət verilməsi məqsədi ilə 1957-ci ildə hazırlanmış elmi arayışı M.Arif, H.Araslı, Ə.Dəmirçizadə kimi tanınmış elm adamları ilə yanaşı M.H.Təhmasib də imzalamışdır. Bəraətdən sonra akademik H.Araslının hazırladığı «Kitabi-Dədə Qorqud» (1961, 1978) nəşrlərinin elmi redaktorluğu da görkəmli eposşünas kimi M.H.Təhmasibə etibar edilmişdir. Alim «Dədə Qorqud» eposu barədə öz məşhur monoqrafiyasında söz açmaqdan əlavə, illərdən bəri ürəyində, beynində dolandırdığı fikir və mülahizələri «Bir tarixi həqiqətin eposdakı izləri» adı altında 1981-ci ildə ayrıca məqalə şəklində elmi ictimaiyyətə çatdırmışdır. Bu, Təhmasib qələmindən bizə yadigar qalan sonuncu elmi əsərdir. Sonuncu cümləsi sual şəklində bitən bu məqalə də onun digər əsərləri kimi çoxsaylı polemik və problematik məsələlərə aydınlıq gətirməklə yanaşı, qorqudşünaslığın qarşısında duran yeni elmi istiqamətləri müəyyənləşdirmək baxımından konseptual səciyyə daşıyır.

Görkəmli folklorçunun müxtəlif illərdə qələmə aldığı «Gözəllik nəğməkarı», «Nəsimi və xalq poeziyası», «Ədib-alim», «C.Cabbarlı» və şifahi ədəbiyyat», «Uzaq ellərin yaxın

töhfələri» və s. məqalələr də həm elmi tutumu, həm obyektivlik meyarı, həm də məntiqli, səriştəli təhlil metodu ilə diqqətçəkicidir. Nəsimi, Aşıq Ələsgər, C.Cabbarlı irsinin folklor qatını üzə çıxararkən, eləcə də Kərkük xoryatlarının poetik bənzərsizliyini açıqlayarkən Təhmasib müəllim dərin folklor bilicisindən əlavə həm də bədii, poetik sözün sərrafı kimi yadda qalır. Bu da onun ruhən, mənən bədii söz, ədəbiyyat adamı olmağı ilə bağlı idi. «Onu bağışlamaq olarmı», «Bir qalanın sirri» kimi bədii əsərləri məhz belə bir ürəyin sahibi qələmə ala bilərdi.

H.Təhmasib elmi nüfuzunu təsdiqləyən əlamətdar hadisələrdən biri də Novruz bayramının qeyd olunması ilə bağlıdır. Bilindiyi kimi, iyirminci illərin sonlarından Novruz bayramına dini rəng verilərək onun keçirilməsi rəsmi şəkildə qadağan olunmuşdu. Altmışıncı illərdə siyasi sistemin mülayimləşməsi nəticəsində Novruz bayramına bəraət qazandırmaq imkanı ortaya çıxanda həmin mövzuda elmi əsaslandırmanı hazırlamaq respublikanın ən nüfuzlu folklor mütəxəssisi kimi M.H.Təhmasibə həvalə edilmişdir. Novruz bayramının gerçək tarixi mahiyyətini əks etdirən elmi əsaslandırmanı yüksək səviyyədə hazırlayan görkəmli alimin həmin arayışı 1966-cı ildə «Ədəbiyyat və incəsənət» qəzetinin 12 mart tarixli nömrəsində – Novruz ərəfəsində çap olunmuşdur. Məlum olduğu üzrə artıq bundan bir il sonra – 1967-ci ildə Bakıda Novruz mərasimi kütləvi xalq bayramı kimi böyük təntənə ilə qeyd edilmişdir. 1979-cu ildə o vaxt respublikaya rəhbərlik edən Heydər Əliyevin təşəbbüsü ilə ilk dəfə Novruz bayramının Azərbaycan televiziyası ilə translyasiya olunmasına hazırlıq işləri gedərkən də M.H.Təhmasib əsas elmi məsləhətçi kimi həmin mötəbər tədbirdə ləyaqətli yer almışdır.

Görkəmli alimin elmi-təşkilati fəaliyyəti də çoxsahəli və geniş olmuşdur. Elmi kadrların hazırlanması, folklor nəşrlərinin təşkili, müşavirə və konfransların keçirilməsi və s. bu kimi mühüm istiqamətlərdə onun sözü, mövqeyi əsas götürülmüş-

dür. Folklor işinə az qala hərbi intizam səviyyəsində ciddi yanaşan Təhmasib müəllim milli-mənəvi dəyərlərə, xalq ədəbiyyatı örnəklərinə son dərəcə həssas münasibət bəslədiyindən onun xeyir-duası, razılığı olmadan nə elmi idarələr, nə də nəşriyyatlar hər hansı bir folklor materialını və ya məqaləni nəşr etməyə cəsarət göstərməmişlər. Rəhbərlik etdiyi aspirant və dissertantlar, eləcə də, «Şifahi ədəbiyyat» şöbəsində əsəri müzakirə olan bütün tədqiqatçılar M.H.Təhmasib elmi meyarının, tələbkarlığının folklorşünaslıqda nə qədər nüfuz və ciddilik gətirdiyini yaxşı xatırlayırlar. Bu gün Azərbaycan folklorşünaslıq elmini ləyaqətlə təmsil edən A.Nəbiyev, B.Abdulla, İ.Abbaslı, S.Paşayev, M.Cəfərli və başqa mütəxəssislər görkəmli alimin xeyir-duası ilə fəaliyyətə başlamışlar. Elmi arena ilə bərabər pedaqoji sahədə də öz bilik və bacarığını yeni nəslə mənimsədən M.H.Təhmasib ali məktəblərdə folklorun tədrisi ilə də məşğul olmuş, bir çox istedadlı gəncin folklor işinə həvəslənməsində onun dərin məzmunlu mühazirələri həlledici rol oynamışdır. Bu baxımdan altmış-səksəninci illər nəslinə mənsub olan folklorçuların əksəriyyəti bu və ya digər şəkildə M.H.Təhmasib elmi məktəbinin yetirmələridir.

110 il öncə Naxçıvanda dünyaya gələn, 25 il öncə Bakıda dünyadan gedən böyük folklorşünasın həssas ruhunun ədəbi bir mənzilgahı var – Azərbaycan folkloru! İllər, onillər boyudur ki, Azərbaycan folklorundan söz açılan elə bir məclis, elə bir elmi söhbət, elə bir tədbir olmur ki, orada M.H.Təhmasibin adı xatırlanmasın. Çünki Azərbaycan folklorunun toplanması, nəşri və tədqiqinin elə bir sahəsi yoxdur ki, orada Təhmasib nəfəsi duyulmasın, Təhmasib möhürü görünməsin. Müqəddəs folklor karvanımızın müdrik sarvanı hər zaman önümüzdədir.

# M.H.TƏHMASİBİN YARADICILIĞINDA ADƏT, ƏNƏNƏ VƏ MƏRASİMLƏRƏ KONSEPTUAL YANAŞMA

**Tahirə MƏMMƏD**
*Filologiya üzrə elmlər doktoru, professor*
*AMEA Ədəbiyyat İnstitutu*
*tahire.mammed@yahoo.com*

***Giriş***

Hər bir xalqın mənəvi-mədəni səviyyəsini müəyyənləşdirmək, onun keçmişini, indisini və perspektivlərini dəyərləndirmək üçün adət-ənənə və toplu davranışlarını – mərasimlərini öyrənməyə, araşdırmağa ehtiyac var. M.H.Təhmasib bu mühüm problemi tədqiqatlarının diqqət mərkəzində saxlamışdır.

Qloballaşan dünyada gedən başlıca mübarizələrdən biri məhz bu istiqamətdə gerçəkləşib. Məşhur şərqşünas E.Səid Qərbin Şərqin adət, ənənə və etiqadlarını pozması uğrunda apardığı mübarizəyə qərblilərin öz dilindən – Luis Messidən misal gətirir. L.Messi yazır: "Onların hər şeylərini təhrif edib korladıq, fəlsəfələri, dinləri məhv oldu, artıq heç bir şeyə inanmırlar, dərin bir boşluğa düşüblər. Anarxiya və intihar üçün yetkin bir hala gəliblər..." [2]

M.H.Təhmasib 1966-cı ildə yazdığı "Adət, ənənə, mərasim, bayram" adlı məqaləsində belə bir fikri vurğulayırdı ki, "Adət və ənənələr, mərasim və bayramlarla ciddi şəkildə məşğul olmaq lazımdır. Bizcə, bunun üçün Respublika miqyasında bir şura yaradılmalıdır" [4,115]. Hazırda beynəlxalq səviyyədə yaşanan siyasi-ideoloji-mədəni proseslər alimin bu fikrində nə qədər haqlı olduğunu bir daha sübut edir.

***a) Adət və ənənələrdə, mərasimlərdə uyğun paralellər, fərqlər, baş verən transformasiyalar və onların başlıca səbəbləri***

M.H.Təhmasib problemi müqayisəli şəkildə araşdırmaya cəlb edir və müqayisəni iki istiqamətdə aparır – fərqli xalqların və regionların mədəniyyəti; eyni regionun və xalqın mədəniyyəti.

Adət, ənənə və mərasimin fərqli xalqlarda və mədəniyyətlərdə dəyişik şəkildə icrası təbiidir. Qarşılaşdırmada ortaqlıqların tapılması maraqlıdır. Bu baxımdan M.H.Təhmasibin qədim yunan, roma, hind mədəniyyəti ilə qədim Azərbaycan mədəniyyəti arasında tipoloji paralelləri tapması, Azərbaycan mədəniyyətini sahib olduğu zənginliyi ilə onlara bərabər tutması və öz ideyasını faktlarla əsaslandırması elmi baxımdan son dərəcə əhəmiyyətlidir. Uyğun paralelləri müəyyənləşdirməklə bərabər özünəməxsusluqların dəyərləndirilməsi üçün fərqlər və onların səbəbləri üzərində daha geniş dayanır. Həmin istiqamətdə kosmoqonik və zoomorfik miflərin və obrazların, onların antropomorfik səciyyəsinin müqayisəsi maraq doğurur.

Adət, ənənələr və mərasimlər ya olduğu kimi, ya da müəyyən dəyişmələrlə yaşayır və yaxud öz elementlərini genetik kod kimi paylanmış şəkildə təzahür etdirir. Bu dəyişmələrin başlıca səbəblərini tədqiqatçı dini dünyagörüşünün, etiqadların, sosial-tarixi-siyasi şəraitin dəyişməsi ilə əlaqələndirir. Həmin dəyişmələrin cərgəsini müəyyənləşdirir: qədim Azərbaycana xas dünyagörüşü, adət və etiqad – Zərdüştlük – İslam (daha sonra, sovet dövrünün də özü ilə gətirdiyi ideologiya və mərasimlərdən bəhs edir).

Müqayisəli tədqiqatın mərkəzində Midiyanı və daha qədim Azərbaycanı, zərdüştlükdən əvvəlki dövrü saxlayan alim, farsları və Midiya xalqını bir-birindən ayırır. Midiya və daha qədim Azərbaycana aid olan inancların zərdüştliklə bağlı uğradığı transformasiyaları yad dəyişmələr kimi izah etmir; inancların təkamülündə baş verən çevrilmələr kimi dəyərləndirir. “Avesta” özündən əvvəlki inancları dəyişmə və inkişaf etdirmə əsasında meydana gəlmiş bir abidə kimi özündən sonrakı bir çox başlanğıclar üçün də mənbə rolunu oynamışdır – M.H.Təhmasib problemi bu mövqedən araşdırmaya cəlb edir.

Adət-ənənələrimizdə ikinci ciddi transformasiya hadisəsi İslam dini dünyagörüşü ilə əlaqədar baş vermişdir. Lakin xalq yaradıcılığında yaşanan genetik daşıyıcılar qədim adət-ənənənin

yaşaması üçün ciddi səddə çevrilə bilməmişdir; dəyişik şəkil və formalarda yaşamını davam etdirmişdir. M.H.Təhmasib daşıyıcı elementlərin müəyyənləşdirilməsi yolu ilə əskinin bərpası və tarixi təkamülünün, transformasiyasının, yenilənməsinin, nəhayət, yaşamasının tədqiqi yollarının metodologiyasını təqdim edir.

### *b) "Sehr düsturları" və mədəni genetik kod problemi*

Genetik təkamülü, etnogenez məsələlərini xalq yaradıcılığında izləməyin yollarını tədqiqatlarında nümayiş etdirən M.H.Təhmasib nəğmələr üzərində xüsusi dayanır. Adət-ənənələrin, mərasimlərin epik məzmununu və funksiyasını açmaq üçün M.H.Təhmasib nəğmələrdən və deyimlərdən başlayır, onlara bir yaddaş qutusu kimi yanaşır, sözlərin semantikası və etimologiyası üzərində dayanır. Bizə bəzən anlamsız görünən söz və ifadələri qədim dünyagörüşü, inam və etiqadlarla əlaqələndirir. Nəğmələrə etnopsixologiya mövqeyindən də yanaşan alim maraqlı elmi müddəalarla çıxış edir.

Müəllif o dövrdə Plexanovdan başlayıb gələn və ədəbiyyat nəzəriyyələrində ənənəvi baxış bucağına çevrilən formasiyalar, bazis-üstqurum yanaşmasına [1; 3] ötəri münasibət bəsləyərək şifahi ədəbiyyatın qaynağının əmək nəğmələri olması mövqeyindən ümumi giriş səviyyəsində çıxış edir, xalq təfəkküründəki təkamüldə təbiət-insan münasibətlərində sözün əfsunkar qüvvəsindən, sehr və ovsunlardan, fallardan bəhs edir; bununla da hər bir xalqın özünəməxsus inanc və qavrayışlarının, mərasimlərinin öyrənilməsinin son dərəcə vacibliyi probleminə diqqəti yönəltmiş olur. Folklorun başlanğıcında əmək nəğmələrinin rolunu ifrat dərəcədə qabartmağın yanlış konsepsiya olmasını açıq tənqid etməsə də, M.H.Təhmasib özünün alternativ yanaşması ilə bu ifratçılığın əsassız olması görüşünü formalaşdırır. Onun nəğmələrə münasibəti nəğmənin insanın əmək-məişət prosesində formalaşmasının şahidi olması görüşü ilə məhdudlaşmır. M.H.Təhmasib üçün nəğmə öz yaddaş funksiyasında daha geniş məzmun daşıyır və tədqiqatda həssas münasibət tələb edən xü-

susi xəzinədir. Ona görə də sözlərə, anlaşılması çətinlik törədən ifadələrə, bəndlərə, nəqarətlərə, onların ifa şəkillərinə diqqət yönəldən müəllif nəğməni xüsusi abidə kimi araşdırır. Nəğmələrdə indi bəzən anlamsız, anlaşılmaz təkrarlar kimi səslənən sözlərin belə müəyyən inanc və etiqadlarla, əfsunlarla bağlarını araşdırır, onların düsturunu çözməyə çalışır. Bununla həm də folklorun əhəmiyyətini, müstəsna rolunu irəli çəkir. Uşaqlıqda oyun zamanı söylədiyimiz ritmik sözlərin belə magik güc və inamlardan gəldiyini araşdırıb əsaslandıran alim diqqətimizi həm də milli tarixin uşaqlığına, gəncliyinə, eyni zamanda təbiətlə həmahəng müdrikliyinə yönəldir.

Təbiətlə, kosmosla əlaqəni təmin edən sehr düsturları ilə bərabər, həm də insanlararası münasibətdə magik qüvvələrə inama söykənən, ruh və varlıqlardan güc alan alqış-qarğışlara da M.H.Təhmasib diqqət çəkir. Sözün əfsun gücünə olan inama söykənən alqış və qarğışlar özü də haradasa sehr düsturları və genetik kod daşıyıcılarıdır. Şəxsi arzuları (istər xeyir, istərsə də şər məzmunlu olsun) ifadə edən alqış və qarğışlardan başqa bir də ümumiləşmiş şəkildə kodlaşmış alqış və qarğışlar var; əsrlərcə davam edən təkrarlarda onlar sanki əsrlərin və əcdadların da ruhi ağırlığını özünə hopdurub, epik məzmun və səciyyə qazanıb. M.H.Təhmasib də alqış və qarğışlara məhz bu səyahət – keçmişdən gələcəyə magistralında nəzər yetirir və bizim də nəzərimizi həmin axına yönəldir.

Azərbaycanda yaşanan təkamülü göstərmək üçün “bizdə”və “qədim Azərbaycanda” sözlərini paralel, sinonim ifadələr kimi işlədir. Bu sözlərin paralelliyi həm də bizim – Azərbaycan türklərinin qədim Azərbaycan vətəndaşları olması fikrinə şübhə yaratmaq istəyənlərə cavab kimi səslənir və alimin vətəndaşlıq, azərbaycançılıq, türkçülük mövqeyindən xəbər verir. Beləliklə, alim sözün, sözlü ədəbiyyatın, sinkretik sənət kimi mərasimlərin magik gücünü qədim Azərbaycandan – müasir Azərbaycan vətəndaşının ulu əcdadlarının vətənindən başlayaraq öz dövrünə

qədər keçdiyi yolu izləyir. Faldan, əfsundan, sehr düsturlarından söz açan M.H.Təhmasib araşdırmanın ağırlıq mərkəzinə "Ata-baba günü mərasimləri"ni gətirir və azərbaycanlıların inanc qaynağında bu mərasimi xüsusi həlqə kimi mənalandırır.

***c) Qədim Azərbaycanda inanclar kompleksinin təzahürü – "Ata-Baba günü mərasimi"***

Ata-baba günü bir mərasim olmaqla bərabər özündə həm də təbiət, kosmos və ruhlarla bağlı inanc kompleksini ehtiva edir. Əcdad ruhunun da özünəməxsus funksiyası olan Ata-baba günü, bir növ, bizim mərasimlərin əcdadıdır. M.H.Təhmasib bu mərasimin formalaşmasında təsiri olan əfsanə və əsatirləri, etiqadları da tədqiqata cəlb edərək Ata-baba gününü xüsusi kompleks kimi təqdim edir. Həmin kompleksin təqdimi, eyni zamanda, alimin özünün konseptual yanaşmasının parametrlərini açmaq baxımından əhəmiyətlidir.

Mərasimin meydana gəlməsində Azərbaycanın təbiətinin, coğrafiyasının rolunu önə çəkən alim tarixi-coğrafi şərait amilinin tədqiqatlarda nəzərə alınmasını əsas şərtlərdən biri kimi vurğulayır. Coğrafi şəraitlə bağlı insanın üzləşdiyi şərtlər bir sıra əsatir və əfsanələrin, etiqadların yaranmasına əsas verməklə bərabər həm də insanın doğma təbiətə uyğun etnopsixologiyanın formalaşmasına da öz təsirini göstərir. M.H.Təhmasib Azərbaycanın coğrafiyası ilə əlaqədar əsatir və əfsanələri tədqiqata cəlb edir. İnsanların təbiətlə ünsiyyət qurması, ruhların, kosmik qüvvələrin köməyindən istifadə etmək üçün icra etdikləri mərasimlərdə yerinə yetirilən etiqadlar, oxunan dualarla bərabər kəsilən qurbanlar bir çox etiqadların Azərbaycanda çox qədimdən mövcud olmasından xəbər verir.

"Ata-baba günü mərasimi" ata-baba, əcdad ruhunun yaşamasına və insan-kosmos-dünya haqda mifoloji inanclar kompleksinə əsaslanır. M.H.Təhmasib bu kompleksə əhatəli şəkildə nəzər salır və "Ata-baba günü"nün özünü bir model kimi araşdırır. Ata-baba gününü "əcdadı xatırlama" [4,35] , əcdaddan kö-

mək istəmə mərasimi kimi dəyərləndirən alim əcdad anlayışına çox geniş müstəvidə yanaşır və problemə aydınlıq gətirmək üçün mümkün folklor qaynaqlarına, xalq inanclarına, abidələrə geniş nəzər salır. Mərasimin özünün "əcdadlarını" və "törəmələrini" araşdırmaya cəlb edir, epik vüsət və ağırlıq, əzəmət yaradır. Bu vüsət, ağırlıq və əzəmət xalqımıza aiddir, eyni zamanda, həmin mənzərəni qavrayışımızda, ruhumuzda canlandırıb oyaq saxlamaq istəyən alimin, azərbaycanlının özünə şamildir.

Araşdırdığı problemə çoxtərəfli, sistemli yanaşan M.H.Təhmasib inanc və etiqadların təkamülü prosesində "Avesta"ya və ondan əvvəlki qaynaqlara müraciətində qədim Azərbaycanın öz dünyagörüşü sistemi ilə müasir dinlərə verdiyi töhfələr haqda da müəyyən təsəvvür yaradır. Bu baxımdan o biri dünya, axirət kompleksinin quruluşu haqda "Avesta"nın təqdimatının araşdırmaya cəlb olunması diqqəti cəlb edir.

"Ata-baba günü mərasimi" ətrafında M.H.Təhmasib bütün əsas mərasimlərimizi bir araya gətirib tədqiq edir – "Hodu-Hodu" ("Qodu-Qodu"), "Günəşi dəvət", "Səməni bayramı", nəhayət, kompleksin tam başa çatdığı "Novruz mərasimi".

M.H.Təhmasib Novruz bayramına xüsusi bir sistem kimi yanaşır və onun bütün komponentlərinin funksiyasına aydınlıq gətirməyə çalışır. Bu baxımdan onun sonrakı tədqiqatlarda bilərəkdən və bilməyərəkdən təsəvvür və etiqadları dolaşdıran tədqiqatçılardan fərqli olaraq axır çərşənbələrə xalq etiqadına uyğun aydın münasibət var. M.H.Təhmasib axır çərşənbələrin bir-birini əvəz etməsinə "abi-atəş, xaki-bad" deyiminin süni tətbiqi ilə yox, xalqın onu öz adət-ənənəsində yaşatdığı ardıcıllıqla yanaşır – od çərşənbəsi icra olunduğu şəkildə, həssas folklorçu münasibətində də sonda verilir.

***Nəticə***

"Ata-baba" sözü M.H.Təhmasib tədqiqatları üçün xüsusi düstura çevrilmişdir. Alimin haqlı qiymətləndirməsinə görə,

folklor ata-baba ruhunun ifadəsidir, ona həssas münasibət bəsləməyib, qeyri-ciddi və qərəzli yanaşma böyük günahdır.

## QAYNAQLAR

1. Baqri A.V. Ədəbiyyat biliyinə başlanğıc. B., Lenin adına Azərbaycan Dövlət Darülfünunun Pedaqoji Fakültəsi üçün dərslik mətni, I hissə, 1930
2. Edward Said, Orientalism. New York: Pantheon, 1978. https://is.cuni.cz/studium/predmety/index.php?do..
3. Ədəbiyyatdan iş kitabı. Bakı, Azərnəşr, 1928
4. Məmmədhüseyn Təhmasib. Seçilmiş əsərləri, iki cilddə I c., Bakı, Mütərcim, 2010

# MƏMMƏDHÜSEYN TƏHMASİBİN AZƏRBAYCAN FOLKLORŞÜNASLIQ TARİXİNDƏ YERİ

**Seyfəddin RZASOY**
*Filologiya elmləri doktoru*
*AMEA Folklor İnstitutu*
*seyfeddin_rzasoy@mail.ru*

Folklorşünaslıq bir elm kimi XVIII əsrin sonu, XIX əsrin əvvəllərindən mövcuddur. Ona qədər bir çox həvəskarlar, səyyahlar, tacirlər, yazıçı və tarixçilər xalq əsərlərini toplamaq, çap etmək, bəzən də qısa, pərakəndə qeydlər, şərhlər verməklə kifayətlənmişlər. Xüsusilə XIX əsrin ilk illərindən başlayaraq folklorşünaslıq dilçilik və etnoqrafiyadan ayrılaraq, müstəqil elm kimi inkişaf etməyə başlamışdır (13, 16).

Əvvəlki yazılarımdan birində qeyd etdiyim kimi, üç əsr (XIX-XXI) boyunca mənəvi baxımdan – böyük, məzmunca – zəngin, tale baxımından – mürəkkəb yol keçilmişdir. Milli folklorşünaslıq düşüncəsi dünənlə bu gün arasında fərqli ictimai-iqtisadi formasiyaların (kapitalizm, sosializm, bazar iqtisadiyyatı), ideologiyaların (müstəmləkəçilik, müstəqillik, sosializm, demokratiya), epoxaların, insan nəsillərinin içindən keçmişdir. Hər epoxa öz ovqatı ilə folklorşünaslığı fərqli ideoloji tezliyə kökləsə də, o, milli ictimai şüurun əsas formalarından biri kimi öz ana funksiyasında dəyişməz qalmış, bütün zamanlarda milli özünüdərkə xidmət etmişdir. Bu cəhətdən Azərbaycan folklorşünaslığı da bir fəaliyyət hadisəsi kimi özünügerçəkləşdirmənin bütün səviyyə və təzahürlərində özünüdərk sxemini reallaşdırıb. Folklorşünaslıq düşüncəsinin dünəni ilə bugünü arasında hansı ideoloji marağa qulluq etməsindən asılı olmayaraq, nə yazılıbsa, nə deyilibsə, nə edilibsə, nəticə etibarilə özünüdərkə xidmət edib. Bu, böyük, ulu bir yoldur (15, 155). Bu yolun “yolçuları” içərisində Məmmədhüseyn Təhmasibin özünəməxsus yeri və rolu vardır.

M.Təhmasibin Azərbaycan folklorşünaslıq məkanındakı fəaliyyəti üç əsas istiqaməti əhatə edir:

1. Folklorun toplanması, tərtibi və nəşri istiqamətindəki işləri;

2. Folklorun tədqiqi istiqamətindəki araşdırmaları;

3. Folklorun təbliği və tədrisi istiqamətindəki fəaliyyəti.

O, bir enerjili folklorşünas kimi bu üç fəaliyyət istiqamətlərinin hər birində diqqətəlayiq, Azərbaycan elm və mədəniyyət tarixinin yaddaşından silinməyəcək işlər görmüşdür.

Onun bir alim kimi Azərbaycan folklorşünaslığının tarixindəki rolu yaradıcı-kreativ paradiqma təşkil edir. Azərbaycan klassik folklorşünaslıq ənənələrinin sonuncu nümayəndələrindən biri, M.Təhmasibin yanında "məktəb keçmiş" mərhum İsrafil Abbaslı haqqında yazdığım məqalədə qeyd etdiyim kimi, elmi yaddaşla folklor yaddaşı arasında işləmə prinsipi baxımından oxşarlıq var. Folklor yaddaşı illəri, əsrləri, qərinələri əhatə edən hadisələr içərisindən ən xarakterik olanları ümumiləşdirib, universal yaddaş sxeminə çevirdiyi kimi, elm yaddaşı da gerçəklik faktını ümumiləşdirib, universal sxemə çevirə bilən tezisləri öz yaddaşına qəbul edir. Bəzən elə olur ki, bir alim bütün ömrü boyu tədqiqatlar aparır və öz fəaliyyəti ilə mövcud elmi ritmi davam etdirir. Lakin elmi fikir dövriyyəsində məşğul olduğu sahəni qabağa aparacaq, həmin sahədə köklü dəyişikliklər edəcək tezislər daxil edə bilmir. Bu zaman onun fəaliyyəti müsbət imitasiyaya xidmət edir: bu fəaliyyət öz enerjisi ilə ümumelmi fəaliyyət dinamikasını yaşatmağa qulluq edir. Ümumiyyətlə, belə fəaliyyət olmasaydı, elmi fikrin inkişafında fasilələr (diskretlər) yaranardı. Və bəlkə də, belə olsaydı, biz elmin mövcud inkişaf tarixinin indi malik olduğumuzdan tamamilə fərqli təbiəti ilə üzbəüz qalardıq. Bəzən də elə alimlər olur ki, onların yaradıcılığı elmin inkişaf dinamikasını stimullaşdırır: elmi fikir dövriyyəsinə daxil etdikləri tezislərlə yeni istiqamətlər açırlar. Bu baxımdan, Azərbaycan folklorşünaslığı da elmi materiyanın bu mövcud qa-

nunauyğunluqlarına tabe olub, elmi fəaliyyətin iki tipi ilə təmsil olunur:

*Birincisi,* folklorşünaslığın mövcud ənənələri əsasında formalaşıb, bu ənənələrini yaşatmağa (müsbət imitasiyaya) xidmət edənlər;

*İkincisi,* mövcud ənənələr əsasında formalaşmaqla bərabər, onu yeni səviyyəyə transformasiya edənlər (16, 104-105).

M.Təhmasib bu cəhətdən həm klassik ənənələr əsasında yetişmiş folklorşünas, həm də bu ənənələri yaşatmaqla bərabər, onları yeni səviyyəyə qaldıra bilmiş alim idi.

Onun folklorun toplanması, tərtibi və nəşri sahəsindəki fəaliyyəti milli mədəniyyət tariximizin üç mühüm hadisəsi ilə bağlıdır:

1. Azərbaycan nağıllarının keçən əsrin 60-cı illərinin birinci yarısında həyata keçirilmiş fundamental beşcildliyinin (bax.: 7; 8; 9; 10; 11) nəşri sahəsindəki fəaliyyəti.

2. Azərbaycan dastanlarının keçən əsrin 60-cı illərinin ikinci yarısında həyata keçirilmiş fundamental beşcildliyinin (bax.: 2; 3; 4; 5; 6) nəşri sahəsindəki fəaliyyəti.

3.“Koroğlu” dastanının nəşri sahəsindəki fəaliyyəti (bax: 14).

M.H.Təhmasibin namizədlik dissertasiyası mərasim folkloruna həsr olunmuşdur. Ancaq alimin elmi fəaliyyəti, əsasən, epik folklorun tədqiqi ilə bağlıdır. Onun Azərbaycan folklorşünaslıq elmi tarixindəki əsas yeri 1972-ci ildə çap olunmuş “Azərbaycan xalq dastanları (orta əsrlər)” monoqrafiyası (bax.: 17) ilə müəyyənləşir. Bu tədqiqatın folklorşünaslıq elmi tarixindəki əsas rolu onda formal struktur metodunun özünəməxsus şəkildə tətbiqi ilə bağlıdır. Mərhum folklorşünas Məhərrəm Cəfərli bu tədqiqatın metodoloji xüsusiyyətləri haqqında yazır: “Məhəbbət dastanlarının poetikası baxımından burada diqqəti daha çox cəlb edən isə görkəmli tədqiqatçı M.H.Təhmasibin “Azərbaycan xalq dastanları (orta əsrlər)” monoqrafiyasında məhəbbət dastanlarına həsr olunmuş bölmədir (17, 177-377). Ümumiyyətlə, Azərbaycan dastanla-

rının poetikası ilə bağlı yazılmış başqa əsərlərin əhəmiyyətini kiçiltmədən demək istərdik ki, bu əsər Azərbaycan dastanları ilə bağlı 70-ci illərin əvvəllərində meydana çıxmış qiymətli bir tədqiqat kimi bu gün də öz dəyərini saxlamaqda, bu sahədə aparıcı elmi araşdırmalardan olmaqda davam edir. Monoqrafiyada Azərbaycan dastanları, o cümlədən məhəbbət dastanları, demək olar ki, həmin dövr üçün əldə olunan bütün dastan fondumuz əsasında morfoloji struktur baxımından öyrənilir. Düzdür, tədqiqatçı özü dastanlarımızı morfoloji baxımdan öyrəndiyini yazmasa da, tədqiqatın hazırlanmasında görkəmli folklorçu V.Y.Proppun nağılların morfoloji strukturunun öyrənilməsinə həsr etdiyi məşhur tədqiqatlarının (18; 19; 20) müsbət rolu aydın görülməkdədir. Xüsusi qeyd etmək lazımdır ki, M.H.Təhmasib mətnin struktur üsulla tədqiqini bu əsərində xüsusilə məhəbbət dastanlarının öyrənilməsinə uğurla tətbiq etmişdir. Əslində, Azərbaycan dastanlarının bu monoqrafiyada uğurla öyrənilməsinin səbəbi və əsərin dastanşünaslığımızdakı bugünkü aktual mövqeyi də, burada dastanların, xüsusilə məhəbbət dastanlarının struktur poetikanın tələbləri baxımından araşdırma obyektinə çevrilməsidir. Bu baxımdan M.H.Təhmasib Azərbaycan məhəbbət dastanlarını struktur təhlilə cəlb edən ilk mütəxəssisdir. Düzdür, məhəbbət dastanları Azərbaycan folklorşünaslığında sonralar müxtəlif istiqamətlərdən təhlil olunmuşdur. Ancaq onların struktur tədqiqi sahəsində M.H.Təhmasibin gördüyü işlər hələ ki yeganə olaraq qalır... M.H.Təhmasibin monoqrafiyasında məhəbbət dastanları öz morfoloji strukturu baxımından təhlil olunur. Başqa sözlə, bu, dastanın sintaqmatik düzüm sırasını təşkil edən morfoloji elementlərin aşkarlanmasıdır. Bu, M.H.Təhmasibə məhəbbət dastanlarının onların ümumi strukturu baxımından təsvir etməyə, bütün məhəbbət dastanları üçün ümumi olan çərçivə strukturu aşkarlanmağa imkan vermişdir. Tədqiqatçı Azərbaycan məhəbbət dastanları fondunu tədqiqə cəlb edərək, əslində, məhəbbət dastanlarının ümumi çərçivə strukturunun bütün əsas parametrləri boyunca təsvir edə bilmişdir. Bunun-

la da o, əslində, məhəbbət dastanlarının struktur semantik üsulla tədqiqinin ilk mühüm pilləsini qoymuşdur (12, 28-29).

Ümumiyyətlə, M.H.Təhmasibin Azərbaycan folklorşünaslıq elmi tarixindəki fəaliyyəti zəngin məzmuna malikdir. Məsələn, onun milli mifologiya elminin inkişaf tarixində də özünəməxsus xidmətləri vardır. Alimin bu sahədəki fəaliyyətini araşdırmış fəlsəfə doktoru Emin Ağayev yazır ki, M.H.Təhmasibin "Əfsanəvi quşlar" və "Azərbaycan xalq ədəbiyyatında div surəti" məqalələri sırf mifologiya ilə bağlıdır... müəllifin başqa əsərlərində, xüsusilə "Azərbaycan xalq dastanları (orta əsrlər)" monoqrafiyasında yeri gəldikcə dastan obrazlarının mifoloji cizgilərinə toxunulmuşdur. Bütün bunlar göstərir ki, M.H.Təhmasib ilk yaradıcılıq dövründən mifologiyaya maraq göstərmiş, folklorun mifologiyasız araşdırılmasının obyektiv nəticələrə gətirməyəcəyini dərk etmiş və yuxarıdakı sanballı məqalələrinin nümunəsində olduğu kimi mifoloji tədqiqatlar da aparmışdır. Onun bu məşhur məqalələri Azərbaycan mifologiya elminin inkişafında ciddi rol oynamışdır (1, 69).

Son olaraq qeyd etmək istərdik ki, M.Təhmasibin yaradıcılığı Azərbaycan folklorşünaslığının mühüm bir səhifəsini təşkil edir. Bu səhifə hələ uzun illər oxunacaq və folklorşünaslığa öz töhfələrini verəcəkdir.

## QAYNAQLAR


1. Ağayev E.F. Azərbaycan mifologiya elminin inkişaf istiqamətləri (Mirəli Seyidovun yaradıcılığı əsasında) / Filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. Bakı: 2007, 180 s.
2. Azərbaycan dastanları. 5 cilddə, I c. / Tərtib edənləri Ə.Axundov, M.H.Təhmasib. Bakı: Az. SSR EA Nəşriyyatı, 1965
3. Azərbaycan dastanları. 5 cilddə, II c. / Tərtib edənləri Ə.Axundov, M.H.Təhmasib. Bakı: Az. SSR EA Nəşriyyatı, 1966
4. Azərbaycan dastanları. 5 cilddə, III c. / Toplayanı və tərtib edəni Ə.Axundov. Bakı: Az. SSR EA Nəşriyyatı, 1967

5. Azərbaycan dastanları. 5 cilddə, IV c. / Tərtib edəni M.H.Təhmasib. Bakı: Az. SSR EA Nəşriyyatı, 1969
6. Azərbaycan dastanları. 5 cilddə, V c. / Tərtib edəni Ə.Axundov. Bakı: Az. SSR EA Nəşriyyatı, 1972
7. Azərbaycan nağılları. 5 cilddə, I c. / Tərtib edəni M.H.Təhmasib, Bakı: Azərbaycan EA Nəşriyyatı, 1960, 325 s.
8. Azərbaycan nağılları. 5 cilddə, II c. / Tərtib edəni Ə.Axundov, Bakı: Azərbaycan EA Nəşriyyatı, 1961, 374 s.
9. Azərbaycan nağılları. 5 cilddə, III c. / Tərtib edəni Ə.Axundov, Bakı: Azərbaycan EA Nəşriyyatı, 1962, 282 s.
10. Azərbaycan nağılları. 5 cilddə, IV c. / Tərtib edəni N.Seyidov, Bakı: Azərbaycan EA Nəşriyyatı, 1963, 287 s.
11. Azərbaycan nağılları. 5 cilddə, V c. / Tərtib edəni Ə.Axundov, Bakı: Azərbaycan EA Nəşriyyatı, 1964, 288 s.
12. Cəfərli M. Azərbaycan dastanlarının struktur poetikası. Bakı: Nurlan, 2010, 404 s.
13. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1981, 403 s
14. Koroğlu (dastan) / Tərtib edəni M.H.Təhmasib. Bakı: 1949, 1956, 1960, 1969, 1975 və s.
15. Rzasoy S. Azərbaycan gülüşü etnik özünüifadə kodu kimi Muxtar Kazımoğlunun yaradıcılığında // "Dədə Qorqud" jur., 2006, № 2, s. 155-164
16. Rzasoy S. Azərbaycan "koroğluşünaslığı" və professor İsrafil Abbaslı / İ.Abbaslı. Nurlu ömürdən səhifələr. Bakı: Elm və təhsil, 2015, s. 94-113
17. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər). Bakı: Elm, 1972, 400 s.
18. Пропп В.Я. Исторические корни волшебной сказки. Ленинград: 1946
19. Пропп В.Я. Русский героический эпос. Москва: 1958
20. Пропп В.Я. Морфология сказки. Москва: 1969

# MƏRUZƏLƏR

## M.H.TƏHMASİB VƏ QAÇAQ DASTANLARI

**Afaq QASIMOVA**
*AMEA Folklor İnstitutunun doktorantı*
*qasimovaafaq@mail.ru*

**Özət**

Məqalədə M.H.Təhmasibin dastan yaradıcılığı ilə bağlı qiymətli mülahizələri təhlil edilmiş, onun bu səpkidə tədqiqatlarının digər folklorşünaslar üçün əsas mənbə olduğu qeyd edilmişdir. Həmçinin professorun aşıq yaradıcılığı məsələsinə dair qiymətli mülahizələri də araşdırılmışdır. Görkəmli folklorşünasın dastanla bağlı fikirləri qaçaq dastanları ilə paralel şəkildə təhlil edilmiş və müəllifin "Qaçaq Nəbi" dastanına münasibəti ortaya qoyulmuşdur. Məlum olmuşdur ki, folklorşünasın araşdırmalarında qaçaq dastanları xüsusi yer tutmasa da, bir çox folklorşünaslar kimi onun da bu qaçaq qəhrəmana marağı olmuşdur. Bu maraq foklorşünası "Qaçaq Nəbi" ssenarisinin yazılmasına gətirmişdir.

**Açar sözlər:** M.H.Təhmasib, "Qaçaq Nəbi" ssenarisi, dastan yaradıcılığı, qaçaq dastanları

## М.Х.ТАХМАСИБ И КАЧАКСКИЕ ЭПОСЫ

**Резюме**

В этом статье анализируются творчества М.Х.Тахмасиба и отмечается что его исследования были основным источником для других фольклорных критиков. В этом статье также были изучены аргументы профессора по вопросу ашугского творчества. Выдающегося фольклориста было проанализировано параллельно с эпическими стихами, и было про-

демонстрировано его отношение к эпопее «Гачаг Наби». Было обнаружено, что, хотя в фольклорных исследованиях не было особого места качакские эпосы, его также интересовал этоткачакский герой как многих фольклорных писателей. Этот интерес привел к созданию сценария «Гачаг Неби».
**Ключевые слова:** М.Х.Тахмасиб, сценарий «Гачаг Неби», эпический образ, эпос беглецов

## M.H.TAHMASIB AND FUGITIVE SAGAS

**Summary**

The article analyzes valuable thoughts of M.H.Tahmasib about saga and it says that Tahmaib's investigation in this field is one of the main sources for the folklorists. Also professor's valuable discretions about ashug creativity has been analyzed in the article. Great folklorist's thoughts about saga and fugitive saga have been analyzed parallel author's feedback about "Qachaq Nabi" was researched. İt is found out that in his investigations he had special interest to this hero. This interest led him to write a script to the film "Qachaq Nabi".
**Key words:** M.H. Tahmasib,"Qachaq Nabi " senario, saga, fugitive sagas.

**Məsələnin qoyuluşu:**

Görkəmli Azərbaycan folklorşünası, həmçinin yazıçısı, dramaturqu, ədəbiyyatşünası, ssenari müəllifi, tərcüməçisi M.H.Təhmasib Azərbaycanın folklorşünaslıq tarixində xüsusi dəsti-xətti olan və önəmli yerlərdən birini tutan görkəmli simalardandır. Onun bir neçə mövzunun araşdırılmasında xidmətləri böyük olsa da, bunlardan ən önəmli yeri dastanlarla bağlı geniş tədqiqatı tutur. "Prof. M.H.Təhmasib Azərbaycan dastanları ilə bağlı apardığı irili-xırdalı tədqiqatları ilə, əslində, folklorşünaslığımızda eposşünaslığın əsaslarını yaratmışdır". (4;13) O, "Azərbaycan xalq dastanları (orta əsrlər)" adlı doktorluq dissertasiyası, "Azər-

baycan xalqının qəhrəmanlıq eposu" (1941), "Azərbaycan xalq dastanları" (1972), "Azərbaycan xalqının qəhrəman oğulları" (1942) kitablarını nəşr etdirərək türk dastançılığında yeni mərhələyə qədəm qoymuşdur. Professor "Azərbaycan xalq dastanları" adlı kitabında Azərbaycan dastanlarını təsnif etdiyi zaman V.Propp, V.Q.Belinski, K.S.Aksakova, P.D.Uxov, V.M.Jirmunski kimi alimlərin mülahizələrindən nümunələr gətirmiş və sonda öz təsnifatı ilə yekunlaşan folklorşünas dastanlarımızı məhəbbət; qəhrəmanlıq və ailə-əxlaq dastanları kimi növlərə bölmüşdür. (6; 112) Professor həmçinin qəhrəmanlıq dastanlarının da təsnifini verməklə bu təsnifatı daha da dəqiqləşdirmişdir.

1) Qədim bahadırlıq nağılları;

2) Sehrli nağıllar və əsatiri görüşlərlə səsləşən qəhrəmanlıq dastanları;

3) Tarixi hadisələrlə səsləşən qəhrəmanlıq dastanları;

4) Adi qəhrəmanlıq dastanları (5; 121).

Professorun dastanlarla bağlı tədqiqatı nəticəsində digər folklorşünaslarımız bu mövzuda araşdırma işini genişləndirmiş, bu istiqamətdə lazımi qədər elmi mülahizələr söyləmiş, ciddi nəzəri baza formalaşdırmışlar. Onun bu bölgüsündən mənbə kimi istifadə edən prof. R.Rüstəmzadə "Azərbaycan tarixi qəhrəmanlıq dastanları" monoqrafiyasını yazaraq tarixi qəhrəmanlıq dastanlarının özünün də təsnifini vermişdir. O, tarixi qəhrəmanlıq dastanlarını kəndli hərəkatı ilə bağlı dastanlar, yaxud qaçaq dastanları, inqilabi dastanlar və hərbi dastanlar adı altında üç qrupa bölmüşdür (2; 8). Folklorşünasın birinci növə aid etdiyi kəndli hərəkatı ilə bağlı olan dastanları "qaçaq dastanları" da adlandırır. Qaçaq dastanlarının qəhrəmanları XIX və XX əsrləri əks etdirən tarixi hadisələrlə bağlı olub "qaçaqlar" adlandırılır. Qaçaq hərəkatı öz məzmunu və mahiyyəti ilə siyasi proseslərin gedişindən doğmuşdu. Ona görə də qaçaqların apardığı mübarizə xalqın etiraz səsi kimi uca tutulur və bu el qəhrəmanlarının igidlikləri dastana, nəğməyə, rəvayətə çevrilib el-el, oba-oba gəzirdi.

Azərbaycanda yüzlərlə qaçaq dəstələri olmuşdur. Bəziləri qaçaq dəstələrinin üzvləri, bəziləri isə bu dəstələrin başçıları olmuşlar. Qaçaq dəstələrinin başçıları ətrafındakıların silahlanması, ərzaqla, geyimlə təmin olunması və düşmənə qarşı hücum planlarının işlənib hazırlanması baxımından peşəkarcasına məharət nümayiş etdirirmişlər. Onlar bu qəhrəmanlıqları ilə dastanlaşmışlar. Qaçaq dəstələrinin ən məşhur başçıları Qaçaq Nəbi, Qaçaq Kərəm, Qandal Nağı, Qaçaq Dəli Alı və başqalarıdır. Bunların arasında qaçaqların simvoluna çevrilmiş qəhrəman isə Qaçaq Nəbi hesab edilir. O, bir qəhrəman kimi tarixçilərin, yazıçıların, ədəbiyyatşünasların, folklorşünasların diqqətini cəlb etmiş, onun şəninə aşıqların dastanlarından əlavə bədii ədəbiyyat nümunələri də həsr edilmişdir. Bir çox yazıçılar kimi Qaçaq Nəbi professor M.H.Təhmasibin də diqqətini çəkmişdir. Belə ki, o, 1938-ci ildə "Qaçaq Nəbi" ssenarisini yazmış və onu "İnqilab və mədəniyyət" jurnalında dərc etdirmişdir. O, burada "Qaçaq Nəbi" dastanının nəğmələrindən istifadə etmişdir. Professor ümumiyyətlə, Qaçaq Nəbi haqqında xalq içərisində dolaşan söhbətləri "hekayət və nəğmələr" adlandırmışdır. Onun fikrincə "bu kəndli qəhrəmanın şəninə "yüzlərlə nəğmələr" qoşulmuşdur. Tarixi qəhrəmanlar barədə söylənmiş onlarla bu qəbil şeir və hekayətlər, sözün həqiqi mənasında, epos səviyyəsinə yüksələ bilməmişdir." Professor bunun səbəbini Çar Rusiyasının 20 il sonra devrilərək Sovet imperiyası ilə əvəz olunmasında və buna ehtiyacın qalmamasında görür (1; 4). Onun fikri ilə razılaşaraq qeyd etməliyik ki, qaçaq hərəkatı ilə bağlı yaranan qəhrəmanlıq dastanlarının eposa doğru inkişafı mövcud şəraitdə müşahidə də olunmur. Əlbəttə, dastanın eposlaşması prosesi bütün qəhrəmanlıq dastanlarında özünü göstərmir və nə də bu, şərt kimi əsas ola da bilməz. "Qaçaq Nəbi" forması etibarilə özündən əvvəlki dastanlardan fərqlənir. Burada Nəbi və silahdaşlarının müxtəlif dövrlərdə müxtəlif düşmənlərlə vuruşmaları yarı tarixi, yarı xatirə və çox yerdə isə bədii şəkildə təsvir olunmuşdur. Qısacası, "Qaçaq Nəbi" öz dövrünün dastanıdır. Onu "Koroğlu" kimi eposla müqa-

yisə etməməliyik. Folklorşünas öz araşdırmalarında “Koroğlu” dastanını da tədqiqata çəkmişdir. O, 1949-cu ildən ömrünün sonunadək "Koroğlu" dastanı ilə bağlı tədqiqat işləri aparmış, bir neçə dəfə nəşr edilməsinə nail olmuşdur. “Eposun ayrı-ayrı nəşrlərinə yazdığı müqəddimələrdə "Koroğlu"nun xalqımızın milli-mənəvi sərvəti olmasını, onun məhz Azərbaycan mühitində yaranıb formalaşmasını, sonralar başqa xalqların folkloruna da yayılmasını danılmaz faktlarla sübuta yetirmişdir. Onun bu sahədəki xidmətləri bir qəhrəmanlıq nümunəsidir. Çünki folklorşünaslığın inkişafında, eləcə də folklorşünaslar nəslinin yetişməsində Məmmədhüseyn Təhmasibin çox böyük xidmətləri var” (7).

Şifahi xalq ədəbiyyatının dastan janrı həmişə folklorşünasların diqqət mərkəzində olmuş, onun yaranmasının müxtəlif yolları haqqında M.Seyidov, prof. F.Qasımzadə, akademik H.Araslı, M.İbrahimov və başqaları maraqlı fikirlər söyləmişlər. Dastan yaradıcılığı haqqında ən çox araşdırma aparan, əlbəttə ki, prof. M.H.Təhmasib idi. Professor M.H.Təhmasibin fikrincə, dastan yaradıcılığı orijinal olduğu qədər də mürəkkəb prosesdir və dastanlar üç yolla yaranıb:

1. Dastanının tarixi hadisələri və tarixi şəxsiyyətləri əks etdirməsi yolu ilə;

2. Aşığın öz adına dastan yazması yolu ilə;

3. Bir neçə ustad aşığın yaradıcılığı əsasında sonradan yaranan dastanlar;

Bizim araşdırma mövzumuz olan qaçaq dastanları folklorşünas M.Təhmasibin göstərdiyi birinci yolla, yəni tarixi hadisələri və tarixi şəxsiyyətləri əks etdirmək yolu ilə yaranan dastanlardır. Göründüyü kimi, burada tarixə, tarixi reallıqlara bağlanma daha çox müşahidə olunur və bir qaynaq kimi onun üzərində bərqərar olur. Düzdür, tarixilik bütün dastanlarda bu və ya digər dərəcədə özünə yer alır və onun hansı səviyyədə daşınışı bir tərəfdir. Qəhrəmanlıq dastanlarının bir növü olan qaçaq dastanlarında bu, daha çox üst qatda görünür. Məsələn, dövrün mətbuat orqanla-

rının işıqlandırdığı hadisələr əlavələrlə, qismən fərqli və ya olduğu kimi öz əksini tapırdı. Yəni, mətbuatda işıqlandırılan hadisələr sonradan onlar haqqında yaradılan dastanlara əlavə edilirdi. Belə ki, 19-cu yüzilliyin sonlarında "Qafqaz" qəzetinin 1895-ci il 25 oktyabr nəşrində məlumat var idi ki, Nəbi Gorusa gəlib Həcərin azad edilməsini tələb edir. O bildirir ki, hərgah Həcər buraxılmasa həbsxananı dağıdıb onu azad edəcək" (3; 76). Bu məlumat da sonradan "Qaçaq Nəbi" dastanına əlavə edilmişdi.

M.H.Təhmasib həmçinin öz tədqiqatında aşıq yaradıcılığına toxunmuş, bu mövzuda fundamental araşdırmalar aparmış, bu sənətə yüksək qiymət verərək onu digər sənət sahələri ilə müqayisə etmişdir. Onun fikrincə "Aşıq eyni zamanda həm şair, həm bəstəkar, həm müğənni, həm çalan, həm oynayan, həm aktyor, həm dastançı, həm aparıcı, həm də rejissordur" (6; 45). Qiymətli mülahizələrini davam etdirən M.H.Təhmasib həmçinin bildirir ki, "Sənətin müxtəlif sahələrini özündə birləşdirən müxtəlif sənətkarlarla aşıq arasındakı ən əsaslı fərq ondan ibarətdir ki, aktyor da, xanəndə də, dediyi söz və yaxud şeirdə müəllifdən, oxuduğu və yaxud çaldığı mahnıda bəstəkardan, ən kiçik hərəkətində isə rejissordan asılı, onlara tabe olduğu halda, aşıq öz ifasında müqayisə edilməyəcək dərəcədə sərbəstdir" (6; 45). Aşıqlar yalnız dastan yaratmır, onlar həmçinin dastanlarda bir obraz kimi də aparıcı qüvvəyə çevrilirlər. Belə ki, dastanda diqqəti cəlb edən aşıq obrazı demək olar, əksər dastan nümunələrində özünə yer alır. Məsələn, "Kitabi-Dədə Qorqud"da Dədə Qorqud, "Koroğlu"da Aşıq Cünun, "Səməd bəy"də Aşıq Şenlik və s. "Qaçaq Nəbi" dastanında da Aşıq Əhməd, Aşıq Ata, Aşıq Abbas və s. kimi aşıq obrazları vardır. Bu el sənətkarları Qaçaq Nəbi ilə bir cərgədədir, onunla silahdaşdır. Bütün səfərlərində bu aşıqlar iştirak edir, onun dastanlaşmasının başlanğıcını qoyurlar.

Şifahi xalq ədəbiyyatının ən böyük janrı olan dastanlar, xüsusən də tarixi qəhrəmanlıq dastanları keçmişimizdən xəbər verir və bizi o dövrə bağlayır. Tarixi qəhrəmanlıq dastanlarımı-

zın tədqiqatçılarının hər biri böyük zəhmət çəkmiş, bizə tariximizi öyrədən dastanların gələcək nəslə ötürülməsi üçün çalışmışlar. Bu xoşniyyətli işdə ən öndə gedən şəxsiyyətlərdən biri də professor M.H.Təhmasibdir. Onların bu xeyirxah əməlləri gələcək nəslə örnək olaraq alqışa layiqdir.

Dastanların yenidən nəşr etdirilərək gələcək nəslə ötürülməsində dövlətin də əməyini xüsusi qeyd etmək lazımdır. Belə ki, Azərbaycan dövləti vaxtaşırı dastanlarımızın toplanmasına, çapına, kütləvi yayımına lazımi qədər maliyyə vəsaiti ayırmış, bu işdə maraqlı olduğunu isbat etmişdir. Buna ən bariz nümunə kimi Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2005-ci ildən başlayaraq V cildlik "Azərbaycan dastanları"nın latın qrafikası ilə yenidən nəşrini göstərmək kifayətdir.

**İşin elmi nəticələri:** Professor M.H.Təhmasibin yaradıcılığını öyrənərkən aydın olur ki, bir çox folklorşünaslar dastan yaradıcılığı ilə bağlı öz mülahizələrini professorun tədqiqatları əsasında formalaşdırmışlar. Prof. R.Rüstəmzadə qəhrəmanlıq dastanlarını təsnif edərkən əsas mənbə kimi M.H.Təhmasibin bölgüsünə istinad etmişdir.

**İşin elmi yeniliyi:** M.H.Təhmasib qaçaq dastanları haqqında ayrıca mülahizələr aparmasa da, "Qaçaq Nəbi" dastanı haqqında fikirlər səsləndirərək Qaçaq Nəbini müsbət qəhrəman kimi eyni adlı ssenarisində canlandırmışdır.

**İşin tədqiq əhəmiyyəti:** Tarixi qəhrəmanlıq dastanının bir növü olan qaçaq dastanlarının sistemli şəkildə öyrənilməsi bu sistemdə M.H.Təhmasibin özünəməxsus rolunun olduğunu anlamağa əsas verir.

## QAYNAQLAR


1. Abbaslı İ. "Qaçaq Nəbi" dastanı və Bəhlul Behcətin "Qaçaq Nəbinin tarixi" araşdırması". Bəhlul Behcət. "Qaçaq Nəbinin tarixi". Bakı, Çıraq, 2011, 296 səh.

2. Rüstəmzadə R. “El qəhrəmanları xalq ədəbiyyatında. Bakı, Gənclik, 1984.
3. Rüstəmzadə R. Xalq ədəbiyyatına dair araşdırmalar, Bakı, 2007, 244 səh.
4. Təhmasib M.H. Seçilmiş əsərləri 2 clddə, II cild, Bakı Slavyan Universiteti, 2011, 440 səh.
5. Təhmasib M.H. Azərbaycan xalq dastanları. (orta əsrlər) “Elm” nəşriyyatı, Bakı, 1972
6. Təhmasib M.H. Seçilmiş əsərləri. 2 cilddə. 1-ci cild. Bakı, “Mütərcim”, 2010, 488 səh.
7. Xəlilzadə F. Sönməyən ulduzlar. “Mədəniyyət”qəzeti. 04.03.2001. http://medeniyyet.az/page/news/18991/Tehmasibler.html

# M.H.TƏHMASİBİN TƏDQİQATLARINDA MƏRASİM MƏSƏLƏLƏRİ

**Ağaverdi XƏLİL**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Folklor İnstitutu*
*aqaverdi@yandex.ru*

**Özət**

Məqalədə M.Təhmasibin Azərbaycan mərasim folklorunun öyrənilməsi ilə bağlı fəaliyyəti araşdırılmışdır. Tədqiqatçının elmi irsi üzərindəki müşahidələrdən aydın olmuşdur ki, o, mərasim folklorunu həm arxiv materialları, həm də sahə araşdırmaları vasitəsilə öyrənmişdir. Məqalədə alimin mərasim folklorunun toplanması, nəşri və tədqiqi ilə bağlı fəaliyyəti aydınlaşdırılmışdır.

**Açar sözlər:** M.H.Təhmasib, folklor, mərasim, toplama, tədqiq.

# ВОПРОСЫ ОБРЯДОВОГО ФОЛЬКЛОРА В ИССЛЕДОВАНИЯХ М.Г.ТАХМАСИБА

**Резюме**

В статье были исследованы деятельность в области изучения азербайджанского обрядового фольклора М.Тахмасиба. По наблюдению научного наследия исследователя были ясны, что он изучал обрядового фольклора как по архивным материалам, так же по полевому сбору. В статье были выяснены деятельность ученого в области сбора, издания и исследования обрядового фольклора.

**Ключевые слова:** Тахмасиб М. фольклор, обряд, сбор, исследование.

# QUESTIONS OF RITUAL FOLKLORE IN THE STUDIES BY M.H.TAHMASIB

**Summary**

In the article was investigated the activity in the field of studying Azerbaijani ritual folklore M.Tahmasib. According to the observation of the researcher's scientific heritage, it was clear that he was studying ritual folklore both in archival materials, as well as in field gathering. The article explored the activities of the scientist in the field of collecting, publishing and researching ritual folklore.

**Key words: Tahmasib M. folklore, rite, collection, research.**

Azərbaycan mərasim folklorunun öyrənilməsi orta əsrlər dövrünə aid yazılı qaynaqlardakı məlumatlarla başlanır. Bu dövrə aid olan mərasim təsvirləri mərasim folklorunu tarixi səciyyəsi baxımından öyrənmək üçün böyük önəm daşıyır. Bu məlumatlar əsasında xalq mərasimlərini və onun müəyyən hissələrini öyrənmək mümkündür. Belə abidələr içərisində həm bədii, həm də tarixi mətnlərdəki məlumatlar mərasim folklorunun tədqiqində istifadə oluna bilər.

XIX əsrin ortalarından başlanaraq mərasim folkloruna aid məlumatlara mətbuat səhifələrində rast gəlinir. XX əsrin əvvəllərindən etibarən mərasim folklorunun təsviri və tədqiqi genişlənir. Mərasim folklorunun öyrənilməsində sovet dövründə aparılan araşdırmaların da müəyyən rolu və əhəmiyyəti vardır. Bu dövrdə mərasimşünaslıq araşdırmaları həm tarixi-etnoqrafik, həm də filoloji yönümdə aparılmışdır.

Sovet dövrü Azərbaycan mərasim folklorunun öyrənilməsində xüsusi xidmətləri olan folklorşünas alimlərdən biri də M.Təhmasibdir (1907-1982). Onun elmi fəaliyyəti folklorşünaslar tərəfindən tədqiqata cəlb edilmiş və müxtəlif aspektlərdən

öyrənilmişdir. Xəyalə Oruc qızı Əliyeva alimin folklorşünaslıq fəaliyyətini geniş və ətraflı bir şəkildə araşdırmışdır. Görkəmli alimin folklorçu fəaliyyətində mərasim folklorunun ayrıca bir yeri vardır. Mərasim folklorunun öyrənilməsində alimin fəaliyyəti özünü üç əsas istiqamətdə göstərir:

1) Mərasim folklorunun toplanması;
2) Mərasim folklorunun nəşri;
3) Mərasim folklorunun tədqiqi.

M.Təhmasib mərasim folklorunun öyrənilməsinə doğulduğu Naxçıvandan başlamışdır. Bu onun uşaqlıq və məktəb illərindəki ilk müşahidələridir. Burada gördüyü mərasimlər sonralar onun araşdırmalarında təsvir olunmuş və öz elmi şərhini tapmışdır. Ali məktəbi bitirdikdən sonra ilk əmək fəaliyyətinə başlayaraq müəllimlik etdiyi Kürdəmir rayonu alimin mərasim folkloru ilə bağlı müşahidələrinin genişlənməsində müəyyən rol oynamışdır. Şirvan bölgəsinin müxtəlif rayonlarını gəzən M.Təhmasib burada xalq mərasimlərini birbaşa müşahidə edə bilmiş və onları yazıya almışdır.

M.Təhmasib mərasim folklorunun toplanmasına 1930-cu illərdən başlamış və onu pedaqoji fəaliyyəti ilə yanaşı davam etdirmiş və nəhayət, bu fəaliyyət öz məntiqi nəticəsini alimin namizədlik dissertasiyasında tapmışdır. Belə ki, alimin "1945-ci ildə müdafiə etdiyi namizədlik dissertasiyası mərasim və mövsüm nəğmələrinin öyrənilməsinə həsr edilmişdir (1). Bu işdə əsas kütləsi etibarilə özünün topladığı materiallar əsasında Azərbaycan mərasim folkloru həm ailə-məişət mərasimləri, həm də təqvim-mövsüm mərasimləri kontekstində araşdırılmışdır. O, tədqiq obyekti olaraq götürdüyü mərasimləri bir ritual sistemi olaraq təsvir etmiş, onların poetik xüsusiyyətlərini öyrənmişdir. Təqdim etdiyi materiallar və bir sıra ciddi elmi təhlilləri baxımından həmin namizədlik dissertasiyası bu gün belə öz aktuallığını saxlayan tərəflərinə malikdir" (2, 91).

M.Təhmasibin tədqiqatlarında mərasim folkloru xüsusi yer tutur. Bu tədqiqatların materiallarının əsas kütləsini XX əsrin əvvəllərinə aid mətbuatda nəşr olunan nümunələr təşkil edir. Bu baxımdan tədqiqatın arxiv yönümü daha aparıcıdır. Tədqiqatlarda sovet dövründən əvvəlki dövrün mətbuat nümunələrindəki materiallardan istifadə olunması da əhəmiyyətli məsələdir. Çünki sovet dövründə aparılan toplama və nəşr işlərində bir sıra problemli məqamlar olmuşdur. Bu problemlərin bir qismi sovet ideoloji sisteminin müəyyənləşdirdiyi çərçivədən, digəri isə kəmiyyət prinsipinin əsas götürülməsindən irəli gəlir. İdeologiyanın ateist təbiəti dini dəyərlərin zədələnməsinə və sıradan çıxarılmasına şərait yaratmış, folklor nümunələri də "dinsizləşdirilmişdir". Xalq mərasimlərinin dinlə əlaqəsi və dini görüşlərdən təsirlənməsi sovet folklorşünaslığı tərəfindən təkzib edilmişdir. Bu yanaşma M.H.Təhmasibin tədqiqatlarına da aiddir. Mahiyyət etibarilə mərasimlər əski xalq inanclarına bağlı olaraq meydana gəlmişdir. Müxtəlif dinlərin mövcud olduğu dövrlərdən keçən mərasimlər həmin dinlərin təsirlərinə də məruz qalmışdır. Sovet ideologiyası dini mövhumat hesab etdiyindən və dini görüşləri qeyri-elmi saydığından onu qəbul etməmişdir. Hər cür dini təbliğat da zərərli sayılmışdır. Bu yolla cəmiyyət öz dini dəyərlərindən uzaqlaşdırılmışdır. Mövsüm mərasimləri dinlə bağlı olmasa da, içində əski xalq inanclarını daşıyır. Buradakı inanc komponenti xalq oyunlarının komik komponentləri içərisində əridilmiş, ritual karnavallaşdırmışdır. Bu proses sovet ideologiyasının təsiri ilə daha da gücləndirilmişdir.

M.H.Təhmasibin tədqiqatlarında diqqəti çəkən və müasir folklorşünaslıq üçün də əhəmiyyətli sayılan məsələlərdən biri sovet dövründən öncə yazıya alınmış xalq oyunları və mərasimlərinin tədqiqata cəlb edilməsidir. Onun mərasim folkloru araşdırmalarında XX əsrin əvvəllərində nəşr olunan jurnallardakı materiallara diqqət edilmişdir. Bunun üçün XX əsrin əvvəllərin-

də nəşr olunan "Rəhbər", "Dəbistan" və "Məktəb" jurnallarında folklora münasibət məsələsi araşdırılmışdır.

İnqilabdan sonra yenidən nəşrə başlamış "Rəhbər" oyunlara xüsusi yer vermiş, 1-ci nömrədə "Gözü bağlı", 2-ci nömrədə isə "Dəniz dalğalanır" və "Happan-huppan" adlı oyunları dərc etmişdir (3, 190). "İstər "Məktəb", istərsə də "Rəhbər"in inqilabdan sonrakı davamçıları uşaq oyunlarını qələmə alınmış şəkildə nəşr etməklə kifayətlənmişlər. Məsələn, "Məktəb"in ən məhsuldar əməkdaşlarından olan Abbas Səhhət jurnalın 1912-ci il 14-cü nömrəsində çap etdirdiyi "Ana və bala" şeirində uşaq folklorunun ən gözəl nümunələrindən biri olan arzulamalardan (A.Səhhət bu nümunələri oxşama adlandırmışdır – M.Təhmasibin qeydi (3,200)) bir neçə bənd vermişdir:

Dağda darılar,
Sünbül sarılar,
Qoca qarılar,
Bu balama qurban.
Bir bölük atlar,
Atlar göy otlar,
Ərsiz arvadlar,
Bu balama qurban" (3, 191).

"Jurnalın 1913-cü il 7-ci nömrəsində Ələkbər Naxçıvanlı məşhur "Əkil-Bəkil quş idi" nəğməsini "Bacı və qardaş" adlı hekayənin içərisinə salaraq nəşr etdirmişdir (3, 191).

"Jurnalın 8 və 9-cu nömrələrində "Əkinçi" imzası ilə bir hekayə verilmişdir.Bu hekayənin işərisində "Qələndər, ay qələndər" oyunu yerləşdirilmişdir"(3, 192).

Jurnalın 1914-cü il, 11-ci nömrəsində Məmmədağa Axundzadə "El sözləri" başlığı altında məşhur "Kosa-kosa" mərasim nəğməsini çap etdirmişdir ki, məlum vaxtlarla müqayisə əhəmiyyətini nəzərə alaraq eyni ilə buraya köçürürük:

Ay kosa-kosa gəlmisən
Gəlmisən meydanə sən.

Almayınca payını
Çəkilmə bir yanə sən.
Beş yumurta payındı, olmaya allanasan.
Mənim kosam oynayır,
Gör necə dingildəyir,
Qulaq asanların da
Qulağı cingildəyir.
Mənim kosam canlıdı,
Qolları mərcanlıdı,
Kosama əl vurmayın,
Kosam yazıq canlıdı.
Əmiri bərk başında,
Qələm oynar qaşında,
Yüz əlli beş yaşında
Lap cavan öldü kosa
(Məktəb, 1913, nömrə 11, s.175) (3, 193).

Burada diqqəti çəkən məqam ondan ibarətdir ki, təqdim edilən nəğmə Novruz bayramında ifa edilən "Kosa-kosa" oyunun sözləri ilə demək olar ki, eynidir. Lakin bu nəğmə Ramazan bayramında ifa edilmiş və mətbuata da "Oruc nəğmələri" adı ilə daxil olmuşdur. Jurnalda Ağa bəy İsrafilbəyovun hekayəsində bayramla əlaqədar olan "Gün çıx, çıx, çıx!" və "Mən anamın ilkiyəm" nəğmələri də verilmişdir (1913, nömrə 5, s.74-77) (3, 192). "Məktəb" jurnalının 1915-ci il 12-ci sayında (s.191) iki variantda oruc nəğməsi verilmişdir:

Orucun on beşində gəldik sizə,
Qazanın qazmağını verin bizə.
Nə verir isəniz verin bizə
Şilə, şirni, ya da firni,
Bağa da bazardan gəldi.
Orucun on beşində gəldik sizə,
Orucun niyazını verin bizə,
Xanım, ayağa dursana!

Boşqabı doldursana,
Uşağın, oğlun olsun!
Allahı sevər isən,
Bizi yola tez salsana! (3,194).

Təhmasibin qeydə aldığı mərasimlər içərisində əcdad kultu ilə bağlı mərasimlər də müəyyən yer tutur. Tədqiqatçı Naxçıvanda keçirilən "Ata-baba günü", "Xıdırhaxıdır" mərasimlərini əcdad kultları ilə əlaqəli izah etmişdir (3,67).

M.Təhmasib "Adət, ənənə, mərasim, bayram"adlı məqaləsində "Novruz"un Zərdüştlik və İslamla əlaqəli olmadığı mülahizəsindən çıxış etmişdir. İlin axır çərşənbəsində od üstündən tullanmaq mərasiminin də Zərdüştlikdən çox qədim olduğunu qeyd etmişdir (3, 73). Yuxarıda da qeyd etdiyimiz kimi, bu mövqe sovet ideologiyasının tələblərinə uyğun olduğu üçün daha geniş bir xarakter daşımışdır. Nəticə etibarilə mövsüm mərasimlərinin konkret bir dinin məhsulu olmadığı fikri doğrudur. Ona görə də bu izahlar ideologiyaya xidmət etsə də, elmi obyektivliyi də pozmur.

M.Təhmasibin tədqiqatlarında xalq təqvimi və çillələrlə bağlı məsələlərə də geniş yer verilib. O yazır ki, "qədim etiqadlara görə qış çillələrə bölünür. Bunlardan birincisi qışın girməsi ilə başlanan böyük çillədir ki, qırx gün davam edir. İkincisi, xalqın öz ifadəsi ilə deyilsə, "qışın oğlan çağı"dır ki, kiçik çillə adlanır və böyüyün yarısı qədər, yəni iyirmi gün davam edir. Nəhayət, qışın son ayı gəlir ki, bu da hər biri yeddi gündən ibarət olan dörd balaca çilləyə bölünür.Yuxarıda qeyd olunduğu kimi, bu bölgünün əsaslandığı yeddi və qırx rəqəmlərinin müqəddəsliyi islamiyyətdən də, zərdüştlikdən də çox qədimdir. Son ayın dörd yeddigünlük çilləyə bölünməsi isə ümumiyyətlə, təbiətin dörd əsas ünsürdən ibarət olması etiqadına əsaslanır. Bu dörd ünsür hava, torpaq, su və oddur. Qədim etiqadlara görə, son ayın hər həftəsində guya ki, bu ünsürlərdən biri canlanır, oyanır, yaşamağa başlayır. Bunların hamısının dirilməsi, qızması, yeni

keyfiyyət kəsb etməsi ilə də, ümumiyyətcə, təbiət oyanır, qış qurtarır, yaz başlanır. Qədim və orta əsrlər Azərbaycanda bu dörd ünsürdən hər birinin qışın əsarətindən qurtarması həmin ünsürün adı ilə bağlı olan həftənin son çərşənbəsində xüsusi bir şəkildə qeyd edilirmiş. Qurtaran ilin axır çərşənbəsində isə bütün evlərin həyətində tonqal qalanır, hamı odun üstündən tullanaraq "Ağırlığım, uğurluğum", yaxud "Azarım, bezarım tökül bu odun üstünə" deyərmiş. Tək elə bu mərasim çox aydın bir şəkildə sübut edir ki, Novruz nə İslam dini ilə, nə də Zərdüştlüklə bağlı olmamışdır (3, 74).

Təhmasibin tədqiqatlarında mövsümlə bağlı bir sıra mərasimlər də tədqiqata cəlb edilmişdir. Bunlardan biri "Günəşi çağırmaq" mərasimidir. "Bizdə qışın qurtarıb yazın başlanması ilə əlaqədar bir sıra mərasimlər də vardır ki, bunların bəziləri əksər rayonlarımızda elə məhz Novruz günlərində, bəziləri isə ayrı-ayrı yerlərdə bəzən qışın son ayı, bəzən də yazın ilk ayı daxilində icra edilmişdir. Bunlardan biri "Günəşi çağırmaq" mərasimi imiş. Bu mərasimin indi də ancaq son dərəcə cılızlaşmış müxtəsər təfərrüatı və balaca bir nəğməsi qalmışdır. Cəmisi bir neçə bənddən ibarət olan bu nəğmədə günəş kəhər atlı insana bənzədilir, onun hətta bir oğlu, iki qızı olduğundan danışılır (3,74).

Tədqiqatlarda diqqəti çəkən arxaik mərasimlərdən biri də "Hodu" mərasimidir. "Bu da keçmişdə geniş yayılmış olan, hətta inqilabdan bir az əvvələ qədər də (1917-ci ildən əvvəl nəzərdə tutulur – A.X.) əksər rayonlarımızda icra edilən mərasimlərdən imiş.İndi bunun da müxtəsər təfərrüatı və kiçik bir nəğməsi qalmışdır. İstər inqilabdan qabaqkı yerli ziyalılarımızın verdikləri məlumatlardan, istərsə də sonrakı illərdə aparılmış araşdırmalardan, ən başlıcası isə mərasimin ünsürlərindən və nəğmənin məzmunundan aydın görünür ki, "Hodu" günəş ilahəsinin adı imiş.Yəqin birinci "Günəşi çağırmaq" mərasimi istənilən nəticəni vermədikdə, yəni "duman qaçmadıqda", "günəş kəhər atı minib qarı yerdən götürmək üçün çaxmadıqda" qədim azərbaycan-

lılar ikinci mərasimi icra edir, yəni “Hodu”nu qapı-qapı, zəmi-zəmi, kövşən-kövşən gəzdirib oxuyurmuşlar (3,75).

M.Təhmasibin mərasim folkloruna aid tədqiqatları Azərbaycan mərasim folklorunun öyrənilməsində bu gün də geniş şəkildə istifadə edilən elmi qaynaqlar sırasındadır. Onun mərasim folkloru ilə bağlı araşdırmaları müasir tədqiqatlar üçün zəngin material verməklə yanaşı, həm də məsələyə elmi yanaşma istiqamətləri üçün nəzəri mülahizələr təqdim edir. Alimin tədqiqatları Azərbaycan mərasim folklorunun gələcəkdə də öyrənilməsində istifadə olunmaq imkanlarını qorumaqdadır.

## QAYNAQLAR


1. Təhmasib M. Xalq ədəbiyyatımızda mərasim və mövsüm nəğmələri, namizədlik dissertasiyası. Bakı, BDU-nun kitabxanası, 1945.
2. Rzasoy S.Folklorşünaslıq tariximizdən: Məmməd Hüseyn Təhmasib.”İnternet və İntellekt” nəzəri-eksperimental laboratoriyasının bülleteni, Sayı 1, Bakı, “Nurlan”, 2001, s. 89-94.
3. Təhmasib M. Məqalələr (Tərtib edənlər Məhərrəm Cəfərli, Oruc Əliyev). Bakı, “Elm”, 2005.
4. Cəfərli M. Mütəfəkkir folklorşünas // Məmmədhüseyin Təhmasib. Məqalələr. Bakı, Elm, 2005, s. 3-6.
5. Əliyeva X. M.H.Təhmasibin mərasimlərə dair tədqiqatları // “Dədə Qorqud” jurnalı. Bakı, Səda, 2006, sayı 4, s. 69-77.
6. Əliyeva X. M.H. Təhmasibin “Xalq ədəbiyyatımızda mərasim və mövsüm nəğmələri” əsəri haqqında // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XXIV kitab, Bakı, “Nurlan” nəşriyyatı, 2007, s. 123-140.

# M.H.TƏHMASİBİN ARAŞDIRMALARINDA "KİTABİ-DƏDƏ QORQUD" SOYLAMALARI

**Aygül QURBANOVA**
*AMEA Folklor İnstitutu*
*aygul.qurbanova89@mail.ru*

**Özət**

Azərbaycan folklorunun toplanması, tədqiqi, nəşri istiqamətində böyük xidmətləri olan M.Təhmasibin elmi fəaliyyətində dastan yaradıcılığı ilə bağlı araşdırmaları xüsusi yer tutur.

Məqalədə qeyd olunur ki, M.Təhmasib öz araşdırmalarında ümumi məsələlərlə kifayətlənməmiş, dastan yaradıcılığı ilə bağlı xüsusi məqamlara da diqqət yetirmişdir. Alimin "Dədə Qorqud boyları haqqında" adlı II məqaləsində "Kitabi-Dədə Qorqud" "soylama"ları ilə bağlı fikirləri, apardığı müqayisələr, gəldiyi elmi qənaətlər bu baxımdan maraqlıdır.

"Dədə Qorqud" boylarının Azərbaycan aşıq sənəti ilə bilavasitə bağlı olduğunu sübut etmək üçün çoxsaylı dəlillər gətirən alim nəzm və nəsrin növbələşməsindən ibarət olan dastanların Azərbaycan ozanları tərəfindən yaradıldığı qənaətinə gəlir. "Dədə Qorqud" boylarındakı "soylama"ları müasir Azərbaycan aşıq şeirinin sələfi adlandıran alim ayrı-ayrı boylarda bugünkü dastanlarımızda istifadə olunan əsas şeir formalarının bəzən rüşeymlərinin, bəzən də doğrudan-doğruya nümunələrinin verildiyini qeyd edir.

Məqalədə M.Təhmasibin "Kitabi-Dədə Qorqud" "soylama"ları ilə aşıq şeiri arasında müəyyən etdiyi oxşar və fərqli məqamlara da diqqət yetirilmişdir.

**Açar sözlər:** M.Təhmasib, "Kitabi-Dədə Qorqud", "soylama", aşıq şeiri

# СКАЗАНИЯ «КИТАБИ ДЕДЕ ГОРГУД» В ИССЛЕДОВАНИЯХ М.Г.ТАХМАСИБА

**Резюме**

М.Тахмасиб имеет большие заслуги в собирании, исследовании и в издании Азербайджанского фольклора, он также преуспел в своей научной деятельности в исследовании дастанного творчества.

В статье рассказывается, как М.Тахмасиб в своих исследованиях не ограничивается общими вопросами, а особо выделяет некоторые аспекты связанные с дастанным творчеством. Мысли ученого связанные с «сойламалар», их сопоставление и научное заключение освещены во II статье под названием «О бойларах Деде Горгуда» в этом плане составляют большой интерес.

Чтобы показать непосредственную связь бойларов «Деде Горгуда» с ашугским творчеством, ученый неоднократно доказывал поочередность поэзии и прозы в дастанах, который и привел его к заключению, о том, что именно эта и есть заслуга Азербайджанских ашугов. М.Тахмасиб называл «сойламалар» в «Деде Горгуд»ских бойларах предшественниками нынешней поэзии Азербайджанских ашугов. В ранней ступени своего развития, либо отличается правдивостью существующих образцов.

В статье рассказывается о том, как М.Тахмасибом были выявлены схожие и различительные моменты, между «сойламалар» в «Китаби-Деде Горгуд» и ашугской поэзией.

**Ключевые слова:** М.Тахмасиб, «Китаби-Деде Горгуд», «сойлама», песни ашуга.

# THE TELLINGS OF "THE BOOK OF DEDE GORGUD" İN M.H.TAHMASİB'S INVESTIGATIONS

**Summary**

Researches linked to Dastanoeuvre possess special special position in the academic portfolio of M.Tahmasib, who has made significant efforts in favour of collection, investigation and publication of Azerbaijani folklore.

İt is stated on the article that, M.Tahmasib was not satisfied with only general issues in his researches meantime he also paid attention to special nuances related to dastan oeuvre. The opinions, comparisons and inferred scientific conclusions of scientist linked to "Kitabi-Dada Gorgud" "soylama"s in his second publication called "Dada Gorgud Boyları haqqinda" are quite interesting from this aspect.

The scientist who brought various proofs into light in order to prove that "Dada Gorgud" "Boylar"s are directly connected to Azerbaijan Ashig art got into conclusion that "Dastan"s which are consists of sequence of poetry and prose have been brought into existence by Azerbaijani Ozans. The scientist who named "soylama"s in "Dada Gorgud" "Boylar"s as the ancestor of modern Azerbaijan ashig poetry stated that sometimes roots and sometimes clear examples of main poetry forms used in current "dastan"s are given in various "Boylar"s.

Dissimilar and similar points between "Kitabi-Dada Gorgud" "soylama"s and Ashig poetry found by M.Tahmasib have been taken into account as well in the article.

**Key words:** M.Tahmasib, "Kitabi-Dada Gorgud", "soylama", Ashig poetry

Azərbaycan folklorunun toplayıcısı, naşiri və tədqiqatçısı olmuş M.Təhmasibin irsi bu gün də öz elmi çəkisini qoruyub saxlamaqdadır. Görkəmli alim "Dədə Qorqud boyları haqqın-

da", "Azərbaycan xalq dastanları (orta əsrlər)", "Dastan yaradıcılığımız haqqında", "Bir tarixi həqiqətin eposdakı izləri", "Dastanlarımızın bir növü haqqında" adlı elmi əsərlərində dastan yaradıcılığı ilə bağlı əhatəli məlumatlar vermiş, mübahisəli məqamlara aydınlıq gətirmiş, bu janrın spesifikası, əsas xüsusiyyətləri ilə bağlı öz elmi fikir və mülahizələrini qələmə almışdır.

Haqqında söhbət açacağımız "Dədə Qorqud boyları haqqında" adlı ikinci məqaləsində də bir sıra mübahisəli məqamlara aydınlıq gətirən alim dastanların poetik formasına və "soylama"ların quruluşuna da münasibət bildirmişdir. "Dədə Qorqud" boylarındakı "soylama"ları müasir Azərbaycan aşıq şeirinin sələfi adlandıran araşdırıcı ayrı-ayrı boylarda bugünkü dastanlarımızda istifadə olunan əsas şeir formalarının bəzən rüşeymlərinin, bəzən də doğrudan-doğruya nümunələrinin verildiyini qeyd etmişdir. Misal üçün:

"Ağzın üçün ölüm, oğul!
Dilin üçün ölüm, oğul!
Qarşı yatan qara dağın
Yıxılmışdı, yucaldı axı.
Axıntılı körklü suyun,
Soğulmuşdu, çağladı axı.
Qaba ağacda dal-budağın
Qurumuşdu, (yaşarıb) gəgərdi axı" (2, 133) –

kimi "soylama"ların sonrakı əsrlərə aid aşıq gəraylısının qədim nümunəsi, sələfi hesab edən alim belə bir qənaətə gəlir ki, nəzm və nəsrin növbələşməsindən ibarət olan "Kitabi-Dədə Qorqud" boyları Azərbaycan ozanları tərəfindən yaradılmışdır. Araşdırıcı boyların Azərbaycanla, Azərbaycan aşıq sənəti ilə bilavasitə bağlı olduğunu göstərən dəlillər gətirir.

"Bizim bugünkü aşıqlarımız da "Dədə Qorqud" boylarında olduğu kimi, əsasən, iki yerə bölünürlər: bir sadəcə aşıq adı daşıyan peşəkar aşıqlar vardır ki, beləleri yaradıcı olmaqdan daha çox, ozanlar kimi yayan və yaşadanlardır. Bir də yaradan, düzən,

qoşan aşıq vardır ki, biz bunlara ustad aşıq deyirik. Xalq içərisində ustad aşıqların ən qocamanları öz şairlik, müğənnilik, bəstəkarlıq məharətlərinə görə ən çox hörmət qazanmışları "Dədə" adlanmışlar, bu saat da adlanırlar" (4, 189).

Görkəmli alim daha sonra sadaladığı bu dəlillərin yalnız bizim folklora xas olmadığını, ümumi və müştərək olduğunu yazır. O qeyd edir ki, "dədə", yaxud "ozan" kimi ad-titullar, şifahi ədəbiyyat janrı olan "dastan"ın şeirlə nəsrin növbələşməsi prinsipinə əsaslanması, heca vəzninə əsaslanan xalq şeiri, Dədə Qorqudun özü ilə bağlı olan əfsanə və rəvayətlər və s. bu kimi əlamətlərin digər türk xalqlarının folklorunda da mövcud olduğunu yazır və qeyd edir ki, "bu boyların Azərbaycanla bağlı olduqlarını, daha dəqiq deyilsə Azərbaycan ozanları tərəfindən yaradılmış olduqlarını deyə bilmək üçün əsaslı dəlillər gətirmək, Dədə Qorqudun özü haqqında, eləcə də boylarda adları çəkilən başqa qəhrəmanlar haqqında müxtəlif xalqlarda olan süjetləri iri müqayisəli tədqiq yolu ilə işləmək lazımdır" (4, 190).

Burada bir məsələyə də toxunmaq istərdik. Araşdırıcı şəkilcə çox rəngarəng və zəngin olan Azərbaycan aşıq şeirinin sələfi adlandırdığı "soylama"lardan bəhs edərkən onları H.Araslının nəşr etdirdiyi"Kitabi-Dədə Qorqud" elmi-tənqidi mətninə əsaslanaraq "söyləmə"adlandırır. T.D.Məlikov, K.Hüseynoğlu da H.Araslının təklif etdiyi bu istilahın işlədilməsini münasib saymışlar. K.Hüseynoğlu bu barədə yazır: "Azərbaycan dilində belə şeirləri bildirən münasib istilahın olmamasını nəzərə alaraq, biz də burada həmin termindən istifadə edəcəyik" (3, 29).

Göründüyü kimi, bu, həmin dövrün filoloji fikri üçün xarakterik hal idi.

Bəzi tədqiqatçılar bu parçaları "sərbəst şeir", bəziləri "qafiyəsiz şeir", "pərakəndə şeir", hətta "tirada", "alliterasiya" üzərində qurulmuş şeir adlandırmışlar" (1, 93)

Lakin sonradan "soylama"sözünün "söyləmə"dən tamamilə fərqli bir anlayış olduğu anlaşıldı. Əslində sözün mənasını ba-

şa düşmək üçün heç də uzağa getmək lazım deyil. Dastanın özü bizə “soylama”ların mənasını açıqlamaq üçün kifayət edir. Dastan qəhrəmanlarının bir-birinə lirik müraciətlərindən ibarət olan bu nəzm parçalarına başqa cür anlamlar yükləməyə ehtiyac yoxdur.

M.Təhmasib “Kitabi-Dədə Qorqud”dakı “soylama”ları xalq dastanlarımızda işlənən qoşmalarla, müxəmməslərlə, divanilərlə müqayisə edir və boylarda bu nümunələrə tez-tez rast gəlindiyini yazır. Alim fikrini təsdiq etmək üçün birbaşa dastan mətninə müraciət edir. Məsələn:

“Altındakı al ayğırı mənə vergil
Qan dərlədi çapdırayım sənin üçün.
Qara polad üz qılıcın mənə vergil
Ğafillicə başlar kəsim sənin üçün” (2, 127).

Yaxud:

“Qarşı yatan qara dağı
Sorar olsam, yaylaq kimin?
Soyuq-soyuq sularını
Sorar olsam, içət kimin?
Tovla-tovla şahbaz atlarını
Sorar olsam, binət kimin?
Qatar-qatar dəvələrini
Sorar olsam, yüklət kimin?” (2, 58)

Belə nümunələr dastanda kifayət qədərdir.

M.Təhmasib qeyd edir ki, “Kitabi-Dədə Qorqud”dakı “soylama”larla aşıq şeiri arasındakı əsas fərq “soylama”ların daha sərbəst vəznə malik olmasındadır. ““Dədə Qorqud” “söy”lərində aşıq qoşmalarından fərqli olaraq, istər əsas vəznə, istərsə də qafiyələnən misraların növbələşməsi qaydasına çox zaman axıra qədər riayət olunmur” (4, 189).

M.Təhmasib aşıq şeirini “Dədə Qorqud” “soylama”larının nisbətən büllurlaşmış şəkli adlandırır. Şübhə yoxdur ki, alim bu-

nu deyərkən aşıq şeirinin “soylama”ların daha inkişaf etmiş forması olduğunu nəzərdə tutmuşdur. Çünki “soylama”lar da forma və ifadə gözəlliyi baxımından heç də aşıq şeirindən geri qalmır.

## QAYNAQLAR


1. Abdullayev Cəlal. “Dədə Qorqud”dakı şeirlər barədə...” Kitabi-Dədə Qorqud-1300: filoloji araşdırmalar / Bakı 1999, 190 səh., səh. 93
2. Araslı H. “Kitabi-Dədə Qorqud”, Azərnəşr, Bakı, 1939, 175 səh., səh. 133
3. Hüseynoğlu Kamil. Azərbaycan şeir mədəniyyəti (Yaranma və təkamül dövrü) Bakı, Ozan nəşriyyatı 1996, 88 səh., səh. 29
4. Təhmasib Məmmədhüseyn. Seçilmiş əsərləri: 2 clddə. I cild. – Bakı: Mütərcim, 2010, 488 səh., səh. 189

# M.H.TƏHMASİB YARADICILIĞINDA YAZIÇI VƏ FOLKLOR PROBLEMİ

**Aynur İBRAHİMOVA**
*Filologiya üzrə fəlsəfə doktoru*
*AMEA Folklor İnstitututu*
*ibrahimova_a@mail.ru*

**Özət**

Görkəmli folklorşünas alim Məmmədhüseyn Təhmasibin Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, elminin inkişafında xidmətləri əvəzsizdir. Alimin Azərbaycan mərasim folklorunun və eposunun öyrənilməsi istiqamətində apardığı araşdırmaları folklorşünaslığımızın inkişafında mühüm və vacib mərhələni təşkil edir.

Təhmasib şifahi ədəbiyyatla yazılı ədəbiyyat arasındakı əlaqəni araşdıraraq Nəsimi, Çəmənzəminli, Cəfər Cabbarlı kimi ədiblərin yaradıcılığında tədqiq etmiş, yazıçı və folklor problemini geniş səviyyədə və dərindən öyrənmişdir.

Yazıçı-dramaturq Təhmasibin bədii əsərləri də öz mövzusunu birbaşa folklordan götürmüş, folklor mətnləri əsərlərinin tərkib hissəsinə çevrilmişdir.

Məmməhüseyn Təhmasibin çoxşaxəli zəngin irsi folklorşünaslıq tariximizdə silinməz izlər qoymuş, yaradıcılığının öyrənilməsi isə hər zaman öz aktuallığını qorumuşdur.

**Açar sözlər:** Təhmasib, yazıçı, problem, xalq yaradıcılığı

## ПРОБЛЕМА ПИСАТЕЛЯ И ФОЛЬКЛОРА В ТВОРЧЕСТВЕ М.Г.ТАХМАСИБА

**Резюме**

Заслуги известного ученого фольклориста Мухаммед Гусейна Тахмасиба незаменимы в развитии Азербайджанской литературы, культуры, науки. Исследования ученого, с

точки зрения изучения Азербайджанского обрядового фольклора и эпоса охватывают важный период в развитии нашей фольклористики.

Исследуя связь между устной и письменной литературой, Тахмасиб, разведывал творчество таких писателей как И.Насими, Ю.В.Чеменземинли, Джафар Джаббарлы, глубоко и на высоком уровне изучил проблему писателя и фольклора.

Художественные произведения писателя-драматурга М.Х.Тахмасиба, взяв свои темы непосредственно с фольклора, стали составной частью текстов произведений фольклора.

Разнообразное богатое наследие М.Г.Тахмасиба, оставило неизгладимые следы в истории нашей фольклористики, а изучение его творчества сохранило свою актуальность

**Ключевые слова**: Тахмасиб, писатель, проблема, научное творчество

## THE PROBLEM OF WRITER AND FOLKLORE IN TAHMASIB'S ACTIVITY

**Summary**

The famous folklore-study scientist MammadhuseynTahmasib's role in the development of Azerbaijan literature, culture and science is very matchless. The investigations done by the scientist in the direction of Azerbaijan ceremony folklore and studying the epos combines the important level in the development of our folklore-study.

Investigating the relation between the oral literature and the written literature Tahmasib studied it in some literary men's activity such as Nasimi, Chamanzaminli, JafarJabbarli, he also investigated the problem of the writer and folklore in details.

Tahmasib's works of art have taken its subject from the folklore and the folklore texts have become the main content of the works.

MammadhuseynTahmasib's many-branched rich heritage has put the indelible signs in our folklore-study history, but investigating his activity has always protected its actuality.

**Key words:** Tahmasib, writer, folklore, problem, folk activity

Təhmasbəylilər və Kəngərlilər nəslindən olan Məmmədhüseyn Təhmasib 12 aprel 1907-ci ildə Naxçıvanda dünyaya göz açmış, nənəsi Nazlı xanım, bibisi Durna xanımın sevə-sevə söylədiyi bayatıların, nağılların, dastanların sehrli aləmində böyümüşdür. Məmmədhüseyn Təhmasib kiçik yaşlarından böyük qardaşı, Rza Təhmasibin təsiri ilə teatr mühitinə böyük maraq göstərmiş, Cəlil Məmmədquluzadənin "Ölülər" pyesinin tamaşasında Cəlal rolunu oynamışdır. Məmmədhüseyn Təhmasibinin şifahi xalq ədəbiyyatına marağı da əslində qardaşı Rza Təhmasibdən qaynaqlanmışdır. "1921-ci ildə Azərbaycan Xarici İşlər Komissarlığının göndərişi ilə diplomatik nümayəndəliyin tərkibində tərcüməçi kimi Türkiyədə çalışan Rza Təhmasib Naxçıvana, qardaşı Məmmədhüseynə məktub yazaraq kitabxanasındakı bir çox kitabları o cümlədən, folklor nümunələrini ona göndərməyi tapşırır. ...1922-ci ilin sonlarında Türkiyədən qayıdarkən Rza Təhmasibin özü ilə Naxçıvana gətirdiyi şifahi xalq ədəbiyyatı ilə bağlı kitablar Məmmədhüseyni öz təsiri altına salır" (3, səh.19).

Azərbaycan folklorşünaslığının inkişafında, folklorşünaslar nəslinin yetişməsində böyük xidmətləri olan Məmmədhüseyn Təhmasib mövsüm və mərasim nəğmələrinin araşdırılmasından başlayıb Azərbaycan xalq dastanlarına dair fundamental tədqiqatları ilə ədəbiyyat tarixində əvəzsiz iz qoymuşdur. Azərbaycanda folklorla bağlı tədqiqatların aparılmasının böyük tarixi məhz Məmmədhüseyn Təhmasiblə bağlıdır. M.Təhmasibin yazılı ədəbiyyat və folklor probleminin öyrənilməsi sahəsində apardığı işlər uzun illik elmi-nəzəri təcrübəyə dayanır.

“Məmmədhüseyn Təhmasib Azərbaycan xalqının tarixini, həyat tərzini, mənəvi dəyərlərini ifadə edən ən müxtəlif regionlara səpələnmiş folklor nümunələrini toplayıb ümumiləşdirməklə yanaşı, xalq yaradıcılığının mənalar aləmini, bədii xüsusiyyətlərini də açmışdır” (11, səh. 3).

Görkəmli folklorşünas alim Məmmədhüseyn Təhmasibin Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, elminin inkişafında xidmətləri əvəzsizdir. Azərbaycan folklorşünaslığının nəzəri, metodoloji əsasları toplayıcı, tərtibçi, tədqiqatçı alimin uzun illər boyunca apardığı dəyərli araşdırmalar əsasında formalaşmışdır. Alimin Azərbaycan mərasim folklorunun öyrənilməsi, Azərbaycan eposunun öyrənilməsi istiqamətində apardığı araşdırmaları folklorşünaslığımızın inkişafında mühüm və vacib mərhələni təşkil edir.

Məmmədhüseyn Təhmasibin folklor araşdırmalarının bugün qarşılaşdığı ana problemlərinə toxunmadan öncə, onun tədqiqatının keçdiyi inkişaf yoluna nəzər salaq. Bildiyimiz kimi, Məmmədhüseyn Təhmasibin “Azərbaycan xalq dastanları (orta əsrlər)” tədqiqatı ilə Azərbaycan dastanşünaslığı yeni mərhələyə qədəm qoydu. Görkəmli folklorşünasın bu tədqiqatı Azərbaycan dastan fondunun zənginliyini təmin etmək, folklor müstəvisində aşığın yerini müəyyənləşdirmək, dastanların təsnifatını aparmaq, dastan ənənələrini öyrənmək, dastan qəhrəmanlarının tipologiyasını vermək baxımından aktuallığını bu gün də saxlamaqdadır. Eyni zamanda bu tədqiqatın özünün də hərtərəfli araşdırılması, ona yeni baxış bu günün tələblərindəndir.

Kamran Əliyev “Məmmədhüseyn Təhmasibin yaradıcılığı folklorşünaslıq məktəbidir” məqaləsində qeyd edir ki; “M.Təhmasib yaradıcılığında bir sənətkarla, yaxud bir problemlə bağlı iki və daha çox məqaləyə rast gəlmək mümkündür. Bu tipli məqalələr görkəmli folklorşünasın yaradıcılıq özünəməxsusluqlarını müəyyənləşdirməyə geniş imkanlar açır. İlkin olaraq bildirmək lazımdır ki, həmin məqalələr eyni ildə, yaxud bir-birinə son

dərəcə yaxın bir vaxtda qələmə alınıbsa, onlardan biri digərinin davamıdır. Yox, eyni mövzuya həsr edilən məqalələr bir-birindən xeyli fərqli zamanlarda (məsələn, 10 il fərqlə!) yazılıbsa, onda ikinci məqalədə folklorşünaslığın inkişafı nəzərə alınmaqla yeni məsələlər qaldırılır" (5).

1956-cı ildə müqəddiməsi və izahları az qala dastanın özü qədər olan "Koroğlu" eposunu yenidən çap etdirən Məmmədhüseyn Təhmasib "Məlum olduğu kimi hələ 17-ci əsrdə yaşamış və əsasən öz yaşadığı illərin tarixini yazmış tarixçi Arakel Təbrizli 1610-cu illərdə İran-Türkiyə istilaçılarına və yerli feodallara qarşı Azərbaycanda qalxmış kəndli üsyanının başçılarını sayarkən bunların sırasında Kosa Səfər, Gizir oğlu Mustafa bəy və başqaları ilə birlikdə Koroğlunun da adını çəkmişdir".

Şübhəsiz ki, bu istinad yalnız və yalnız eposun çapına nail olmaq məqsədi daşıyırdı. Türk xalqlarının əfsanəvi qəhrəmanlıq dastanı olan "Koroğlu" eposunun minilliklərin yaddaşından gələn mifoloji qaynaqları sosrealizmə tabe olmadan, normativ ədəbiyyatın diqtəsinə məruz qalmadan işıq üzü görə bilməzdi. Lakin M.Təhmasibin bu müqəddiməsindəki əsaslandırmalara, eposun süjetindəki dəyişkənliklərə baxmayaraq eposun mifik qaynaqları da ustalıqla qorunub saxlanılmışdır.

Sovet rejiminin bütün ağrı-acılarını hərtərəfli yaşayan M.Təhmasib1956-cı il müqəddiməsinin əksinə, 17 il zaman fərqi ilə "Koroğlu" eposunun yaranma tarixi ilə bağlı problemə yenidən qayıdır.

1973-cü ildə yazmış olduğu "Nəsimi və xalq poeziyası" məqaləsində Təhmasib Nəsimi irsində şifahi ədəbiyyatdan, xüsusilə də epik və lirik xalq poeziyasından yararlanmanı müəyyənləşdirirərək "Koroğlu" eposunun yaranma tarixi ilə bağlı olaraq, problemə yenidən toxunmuşdur.

Nəsiminin

"Qəmzədən misri qılınc vermişsən əsrük türkə kim,
Qan bahasız necə qan etmək dilərsən, etməgil" (11, 383).

beytini əsas götürən Təhmasib, "beyt bizcə, doğrudan-doğruya Koroğluya işarədir və eposun, yaxud surətin yaranma tarixini daha qədimlərə aparmağa əsas verir, qənaətinə gəlir. Əsrük türk – dəli-dolu türk deməkdir, qana-qan qədim türk əxlaqıdır. O burada tək bircə Misri qılıncdan və əsrük türkdən danışıldığı üçün bu beytin Koroğluya işarə olduğunu iddia etmir həmin sətirlərdə həm də qan bahasız qan etməkdən danışılır ki, bu da qan bahası vermək qaydasına tabe olmayan Koroğluya xas qəhrəmanlıq sifətidir.

"Sovet epoxasının bütün ağrı-acılarını yaşadı, mənəvi ağrılara dözə-dözə Azərbaycan folkloru və folklorşünaslığını yad rejimdən, yabançı ideologiyanın təsirindən qorumaq ağırlığını uzun müddət öz çiyinlərində daşıdı; onun seçdiyi milli müstəvidən folklorumuz bütün əzəməti ilə göründü" (11, səh. 8).

Məmmədhüseyn Təhmasib həmin məqalədə ölməz şairin xalq ədəbiyyatına münasibətini yüksək qiymətləndirir: "Diqqət edilsə, Nəsimidə də saza çox müsbət münasibət vardır. Onu dinləməyi haram elan edən sufiləri də şair zövqsüz, səfasız adlandırmışdır:

Səfasız sufiyi hər kim, haram der, dinləməz sazı"

(11, səh.384 ).

M.Təhmasib Nəsimi ilə Qurbani arasındakı səsləşməni, Qurbaninin Nəsimi təsirli şeirlərini göz önünə gətirərək, maraqlı paralellər aparır. Bizcə ana dilli şeirimizin yazılı şaxəsinə Nəsimi haqq aşiqi tərzini gətirmişsə, onun şifahi qolunda da Qurbani haqq aşığı tərzinin binasını qoymuşdur ki, bu da sonrakı əsrlərdə həqiqət tərəfdarı olan aşığı, bu gün gözlərimiz qabağında isə xalq aşığına çevrilmə prosesi keçirir.

"Yüzündür müsəhəf ey huri, yanağın qaf vəl Quran.

Göründüyü kimi, bu artıq hürufi Nəsiminin gözəlidir.

Qurbani də öz yarını təqribən belə təsvir edir:

Qurbanidir zülfün ucu xəyətdi,
Qurandakı qülhüvülla əhəddi" (11, səh. 386).

M.Təhmasib ölməz şairimiz Nəsiminin çox maraqlı və eyni zamanda tədqiqi çox mürəkkəb olan yaradıcılığında xalqın yaratdığı şifahi söz sənəti ilə bağlılığını açır.

"Nəsimi öz şeirlərində, ümumiyyətlə, şifahi ədəbiyyatdan, onun atalar sözü və məsəllərindən, xalq aforizmlərindən, əfsanə və rəvayətlərindən, xüsusilə epik və lirik xalq poeziyasından həmişə faydalanmış, çox tez-tez istifadə eləmişdir" (11, səh. 390).

M.Təhmasib epik və lirik poeziya arasındakı səsləşmələrdən çox sayda nümunələr gətirərək Nəsiminin yaradıcılığının yüzilliklər sonra belə aşıqların yaradıcılığına təsirini açır.

"Şeirlərində doğrudan-doğruya Nəsiminin adını çəkən, özünü bir növ ona oxşatmağa çalışan aşıqlarımızdan biri ondan beş-altı əsr sonra yaşamış Ələsgərdir", yazır.

«Dəxi üç nəsnə könlü qəmgin eylər,
Qulaq tut kim edim sənə hekayət,
Yaman qonşu, yaman yoldaş,
Yaman övrət siyasətdir, siyasət (11, səh. 385).

Nəsiminin "Se adət" ustadnaməsindən fikir alan Ələsgər eyni fikri özünəməxsus səsləndirir.

"Bu dünyada üç şey başa bəladır,
Yaman oğul, yaman arvad, yaman at,
İstəyirsən qurtarasan əlindən
Birin boşla, birin boşa, birin sat" (11, səh. 386).

Təhmasib şifahi ədəbiyyatla yazılı ədəbiyyat arasındakı əlaqəni Nəsimi, Çəmənzəminli, Cəfər Cabbarlı kimi ədiblərin yaradıcılığında tədqiq etmiş, yazıçı və folklor problemini geniş səviyyədə və dərindən öyrənmişdir.

"Tədqiqatçı Cəfər Cabbarlının laylalardan, bayatılardan, xalq mahnılarından, atalar sözü və məsəllərdən bacarıqlı istifadə etdiyi kimi, həm də bu nümunələrə yaradıcılıqla yanaşdığını, onları yenidən işlədiyini, yenidən mənalandırdığını da diqqətə çəkir" (6, səh.135).

“Ədib alim” məqaləsində Yusif Vəzir Çəmənzəminlinin folklorşünaslıq sahəsindəki tədqiqatçılıq fəaliyyətinə böyük önəm verən Təhmasib, onun folklorşünaslıq sahəsindəki tədqiqatçılıq fəaliyyətinə xüsusi əsər, hətta əsərlər həsr etmək olar qənaətindədir.

“Lakin əgər Yusif Vəzir yalnız “İki od arasında”əsərini yazmaq üçün apardığı tədqiqlərdən əldə etdiyi nəticələri elmi şəkildə yazsaydı, tarixi etnoqrafiyanı fikir aləmini, qədim mədəniyyətləri, xüsusilə folkloru yaxşı bilən gözəl bir alim kimi də müvəffəqiyyət qazana bilərdi (11, səh. 398 ).

Məmmədhüseyn Təhmasibin Yusif Vəzir haqqında qənaətlərini, əslində böyük alimin özünə şamil etsək haqlı olarıq. “Tarixi, dinləri, folkloru, etnoqrafiyanı bu qədər bilməkmi yazıçı Yusif Vəzirə xeyir vermişdir, yaxud yazıçılığı alim Yusif Vəzirə ziyan vermişdir?!

Başqa şəkildə deyilsə, onun elmi-tədqiqatı yazıçılığından daha qabaq başlamışdır. Tədqiqatını da əslində bədii əsərlərdə istifadə məqsədilə aparmışdır” (11, səh. 399).

Yazıçı-dramaturq Təhmasibin bədii əsərləri də öz mövzusunu bir başa folklordan götürmüş, folklor mətnləri əsərlərinin tərkib hissəsinə çevrilmişdir.

Onun ədəbi fəaliyyətinə nəzər salsaq görürük ki, Təhmasib nə yazırsa folklora söykənərək yazır, bədii yaradıcılığının qaynağında folklor durur, dinamik, adət-ənənələrimizə bağlı folklor örnəklərini yaşayır.

M.Təhmasib 1939-cu ildə kənd həyatından bəhs edən “Nəbi” kinossenarisini yazır, 1940-cı illərin əvvəllərində Məmmədhüseyn Təhmasibin iki əsəri – “Bahar” Gəncə Dram Teatrında və “Aslan yatağı” pyesi Gənc Tamaşaçılar Teatrında tamaşaya qoyulur.

Görkəmli dramaturq folklor motivləri əsasında “Çiçəklənən arzular” kino-pyesini yazmış, amma əlverişli şərait olmadığını düşünərək ortaya çıxarmamışdır. 1935-ci ildə yazdığı “Çi-

çəkli dağ" alleqorik pyesi 1954-cü ildə Gənc Tamaşaçılar Teatrında tamaşaya qoyulmuşdur.

"Kəlilə və Dimnə"nin motivləri əsasında yazdığı "Hind nağılı" pyesi və "Gülən gözlər" komediyası yenə həmin teatrda səhnə təcəssümünü tapmışdır. Bunların ardınca müəllif kino sahəsində də qələmini sınamış, kinodramaturgiyamızın tarixinə yeni səhifələr yazmışdır. Bir-birinin ardınca "Yeniliklə köhnəliyin mübarizəsi", "Bir qalanın sirri" və "Onu bağışlamaq olarmı?" filmlərinin ssenarisini yazmış və bu əsərlər dramaturqa Azərbaycan kinosu sahəsində böyük şöhrət qazandırmışdır. Bu adı çəkilən bədii əsərlərininin hər biri, pyes və kino ssenariləri qaynağını foklordan almışdır və hər birində tarixə baxış, keçmişə hörmət, adət-ənənələrə bağlılıq, xalq deyimlərinin dramaturji məqama uyğun şəkil dəyişmələri, nağıl elementləri aydın görünür.

Onun ədəbi fəaliyyətinin əsasında əcdad kultu, insan və onunla bağlı gerçəklər dayanır ki, folklordan kənarda bu gerçəkləri təsəvvür etmək mümkünsüzdür. Təhmasib pyeslərinin mövzu, məzmun, motiv, hətta obrazlar sistemi folklordan qidalanır. M.Təhmasibin ədəbi əsərləri adət ənənələrimizə bağlı olan folklor mətnlərini qoruyub saxlamaq və təbliğ etmək baxımından da dəyərlidir. Azərbaycan elminin, ədəbiyyatının, kino-teatr sənətinin inkişafında xüsusi xidmətləri olan Məmmədhüseyn Təhmasibin çoxşaxəli zəngin irsi folklorşünaslıq tariximizdə silinməz izlər qoymuş, yaradıcılığının öyrənilməsi isə hər zaman öz aktuallığını qorumuşdur.

M.Təhmasib hər bir məqaləsi və kitabı ilə, hər bir mülahizəsi və tezisi ilə, hər məsələyə yanaşması və tədqiqat üsulu ilə, folklor mətninin duyulması və izahı ilə fərqli bir folklorşünasdır. M.Təhmasibin yaradıcılığı folklorşünaslıq məktəbidir (5).

## QAYNAQLAR

1. Abbaslı İsrafil. Folklorşünaslıq axtarışları. 2 cilddə, I cild, Bakı, 2009.
2. Azərbaycan folkloru. Bakı , 2005
3. Dadaşov Aydın. Folklorumuzun ilk doktoru (Məhəmmədhüseyn Təhmasib) Bakı, 2007.
4. Əfəndiyev Paşa. Azərbaycan şifahi xalq ədəbiyyatı, Bakı, 2013
5. Əliyev Kamran. Məmmədhüseyn Təhmasib yaradıcılığı folklorşünaslıq məktəbidir.
http://artkaspi.az/az/memmedhuseyn-tehmasibin-yaradicilii-folklorsunasliq-mektebidir-kamran-eliyev-yazir 25.09.2017
6. Əliyeva Xəyalə. Məmmədhüseyn Təhmasibin folklorşünaslıq fəaliyyəti. Bakı, 2009
7. Koroğlu. Tərtib edən: M.H.Təhmasib, Bakı, 1949.
8. Koroğlu. Tərtib edən: M.H.Təhmasib, Bakı, Azərbaycan SSR EA nəşriyyatı, 1956.
9. Şükrü Elçin. Halk edebiyatına giriş. Ankara, 2004.
10. Təhmasib Məmmədhüseyn. Azərbaycan xalq dastanları (orta əsrlər). Bakı, 1971.
11. Təhmasib Məmmədhüseyn. Seçilmiş əsərləri. 2 cilddə, I cild, Bakı, 2010.
12. Təhmasib Məmmədhüseyn. Seçilmiş əsərləri. 2 cilddə, I I cild, Bakı, 2011.
13. Təhmasib Məmmədhüseyn.Azərbaycan xalq dastanları. Bakı, 1972.

# PƏRİ OBRAZINDAKI DUALLIQ
# (M.H.TƏHMASİBİN TƏDQİQATLARI KONTEKSTİNDƏ)

**Aysel QURBANOVA**
*AMEA Nizami adına Ədəbiyyat İnstitutu*
*ayselqurbanova@rambler.ru*

**Özət**

İstər dünya ədəbiyyatında, istərsə də Azərbaycan ədəbiyyatında hər zaman mifologiyanın obrazlarından, elementlərindən istifadə olunmuşdur. XX əsrdə romantiklərin yaradıcılığında mif dünyasından gələn qəhrəmanlar: Mələk, İblis, Pəri, xüsusilə, seçilirlər. Pərilər, əsasən, gözəl obrazda təsvir olunduqları ilə yanaşı, həm də şər təmsilçisi olması ilə də diqqət çəkirlər. Pərilərin həm xeyir, həm də şər təmsilçisi olmaları M.Təhmasibin tədqiqatlarında da rastımıza çıxır. Tədqiqatçı pərilərin genetikasından gələn şər xarakterli olmasını Dədə Qorqud dastanında Təpəgözün anasının timsalında izah edir. Amma xeyir təmsilçisi olmasını isə həm nağıllarımıza, həm Avestaya müraciət edərək araşdırmışdır.

**Açar sözlər:** Pəri, mifoloji motiv, Təpəgöz, sehr və əfsun, M.H.Təhmasib

## БОЖЕСТВЕННОСТЬ ОБРАЗА ПЕРИ
## (НА ОСНОВЕ ИССЛЕДОВАНИЙ М.Г.ТАХМАСИБА)

**Резюме**

Как в мировой, так и в азербайджанской литературе всегда использовались мифологические образы, элементы. Особенно частоиз мира мифологиив творчестве романтиков XX века встречаютсяобразы ангелов, дьявола, нимф. Наряду с изображением нимф в основном в облике красавиц, в то же время привлекает внимание представление их как носительниц злых сил. Представление нимф то силами добра, то зла встречаем и в исследованиях М.Тахмасиба. Учёный объяс-

няет наличие у нимф злых качеств с их генетикой, основываясь на примере образа матери Тепегёза из дастана «Китаби-Деде Горгуд». Адля объяснения образанимфы как носительницы добра он приводит примеры изнаших сказок и Авесты.

**Ключевые слова:** Пери, мифологические образы, Тепегеза, М.Г.Тахмасиба.

## DIVINE DISCRIMINATION IN IMAGE OF PERI (ON THE BASIS OF STUDIES BY M.H.TAHMASIB)

**Summary**

Mythological characters and components have always been used both in Azerbaijan and the world literature. The heroes of the world of myth stand out in the works of the 20$^{th}$ century romanticists; specially, the Angel, the Devil, and the Fairy. The fairies are not only described as a delicate character, but also draw attention for representing evil images. The fairies representing both good and evil characters can be found in M. Tahmasib's works. The researcher explains the fairies' evil character derived from their genetics in the example of Tepegoz's mother in the Dede Gorgud epopee. However, he has referred to both our fairy-tales, and Avesta to show fairies as good characters.

**Key words:** The Fairy, mythological motive, Tepegoz, magic and witchcraft, M.H.Tahmasib

İstər dünya ədəbiyyatında, istərsə də Azərbaycan ədəbiyyatında hər zaman mifologiyanın obrazlarından, elementlərindən istifadə olunmuşdur. Yazıçı və şairlər öz əcdadlarının yaratdıqları mifoloji obraz və motivlərdən zaman-zaman yararlanmışlar. Nə qədər texnologiya inkişaf etsə də, insan beyni ətraf aləmi elmin vasitəsilə dərk etməyə çalışsa da, mif elementlərindən yan keçmək mümkün deyil.

XX əsrdə romantiklərin yaradıcılığında mif dünyasından gələn qəhrəmanlar: Mələk, İblis, Pəri xüsusilə seçilirlər. Azər-

baycan ədəbiyyatında mifoloji motivlərə, xüsusən də, Pəri obrazına müxtəlif dövrlərdə müraciət olunub. Nağıl (əsasən, sehrli nağıllarda) və dastanlarımızda rastlaşdığımız bu obraza XVI əsrdə Ş.İsmayılın "Dəhnamə" poemasında, Ə.Haqverdiyevin "Pəri cadu", A.Səhhətin "Şair, şeir pərisi və şəhərli" poemasında da rast gəlirik. Şifahi xalq ədəbiyyatı nümunələrində Pərilər insan cildinə girməklə bərabər ənənəvi şəkildə - ceyran və göyərçin kimi də təsvir olunurlar. Məsələn, "Tilsim padşahın qızı" nağılında ceyran cildində, "Üç qapı" nağılında isə pərilər quş cildindədirlər (2, s. 42; 117).

Orta əsrlərdə - XVI əsrin nümunəsi olan "Dəhnamə"də müraciət olunan Pəri obrazı ilə XX əsrin nümunəsi olan "Şair, şeir pərisi və şəhərli" poemasındakı Pəri obrazı bir-birindən çox fərqlənir. "Dəhnamə"dəki Pəri obrazını sufizmdən kənar tədqiq etmək heç bir nəticə verməz, bu da təbii idi. Çünki orta əsrlərdə ədəbiyyatda müraciət olunan məhəbbət mövzularında sufizmin təsiri güclü idi.

Yeni dövr Pəri obrazı ənənəvi formasından fərqlənir. A.Səhhətdə rast gəldiyimiz bu obraz yeni biçimdə, yeni məzmunda təqdim olunur. Hal və hərəkətləri ilə ənənəvi Pəri obrazı ilə üst-üstə düşmür. Bu neomifologiyadır - ənənəvi mifoloji obrazı yeni baxış bucağından və yeni müstəvidə təqdim edir.

"Pəri" sözünün farsca mənası görünməyən, gizli güc deməkdir" (4, s. 76). Bunu nağıllarda görürük, onlar göyərçin və ceyran cildinə girərək gizlənə bilir, hətta insan övladının düşüncəsindən nə keçdiyini də hiss edirlər. "Tilsim padşahın qızı" nağılını nümunə göstərə bilərik.

Ənənəvi pəri obrazının özündə təmsil etdiyi qüvvə baxımından da bir duallıq var; bəzi mənbələrdə pəri xeyir, bəzilərində isə şərin təmsilçisi kimi təqdim olunur. "Onlar çox vaxt Tanrının elçiləri tək xatırlanır" (5, s. 274), "Anqramanyu bədxahlığı, şəri yaradarkən divlərə, yalançı adamlara, cadugərlərə və pərilərə arxalanır" (6, s. 62.)

Pərinin şər təmsilçisi olması variantına elmi tədqiqatlarda, xüsusilə, Məmmədhüseyn Təhmasibin yaradıcılığında da rast gəlmək olar. Müəllifin Pəri ilə bağlı araşdırmalarında duallıq özünü göstərir. M.Təhmasib "Kitabi-Dədə Qorqud" dastanında əfsanəvi xarakter daşıyan "Basatın Təpəgözü öldürdüyü boy"da mifik obraz olan Pəri ilə bağlı fikirlərini bu şəkildə açıqlayır: " Əsərin əsas mənfi qəhrəmanı olan Təpəgözün anası ən qədim antropomorf surətlərdən biri olan Payrika-Pəridir" (3, s. 165). Pərinin dünyaya gətirdiyi Təpəgöz oğuzlara bəla gətirir. Təhmasibin təbirincə desək, Təpəgözün ona süd verən anaların qanın sorub həlak etməsində cəlladlıq, xunxarlıq, rəzalət vardır. Pərinin dünyaya gətirdiyi övladın oğuzlara etdiyi zülm, əslində, Pərinin intiqamı idi. Pərilər, əsasən, müsbət və çox gözəl obrazda nağıllarımızda təsvir olunur. Eynilə, M.Təhmasibin tədqiqatında da Pərinin bu yönü ilə də rastlaşırıq. "Avestadan bəlli olduğu üzrə, divlər Əhrimənin köməkçisi olduğu kimi, pərilər də Ahura-Məzdanın köməkçiləridirlər" (3, s. 62).

Abbas Səhhətdə yeni və fərqli Pəri obrazı ilə rastlaşırıq. Poemada, əvvəla, Pəri əlində musiqi aləti olan "santur"la gəlir. "Santur haqqında söylənən bir əfsanəyə görə İranda qadın səsinə bənzədiyi üçün Şah İsmayıl tərəfindən 500 il boyunca yasaqlanmışdır" (tr.m.wikipediya.org). Yasaq edilmiş musiqi alətilə gələn Pəri şairə müraciətlə:

Al, bu santurumu çal, gəldi bahar əyyamı,
Nəğmə əyyamı, mey əyyamı, xumar əyyamı.
Öp şirin ləblərimi, guşeyi-əbrulərimi,
Sırma seysulərimi, nərgisi-cadulərimi (1, s. 87).

Ənənəvi pəri özünü insan övladından hər zaman qorumuş, kənarda özünə məskən salmışdır. Pərilər insan olan məkanlarda gözə görünmürlər, çox hallarda su hövzələri onların məkanı olsa da, bəzi hallarda uzaq qalaları da seçirlər. "Göyərçin qızlar" nağılında pərilərin məkanı qalaçadır. M.Təhmasib Azərbaycan nağıllarında pərilərin məkanlarının bulaqlar olduğunu vurğulayır.

M.Təhmasib tədqiqat əsərində "Dəvadari varianti"nda Təpəgözun anası Pərinin məskəninin böyük dənizlər olduğuna toxunur. Bunu Azərbaycan variantı ilə müqayisə edərək Azərbaycan nağıllarında pərilərin məskənlərinin məhz pınar-bulaq olduğunu yazır (3, s. 180).

Ancaq A.Səhhətin poemasında Pəri heç də insandan qaçan, gizlənən biri deyil. Bu obrazda ənənəvi pəridə gördüyümüz özünüqoruma, ürkmə kimi xüsusiyyətləri də yoxdur. Xaraktercə dəyişmiş obraz kimi "Şeir pərisi" neomifologiya istiqamətində öz məzmununu daha dolğunluqla açır.

"Günəşin qürubundan bir az sonra hadisələr başlayır. Şair ildırım təraqələri kimi səslər eşidir. Bu əsnada, yaxındakı uca dağın təpəsində gözəl bir qız surətində nurani bir kölgə zahir olur" (1, s. 87). Nağıllarda bu cür təsvir divin peyda olmasında müşahidə olunur. "Qara div göy guruldadıqdan, ildırım çaxandan sonra, təxminən günəş qürubundan sonra peyda olur" (2, s. 11) A.Səhhətin yaratdığı Pəri obrazında divin gəlişi əlamətləri var. Həm də "gözəl qız surətində nurani bir kölgə" deməklə pərinin gözəl qız şəklini saxlayır, amma nağıllarda pəri kölgə şəklində görünmür. Burada bir-birinə zidd iki anlayış var: gözəl qız və kölgə. Yuxarıda A.Səhhətin əsərində Pərinin peyda oluşunda Divin gəlmə anında baş verən təbiət hadisələrini də görürük. Həm divlər, həm də pərilər nəticədə insan övladının dediyini yerinə yetirir. Əgər nağıllarda Pərilər insanın onu hara aparacağı yerə getməyə razı olurdusa, Divlər daha çox əsir götürməyə, aparmağa meyilli idilər. Poemada, hardasa, kobud şəkildə olmasa da, pəri div xüsusiyyətini daşıyır. Belə ki, pərinin ona xas ənənədən uzaqlaşıb, həm divə xas peyda oluşu, həm də əfsanəyə görə, yasaqlanmış santurla gəlib şairi faydalı ola biləcəyi işlərdən uzaqlaşdırması onun xarakterindəki dəyişikliyi göstərir. Onu da qeyd edək ki, pəridə olan mənfiyə doğru dəyişiklik öz kökündən gəlmə bir əlamət də hesab oluna bilər. Çünki yuxarıda qeyd etdiyimiz kimi, pəri obrazı ədəbi nümunələrdə həm də şərin

təmsilçisidir. Bir növ bu dəyişiklikdə pərinin genetikasından gəlmə xüsusiyyətlər də yer alır. "Bəzi pərilər insan obrazına – gözəl qadın obrazına girərək adamları və qəhrəmanları yoldan çıxardırlar" (6, s. 66)

Şairlə şeir pərisinin dialoqunu izləyərkən bəzi yerlərdə A.Səhhətin yaratdığı pəri obrazında H.Cavidin yaratdığı İblisin izlərini görürük:

Şair:

Hansı bir kəsbə yapışdım ki, yar olsun tale
Sən çıxıb qarşıma hər ləhzədə oldun mane (1, s. 89).
Sənə məftun olaraq əmrinə təqlid etdim
Hər fəna işdə müsəlmanları tənqid etdim (1, s. 89).

Bu misralarda İblisin Arifi yolundan döndərməyə çalışdığı vəziyyətlə qarşılaşırıq.

Qeyd etdiyimiz kimi, şifahi xalq ədəbiyyatı nümunələrində Pərilər heyvan və göyərçin cildində gəlirlər və cildlərini dəyişərək gözəl qız halında təsvir olunurlar. Amma adı çəkilən poemada təsvir edilən pərinin hansı heyvan cildindən çıxıdığı bəlli deyil, ənənə pozulur – metamarfozanı görmürük.

A.Səhhətdə obrazdakı mifoloji baxımdan olan dəyişiklikdən başqa, təsəvvüfi yöndə də dəyişmə vardır – neosufizm. "XX əsr Azərbaycan romantizmində sufizmin dəyişik şəkildə yaşaması bir neçə istiqamətdə özünü göstərir. Bu, ilk növbədə sufizmin ənənəvi aşiq-məşuq modelində məşuqun yerinə vətənin və millətin qoyulması şəklində özünü göstərir" (7, s. 23).

Şair:

Atmışam mən həvəsi, eşqi, dəxi dilbəri də
Səni də, Şeiri də, ilhamı da, dəftərləri də (1, s. 88).

Tahirə Məmməd "Neosufizm" kitabında şairə doğru yolu şəhərlinin göstərdiyini qeyd edir (7, s. 25). Eyni bu bənzərliyi İ.Əfəndiyevin "Xurşidbanu Natəvan" pyesində də görürük. Seyid Hüseyn də Mamayinin sevgili, eşq barəsində yazdığı hüznlü

qəzəl yazmağındansa, vətən haqqında coşqulu şeirlər yazmağı təklif edir.

XX əsrdə həm mifoloji, həm də təsəvvüfi motivlərdən istifadə yeni istiqamətdə inkişaf etdi. Bu retrospektiv gedişlə ənənəni yaşatmaqla bərabər, müəllif həm də oxucusuna milli şüuru aşılayırdı. Ədəbiyyatda baş verən yeniliklərə, yazıçı, şair və dramaturqların hadisələrə hansı prizmadan yanaşmalarına baxmayaraq, romantiklərin yaradıcılığını tədqiq etdikcə, bir gerçəklik qırmızı xətt kimi keçirdi – milli genetik yaddaşın bədii ədəbiyyata təsiri.

## QAYNAQLAR


1. Abbas Səhhət. Seçilmiş əsərləri. Bakı, Lider nəşriyyatı, 2005, 456 səh.
2. Allah yıxan evi qızlar tikər. Nağıllar. Bakı, Yazıçı, 1994, 304 səh.
3. Məmmədhüseyn Tehmasib. Seçilmiş əsərləri. 2 clddə. 1-ci cild. Bakı:Mütərcim, 2010, 488 səh
4. Pərvanə Bəkirqızı (İsayeva). Mifopoetika və XX əsr Azərbaycan ədəbiyyatının poetik strukturu (monoqrafiya). Bakı, 2015, 248 səh.
5. Qafarov Ramazan. Azərbaycan türklərinin mifologiyası (qaynaqları, təsnifatı, obrazları, genezisi, evolyusiyası və poetikası). Filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. Bakı, 2010, 361 səh.
6. Şükürov Ağayar. Mifologiya. III kitab. Bakı. Elm, 1995, 204 səh
7. Tahirə Məmməd. Neosufizm: yaradıcılıq və nəzəriyyə. Xan nəşriyyatı, Bakı, 2016, 120 səh.

# M.H.TƏHMASİB İRSİNDƏ "KEÇƏL" OBRAZININ TİPOLOGİYASI

**Aytac ABBASOVA**
*Filologiya üzrə fəlsəfə doktoru*
*AMEA Folklor İnstitutu*
*folklorgirl@mail.ru*

**Özət**

Folklorda ən geniş yayılmış obrazlardan biri də keçəl obrazıdır. Bu obraz həm mifik, həm də xalq obrazı kimi bütün folklor janrlarında və mifoloji mətnlərdə özünü göstərir. M.H.Təhmasib tədqiqatlarında, əsasən də nağıllarda keçəl obrazının sistemli təsnifatını vermiş və obrazın daşıdığı funksiyanı geniş təhlil etmişdir.

Araşdırmada obrazın tipoloji təsnifatı kimi biz ayrı-ayrı folklor janrlarında işlənən keçəl obrazlarını birləşdirən ortaq cəhətlərin ortaya çıxarılmasını nəzərdə tutmuşuq. Belə ki, həcmcə ən geniş janr olan nağıllarda keçəl obrazı, dastanlarda keçəl obrazı, mərasim mətnlərində keçəl obrazı və hətta inanclarda keçəl obrazı, atalar sözlərində keçəl obrazı və s. kimi qruplaşdırma apara bilərik.

**Açar sözlər:** M.H.Təhmasib, keçəl, nağıl, dastan, atalar sözü, mifoloji inanclar

## ТИПОЛОГИЯ ЛЫСЫХ ОБРАЗ В ТВОРЧЕСТВЕ М.Г.ТАХМАСИБ

**Резюме**

Лысых образ одно из самых распространенных в фольклоре. Этот образ проявляет себя во всех фольклорных жанрах и мифологических текстах, как мифических, так и народных. М.Г.Тахмасиб дал категорическую классификацию образного образа в своих рассказах, в основном в сказках, и широко анализировал функцию изображения.

В качестве типологической классификации изображения мы представляем идентификацию общих точек, объединяющих естественные образы фольклорных жанров.

Таким образом, в сказках, самом распространенном жанре, лысых образ в эпосе, лысых образ в церемониальных текстах и лысых образ в отцовское слово, как мы можем их сгруппировать.

**Ключевые слова:** М.Г.Тахмасиб, лысый, рассказ, эпос, отцовское слово, мифологические убеждения

## THE TYPOLOGY OF THE IMAGE "BALD" IN M.H.TAHMASIB'S HERITAGE

**Summary**

Bald figure is one of the most used figures in folklore. This figure is met in all folklore genres and mythical texts as a mythic and a social figure. M.H.Tahmasib in his investigations, especially in narrative stories, had given detailed classification of bald figure and thoroughly analyzed the role it played.

In this research as a typological classification we tried to show common features of the different bald figures in folklore genres. We can classify them into groups: like in narrative stories, in epos and ceremonial texts, and also beliefs, proverbs.

**Key words:** M.H.Tahmasib, bald, narrative stories, epos, proverbs, mythic beliefs.

Azərbaycan şifahi xalq ədəbiyyatı nümunələrində hər birimizə yaxından tanış olan və demək olar ki, bütün janrlarda bəzən eyni, bəzən də müxtəlif süjetlərlə qarşımıza çıxan obrazlardan biri də "keçəl" obrazıdır. Folklora məxsus hər bir janrın tərkibində "keçəl" obrazının ümumi bir funksiya və süjetini görə bilərik. Araşdırmada obrazın tipoloji təsnifatı kimi biz ayrı-ayrı folklor janrlarında işlənən "keçəlləri" birləşdirən ortaq cəhətlərin ortaya çıxarılmasını nəzərdə tutmuşuq. Belə ki, həcmcə ən geniş janr olan nağıllarda keçəl obrazı, dastanlarda keçəl obrazı, mərasim

mətnlərində keçəl obrazı və hətta inanclarda keçəl obrazı, atalar sözlərində keçəl obrazı və s. kimi qruplaşdırma apara bilərik.

Keçəl obrazını birmənalı olaraq xarakterizə etsək, xeyirxah, şən, həyatın bütün çətinliklərindən qələbə ilə çıxan, bir sözlə bəxti gətirən, şanslı obrazdır. Müxtəlif vəziyyətlərə düşən keçəl iti ağlını, hiyləgərliyini, zarafatcıllığını, hazırcavablığını işə salaraq qalibiyyət qazanır. Keçəl bəzən ədalətsiz qazını aldadır, bəzən çətin sınaqların öhdəsindən gələrək sehrli əşyaları əldə edir, bəzən də xəsisi cəzalandırır, bir sözlə, zülmün qarşısını alıb məzlumun yanında olur.

**Nağıllarda keçəl obrazı**

Ən çox nağıllarda rast gəldiyimiz keçəl obrazının eyni məqsədli, lakin çoxfunksiyalı fəaliyyətini görürük. "Kəl Həsənin nağılı", "Nardan qızın nağılı", "Ceyranın nağılı", "Keçəl Məhəmməd", "Keçəl Nəzər", "İsfahan keçəli", "Keçəlin divanı", "Noxudu keçəl", "Bulud", "Toyuq bir qılçlıdı", "Gül Sənavərə neylədi, Sənavər Gülə neylədi", "Daş üzük", "Şükufə xanım", "Göyçək Fatma" "Cənnət satan molla", "Keçəllə qazı", "Keçəl, molla və ögey ana", "Keçəl, darğa və axund", "Bala öküz ala öküzün nəyidi?", "Keçəl", "Üçgül keçəl", "Tacirbaşı ilə keçəl", "Keçəlin fəndi", "Keçəllə dəyirmançı", "Keçəlin nağılı" (2, 3, 4, 5, 6, 7) və s. kimi nağıllarda keçəllərlə qarşılaşırıq.

Bəzən nağıllarda yalançı keçəllərə, cildini dəyişmiş müvəqqəti keçəl obrazına girmiş obrazlara da rast gəlirik. Obraz tanınmamaq, gizlənmək, düşməndən qorunmaq, yaxud da aldatmaq məqsədi ilə keçəl cildinə girir. "Gül Sənavərə neylədi, Sənavər Gülə neylədi", "Şükufə xanım", "Göyçək Fatma" və s. kimi nağıllarda bunu görə bilərik.

Məmmədhüseyn Təhmasibin "Azərbaycan nağıllarında keçəl obrazı" adlı məqaləsində nağıllarda keçəl obrazının daşıdığı funksiya və təsnifatı haqqında geniş məlumat almaq olar. Belə ki, müəllif keçəlin xarakterinin təsvirində qeyd edir ki, "Keçəl Azərbaycan xalq nağıllarının mübariz qəhrəmanıdır. O, Azərbaycan

kəndlisinin igid oğludur... Keçəl hər zaman qalib gəlir. O, həmişə yoxsulların, darda qalanların imdadına çatan, onları incidən padşahlarla, xanlarla, seyrək dişli, göy gözlü, kosa hampalarla, onlardan heç də geri qalmayan kəndxudalarla, darğalarla, mollalarla, bir sözlə zəhmətkeş xalqın bütün düşmənləri ilə mübarizə aparan, öz qalib gələcəyinə qəti inamla əmin olan və həmişə doğrudan da qalib çıxan optimis bir obrazdır" (13, 120). Keçəl obrazının xüsusiyyətləri ilə bağlı qeyd etdiyimiz bu keyfiyyətlərin nağıllarda əks etdirilməsini M.H.Təmasib bir neçə xalq nağılında işlənən keçəllərin qısa təsnifatını verməklə əhatəli izah etmişdir. "Keçəl Məhəmməd" nağılında keçəlin cəsarətli olmağını, "İsfahan keçəli" nağılında keçəlin dözümlü, "İmam" nağılında keçəlin ifşaedici, "Keçəl" nağılında mübariz, "Keçəlin divanı" nağılında keçəlin qorxmaz olması, hətta şahın özünü birbaşa ifşa edilməsini nağıllardan nümunələr gətirərək göstərmişdir. Müəllifin qeyd etdiyi keçəl obrazının ümumi bir funksiyası var: haqsızlığa qarşı kimliyindən asılı olmayaraq hər kəslə mübarizə aparmaq və qalib gəlmək. Keçəl obrazının qarşılaşdığı əks tərəflər isə gah tacir, gah darğa, gah imam, gah kosa, gah da şahdır. Keçəl bu obrazlarla mübarizə aparır və həmişə qalib gəlir. Müəllif haqlı olaraq yazır ki, keçəl obrazının işləndiyi nağıllarda mütləq ictimai-iqtisadi ziddiyyətlərin hakim olduğu bir dövr əks olunur. Kasıb-varlı təbəqəsində keçəl kasıb tərəf olub nağılın əvvəlində haqsızlığa uğrayırsa, nağılın sonunda mütləq zalım varlının cəzasını verib qalib olur.

Məmmədhüseyn Təhmasibin folklorşünaslıq araşdırmalarında folklor və mifoloji obrazların bir çoxunun, həmçinin keçəl obrazının geniş və izahlı təhlili olmuşdur. Prof. Kamran Əliyev yazır ki, M.H.Təhmasibdən sonra Keçəl obrazı ilə bağlı tədqiqatlar xeyli genişlənmiş, dünya və Azərbaycan folklorşünaslığının inkişafı ilə həmahəng olaraq bu barədə tədqiqatların şəbəkəsi böyümüş, yeni elmi mülahizələr söylənmişdir, amma bu fikir danılmaz olaraq qalır ki, folklorşünaslığımızda Keçəl obrazının sistemli təhlili M.H.Təhmasibdən başlayır (10, 19-20).

**Dastanlarda keçəl obrazı**

Dastanlarda keçəl obrazının həqiqi keçəl, yaxud da keçəl obrazına girmiş, özünü tanıtmamaq üçün cildini dəyişmiş variantlarını görürük.

"Koroğlu" dastanında daha geniş "Həmzənin Qıratı aparması" (11, 160) qolunda Keçəl Həmzə adlı obraz ilə rastlaşırıq. Dastanda göstərilir ki, "Koroğlu Keçəl Həmzəni götürüb Çənlibelə gəldi. Dəlilər Həmzəni görüb dedilər: – Ay Koroğlu, bunu haradan tapıb gətirdin! Keçəllər fəndgir olurlar. Bunun gözləri üçtəpə sağsağanının gözləri kimi qayır-qayır qaynayır. Heç əməlli adama oxşamır. Rədd elə, getsin. Xanımlar da dəlilərin sözlərini təsdiqlədilər.

Koroğlu xanımları, dəliləri bir təhər sakit eləyib, dedi: – Görürsünüz yazığın birisidi. Sizə nə eləyəcək. Qoyun süfrəmizin qırıq-quruğundan yeyib, qapıda, bacada dolansın" (11, 166).

İlk baxışda xarici görünüşü ilə bağlı fikir yürüdən dəlilər onun başının keçəl olmasını və gözlərinin parıldamasını əsas götürərək xarakteri ilə də bağlı nəticəyə gəlirlər. Baxmayaraq ki, Koroğlu buna əhəmiyyət vermir və Keçəl Həmzəni yazıq hesab edir. Lakin bir azdan Keçəl Həmzənin Koroğlunu hiyləylə aldadıb, Qıratı aparması kimi süjet xəttinə rast gəlirik.

Muxtar İmanov yazır ki, "Özünü gizlədib başqa dona girməyin ən arxaik mənası qəhrəmanın dəyişib o dünya sakinlərinin görkəminə uyğun bir görkəm alması inamı ilə bağlıdır. O dünya sərhədinə çatan qəhrəman o dünyanın eybəcər sakinlərinin görkəmini qəbul edir ki, təhlükədən qoruna bilsin. Zahiri görünüşün, o cümlədən geyimin magik gücünə inam xalq arasında bu gün də yaşamaqdadır" (12, 254). Bunun isə ən bariz nümunəsi kimi keçəl obrazını göstərə bilərik. Hər iki dastanda keçəl obrazı nağıllarda olduğundan daha fərqli, yalançı, öz xeyri üçün, bəylik və paşa qızı almaq üçün heç nədən çəkinməyən, layiq olmadığı mərtəbəyə can atan, kələkbaz bir obraz kimi qarşımıza

çıxır. Beləliklə, keçəl Muxtar İmanovun da dediyi kimi, "kələkbazlığın simvoluna" çevrilir.

### Mərasim mətnlərində keçəl obrazı

Mərasim mətnlərində daha çox Novruz adətlərindən bəhs olunarkən keçəl obrazı ilə qarşılaşırıq. Qışın bitib yazın başlaması və onların mübarizəsi ilə bağlı mətnlərdə yazla qış Kosa və Keçəlin timsalında təqdim olunur. Yağışın dayandırılması ilə bağlı "Günəşi çağırmaq" mərasimində oxunan nəğmələrdə isə keçəl qızın adı çəkilir:

Günəş çıx, çıx,çıx!
Kəhər atı min çıx!
Oğlun qayadan uçdu,
Qızın təndirə düşdü.
Keçəl qızı evdə qoy,
Saçlı qızı götür çıx (13, 67).

M.H.Təhmasib yazır ki, burada, Günəş gözəl bir qızı təmsil edir. Onun şüaları yaz və yay fəslində saça oxşadılmış, qış və yaxud buludlu günlərdə isə keçəl qıza bənzədilmişdir.

Bir çox təqdiqatçıların fikrincə mərasimlərdə, əsasən Günəşi dəvət mərasimlərində oxunan nəğmələrdə Günəş həmişə qıza bənzədilmiş, hətta onun simvolu kimi çömçə bəzəmə, kukla gəzdirmək kimi rituallar vardır (9, 30).

Diqqəti çəkən bir məqamı qeyd etmək istərdik ki, "Göyçək Fatma" nağılı və yuxarıda oxunan nəğmədəki keçəl qız və saçlı qız obrazları bir-birini sanki tamamlayır. Doğrudur, nəğmədə yalnız Günəşin görünüşünün məcazlaşdırlması aparılırsa da, nağılda şah oğlunun keçəl qızı evdə qoyub saçlı qızı aparması nəğmədə deyildiyi kimi bir-biri ilə səsləşir.

### Atalar sözlərində keçəl obrazı

Atalar sözlərində də keçəllə bağlı olduqca hikmətli ifadələr vardır. Doğrudur, burada ancaq keçəlin xarici görkəmi, saçı-

nın olmaması əsas götürülürsə də, müəyyən məna qatlarında obrazın daşıdığı özünəməxsus xüsusiyyətləri görə bilərik.

“Aləm aləm ilədir, keçəl qız da xalamla” (1, 30).

“Keçəl başa qurd düşüb” (1, 261).

“Başını keçəl eləmə; hər keçəlin taleyi bir olmaz” (1, 51).

“Cərgədən qalan keçəl olar” (1, 71).

“Doğru deyənin başı keçəl olar” (1, 92).

“Elə keçəl deyil ki, qartmağı yerə düşə” (1, 101) və s. kimi atalar sözlərinin çoxu keçəlin xarici görünüşü ilə bağlıdır. Əslində isə keçəl bir obraz kimi dildə gəzərək xalq qəhrəmanına, xalqın obrazına çevrilir. Atalar sözlərində də keçəlin hiyləgərliyi, hazırcavablığı, ağıllı olması, mübarizliyi kimi xüsusiyyətlər qorunub saxlanılır.

## Mifoloji inanclarda keçəl obrazı

Mifoloji mətnlərdə və inanclarda da keçəl obrazı və yaxud da “keçəllik” atributu ilə rastlaşırıq. “Keçəllik” əsasən doğum mərasimində yerinə yetirilən uşağın 40 günündə və bir yaşında saçının qırxılmağı ritualına rast gəlirik. Burada uşağı keçəl etmək onun o biri dünyaya keçidini, yəni ölüb-dirilməni, yenidən doğulmanı ifadə edir.

C.Bəydili yazır ki, “keçəl olmaları o biri dünyaya məxsus olduqlarının göstəricisidir. Başda tükün olmaması dünyaya gelişin, doğuluşun nişanı sayılırdı. Müvəqqəti ölüm kimi rəmzləndirilən inisiasiya mərasimlərində saçının qırxılmağı “ölüm”ünün ardından neofitin sanki “yenidən doğulmağı” kimi mənalandırılır. Burada gülüş, keçəllik və doğulma aktı ilkin arxaik anlamdakı eyniyyət təşkil edən simvolikası ilə özünü göstərir” (8, 184).

Xalq inanclarına görə keçəlliyin bic, çoxbilmiş, hiyləgər kimi xüsusiyyətlərin simvoluna çevrilməsi, bir çox rituallarda keçəlin (keçəl olan şəxsin) iştirak etməsi həmin obrazın daşıdığı ilkin arxaik düşüncədən gələn mifik anlamı qoruyub saxlamasından irəli gəlir.

“Keçəl” dedikdə istər-istəməz hər birimizin təsəvvüründə hiyləgər adam obrazı canlanır. Bunun ən başlıca səbəblərindən biri keçəl obrazının genezisində digər mifoloji obrazlarla yanaşı, demonik varlıqların da iştirak etməsidir. Öz mənşəyini başqa mifoloji obrazlarla yanaşı, həm də demonik varlıqlardan götürməsi hiyləgərliyi keçəlin ayrılmaz xüsusiyyətinə çevirir” (12, 264).

Keçəllə bağlı ayrı-ayrı bölgələrə aid folklor antologiyalarında xeyli sayda cırnatmalar, yaxud da nəğmələr vardır. Bu mətnlərdə də əsas olaraq keçəl obrazının əvvəldə qeyd etdiyimiz xüsusiyyətləri sadalanaraq sanki oxucuda, yaxud da dinləyicidə canlı portreti yaradılır.

Keçəl folklorun, demək olar ki, bütün janrlarında rast gəldiyimiz ortaq xüsusiyyətlərini özündə saxlayan mifik və xalq obrazıdır. Keçəl obrazının fövqəltəbii qüvvəyə malik olması, demonik varlıq kimi göstərilməsi, cildini dəyişməsi, o biri dünya ilə bağlılığı və yenidən dirilməni özündə birləşdirməsi onu mifik obraz kimi səciyyələndirir. Bunlarla yanaşı keçəl obrazının xalq düşüncəsində yaratdığı ilkin təsəvvür – onun iti ağlı, hazırcavablığı ilə həmişə haqsızlığa və zülmə qarşı çıxıb xalqın tərəfində olması, onu müdafiə etməsi xalq qəhrəmanına çervilməsinə əsas yaradan cəhətlərdir. Məxsus olduğu əsl mahiyyəti zahiri əlaməti arxasında gizlədən keçəl obrazı folklor və mifologiyada vahid mifik və bədii sistem yaradır.

## QAYNAQLAR


1. Atalar sözü. Tərtib edəni Bəydili C. Bakı: Öndər, 2004, 264 s.
2. Azərbaycan folkloru külliyyatı. I cild. Nağıllar (I kitab). Bakı: Səda, 2006, 400 s.
3. Azərbaycan folkloru külliyyatı. II cild. Nağıllar (II kitab). Bakı: Səda, 2006, 400 s.

4. Azərbaycan folkloru külliyyatı. III cild. Nağıllar (III kitab). Bakı: Səda, 2006, 400 s.
5. Azərbaycan folkloru külliyyatı. IV cild. Nağıllar (IV kitab). Bakı: Nurlan, 2007, 400 s.
6. Azərbaycan folkloru külliyyatı. V cild. Nağıllar (V kitab). Bakı: Nurlan, 2007, 400 s.
7. Azərbaycan folkloru külliyyatı. VI cild. Nağıllar (VI kitab). Bakı: Nurlan, 2008, 400 s.
8. Bəydili C. Türk mifoloji sözlüyü. Bakı: Elm, 2003, 417 s.
9. Əsatir, əfsanə və rəvayətlər. Bakı: Şərq-Qərb, 2005, 304 s.
10. K.Əliyev. M.H.Təhmasibin yaradıcılığı folklorşünaslıq məktəbidir. Kaspi qəzeti, 16 sentyabr 2017-ci il, s.19-20
11. Koroğlu. Bakı: Lider, 2005, 552 s.
12. Muxtar Kazımoğlu. Folklorda obrazın ikiləşməsi (monoqrafiya). Bakı: Elm, 2011, 228 s.
13. Təhmasib M.H. Seçilmiş əsərləri. 2 cilddə, I cild. Bakı: Mütərcim, 2010, 488 s.

# ADƏT-ƏNƏNƏ, MƏRASİM VƏ BAYRAMLAR ETNOPSİXOLOJİ RUHUN İFADƏ FORMASI KİMİ (M.H.TƏHMASİBİN YARADICILIĞI ƏSASINDA)

**Elçin QALİBOĞLU (İMAMƏLİYEV)**
*AMEA Folklor İnstitutu*
*elcin.galiboglu@gmail.com*

**Özət**

M.Təhmasibin yaradıcılığında adət-ənənə, mərasim və bayramların tədqiqi ayrıca yer tutur. Yazıda alimin adət-ənənə, mərasim və bayramlarla bağlı məqalələri etnopsixoloji ruhun ifadə forması kimi araşdırılır, özünəməxsus qənaətlərə gəlinir.

**Açar sözlər:** M.Təhmasib, adət-ənənə, mərasim, bayram, əcdadı xatırlama günü.

## ОБЫЧАИ-ТРАДИЦИИ, ОБРЯДЫ И ПРАЗДНИКИ КАК ФОРМА ВЫРАЖЕНИЯ ЭТНОПСИХОЛОГИЧЕСКОГО ДУХА (НА ОСНОВЕ ТВОРЧЕСТВА М.Г.ТАХМАСИБА)

**Резюме**

Исследование обычаев-традиций, обрядов и праздников имеет особое место в творчестве М.Тахмасиба. В статье исследуются статьи ученого связанные с обычаями-традициями, обрядами и праздниками, как форма выражения этнопсихологического духа и делаются своеобразные выводы.

**Ключевые слова:** М.Тахмасиб, обычаи-традиции, обряд, праздник, день поминания предка

**TRADITIONS, CEREMONIES AND HOLIDAYS AS A EXPRESSING FORM OF THE ETHNO-PSYCHOLOGICAL SPIRIT (ON THE BASED OF M.H.TAHMASIB'S ACTIVITY)**

**Summary**

The investigation of traditions, ceremonies and holidays takes an important place in M.Tahmasib's activity. In the article the investigations done by the author about the traditions, ceremonies and holidays are investigated as the expressing form the ethno-psychological spirit and the specific conclusions are shown.

**Key words:** M.Tahmasib, tradition, ceremony, holiday, the day reminding the ancestor

Hər bir xalqın özünəməxsus adət-ənənəsi, mərasim və bayramları olur. Bu, xalqın varolumunun – xalqlığının başlıca şərtidir. Minillər ötür, xalqın bu və ya başqa keyfiyyəti ömürləşir, sonrakı nəsillər bu möhkəm özül üzərində yeni üfüqlər yaradırlar. M.Təhmasibin yaradıcılğında bu mövzularda araşdırmalar orijinallığı ilə diqqəti çəkir. Onun əsərlərini incələdikcə xalq ruhuna bələdliyi, tədqiqatçı ardıcıllığı, alim məsuliyyəti aydınca görünür. Sovet ideologiyasının hökm sürdüyü dönəmdə yaşayıb-yaratmış alimin istər-istəməz müəyyən məsələlərə tam münasibət bildirməməsi, bu və başqa mövzularda vahid, oturuşmuş baxış olmadığından özü tərəfindən meyar yaratmaq çabaları, xalq ruhunu qoruyuculuqla bağlı axtarışların kökündə milli əsasların olduğunu sübut etmək və s. kimi məqamlar həmişə dəyərləndirilməyə layiqdir.

M.Təhmasib "Xalq ədəbiyyatımızda mövsüm və mərasim nəğmələri" (1945-ci ildə müdafiə etdiyi dissertasiyası) adlı geniş həcmli araşdırmasında sənətin əməklə bağlılığını önə çəkir. Bu, təbii ki, marksizm ideologiyasının tələbindən irəli gəlirdi. Ancaq alim bu kimi məsələlərə yanaşmasında da xalq ruhunu əsas götü-

rür, fiziki işə can verən insanın təbiətlə özü arasında yaradıcı, inamlı münasibətini mahiyyətcə bu sarıdan izah edir. O deməkdir ki, alim əcdadlarımızın bu prosesdə rastlaşdığı hər nəsnənin ötəri, keçici olmadığını, əmək prosesini mənalandırmaq qabiliyyətinin ulusal keyfiyyətlə bağlı olduğunu görə bilir. Deməli, əcdad düşüncəsində düşünmək məsələsi atüstü deyil, oturuşmuş bir keyfiyyətdir.

Ənənə - adət və ya adət-ənənə bir cəmiyyət və ya qrup içərisində müəyyən keçmişə sahib olan, simvolik və ya xüsusi bir əhəmiyyətdə nəsildən-nəsilə ötürülərək sanksiya gücü olan vərdiş, məlumat, davranış və inanc toplusudur (3).

**Mərasim** - qəbul və ya müəyyən olunmuş qayda və üsullarla icra edilən təntənədir (2).

S.Rzasoy yazır ki, M.Təhmasibin namizədlik dissertasiyası mərasim və mövsüm nəğmələrinin öyrənilməsinə həsr edilməklə "Bu işdə əsas kütləsi etibarilə özünün topladığı materiallar əsasında Azərbaycanın mərasim folkloru həm ailə-məişət mərasimləri, həm də təqvim-mövsüm mərasimləri kontekstində araşdırılmışdır. O, tədqiq obyekti olaraq götürdüyü mərasimləri bir ritual sistemi olaraq təsvir etmiş, onların poetik xüsusiyyətlərini öyrənmişdir. Təqdim etdiyi materiallar və bir sıra ciddi elmi təhlilləri baxımından həmin namizədlik dissertasiyası bu gün belə öz aktuallığını saxlayan tərəflərə malikdir" (4, 91).

Holavarlarla bağlı M.Təhmasibin yanaşmasını incələdikdə hətta musiqililiyin də təsadüfi yaranmadığını diqqətə çatdırdığının şahidi oluruq: "Holavarlar ancaq iş əsnasında, yəni yer sürüldüyü zaman xodaqlar tərəfindən oxunur. Nəğmələrin mövzusu görülməkdə olan işin müxtəlif cəhətləri və xüsusiyyətləri ilə əlaqədar, ahəng və musiqi (havası) isə öküzlərin hərəkəti və işin sürətinə, yəni onun yaratdığı iş ahənginə tabe bir şəkildə olur. Deyilən hər bəlli və qismən sabit bənddən, bəzən isə misradan sonra öküzə, cütə, yaxud xodağa müraciətdən ibarət nəqarət hissəsi işin yaratdığı vəziyyətlə əlaqədar olaraq bir neçə dəfə, bəzən isə saysız-hesabsız bir şəkildə təkrar olunur" (5, 19).

M.Təhmasibin holavarlarla bayatılar arasında bağlılıq, keçid görməsi maraqlı yanaşmadır. Burada alim "daha qədim olan holavarların getdikcə unudulub nisbətən daha yeni olan bayatılarla əvəz olunmasına" diqqəti çəkir: "Hətta müəyyən bir bayatının əvvəlindəki "mən aşiqəm" sözünü "lay-lay dedim" sözü ilə əvəz olunması ilə "lay-lay" şəklinə salındığı kimi, bugünkü xodaqlar da çox zaman adi bayatıların başlanğıcını "Qara kəlim" sözü ilə əvəz edərək holavar kimi oxuyurlar" (5, 21).

Burada alimin gördüyü əsas məsələ xalq ruhunun ölməzliyi, yaşarlılığı, varisliyidir. İnsanın təbiətə münasibətinin ilkin dönəmi – onun əslində dilsiz-ağızsız dönəmidir. Bu dönəmdən sonra onun dili yavaş-yavaş formalaşır, fikrini artıq jestlərlə, mimikalarla ifadə etməklə yetərlənmir. M.Təhmasib sehr, əfsun və s. yaranmasını izah edərkən insanın təbiətə dov gəlmək ehtirasının, inadının mahiyyətini belə görür: "İnsan indi təbiət qanunlarına müxtəlif sehr və əfsunlar vasitəsilə təsir etmək istəyirdi. İndi qövsi-quzehin verdiyi "məlumat" onun məhsul uğrundakı mübarizəsinin ancaq birinci mərhələsini təşkil edirdi. Bunu bildikdən sonra o, müxtəlif sehr və əfsunlarla yeni ilin yağışlı olmasını təmin etmək, yəni təbiətin yağışla əlaqədar olan qüvvələrinə təsir etmək, onları özünə tabe etmək uğrunda mübarizəyə girişirdi" (5, 24).

"Ata-baba günü" mərasimi haqqında danışan M.Təhmasib bildirir ki, ayrı-ayrı ailələrə aid olan adətlərdən başqa bizdə həm də ümumi, kütləvi "Əcdadı xatırlama" günü və buna həsr edilmiş xüsusi bir mərasim də olmuşdur. Bu günə xalq arasında "Ata-Baba" günü deyilmişdir. Naxçıvan tərəflərdə indi də çox böyük izdihama elə bil Ata-Baba günüdür" – deyirlər.

Bu yerdə bir əsas məqama diqqət çəkmək istərdik. Ümumiyyətlə, adət-ənənə, mərasim və bayramların mahiyyətində inam amili durur. O deməkdir ki, insan dünyaya gözünü açandan hər şeyə sövqi-təbii inamın gözüylə, tələbiylə baxıb. Təbii, ilkin dönəmdə o, dünyanı heç vəchlə indiki kimi anlaya bilməzdi. M.Təhmasibin araşdırmasından gətirdiyimiz sitatlar folklor dü-

şüncəsində bu prosesin necə canlı şəkildə qorunmasını bizə aydınca göstərir. Bu faktlar bizə onu deyir ki, deməli, xalqın ilkin inanclarının, düşüncəsinin yaşı olduqca qədimdir. Alim Azərbaycan folklorunun müxtəlif janrlarının ideya məzmununu diqqətlə incələyir, bu və ya başqa janrın təsadüfi yaranmadığına diqqət çəkir. Məsələn, o, tarix boyunca Azərbaycan əkinçisinin demək olar, "taleyinin yağışdan asılı olduğunu, bu ehtiyacın xalqın bədii yaradıcılığında, adət-ənənələrində, dini təsəvvür və görüşlərində, əqidə və etiqadlarında çox dərin iz buraxdığını" bildirir. Başqa tərəfdən, M.Təhmasibin araşdırdığımız məsələlərə münasibətinin qaynağını Zərdüştün "Avesta"sında görürük. Alim, "Avesta"nın "Azərbaycanın əsatir və əfsanələri, adət-ənənələri, etiqad və əqidələri əsasında yaranmış fəlsəfi-dini-ədəbi bir əsər olduğunu" (5, 31) yazır.

Alimin Raqozinanın "İstorii Midii" əsərinə istinadla yazdığı qənaətlər onun bu kimi məsələlərə özünəməxsus yanaşdığını göstərir, "Ata-Baba" gününün "Avesta"da izlərini axtarır, burada Ata-Baba ruhunun "Fravaş" adlandırıldığını yazır. Mətnə baxaq: "Elə ki, Vurukaş dənizinin suyu qalxır, onda dəhşətli Fravaşlar görünürlər. Yüzlərlə, minlərlə, on minlərlə gələn fravaşlar divlərlə vuruşaraq öz vətənləri, öz kəndləri, əkinləri üçün su alırlar. "Qoy bizim yerimizdə bol məhsul, tam sevinc olsun"- deyirlər. Onlar öz doğma yurdları, öz doğma torpaqları, hər zaman yaşamış olduqları öz doğma evləri uğrunda vuruşurlar. Onlar öz vətənlərinə, öz kəndlərinə, öz şəhərlərinə, öz torpaqlarına su aparırlar" (5, 98-99).

Alim bu mərasimin köklərinin qədim Azərbaycan – Midiya düşüncəsindən qaynaqlandığı qənaətindədir. Bəs Fravaş nədir? Fravaş mənbələrdə "qoruyucu mələk" anlamında təqdim olunur. Yenə Raqozinanın "İstorii Midii" əsərinə istinad edən M.Təhmasib yazır: "...Fravaşlar insanların hamisi, köməkçisi hesab olunurlar. ... Midiyada ilin son günləri (köhnə stillə martın 1-dən 10-a kimi) Ata-Baba günləri hesab edilir. Bu günlərdə fra-

vaşlar insanların özlərinə qarşı münasibətlərini yoxlamaq üçün yer üzünə gəlirlər. Onlar kəndləri ... düz on gecə gəzib soruşurlar: Görək kim bizi tərifləyəcək? Kim bizim haqqımızda düşünəcək? ... Bizi yeməklə, paltarla, dua ilə xatırlayacaq?" (5, 36).

M.Təhmasib bu mərasimin Azərbaycanda yaşadığına dair misallar gətirir. Bildirək ki, 72 il öncə yazılmış əsərdə vurğulanan məqamların çox hissəsi indi də xalqımızın canlı adət-ənənəsi olaraq yaşamaqdadır. Alimin Xızırla (Xıdırla) bağlı araşdırması da maraqlıdır. Gecə Xızırın gələcəyinə, qovutdan, xəşildən yeyəcəyinə, əlini bu nemətlərin üstünə basacağına inamın mahiyyətini açıqlayan M.Təhmasib bu mərasimin əhalinin yemək bişirib qəbir üstünə getməsi ilə başladığını bildirir. Öncə ağılar deyilir. Sonra müxtəlif evlərdən gətirilmiş yeməklər bir yerə qatılır. Keçmişdəki möbüdü (məbudu – E.Q.) əvəzləyən qoca qarı bu xörəyi paylayır. Qəbirlərin üstünə də pay qoyulur. Axşam evə qayıdanda kəndə də burdan pay aparılır. Bildirək ki, bu adət hazırda Azərbaycanın müxtəlif bölgələrində az, ya çox dərəcədə yaşamaqdadır. Məsələn, doğulduğum Ağsu rayonunun Kalva kəndində onillərdir ki, qəbir üstünə şirniyyat, su aparılır. M.Təhmasibin dediyi kimi, onillər öncəyə kimi bu bölgədə də qəbir üstünə yeməklər aparılıb. Ancaq müşahidələr göstərir ki, hazırda yemək aparmaq adəti səngiməkdədir.

Folklorşünas Aydın Mustafayevin verdiyi bilgiyə görə, onun doğulub boya-başa çatdığı Qarabağ bölgəsində (keçmiş Mardakert, indiki Ağdərə) əhali demək olar, qaçqın düşənə kimi Novruz bayramında elliklə qəbir üstünə gedər, hətta yeməyi də (aş dəmləmək-plov, başqa yeməklər) orada bişirər, çay dəmləyərmişlər. Yoldan keçənə belə yemək verilər, sonda yemək, şirniyyat növləri qəbir üstünə qoyular, maraqlıdır ki, evə gətirmək olmazmış.

Fil.ü.f.d. Tahir Nəsibli ilə söhbətdə bildirir ki, Amasiyanın Ağbaba-Şörəyel mahalının Amasiya rayonunda qəbir üstündə xüsusi adamlar sinilərdə qənd paylayarmışlar. Ölü ölən günü, bayram günü qəbir üstündə mütləq şam yandırılırdı. Ölü basdırı-

landan sonra qəbir yarılır, su tökülürdü. Sonra dairə vurub şaman duasına oxşar şeylər oxuyardılar. Gecə mütləq qəbirin üstündə tonqal qalanarmış. Bu faktın qaqauzlarda belə olduğunu xatırladan folklorçu Naxçıvanın Babək rayonunun Vayxır kəndində də qəbrin üstündə tonqalın qalandığını bildirir: "Bu kənddə indi də ölü yuyulduğu yerdə həmin günün axşamı, eləcə də basdırıldığı yerdə şam yandırılır.

İnanca görə, ölənin ruhunu şərdən (şər ruhlardan) qorumaq, odun şəri yandırıb məhv edəcəyinə inam duyğusu əcdad düşüncəsində əzəli, əbədi hissiyyatdır, yöndür. Bu kimi adətlər səngiməyə doğru getsə də, ruhu, mahiyyəti xalqımızın ağlında, düşüncəsində yaşamaqdadır.

Azərbaycanda yaşayan azsaylı xalqların nümayəndələrinin maraqlı adət-ənənələri mövcuddur. Bu yaxınlarda "sputnik.az" saytında gedən bir yazıda bildirilir ki, Azərbaycanın Qax və Zaqatala rayonları ərazisində yaşayan ingiloylar ildə iki dəfə ölüləri ziyarətetmə mərasimi keçirirlər. İştirakçılardan biri deyir: "Bu mərasimi valideynlərimizdən bizə, bizdən də övladlarımıza ötürəcəyimiz ən dəyərli sərvət hesab edirik. Həmin gün bütün qohum-əqrəba bir yerə yığışır, görüşür və ölülərimizi yad edirik. Ölülərimizin ruhunu, onların xoşladıqları kimi süfrə açıb adlarına duz tökərək şad etdiyimizi düşünürük" – deyə Tina Babucaşvili bildirib. Onların dini düşüncəsinə görə, adamlar öləndə bu dünyadan o biri dünyaya köçürlər və orada bu dünyadakı həyatlarını davam etdirirlər" (1).

Burada təsirlərin qaynağı sarıdan qədim Azərbaycan-türk inancına ciddi oxşarlıq, bəhrələnmə var.

M.Təhmasib toplama materiallarına əsaslanaraq qaranlıq düşdükdən sonra kəndin cavanlarının evləri gəzib, nəğmə oxuması, bacadan torba sallaması faktını önə çəkir: "Bu ənənə gecə evə gələcək Ata-Baba ruhlarını, onların öz istədikləri kimi qarşılamaq məqsədini daşıyır. Bugünlərdə icra edilən bir sıra sehrli və əfsunkar işlər, hərəkətlər var ki, bunlar hamısı Ata-Baba ruh-

larının rahat, maneəsiz gəlib-gedə bilmələri üçün imkan yaratmaq, yardım etmək məqsədini daşıyır" (5, 37).

Alimin Xızırı "baharla, yaşıllıqla, canlanmış təbiətlə əlaqədar olan, bunu təmsil edən əsatiri surət olduğu"nu vurğulaması onu Azərbaycan folklorunun mahiyyətində canlı olaraq görməsi ilə bağlıdır. Novruzda od bayramın başlıca rəmzidir. Burada insanın daxilən təmizlənməsi ideyası əsasdır. M.Təhmasib Ata-Baba mərasiminin kökündə xəlqi (ulusal) təməlin ciddi izlərini görür, dəyərləndirir. O, Ata-Babanı ailənin başçısı olduğu üçün onların ruhlarının evin əsasını təşkil edən yüklə, ocaqla əlaqələndirir. Alim yükün və ocağın qədim xalqlarda da olduğunu vurğulamaqla yanaşı, Azərbaycan türklərində bu adətin yaşadığını bildirir: "Bu xalqlardan birisi olmaq etibarilə qədim azərbaycanlı və köçəri həyatdan oturaq həyata keçdikdə əvvəllərdə onun ayrı-ayrı ailələrini öz ətrafına toplayan ibtidai tonqal artıq ocağa çevrilir, ailənin, yəni yeni mənada evin yenə də əsasını təşkil etməkdə davam etmişdir. Zərdüştlük isə bunu bir qədər daha əsaslandırmış və möhkəmləndirmişdir. O, ocağa malik olduğu mahiyyətdən başqa bir də dini bir ilahiyyat, ilahi qüdsiyyət vermişdi. Qədim azərbaycanlının nəzərində ocaqda yanan od artıq doğrudan-doğruya Ahura-Məzdanın bu dünyaya məxsus təzahüründən ibarət olmuş, onu təmsil etməyə başlamışdı. Beləliklə, ocağın, evin əsası olması mənadakı əhəmiyyəti bir qədər daha möhkəmlənmişdir. Təsadüfi deyil ki, bizdə od, odun, ocaq, oda və s. kimi sözlərin hamısı bir-biri ilə əlaqədardır" (5, 46).

M.Təhmasib "Avesta"dan misallar gətirməklə oda müqəddəs münasibətin Azərbaycan ruhuyla sıx bağlı olduğunu bildirir: "...hər bir mömin midiyalı gecədə üç dəfə durub müqəddəs oda "yem" verməli, zülmətlə mübarizədə ona yardım etməlidir" (5, 47).

O, bu inamın "Xıdıra-Xıdır" nəğməsi ilə mahiyyətcə bağlılığına diqqət çəkir:

"Çatma, çatma, çatmaya,
Çatma yerə batmaya.

Xıdırın payın verməyən,
Gecə evində yatmaya (5, 47).

M.Təhmasibin inanclarda bu izləri axtarması, "Xıdıra Xıdır"ın qədim "Ata-Baba" mərasimi qalıqları olduğu, bunların da qədim Midiya, "Avesta" ilə bağlılığı qənaətinə gəlməsi onu deməyə əsas verir ki, alim Azərbaycan ruhunda-düşüncəsində gec-tez Şərin yox olacağına, mənəvi dünyamızda ciddi şəkildə izləri yaşayan Xeyirin qələbə çalacağına inam, oda sayğılı münasibət motivlərini dərindən müşahidə edə bilmiş, bu cəhətlərin Azərbaycan – Türk ruhunda intişar tapdığına inanmışdır. Ümumiyyətlə, Xeyirin Şər üzərində qələbə çalacağına inam düşüncəsi bəşəri düşüncənin yetkin ifadəsi kimi müxtəlif dinlərə, xalqların mifologiyasına, fəlsəfəsinə, ədəbiyyatına, incəsənətinə bir çox sahələrinə güclü təsir etmişdir.

Dissertasiyanın "Hodu-hodu" adlı bölümündə M.Təhmasib yuxarıda vurğulanan xətti inkişaf etdirir, Günəşin əcdad düşüncəsində əvəzsiz rolunu vurğulamaqla onun varlığına qarşı olan nə varsa, aradan qalxmasında inanclardan istifadə edilmənin qədim köklərini göstərir: "Qədim azərbaycanlı yağışın yağması üçün müxtəlif əfsunkar tədbirlərdən istifadə etdiyi kimi artıq bəla halını alan yağışın kəsməsi üçün də belə tədbirlərdən istifadə etmişdir. Bunların içərisində bizi ən çox maraqlandıran yağışın, eləcə də dolunun altına sacayağı atmaq adətidir. ... Cinlərin iynə vasitəsi ilə tutulub əsir edilməsi, canavarın ağzını, yaxud bəyi bağlamaq üçün bıçaqdan istifadə edilməsi və s. kimi əfsunkar tədbirlə keçmişdə insanın doğrudan da metala fövqəltəbii qüdrətə malik bir şey kimi baxdığını göstərir" (5, 52).

Alim sacayağından istifadənin əsasında onun odla əlaqədar alət olmasını görür, onu "Günəşi dəvət edən sehr və əfsun aktı" adlandırır. "Hodu-hodu"nun xalq arasında "Qodu-qodu", "Xodu-xodu", "Kodu-kodu", "Dodu-qodu" kimi deyiliş formalarına diqqət çəkilir. Bütün hallarda ilahi bir obraz olan Hodu yağışı kəsməlidir, insanların istəyi budur. Mətndən də görünür ki, əlində

çömçə tutaraq nəğmə oxuyanlar ya ərklidirlər: ona qaymaq verməyin gərəkliyi deyilir, əgər gün çıxarmasa, gözləri oyulsun.

Bu ərkli, yumorlu, "qarğışlı" səhnə ilk baxışda adi görünsə də, əslində qədim türk insanının, əcdadın tanrısına münasibətidir. Yəni əcdad düşüncəsində tanrıdan ummaq olar; burda tanrıda özünü, özünü tanrıda görmək, başlıcası, təbiətdəkiləri tanrılaşdırmaq istəyi var. Günəşin tanrılaşdırılması – onu insanlaşmış obrazda görmək isə ayrıca hadisədir. Təsadüfi deyil ki, alim sonda bu qənaətə gəlir: "Qədim azərbaycanlı da başqa bir sıra xalqlarda olduğu kimi, Günəşə canlı, yaşayan bir varlıq kimi baxmış, hətta ona insani səciyyə və şəkil vermişdir".

"Günəşi dəvət" bölümündə M.Təhmasib "Günəşi istiqbal, onun tüluunu qarşılama mərasimi" haqqında danışır, hamıya tanış olan" Gün çıx, çıx, çıx, çıx"!-la başlayan nəğməni təqdim edir. Yenə də yuxarıdakı əhvalla qarşılaşırıq: Günəşin insanlaşmış obrazı. "Mövsüm nəğmələri" adlı bölümdə alim Novruz ruhlu xalq oyunlarından "Kos-kosa"nı ayrıca təhlil edir, bu qənaətə gəlir ki, ümumiyyətlə, mövsüm nəğmələrində birinci qurtaranı yola salmaq, ikincini, yəni başlananı qarşılamaq ünsürləri var.

## QAYNAQLAR


1. Azərbaycanda qeyri-adi mərasim: ölülər gəlir, yeməklərin dadına baxır və… https://sputnik.az/life/20170913/411817308/qaxda-qeyri-adi-merasim.html.
2. http://nedir.az/mərasim-nedir-mərasim-haqqinda).
3. http://nedir.az/bayram-nedir-bayram-haqqinda
4. Rzasoy S. "Folklorşünaslıq tariximizdən: Məmmədhüseyn Təhmasib". "İnternet və intellekt". Struktur-semiotik araşdırmalar. Sayı 1, Bakı, Səda, 2001.
5. Təhmasib M. Seçilmiş əsərləri: 2 cilddə. 1-ci cild. Bakı, Mütərcim, 2010, 448 s.

# M.H.TƏHMASİB: AŞIQ ƏLƏSGƏR YARADICILIĞINA YENİ BAXIŞ

**Əpoş VƏLİYEV**
*Filologiya üzrə fəlsəfə doktoru*
*AMEA Folklor İnstitutu*
*elyarvelisoy@mail.ru*

**Özət**

Aşıq sənəti hər zaman tədqiqatçıların diqqət mərkəzində olmuşdur. M.H.Təhmasib Azərbaycan aşıq şeirinin ən böyük nümayəndələrindən biri olan Aşıq Ələsgərin yaradıcılığını geniş tədqiq etmişdir. M.H.Təhmasib təcnis, dodaqdəyməz, ustadnamə, qoşma, müxəmməs, qıfılbənd, gəraylı və s. şeir formalarında yazıb-yaradan Aşıq Ələsgərin əxlaq, mərdlik, qəhrəmanlıq, vətənpərvərlik, sədaqət, sevgi, gözəl, gözəllik və s. mövzularına da yaradıcılığında geniş yer ayırdığını qeyd edir. Dastan və dastançılığa Ələsgərin münasibəti məsələlərinə də toxunan M.H.Təhmasib, aşığın igidlər, qaçaqlar, el qəhrəmanları haqqında qoşduğu tərifnamələri də dastan adlandırdığını göstərmişdir.

**Açar sözlər:** M.H.Təhmasib, Aşıq Ələsgər, aşıq sənəti, dastan, aşıq yaradıcılığı.

# М.Г.ТАХМАСИБ: НОВЫЙ ВЗГЛЯД НА ТВОРЧЕСТВО АШЫГА АЛЕСКЕРА

**Резюме**

Ашыгское искусство всегда находилось в центре внимания исследователей. М.Г.Тахмасиб широко исследовал творчество, являющегося одним из крупных представителей ашыгской поэзии Ашыга Алескера. Тахмасиб отмечает, что Ашыг Алескер, который писал и творил в таких стихотворных формах как теджнис, додагдяймяз, устаднамя, гошма,

мухеммес, гыфылбянд, герайлы и др., в своем творчестве также уделял широкое место теме нравственности, отважности, героизму, патриотизму, преданности, любви, красоты и т.д. М.Г.Тахмасиб, затронувший вопрос отношения Алескера к эпосу и сказительству эпоса, показал, что ашыг называл эпосом, также сочиненные им восхваления о богатырях, храбрецах, народных героях.

**Ключевые слова:** М.Г.Тахмасиб, Ашыг Алескер, ашыгское искусство, эпос, ашыгское творчество.

## M.H.TAHMASIB: A NEW LOOK AT THE ACTIVITY BY ASHIG ALESKER

**Summary**

Ashig art was always at the center of attention of researchers. M.H.Tahmasib widely studied activity, which is one of the major representatives of Ashig poetry of Ashig Alesker. Tahmasib notes that Ashig Alesker, who wrote and created in such verse forms as tejnis, dodagdaymaz, ustadnama, goshma, mukhemmes, gifilband, gerayli, etc., also devoted a wide space to the theme of morality, courage, heroism, patriotism, devotion, love, beauty, etc. M.H.Tahmasib, who touched upon the issue of Alesker's attitude to the epic and epos tales, showed that Ashig called the epos, as well as his praises for heroes, brave men, and people's heroes.

**Key words:** M.H.Tahmasib, Ashig Alesker, Ashig art, epos, Ashig activity.

Şifahi xalq ədəbiyyatının əsas qollarından birini təşkil edən aşıq poeziyası folklorun digər janrlarına nisbətən yazılı ədəbiyyata daha yaxındır. Aşıq sənəti – Azərbaycanda xalq mühitində yaranmış şifahi xalq yaradıcılığının musiqi formasıdır və təsir gücü, məşhurluğu, kamil olması baxımından hər zaman

tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Xalq yazıçısı M.İbrahimov qeyd edir ki, "Aşıq poeziyası xalq yaradıcılığı ilə yazılı ədəbiyyat arasında bir xəzinədir, möhkəm körpüdür. O, bir tərəfdən xalq yaradıcılığına bağlıdır. O biri tərəfdən isə yazılı ədəbiyyatla qarşılıqlı əlaqə və təsirdə inkişaf etmişdir" (7, s. 90). Azərbaycan aşıq sənətinin görkəmli nümayəndələrindən və aşıqlıq ənənələrinin ən incə sirlərinə vaqif olanlardan biri də 1821-ci ildə Göyçə mahalının Ağkilsə kəndində anadan olmuş Aşıq Ələsgərdir. Əsas məşğuliyyəti dülgərlik olan aşıq eyni zamanda, bədahətən söz demək, şeir qoşmaq istedadına da malik olmuşdur və qoşma, bayatı, gəraylı söyləyirmiş. O, görkəmli aşıqlardan dərs almış, özündən sonra gələn aşıqlara güclü təsir göstərmişdir. Demək olar ki, aşıq yaradıcılığının bütün sahələrinə müraciət etmiş və Azərbaycan ədəbiyyatında dərin iz buraxmışdır. O, qeyri-adi fitri qabiliyyəti sayəsində yaratdığı müxtəlif səpkili, rəngarəng məzmunlu sənət inciləri ilə zirvəyə yüksəlmişdir. Aşıq Ələsgər özünün yüksək istedadı və tanrı tərəfindən ona bəxş edilmiş aşıqlıq məharəti nəticəsində təkrarolunmaz bir sənət yolu keçmiş və özündən sonra böyük bir məktəb yaratmışdır. Onun çoxlu davamçıları olmuşdur və aşıq onlara aşıqlıq sənətinin sirlərini başa salmış, saz tutub söz deməyi öyrətmişdir. Ustad özü şeirlərinin birində çoxlu şəyirdlər yetişdirməsini xatırlayaraq iftixarla deyirdi:

Adım Ələsgərdi, mərdi-mərdana,
On iki şəyirdim işlər hər yana.

Aşıq Ələsgərin yaradıcılığı haqqında elmi-tədqiqat işləri yazılmış, aşığın şeirlərinə mahnılar bəstələnmiş, rəssamlar tərəfindən portretləri işlənmişdir. Böyük ustadın yaradıcılığı sonralar bir çox publisistik məqalələrin, elmi əsərlərin və neçə-neçə maraqlı yazıların yaranmasına təkan olmuşdur. Yaradıcılığı zəngin olduğu üçün bəstəkarlar da Aşıq Ələsgərin yaradıcılığından səmərəli şəkildə bəhrələnərək gözəl mahnılar ərsəyə gətirmişlər. "Sarıköynək", "Güləndam", "Güllü", "Keçdi", "Üzün məndən ni-

yə döndü", "Ceyran", "Xoş gəldin", "Telli", "Dolansın", "Dolana", "Düşdü", "Salatın", "Dağlar" və s. mahnıları onun qoşma və gəraylılarına yazılmışdır. Onun yaradıcılığını tədqiq edənlərdən biri də Məmmədhüseyn Təhmasib olmuşdur. M.H.Təhmasib Aşıq Ələsgər yaradıcılığını araşdırmazdan əvvəl "aşıq" sözünün mənalarını axtarmış, təhlil etmişdir. O, "aşıq sözünün "Divani-lüğat-it türk" və Rodlov lüğətlərində "dəbilqə", "Kitabi-Dədə Qorqud"-da oyun aşığı, düymə mənalarında işləndiyini qeyd edərək, bu sözün sənətkar mənası üzərində dayanmağı uyğun olduğunu göstərir: "Aşıq xalq sənətkarıdır. Bu sənət həmişə sinkretik olmuş, indi də sinkretizmin bütün xüsusiyyətlərini özündə yaşatmaqdadır. Yəni hələ bugün də aşıq həm şair, həm bəstəkar, həm dastançı, həm müğənni, həm çalan, həm oynayan, həm aktyor, həm də nağılçıdır. Başqa sözlə deyilsə, o həm şeir, həm dastan, həm də musiqi havaları yaradan, yaratdıqlarını isə öz məlahətli səsi, məharətli barmaqları ilə ifa etməyi bacaran sənətkardır" (2, s. 28).

M.H.Təhmasib aşıq yaradıcılığını folklorun spesifik bir sahəsi, bir qolu hesab edir, aşıq yaradıcılığının əsasən yaddaşlarda yaşadıldığını, sonra nəsildən-nəslə, əsrdən-əsrə şifahi yolla keçdiyini əsas gətirərək yazır: "Məlumdur ki, aşıq ədəbiyyatı sözün həqiqi mənasında tam yazılı ədəbiyyat olmadığı kimi, tam folklor da deyildir. Bu fikri əksinə də demək olar. Yəni aşıq ədəbiyyatı özünün şifahi yolla yayılması, hafizələrdə yaşaması, müəyyən dərəcədə anonim olması, çoxvariantlılığı, sabit mətnə malik olmaması, daha çox qədim ənənələrə bağlılığı və s. ilə folklora, əsasən məlum "müəllif"ə malik olması ilə yazılı ədəbiyyata yaxındır. Misal üçün, kim tərəfindən yaradıldığını göstərə biləcək heç bir iz və əlamət saxlamayan bir atalar sözü, yaxud sadə bir laylay, bir ağı ilə ilk misrasının başlanğıcında müəllifinin adını yaşadan bir Aşıq Sarı bayatısı, əlbəttə, eyni şey deyildir (2, s. 51). Aşıq söz sənəti sahəsini şərti olaraq aşıq ədəbiyyatı adlandıran M.H.Təhmasib bunun da bayatı, qoşma, dastan kimi üç əsas janrı olduğunu söyləyir.

M.H.Təhmasib aşıq poeziyasını geniş və hərtərəfli tədqiq edərkən Aşıq Ələsgər yaradıcılığına da xüsusi yer ayıraraq, ona yeni bir nəfəs gətirmişdir. O yazır ki, gözəl və gözəllik Ələsgər şeirinin əsasını təşkil edir. Ələsgərə görə əgər insan bütün çirkinlik əlamətlərindən aridirsə, əgər ən təmiz ürəklə insanın ən nəcib arzusuna müvafiqdirsə, demək ki, gözəldir. Belələri qadın olduğu zaman aşıq onları gözəl, kişidirsə, mərd, igid adlandırır. Ələsgər deyir ki, zahiri gözəllik gözəlliyin şərtlərindən biri olsa da, əsas və həlledici deyil. Gözəl pak, təmiz, əhdə vəfalı, sədaqətli olmaqla yanaşı, həm də daxilən gözəl olmalıdır. Daxili gözəl olan həm də ağıllı, kamallı olur. Aşıq Ələsgər "Hüsndə Züleyxatək, Loğmana bənzər kamalı" deyərək gözəli təsvir edir. O deyir ki, gözəl söz qanan, işarədən anlayan, eyham, müəmmadan da xəbərdar olmalı, yerişi, duruşu, hərəkətləri də gözəl olmalıdır. Aşıq çox zaman öz gözəlinin "camalının şöləsini nuritəcalla" adlandırır, bəzən onu "sərv boylu məlakə"yə bənzədir, "camalından badə içir", bəzən "səngi siyah içindəki dürdanə" adlandırır, bəzən də Günəşə, Aya bənzədir:

Pəncərədən qəfil baxdım,
Qarşıdan bir sona keçdi.
Bir ox atdı, qaş oynatdı,
Müjganları qana keçdi.

Sərvboylu mələkzadə,
Camalından içdim badə.
Ələsgəri saldı oda,
Qoydu yana-yana, keçdi (6, s. 298).

M.H.Təhmasib qeyd edir ki, Aşıq Ələsgərin yaradıcılığı əsasən, geniş mənalı gözəlliyin bilavasitə və ya bilvasitə tərənnümündən ibarətdir. Onun təcnisləri, dodaqdəyməzləri, ustadnamələri və s. içərisində də gözəl mövzusuna toxunmadığı demək olar ki, yoxdur. Gözəlləmələri isə gözəlliyin müxtəlif çeşidli təsvirinə, tərənnümünə həsr edilmiş gəraylılardan, qoşmalardan, di-

vanilərdən, müxəmməslərdən, müsəddəslərdən və s. ibarətdir ki, formaca müxtəlif olduğu kimi mövzu cəhətdən də müxtəlif və rəngarəngdir.

M.H.Təhmasib yazır ki, təcnis, dodaqdəyməz, ustadnamə, qoşma, müxəmməs, qıfılbənd, təcnis, cığalı təcnis, gəraylı və s. şeir formalarında yazıb-yaradan Aşıq Ələsgərin yaradıcılığında əxlaq, mərdlik, qəhrəmanlıq, vətənpərvərlik, sədaqət, sevgi və s. mövzularına da geniş yer verilib. Məsələn:

Ay gözəl, mürvət elə,
Əsli deyib, yandı Kərəm.
Səhrada Məcnun kimi,
Leyli deyib, ah çəkərəm...
Həsrətindən mən olmuşam,
O Şeyx Sənandan betər (6, s. 320).

Yaxşı hörmətinən, təmiz adınan,
Mən dolandım bütün Qafqaz elini.
Pirə ata dedim, cavana qardaş,
Ana-bacı bildim qızı, gəlini (6, s. 298).

Buradan Aşıq Ələsgərin əxlaq kodeksi ortaya çıxır. Aşığın özünəməxsus əxlaq normaları var və o, heç zaman bu normalardan kənara çıxmır. Onun aləmində bu normalar heç zaman pozulmamalıdır. Özündən sonra gələn aşıqlara da əxlaq, davranış normalarına əməl etməyi təbliğ edərək, öz tövsiyələrini də verir:

Aşıq olub diyar-diyar gəzənin,
Əzəl başda pür kamalı gərəkdir.
Oturub durmaqda ədəbin bilə,
Mərifət elmində dolu gərəkdir.

Xalqa həqiqətdən mətləb qandıra,
Şeytanı öldürə, nəfsin yandıra,
El içində pak otura, pak dura,
Dalısınca xoş sədalı gərəkdir (6, s. 299).

M.H.Təhmasib yazır ki, Aşıq Ələsgərin yaradıcılığında əsas mövzulardan birini də mərdlik-namərdlik tutur. Aşığın ən qatı düşməni ona görə namərddir ki, namərddə namus, qeyrət, ar olmur.

Bivəfanın, müxənnəsin, nakəsin,
Doğru sözün, düz ilqarın görmədim.
Namərdin dünyada çox çəkdim bəhsin,
Namusun, qeyrətin, arın görmədim (6, s. 299).

O, təcnislərində belə mərdlə namərddən danışır, birincinin alicənablığını, səxavətini, xeyirxahlığını tərənnüm edir, ikincinin eldə deyildiyi kimi "sini dibi yalayan" olduğunu göstərir. İnsanın mərd və ya namərd olmasında aşıq iki əsas görür. Bunlardan biri nütfə, ikincisi isə verilən tərbiyədir.

Bülbül qonub dost bağında a dala,
Siyah zülfün nə tökülmüş a dala,
Mərd istər ki, çörək verə, ad ala,
Namərd gözlər mərd igidin sinisin (6, s. 300).

Dastan və dastançılığa Ələsgərin münasibəti məsələlərinə də toxunan M.H.Təhmasib aşığın igidlər, qoçaqlar, el qəhrəmanları haqqında qoşduğu tərifnamələri də dastan adlandırdığını göstərmişdir. Məsələn:

Dəli Alının tərifini,
Yazmışam dastana deyin!(6, s. 319)

M.H.Təhmasib qeyd edir ki, Aşıq Ələsgərə görə həyatı geriyə çəkən, gözəlliyi sarsıdan səbəblərdən biri də cəhalət və nadanlığın olmasıdır. Aşıq bunların da qatı düşmənidir və zəmanənin cahillərin, nadanların, müxənnəslərin zəmanəsi olmasını istəmir:

Hərcayidan, müxənnəsdən, nadandan,
Nə söz qaldı sənətkara dəyməmiş? (6, s. 304)

M.H.Təhmasib yazır ki, Aşıq Ələsgər insan gözəlliyinin şərtlərindən birinin də əməksevərlik olduğunu göstərir. Aşığa görə insan zəhmətsevər olmalı, öz əlinin zəhməti ilə ruzisini qa-

zanmalıdır. Aşığı tanıyanlar onun bütün təsərrüfat işlərini özünün etdiyini deyirlər. Aşığın şeirlərində tənbəllik, pintilik, zəhmətə etinasızlıq sərt tənqid olunmuşdur və valideynlərə məsləhət görülür ki, övladlarını əməksevər, zəhmətkeş biri kimi tərbiyə etsinlər.

M.H.Təhmasibə görə Ələsgər yaradıcılığındakı rəngarəng mövzular, bədii təsvir və tərənnüm inciləri bu misilsiz xalq sənətkarını gözəllik nəğməkarı kimi şöhrətləndirmişdir. Onun istər müxtəlif məzmun və mövzulu şeirləri, istərsə də fəlsəfi-hikmətamiz, siyasi şeirləri gözəlliyin tərənnümü və onu pozan amillərin tənqidinə həsr edilmiş sənət inciləridir. Aşıq Ələsgərin yaracılığındakı zənginlik onun ülvi mənəviyyata malik bir şəxs olduğunu göstərir.

## QAYNAQLAR


1. Əliyeva X. Məmmədhüseyn Təhmasibin folklorşünaslıq fəaliyyəti, Bakı: Nurlan, 2009, 156 s.
2. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər). Bakı: Elm, 1972, 399 s.
3. Təhmasib M.H. Ələsgərin dastan yaradıcılığı. “Ədəbiyyat və incəsənət qəzeti”, 1971, 21 avqust.
4. Təhmasib M.H. Gözəllik nəğməkarı / Aşıq Ələsgər. I kitab, Bakı: Elm, 1972, s. 5-52.
5. Təhmasib M.H. Müqəddimə / Aşığın sözü. Bakı: Elm, 1970, s. 3-26.
6. Təhmasib M.H. Seçilmiş əsərləri: 2 clddə, I cild. Bakı: Mütərcim, 2010, 488 s.
7. Vəliyev Ə.İ. Müasir Azərbaycan poeziyasında folklor motivləri (Hüseyn Kürdoğlunun yaradıcılığı əsasında). Bakı: Elm və təhsil, 2015, 168 s.

# M.H.TƏHMASİB VƏ KƏRKÜK FOLKLORU

**Gülnar İSMAYILOVA**
*AMEA Folklor İnstitutu*
*ismayil-fuad@mail.ru*

**Özət**

Folklorumuzun toplanması, tərtibi, nəşri və təbliği istiqamətində əvəzsiz xidmətləri olan folklorşünas alimlərimizdən biri də Məmmədhüseyn Təhmasibdir. Alim müxtəlif mövzularda araşdırmalar apararaq ardıcıl olaraq folklorşünaslığın problemləri ilə məşğul olmuşdur. M.H.Təhmasibin "Əfsanəvi quşlar", "Azərbaycan xalq ədəbiyyatında div surəti", Aşıq Ələsgərə həsr olunmuş "Gözəllik nəğməkarı", o cümlədən Kərkük folkloru mövzusunda "Uzaq ellərin yaxın töfhələri", "Ara uzaq, ürək yaxın" və s. məqalələrini misal göstərə bilərik. Folklorşünas alimin Kərkük folkloruna dair mülahizələrinin əsasında həmin folklor nümunələri ilə Azərbaycan folklor nümunələri arasında müştərək cəhətdən kifayət qədər geniş yer tutmasıdır. Bu isə onu göstərir ki, dili, dini, mədəniyyəti eyni olan xalqlar bir-birindən nə qədər uzaq olsa da, öz dəyər və ideallarını qoruyub saxlamaq gücünə malikdir.

**Açar sözlər:** Təhmasib, folklor, Kərkük, bayatı, xoryat, mani

## М.Г.ТАХМАСИБ И КЕРКЮКСКИЙ ФОЛЬКЛОР

**Резюме**

Неизгладимый след в собирании, оформлении, издании и в распространении нашего фольклора оставил один из ученых фольклористов Мамедгусейн Тахмасиб. Ученый, занимаясь проблемами фольклора, вел исследования его в различных направлениях. М.Тахмасиб посвятил статью «Красота песняра», Ашугу Алескеру а также такие произведения, как «Сказочные птицы», «Образ дева в Азербай-

джанском народном творчестве», у него были статьи на тему Керкюкского фольклора, такие как «Близкие дары далеко живущих народов», «Близкие души на расстоянии» и др. У фольклориста были мысли по поводу Керкюкского фольклора, на основе которого нашли широкое распространение одинаковые фольклорные образцы, схожие с образцами Азербайджанского фольклора. Это показатель того, что как бы географически не были расположены страны далеко друг от друга, язык, культура и религия у них одна, и они способны сохранить эту ценность.

**Ключевые слова:** Тахмасиб, фольклор, Керкюк, баяты, хорят, мани

## M.H.TAHMASIB AND KARKUK FOLKLORE

**Summary**

One of the scientists who played a great role in gathering, forming, publishing and spreading our folk-lore is Mammedhuseyn Tahmasib. Having investigation in different themes he studied the problems of folk-lore. We can give examples such as “Magic birds”, “Dragon in Azerbaijan folk-lore”, being dedicated to Ashıg Alasgar “Beauty singer”, also in the theme of Karkuk “Nearest presents to the far world”, “Far distance, near heart” of M.H.Tahmasib in the field of scientists thoughts according to Karkuk folk-lor, we can come to the conclusion that those folk-lore examples take the great part among Azerbaijan folk-lore examples it shows that population having the same language, religion, culture keep their value and ideas although being for each other.

**Key words:** Tahmasib, folklore, Karkuk, bayatı, khoryat, mani

Xalqımıza mənsub olan folklor nümunələri çox qədimlərdən yaransa da, folklorşünaslıq bir elm kimi XX əsrdə formalaşıb inki-

şaf etməyə başlamışdır. Təbii ki, bu yolda bir çox ziyalı və alimlərimizin rolu danılmazdır. Onların sırasında Məmmədhüseyn Təhmasibin xüsusi yeri vardır. M.H.Təhmasib (1907-1982) folklorun toplanması, tərtibi və nəşri istiqamətində xalqımıza əvəzsiz xidmətlər göstərmiş və ardıcıl olaraq folklorşünaslığın problemləri ilə məşğul olmuşdur. Alim şifahi xalq ədəbiyyatının müxtəlif janrlarını öyrənib araşdırmış, orijinal tədqiqatları ilə folklor tariximizdə misilsiz işlər görmüşdür. Folklorşünas alimin digər elm sahələrini də dərindən bilməsi apardığı tədqiqatları mükəmməl nəticələrlə zənginləşdirmişdir. Bu mənada müxtəlif mövzularda yazdığı "Əfsanəvi quşlar", "Azərbaycan xalq ədəbiyyatında div surəti", "Nəsimi və xalq poeziyası", "Cəfər Cabbarlı və şifahi ədəbiyyat", Aşıq Ələsgərə həsr etdiyi "Gözəllik nəğməkarı", Aşıq Şəmşir haqqında "Özü də Şəmşir, sözü də Şəmşir" və s. məqalələrini və araşdırmalarını qeyd edə bilərik. Alim Kərkük folkloruna da biganə qalmamışdır. Bu mövzuda "Uzaq ellərin yaxın töfhələri" və "Ara uzaq, ürək yaxın" məqalələrini nümunə göstərmək olar.

Faktlar göstərir ki, azərbaycanlılar müəyyən dövrlərdə və müəyyən ərazilərdə yad çevrədə yaşamaq məcburiyyətində qalsalar da yaradıcılıqlarını sürdürmüş, "ərəbləri belə heyrətə salan əsərlər" yaratmışlar. Öz əsərlərini ərəb dilində qələmə alan Azərbaycan sənətkarları yaradıcılıqları boyu azərbaycançı təfəkkür, azərbaycançı düşüncə tərzindən uzaq olmamışlar (4, 24). Sayca Ərəb və Kürdlərdən sonra İraq əhalisinin digər böyük hissəsini Türkmanlar təşkil edir.

Tədqiqatçı E.Hürmüzlü də həmin dövrlərdə türkman köçlərininin ölkənin şimalını türk vətəni halına gətirməsindən bəhs edir (3, 25).

İraq-Türkman folklorunun tədqiqi, təbliği və araşdırılması baxımından professor Qəzənfər Paşayevin və Əta Tərzibaşının adını xüsusi qeyd etməliyik. Xalq şairi Rəsul Rza və Qəzənfər Paşayev tərəfindən tərtib edilən "Kərkük bayatıları" kitabı bu sahədə atılmış ciddi addımdır. Rəsul Rzanın "Uzaq ellərin yaxın

töfhələri" adlandırdığı müqəddimədə deyilir: "İraq sözü həmişə nədənsə mənim yadıma fəraq sözünü salır. Fəraq sözü isə Füzulinin naməlum rəssam tərəfindən çəkilmiş məşhur şəklini canlandırır. Onun kədər dolu gözləri, baxışlarındakı izahedilməz həsrət, intizar, böyük nəğməkarın qürbət odu ilə yanmış qəlbindən nələr söyləyir" (5, 449).

"Bayatı" sözünün etimologiyasına gəldikdə isə M.Təhmasib yazır ki, bu barədə bir sıra fikir və mülahizələr mövcuddur. Mahmud Kaşğari "Divanü-lüğat-it-türk" əsərində bayatını "köhnə", "boyat" kəlməsi ilə əlaqələndirmiş, həm də ulu Tanrı kimi mənalandırmışdır (1, 4). Tanınmış folklorşünas Salman Mümtaz isə Gün xanın oğlu Bayatın adı ilə qəbilə, tayfa anlamında "Bay" varlı, bəy, "at" isə ad mənasını verir (1, 4).

Bayatı sözü Kərküklülər içərisində də geniş yayılmışdır. Hər iki xalqın bayatı-mani-xoryatları bir-birindən çox az fərqlənir və yaxud da eynilik təşkil edir. Kərküklü ananın dilindən söylənən bayatı Azərbaycan qadını üçün də doğmadır:

Layla edərəm yatınca,
Qonça gülə batınca,
Gözümə şiş batırram,
Sən hasilə yetincə (1,9).

Laylay dedim yatasan,
Qonça gülə batasan,
Qonça gül payım olsun,
Daldasında yatasan (1, 9).

Bayatılarımızın bəzilərində totem analayışı olaraq "Bayğu"nun adı çəkilməkdədir. Bu bayquş mənasında deyil, totemdir, onğondur. İllər keçdikcə bayatının ilk misralarının kəm yerləri onqon-totem əvəzinə təxəllüslə əvəzlənmişdir. Bayatı söyləyən anadırsa, - bu kəm yer "balam", "laylay" sözü ilə, xodaqdırsa - "qara kəl", ağı deyəndirsə - "haray" və s. ilə əhatələnmişdir. O, yazır: "Kərkük xoryat və manilərindən mənə məlum olan

1500-ə yaxın parçası içərisində “əzizim”, əziziyəm”, “mən aşiq” sözləri ilə başlayanları yoxdur. Bu cəhətdən onlar bayatılarımızdan fərqlənirlər (5, 453). Fikrimizcə, burada məzmun və forma cəhətdən eynilik vardır. Məsələn:

Hər ayınnan,
Hər həftə, hər ayınnan,
Gündə bir kərpic qopdu,
Ömrümün sarayınnan (5, 454).

Mən aşiq, sarayından,
Xan gəlir sarayından,
Gündə bir kərpic düşür,
Ömrümün sarayından (5, 454).

O da giryan,
Oda giryan, o da kiryan,
Mən dedim eşqimə yan,
Demədim oda gir, yan! (5, 454)

Bu bayatı cüzi fərqlə bizdə də geniş yayılıb. Həmin cüzi fərq də bundan ibarətdir ki, bizim bayatıda birinci misra “əziziyəm”lə başlayır. Xoryatın birinci misrasındakı “O da” sözləri isə bizdə “oda” şəklindədir və ikinci misrada da təkrar olunur:

Əziziyəm, oda kiryan,
Od kiryan, oda kiryan (5, 454).

Gördüyümüz kimi fərq ancaq mürəkkəb cinasların ilk hissələrindəki cinaslardadır. Alim burada bayatının xoryatdan qüvvətli olduğunu qeyd edir.

Kərkük bayatılarından danışarkən Məhəmməd Füzulinin timsalında Kərkük türklərinin ümumi vətən həsrətini, dərd-kədəri, nisgili aydın şəkildə hiss etmək olur. Bayatının yaradıcısı xalqdır. Burada insana dair gözəl keyfiyyətlər, ülvi, bəşəri hisslər, kədər, nisgil, iztirablar, o cümlədən dostluq, sədaqət anlayışları əks olunaraq illərdən, əsrlərdən bəri günümüzə qədər gəlib çatmışdır.Məsələn:

Oyan Kərkük!
Yaramı oyan Kərkük!
Gün çıxdı, el oyandı,
Sən də bir oyan, Kərkük (5, 450).

Və yaxud:

Bir çara,
Dərdimə yox bir çara.
Dünyada şəhər yoxdu,
Kərkük kimi biçara (5, 450).

Bu misralarda həqiqətən Kərkükün dərdli, ümidsiz, qarşılığı olmayan bir halından söhbət gedir. Alim Kərkük bayatılarını tərtib etmək üçün saf-çürük etdiyi beş min misraya yaxın xoryat və maninin şəkli xüsusiyyətlərinə nəzər salmış, cinaslı xoryatların birinci misralarının naqis olmağının səbəblərini müəyyənləşdirməyə çalışaraq belə bir nəticəyə gəlmişdir: "Kəm sətirli xoryatlarda birinci üç-dörd hecalı sətir bir növ başlıq kimidir. Xoryatın xarakteri haqqında bir növ xəbərdarlıqdır" (5, 451).

"Kərkük bayatıları" kitabı Əta Tərzibaşının "Kərkük xoryat və maniləri " əsərinə istinadən yazılıb çap olunmuşdur. Üç cilddən ibarət olan və Bağdadda nəşr olunan bu əsər 1955, 1956, 1957-ci illərdə oxuculara təqdim olunmuşdur. Məmmədhüseyn Təhmasib burada həm Azərbaycan bayatıları, həm də Kərkük bayatıları arasında olan oxşarlıqların aydın izahını yüksək dəyərləndirir. Bir sıra tədqiqatçılar bayatı-xoryat-manilərdə I-II və III-IV misralar arasında məntiqi əlaqə, fikir ardıcıllığı görməsələr də, Tərzibaşı bu fikri inkar edir.

M.H.Təhmasib qeyd edir ki, Tərzibaşı xoryatların mövzu məsələlərinə toxunaraq yazır: "Xoryatların böyük bir qismi istər həqiqi olsun, istər məcazi eşq məhsuludur". Bu düzgün fikirdir (5, 210).

Türk xalqları arasında geniş yayılmış "Arzu ilə Qənbər" dastanını Tərzibaşı Kərkük bayatıları əsasında yazıldığını qeyd

etsə də, M.H.Təhmasib bu fikirlə razılaşmayaraq həmin dastanın Azərbaycanda da geniş yayıldığını qeyd edir.

Bədii söz sənətinin elə janrları da vardır ki, yaradılması, yaşadılması üçün mütəxəssis olmağa ehtiyac yoxdur. Belə janrlardan biri də "atalar sözü" adlandırdığımız və daha çox məcazi mənaya malik hikmətli ifadələrdir. Atalar sözlərinə, demək olar ki, bütün xalqlarda təsadüf olunur. Mənşəyini qədim dövrlərdən götürsə də, gündən-günə zənginləşərək genişlənir. 1962-ci ildə Bağdadda "Türkman qardaşlıq ocağı" yayımları yolu ilə "Zaman – basım evi" tərəfindən nəşr edilmiş "Kərkük əskilər sözü" adlı kitab da belə ilk nəcib təşəbbüsün gözəl məhsullarından biridir. 700 seçmə atalar sözünü əhatə edən 128 səhifədən ibarət bu qiymətli kitabın tərtibçisi və naşiri məşhur Kərkük ədbiyyatşünas alimi Əta Tərzibaşıdır (5, 462). Alimin Kərkük folkloru istiqamətində üç böyük əsərini –"Kərkük xoryatları və maniləri", "Kərkük havaları", "Kərkük əskilər sözü" kitablarını qeyd edə bilərik.

Məmmədhüseyn Təhmasibin Kərkük folkloruna dair mülahizələrinin əsasında həmin folklor nümunələri ilə Azərbaycan folkloru nümunələri arasında müştərək cəhətlərin kifayət qədər geniş yer tutmasıdır. Bu isə onu göstərir ki, dili, dini, mədəniyyəti eyni olan xalqlar bir-birindən nə qədər uzaq olsa da, öz dəyər və idellarını qoruyub saxlamaq gücünə malikdir.

## QAYNAQLAR


1. Azərbaycan bayatıları. Bakı, "XXI – Yeni Nəşrlər Evi", 2004, 304 s.
2. Əliyeva X. Məmmədhüseyn Təhmasibin folklorşünaslıq fəaliyyəti, Bakı, "Nurlan", 2009, 156 s.
3. Hürmüzlü E. İrak Türkleri Kültür ve Yardımlaşma Derneği. İstanbul, 1991
4. Mahmudov M. Azərbaycanlı şair və ədiblər VII-XII əsrlər. Bakı, 1983
5. Təhmasib M.H. Məqalələr. Bakı, "Elm" nəşriyyatı, 2005, 220 s.

# M.H.TƏHMASİB VƏ UŞAQ FOLKLORU MƏSƏLƏLƏRİ

**Gülnar MƏMMƏDOVA**
*AMEA Folklor İnstitutunun doktorantı*

**Özət**

Məqalə Məmmədhüseyn Təhmasibin uşaq folkloru haqqındakı tədqiqatına həsr edilmişdir. Məmmədhüseyn Təhmasibin folklorşünaslıq fəaliyyətində xalq ədəbiyyatının bir sıra müxtəlif janrları ilə yanaşı uşaq folklorunun tədqiqi də mühüm yer tutur. Həmçinin məqalədə folklorşünas alimin folklor və yazılı ədəbiyyat əlaqəsi ilə bağlı fikirlərinə də nəzər salınmışdır.

**Açar sözlər**: Məmmədhüseyn Təhmasib, uşaq folkloru, xalq oyunları, tapmacalar.

## М.Г.ТАХМАСИБ И ВОПРОСЫ ДЕТСКОГО ФОЛЬКЛОРА

**Резюме**

Статья посвящается исследованию Мамедгусейна Тахмасиба о детском фолкьлоре. В фолкьлористической деятельности Мамедгусейна Тахмасиба наряду с исследованиями различных жанров устной литературы особое место занимает исследование детского фолкьлора. А также в статье уделяется внимание высказываниям ученого фолкьлористика о связи письменной литературы и фолкьлора.

**Ключевые слова**: Мамедгусейн Тахмасиб, детский фолкьлор, народные игры, загадки

## M.H.TAHMASIB AND THE İSSUE OF THE CHILDREN`S FOLKLORE

**Summary**

This article has been dedicated to Mahammadhuseyn Tahmasib`s research about children`s folklore. The research

about children`s folklore holds special place along with various genres of folk literature in Mahammadhuseyn Tahmasib`s folklore studies activity. Furthermore, the scientist`s ideas regarding the relation between written and folk literature are included to this article.

**Key words**: Mammadhuseyn Tahmasib, children`s folklore, folk games, riddles

XX əsrin əvvəlləri folklor nümunələrinin toplanması və yazıya alınması baxımından çox mühüm əhəmiyyət daşıyan tarixi bir mərhələdir. Bu tarixi mərhələdə nəşr edilən "Məktəb", "Dəbistan, "Rəhbər" kimi uşaq jurnallarının səhifələrində çoxlu sayda folklor nümunələrinə rast gəlinirdi. Məmmədhüseyn Təhmasibin folklorşünaslıq fəaliyyətində xalq ədəbiyyatının bir sıra müxtəlif janrları, həmçinin uşaq folkloru janrlarının tədqiqi də mühüm yer tutur. "Məktəb" jurnalında folklora münasibət" adlı məqaləsində jurnalın fəaliyyəti əsasən üç istiqamətdə, yəni uşaq folklorunun toplanması, uşaq folklorunun tədqiqi, folklor uşaq ədəbiyyatının ilkin qaynaqlarından biri kimi təhlilə cəlb edilmişdir.

M.Təhmasib uşaq jurnallarının toplayıcılıq fəaliyyətindən danışarkən "Rəhbər"(jurnalın 1-ci nömrəsində"Gözü bağlı", 2-ci nömrədə "Dəniz dalğalanır", "Happan-huppan"və s.) jurnalının səhifələrində xalq oyunlarının nəşrinin folklor nümunələrinin gələcək nəsillərə çatdırılmasında mühüm əhəmiyyətə malik olduğunu qeyd etsə də, həmin nümunələrin "qələmə alındığını kimi" nəşr edilməsini uğurlu hesab etmirdi. Folklor mətnlərini əsərlərin içərisinə salaraq nəşr etdirən "Məktəb" jurnalının toplayıcılıq fəaliyyətini daha müvəffəqiyyətli hesab edirdi. "Ələkbər Naxçıvanlının "Bacı və qardaş" hekayəsində "Əkil-bəkil quş idi" nəğməsinin, Ağa bəy İsrafilbəyovun "Novruz bayramı" hekayəsində "Gün çıx, çıx, çıx!" və "Mən anamın ilkiyəm" nəğmələrinin qorunmasına müsbət münasibət bəsləyir. Həmçinin

onların folklordan istifadə məsələlərində fərqləndiyini və uşaqların dünyagörüşünün formalaşmasına xidmət göstərməsini də nəzərə çarpdırır" (1,17). Qeyd edək ki, "Məktəb" jurnalı folklor mətnlərinin uşaqların maraq dairəsinə asanlıqla daxil olması üçün daha əlverişli yol seçmişdi və folklor nümunələrini olduğu kimi yaşadan bu bədii nümunələr də Məmmədhüseyn Təhmasibin diqqətindən kənarda qalmamış və yüksək qiymətləndirilmişdir.

Azərbaycan folklorşünaslığında uşaq fokloru janrlarının ilkin təsnifatı da Məmmədhüseyn Təhmasibin adı ilə bağlıdır. Uşaq folkloru janrlarının geniş təsnifatını apararaq bu sıraya layla,arzulama, öymə, sanama, mahnı, nəğmə, nağıl, tapmaca, yanıltmac, oyun kimi nümunələri daxil etmişdi. Xatırladaq ki, bu təsnifat Azərbaycan uşaq folklorunun ilk təsnifatı idi. Alim təsnifat verməklə kifayətlənməmiş və məqalədə oyun, tapmaca kimi janrlar haqqında fikirlər yürüdərək həmin nümunələrin uşağın bədii-estetik zövqünün, məntiqi təfəkkürünün inkişafı üçün mühüm əhəmiyyət daşıdığını vurğulayırdı. Tapmacaların xalqların tarixi keçmişində çox mühüm rol oynadığını, müəyyən mərasimlərlə bağlı olaraq həddi-büluğa keçid mərasimlərində əsas imtahan vasitəsi kimi istifadə olduğunu da göstərmişdir. Tapmacaların poetik özünəməxsusluqlarını şərh edərək aşıq şeirinin şəkillərindən bir olan qıfılbəndlə oxşarlığı məsələsinə önəm verirdi ki, bu məsələ heç də təsadüfi bir hal deyil, folklor janrlarının qanunauyğun qarşılıqlı inkişafı və bir-birinə təsiri məsələsi olaraq diqqəti cəlb edirdi. "Bundan başqa bizdə bayatı formasında bağlamalar, qoşma formasında isə bir neçə bağlamadan ibarət qıfılbəndlər vardır ki, bunlar da əslində tapmacadan başqa bir şey deyildir:

Mən aşiqəm Qəmər hey!
Beldə gümüş Kəmər hey!
Üstdə bir qasraq gördüm,
Altdan qulan əmər hey!" (3, 486).

Məlum olduğu kimi xalq yaradıcılığının spesifik xüsusiyyətlərindən biri də janr sinkretikliyidir. Bir janra xas olan forma xüsusiyyətləri digər janrlar üçün də xarakterik ola bilir və qıfılbəndlə tapmacalar arasındakı uyğunluq da bununla bağlıdır. Qeyd edək ki, uşaq təfəkkürünün inkişafı baxımından tapmacaların verdiyi imkanların arealı xeyli böyükdür. Dərslik ehtiyacının böyük olduğu XX əsrin əvvəllərində tapmacalardan daha çox uşaqlara mühiti başa salmaq, heyvanlar, bitkilər aləmini tanıtmaq üçün istifadə olunmuşdur.

Məmmədhüseyn Təhmasib "Məktəb" jurnalının "Qorxulu nağıllar" və "Gülməli nağıllar" adlanan iki şöbəsinin fəaliyyətinə folklor nümunələrinə yanaşma baxımından xüsusi önəm verərək həmin şöbələrdə çap olunan nəsr nümunələrinin əsas tikinti materialının folklorun müxtəlif süjet, motiv və obrazlarından və s. təşkil edildiyini qeyd etmişdir. Süleyman Sani Axundovun hekayələrinin bütövlükdə folklordan istifadə ilə yaradıldığını vurğulayaraq bu hekayələri uşaq ədəbiyyatımızın ilkin nümunələri kimi xarakterizə etmişdir. Qeyd edək ki, XX əsrin əvvəllərində folklordan istifadə ilə yaradılan ədəbi nümunələr üçün spesifik xüsusiyyətlərdən biri o idi ki, atalar sözü və məsəllərin ideyasına uyğun bədii nümunələr yaradılsın və həmin nümunələrdə xalq nağıllarının forma, məzmun, obraz, motiv, strukturdan gen-bol istifadə edilsin. Təsadüfi səciyyə daşımayan bu məsələdə məqsəd böyüklər tərəfindən yaradılan, uzun zamanın sınağından çıxmış davranış normalarını, etnik davranış kodlarını özündə yaşadan atalar sözü və məsəllərin mahiyyətini uşaqlara anladmaq idi. "Göründüyü kimi uşaqların hər ikisi nağılları atalar sözləri əsasında yazmışlar. Bu öz-özlüyündə olduqca maraqlıdır. Deməli, S.S.Axundov belə təmrinləri uşaqlara vacib və lazım bilirdi. Lakin bu mövzuları uşaqlar özləri tapmamışlar. Müəllim atalar sözləri əsasında uşaqlara əsər yazmağı tapşırmışdır. Deməli, S.S.Axundov belə təmrinlərin məktəbin dərs proqramına salınmasını vacib bilirdi. Ədib bu tipli təmrin-təcrübə əsərlərinin

uşaqlara məhz nağıl formasında yazdırılmasını doğru, məqsədəuyğun hesab etmişdir" (3, 470).

Yuxarıda qeyd etdiyimiz kimi XX əsrin əvvəllərində folklor nümunələrindən istifadə ilə yeni əsərlər yaratmaq sənətkarların qarşısına bir məqsəd olaraq qoyulmuşdu. Amma yaradılan hər bir yazılı ədəbiyyat nümunəsini folklor mətnlərindən istifadə baxımından qənaətbəxş hesab etmək olmazdı. Folklor nümunələrinə xüsusi qayğı ilə yanaşan M.Təhmasib belə nümunələri folklor mətnini bayağılaşdıran və uşaqların dünyagörüşünün formalaşmasına təsiri baxımından müvəffəqiyyətsiz material olaraq şərh edirdi. Jurnalın 1912-ci il 4-cü nömrəsində müəllim Ağəli Qasımov tərəfindən işlənmiş "Balaca hekayə" belə müvəffəqiyyətsiz nümunələrdən biri idi. Həmin hekayə ağası tərəfindən azad edilmiş Qara qul haqqındadır. Qədim zamanlarda bir dövlətli bəyin zəhmətkeş qulu var idi. Qara qulun sədaqətinə görə Hacı Qasım ona bir parça torpaq verərək azad edir. Amma qış sərt keçdiyindən Şaxta qulun əkin sahələrini məhv edir. Əlacsız qalan Qara qul əvvəlki ağasının yanına gedərək başına gələnləri ona danışır. Ağası tərəfindən "mən bilmirəm, ged, Şaxtadan soruş" cavabını alır. Qara qul Şaxtanın yanına gedərək əhvalatı nəql edir. Evinə qayıdanda ocağın üstündə asılmış qazan və yerdə hazırlanmış süfrə görür. Süjetin sonrakı inkişaf xəttini Qara qulun öz tamahkarlığını həyata keçirmək üçün apardığı mübarizə təşkil edir. "Məşhur beynəlxalq süjetlərdən olan "özü bişirən qazan", "özü açılan süfrə" və "özü qalxıb düşən toppuz" motivi alınmış müəllifin zövqünə uyğun şəkildə işlənmiş, daha dəqiq desək bayağılaşdırılmış, süniləşdirilmiş, qara qulların tamahkarlığından bəhs edən bir "hekayə" şəklinə salınmışdır" (3, 472). Xatırladaq ki, nağıl janrı üçün səciyyəvi olan sehrli əşya və vasitələr xeyirin təmsilçisi olan qəhrəmana himayəçilər tərəfindən verilir və həmin vasitələr şərin məğlub edilməsində, məhv olunmasında qəhrəmanın əsas yardımçısı olur. Nağılların bu kimi nikbinlik, gələcəyə böyük inam kimi ideyaları uşaqların inkişa-

fında əsas rol oynayır. Amma bu hekayədə istifadə edilən folklor elementləri süniləşdirilərək folklordakı mahiyyətini tamamilə itirmişdir.

Məmmədhüseyn Təhmasibin əsərləri cari zamanımız da aktuallıq kəsb edərək folklorşünaslıq elmimizin inkişafı üçün kifayət qədər mühüm əhəmiyyət kəsb edir.

## QAYNAQLAR


1. Əliyev Kamran. Məmmədhüseyn Təhmasibin yaradıcılığı folklorşünaslıq məktəbidir.”Kaspi” qəzeti, 2017,16 sentyabr, səh 17.
2. Qafarov Ramazan. Uşaq folklorunun janr sistemi və poetikası.Bakı, «Elm və Təhsil” nəşriyyatı, 2013.
3. Məmmədhüseyn Təhmasib. Seçilmiş əsərləri:2 clddə. I cild. Bakı,”Mütərcim”, 2010.
4. “Məktəb “ jurnalı. 1912, №4, səh 9.

# M.H.TƏHMASİB: MİFOLOJİ OBRAZLARA İLKİN ELMİ MÜNASİBƏT

**Gülnar OSMANOVA**
*AMEA Folklor İnstitutu*
*gulnar.osmanova05@gmail.com*

**Özət**

Azərbaycanın tanınmış folklorşünas alimi Məmmədhüseyn Təhmasibin araşdırdığı mövzular öz müasirlərinin tədqiqatlarından elmi-nəzəri yeniliyi ilə seçilir. Onun tədqiq etdiyi mövzular arasında mifoloji obrazlar xüsusi yer tutur. "Əfsanəvi quşlar", "Azərbaycan xalq ədəbiyyatında div surəti" kimi məqalələr bu sıradandır.

Məqalədə M.Təhmasibin sadalanan bu məqalələrindəki elmi mülahizələr araşdırmaya cəlb olunmuşdur. Eyni zamanda bu günün elmi dövriyyəsində mifoloji obrazlar haqqında olan fikirlərlə müqayisələr aparılmışdır.

**Açar sözlər:** M.H.Təhmasib, folklorşünaslıq, mifologiya, əsatir, əfsanə, mifoloji obraz, elmi münasibət

## М.Г.ТАХМАСИБ: ПЕРВИЧНЫЙ ВЗГЛЯД НА МИФОЛОГИЧЕСКИЕ ОБРАЗЫ

**Резюме**

Темы, исследуемые известным ученым фольклористом Мамед Гусейн Тахмасибом, отличается от своих современников своей научно-теоретической новизной. Среди исследуемых им тем имеют особое место мифологические образы. Такие произведения как «Легендарные птицы», «Образ циклопа в аербайджанской народной литературе» из их числа.

Статья посвящена анализу научных заключений в вышеперечисленных статьях М.Г.Тахмасиба. Наряду с этим, было проведено сопоставление мыслей о мифологических образах имевшихся в научном обороте настоящего времени.
**Ключевые слова:** М.Г.Тахмасиб, фольклористика, мифология, миф, легенда, мифологический образ, научное отношение

## M.H.TAHMASIB: THE FIRST SCIENTIFIC ATTITUDE TO THE MYTHOLOGICAL IMAGES

**Summary**

A well-known Azerbaijani folklore-researcher Mammadhuseyn Tahmasib's investigations are selected from the researches of his contemporaries with it's scientific-theoretical novelty. The mythological images have a special place among the subjects which studied by him. The articles of "The legendary birds", "The image of ogre (div) in the Azerbaijani folk literature" are in this order.

In the article the scientific considerations which finding in these articles of M.H.Tahmasib have been investigated. At the same time, the considerations about mythological images in today's scientific circulation have been compared.
**Key words:** M.H.Tahmasib, folklore studies, mythology, myth, legend, mythological image, scientific attitude

Məmmədhüseyn Təhmasib Azərbaycan folklorşünaslığında öz fundamental tədqiqatları ilə yadda qalan alimlərimizdəndir. Onun araşdırdığı mövzular öz müasirlərinin tədqiqatlarından elmi-nəzəri yeniliyi ilə seçilir. Alimin tədqiq etdiyi mövzular arasında mifoloji obrazlar xüsusi yer tutur. "Vətən uğrunda" jurnalında 1945-ci ildə dərc olunan "Əfsanəvi quşlar", 1946-cı ildə

nəşr olunan "Azərbaycan xalq ədəbiyyatında div surəti" kimi məqalələrdə öz əksini tapan fikirlər, demək olar ki, xalq ədəbiyyatımızda M.Təhmasibə kimi çox az tədqiq edilmiş maraqlı məsələlərdir. Professor K.Əliyevin sözləri ilə desək "M.H.Təhmasibin "Əfsanəvi quşlar", "Azərbaycan xalq ədəbiyyatında div surəti" məqalələrini folklorşünaslığımızda mifik düşüncə barədə ilk sistemli məqalələr hesab etmək olar" (3, 19).

Belə ki, qədim insanların mifoloji təfəkküründə təbiətin qorxunc qüvvələri div, əjdaha, ağzından od püskürən öküz, siklop, Təpəgöz, qorxunc quşlar, su altında yaşayan qorxunc varlıqlar sifətində öz əksini tapmışdır. Bu varlıqlar dağ başında, qaranlıq mağaralarda, yeraltı dünyada, su altında yaşayırlar. "Kitabi-Dədə Qorqud" eposunda Basat, "Məlikməmməd nağılı"nda elə Məlikməmmədin özü kimi dastan və nağıl qəhrəmanlarımız məhz bu qorxunc qüvvələrlə mübarizədə böyük şücaət göstərərək onlara qalib gəldiklərinə görə şöhrət qazanmışlar. Belə ki, müxtəlif əsatir və nağıl qəhrəmanları olan bu mifoloji obrazlar yalnız şifahi xalq ədəbiyyatı nümunələrinin deyil, həmçinin sənətkarlıqla işlənmiş yazılı ədəbiyyat nümunələrinin də qəhrəmanlarına çevrilmişdir. Prof. M.Kazımoğlu belə yazır: Sakral aləmin qayda-qanununa xələl gətirmədiyi məqamlarda sakral aləm "sakin"lərinin – dəniz atlarının, Zümrüd quşlarının… qəhrəmana yardımçı olması epizodlarına nağıllarda çox rast gəlmişik" (6, 33).

Ümumiyyətlə, "quşlar mifopoetik ənənədə kosmik zonalar arasında bağlılıq quran, ilahi mahiyyətin simvolları kimi çıxış edir. Avrasiya mifoloji sistemlərində quş kainatın iki bir-birindən ayrı sferaları arasında başlıca vasitəçi olaraq düşünülürdü" (1, 233).

Azərbaycan mifologiyasında, xüsusən nağıllarda quşlar zoomorf, xeyirxahlıq edən hamilər kimi yer almışdır. Nağıl və dastanlarda quşlar qəhrəmanların soykökünü təyin edən mifik obrazlardır. Məsələn, "Kitabi-Dədə Qorqud" dastanında Qazan

xanın “Ağ sunqur quşı erkəgində bir köküm var” deməsi quşlarla qəhrəmanların genetik əlaqələrini, onların ana tərəfdən təmsilçisinin quş olmasını göstərir.

Mifoloji obrazların, o cümlədən əsatiri quşların araşdırmaya cəlb olunduğu tədqiqatlardan biri də M.H.Təhmasibin “Əfsanəvi quşlar” məqaləsidir. Bu məqalədə Simurğ quşunun əsatiri surət olması, onun nağıl qəhrəmanlarına kömək etməsi, bir sözlə, xeyirxahlıq surəti olması öz əksini tapır. Şərqdə, o cümlədən Azərbaycanda məşhur olan Simurğ quşu haqqında müxtəlif alimlər müxtəlif fikirlər söyləmişlər. Bəzi alimlər simurğu “si-mürğ”, yəni “otuz quş” deyə təfsir edirdilər. Bu fikir Simurğun uzaq məsafələrə uça bilməsi, böyük və qüvvətli olması ilə əlaqədar yaranmışdır. Bəziləri isə “siyah-murğ”, yəni qaraquş deyə izah edirdilər. Başqa bir qisim bunu itlə əlaqələndirərək “sək-mürğ”, yəni “it-quş” deyə izah edirdi. Qədim Midiyada həyat və əbədiyyət ağacının çiçəklərindən “səm”, “som” yaxud “sim” adlı xüsusi bir içki hazırlanırmış. Prof. M.H.Təhmasib qeyd edir ki, “bu müqəddəs “səm” içkisinin ay kimi sarımtıraq bir parlaqlığa malik olması hələ qədimdə onları bir-biri ilə əlaqələndirmək üçün zəmin yaratmışdır” (7, 12). Simurğ beləcə ayla əlaqədar olan bir quşdur. Yəni bu söz nə si-murğ, nə siyah-murğ, nə də sək-murğ olmayıb “sim-rüx”dür. M.H.Təhmasib belə qənaətə gəlir ki, “əslində bu sözün birinci hissəsi əvvəllərdə həyat, əbədiyyət içkisi, sonralar isə “ay” demək olan “sim”, ikinci hissəsi isə “üz”, “bəniz”, bəlkə də “surət”, “timsal” demək olan “rüx” sözlərindən əmələ gəlmişdir. Bu sözün sonralar “Simurğ” şəklinə düşməsi, yəni ikinci hissənin sonundakı “x” səsinin “ğ” ilə əvəz olunması çox güman ki, ərəb əlifbası ilə bir yerdə yazıldığı zaman birinci hissənin son səsi olan “m”-nın ikinci hissə ilə birləşdikdə quş demək olan, “mürğ” kəlməsinə bənzəməsinin nəticəsidir ki, bu da həmən yanlışlıqların əsas səbəbini təşkil etmişdir” (7, 14). Göründüyü kimi, Səməndər quşunun da adı, yenə həmən “səm”, “sim” sözü ilə, yəni ayla əla-

qədardır. Əsatirə görə, Səməndər müəyyən yaşa çatdıqdan sonra öz sinəsindən qalxan bir alovla yanıb külə dönür. Sonra həmən külün içərisindəki son qor öz-özünə közərir, böyüyür, canlanır və yenidən Səməndərə çevrilir. Bu proses sonsuz olaraq təkrarlanır. Aydındır ki, bu da qədim insanın ayın gecələr çıxıb, gündüzlər batması, batarkən onun üfüqü qızıllaşdırması, bir qədər sonra isə, kül rəngli bir tutqunluğa batması, yaxud ayın sonunda yox olub, ayın əvvəlində yenidən doğması hadisəsinin izahından ibarətdir. Alim qeyd edir ki, əsatirdə göy cismi – ay Simurğ və Səməndər şəklində təzahür edir.

Bundan başqa M.H.Təhmasib dövlət quşunu da tədqiq edir. Bildiyimiz kimi, xalq ədəbiyyatında çox məşhur olan əsatiri surətlərdən biri də dövlət quşudur. Bu quşun kölgəsi bəxtiyarlıq və səadət rəmzidir. Onun kölgəsi kimin başı üzərinə düşsə, o, dünyada mütləq ən bəxtiyar adam olur. Bunun nəticəsi olaraq bu quşun ikinci xüsusiyyəti meydana çıxmışdır. O, kimin başına qonarsa, həmən adam padşah, yəni dövlət, hökumət başçısı olur. Göründüyü üzrə, birincidən yaranan ikinci xüsusiyyət, eyni şeyin nağıl və əfsanə yaradıcılığı xüsusiyyətlərinə uyğunlaşdırılmış şəklidir. Folklorşünas alim yazır ki, dövlət quşunun bir adı da humay, yaxud hümadır. Humay quşuna bəzən umay da deyilir. Bu sözə ən qədim olaraq "Orxon kitabələri"ndə təsadüf edilməkdədir. Qədim yunanlarda bu quşa feniks deyirdilər.

M.H.Təhmasib qeyd edir ki, "umayın və yaxud onun başqa şəklindən ibarət olan Humayın uşaqların, hamilə və zahı qadınların ilahəsi olduğu görünməkdədir. Humay quşunun kölgəsinin bəxtiyarlıq və dövlət rəmzi və səbəbi olması da onun həmən bu xüsusiyyətinin inkişafı məhsuludur" (7, 18).

Azərbaycan nağıllarından olan "Ölü Məhəmməd" nağılında qız xəyanətə dözməyib quşa dönür, bağçada ağaca qonur. Miflərdə də Humay həm də quş kimi təsəvvür olunur və hamilə qadınların himayəçisidir. Bu, nağılda da aydın sezilir. Folklor nümunələrində, ümumiyyətlə, quş semantik mənasının "göy" ilə

bağlı olması xüsusiyyətinə rast gəlinir.

M.H.Təhmasibin mifoloji obrazlardan bəhs edən digər məqaləsi "Azərbaycan xalq ədəbiyyatında div surəti" adlanır. Bu məqalədə isə alim belə qənaətə gəlir ki, divin qədim əsatirdə bugünkünün tamamilə əksinə olaraq xeyirxahlıq qüvvəsi, hətta günəş-işıq və musiqi ilahəsi olduğu aydın görünməkdədir. Bu surətin bugünkü xalq ədəbiyyatımızda bu deyilənlərin daha çox əksini ifadə edən bir obraza çevrilməsinin səbəbi zərdüştilik və "Avesta"dır. Belə ki, biz bilirik ki, div şər qüvvəsidir. Div şər allah Əhrimənin ən başlıca köməkçisi olaraq, Ahuraməzdanın bütün xüsusiyyətlərinə qarşı amansız və daim mübarizə edir. O, şər qüvvəsinin malik ola biləcəyi bütün xüsusiyyətlərə malik olub həmişə insanı həyatdan məhrum etməyə çalışır. M.H.Təhmasib qeyd edir ki, "daha diqqətli tədqiqat bu surətin yalnız ziyanəvər bir "varlıq" olmayıb, eyni zamanda xeyirxahlıq əlamətlərinə, müsbət xüsusiyyətlərə malik olduğunu da göstərir" (7, 31). Bir sıra nağıllarda o, qəhrəmanlara yardım edib onları düşdükləri çətin vəziyyətdən xilas edir. Məsələn, "Şahzadə Mütalib", "Hatəm" "İbrahim", "Ağ quş", "Tapdıq" nağıllarında biz bunun şahidi oluruq.

Folklorşünas alim belə qənaətə gəlir ki, hər bir yeni din ortalığa çıxdığı zaman özündən qabaqkı dinə zidd getmiş, onu ya tamamilə, yaxud qismən məhv etməyə, bu mümkün olmadığı təqdirdə özünü əlverişli bir hala salmağa çalışmışdır. Tədqiqatlar göstərir ki, div "Avesta"da Ahuraməzdanın və eləcə də onun təzahürü olan günəşin düşməni olaraq elan edilmişsə, əksinə olaraq, qədim əsatirdə o, işıq allahı olaraq tanınmışdır. Alim yazır ki, hətta bu sözün özü belə qədim sanskrit dilində "İşıq allahı" mənasını daşımışdır.

Ümumiyyətlə, bu obrazı bir çox tədqiqatçılar araşdırmışlar. Fil.ü.f.d. O.Əliyev vurğulayır ki, nağıllarımızda zindan div obrazının tamamlayıcı detallarındandır. Divin öz yeraltı aləmində müsbət qəhrəman tərəfindən öldürülməsi qəhrəmanın igidli-

yinin ən yüksək göstəricisidir. Belə ki, "şərin ifadəçilərinin böyüklüyü ona qarşı duran xeyirin də əzəmətindən xəbər verir" (4, 33).

Beləliklə, şifahi xalq yaradıcılığında bu günə qədər yaşayan günəş, od, atəş, zülmət, nur, qaranlıq və işıqlı dünya kimi anlayışların, nağıl və əfsanələrimizdəki divlər, huri və pərilər kimi rəngarəng mifoloji obrazların məhz qədim dindən-atəşpərəstlikdən qaynaqlandığı şübhə doğurmur. Məsələn, məşhur "Məlikməmməd" nağılında qəhrəman dual aləmin övladı kimi təzahür edir: o, işıq və zülmət dünya arasında sınağa çəkilir, onun bütün cəhdləri zülmətdən işığa çıxmağa, qara qüvvələrdən xilas olmağa yönəlir.

Tədqiqatçı M.Hatəmi pəri obrazı haqqında danışarkən bildirir ki, pəriyə qeyri-sabit – ikili münasibət bəslənilməsi Azərbaycan xalq ədəbiyyatının ənənələrinə bağlanır. Bu münasibətin mənfi, yaxud müsbət olmasını mətn daxilində həmin dini-mifik obrazın çevrəsindəki ifadələrə əsaslanaraq təyin etmək olur. Pəri div ilə əlaqələndirildikdə mənfi, ayrılıqda və huri obrazları ilə yanaşı verildikdə müsbət anlam kəsb edir (5, 38-41).

Şifahi və yazılı ədəbiyyatımızda özünə möhkəm yer tutmuş, həmçinin əsərin süjet xəttinə, məzmununa, bir çox hallarda isə mətndə irəli sürülən ideyaya təsirsiz qalmayan pəri və div obrazlarını təsadüf hesab etmək qətiyyən doğru olmazdı. Ən azı ona görə ki, bu obrazlar şifahi və yazılı ədəbiyyatda müəyyən inkişaf mərhələlərini də keçirirlər. Pəri qızlar klassik poeziyada da, demək olar ki, tamamilə transformasiyaya uğramış surətlərdir və öz zahiri görkəmləri ilə qorxu, vəhşət, şər mənbəyi olmaqdan, cin tayfasına mənsubluqdan çıxaraq, gözəllik və paklıq simvoluna çevrilmişlər.

Türk alimi M.Uraz da "Türk mifologiyası" kitabında Azərbaycan folklorunda olduğu kimi, divlərin yeraltı aləmin, pə-

rilərin isə göylər səltənətinin sakini kimi göstərilməsinə daha çox rast gəlindiyi haqqında yazır.

Nəticə olaraq qeyd edək ki, mərhum prof. M.Cəfərlinin də dediyi kimi, M.H.Təhmasibin tədqiqat əsərləri olmasaydı "indi onun müraciət etdiyi problemlərin öyrənilməsi istiqamətində ya kifayət qədər aydın nəzərə çarpan boşluq görünəcəkdi, ya da bu sahələrin araşdırılması indiki qədər dərin, elmi və hərtərəfli səciyyə daşımayacaqdı" (7, 4). Odur ki, M.H.Təhmasib irsi Azərbaycan folklorşünaslığında bu gün də öz dəyərini qoruyub saxlayır və yeni-yeni araşdırmaların reallaşmasına rəvac verir.

## QAYNAQLAR


1. Bəydili (Məmmədov) C. Türk mifoloji sözlüyü. Bakı: Elm, 2003, 418 s.
2. Əliyeva X. Məmmədhüseyn Təhmasibin folklorşünaslıq fəaliyyəti. Bakı, Nurlan, 2009, 156 s.
3. Əliyev K. M.H.Təhmasib yaradıcılığı folklorşünaslıq məktəbidir. "Kaspi" qəz., 16 sentyabr 2017, s. 19-20
4. Əliyev O. Azərbaycan nağıllarının poetikası. Bakı: Səda, 2001, 191 s.
5. Hatəmi M. Sehrli nağıllarda pəri obrazı // Azərbaycan SSR EA-nın "Xəbərlər"i (dil, ədəbiyyat və incəsənət seriyası), Bakı: 1980, № 4, s. 38-41
6. Kazımoğlu (İmanov) M. Epos. Nəsr. Problemlər. Bakı: Elm və təhsil, 2012, 164 s.
7. Təhmasib M. Məqalələr. Bakı, Elm nəşriyyatı, 2005, 220 s.
8. Uraz M. Türk mitolojisi. İstanbul: Düşünən adam yayınları, 1994, 340 s.

# M.H.TƏHMASİB VƏ NOVRUZ BAYRAMI

**Gülsümxanım HASİLOVA**
*AMEA Folklor İnstitutu*
*gülsümxanim@rambler.ru*

Tanınmış folklorşünas alim Məmmədhüseyn Təhmasib həyatını folklor nümunələrinin toplanması və tədqiqinə həsr etmiş, folklorşünaslıq sahəsində böyük bir məktəb yaratmış elm xadimlərimizdəndir. M.Təhmasib xalqımızın əsrlər boyu təşəkkül tapmış yüksək milli-mənəvi dəyərlərinin qorunması, adət-ənənələrimizin, folklorumuzun yaşayaraq gələcək nəsillərə çatdırılması istiqamətində yorulmadan yazıb yaratmışdır. Prof. M.H.Təhmasib məqalələrində Novruz bayramını xüsusi olaraq araşdırmış onun xarakterik xüsusiyyəti haqqında ətraflı məlumat vermişdir.

Məqalədə M.H.Təhmasib araşdırmalarında Novruz bayramında riayət edilən qədim xalq inanclarına da xüsusi yer ayırılır. Bu baxımdan alimin çillələrlə və çərşənbələrlə bağlı fikirləri maraqlıdır.

**Açar sözlər:** M.H.Təhmasib, folklor, novruz, bayram, çillə, çərşənbə

## М.Г.ТАХМАСИБ И ПРАЗДНИК НОВРУЗ

**Резюме**

Известный ученый фольклорист Мамед Гусейн ТахмАсиб является одним из научных деятелей, который посвятил свою жизнь собиранию, исследованию фольклорных образцов и создал великую школу в области фольклористики. М.Тахмасиб неутомимо писал и творил в направлении сохранения национально-моральных ценностей, обычаев, обрядов и в доведении нашего фольклора до будущего поколения. Профессор М.Г.Тахмасиб особо исследовал праздник Новруз и дал подробную информацию о его характерных особенностях.

В статье особое место уделяется народным поверьям соблюдаемым во время праздника Новруз. В связи с этим также интересны помыслы ученого связанные с чилля и с последними вторниками года.

**Ключевые слова:** М.Г.Тахмасиб, фольклор, Новруз, праздник, чилля, последний вторник года

## M.H.TAHMASIB AND THE HOLIDAY OF NOVRUZ

**Summary**

The well-known folklorist Mammadhuseyn Tahmasib devoted his life to the collecting and investigating of folklore samples and formed a school in the field of folklore-study. M.Tahmasib worked in the direction of the preserving of national-moral values, transferring customs and habits, folklore to the future generation. In his articles prof. M.H.Tahmasib especially investigated Novruz holiday, gave large information about its characteristics features.

In the article the place is given to the ancient folk beliefs performing in Novruz holiday. The thoughts of the scientist dealing with the chills and Wednesdays are interesting.

**Key words:** M.H.Tahmasib, folklore, novruz, holiday, chill, Wednesday

Tanınmış folklorşünas alim Məmmədhüseyn Təhmasib həyatını folklor nümunələrinin toplanması və tədqiqinə həsr etmiş, folklorşünaslıq sahəsində böyük bir məktəb yaratmış elm xadimlərimizdəndir. O, ardıcıl olaraq elmi ictimaiyyətə təqdim etdiyi məqalə və kitabların da dövrünün aktual problemlərini dərindən təhlil etmiş, yaşanılan proseslərə öz fəlsəfi şərhini vermişdir. M.H.Təhmasib davamlı olaraq xalq ədəbiyyatının problemlərini öz əsərlərində təhlil edərək elmi ictimaiyyətə yeni-yeni töhfələr vermişdir.

M.H.Təhmasib milli-mənəvi dəyərlərimizin və mədəniyyətimizin inkişafında xalqımızın gen yaddaşının, adət-ənənə, mərasim

və bayramlarının çoxçeşidli olduğunu, lakin bəsit və sadə olmadığını göstərərək, qədim bayram və mərasimləri yaranma zamanına görə təsnifini vermişdir. Burada ən qədim dövrlərin ibtidai görüşləri ilə əlaqədar adət-ənənələr olduğu kimi, orta əsrlərin, ictimai-siyasi, dini-fəlsəfi görüşləri, eləcə də çağdaş həyatımızın yaratdığı bu günkü adət-ənənələrimiz də olduğu kimi göstərilmişdir.

M.H.Təhmasib xalqımızın əsrlər boyu təşəkkül tapmış yüksək milli-mənəvi dəyərlərinin qorunması, adət-ənənələrimizin, folklorumuzun yaşayaraq gələcək nəsillərə çatdırılması istiqamətində yorulmadan yazıb yaratmışdır. Ümumiyyətlə, M.H.Təhmasibin folklorşünaslıq fəaliyyətində mərasim və mövsüm nəğmələrinin, xalq bayramlarının tədqiqi mühüm yer tutmuşdur. Milli bayramımız olan Novruz bayramı haqqında geniş, ətraflı, dərin məlumata malik olan alim öz yaradıcılığı ilə hər zaman diqqət mərkəzində olmuşdur. Bildiyimiz kimi, Novruz bayramı qədim tarixə malikdir və Azərbaycanda xüsusi təntənə ilə qeyd olunur.

M.H.Təhmasib bilirdi ki, tarix boyunca hakim ideologiyalar Novruzu məhdudlaşdırmağa, onun milli mənəviyyatdakı yerini kiçiltməyə çalışıblar. Hələ İslam dininin ilk gəlişi dövründə bu bayrama təzyiqlər olmuşdur. “İslamiyyət uzun müddət bu bayramı unutdurmağa çalışmış, buna müvəffəq olmadıqda isə onu öz tarixi ilə əlaqələndirməyə, hətta dördüncü xəlifənin xilafətə keçməsi ilə bağlamağa cəhd etmişdir. Ancaq bu da həyata keçməmişdir, çünki müsəlman bayramları qəməri təqviminə əsaslandıqları üçün ilbəil öz yerlərini dəyişdikləri, yəni başqa-başqa vaxtlarda, fəsillərdə icra etdikləri halda, Novruz bayramı sabit bir şəkildə, ancaq yazın birinci günü qarşılanır. İkinci tərəfdən müəllif onu da deyir ki, ümumiyyətlə, nə islam tarixi bu gündən, nə də islam tarixinə görə yeni il bu aydan başlanır. M.H.Təhmasibin fikrincə, Novruz bayramını atəşpərəstliklə bağlamağın da heç bir əsası yoxdur, çünki araşdırmalar Novruzun atəşpərəstlikdən də qədim olduğunu sübut edir (4, 72). Elə buna görə də ruhanilər güzəştə getməyə məcbur olduqdan sonra

belə bu bayramı əsl dini bayramdan fərqləndirməyə calışmışlar. Hətta Novruzu məsxərəyə qoymaq, hörmətdən salmaq, təhqir etmək məqsədi ilə onu "topal bayram", "şikəst bayram", yəni hərəkət edə bilməyən bayram adlandıranlar da olmuşdur (4, 72 ).

Tədqiqatçı alim C.Qasımov bu istiqamətdə bildirir ki, 1920-ci illərin axırı və 30-cu illərin əvvəllərində min illərlə xalqın yaddaşında kök salmış "Novruz" bayramı da din pərdəsi altında yasaq edildi. İllər boyu küçə və meydanlarda böyük ruh yüksəkliyi ilə keçirilən bu milli bayramı xalq artıq gizli olaraq, qapalı şəraitdə, lokal bir məkanda-evində keçirməyə başladı. Bunu bilən dövlət məmurları evlərdə də bu tədbirin keçirilməsini qadağan etdi. Bütün qadağalara, təqib və təzyiqlərə baxmayaraq, xalq əcdaddan transver edilən bu bayramın unudulmasına imkan vermədi, onu qoruyub saxlaya bildi. Başqa sözlə, nə bolşevik təbliğatı, nə də hüquq-mühafizə orqanlarının gördüyü tədbirlərin illərlə gendə köklənmiş "Novruz"u yaddaşlardan birdəfəlik silə bilmədi, sadəcə bu bayramın məkanı daraldı, küçədən, meydandan çıxaraq, evlərə, ürəklərə daxil oldu. Bolşeviklər bayramı küçədən yığışdırsalar da, xalq öz yaddaşındakı sxem əsasında onu gizlində, "pərdə arxasında" yenidən yaradırdı. Yenidən yaratma, dağılmış sistemi yenidən qurma isə Novruz bayramının funksional semantikasını təşkil edir (3, 20).

Təbii ki, xalqın içindən cıxmış, bütün mənəviyyatı və şəxsiyyəti xəlqi ənənələrlə yoğrulmuş Təhmasib Novruzun tarixən və sovet dövründə yaşadığı keşməkeşli taleyin onun milli tərəfləri ilə bağlı olduğunu, daha doğrusu, bu bayramın millilik qaynağı olmasından doğduğunu gözəl bildiyi üçün onun qorunması, ənənələrinin öyrənilməsini çox vacib hesab edirdi.

Prof. M.H.Təhmasib "Xalq ədəbiyyatımızda mövsüm və mərasim nəğmələri" adlı namizədlik dissertasiyası və "VII əsrə qədər Azərbaycan şifahi xalq ədəbiyyatı", "Adət, ənənə, mərasim, bayram", "Üç hadisə ilə bağlı mərasimlərimiz" məqalələri ilə mərasim folklorunun sistem şəklində araşdırmasının əsasını qoymuşdur.

M.H.Təhmasib bu məqalələrində Novruz bayramını xüsusi olaraq araşdırmış onun xarakterik xüsusiyyəti haqqında ətraflı məlumat vermişdir. Çillələrlə bağlı tədqiqatçılar arasında müxtəlif fikirlər vardır. Bu baxımdan alimin çillələrlə bağlı fikirləri maraqlıdır.

M.H.Təhmasib Novruz bayramı ərəfəsində çillələrin vaxt ardıcıllığına öz münasibətini belə bildirirdi:

"Qədim etiqadlara görə qış çillələrə bölünür. Bunlardan birincisi qışın girməsi ilə başlanan böyük çillədir ki, qırx gün davam edir. İkincisi, xalqın öz ifadəsi ilə deyilsə, "qışın oğlan çağı"dır ki, kiçik çillə adlanır və böyüyün yarısı qədər, yəni iyirmi gün davam edir. Nəhayət, qışın son ayı gəlir ki, bu da hər biri yeddi gündən ibarət olan dörd balaca çilləyə bölünür. Bu bölgünün əsaslandığı yeddi və qırx rəqəmlərinin müqəddəsliyi islamiyyətdən də, zərdüştilikdən də çox qədimdir. Son ayın dörd yeddigünlük çilləyə bölünməsi isə ümumiyyətlə, təbiətin dörd əsas ünsürdən ibarət olması etiqadına əsaslanır"(4, 73).

Ayrı-ayrı vaxtlarda çərşənbələrin sıralanması ilə də bağlı müxtəlif fikirlər irəli sürülmüşdür. Bu sıralanma alimlər arasında mübahisələr doğurmuşdur. Hər bir tədqiqatçı Novruz bayramından əvvəl qeyd edilən çərşənbələləri özlərinin araşdırmalarında xalq inancları, müxtəlif miflər əsasında tədqiqata cəlb etmişlər.

Təhmasibə görə, bu dörd ünsür hava, torpaq, su və oddur. Qədim etiqadlara görə, son ayın hər həftəsində guya ki, bu ünsürlərdən biri canlanır, oyanır, yaşamağa başlayır. Bunların hamısının dirilməsi, qızması, yeni keyfiyyət kəsb etməsi ilə də, ümumiyyətcə, təbiət oyanır, qış qurtarır, yaz başlanır. Qədim və orta əsrlər Azərbaycanda bu dörd ünsürdən hər birinin qışın əsarətindən qurtarması həmin ünsürün adı ilə bağlı olan həftənin son çərşənbəsində xüsusi bir şəkildə qeyd edilir (4, 73).

Böyük səbirsizliklə yazın gəlməsini gözləyən xalq böyük çilləni yola saldıqdan sonra yerdə qalan bir ay iyirmi günün, yəni 7 həftənin hər çərşənbəsini bayram edirdilər. Bunlardan birin-

ci üçünə "oğru üsgü", ikinci üçünə "doğru üsgü", sonuncusuna isə "ilin axır çərşənbəsi" deyirdi (5, 76 ).

Alimin fikrincə, qışın tez çıxması üçün altı çərşənbə hazırlıq gördükdən sonra son çərşənbə günü bir yerə toplaşıb köhnəni yola salır, yeni ilin, yəni yazın ilk gününü qarşılayırdılar (1, 101). Bu çərşənbələrin hərəsinə görə adət və ənənələri vardır.

"Kosa-kosa" ilin axır çərşənbəsi günü icra edilirdi. Bütün əkinçi xalqların mövsüm nəğmələrinin və bunlara aid olan mərasimlərin tədqiqinə əsaslanaraq, göstərir ki, qədim insan bir fəslin qurtarıb ikinci bir fəslin başlanmasını birincinin ölməsi, daha əvvəldən ölmüş olan ikincisinin isə dirilməsi şəklində təsəvvür etmişdir. M.H.Təhmasib "Kosa-kosa"ya əsaslanaraq göstərir ki, mövsüm nəğmələrində birinci qurtaranı yola salmaq, ikinci yeni başlananı qarşılamaq ünsürləri vardır. Alim Novruz bayramı və ilin axır çərşənbəsi ilə əlaqədar olan adətlərin profilaktik əfsunun müxtəlif növləri vasitəsilə icra edildiyini ehtimal edir (1, 101).

M.H.Təhmasibə görə, qurtaran ilin axır çərşənbəsində bütün evlərin həyətində tonqal qalanır, hamı odun üstündən tullanaraq "Ağırlığım, uğurluğum", "atıl-batıl-çərşənbə bəxtim açıl çərşənbə" yaxud "Azarım, bezarım tökül bu odun üstünə" deyərlərmiş (4, 73). Bir ilin müddətində özlərinə gələn bəlanı və gələcək bədbəxtlikləri dəf etmək üçün tonqalın üzərindən yeddi dəfə atlanır, özlərini bir il müddətində hər bir bəladan uzaq olmuş hesab edərdilər. Alimin fikrincə, bu mərasim çox aydın şəkildə sübüt edir ki, Novruz nə islam dini ilə, nə də zərdüştiliklə bağlı olmamışdır (5, 77).

M.H.Təhmasib onu da qeyd edirdi ki, Novruz bayramı zamanı icra olunan "səməni" bayramında "Novruz bayramına az qalmış evlərdə taxıl göyərdilir. Onun bir hissəsi öz yaşıllığı ilə baharı təmsil etdiyi üçün bahar bayramı olan Novruz bayramının süfrəsinə qoyulur. Bundan başqa "Səməni" halvası da bişirilirdi. Bu mərasim də qadınlar dəstə ilə səməni qazanının başına dolanıb, yallı gedir və səs-səs verib oxuyurlar.

Səməni, saxla məni,
İldə göyərdərəm səni.
Səməniyə saldım badam,
Qoymurlar bir barmaq dadam
Səməni bezanə gəlmişəm
Uzana-uzana gəlmişəm (1, 104).

Prof. Kamran Əliyev "Məmmədhüseyn Təhmasib yaradıcılığı folklorşünaslıq məktəbidir" adlı məqaləsində "Səməni nəğməsi" adlı bayramı haqqında belə qeyd edir. "M.H.Təhmasib "Səməni nəğməsi" adlı bayramlarda səməninin bişirilməsi zamanı ona qatılan unun bir evdən deyil, orada iştirak edən bütün evlərdən yığılmasının mühüm şərt olduğunu xüsusilə nəzərə çarpdırmaqla əsas diqqəti insanların birliyi məsələsinə yönəldir" (2). Burada diqqətimizi cəlb edən əsas məqam xalqın mərasimlərdə birləşmə imkanıdır. İnsanlar bayram və digər mərasim günlərində bir araya gəlir, bir olurlar. Bu səbəbdən də alim xalq mərasimlərində birləşə bilməyi əsas götürürdü.

M.H.Təhmasib araşdırmalarında Novruz bayramında riayət edilən qədim xalq inanclarına da xüsusi yer ayırır. Məsələn: bayram axşamı mütləq çimmək, gecəni səhərə qədər yatmamaq, il təhvil olduqda adam yatmış olsa, bütün yeni il boyu bəxti yatar, evdə olan bütün suyu atmaq, yeni ilin ilk günü səhər tezdən qızlar dəstə ilə su üstünə, bulaq başına, dəyirman üstə gedərlər. Yəni su gətirib, yeni ilin suyu ilə üzlərini yuyarlar, təzə paltar geyinərlər (yəni köhnəlikdən, zərərli qışdan tamamilə təmizlənmək lazımdır). Çalıb-oynamaq, şənlik etmək, ələ qızıl, gümüş salmaq, üzə un sürtmək, başa buğda, düyü, pul tökmək, qırmızı yumurta döyüşdürmək, şirin yeməklər bişirmək lazımdır. Bu adətlər ilin şad, bəxtiyar və doyumlu olması arzu-larını həqiqətə çevirmək cəhdindən ibarətdir (1, 101).

Bunlarla yanaşı, xalq arasında axır çərşənbə və bayram axşamı zamanı qızlar, gəlinlər, qadınlar müxtəlif fal açmalar həyata keçirirlər. Bunlara ayrıca diqqət yetirən alim iynə falından xüsusi

bəhs etmişdir. Niyyət edib iynənin başına pambıq dolayıb suya salır, iki qəlbin qovuşmasını, iki taleyin birləşəcəyini güdürlər. Talelərini sınayırlar. Tədqiqatçı burada iynənin birləşməsi ilə insanın birləşməsi arasında olan oxşayışın əsas tutulduğunu göstərir (5, 81).

Axır çərşənbə və bayram axşamı zamanında daha çox icra edilən fallardan biri də "Açar salmaq"dır. Alim bu inancı verdiyi nümunə əsasında belə izah edir.

"Axşam gün batdıqdan sonra əldə bir qab su, yaxud bir ayna və yeddi açar müəyyən bir niyyət edib, üç yaxud yeddi yolun ayrıcında dayanır, yoldan keçənlərin sözlərini dinləyirlər. Deyilən ilk söz tutulmuş niyyətin ilk falı hesab olunur. "Açar salma" qaranlıq qovuşduqdan sonra qonşu evlərin bacaları, yaxud pəncərələri kənarında da icra edilir. Evdə danışılan sözlərə qulaq asılır. Burada da tutulmuş niyyətlə eşidilən söz arasında oxşayış əsas tutulur. Deyilən sözün tutulmuş niyyəti izah edəcəyi, yəni açacağı zənn edildiyi üçün, bu fal zamanı yeddi dənə açar götürülür (1, 102).

Apardığımız araşdırmalardan, topladığımız folklor materiallarından məlum olur ki, Novruz bayramında və ilaxır çərşənbədə icra olunan fal əyləncələri bölgələrimizdə müxtəlifdir. Bəzi bölgələrimizdə "Açar salma" "qulaq fal"ı kimi də qeyd olunur. Göründüyü kimi, gələcəyi görmək arzusu, onu müəyyənləşdirmək istəyinin Novruz mərasiminin qulaq fallarında aranması xalq təfəkküründə formalaşan qədim inanclar sırasındadır. Bayram axşamında səhərə doğru, inanca görə, Allah insanların arzu, istəklərini daha yaxından dinləmək məqamında həyata keçirilən "qulaq falı" və "üzük falı" gələcəyin, tutulan niyyətin yaxşı, yaxud pis mövqeyə yönələcəyini ifadə edir.

Novruz bayramında və ilaxır çərşənbədə pis söz danışmaq olmaz. Kimsə bunu eşidər, falı pis alınardı. Bütün il uzunu nə narahatçılığı olsa, həmin sözə bağlardılar.

Xalq arasında ilin axır çərşənbə və bayram axşamı zamanı "Vəsfi-hal" falı daha çox həyata keçirilən fallardan biridir. Falın şeirlə birləşməsi nəticəsi olaraq xalq ədəbiyyatımızda yaranmış

“vəsfi-hal” növüdür. Alim “Vəsfi-hal”a aid bir neçə nümunə də vermişdir: “Məclis qurulur ortalığa bir badya su qoyulur, üstünə də yaylıq salınır. Yaxşı nəğmələr bilən bir nəfər, badyanın yanında oturur. İştirak edənlərin hərəsi badyaya üzük, sırğa salırlar. Badyanın yanında oturan bir bayatı deyir, badyadakı əşyalardan birini çıxardır. Bir adət olaraq bu zaman bayatı deyən, yaxşı nəticələr verən bayatılar deməyə çalışır. Sonra deyilmiş bayatı ilə həmin əşyanın sahibinin niyyəti arasındakı oxşayış təyin edilir. Yəni deyilmiş bayatı tutulmuş niyyətin cavabı olur. “Vəsfi-hal”lar bəzən niyyət etmiş adamı gizli sirlərdən də xəbərdar edir:

Qızılgülü dərərlər,
Pünhan yerə sərərlər,
Ortamızda çuğul var,
Səni məndən elərlər.

Bu fal niyyət etmiş adamla sevgilisi arasında çuğul olduğunu xəbər verir (5, 82). Yaxşıya yozulan bayatı çıxsa, qızlar sevinərdilər. İnanırdılar ki, muradlarına yetişəcəklər.

Bunlarla yanaşı, “Novruz bayramı ilə bağlı bir sıra mərasimləri nəzərdən keçirən M.H.Təhmasib belə qənaətə gəlir ki, Novruz bayramı öz mərasimləri ilə birlikdə, zaman-zaman Azərbaycanda hakim kəsilmiş dinlərin hamısından çox sadə təsərrüfat bayramı, yəni qışın yola salınması, yazın qarşılanması bayramı olmuşdur. Məhz elə buna görədir ki, xalqımız müxtəlif dinlərin, siyasi sistemlərin, ayrı-ayrı hökmdarların təsis etdikləri onlarla bayramları, mərasimləri unutmuş, buna isə insani əməyə, zəhmətə, maddi nemətləri yaratmağa çağıran təsərrüfat bayramı kimi əsrlər boyu yaşatmış, indi də hər il həvəslə gözləyir, hörmətlə qarşılayır, xüsusi bir məhəbbətlə icra edir. Müəllifin fikrincə, Novruz bayramı xalqımızın həyata, təbiətə, torpağa, zəhmətə məhəbbətinin təzahürüdür” (4, 76).

Milli bayramımız olan Novruz haqqında bu qədər geniş, ətraflı, dərin məlumata malik olan folklorşünas alimimiz M.H.Təhmasib öz yaradıcılığı ilə hər zaman diqqət mərkəzində olmuşdur. Onun irəli sürdüyü fikirlər isə həmişəyaşar fikirlər olaraq qalacaqdır.

M.H.Təhmasib mərasim folkloruna və ümumiyyətlə şifahi yaradıcılığa milli varlığın özü, milli mövcudluğun şərti kimi baxırdı. Belə hesab edirdi ki, Azərbaycan xalqının milli simasının, milli özünəməxsusluğunun qorunması onun folklorunun qorunması və yaradılmasından asılıdır. Alimin tədqiqatları göstərir ki, M.H.Təhmasib Novruz bayramına Azərbaycan xalqının milli simasını qoruyan, onu bir xalq, milli varlıq kimi yaşadan yaddaş hadisəsi kimi baxmışdır.

Təhmasibə görə, hər il azərbaycanlı mənəviyyatından boy verərək cücərən Novruz, əslində unudulmayan, yaşayan, ölməyən milliliyimizdir. Novruz hər il milli yaddaşı oyadır, insanlara milli kimliklərini xatırladır.

Folklorşünaslıq, o cümlədən mərasimşünaslıq sahəsində ardıcıl şəkildə fəaliyyət göstərən tədqiqatçının fikirləri Azərbaycan folklorşünaslığında mərasimlərlə bağlı tədqiqatları zənginləşdirmiş, həm də xüsusilə Novruz, Xıdır Nəbi kimi bayramlarla bağlı ümumi elmi fikrin formalaşmasına ciddi təsir etmişdir.

Dünya öz keçmişinə, öz əski "mən"inə qayıdan vaxtda, biz də qədim adət və ənənələrimiz içərisindən, qədim bayramlarımız içərisindən yaxşı nə varsa, hamısını arayıb, tapıb xalqımıza qaytarmalıyıq.

## QAYNAQLAR


1. Əliyeva X. Məmmədhüseyn Təhmasibin folklorşünaslıq fəaliyyəti. Bakı, Nurlan, 2009. 156 s.
2. Əliyev K. Məmmədhüseyn Təhmasib yaradıcılığı folklorşünaslıq məktəbidir. Kaspi qəzeti, 2017, 16 sentyabr, s.19-20
3. Qasımov C. Azərbaycan folklorşünaslığı və sovet totalitarizmi, Bakı, Nurlan, 2011, 599 s.
4. Təhmasib M.H. Məqalələr. Bakı: Elm, 2005, 218 s.
5. Təhmasib M.H. Seçilmiş əsərləri. 2 cilddə. I cild, Bakı, Mütərcim, 2010, 488 s.

# M.H.TƏHMASİBİN DRAM ƏSƏRLƏRİNDƏ ARA SÖZLƏR VƏ ƏLAVƏLƏR
## ("Çiçəkli dağ" və "Hind nağılı" pyeslərinin materialları əsasında)

**Günel MƏMMƏDOVA**
*AMEA Humanitar Elmlər Bölməsinin aparıcı mütəxəssisi,*
*Bakı Slavyan Universitetinin doktorantı*
*g.memmedova2010@gmail.com*

**Özət**

Məqalədə müəllif Məmmədhüseyn Təhmasibin "Çiçəkli dağ" və "Hind nağılı" pyes-nağıllarında istifadə etdiyi ara sözlər, söz birləşmələri və əlavə konstruksiyaları müqayisəli formada araşdırmışdır. Müəyyən etmişdir ki, M.Təhmasib özünün "Çiçəkli dağ" pyesində daha çox yəqinlik, güman, şübhə, ümumiləşdirmə, nəticə və çağırış, diqqət bildirən ara sözlərdən istifadə etdiyi halda, "Hind nağılı"nda əsasən, söylənilən fikrə emosional münasibət bildirən, o cümlədən, söylənilən fikrin təbii, adəti üzrə olduğunu göstərən ara sözlərə daha çox yer vermişdir.

**Açar sözlər:** Məmmədhüseyn Təhmasib, pyes-nağıl, ara sözlər, əlavə konstruksiyalar.

# ПРОМЕЖУТОЧНЫЕ СЛОВА И ДОПОЛНЕНИЯ В ДРАМАТИЧЕСКИХ ПРОИЗВЕДЕНИЯХ М.Г.ТАХМАСИБА
## (По материалам «Цветочная гора» и «Индийская сказка»)

**Резюме**

В статье автор сравнительно исследовал вводные слова, словосочетании и дополнения, которые втсречаются в языке пьесы-сказки М.Тахмасиба «Цветущая гора» и «Индийские сказки». Стало ясно, что писатель в пьесе «Цветущая гора» в

основном обратился к вводным словам, которые обозначают уверенность, достоверность, предположение, привлечение внимания собеседника к сообщению. А в «Индийские сказки» встречаются вводные слова, которые обозначают общий экспрессивный характер высказывания, источник сообщения, степень обычности излагаемых фактов.

**Ключевые слова:** Мамедгусейин Тахмасиб, пьесы-сказки, вводные слова, дополнения.

## INTERMEDIARY WORDS AND ADDITIONS IN THE DRAMATIC WORKS BY M.H.TAHMASIB (Based on the materials of the plays "Flowery mountain" and "Indian Tale")

**Summary**

In the article the author comparatively researched the introductory words, phrases and additions, which occur in the language of M. Tahmasib's fairy tale "Flowerly mountain" and "Indian Tale". It became clear that the writer in the play "Flowerly mountain" mainly addressed the introductory words, which denote confidence, reliability, supposition, attracting the attention of the interlocutor to the message. And in the "Indian Tale" there are introductory words, which denote the general expressive nature of the utterance, the source of the message, the degree of commonality of the facts presented.

**Key words:** Mammadhuseyn Tahmasib, play-fable, introductory words, additions.

Azərbaycan filologiyasının inkişafında müstəsna rolu olan, həyatını folklor nümunələrinin toplanması və tədqiqinə həsr etmiş alim, professor Məmmədhüseyn Təhmasib folklorşünaslıq sahəsində böyük bir məktəb yaratmış elm xadimlərimizdəndir (2, 3).

Onun "Bir qalanın sirri" (1960), "Onu bağışlamaq olarmı?" (1960) ssenariləri əsasında eyn adlı filmlər çəkilmişdir,

eyni zamanda "Bahar" (1938), "Aslan yatağı" (1941), "Çiçəklənən arzular" (1951), "Hind nağılı" (1956), "Rübailər aləmində" (1968) və b. pyes-nağılları respublikanın teatr səhnələrində müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur.

Məmmədhüseyn Təhmasibin pyes-nağıllarının dilini tədqiq edərkən maraqlı məqamlara rast gəlmək mümkündür. Bu məqamlardan biri də müəllifin öz pyeslərində müraciət etdiyi ara sözlər, birləşmələr və əlavələrdir.

Ümumiyyətlə, ara sözlər və birləşmələr daxil olduğu cümlənin üzvləri ilə qrammatik cəhətdən bağlı olmur, cümlə üzvü vəzifəsində çıxış edə bilmir, əsas cümlə ilə mənaca bağlanaraq danışanın (və ya yazanın) söylədiyi fikrə münasibət bildirir. Aid olduğu cümlənin üzvləri ilə qrammatik (sintaktik) cəhətdən bağlı olmadığı üçün ənənəvi qrammatikalarda bu cür sözlər və birləşmələr "Qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlər və birləşmələr" adlandırılır.

Ara sözlər və birləşmələr adətən cümlənin əvvəlində müşahidə olunsa da, cümlənin daxilində və sonunda da işlənir, nisbətən sürətlə, lakin aşağı tonda və zəif vurğu ilə tələffüz edilir.

Ara sözlər və birləşmələr cümlədə söylənilən fikrə çox müxtəlif çalarlarda münasibət bildirir, ona görə də aşağıdakı məna növlərinə ayrılır:

**1. Yəqinlik bildirənlər**: əlbəttə, sözsüz, şübhəsiz, həqiqətən, doğrudan, doğrudur, düzdür, əsla, qətiyyən, qeydsiz-şərtsiz və s. Bu qrupa daxil olan ara sözlər işin icra olunub-olunmayacağını, hadisənin baş verib-verməyəcəyini qətiyyətlə bildirir.

**2. Güman, şübhə bildirənlər:** güman ki, çox güman ki, ehtimal ki, bəlkə, bəlkə də, görünür, deyəsən, ola bilsin ki, yəqin ki, gərək ki, ola bilər ki, çox ola bilər ki və s.

**3. Söylənilən fikrin təbii, adəti üzrə olduğunu bildirənlər:** adətə görə, adəti üzrə, həmişə olduğu kimi, bir qayda olaraq, təbii ki və s. Ara sözlərin bu qrupu hadisələrin müəyyən qayda üzrə, təbii şəkildə baş verdiyini bildirir.

**4. Söylənilən fikrə hissi-emosional münasibət bildirənlər:** heyf, heyf ki, təəssüf, təəsüf ki, şükür, şükür ki, əcəba, xoşbəxtlikdən, bədbəxtlikdən, qəribədir ki, inanılası deyil ki, tərs kimi, guya, guya ki, elə bil, elə bil ki, sanki, az qala və s. Bu qrupa daxil olan ara sözlər və birləşmələr şadlıq, sevinc, təəssüf, təəccüb, qorxu, həyəcan, razılıq və s. ifadə edir.

**5. Mənbə, istinad bildirənlər:** məncə, mənim fikrimcə, deyilənə görə, eşitdiyimə görə, bu baxımdan, məlumdur, deyir, dədə-baba demiş, atalar demişkən, sən bilən və s.

**6. Ümumiləşdirmə, nəticə, nitqin hissələri arasında əlaqə bildirənlər:** beləliklə, ümumiyyətlə, deməli, nəhayət, xülasə, vəssəlam, məsələn, xüsusən, bununla bərabər, bununla yanaşı, bununla birlikdə, əvvələn, birincisi, ikincisi, əsasən, əksinə, demək, deməli, bir tərəfdən, ikinci tərəfdən, hər şeydən əvvəl, təxminən, başlıca olaraq, başlıcası, bir sözlə və s. Bu qrupa daxil olan ara sözlər və birləşmələr ümumiləşdirmə, nəticə bildirmə imkanlarına malikdir və fikrin sırasını, bir-birinə zidd olan cəhətlərini, aktuallığını, hadisələrin yekununu və s. ifadə edir.

**7. Fikrin ifadəsi üsuluna münasibət bildirənlər:** qısası, qısa desək, kobud desək, başqa sözlə, doğrusu, daha doğrusu, sözün doğrusu, düzü, sözün düzü, düzünə qalsa, açığı, sözün açığı, öz aramızda, açığını desək, dediyim kimi, əslində, əslinə baxsan. hər halda və s. Bu qrupa daxil olan ara sözlər və birləşmələr danışan şəxsin fikrin seçilmiş ifadə tərzinə münasibətini, hadisəni hansı yöndən, obyektiv reallığa, mövcud şəraitə nə dərəcə münasib ifadə etdiyini göstərir.

**8. Çağırış, diqqət bildirənlər:** görürsən(mi), (görürsünüzmü), bilirsən(mi) (bilirsinizmi), eşidirsən(mi) (eşidirsinizmi), başa düşürsən(mi) (başa düşürsünüzmü), inanırsan(mı) (inanırsınızmı), təsəvvür edirsən(mi) (təsəvvür edirsinizmi), eşit (eşidin), əgər bilmək istəyirsənsə (əgər bilmək istəyirsinizsə), bağışla (bağışlayın), tutaq ki, yaxşı, çox gözəl və s. Ara sözlərin və birləşmələrin bu qrupu müsahibin diqqətini söhbətə cəlb etmək,

onun söhbətdə daha diqqətlə iştirakını təmin etmək məqsədi daşıyır və buna görə də əksərən formaca ikinci şəxsdə olur (4).

Məmmədhüseyn Təhmasibin "Çiçəkli dağ" və "Hind nağılı" pyeslərində istifadə etdiyi ara sözləri araşdırarkən maraqlı nəticələrə rast gəlmək mümkündür.

Araşdırmalar ilk öncə onu göstərir ki, müəllif "Hind nağılı" pyesindən fərqli olaraq, "Çiçəkli dağ"da ara sözlərə daha çox müraciət etmişdir: demək (14 dəfə), deyəsən (13 dəfə), yəqin ki (12 dəfə), doğrudan (11 dəfə), görəsən (8 dəfə), görürsənmi (3 dəfə), yaxşı (3 dəfə):

- ✓ ***Demək,*** *bunlar nə üçünsə and içib, söz veriblər.*
- ✓ *Bıdı:* ***Görəsən,*** *yerin adama düşər-düşməzi olar?* ***Deyəsən,*** *bu yer mənə düşmür, axı! Nə qədər oxuyuram beynimdə hec nə qalmır. Gəlsənə yerimizi dəyişək.*
- ✓ *Usta (bir nəfəs alır. Bir də sümürür):* ***Deyəsən,*** *bu tütün məni* ***doğrudan da*** *məst elədi. Mənim başım hərlənir... Yox,* ***deyəsən...*** *Sən mənə nə verdin?*
- ✓ *Həkim (şagirdlərə):* ***Yəqin ki,*** *onu siz tapıb ələ vermisiniz.*
- ✓ *İndi ki. Onlar səndədir,* ***demək ki,*** *elin bütün gücü-qüvvəti sənin qollarındadır.*
- ✓ *II Göyərçin: Bilirəm. Ancaq,* ***görəsən,*** *o, həkimin kitablarını oxuyubmu?*
- ✓ *At: Ola bilməz.****Yəqin*** *məni qara basır.*
- ✓ *Elşən:* ***Yaxşı,*** *bəs indi biz neyləyək, Kamran baba? Burda nə gül var, nə çiçək, nə də Ustamdan bir əlamət.*
- ✓ *Elşən:* ***Görürsənmi,*** *Kamran baba?! Falçı doğru deyirmiş, Ustam Qaraqayadadır.*

"Çiçəkli dağ" pyesindən verilən bu nümunələrdən göründüyü kimi, müəllif daha çox yəqinlik, güman, şübhə, ümumiləşdirmə, nəticə və çağırış, diqqət bildirən ara sözlərdən istifadə etmişdir.

Məmmədhüseyn Təhmasib "Çiçəkli dağ" pyesindən fərqli olaraq, "Hind nağılı"nda əsasən, söylənilən fikrə emosional münasibət bildirən ara sözlərə, o cümlədən, söylənilən fikrin təbii,

adəti üzrə olduğunu bildirən ara sözlərə daha çox yer vermişdir. Bunlarla yanaşı "Hind nağılı" pyesində də yəqinlik, güman, şübhə, ümumiləşdirmə, nəticə və çağırış, diqqət bildirən ara sözlərə də çox rast gəlirik. Bu pyesdə daha çox rast gəldiyimiz ara sözlər bunlardır – əlbəttə (11 dəfə), düzdür (10 dəfə), qəribədir ki (8 dəfə), tutaq ki (5 dəfə), yaxşı (3 dəfə), demək (2 dəfə), gərək ki (1 dəfə), elə bil ki (1 dəfə):

✓ *Dimnə: **Əlbəttə ki,** burdayam. Mən onların fikrini bilməmiş heç gedərəmmi? **Yaxşı,** ağzı qara tülkü!.. Mən sənin başına bir iş gətirim ki!...*

✓ *Kəlilə: **Tutaq ki,** sən lap onu aldadıb buraya gətirdin. Axır bunun sənə nə xeyri olacaq?*

✓ *Kəlilə: **Yaxşı, tutaq ki,** onlar hörmətdən düşdü. Sən də böyüdün, Şir səni lap sağ yanında əyləşdirdi, sonra?*

✓ *Şir: **Demək,** sənin yediyin otdur, güldür, çiçəkdir?*

✓ *Tülkü: **Qəribədir,** doğrudanmı onun ürəyi belə təmiz imiş?*

✓ *Rayhind: **Qəribədir,** mən heç bir şey anlaya bilmirəm.*

✓ *Dimnə: **Düzdü,** mən gərək onu diri tutub sizə verəydim, ancaq o, sizin haqqınızda elə danışdı ki, mən dözə bilmədim.*

✓ *Kəlilə: Dayan, şir gəlir... Ora bax, gör necə də qaşqabaqlıdır. **Elə bil ki,** ürəyində böyük bir dərdi var*

Məmmədhüseyn Təhmasibin araşdırma apardığımız bu iki pyesində ara cümlələrə də rast gəlmək mümkündür. Məsələn:

*Kamran baba: Ehtiyatlı ol, oğlum! O, çox hiyləgərdir. Əgər kəmər işıq verməsəydi indi, **kim bilir,** başımıza nə gəlmişdi* və s.

Yazılı və şifahi nitqdə ara konstruksiyalarla (ara sözlər, söz birləşmələri və cümlələrlə) yanaşı, əlavə konstruksiyalardan da geniş istifadə edilir.

Cümlə daxilində işlədilən əlavə leksik və sintaktik vahidlər semantik cəhətdən son dərəcə rəngarəng olur. Ara sözləri və birləşmələri müəyyən qruplara ayırmaq mümkün olduğu halda, əlavə sözləri, əlavə birləşmə və cümlələri belə qruplara ayırmaq qeyri-mümkündür, çünki onların vasitəsilə cümlədə söylənilən

fikri genişləndirmək, qısaltmaq, məhdudlaşdırmaq, cümlədə işlədilən bu və ya digər sözü, ifadəni, termini izah etmək, danışanın mimikasını, jestlərini təsvir etmək, zaman, məkan, mövcud situasiya haqqında məlumat vermək mümkündür. Başqa sözlə desək, əlavə konstruksiyaların obyektiv reallığın çox rəngarəng sahələrinə nüfuz etmək imkanları vardır, ona görə də onları mənaca sistemləşdirmək, bir qəlibə yığmaq üçün lüzum yoxdur (5).

Əlavə konstruksiyalardan memuar və məktublarda, felyeton janrında, dram əsərlərində daha çox istifadə edilir. Dram əsərlərində obrazın müxtəlif hərəkətləri, davranışı, jest və mimikası, başqa obrazlara münasibəti, yerişi, duruşu, danışıq tərzi və s. əlavə konstruksiyalar vasitəsilə verilir. Çox vaxt personajın adından sonra onun kimə üz tutduğu, hansı əhval-ruhiyyə ilə, nə tərzdə danışdığı barədə məlumat verilir (5).

Bu məqsədlə Məmmədhüseyn Təhmasib də özünün "Çiçəkli dağ" və "Hind nağılı" pyeslərində əlavə konstruksiyalara çox tez-tez müraciət etmişdir. Əlavələr bir sözdən, bir neçə söz birləşməsindən, sadə və mürəkkəb cümlələrdən, eləcə də, sintaktik bütövdən ibarət ola bilirlər. M.Təhmasibin "Çiçəkli dağ" pyesində və "Hind nağılı"nda da əlavələrin sadalanan formalarına rast gəlmək mümkündür.

**Bir sözdən ibarət olan əlavələr:**

✓ *Həkim **(fikirli)**: Sonra da ki...*

✓ *Mətanət **(sevinclə)**: Mənim dərmanımı?*

✓ *Dərviş **(əsəbi)**: Deyirlər, deyirlər, hamısı elə deyirlər... Bəs sən ki, onun dostu idin!*

✓ *Simnar **(Kosaya)**: Vur!*

"Çiçəkli dağ" pyesindən

✓ *Ayı **(Tülküyə)**: Nə yandı? Hara yandı?*

✓ *Şir **(əsəbi)**: Hanı?*

✓ *Pələng **(bayırdan)**: Bu saat.*

✓ *Şir **(heyvanlara)**: Kim deyər, biz qonağımızı haraya apara bilərik ki, sevdiyi şeylərin hamısı orada olsun?*

"Hind nağılı" pyesindən

**Söz birləşmələrindən ibarət olan əlavələr:**

- ✓ *Həkim **(öz-özü ilə fikirləşirmiş kimi)**: Hə?*
- ✓ *Falçı **(batan günəşə baxaraq)**: Usta da bu günəş kimi batdı. O, özünü sizə qurban verdi. Siz isə... Hardadır Elşən?*
- ✓ *Falçı **(gedə-gedə)**: Olsun. Mən səhər sizi orada gözləyəcəyəm.*
- ✓ *Mətanət **(çox kəskin)**: Bilmirəm!*

"Çiçəkli dağ" pyesindən

- ✓ *Ayı **(əlini qulağına tutaraq)**: Hə?*
- ✓ *Canavar **(Ayının qulağına)**: Çolaq yox ey, ay Ayı! Deyir çalaq.*
- ✓ *Dimnə **(heyvanlara baxaraq)**: Bəli, mən!*
- ✓ *Meymun **(şahı yamsılayaraq)**: Get!*

"Hind nağılı" pyesindən

**Sadə cümlələrdən ibarət olan əlavələr:**

- ✓ *Mətanət **(sevinclə)**: Mənim dərmanımı? **(Həkimin əllərindən öpür)** Həkim baba!*
- ✓ *Usta: Bunun üçün bircə məsləhət var, o da bax budur! **(külüngünü qaldırır)**.*
- ✓ *Elşən: Yenə də bağlı... Görünür ki, deyilənlər düzdür. **(Pilləkəndə əyləşib fikrə gedir)***
- ✓ *Həkim: Bütün bunlar üçün bircə yol var, Elşən! O da, elmdir, bilikdir. **(Kitabları göstərir)**. Bunun üçün sən bu kitabların hamısını oxumalısan.*
- ✓ *İt **(bir də hürür)**: Gəldilər **(qaçır)**.*

"Çiçəkli dağ" pyesindən

- ✓ *Çandra: Mən onların heç birindən qorxmuram **(əlini ağzına qoyub səsləyir)**. Ehey! **(Səs gəlmir)**. Ehey!*
- ✓ *Ayı **(keçir Tülkünün yanına)**: Adə, Tülkü, aç də!*
- ✓ *Dimnə **(qaçaraq gəlir)**: Şah sağ olsun, Kəl gəlir **(qayıdıb gedir)**.*
- ✓ *Pələng **(çiynində iki ceyran gəlir)**:*

*Mən bu gecə sübhə kimi*
*Əlik, cüyür qovlamışam,*
*Sənin üçün əziz qonaq*
*Bir cüt ceyran ovlamışam.* ***(Kəlin qabağına qoyur).***

✓ *Şir* ***(Dimnəyə hirslənir)****: Bəs nə üçün bunu mənə deməmisən?*

"Hind nağılı" pyesindən

**Mürəkkəb cümlələrdən ibarət olan əlavələr:**

✓ *Usta: Dayan! Mən səni****...(Külüngü qaldırır, başı hərlənir, divarın arxasından Simnar xan çıxır, qızıl əsa ilə onun başından vurur, usta bihuş yıxılır).***

✓ *Kamran baba: Dayan!* ***(Gülü alır, burnuna yaxınlaşdırır)****. Bunda bihuşdarı var.*

✓ *Həkim* ***(gülür)****: Götür! Götür! İndi o, sənə dəyməz. Çünki mən özüm deyirəm.* ***(Elşən kəməri götürüb, baxır)****. Belinə bağla* ***(Elşən nə qədər bağlamaq istəyirsə, kəmər açılıb düşür).***

✓ *Kamran baba: Açdım... Qulaq asın, indi siz də biləcəksiniz.* ***(Şeyləri düzür, hamı baxır)****. İndi mən bu sirri oxuyuram... Sim...nar... Qanlıdaş, qıfıl. Aydındırmı?*

✓ *Kosa: Dayan! Mən indi burada elə bir zülmət yaradım ki...* ***(Əllərini oynadır, buludlar hərəkətə gəlir).***

"Çiçəkli dağ" pyesindən

✓ *Kəlilə: Sən dəli olmamısan ki, Dimnə? Yoxsa qızdırman var... Bəlkə sərsəm eləyirsən? Qoy qızdırmanı ölçüm* **(gedib *böyük bir termometr gətirir, ölçüb baxır)***. Yox, qızdırman yoxdur, amma ürəyin yaman döyünür.*

✓ *Pələng* **(heyvanlara)**: *Nə üçün, nə üçün ça...ça...çalmırsınız?* ***(Heyvanlar çalmağa çalışırlar, lakin alətləri düz tutmadıqları üçün qəribə səslər çıxır).***

✓ *Dimnə: Nə olsun ki, gözüm çəpdi. Sən mənim gözümə baxma, özümə bax!* ***(Təkəbbürlə gəzir, sonra amiranə bir səslə çağırır)****. Pələng! Harda qaldın?*

"Hind nağılı" pyesindən

Məmmədhüseyn Təhmasibin “Çiçəkli dağ” və “Hind nağılı” pyeslərinin dilini araşdırarkən bir daha görürük ki, dram əsərlərində ara sözlərə və söz birləşmələrinə daha az rast gəlmək mümkündür. Lakin, pyes müəllifləri dram əsərlərində obrazın müxtəlif hərəkətləri, davranışı, jest və mimikası, başqa obrazlara münasibəti, yerişi, duruşu, danışıq tərzi və s. haqqında məlumat vermək məqsədilə əlavə konstruksiyalara daha çox müraciət edirlər.

Xalq yazıçısı İlyas Əfəndiyevin fikrincə: “Yazıçı üçün dil onun ürəyinin tərcümanıdır. Ədəbiyyata gətirilən sözü yazıçı elə işlətməlidir ki, o, hamı üçün anlaşıqlı olsun. Xalqın ruhu ilə, canlı danışıq dili ilə mayalanmış əsərlər həmişə ümumxalq rəğbətini qazanır”.

Bu baxımdan Məmmədhüseyn Təhmasibinin pyeslərindəki axıcılıq, rəvan təhkiyə və poetik deyim onun milli folklora və xalq dilinə dərindən bağlılığı ilə əlaqədardır.

Onun əsərlərinin dili aydın və obrazlıdır, zəngin ifadə vasitələrinə və lüğət tərkibinə malik bir dildir. Yüksək estetik dəyəri və bədii siqləti ilə seçilən bir dildir. Dramaturqun zəngin xalq düşüncəsindən qaynaqlanan bədii əsərlərinin dilindəki həzinlik, obrazlılıq, təbiilik və musiqillik onun poetik ruhunun bulaq kimi saflığından və böyük ədəbi istedadından xəbər verir.

## QAYNAQLAR


1. Q.Kazımov. Müasir Azərbaycan dili. Sintaksis. Bakı, "Ünsiyyət", 2000, 496 s.
2. M.Təhmasib. Seçilmiş əsərləri, I cild. Bakı, “Mütərcim”, 2010, 488 s.
3. M.Təhmasib. Çiçəkli dağ. Nağıl-pyeslər. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1965, 91 s.
4. http://www.qkazimov.gen.az/arxiv/57.htm
5. http://www.qkazimov.gen.az/arxiv/59.htm

# AZƏRBAYCAN FOLKLORUNUN TOPLANMASINDA M.H.TƏHMASİBİN ROLU

**Xəyalə AĞAYEVA**
*Filologiya üzrə fəlsəfə doktoru*
*AMEA Folklor İnstitutu*
*xeyale_eliyeva80@mail.ru*

**Özət**

Məqalədə görkəmli folklorşünas M.Təhmasibin Azərbaycan folklorunun toplanması və tərtibi sahəsindəki fəaliyyətindən bəhs olunur.

M.Təhmasibin adı Azərbaycan nağıllarının, dastanlarının, lətifələrinin mühüm nəşrləri ilə bağlıdır. O, nağılların 1941-1949-cu illər nəşrinin, eləcə də 1960-1964-cü illərdə nəşr edilmiş beş cildlik nəşrinin əsas toplayıcı və tərtibçilərindən biri olmuşdur.

Azərbaycan dastanlarının tərtibi və nəşri sahəsində də görkəmli folklorşünasın böyük əməyi olmuşdur. Təsadüfi deyildir ki, M. Təhmasibdən bəhs edən tədqiqatçılar onun adının "Koroğlu" dastanının tərtibi və nəşri ilə sıx bağlı olduğunu xüsusi olaraq qeyd etmişlər.

M.Təhmasibin Azərbaycan lətifələrinin toplanması, tərtibi və nəşri sahəsindəki fəaliyyəti də danılmazdır. Azərbaycan lətifələri bir neçə dəfə onun tərtibində (1956, 1965) nəşr olunmuşdur.

M.Təhmasib aşıq şeirinin nəşri sahəsində də fəal iştirak etmiş, bir tərtibçi kimi mühüm əhəmiyyətli nəşrlərin müəlliflərindən biri olmuşdur. Bu baxımdan görkəmli folklorşünasın Aşıq Ələsgər şeirinin müxtəlif çapları ilə bağlı tərtibləri, xüsusən ikicildliklə bağlı işi (1972) diqqəti cəlb edir.

M.Təhmasibin toplama və tərtib işləri öz mükəmməlliyi ilə seçilir. Onun tərtib işlərinə yazdığı müqəddimələr, izah və şərhlər öz dolğunluğu ilə diqqəti cəlb edir.

**Açar sözlər:** toplama, tərtib, nağıl, dastan, lətifə, aşıq şeri, müqəddimə, toplu, izah və şərh

## РОЛЬ М.Г.ТАХМАСИБА В СОБИРАНИИ АЗЕРБАЙДЖАНСКОГО ФОЛЬКЛОРА

**Резюме**

В статье речь идет о деятельности известного фольклориста М.Тахмасиба в области собирания и составления азербайджанского фольклора.

Имя М.Тахмасиба связано с важными изданиями азербайджанских сказок, эпосов, анекдотов. Он является одним из главных собирателей и составителей изданий 1941-1949-х годов, а также изданного в 1960-1964-х годах пятитомника сказок.

Известный фольклорист, также имеет большой труд в области составления и собирания азербайджанских эпосов. Не случайно, исследователи, изучавшие творчество М.Тахмасиба, особо отметили тесную связь его имени с составлением и изданием эпоса «Кероглы».

Неоспорима, также деятельность М.Тахмасиба, в области собирания, составления и издания азербайджанских анекдотов. Составленные им азербайджанские анекдоты (1956, 1965), издавались несколько раз.

М.Тахмасиб, также активно участвовав в области издания ашыгской поэзии и как составитель, являлся одним из авторов важных изданий. С этой точки зрения, привлекают внимание составления, связанные с разными изданиями, особенно с двухтомником (1972) стихов Ашыг Алескера.

Работы собранные и составленные М.Тахмасибом выделяются своим совершенством. Написанные им предисловия, изложения и комментарии к составительным работам привлекают внимание своей безукоризненостью.

**Ключевые слова:** собирание, составление, сказка, эпос, анекдот, ашыгское стихотворение, предисловие, сборник, изложение и комментарий

## THE ROLE OF MAMMADHUSEYN TAHMASIB IN THE COLLECTING OF AZERBAIJAN FOLKLORE

**Summary**

In the article it is talked about the activity of the folklorist M.Tahmasib in the compiling and collecting of Azerbaijan folklore.

The name of M.Tahmasib deals with the important editions of Azerbaijani tales, eposes, jokes. He was one of the main collectors and compilers of the tales publishing in 1941-1949 years, also five volumes editions publishing in 1960-1964 years.

The famous folklorist has a great role in the field of compiling and publishing of Azerbaijan eposes. The researchers talking about M.H.Tahmasib especially noted his name dealing with the publishing and compiling of "Koroglu" epos.

M.H.Tahmasib took part actively in the publishing of ashug poem, as a compiler was an author of famous important editions. The collecting and compiling works of M.Tahmasib attract attention.

**Key words**: collecting, compiling, tale, epos, joke, ashug poem, preface, explanation and commentary

Professor M.H.Təhmasibin Azərbaycan folklorunun toplanması, tərtibi və nəşrində də böyük xidmətləri olmuşdur.

Onun görkəmli folklorçu H.Əlizadə ilə birlikdə toplayıb nəşr etdirdiyi «Nizami əsərlərinin el variantları» kitabı da diqqəti cəlb edir. 271 səhifədən ibarət bu topluda 34 nümunə verilmişdir. Bu kitaba ön sözü akademik Həmid Araslı yazmışdır. Müqəddimə müəllifi göstərir ki, Nizaminin heç elə bir poeması yoxdur ki, xalq poeziyasında onun süjeti ilə əlaqədar əsər olma-

sın. Bunların bir hissəsi Nizaminin xalqdan istifadə edərək yaratdığı süjetlər olsa da, mühüm bir hissəsi Nizami yaradıcılığından xalqa keçmişdir (12, 3).

Bu toplama-tərtib işi dahi Azərbaycan şairi Nizami Gəncəvinin şifahi xalq ədəbiyyatı ilə nə qədər dərindən bağlı olduğunu üzə çıxarır. Dahi şair xalq yaradıcılığından bir qaynaq kimi istifadə etdiyi kimi, onun əvəzsiz əsərləri də xalq içərisində geniş yayılmış, bunun nəticəsində dahi şairin əsərlərinin süjetləri əsasında neçə-neçə folklor nümunələri yaranmışdır.

Bu kitabdakı nümunələr folklorun müxtəlif janrlarını əhatə edir. Belə ki, bu nümunələrin bir qismi – «İsgəndərin anadan olması», «Ərəstunun yuxu görməsi», «İsgəndərin Gilan səfəri», «Dərbənd qalasının alınması», «İsgəndər və heyvanlar», «İsgəndərin ölümü», «İsgəndərin anası», «Buynuzlu İsgəndər» nümunələri rəvayət şəklindədir. Kitabdakı nümunələrin böyük bir hissəsi nağılları əhatə edir. Bunlardan «İsgəndər quş dili öyrənir», «İsgəndərin quşlardan xərac alması», «Yoxsul kişi ilə padşahın nağılı», «Loğman», «Mərd və namərdin nağılı», «Ax-vax» və s. nağıllar öz mövzu dairəsi, süjetləri etibarilə xüsusilə maraq doğurur. Bu topludakı «Leyli və Məcnun», «Fərhad və Şirin» kimi nümunələr isə Nizami əsərlərinin aşıq yaradıcılığına təsiri, dahi şairin yaratdığı süjetlərə aşıqların müraciət etməsi və bu süjetlər əsasında dastan yaratması ənənəsinin də olduğunu üzə çıxarır.

Görkəmli folklorçu H.Əlizadə ilə birlikdə toplama və tərtib işi aparması, Nizami kimi qüdrətli bir şairin yaradıcılığına müraciət olunması, şübhəsiz ki, M.H.Təhmasibin yaradıcılığına çox müsbət bir təsir göstərmişdir.

Azərbaycan folklorunun ən geniş yayılmış janrlarından biri olan bayatıların tərtibi də M.H.Təhmasibin XX əsrin 40-cı illərində gördüyü ən maraqlı və mühüm işlərdən biridir. Kitaba xalq yazıçısı Mehdi Hüseyn müqəddimə yazmışdır (10, 5-17). Mehdi Hüseyn bayatıların bu nəşrini yüksək qiymətləndirir:

«Bu vaxta qədər nəşr edilmiş ayrı-ayrı bayatı kitabları nəzərə alınmazsa, bu məcmuənin nəşri ədəbiyyatımızın zəngin janrlarından birini tədqiq edib öyrənmək işində ilk ciddi addım sayılmalıdır» (10, 5).

Müqəddimə müəllifi həmişə canlı bir yaradıcılıq prosesi keçirən bayatıların dildən-dilə düşərək yaşadığını, eyni zamanda məzmun və emosional təsirinin də səviyyəcə müxtəlif olmasını belə izah edir:

«Bu həqiqi şeir inciləri, yəqin ki, bir zaman böyük bədii istedada malik olan adamlar tərəfindən yaradılmışdır. Hətta müxtəlif şəkillərdə təkrar edilə-edilə zəmanəmizə qədər gələn eyni bayatını belə müqayisə edəcək olsaq, bunların da müxtəlif bədii zövq sahibləri tərəfindən söyləndiyi dərhal aydınlaşır» (10, 6).

Kitabın tərtibçisi bayatıları dörd yerə ayırmışdır: laylalar, mahnılar, əsl bayatılar, ağılar.

Müəllif aşağıdakı tipli bayatıları laylalar qrupuna daxil etmişdir:

Qızılgül butam laylay,
Ətrinə batam, laylay.
Balam ərsiyə gələ,
Toyunu tutam laylay (7, 19).

Bayatıların içərisində:

Yük üstü güllü xalça,
Kim qaldıra, kim aça.
O yara qurban olum,
Dindirə, könül aça. (7, 25) –

kimi nümunələri isə «mahnılar» başlığı altında vermişdir.

Kitabın içindəki nümunələrin böyük əksəriyyəti isə «əsl bayatılar» və «ağılar» başlıqları ilə verilmişdir.

Məlum olduğu kimi, hər bir xalqın milli ədəbiyyatının ayrılmaz hissəsi olan şifahi xalq ədəbiyyatının ən əsas xüsusiyyətlərindən biri də onun çoxvariantlılığıdır. Hər hansı bir folklor nümunəsinin, o cümlədən bayatının variantı bəzən o qədər fərqli

olur ki, bu müstəqil bir nümunə təsiri bağışlayır. Məhz bu cəhəti nəzərə alan folklorçular toplama və tərtib zamanı çoxvariantlılığı da yaddan çıxartmır və bu cəhətə xüsusi diqqət yetirirlər. Bayatıların tərtibi zamanı M.H.Təhmasib də bu cəhəti nəzərə almış və imkan daxilində hər bir nümunənin variantını da topluya daxil etməyə və onu göstərməyə çalışmışdır. Misal üçün:

Dağların lalasına
Gözlərin alasına.
Analar qurban olar,
Öz körpə balasına (7, 18) –

nümunəsinin aşağıdakı variantı da topluya daxil edilmişdir:

Dağların lalasına,
Gözlərin alasına.
Bibilər qurban olsun,
Qardaşın balasına. (7, 256).

Və yaxud:

Mən aşiq gülüstana,
Yar gələr gülüstana.
Qorxuram yağış yağa,
Qoynunda gül istana (7, 99) –

variantı:

Əzizim, gül istana,
Şeh düşər gülüstana.
Qorxuram göz yaşımdan,
Qoynunda gül istana (7, 258).

Azərbaycan nağıllarının toplanması, nəşri və tədqiqində M.H.Təhmasibin böyük əməyi olmuşdur. XX əsrin 40-cı illərində Azərbaycan nağılları üç cilddə çap olunur.

1941-ci ildə nəşr olunan I cildin tərtibçisi və ön sözün müəllifi də M.H.Təhmasib olmuşdur.

Cildə aşağıdakı nağıllar daxil edilmişdir: «Siman», «Qaraqaş», «Pişik və padşah», «Taxta qılınc», «Yeddi dağ alması», «Gülnar xanım», «Cantiq», «Gül və Sənavər», «Ağ quş», «Üç

bacının nağılı», «Şahzadə Mütalib», «İlyasın nağılı», «Üç şahzadə», «Hazarandastan bülbülü», «Bikəsin nağılı», «Nardan qızın nağılı», «Kəl Həsənin nağılı», «Ax-vax», «Ceyranın nağılı», «İbrahim», «Qara vəzir», «Əmiraslan», «Şahzadə İbrahim», «Əliyar», «İmam», «Qazının işi», «Keçəllə qazının nağılı», «Məhəmməd», «Keçəlin nağılı».

Kitabın tərtibçisi Azərbaycan xalq nağılları haqqında ümumi təsəvvür əldə etmək üçün topluya hər silsilə nağıldan bir neçə nümunə daxil edildiyini və mümkün qədər hər nağılın dil xüsusiyyətlərinin qorunduğunu diqqətə çatdırmışdır.

Azərbaycan nağıllarının toplanması, nəşri və tədqiqi sahəsində böyük əməyi olan N.Seyidov bu nəşri nağıllarla bağlı əvvəlki nəşrlərdən fərqləndirir:

«Burada, demək olar ki, folklorşünaslıq qaydalarına müəyyən qədər riayət edilmişdir. Xüsusilə ayrı-ayrı nağıllardakı şivə xüsusiyyətlərinin saxlanılmasına mümkün qədər fikir verilmiş, nağılçıların üslubu mühafizə edilmiş, onların adı, yaşı, peşəsi və sairə göstərilmiş, geniş müqəddimə, şərh, lüğət və qeydlər verilmişdir» (13, 63).

M.H.Təhmasibin 1941-ci ildə çap etdirdiyi bu cild əvvəlki nağıl nəşrlərilə müqayisədə irəliyə doğru atılmış uğurlu bir addım idi.

Bu cildə daxil olan nağılların böyük bir hissəsini M.H.Təhmasib özü toplamış, bir neçəsini Nizami adına Ədəbiyyat İnstitutunun "Folklor" şöbəsinin arxivindən götürmüşdür. Bunlardan «Qazının işi» və «Keçəlin nağılı»nı isə B.Hüseynovun topladığı məlum olur (17, 19-20).

Müəllif bu kitaba 28 səhifəlik bir ön söz yazmış, nağıllar barədə ümumi məlumat vermiş, nağılların mənşəyi, mahiyyəti və s. barədə öz mülahizələrini bildirmişdir.

Kitabın öz dövrü üçün yaxşı cəhətlərindən biri də bu idi ki, burada nağılları söyləyənlər – informatorlar haqqında yığcam məlumat verilmişdi (19, 481-482). Eyni zamanda, buradakı na-

ğıllara yığcam qeydlər yazılmış, nağıl mətnlərindəki bəzi söz və ifadələrə, tarixi hadisə və şəxs adlarına, mifoloji varlıqlara izahlar verilmişdir (19, 483-486). Burada diqqəti cəlb edən cəhətlərdən biri də nağılların cilddə nəşr olunmuş «Aarne-Andreyev» sistemi ilə nağıl süjetlərinin göstəricisinə uyğun olaraq aparılmasıdır. Bu tədqiqat üçün çox əhəmiyyətli bir fakt kimi qiymətlidir. Bunun gələcək tərtiblər və araşdırmalar üçün müsbət bir istiqamət olduğunu qeyd etməmək olmaz. Müəllif müqayisə nəticəsində belə qənaətə gəlmişdir ki, «Siman», «Qaraqaş», «Taxta qılınc», «Pişik və padşah», «Yeddi dağ alması», «Cantiq», «Beykəsin nağılı», «Ceyranın nağılı», «Qara vəzir», «Əmiraslanın nağılı», «Məhəmməd», «Keçəlin nağılı»nın «Aarne-Andreyev» göstəricisində qarşılığına təsadüf olunmur (5, 487).

1941 və 1947-ci illərdə iki cilddən ibarət «Azerbaydjanskie skazki» (136, 137) adlı nağıl kitabları da nəşr olunmuşdur. Bu kitablar da öz məzmunu, elmi dəyəri və tərtib prinsipi ilə irəliyə doğru bir addım kimi qiymətləndirilməlidir. Bu tərtiblərdən birinin də müəllifi M.H.Təhmasib olmuşdur.

M.H.Təhmasibin Azərbaycan dastanlarının nəşri sahəsindəki xidməti də diqqəti cəlb edir. O, görkəmli rus şərqşünası V.V.Bartoldun «Kitabi-Dədə Qorqud»un rus dilinə tərcüməsini ilk dəfə H.Araslı ilə birlikdə Bakıda nəşr etdirmişdir. M.H.Təhmasibin qeyd etdiyi kimi abidənin oxunması, başqa dilə tərcüməsi çətin idi. Bu baxımdan V.V.Bartoldun tərcüməsini yüksək qiymətləndirən M.H.Təhmasib burada bəzi yanlışlıqların olmasını təbii sayır.

Belə yanlışlıqları o, elə sözlərə, ifadələrə aid edir ki, bunların bir çoxu o dövrə qədər hələ dürüst oxunmamışdı. Bununla yanaşı, bir çox çətin oxunan sözləri, cümlələri isə V.V.Bartoldun heyrətamiz dərəcədə böyük məharətlə oxuduğunu qeyd edir.

M.H.Təhmasibin nağıl sahəsindəki geniş fəaliyyəti (kitab nəşri) yenə də çoxcildliklə əlaqəli olur. Məlum olduğu kimi, Azərbaycan SSR Elmlər Akademiyası 1960-1964-cü illərdə

Azərbaycan nağıllarının beş cilddən ibarət nəşrini hazırlayır. Həmin nəşr öz dövrünə görə ən böyük bir iş idi. Bu çoxcildliyin nəşrində M.H.Təhmasib, Ə.Axundov, N.Seyidov kimi folklorşünaslar iştirak edirlər.

Azərbaycan nağıllarının beş cildliyinin I cildi 1960-cı ildə nəşr olunur. Cildin tərtibçisi M.H.Təhmasib, redaktoru isə H.Qasımov olur. Tərtibçi bu cildə aşağıdakı nağılları daxil edir: «Qaraqaşın nağılı», «Simanın nağılı», «Taxta qılınc», «Yeddi dağ alması», «Gülnar xanım», «Cantiq», «Gül Sənavərə neylədi, Sənavər gülə neylədi», «Ağ quş», «Üç bacının nağılı», «Şahzadə Mütalib», «İlyasın nağılı», «Üç şahzadə», «Hazarandastan bülbülü», «Nardan qızın nağılı», «Kəl Həsənin nağılı», «Ax-vax», «Ceyranın nağılı», «İbrahim», «Qara vəzir», «Əmiraslanın nağılı», «İmam», «Pişik və padşah», «Keçəllə qazının nağılı», «Məhəmməd».

M.H.Təhmasib beşcildliyin I cildinə «Qeydlər» yazmış və burada cildə daxil edilmiş nağıllardakı «Rəml», «Simurq», «Əjdaha», «Qaf», «Div», «Bir çörəyim ovsanata keçdi», «Uğur», «Küp qarısı», «Bir həsir qalıb, bir Məmməd Nəsir», «Süleyman», «İrəm», «Abi-zəmzəm» və s. kimi mifoloji obrazlara, folklor toponimlərinə, şəxs adlarına, xalq deyim və ifadələrinə izahlar vermişdir (6, 316-321). Cilddə eyni zamanda yığcam bir «Lüğət» də verilmişdir. Burada tərtibçi nağıllarda işlənmiş bir sıra söz və ifadələri izah etmişdir (6, 322-325). M.H.Təhmasib bu cildə «Aarne-Andreyev» sistemi ilə nağıl süjetlərinin göstəricisini də daxil etmişdir (6, 326). Məlum olduğu kimi, tərtibçi belə bir göstəricini üççildliyin I cildində də vermişdi (5, 487).

M.H.Təhmasib beşcildliyin I cildinə informatorlar və toplayıcılar haqqında məlumat da əlavə etmişdir. Burada hər bir nağılın söyləyicisinin haradan olması, peşəsi, savadı, adı, soyadı, nağılın neçənci ildə yazıya alınması haqqında konkret məlumat verilir. Toplanmış nağılların coğrafiyasını ümumiləşdirsək, məlum olur ki, bu nağıllar əsasən Naxçıvan, Bakı, Əli Bayramlı və Ağdamdan toplanmışdır (6, 327).

Müəllifin yazdığı müqəddimə isə demək olar ki, müəyyən mənada sonrakı cildləri də əhatə edir. Burada müəllif şifahi ədəbiyyatımızın ən zəngin və maraqlı janrlarından biri olan nağılların mənşəyi, məzmunu, səciyyəvi xüsusiyyətləri barədə yığcam məlumat verir, nağılların mövzusu üzərində dayanır, ən geniş yayılmış süjetlər, obrazlar barədə yığcam söhbət açır, totemizm və animizmə əsaslanan əsatiri obrazların səciyyəvi xüsusiyyətlərini izah edir. O, nağılların keçdiyi inkişaf mərhələlərinə nəzər salır və belə qənaətə gəlir ki, qədim görüşlərin, etiqadların, adətlərin, hətta qanun və qaydaların öyrənilməsində nağıl özünə görə xüsusi əhəmiyyətə malik olan bir sahədir. Ümumiyyətlə, müəllif burada xalq nağıllarının mövzusu, süjet tərkibi və s. problemlər barədə də yığcam şəkildə məlumat verir.

M.H.Təhmasibin beşcildliyin I cildi üçün gördüyü iş, üçcildliyin I cildi üçün gördüyü işin məntiqi davamı idi. Bu tərtib işinin beşcildliyin sonrakı cildləri üçün müsbət təsir göstərməsi də tamamilə təbii idi.

Azərbaycan folklorunun epik janrları içərisində lətifələr də mühüm yer tutur. Məlum olduğu kimi, lətifə janrı çox qədimdən yaranmış, müəyyən inkişaf mərhələsi keçdikdən sonra cilalanmış və gəlib indiki formasına çatmışdır. Lətifələr süjet-kompozisiyası, təsvir və ifadə vasitələri, mövzu dairəsinə görə digər epik folklor nümunələrindən fərqlənir.

Azərbaycanda lətifələrin toplanması və nəşrinə əsasən XIX əsrdən başlanmışdır. XIX əsrin 80-ci illərindən başlayaraq SMOMPK məcmuəsində, eləcə də müxtəlif qəzet və jurnallarda, o cümlədən «Dəbistan» və «Məktəb» jurnallarında bir sıra lətifələr çap olunmuşdur.

F.e.d. Təhmasib Fərzəliyev xalq lətifələrinin nəşri və tədqiqi ilə bağlı araşdırma nəticəsində belə qənaətə gəlmişdir ki, Azərbaycanda lətifələrin elmi şəkildə toplanması, nəşri və tədqiqinə əsasən XX əsrin 20-ci illərindən sonra başlanmışdır. O, bu sahədə M.H.Təhmasibin xidmətlərini də qeyd edir: «Son

illərdə ayrı-ayrı nəşriyyatlar tərəfindən bir çox lətifə kitabları buraxılmışdır. Biz burada ancaq «Elm» nəşriyyatının buraxdığı kitabların tərtib prinsipləri barədə bir neçə söz demək istəyirik. Bunlar M.H.Təhmasibin elmi ekspedisiyalar zamanı topladığı və arxiv materialları əsasında yenidən işləyərək tərtib etdiyi «Molla Nəsrəddin lətifələri»dir.

Ümumiyyətlə, Hənəfi Zeynallıdan sonra respublikamızda lətifə janrının tərtibi və nəşri ilə əsasən M.H.Təhmasib məşğul olmuşdur ( 9. 16-17).

M.H.Təhmasib lətifələrin toplanması və tərtibinə XX əsrin 30-cu illərinin sonlarından başlamışdır. Sonralar da bu sahədə fəaliyyətini davam etdirmiş, təkmilləşdirmə aparmış, Azərbaycan xalq lətifələrini bir neçə dəfə nəşr etdirmişdir (11, 139; 140).

F.e.d. B.Abdulla da Molla Nəsrəddin lətifələrinin kitab halında nəşrində M.H.Təhmasibin fəaliyyətini xüsusi qeyd edir, konkret olaraq bir çox lətifələrin onun tərtibində işıq üzü gördüyünü nəzərə çatdırır ( 8, 3).

M.H.Təhmasib «Molla Nəsrəddin lətifələri» kitabına geniş və dolğun bir müqəddimə yazmışdır. O, burada lətifələri Azərbaycan şifahi xalq ədəbiyyatının ən çox sevilən janrlarından biri kimi qiymətləndirir, bunların ayrı-ayrı sənətkarlar tərəfindən yaradılıb, ağızlara düşdüyünü, işlənə-işlənə mükəmməlləşdiyini və kollektiv yaradıcılıq məhsuluna çevrildiyini göstərir, lətifə janrının əsas əlamətlərini, digər epik janrlardan fərqli xüsusiyyətlərini aydınlaşdırır (11, 3-16).

M.H.Təhmasib bir çox lətifə qəhrəmanlarının adı ilə bağlı lətifələrlə yanaşı, heç bir adla bağlı olmayan «bir nəfər»in başına gəlmiş hadisə kimi danışılan lətifələrin də olduğunu qeyd edir, ancaq Molla Nəsrəddin və Bəhlul Danəndənin adı ilə bağlı lətifələrin xüsusilə seçildiyini və geniş yayıldığını nəzərə çatdırır. M.H.Təhmasib bu lətifə qəhrəmanlarını da bir-birindən fərqləndirir. Onun qənaətinə görə, Bəhlulun adı ilə bağlı lətifələr bir qədər geniş süjetli olur, daha çox satiraya meyil edir, Molla

Nəsrəddin lətifələri isə yığcamlığı, ilıq yumoru ilə diqqəti daha çox cəlb edir.

M.H.Təhmasib konkret nümunələrilə Bəhlul Danəndənin adı ilə bağlı lətifələrin səciyyəvi xüsusiyyətlərini aydınlaşdırır, lətifə qəhrəmanı Bəhlulu cəsarətli, tədbirli, ağıllı bir obraz kimi canlandırır.

Tədqiqatçı Molla Nəsrəddin lətifələrinin bir çox ölkələrdə yayılmasının təsadüfi olmadığını önə çəkir, Molla Nəsrəddinin tarixi şəxsiyyət olub-olmaması və s. ehtimallar üzərində də dayanır, onun folklor qəhrəmanı olmasını daha inandırıcı sayır.

M.H.Təhmasib Molla Nəsrəddin lətifələrini «Molla və dövlət adamları», «Molla və qazılar», «Molla və din xadimləri», «Molla evdə», «Molla və ticarət adamları», «Dostlar arasında», «Hər şeydən bir az» kimi mövzu baxımından təsnif etmişdir.

Aşıq sənətinin ümumi nəzəri məsələləri ilə ardıcıl məşğul olan görkəmli folklorşünas bir çox qüdrətli aşıqların yaradıcılığına da dönə-dönə müraciət etmiş, bu barədə öz sözünü söyləmişdir. Bunların içərisində qüdrətli sənətkar Aşıq Ələsgər xüsusi yer tutur. 1963-cü ildə Aşıq Ələsgərin şeirləri Ə.Axundov və M.H.Təhmasibin tərtibində çap olunur.

Bu kitaba Aşıq Ələsgərin müxtəlif məzmunlu şeirləri ilə yanaşı Aşıq Ələsgərlə bağlı 7 rəvayət də daxil edilmiş, «Aşıq Ələsgərin həyatı haqqında» adlı məlumat da verilmişdir. Burada Aşıq Ələsgərin doğum tarixi, ailəsi, dövrü, mühiti və s. barədə yığcam bilgi verilir. «Qeydlər» bölməsində müxtəlif nümunələr barədə dəqiqləşdirmələr aparılmış, bu nəşrdən əvvəlki nəşrlərdəki fərqləri izah olunmuş, bir çox hallarda isə deyilənlərə, rəvayətlərə əsaslanılmışdır. Bəzən isə əvvəlki nəşrlərdəki fərqli variantı, misal üçün 18-ci qeyddə göstərildiyi kimi, eynilə verilmişdir. «Qeydlər» bölməsində bir çox nümunələrdə işlənmiş yer adlarının izahı verilmiş, ayrı-ayrı şeirlərin müəyyən şəxslərə aid olması barədə də bir çox məlumatlar əks olunmuşdur. Bəzi

qeydlərdə isə Aşıq Ələsgərin dediyi şeiri kimə, harada, nə vaxt söyləməsi barədə izahlar öz əksini tapmışdır.

Müxtəlif məzmunlu bu qeydlər araşdırma üçün zəngin material verir. Bu baxımdan 108-ci, 124-cü qeydlər və bir çox digərləri xüsusilə seçilir.

Məlum olduğu kimi, Azərbaycan folklorunun toplanmasında böyük əməyi olan Hümmət Əlizadə Ələsgər yaradıcılığının toplanması və nəşrində əvəzsiz xidmət göstərmişdir. O, Aşıq Ələsgərin şeirlərini otuzuncu illərdə üç dəfə ayrı-ayrı kitablar şəklində çap etdirmişdir.

Kitabda «İnstitutdan» başlığı altında verilmiş izahatda Hümmət Əlizadənin Ələsgər şeirinin nəşri sahəsindəki rolu yüksək qiymətləndirilir. Bununla yanaşı, Ədəbiyyat və Dil İnstitutunun “Şifahi ədəbiyyat” şöbəsi 1946-cı ildə Göyçə mahalına və Kəlbəcərə bir ekspedisiya təşkil edir. Bu barədə deyilir: «Ekspedisiya Ələsgəri tanıyanlarla, onun şeirlərini yaxşı bilənlərlə görüşmüş, yenidən topladığı və dəfələrlə yoxlamadan keçirdiyi şeirlər əsasında bu kitabı çapa hazırlamışdır»

1972-ci ildə M.H.Təhmasib Ə.Axundovla birlikdə Aşıq Ələsgərin ikicildliyini «Elm» nəşriyyatında nəşr etdirir. Bu cildlərə daxil edilmiş nümunələr Ələsgərin nəvəsi İslam Ələsgərov tərəfindən toplanıb təqdim edilir.

İkicildliyə M.H.Təhmasib əhatəli və dərin məzmunlu bir müqəddimə yazmışdır ( 1, 5-52).

«Gözəllik nəğməkarı» adlı bu müqəddimədə M.H.Təhmasib Aşıq Ələsgər kimi qüdrətli el sənətkarının yetişməsində Göyçə aşıq mühitinin, mahalın təbii şəraitinin, coğrafi mövqeyinin, çox uzaq keçmişdən bəri burada yaşayan qəbilələrin rolunu aydınlaşdırır.

M.H.Təhmasib Göyçədə aşıq sənətinin dərin kök salıb geniş yayılmasını, hətta məişətə daxil olmasını, mahalın təbii şəraiti, coğrafi mövqeyi və uzaq keçmişlərdən bəri burada yaşayan qəbilələrin, tayfaların ənənələri ilə bağlayır. Bu barədə fikirlərini

genişləndirən müəllif göstərir ki, Göyçədən çox da uzaq olmayan Damcılı ərazisində «Ozan» adlı məskun məntəqənin, Göyçə ilə həmsərhəd olan Kəlbəcərdə Yanşaq adlı kəndin, Gəncədə isə Ozan adlı məhəllənin mövcudiyyəti də bu fikri təsdiq etməkdədir. O, Göyçə mahalının çox uzaq keçmişdən bəri aşıq sənətinin inkişa-fındakı rolunu yüksək qiymətləndirir:

«...Bir sözlə Göyçə çox qədim zamanlardan aşıq sənətinin beşiyi olmuş, bu sənətin inkişafında çox böyük rol oynamış, bir sıra çox görkəmli ustadlar yetişdirmiş, XIX, XX əsrlərdə isə öz aşıq Ələsgəri, onun ustadı, ustadının ustadları, eləcə də şəcərəsi, nəsli və şagirdləri ilə aşıqlıq sənətinin ən yüksək zirvələrinə qalxmışdır» (1, 8).

Müəllif göstərir ki, yazılı ədəbiyyatın dar mənada laboratoriyası əsasən yazıçının yazı otağı, kitabxanası, masası, qələmi və dəftəridirsə, aşığın yaradıcılıq laboratoriyası saz-söz məclisləridir. Göyçə üçün belə məclislərin toy və şənlik yığıncaqları, çeşmə başları olduğunu diqqətə çəkir və belə fikir irəli sürür ki, Ələsgər də bədahətən şeir demək vərdişinə və qabiliyyətinə malik sənətkar olduğu üçün əsərlərinin əksəriyyətini bu üç obyektə qoşub yaratmışdır.

Gözəl və gözəlliyin Ələsgər şeirinin əsasını təşkil etdiyini söyləyən müəllif bunun real olduğunu da konkret nümunələrlə əsaslandırır, peyzajların böyük sənətkar yaradıcılığında mühüm yer tutduğunu diqqətə çəkir:

«Müxtəlif cəhətlərdən, müxtəlif səpkidə tərsim edilən bu mənzərələr bəzən onun fəxrlə adını çəkdiyi Ağkilsə kəndindən ibarət olaraq qalır, bəzən genişlənərək Göyçə mahalını əhatə edir, bəzən böyüyüb bütün dünya, hətta kainat qədər genişlənir, zamanın dar çərçivəsinə sığa bilməyən şairin «mürği-ruhi» asimanlar dolaşmağa başlayır» (1, 10).

M.H.Təhmasib Ələsgərin dərin biliyə, məlumata malik bir şəxsiyyət olduğunu, şeirlərində toxunduğu məsələlərin, hətta qədim əsatiri, dini ehkamların, tarixi hadisə və şəxsiyyətlərin

hamısı haqqında, nə demişsə yerli-yataqlı dediyini, yaşadığı mühitin səviyyəsinə görə gözəl məlumata malik olduğunu aşığın yaradıcılıq nümunələri əsasında təhlilə cəlb edir.

Aşığın «Gərəkdi» rədifli qoşmasını onun poetika nizamnaməsi adlandıran tədqiqatçı göstərir ki, Ələsgər danışmağın da, gülməyin də məcazi olmasını sənətkar üçün şərt bilir. Bunun Ələsgər üslubunun əsas cəhətlərindən biri olduğunu önə çəkir:

«Ələsgər geniş mənada məcazın bütün formalarından, çeşidlərindən, hətta çalarlarından məharətlə istifadə edən sənətkarlardandır. Onun tərsim etdiyi ən gözəl lövhələrinin, yaxud zahiri camal gözəlliklərinin belə heç biri fotoşəkil olaraq qalmır. Onun bütün təsvirlərində bədii icad əsas rol oynayır ki, bu da Ələsgər şeiri üçün xarakter məziyyətidir. Cəsarətlə demək olar ki, Ələsgərdə bədii icad olmayan şeir yoxdur. Bu, onda çoxlarına müyəssər olmayan bir qabiliyyət, bir qüdrətdir. Bu qabiliyyətin, bu qüdrətin sayəsində o güllər, çiçəklər, dağlar, dərələr, heyvanlar, quşlar, hətta böcəklər aləmi ilə bağlı elə müqayisələr yaradır, elə lövhələr cızır ki, insan heyran qalır. Buna saysız-hesabsız nümunələr göstərmək olar.

Ələsgər sızıldar, bala yetişər. «Görəndə» rədifli təcnisin son bəndinin bu ilk misrasında nə qədər gözəl bir mənzərə yaradılmışdır. Misra aşığın sazının və səsinin musiqisi ilə birləşərək dinləyicilərin qulaqlarına süzüldükcə göz önündə güllərə, çiçəklərə quylanmış bir arı pətəyi canlanır. Yorulmuş, həm də acımış arı özünü bu pətəyə çatdırır, sızıldaya-sızıldaya bala yetişir» (1, 40-41).

M.H.Təhmasib Ələsgərin sözün geniş mənasında bənzətmələr ustası olduğunu, onda bənzətmənin rəngarəng növlərinə, hətta poetika kitablarına düşməmiş çeşidlərinə rast gəldiyini, bunların hamısında daxili bir əlaqə, sarsılmaz bir məntiq olduğu Ələsgərin yeni məcazlar, yeni ifadələr, yeni aforizmlər yaratmaq məharəti ilə də həm sələflərindən, həm də xələflərindən seçildiyini nəzərə çatdırır.

«Ələsgər şeirinin bədiyyatı elə bir aləmdir ki, bu zəngin xəzinədə, doğrudan da, elə incilər də vardır ki, ümumiyyətlə, əhatə etmək çətindir, bir məqalədə isə mümkün deyildir» (1, 49).

Ələsgər şeirlərini sənət inciləri kimi qiymətləndirən M.H.Təhmasib bu böyük sənətkarın pak, təmiz, ülvi bir mənəviyyata malik olduğunu da xüsusilə nəzərə çatdırmağa çalışır.

«Gözəllik nəğməkarı» adlı müqəddiməsində təkcə qüdrətli sənətkar – Aşıq Ələsgərin yaradıcılığından danışmaqla kifayətlənilmir, ümumiyyətlə, dərinmənalı, genişəhatəli xalq yaradıcılığı xəzinəsinin bir qolunu təşkil edən aşıq yaradıcılığı, aşıq sənəti, bu ulu sənətin xüsusiyyətləri, aşıqlar, el şairləri barədə də çox maraqlı, dəyərli mülahizələr söylənilir.

Aşıq Ələsgərin 1972-ci ildə nəşr olunan ikicildliyi öz mükəmməlliyi və əhatəliliyi ilə digər nəşrlərdən seçilir. Eyni zamanda bu nəşrdə Əlizadə nəşrlərinin, 1963-cü il nəşrinin, eləcə də digər nəşrlərin uğurlu cəhətlərindən, müsbət təcrübəsindən istifadə edilmişdir. Bunların da nəticəsində sanballı bir nəşr ortaya gəlmişdir.

1970-ci ildə Ə.Axundovun tərtibində nəşr olunmuş «Aşığın sözü» adlı kitaba da ön sözü M.H.Təhmasib yazmışdır (15, 3-26).

Bu topluya Aşıq Hüseyn Bozalqanlı, Aşıq Şəmşir, Aşıq Hüseyn Cavan, Aşıq Pənah, Aşıq Şakir və b. kimi sovet dövründə yaşayıb-yaratmış aşıqların şeirləri daxil edilmişdir.

M.H.Təhmasibin Azərbaycan dastanlarının toplanması, tərtibi və nəşri sahəsində də böyük əməyi olmuşdur. Bu, «Azərbaycan dastanları»nın beş cilddə nəşr olunmasında (1965-1972) özünü göstərir. Bu cildlərin hər birinin nəşrində M.H.Təhmasib tərtibçi, yaxud redaktor kimi fəal iştirak etmişdir.

1965-ci ildə beşcildliyin birinci cildi nəşr olunur. Bu cildin tərtibçiləri Ə.Axundov və M.H.Təhmasib, redaktoru isə H.Araslı olmuşdur. M.H.Təhmasib birinci cilddə «Bir neçə söz» adlı 52 səhifəlik dolğun və ətraflı bir müqəddimə yazır (2, V-VI). Bu

müqəddimədə dastanlar, onların səciyyəvi janr xüsusiyyətləri barədə məlumat verilir, dastanlar təsnif edilir, onların hər birinin özünəməxsus xüsusiyyətləri, obrazları, süjet-mövzu tərkibi barədə də söhbət açılır. Onu da göstərmək lazımdır ki, M.H.Təhmasibin birinci cilddə verilmiş bu müqəddiməsi beşcildliyə daxil edilmiş digər dastanları da əhatə edir. Bu müqəddimə müəllifin uzun illər ərzində dastanşünaslıq sahəsində qazandığı təcrübə və nəzəri mülahizələri dolğun şəkildə əks etdirir.

Beşcildliyin birinci cildinə Qurbani, Qurbani (dastanın Diri versiyası), «Tahir və Zöhrə», «Novruz», «Alı xan», «Lətif şah», «Şahzadə Əbülfəz» kimi məşhur məhəbbət dastanları daxil edilmişdir. Bu cildə geniş bir «Qeydlər» də yazılmışdır (12, 289-375). Burada cilddə verilmiş hər bir dastan haqqında, onun söyləyicisi, müxtəlif variantları, dastanların kimlərdən, nə vaxt toplanması haqqında məlumat verilir. «Qeydlər»də eyni zamanda ayrı-ayrı dastanlarda işlənmiş bir çox misra və beytlərin izahı verilir, müxtəlif əfsanə və rəvayətlərlə bağlı nümunələrə şərhlər verilir, əfsanəvi, tarixi və mifoloji adlar və şəxslərlə bağlı mətnlərə aydınlıq gətirilir. «Qeydlər»də eyni zamanda bu cilddə nəşr olunmuş hər bir dastanın şeirlərinin müxtəlif vaxtlarda, ayrı-ayrı yerlərdən və dastançılardan toplanmış variant fərqlərinə dair müxtəlif məlumatlar da əks olunmuşdur. Bu cilddə verilmiş «Lüğətçə»də isə çətin anlaşılan bir sıra sözlərin mənası aydınlaşdırılır (2, 376-380).

1966-cı ildə çapdan çıxan beşcildliyin ikinci cildini də M.H.Təhmasib Axundovla birlikdə tərtib edir (13). M.H.Təhmasib bu cildin həm də redaktoru olur. Bu cildə «Əsli və Kərəm», «Abbas və Gülgəz», «Seydi və Pəri», «Abdulla və Cahan», «Məsim və Diləfruz», «Leyli və Məcnun», «Səyyad və Səadət», «Məhəmməd və Güləndam», «Abbas», «Müğüm şah» dastanları daxil edilmişdir. Göründüyü kimi, həm birinci cildə, həm ikinci cildə, eləcə də sonrakı üçüncü cildə ən çox sevilən,

yayılan aşıqların repertuarında mühüm yer tutan məhəbbət dastanları daxil edilmişdir.

İkinci cildə də «Qeydlər» yazılmışdır (3, 411-475).

Bu qeydlərdə cildə salınmış hər bir dastan indiyə qədər çap olunmuş və ya olunmamış variantları ilə müqayisə edilmişdir. Onu da göstərmək lazımdır ki, «Əsli və Kərəm», «Abbas və Gülgəz» kimi dastanlara geniş, ətraflı qeydlər yazılsa da, bu prinsip bəzi dastanlara yazılmış qeydlərdə özünü göstərmir. Doğrudur, bu onunla bağlıdır ki, belə dastanlar nisbətən az toplanıb, variantları məlum olmayıb. Misal üçün «Müğüm şah» dastanının 1959-cu ildə Şamxor rayonunun Zəyəm kəndində Aşıq Orucdan toplandığı, hələlik başqa variantının əldə olmadığı qeyd olunur. Ancaq bunu bəzi dastanlar haqqında söyləmək olmur. Belə ki, tərtibçilərin özlərinin qeyd etdiyi kimi «Səyyad və Səadət» ən çox yayılmış və çoxvariantlı bir dastan olsa da, tərtibçilər bu dastanın 1960-cı ildə Tovuz rayonunun Aşağı Quşçu kəndində Aşıq Abıldan toplandığını, 1937-ci ildə «Dastanlar və nağıllar» kitabında bir variantının getdiyinin qeyd edilməsilə kifayətlənirlər. İkinci tərəfdən informatorlar – söyləyicilər barədə məlumatlar verilsə də, burada toplayıcılar barədə dəqiq məlumatlar özünə yer tapmayıb. Daha doğrusu, bu cildə daxil edilmiş dastanların kimdən, nə vaxt toplanması barədə dəqiq məlumat verilməyib. Bu isə şübhəsiz ki, gələcək nəşrlər və tədqiqatlar üçün müəyyən problemlər yaradır.

1969-cu ildə «Azərbaycan dastanları»nın dördüncü cildi çap olunur. Dördüncü cildin tərtibçisi M.H.Təhmasib idi. Kitabın redaktoru H.Araslı olur. O biri cildlərdən fərqli olaraq bu cildə bir dastan – qəhrəmanlıq dastanı «Koroğlu» daxil edilmişdir.

M.H.Təhmasib cildə yığcam bir müqəddimə yazmış, sonra isə bu dastanın əsas variantları və müstəqil qoşmaları haqqında izah və qeydlər yazmış, lüğət tərtib etmişdir.

Müqəddimədə (16, 5-18) «Koroğlu» dastanının tarixi hadisələrlə səsləşən əsər olması, yaranma tarixi, variant və versiyaları, nəşrləri barədə yığcam məlumat verilir. 1941-ci ildə Hümmət Əlizadənin nəşr etdirdiyi variantı yüksək qiymətləndirən müəllif 1949-cu ildə nəşr olunmuş variantı da ən mükəmməl variantlardan biri kimi təqdim edir. Məlum olduğu kimi, beşcildliyin dördüncü cildi həmin nəşrin mükəmməlləşdirilmiş üçüncü nəşri idi.

Kitabın «Dastanın əsas variantları» bölməsində hər bir qolun arxiv nömrəsi göstərilmiş, hansı aşıqdan neçənci ildə yazıya alındığı, kim tərəfindən toplandığı, nə vaxt nəşr olunduğu, hansı qolda nəşr olunmuş və ya olunmamış variantdan istifadə olunduğu, bu nəşrə salındığı əks olunmuşdur.

Misal üçün, 19 «Toqat-Əli». «Koroğlunun Toqat səfəri» Nizami adına Ədəbiyyat və Dil İnstitutunun folklor arxivi, inv. № 532. 1937-ci ildə Hümmət Əlizadə tərəfindən Qazaxda Aşıq Əlidən toplanmışdır. «Koroğlu» kitabında çap edilmişdir.

20 «Bağdad - Bozalqanlı» / «Koroğlunun Bağdad səfəri». Nizami adına Ədəbiyyat və Dil İnstitutunun folklor arxivi, inv. № 522. 1937-ci ildə Tovuzda Aşıq Hüseyn Bozalqanlıdan toplanmışdır. İlk dəfə bu əsərin birinci nəşrində istifadə edilmişdir (4, 395) və s.

M.H.Təhmasib «İzahlar» bölməsində hər qolun tərtibində əsas variantları göstərmiş, müxtəlif variantlarda ayrı-ayrı epizod və motivlərdə, obrazlarda olan fərqləri də qeyd etməklə yanaşı, müxtəlif nəşrlərdə olan qoşma fərqlərini də vermişdir.

Misal üçün, «Koroğlunun İstanbul səfəri» barədə belə bir izah verilir: «Bu qolun tərtibində «Koroğlu-Hümmət», «Nigar-M.Soltan» və «Qaf-Peni» variantları əsas götürülmüşdür.

Qol əsasən Bəlli Əhmədin Çənlibelə gəlməsi, Koroğlunun İstanbul səfəri, Nigarla görüşü, xotkar oğlu Bürcü Sultanla vuruşu və Nigarın Çənlibelə gətirilməsindən ibarətdir. Buna görə də qola aşıqlar «Nigarın Çənlibelə gətirilməyi» də deyirlər» (4, 401).

Həmin qolda Nigar xanımın dilindən Koroğluya göndərilmiş qoşma verilir. Bu qoşma belədir:

«Başına döndüyüm, ay qoç Koroğlu,
Əgər igidsənsə, gəl apar məni!
Həsrətindən yoxdu səbrim, qərarım,
İncidir sərasər ahu zar məni.

Çənlibel üstündə əsrəmiş nərsən,
Düşmən qabağında dayanan ərsən.
Tamam dəlilərə igid, sərkərsən,
Axtarsan, taparsan düzilqar məni.

Mən xotkar qızıyam, Nigardır adım,
Şahlara, xanlara məhəl qoymadım.
Bir sənsən dünyada mənim muradım,
İstərəm özünə eylə yar məni» (4, 46-47).

«İzahlar» bölməsində bu barədə müəllif yazır:

«Dərbənd-Vəli» variantında bu qoşmanı Möminə xanım Koroğluya göndərir. Buna görə də qoşmanın son bəndi, doğrudan da, Möminə xanıma aiddir:

Dəmir qapı Dərbənd əcəb tamaşa,
Batıb gözləri ala, qumaşa.
Adım Möminədi, atam Ərəb paşa,
İstərəm özünə elə yar məni (4, 401-402).

«Koroğlunun Ərzurum səfəri» qoluna isə belə izah verilmişdir:

«Bu qolun tərtibində «Dəmirçioğlu-Əsəd», «Dəmirçioğlu-Hüseyn» və «Dəmirçioğlu-İbrahim» variantları əsas götürülmüşdür. Bu sayılanlardan başqa, həmin qolun daha beş variantı vardır.

Ümumiyyətlə, bu qolun variantları öz quruluşlarına görə, bir-birindən çox fərqlənir. Aşıqların bəzisi «Dəmirçioğlunun Çənlibelə gəlməyi» qolunu da bununla birləşdirib bir qol kimi deyir, bəziləri isə «Aşıq Cünunun Çənlibelə gətirilməyi» əh-

valatını da qoldan ayıraraq, hər üçünü müstəqil şəkildə söyləyirlər (4, 404-405).

M.H.Təhmasib «Müstəqil qoşmalar» bölməsində «Nəğmələr kitabı»ndan, Əndəlib Qaracadaği «Şeirlər məcmuəsi»ndən, 1935-ci ildə nəşr olunmuş «El şairləri» II cild toplusundan və s. götürülmüş nümunələri vermişdir.

Kitabın sonunda 5 səhifəlik yığcam «Lüğət» də verilmişdir (4, 503-507).

M.H.Təhmasibin tərtib etdiyi «Koroğlu» dastanı 17 qoldan ibarətdir: «Alı kişi», «Koroğlu ilə Dəli Həsən», «Koroğlunun İstanbul səfəri», «Dəmirçioğlunun Çənlibelə gəlməyi», «Koroğlunun Ərzurum səfəri», «Eyvazın Çənlibelə gətirilməyi», «Durna teli», «Həmzənin Qıratı aparmağı», «Məhbub xanımın Çənlibelə gəlməyi», «Koroğlunun Bəyazid səfəri», «Qulun qaçmağı», «Düratın itməyi», «Koroğlu ilə Bolu bəy», «Koroğlunun Qars səfəri», «Koroğlunun Dərbənd səfəri», «Hasan paşanın Çənlibelə gəlməyi», «Koroğlunun qocalığı».

Göstərməliyik ki, müəllif bu dastanı ilk dəfə beşcildliyin nəşrinə qədər 1949-cu ildə, sonra isə 1956-cı ildə təkmilləşdirilmiş şəkildə tərtib edib nəşr etdirmişdir. «Koroğlu» dastanının Azərbaycan dilində ilk dəfə geniş şəkildə nəşri isə 1941-ci ildə Hümmət Əlizadə tərəfindən yerinə yetirilmişdir

Hümmət Əlizadə nəşrini yüksək qiymətləndirən M.H.Təhmasib bu barədə belə fikirdə olmuşdur:

«İnqilabdan sonra «Koroğlu» Azərbaycanda bir neçə dəfə çap olunmuşdur ki, bunların içərisində ən çox diqqəti cəlb edən, ümumiyyətlə, folklorumuzun, xüsusən də aşıq yaradıcılığının və dastanlarımızın toplanması və nəşri sahəsində ən çox iş görmüş mərhum Hümmət Əlizadənin 1941-ci ildə nəşr etdirdiyi variantdır» (16, 18).

Bu tərtib işinə dastanın ayrı-ayrı qollarına aid olan əlliyə yaxın müstəqil qoşma da əlavə olunmuşdur.

«Koroğlu»nun M.H.Təhmasib variantı Hümmət Əlizadə nəşrindən və əvvəlki nəşrlərdən fərqlənir. Bu nəşrdə «Koroğlu»-nun 17 qolu verilir. Burada Hümmət Əlizadə nəşrində olmayan «Koroğlu ilə Dəli Həsən», «Qulun qaçması», «Koroğlunun Qars səfəri», «Həsən paşanın Çənlibelə gəlməsi» qolları da var. Qeyd edildiyi kimi, M.H.Təhmasib tərtib etdiyi «Koroğlu» dastanının nəşrinə müqəddimə yazmış, kitabın sonunda izah və qeydlər, lüğət vermişdir. Bu cəhətdən, M.H.Təhmasib nəşri irəliyə doğru atılmış uğurlu bir nəşr olsa da, burada bəzi mübahisəli məsələlərə də yol verilmişdir. Belə ki, tərtibçi eyni bir qolun bir hissəsini bir söyləyicidən, digər qismini isə digər söyləyicidən istifadə edərək tərtib etmişdir. Bu isə bəzi folklorşünasların da göstərdiyi kimi folklorşünaslıq prinsiplərinə cavab vermir.

Bütün bunlara baxmayaraq, M.H.Təhmasibin «Koroğlu» nəşrini yüksək qiymətləndirən f.e.d. M.Qasımlı bu barədə belə qənaətə gəlir: «Bədxahların dünən və ya bu gün də nə söyləməsindən, hansı səviyyədə irad tutmasından asılı olma-yaraq, «Koroğlu» eposunun nəşri təcrübəsinin ən mükəmməl örnəyi M.H.Təhmasibin hazırladığı mətn olaraq qalır».

M.H.Təhmasib ömrünün son vaxtlarına kimi tədqiqatla bərabər toplama, tərtib və nəşr işlərini davam etdirmişdir. Onun Təhmasib Fərzəliyev, İsrafil Abbaslı və Nurəddin Seyidovla birlikdə tərtib etdiyi «Azərbaycan məhəbbət dastanları» belə işlərdən biridir. Buraya on iki məhəbbət dastanı («Tahir-Zöhrə», «Əsli-Kərəm», «Aşıq Qərib», «Qurbani», «Abbas-Gülgəz», «Qul Mahmud», «Leyli-Məcnun», «Valeh-Zərniyar», «Alıxan-Pəri», «Məhəmməd-Güləndam», «Xan Çoban», «Soltan-Qəndab») daxil edilmişdir. Bu kitaba «İlk söz»ü M.H.Təhmasib yazmışdır (14, 3-22).

Dastan yaradıcılığını aşıq sənətinin əsas sahələrindən biri kimi qiymətləndirən M.H.Təhmasib dastanın yaranması, yayılması, yaşamasında aşığın böyük xidmətini qeyd edir, bu janrın əsas xüsusiyyətləri barədə yığcam məlumat verir, dastanların təsnifatını aparır. Burada müəllif məhəbbət dastanlarının süjeti,

məzmunu üzərində dayanır, həmçinin məhəbbət dastanları üçün səciyyəvi olan «buta» barədə ümumi məlumat verir. Müəllif bu kitaba daxil edilən «Tahir-Zöhrə», «Alıxan-Pəri», «Qurbani», «Abbas-Gülgəz», «Əsli-Kərəm» kimi məhəbbət dastanları üzərində mülahizələrini söyləyir, bunları dastan yaradıcılığının ən gözəl nümunələri kimi qiymətləndirir.

Bu kitab ümumilikdə tərtib prinsipi ilə seçilir. Onu da qeyd edək ki, M.H.Təhmasib kimi görkəmli bir folklorşünasın iştirak etdiyi bu kitabın «Qeydlər və dastanların tərtibinə dair» bölməsini İsrafil Abbasov yazmışdır. Burada kitaba daxil edilmiş hər bir dastanın nəşrləri, variantları, onların kimdən, nə vaxt, kim tərəfindən toplanması barədə məlumat verilir, bu kitabdakı mətnin mənbəyi göstərilir. Deməli, söyləyicilər və toplayıcılar barədə məlumat baxımından qeydlər dəqiq və mükəmməldir. Bu isə folklor nümunələrinin tərtibi və nəşri zamanı vacib sayılan ən əsas prinsiplərdən biridir. Burada eyni zamanda Vəli Xuluflu, Hümmət Əlizadə, Ə.Tahirov kimi folklorçuların Azərbaycan dastanlarının toplanması, tərtibi və nəşri sahəsində xidmətləri dəyərləndirilir. Müəllif dastanların toplanması, tərtibi və nəşri zamanı xalq danışıq dilinin, başlıcası isə ifaçının tələffüz tərzinin əsaslı şəkildə qorunmasını da başlıca prinsiplərdən biri sayır, bu cəhətə «Xan Çoban», «Qul Mahmud» kimi dastanlarda daha çox əməl olunduğunu qeyd edir.

Ümumilikdə, M.H.Təhmasibin iştirakı və rəhbərliyi ilə tərtib və nəşr olunan bu kitab məhəbbət dastanlarının öz dövrü üçün ən mükəmməl nəşrlərindən biri kimi qiymətlidir.

## QAYNAQLAR


1. Aşıq Ələsgər. I kitab / Toplayanı İ.Ələsgərov, tərtib edənlər Ə.Axundov, M.H.Təhmasib. Bakı: Elm, 1972, 326 s.
2. Azərbaycan dastanları 5 cilddə. I cild. Tərtib edənlər Ə.Axundov, M.H.Təhmasib. Bakı: Azərb. SSR EA Nəşriyyatı, 1965, 383 s.

3. Azərbaycan dastanları 5 cilddə. II cild. Tərtib edənlər Ə.Axundov, M.H.Təhmasib. Bakı: Azərb. SSR EA Nəşriyyatı, 1966, 478 s.
4. Azərbaycan dastanları 5 cilddə. IV cild. Tərtib edənlər Ə.Axundov, M.H.Təhmasib. Bakı: Azərb. SSR EA Nəşriyyatı, 1967, 340 s.
5. Azərbaycan nağılları. 3 cilddə. I cild /Tərtib edən M.H.Təhmasib. Bakı: SSRİ EA Az. Fil. Nəşriyyatı, 1941, 490 s.
6. Azərbaycan nağılları. 5 cilddə. I cild /Tərtib edəni M.H.Təhmasib. Bakı: Azərb. SSR EA Nəşriyyatı, 1960, 328 s.
7. Bayatılar / Tərtib edəni M.H.Təhmasib. Bakı: SSRİ EA Az. Fil. Nəşriyyatı,1943, 268 s.
8. Dava yorğan davasıymış. Molla Nəsrəddin lətifələri /Tərtib edəni və çapa hazırlayanı B.Abdulla. Bakı: Yazıçı, 1996, 272 s.
9. Fərzəliyev T. Azərbaycan xalq lətifələri. Bakı: Elm, 1971, 123 s.
10. Mehdi H. Müqəddimə / Bayatılar. Bakı: SSR EA Az. Fil.Nəşriyyatı,1943, 268 s.
11. Molla Nəsrəddin lətifələri /Tərtib edəni M.H.Təhmasib. Bakı: Azərb. SSR EA Nəşriyyatı, 1965, 336 s.
12. Nizami əsərlərinin el variantları / Tərtib edənlər: H.Əlizadə, M.H.Təhmasib. Bakı: Azərnəşr, 1941, 271 s.
13. Seyidov N. Azərbaycan nağılları haqqında /Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. I kitab. Bakı: Azərb. SSRİ EA nəşriyyatı,1961, s.52-117
14. Təhmasib M.H. İlk söz / Azərbaycan məhəbbət dastanları. Bakı: Elm, 1979, s. 3-22
15. Təhmasib M.H. Müqəddimə / Aşığın sözü. Bakı: Elm, 1970, s. 3-26
16. Təhmasib M.H. Müqəddimə / Azərbaycan dastanları 5 cilddə, IV cild. Bakı: Azərb. SSR EA Nəşriyyatı, 1969, s. 5-18
17. Umudov Q. Folklorşünaslığımızın tarixindən. Bakı: Təbib, 1995, 139 s.

# M.H.TƏHMASİBİN TƏRTİBÇİLİK FƏALİYYƏTİ

**Xuraman KƏRİMOVA**
*AMEA Folklor İnstitutu*
*kerimova.xuraman@rambler.ru*

**Özət**

Məmmədhüseyn Təhmasib Azərbaycan folklorşünaslığında çoxşaxəli fəaliyyəti ilə nüfuz qazanmış alimlərimizdəndir. O, toplayıcılıq və tərtibçilik işi ilə məşğul olmuş, eyni zamanda folklor nəzəriyyəçisi kimi böyük işlər görmüşdür. Keçən əsrin 30-cu illərindən toplayıcılıq fəaliyyətinə başlayan M.Təhmasibin Azərbaycan bayatılarının, nağıllarının, lətifələrinin, dastanlarının, aşıq şeirlərinin və s. folklor nümunələrinin toplanması sahəsindəki fəaliyyəti mükəmməl şəkildə tərtib olunmuş folklor kitablarının meydana çıxması ilə nəticələnmişdir. Kitab tərtibi zamanı tətbiq etdiyi elmi prinsiplər, yazdığı şərhlər onun folklorşünas səriştəsindən xəbər verir. Həmin kitablarda verilmiş tərtibçi qeydləri zəngin elmi araşdırmalar olmaqla yanaşı, fikrin aydınlaşmasında oxucuya istiqamət verir. M.Təhmasibin tərtib etdiyi folklor mətnlərində bir çox hallarda xalq danışıq üslubunun, söyləyici nitqinin yazılı ədəbi dilə uyğunlaşdırılmasını müşahidə edirik. Bu cür yanaşmaqla o, Azərbaycan folklorunu milli-mənəvi dəyərləri boğan sovet rejiminin qurbanı olmaqdan qoruya bilmişdir. Nəşr etdirdiyi kitabdan-kitaba onun folklorşünas səviyyəsinin yüksələn xətlə inkişaf etdiyi aşkar görünür.

Məqalədə M.Təhmasibin toplayıcılıq və tərtibçilik fəaliyyəti araşdırılır, onun folklor materiallarını toplama və tərtibetmə üsulları tədqiq olunur.

**Açar sözlər:** M.Təhmasib, folklor, toplama, tərtib, folklorşünas, nağıl, dastan

# СОСТАВИТЕЛЬСКАЯ ДЕЯТЕЛЬНОСТЬ М.Г.ТАХМАСИБА

**Резюме**

Маммедгусейн Тахмасиб один из заслуженных учёных, деятельность которого выделяется своей многогранностью в Азербайджанской фольклористике. Он был занят собирательством и работой составителя, а также им было проделано много работ как фольклорным теоретиком. Начиная с 30-х гг. прошлого века собирательская деятельность М.Тахмасиба Азербайджанских баяты, сказок, анекдотов, дастанов, ашугских стихов и т.д., его деятельность в сфере собирания фольклорных образцов великолепно изданных и как следствие выход на арену его фольклорных книг. Научные принципы, применяемые во время составления книги, его примечания говорят о том, что он компетентный фольклорист. В этих книгах наряду с тем, что указанные примечания составителя, которые богаты научными исследованиями, дают направление в прояснении мысли у читателя. Мы наблюдаем у М.Тахмасиба то, что при оформлении фольклорных текстов во многих случаях происходит адаптация народного разговорного стиля, речи сказителя на письменный литературный язык. Такой подход спас Азербайджанский фольклор от советского режима, при котором уничтожались национально-духовные ценности. Очевидно то, что изданные им книги с каждым разом движется по восходящей линии развития фольклористики.

В данной статье исследуются собирательская и составительская деятельность М.Тахмасиба, а также способы собирания и оформления фольклорных материалов.

**Ключевые слова:** М.Тахмасиб, фольклор, собирательство, составление, фольклорист, сказка, дастан

## M.H.TAHMASIB'S DESIGN ACTIVITY

**Summary**

Mammadhuseyn Tahmasib is one of the most famous scientists of Azerbaijan folklore with own multifaceted activity. He engaged in collecting and designing and has done great things as a folklore theorist, too. M.Tahmasib, which started the collecting activity from the 30s of the last century, collecting tales, bayaties, jokes, ashug poems and other folklore samples, has published excellent books. During book compilation his scientific principles and comments tell us about his folklore expertise. Notes written in the book are rich scientific research and information directing the readers. We are observing adaptation cases nation speaking style and speech to literary language in compiled texts by him. Scientist, with this activity, protected the Azerbaijani folklore from being a victim of the Soviet regime. His foklor activity has evolved in his books, gradually.

The article examines collecting and designing activity of M.Tahmasib and design methods are being studied.

**Key words:** M.H.Tahmasib, folklore, collection, design, folklorist, tale, saga

Məmmədhüseyn Təhmasib Azərbaycan folklorşünaslığında çoxşaxəli fəaliyyəti ilə nüfuz qazanmış alimlərimizdəndir. O, toplayıcılıq və tərtibçilik işi ilə məşğul olmuş, eyni zamanda folklor nəzəriyyəçisi kimi də böyük işlər görmüşdür. Keçən əsrin 30-cu illərindən toplayıcılıq fəaliyyətinə başlayan M.Təhmasibin Azərbaycan bayatılarının, nağıllarının, lətifələrinin, dastanlarının, aşıq şeirlərinin və s. folklor nümunələrinin toplanması sahəsindəki fəaliyyəti mükəmməl şəkildə tərtib olunmuş folklor kitablarının meydana çıxması ilə nəticələnmişdir. Kitab tərtibi zamanı tətbiq etdiyi elmi prinsiplər, yazdığı şərhlər onun folklorşünas səriştəsindən xəbər verir. Həmin kitablarda verilmiş

tərtibçi qeydləri zəngin elmi araşdırmalar olmaqla yanaşı, həm də oxucuya mövzu ilə bağlı əlavə məlumat verir.

M.Təhmasib məhsuldar bir alim ömrü yaşamışdır. Onun toplayıcılıq və tərtibçilik işində qazandığı təcrübə 1945-ci ildə "Xalq ədəbiyyatımızda mərasim mövsüm nəğmələri" mövzusunda namizədlik, 1965-ci ildə isə "Azərbaycan xalq dastanları (orta əsrlər)" mövzusunda doktorluq dissertasiyasını müdafiə etməsində böyük rol oynamışdır. O həmçinin folklorşünaslığın müxtəlif sahələrinə aid xeyli sayda elmi məqalələrin müəllifidir.

Azərbaycan nağıllarının toplanması, nəşri və tədqiqində M.H.Təhmasibin böyük əməyi olmuşdur. XX əsrin 40-cı illərində Azərbaycan nağılları 3 cilddə çap olunur. 1941-ci ildə nəşr olunan I cilddə 18 nağılın toplayıcısı, kitabın tərtibçisi və ön sözün müəllifi M.H.Təhmasib olmuşdur (2). N.Seyidov nəşrin tərtibi haqqında yazır: "Burada folklorşünaslıq qaydalarına demək olar ki, müəyyən qədər riayət edilmişdir. Xüsusilə ayrı-ayrı nağıllardakı şivə xüsusiyyətlərinin saxlanılmasına mümkün qədər fikir verilmiş, nağılçıların üslubu mühafizə edilmiş, onların adı, yaşı, peşəsi və sairə göstərilmiş, geniş müqəddimə, şərh, lüğət və qeydlər verilmişdir" (9, 63).

M.Təhmasib topladığı və tərtib etdiyi bütün materiallara tədqiqatçı kimi yanaşmış, hər janr haqqında əhatəli elmi fikirlər söyləmişdir. Onun tərtib etdiyi kitablara yazdığı müqəddimələri folklorşünas alim P.Əfəndiyev belə dəyərləndirir: "Bu müqəddimələr oxucuları, mütəxəssisləri geniş və rəngarəng nağıllarımızın mürəkkəb və çoxcəhətli məzmun və forma xüsusiyyətləri ilə tanış edən ilk məlumat və yol göstəricisidir" (4, 368).

1960-1964-cü illərdə Azərbaycan nağıllarının beşcildliyi nəşr olunur. M.Təhmasib I cildin redaktoru olmuş, beşcildlik üçün müqəddimə yazmışdır. Tərtib etdiyi nağıl kitablarına yazdığı müqəddiməyə folklorşünas alimlər M.Cəfərli və R.Babayev belə rəy vermişlər: "...M.Təhmasib keçmiş sovet ittifaqında folklorşünaslıq elmindəki bütün proseslərdən xəbərdar idi, o

cümlədən folklorun toplanması və tərtibi sahəsində öz dövrünün bütün prinsiplərini mənimsəmişdi. Bunu kitabda nağılların tərtib prinsiplərindən də aydın görmək olur. Belə ki, M.Təhmasib kitabdakı bütün nağılların hər birinin "Aarne-Andreyev" beynəlxalq nağıl kataloqunda hansı süjet göstəricisinə uyğun gəldiyini də qeyd etmişdir. Bu, öz dövrü üçün böyük yenilik idi" (7, 10).

Onun Azərbaycan bayatılarının toplanması və nəşri sahəsində gördüyü böyük işlər təqdirəlayiqdir. 267 səhifədən ibarət olan "Bayatılar" kitabı müqəddimə, laylalar, mahnılar, əsl bayatılar, ağılar, variantlar və qeydlərdən ibarətdir. Kitabda söyləyicilər haqqında məlumat verilməmişdir. H.Mehdi "Bayatılar"a yazdığı müqəddimədə qeyd edir: "...Xüsusən bayatının xalqımız tərəfindən sevildiyi nəzərdə tutularsa, müxtəlif variantları müqayisə etmək, tutuşdurmaq və daha gözəl tekst əldə etmək üçün hər növ imkan vardır. Dürüst elmi nəticə çıxarmaq istəyən hər bir folklorçu üçün bu birinci növbədə lazımdır" (3, 5-17).

Azərbaycan eposşünaslığında M.Təhmasibin xüsusi yeri var. O, 1956-cı ildə "Koroğlu" dastanını nəşr etdirir. 1965-1969-cu illərdə nəşr olunmuş beş cilddən ibarət Azərbaycan dastanlarının ərsəyə gəlməsində M.Təhmasibin böyük xidməti olmuşdur. O, I və II cildləri Ə.Axundovla birgə nəşrə hazırlamışdır. IV cildin – "Koroğlu" dastanının tərtibi isə bütünlüklə M.Təhmasibə məxsusdur. Ümumiyyətlə, o, bu dastanı bir neçə dəfə nəşr etdirmişdir. Milli-mənəvi dəyərlərimizi əks etdirən qəhrəmanlıq dastanı "Koroğlu" sovet dövrü ideologiyasının təzyiqlərinə məruz qalsa da, tərtibçi müxtəlif manevrlərlə onu bu rejimin caynaqlarından xilas edə bilmişdir. Düşünürük ki, həmin manevrlərdən biri dastanın qollarının adlarında etdiyi dəyişikliklərdir. Dastanın əksər qollarının adı türklər yaşayan əraziləri göstərir. Türk dünyasının böyüklüyündən, əzəmətindən soraq verən bu adlar oxucuya və ya dinləyiciyə təsəvvüründə dastanın xəritəsini canlandırmağa imkan verir. Folklor mətnlərinin uzunömürlü olub-olmaması birbaşa yaddaşla bağlıdır. Baş verən əhvalatların tə-

xəyyüldə məkan üzrə canlandırılması yaddaqalmaya xidmət edən təfəkkür fəaliyyətidir. Dastanda adı çəkilən türklər yaşayan ərazilər: İstanbul, Çənlibel, Ərzurum, Bəyazid, Qars, Dərbənd, Toqat, Bağdad dastanda baş verən hadisələrin trayektoriyasını göstərir. Təbii ki, türk dünyasının böyüklüyünü qəbul etmək istəməyən sovet rejimi dastanın nəşri üçün əngəllər törədəcəkdi. Çox güman ki, M.Təhmasibin qolların adında etdiyi dəyişikliklər də həmin dövrün repressiyalarından yayınmaq məqsədilə olmuşdur. O, bir çox qolları digər nəşrlərdən fərqli olaraq, süjetinə uyğun adlandırmışdır ki, bəzi toplama variantlarında söyləyicilər də qolların adını bu cür ifa etmişlər.

M.Təhmasibin "Azərbaycan dastanları"nın IV cildində "Koroğlu" dastanının sonunda verdiyi "Dastanın əsas variantları", "İzahlar", "Müstəqil nəğmələr" və "Lüğət" bölmələri bədii əsərlə yanaşı, oxucuya dastanın mətni, variantları, ümumişlək olmayan sözlər və s. haqqında əlavə məlumat verir (1, 348-458).

"Koroğlu" dastanının tərtibi haqqında P.Əfəndiyevin söylədiyi fikirlər diqqət çəkir: "M.Təhmasib eposun istər XIX əsrdə və istərsə də Sovet dövründə Azərbaycan aşıqlarının dilindən toplanan və nəşr edilmiş və edilməmiş hissələrini nəzərdən keçirmiş, diqqətlə işləmişdir. Dastanın birinci qolu olan "Alı kişi"nin müxtəlif dövrlərdə müxtəlif aşıqlardan toplanmış 10-15 variantı, məsələn, "Koroğlu-Əsəd", "Koroğlu-Bozalqanlı", "Koroğlu-Əli", "Qaf-Penn"və s. vardır. Əsas hadisə və epizodlar saxlanılmaq şərtilə bütün bu variantlar yoxlanılmış, öyrənilmiş, müəyyən süjet ətrafında tərtib edilərək mükəmməl bir qol düzəldilmişdir. Fikrimizcə, ideya, üslub, kompozisiya cəhətlərini saxlamaqla müəllifin götürdüyü bu yol doğrudur" (4, 338).

Tərtibçinin müxtəlif variantlardan mükəmməl bir qol düzəltməsini folklorşünas P.Əfəndiyev doğru yol kimi qiymətləndirir. Lakin digər bir tədqiqatçının bu cür yanaşma haqqında rəyi fərqlidir. M.Təhmasibin folklorşünaslıq fəaliyyətinin tədqiqatçısı X.Əliyeva yazır: "Koroğlu"nun M.Təhmasib variantı Hümmət

Əlizadə nəşrindən və əvvəlki nəşrlərdən fərqlənir. Bu nəşrdə "Koroğlu"nun 17 qolu verilir. Burada Hümmət Əlizadə nəşrində olmayan "Koroğlu ilə Dəli Həsən", "Qulun qaçması", "Koroğlunun Qars səfəri", "Hasan paşanın Çənlibelə gəlməsi" qolları da var. Qeyd edildiyi kimi, M.Təhmasib tərtib etdiyi "Koroğlu" dastanının nəşrinə müqəddimə yazmış, kitabın sonunda izah və qeydlər, lüğət vermişdir. Bu cəhətdən M.Təhmasib nəşri irəliyə doğru atılmış uğurlu bir nəşr olsa da, burada bəzi mübahisəli məsələlərə də yol verilmişdir. Belə ki, tərtibçi eyni bir qolun bir hissəsini bir söyləyicidən, digər qismini isə digər söyləyicidən istifadə edərək tərtib etmişdir. Bu isə bəzi folklorşünasların da göstərdiyi kimi, folklorşünaslıq prinsipinə ziddir" (5, 30-31).

Dastanın bir informatordan qeydə alınmasını folklorşünaslığın əsas prinsiplərdən olduğunu söyləyən folklorşünas alim M.İmanov qeyd edir ki, mətnin təbii şəkildə, informatorun söylədiyi biçimdə təqdim edilib-edilməməsi dastanların tərtibində qarşıya çıxan ciddi problemlərdəndir. O, nümunələrin dil və üslub, o cümlədən dialekt-şivə xüsusiyyətlərinin qorunub saxlanılmasının, məlum dastanların eyni aşıqdan yazıya alınmasının və bununla söyləyici probleminin araşdırılmasına səmərəli zəmin yaradılmasının xüsusi əhəmiyyət daşıdığını söyləyir (6, 71).

M. Təhmasibin "Koroğlu" dastanının tərtibində gördüyü dəyərli işlərdən biri onun "Dastanın əsas variantları" bölməsində apardığı araşdırmalardır. Bu bölmədə "Koroğlu – Bozalqanlı", "Koroğlu – Əsəd", "Qaf – Penn", "Koroğlu – Əli", "Koroğlu – Məhəmməd", "Koroğlu – Qənbər" və s. variantları haqqında məlumat və onlardan nümunələr verilmişdir.

"İzahlar" bölməsi də xüsusi maraq doğurur. Burada müxtəlif əlyazmalarından "Koroğlu" dastanı ilə bağlı nümunələr verilmişdir. Elyas Muşeqin 1721-ci ildə erməni əlifbası ilə yazılmış "Nəğmələr kitabı"ndan, Əndəlib Qaracadağinin XIX əsrin əvvəllərində Sankt-Peterburqda saxlanılan "Şeirlər məcmuəsi"ndən, 1799-cu ildə erməni əlifbası ilə yazılmış digər əlyazma-

sından, əsli Gürcüstan Dövlət Muzeyində saxlanılan gürcü əlifbası ilə yazılmış əlyazmasından götürülmüş variantları verməklə M.Təhmasib dastanın mötəbərliyini, möhtəşəmliyini sübutlarla xalqa çatdırmışdır. "Müstəqil nəğmələr" bölməsində də xalq qəhrəmanı Koroğlu ilə bağlı şeir nümunələri verilmişdir. Bütün bu əlavə məlumatlar dastanın söyləndiyi və toplandığı zaman və məkan haqqında geniş məlumat verir.

Azərbaycanda lətifə janrına aid nümunələr əsasən keçən əsrin əvvələrindən toplanılmağa başlanmışdır. M.Təhmasib lətifə janrının ən məhsuldar toplayıcılarından olmuşdur. O, topladığı bu materialları bir neçə dəfə – 1958 və 1962-ci illərdə rus, 1965 və 1978-ci illərdə isə Azərbaycan dillərində nəşr etdirmişdir. İstər rus dilində tərtib etdiyi "Molla Nəsrəddin", istərsə də Azərbaycan dilində "Molla Nəsrəddin lətifələri" kitabına yazdığı müqəddimədə bu janrın yaranma tarixi, xüsusiyyətləri, Azərbacan folklorundakı mövqeyi, nümunələrin kimlər tərəfindən yaranması, xalq arasında geniş yayılması haqqında fikirlər söyləmişdir. M.Təhmasib Azərbaycan lətifələrinin toplanması və nəşri tarixindən danışmış və həmin nəşrləri də yüksək qiymətləndirmişdir. Tədqiqatçı müxtəlif xalqlarda Molla Nəsrəddin, Xoca Nəsrəddin, Xacə Nəsrəddin və sadəcə Nəsrəddin adı ilə bağlı lətifələrin olduğunu diqqətə çatdırır. Azərbaycan lətifələrindən danışarkən o, Molla Nəsrəddin lətifələri ilə yanaşı, Bəhlul lətifələri, onların yaranması, mövzu və ideyası, mətnin məzmununa uyğun olaraq qəhrəmanın gah Bəhlul Danəndə, gah da Bəhlul Divanə adlandırıldığını diqqətə çatdırır və bu obrazları xarakterizə edir.

M.Təhmasib hələ XIX əsrdə Azərbaycanın müxtəlif regionlarından olan, xalq arasında çox da məşhur olmayan lətifə qəhrəmanları haqqında məlumat vermişdir. Məsələn: Salyanda Mirzə Bağı, Gəncədə Lağlağı Musa, Gəncəbasarda Əli Cabbar, Naxçıvanda Hüseyn Molla Tanrıverdi oğlu və başqaları. Azərbaycanın bəzi məkanlarında bu gün də bu lətifə qəhrəmanlarının

adları ilə bağlı əhvalatlar söylənilir. Bu araşdırmaları sübut edir ki, M.Təhmasib Azərbaycanın əksər regionlarını qarış-qarış gəzmiş, burada yaşayan insanlarla sıx ünsiyyətdə olmuş, onların söylədiyi xalq incilərini çox diqqətlə toplamışdır.

Azərbaycan lətifələrinin geniş yayılmasına və işlənmə çevikliyinə xidmət edən xalq ənənəsi haqqında M.Təhmasib yazır: "Xalqda maraqlı ənənə var: kim Mollanın adını çəksə, mütləq onun haqqında yeddi əhvalat danışmalıdır. Buna cavab olaraq hər bir dinləyici də yeddi əhvalat danışır. Qədimdən mövcud olan bu ənənə müasir dövrdə də yaşamaqdadır. Xalq tərəfindən yaradılmış, öz sevimli qəhrəmanına ölməzlik qazandıran ənənə köhnə lətifələri unudulmaqdan qorumağa kömək edir və xalq təxəyyülünün zənginliklərindən istifadə edərək eldə gəzib-dolaşan süjetlər əsasında yeni variantların yaranmasına şərait yaradır" (10, 17).

O, Molla Nəsrəddin lətifələrini "Molla və dövlət adamları", "Molla və qazılar", "Molla və din xadimləri", "Molla varlılar və ticarət adamları arasında", "Molla evdə", "Molla və elm", "Molla dostlar arasında", "Molla filosofluq edir", "Molla öyrədir", "Hər şeydən bir az" başlıqları altında qruplaşdırmışdır (8). Mövzular üzrə bu cür qruplaşdırma oxucuya istədiyi mövzuda lətifəni asanlıqla tapmağa kömək edir.

M.Təhmasibin tərtib etdiyi folklor mətnlərində bir çox hallarda xalq danışıq üslubunun, söyləyici nitqinin yazılı ədəbi dilə uyğunlaşdırılmasını müşahidə edirik. Tərtibçinin bu yanaşması folklorun tərtib və nəşri qaydalarına uyğun olmasa da, danmaq olmaz ki, həmin mətnlərin dili çox aydın və rəvandır. Əksər hallarda mətnlərdə söyləmə prosesinə aid dil və üslub xüsusiyyətləri ədəbi dil səviyyəsində verilmişdir. "Koroğlu" dastanından verilmiş nümunənin dil xüsusiyyətlərinə diqqət edək:

*Aşıq Cünün bu qalmaqla düz on beş gün burada qaldı. Yedi, içdi, çaldı, çağırdı, dəlilərlə gün keçirdi. On beş günün tamamında Koroğludan izn istədi ki:*

- *Qoç Koroğlu, on beş gün sənə başağrısı verdim, indi rüsxət ver, gedim.*

*Koroğlu dedi:*

- *Aşıq Cünun, sən gəl getmə! Qal burada bizim aşığımız ol!*

*Aşıq Cünun dedi:*

- *Koroğlu, mən sənin haqqında çox sözlər eşitmişdim. Sənə pis deyən də vardı, yaxşı deyən də vardı. Amma mən gördüklərimi gördüm. Burada, sənin yanında qalmaq oraya getməkdən çox yaxşıdır* (1, 55).

Göründüyü kimi, dialoqlarda, söz sırasında, fikrin ifadəsi üçün seçilən dil vahidlərində, tələffüzündə və üslubunda şifahi nitq əlamətləri müşahidə olunmur.

Məhsuldar toplayıcılıq, tərtibçilik fəaliyyəti, nəşrə hazırladığı kitablarda tətbiq etdiyi elmi prinsiplər, yazdığı şərhlər M.Təhmasibin Azərbaycan folklorşünaslığında digər fəaliyyətləri ilə yanaşı, tərtibçi kimi də xüsusi yeri olduğunu göstərir. Həmin kitablarda verilmiş tərtibçi qeydləri zəngin elmi araşdırmalar olamaqla yanaşı, həm də fikrin aydınlaşmasında oxucuya düzgün istiqamət verir. Nəşr etdirdiyi kitabdan-kitaba onun folklorşünas səviyyəsinin yüksələn xətlə inkişaf etdiyi aşkar görünür. M.Təhmasibin hazırladığı kitablar vəfatından sonra da təkrar-təkrar nəşr olunmuş, oxucuların ixtiyarına verilmişdir. Bu bir daha sübut edir ki, M.Təhmasib yaradıcılığına həmişə ehtiyac duyulur və o, bu gün də öz xalqının xidmətindədir.

## QAYNAQLAR


1. Azərbaycan dastanları. Beş cilddə, IV c. / Tərtib edən: Təhmasib M. Bakı: Lider, 2005, 464 s.
2. Azərbaycan nağılları. Üç cilddə, I c. / Tərtib edən: Təhmasib M. Bakı: Az. SSR EA Nəşr., 1962, 283 s.

3. Bayatılar / Tərtib edən: Təhmasib M. Bakı: SSRİ EA Az. Fil. Nəşr., 1943, 268 s.
4. Əfəndiyev P. Azərbaycan folklorşünaslığının tarixi. Bakı: ADPU, 1994, 475 s.
5. Əliyeva X. Məmmədhüseyn Təhmasibin folklorşünaslıq fəaliyyəti. Bakı: Nurlan, 2009, 156 s.
6. Kazımoğlu-İmanov M. Folklor həm keçmiş, həm də bu gündür. Bakı: Elm və təhsil, 2014, 194 s.
7. Məmmədhüseyn Təhmasib. Seçilmiş əsərləri, I c. Bakı: Mütərcim, 2010, 488 s.
8. Molla Nəsrəddin lətifələri. / Tərtib edən: Təhmasib M. Bakı: Az. SSR EA Nəşriyyatı, 1965, 336 s.
9. Seyidov N. Azərbaycan nağılları haqqında // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, I kitab. Bakı: Az. SSR EA Nəşriyyatı, 1961.
10. Молла Насреддин. / Составитель Тахмасиб М. Баку, Язычы, 1984, 327 с.

# M.H.TƏHMASİB VƏ FOLKLOR MƏTNLƏRİ

**İSLAM SADIQ**
*Filologiya elmləri doktoru*
*AMEA Folklor İnstitutu*
*islamsadiq1953@yahoo.com*

**Özət**

Azərbaycan folklorunun toplanması, nəşri və öyrənilməsi sahəsində böyük işlər görmüş Məmmədhüseyn Təhmasib eyni zamanda folklor nəzəriyyələrinin yaxşı bilicisi olmuşdur. Ona görə də folklor mətnləri ilə işləyərkən nəzəri prinsiplərə və xalqımızın folklor söyləmək sahəsindəki ənənələrinə söykənmişdir.

Azərbaycan dastanlarını beş cilddə M.H.Təhmasib nəşrə hazırlamışdır. Alim bu beşcildliyi hazırlayarkan "Koroğlu" eposunun o dövrə qədər müxtəlif aşıqlardan toplanmış çoxsaylı mətnlərini saf-çürük etmiş, dastanın ən mükəmməl və bitkin variantını ərsəyə gətirmişdir.

Bu məqalədə "Koroğlu" dastanını nəşrə hazırlayarkən M.H.Təhmasibin nəzəri prinsiplərə və aşıqlarımızın dastan söyləmək sahəsindəki ənənələrinə necə əməl etdiyi araşdırılmışdır.

**Açar sözlər:** M.H.Təhmasib, folklor, mətn, "Koroğlu", dastan, nəzəri prinsiplər, ənənə

## М.Г.ТАХМАСИБ И ФОЛЬКЛОРНЫЕ ТЕКСТЫ

**Резюме**

М.Г.Тахмасиб провел большие работы в области собрание, издание и исследование Азербайджанского фольклора одновременно был хорошим знотоком фольклорных теорий. Поэтому он при работе с фольклорными текстами основывался к теоретическим принципам и фольклорным сказочным традициям нашего народа.

Азербайджанские дастаны в 5-ти томах М.Г.Тахмасиб подготовил к изданию. При подготовке названного 5-ти томника он, внимательно ознокомился многочисленными текстами эпоса «Кероглы», собранных к тому периоду от разных ашугов, составил полного и изумительного варианта эпоса.

В данной статье исследовал то, что М,Г.Тахмасиб в каком уровне был склонен теоретическим принципам и традициям ашугов в сказании эпоса.

**Ключевые слова:** М.Г.Тахмасиб, фольклор, текст, «Кероглы», дастан, теоретические принципы, традиции

## M.H.TAHMASIB AND FOLKLORE TEXTS

**Summary**

M.H.Tahmasib was done great works in the area of Azerbaijan folklore collecting, publication and learning, at the same time was s good connoisseur of folk-lore principles. Therefore working with the folk-lore texts was learned theoretical principles and the tradition telling folk-lore of peoples.

M.H.Tahmasib was published Azerbaijan eposes in 5 volume. Scientist preparing this 5 volumes was choosed a lot of texts collecting from different ashugs since at that time, was reared perfect and complete version of epos.

In this article was investigated how to followed M.H.Tahmasib to the theoretical principles preparing publication of "Koroghlu" epos and the tradition of rpos telling ashugs.

**Key words:** M.H.Tahmasib, folklore, text, "Koroglu", epos, theoretical prinpicles, tradition

İstanbuldan gətirilib 1913-cü ildə Orucov qardaşlarının mətbəəsində çap olunmuş kitabı nəzərə almasaq, "Koroğlu" dastanının Azərbaycanda ilk dəfə toplanıb yazıya alınması və nəşri Vəli Xuluflunun adı ilə bağlıdır. V.Xuluflu 1927-ci ildə Aşıq

Hüseyn Bozalqanlıdan yazıya aldığı "Bağdad səfəri" və "Toqat səfəri" qollarını, bir neçə qolun qısa məzmununu, tovuzlu Aşıq Hüseyn Bozalqanlının tərcümeyi-halını və şeirlərini, 1929-cu ildə tovuzlu Aşıq Əsəddən "Dərbənd səfəri" və "Dəli Koroğlu və Bolu bəy" qollarını yazıya alıb dörd mükəmməl qolu "Azərnəşr"də ikinci dəfə kitab halında nəşr etdirmişdir. V.Xuluflu 1936-ci ildə dastanın daha mükəmməl bir variantını nəşrə hazırlamışdır. Erməni folklorçusu Kananyan bundan xəbər tutmuş, 1937-ci ildə V.Xuluflu həbs olunanda evindəki əlyazmalarla birlikdə "Koroğlu" dastanı da İrəvana aparılmış və 1940-1941-ci illərdə İrəvanda "Koroğlu" dastanının erməni variantı" adıyla nəşr olunmuşdur (daha ətraflı bax: 1).

V.Xuluf ludan sonra "Koroğlu" dastanını A.Rəcəbli, Ə.Tahirov və H.Əlizadə toplayıb nəşr etdirmişlər. H.Əlizadənin topladığı 14 qoldan ibarət dastan 1940-cı ildə rus, 1941-ci ildə Azərbaycan dilində işıq üzü görmüşdür (Bax: 2).

1937-ci il repressiyalarından sonra folklorçularımızın sırası xeyli seyrəldi. H.Əlizadə də həbs olundu və xoşbəxtlikdən azadlığa buraxıldı. Ona görə də H.Əlizadədən sonra "Koroğlu"nun toplanmasının, nəşr və öyrənilməsinin ağırlığı M.H.Təhmasibin çiyinlərinə düşdü.

M.H.Təhmasib "Koroğlu" dastanının araşdırılmasına 1941-ci ildən başlamışdı. O, 1941-ci ildə "Dədə Qorqud" və "Koroğlu" dastanlarından seçdiyi ən gözəl qəhrəmanlıq nəğmələrini "Azərnəşr"də kitab halında nəşr etdirmişdir. 1943-cü ildə yenə Təhmasibin tərtibində yalnız "Koroğlu" dastanından seçilmiş qəhrəmanlıq nəğmələri ayrıca kitabça kimi işıq üzü görmüşdür. Hər iki kitab Azərbaycandan müharibəyə yola salınan əsgərlərin döyüş ruhunu yüksəltmək məqsədilə pulsuz onlara paylanmışdır. Elə o vaxtdan M.H.Təhmasib "Koroğlu" dastanına bütün varlığıyla bağlanmış, müharibədən sonrakı dövrdə eposun bütün gözəlliyini, möhtəşəmliyini, poetik tutumunu əks etdirən mükəmməl bir nəşrini hazırlamağa başlamışdır. Bu məqsədlə o

zamana qədər toplanmış “Koroğlu”ya aid yüz əlliyə yaxın əlyazmanı saf-çürük etmişdir. Bu əlyazmaların arasında çap olunmuş variantlarla yanaşı, təcrübəli folklor toplayıcılarının tanınmış ustad aşıqlardan yazıya aldıqları mətnlər, ayrı-ayrı adamların yaxşı və ya pis söyləyicilərdən topladıqları materiallar, həmçinin M.H.Təhmasibin özünün yazıya aldığı örnəklər də varıydı.

M.H.Təhmasib “Koroğlu” dastanını tərtib edərkən həm yaxşı nəzəriyyəçi, həm də təcrübəli folklorçuydu. Folklor mətnləri ilə işləməyin nəzəri prinsiplərini və epos poetikasını da yaxşı bilirdi. Çoxlu nağıllar, lətifələr, bayatılar toplamış, folklor kitabları tərtib etmiş, onlara ön söz yazmışdır. Bir folklorçu kimi zəngin təcrübə toplamışdır. Bütün bunlar onun işini xeyli asanlaşdırmışdı. Alim əvvəlcə qol adlandırmaq və nəşr etmək mümkün olmayan zəif mətnləri seçib bir kənara qoymuşdur. Sözsüz ki, çıxdaş olunmuş bu mətnlər sayca çoxluq təşkil edirdi. Müstəqillik dövrünə qədər həmin əlyazmaların hamısı AMEA Nizami adına Ədəbiyyat İnstitutunun “Koroğlu” arxivində saxlanırdı. M.H.Təhmasib bu əlyazmaları bir neçə dəfə ələdikdən sonra qol adlandırılmağa layiq bildiyi mətnlərin üzərində dayandı. Bundan sonra aşıqların ifasında “Koroğlu” dastanının ayrı-ayrı qollarına dönə-dönə qulaq asdı. Aşıqların dastan danışmaq ənənəsi ilə yaxından tanış oldu. Mətnlərin aşıqların şifahi ifalarıyla tutuşdurulması dastanın düzgün tərtibinə şərait yaratdı. M.H.Təhmasib bütün nəzəri prinsipləri gözləməklə, aşıq ifaçılığı ənənəsindən gələn özünəməxsusluqları da gözdən qaçırmadı. Dastanın hər qolunu məclisdə əksər hallarda bir yox, iki, bəzən də üç aşığın danışdığını görən M.H.Təhmasib dastanın tərtibində bu ənənədən düzgün istifadənin yolunu tapdı.

Məclisdə ustad aşıq dastanı danışmağa başlayırdı, sonra ikinci aşıq onun razılığıyla söhbəti davam etdirirdi və ustad da nəfəsini dərirdi. Dastanı birnəfəsə danışmaq olmazdı. Bu yüzillərlə davam edib gələn bir ənənəydi. Dastanı həmişə bu qaydada söyləyən aşıq onu təkbaşına oxuyanda müəyyən yerləri unudur-

du. Məsələn, H.Əlizadə nəşrindəki "Alı kişi" qolunda Misri qılıncın necə qayırıldığı unudulmuşdur. Bu o demək deyil ki, dastanda həmin səhnə yoxdur, axı onu bütün aşıqlar danışırlar. Deməli, qolun özündə bu səhnə var. Hansı mətndə bu səhnə yoxdursa, tərəddüd etmədən demək olar ki, onu ya qolu danışan aşıq unutmuşdur, ya da yazıya alan çatdıra bilməyib buraxmışdır. Bu ona bənzəyir ki, kimsə bir bayatının üç mirasını söyləyir, dördüncü misrasını yaddan çıxarır. Bayatını bu şəkildə nəşr etmək yolverilməz olduğu kimi, qollardakı buraxılmış müəyyən səhnələri də mütləq bərpa etmək lazımdır və bu, Azərbaycanda aşıqların dastan danışmaq ənənəsinə tam uyğundur.

Unutmaq olmaz ki, M.H.Təhmasibin əlindəki mətnlər yazıya alındığı vaxtlarda indiki texniki imkanlar yoxuydu. Toplayıcı söyləyicinin danışdıqlarını yalnız qələmlə yazırdı. Bu da böyük çətinliklər törədirdi. Bir yandan toplayıcı söyləyicinin ağzından çıxanları yazıb çatdıra bilmirdi, onunla ayaqlaşmırdı. Digər yandan aşığa "burada dayan, bir az gözlə, mən çatdıra bilmirəm" demək olmazdı. Onda aşıq danışığını itirər, fikri dağılar, çaşar, nəyisə unudardı. Dastan danışan aşığı tez-tez dayandırmağın nə demək olduğunu təcrübəli toplayıcılar yaxşı bilirdilər. Onların bircə yolu qalırdı ki, aşıq danışdıqca nə qədər bacarırlarsa, yazsınlar. Mətnlərdəki çatışmazlıqların çoxu bununla bağlıdır. Ona görə də "Koroğlu" kimi möhtəşəm bir eposu nəşrə hazırlayarkən əldə olan mətnlərlə yetərlənmək olmazdı. Onları mütləq digər mətnlərlə və aşıqların şifahi ifalarıyla tutuşdurmaq, buraxılmış səhnələri müəyyənləşdirmək və bərpa etmək lazımıydı. Təkcə əldə olan mətnləri seçib onlardan bir dastan tərtib olunsaydı, əksər qollar tamlığını itirər, dastanın bugünkü bitkin variantı alınmazdı. M.H.Təhmasib də doğru olaraq bu yolu tutmuşdur. O, əlində olan əlyazmaları digər əlyazmalarla və aşıqların ifaları ilə dönə-dönə tutuşdurmuş, unudulmuş səhnələri onların əsasında bərpa etmişdir ki, bunu dastanın işlənməsi kimi başa düşmək, yaxud yozmaq kökündən yanlışdır.

M.H.Təhmasibin tərtibində 1949-cu ildə "Koroğlu" dastanının son dərəcə mükəmməl, bizim bu gün bənzərsiz adlandırdığımız nəşri işıq üzü gördü. Dastanla bağlı arxivdəki əlyazmalarla tanış olmayanlarda, ona aşıqların ifasında məclislərdə qulaq asmayanlarda və gözü götürməyənlərdə belə bir fikir yarandı ki, əsəri M.H.Təhmasib yazıb. Bu fikri söyləmək üçün onların əllərində üç əsas varıydı:

1. Dastanın dili çox saf, gözəl və axıcıydı. Ədəbi dillə yaxından səsləşirdi.
2. Dastan poetik baxımdan ağılasığmaz dərəcədə mükəmməl olduğundan onu xalqın yaratdığına inanmırdılar.
3. Dastanın sonundakı "İzahlar"da M.H.Təhmasib hər bir qolu ən azı dörd-beş variant əsasında işləyib hazırladığını yazmışdır.

"Koroğlu" M.H.Təhmasibin romanıdır", "Onu M.H.Təhmasib yazıb" deyə təbliğat aparanların həm özləri, həm də yazıları ilə yaxından tanış olduğuma görə, onların nəylə nəfəs aldıqlarını yaxşı bilirəm. Onların qərəzi göz qabağındadır, onu danmaq və gizlətmək mümkün deyil. Bu qərəzli fikirlərin müəllifləri iki cəbhədən gəlirdilər. Onlardan bir qisminin qərəzi şəxsi münasibətlərdən qaynaqlanırdı və birbaşa M.H.Təhmasibə yönəlmişdi. Onların qınaq obyekti əslində birbaşa M.H.Təhmasibiydi, ancaq dolayısıyla onun xidmətlərinin üstünə kölgə salmağa çalışırdılar. Bu məqsədlə də "Koroğlu" dastanını hədəf seçmişdilər. Onlar M.H.Təhmasibdən "intiqam"larını bu yolla alırdılar. İkincilərin hədəfi isə birbaşa Azərbaycan xalqının tarixi, kimliyi, mədəniyyəti, milli-mənəvi dəyərləriydi. "Dədə Qorqud" və "Koroğlu" dastanları onların hədəfləri arasında daha önəmli yer tuturdu. "Koroğlu" dastanı hər iki tərəfin hədəfi olduğuna görə, onların maraqları burada üst-üstə düşürdü. Tərəflər söz sözün söykəyidi deyib bir-birinin gücündən daha çox bəhrələnməyə çalışırdılar. Onların arasında bircə fərq varıydı: birincilər şəxsi, ikincilər milli qərəzlə köklənmişdilər. Ona görə belə deyə bilərik ki, birincilər özləri də bilmədən ikincilərin dəyirmanına su tökürdülər.

Birincilərin məqsədləri aydındı, bəs görəsən ikincilərin məqsədləri nəyiydi? Bu çox maraqlı sualdır və onun cavablandırılması bu gün olduqca vacibdir.

Bir xalqı məhv etmək üçün onun mənəvi yaddaşını zədələmək bəs eləyir. Mənəvi yaddaşın mayasını qəhrəmanlıq ruhu təşkil edir və bu ruhu yaşadan qəhrəmanlıq dastanlarıdır. Düşmənlərimiz də bunu yaxşı bilirdilər. "Dədə Qorqud" və "Koroğlu"ya hücumlar bununla bağlı olmuşdur. Bu fikrin inandırıcılığı üçün "Azərbaycan" dərgisində çap olunmuş "Urus Koroğlusu" yazısını mütləq oxumaq lazımdır: "Sözü söz üstünə gətirib deməliyik ki, siz Allah, "bizə Koroğlular lazımdır" deyə, hayqırmayaq, onun "əlini bığına çəkməyi" də özünə qalsın. İnsanların, insanlığın məhvinə səbəb olacaq "həramilik" təki xəstəliyə düçar olmuş rusun bizə sırıdığı partizan koroğlular, mən nə bilim, neobolşevik Kürdoğlular kimi haramzadələr bu gün bizə əsla lazım deyil" (Daha ətraflı bax:3). "Qısaca desək, keçmişin insanları qaçaq-quldura cəsurluq, dəliqanlılıq timsalı tək (məsələn, "Kitabi-Dədə Qorqud", "Koroğlu" və digər dastanlarda) baxmışlar", "Ruhi cəhətdən sağlam cəmiyyətdə bu cür "milli qəhrəmanlara" heç bir ehtiyac yoxdur" cümlələri "Urus Koroğlusu" yazısından götürülüb. "Dədə Qorqud"a və "Koroğlu"ya hücum edənlər onillərlə məqsədlərini gizli saxlasalar da, bu yazıda hər şey açıq-aydındır.

İkincilərin başında bir müddət Azərbaycandan kənarda keçmiş SSRİ EA "Elm" nəşriyyatında Şərq redaksiyasının baş redaktoru işləyən Anastasiya Petrosyan dururdu. O "SSRİ xalqlarının eposu" seriyasından "Dədə Qorqud", "Koroğlu" və "Azərbaycan məhəbbət dastanları" kitablarının heç birini nəşr olunmağa qoymadı (Bax: 4). Bu işdə həm birincilər, həm də ikincilər açıq və gizli şəkildə A.Petrosyana yaxşı kömək elədilər. Bundan M.H.Təhmasibə yox, Azərbaycan mədəniyyətinə ağır zərbə dəydi.

Ürək ağrısıyla demək lazımdır ki, "Koroğlu" dastanına qərəzli münasibət bu gün də davam etməkdədir. Ona görə də yuxa-

rıda göstərilən səbəblərin hər birinə ayrılıqda aydınlıq gətirmək lazımdır:

1. Dastanın dili doğrudan da o qədər saf, təmiz və bulaq suyu kimi durudu ki, hətta Gəncə-Qazax bölgəsinin aşıqlarından toplansa da, ləhcə elementləri az qala yox dərəcəsindədir. Bəs bu hardan gəlir? Dastanın dili Tovuz və Gədəbəy rayonlarının ərazisinə düşən Xınna dərəsində yaşayan camaatın danışığının eynidir. Bu dərə boyunca salınmış kəndlərdəki camaatın danışığı Tovuz və Gədəbəy rayonlarının hər ikisinin ləhcəsindən seçilir. Hətta cəsarətlə demək olar ki, ədəbi dilimizin kökündə bu ləhcə durur. Dastanın dili ilə həmin ləhcə arasındakı yeganə fərq bəzi sözlərin tələffüzündə gözə çarpır. Bu da o qədər ciddi fərq deyil, çünki həmin sözləri həm də ədəbi dildə olduğu kimi tələffüz edirlər. Məsələn, deyil sözü həmin ağızlarda döy, döyül və deyil şəkillərində deyilir. Dastanda da bu sözün həm ədəbi dildəki (deyil), həm də tələffüzdəki (döyül) şəkillərinə rast gəlinir. Məsələn, "Koroğlu heç sən deyən boyda namərd, nanəcib döyül" (5, 278-279), "Zarafatın vaxtı döyül" (5, 292), "Doğrudu, onun toya getməməyinə heç kim günahkar döyüldü" (5, 297) kimi cümlələrdə deyil sözü aşığın dilindən çıxdığı kimi saxlanmışdır. Bunu axşamnan, onnan (5, 288), yanınnan sözlərinin yazılışında da görürük. Məsələn: "Qoçu Mehdi Mahmud paşanın yanınnan qayıdannan sonra əl altından öyrəndi ki, Kankanoğlu bir at minib kəndə gedib, piyada qayıdıb birini də minib gedib" (5, 288) cümləsindəki yanınnan, qayıdannan sözləri xalq arasında da bu cür qoşa samitlə deyilir. Hətta altından sözünü də altınnan şəklində deyirlər. Eyni halla sənə, mənə sözlərinin yazılışında da qarşılaşırıq. Məsələn: "Mən sana özgə bir iş də tapşırıram" (5, 280), "Axı qardaşların sana yaxşı deməz" (5, 282), "Onsuz da qardaşlarım mana zor eləyiblər" (5, 282) cümlələrində də aşığın tələffüzünə toxunulmamışdır. Aşığın dili isə xalqın dilidir, onların arasında fərq olmur.

Bir sıra sözlərin ədəbi dildə yazılması şübhə doğurur. Lakin bu gün demək olmaz ki, onların hamısını M.H.Təhmasib düzəlt-

mişdir. Burada bir neçə hal mümkündür və onlardan üçünü ayrıca göstərmək olar: 1. Aşıq həmin sözləri ədəbi dildə olduğu kimi tələffüz edə bilərdi. Bunu inkar etmək olmaz, çünki biz aşıqların danışığında belə hallarla tez-tez qarşılaşırıq; 2. Bu sözləri M.H.Təhmasib də ədəbi dilə uyğunlaşdıra bilərdi. Mən heç də bu fikirdə deyiləm ki, M.H.Təhmasib ümumiyyətlə mətnin dilinə toxunmayıb; 3. Bu düzəlişlərin nəşriyyat redaktorunun qələmindən çıxdığını da istisna etmək olmaz. Təəssüflər olsun ki, "Koroğlu" dastanının əlyazmalarının çoxu bu gün əlimizdə olmadığına görə, həmin sözlərin kimlər tərəfindən ədəbi dilə uyğunlaşdırıldığını aydınlaşdırmaq mümkün deyil. Ən önəmlisi odur ki, bu cür xırda məsələlər, xüsusilə eyni sözlərin həm ədəbi dildəki, həm də ləhcədəki kimi yazılması dastanın M.H.Təhmasib tərəfindən işləndiyini söyləməyə heç bir əsas vermir. Əksinə, bütün bunlar dastanın dilini xalqın dilinə daha da yaxınlaşdırır. Mənim bu yazım olduğu kimi Xınna dərəsinin ləhcəsində yazılıb. Bədxahlarımız isə bunları şişirdib milçəkdən fil düzəldirlər. Bu bir!

Dastanın dilinin saflığının, təmizliyinin, gözəlliyinin xalqdan gəldiyinə inanmaq üçün onun yurd hissəsi ilə şeirlərini yanaşı qoyub dilinə baxmaq bəs eləyir. Onların arasında zərrə qədər də fərq yoxdur. M.H.Təhmasib şeirlərə əl gəzdirməmişdir və gəzdirə də bilməzdi. Bu şeirlərin çoxusu V.Xuluflu, A.Rəcəbli, Ə.Tahirov və H.Əlizadə nəşrlərində və arxivlərdəki əlyazmalarda da var. Variantları və təhrifləri nəzərə almasaq müxtəlif əlyazmalardakı şeirlər bir-birindən az fərqlənir. Dastanda elə bitkin, gözəl şeirlər var ki, onların bircə sözünü də yerindən tərpətmək olmur. Bircə bəndə fikir verin:

Necə baxım ev-eşiyə,
Yaralı könlüm üşüyə,
Toz bürümüş boş beşiyə
Şirin layla çalan yoxdu. (6, 4).

"Mənmi qocalmışam, ya zəmanəmi," "Alma gözlüm, qız birçəklim Qırat gəl", "Əylən deyim Qıratın qiymətini", "Nisbət-

dir”, “Üzün məndən niyə döndü” kimi onlarla qoşma və gəraylılar da bu qəbildəndir.

Əndəlib Qaracadağinin 1804-cü ilə, yəni iki yüz il bundan əvvələ aid edilən bir əlyazma dəftərində (*Bu dəftər hazırda Rusiyanın Sankt-Peterburq şəhərində Şərqşünaslıq İnstitutunda saxlanır*) Koroğlunun “Bənzərsən” vücudnaməsi də gəlib bizə çatmışdır. Bu şeirin dili hətta Vaqifin, Vidadinin şeirlərinin dilindən daha təmiz, saf, duru və gözəldir. Hətta adam bu şeirin XVII yüzilliyin sonlarında yazıya alındığına inanmaq istəmir. Ancaq şeirin əlyazması əlimizdədir və ona şübhə ilə yanaşmaq mümkün deyil. Qoşmanın dili ilə dastanın ondan iki yüz il sonra yazıya alınmış mətni arasında heç bir fərq yoxdur:

Üç yaşından beş yaşına varanda
Yenicə açılan gülə bənzərsən,
Beş yaşından on yaşına varanda
Arıdan saçılan bala bənzərsən.

Səksənində sinir yenər dizinə,
Doxsanında qubar qonar gözünə.
Koroğlu der, çünki yetdin yüzünə,
Uca dağ başında kola bənzərsən (6, 91).

Hər şey göz qabağındadır, şeirin dili ilə bağlı heç bir açıqlamaya ehtiyac yoxdur. Bəs onda həmin şeirin dilini kim bu qədər gözəlləşdirmişdir? Bu sualın cavabı şeirin özündədir. “Bənzərsən” vücudnaməsi ustad sənətkar tərəfindən qəlibə tökülmüş elə bir qoşmadır ki, indi də onun bir nöqtə-vergülünü dəyişmək mümkün deyil. Görünür, dastan da ilk dəfə “Bənzərsən” vücudnaməsi ilə eyni dildə düzülüb-qoşulub və hazırda M.H.Təhmasib nəşri dediyimiz dastan həmin dildədir. Digər variantlar ağızdan-ağıza keçə-keçə əslindən az və ya çox dərəcədə uzaqlaşıb. Dastanın M.H.Təhmasib nəşrinin yurd hissəsi ilə şeirlərinin dili arasında böyük bir bərabərlik işarəsi qoymaq olar. Bu iki.

Dastanın dilində zərrə qədər də olsa Naxçıvan ləhcəsinə rast gəlinmir. Əgər M.H.Təhmasib dastanı yazsaydı və ya işləsəydi, onda özündən asılı olmayaraq mətnə onun ləhcəsi düşməliydi. Əksinə, dastanda daha çox Gəncə-Qazax bölgəsinin ləhcəsində işlənən sözlər saxlanmışdır. Məsələn, dastanda rast gəlinən manşırlamaq (7, 21), quşqun (7, 169), urvat (7, 169), kürəkən (7,s.170), qızırqanmaq (7, 172), çır-çırpı (7, 220), dılğır (7, 227), qancırğa (7, 237, 292), yapıncı (7, 241, 242), kürə (7, 277), marıtlamaq, dördəm (7, 294), cılxa (7, 341), doy gəlmək (7, 135), atı əldən qoydu (7, 148), soluğunu dərmək (7, 382), incəvardan (5, 289) kimi onlarla söz və ifadələr Gəncə-Qazax ləhcəsində daha çox işlənir. Onların çoxu bəzi ləhcələrdə yoxdur. Oynayır sözü oynuyur (5, 9), xain sözü xayın (Haqq bəla versin xayına, 5, 16), heyif sözü hayıf (5, 25), götürməyim sözü götürmüyüm (5, 23), görməyəm sözü görmüyəm (5, 46), gözəlliyi-zadı (5, 52), haylayıb (5, 64), cınğırını (5, 50), ayazımaq (5, 58), göydən (Başın gedər, göydən qalar yurd kimi, 5, 62) xeylək (5, 28) söz və ifadələrinin də tələffüz şəkilləri saxlanmışdır.Yenə sözü cəmi bir-iki dəfə yenə (7, 197), dönə-dönə isə genə şəklində işlənmişdir ki, (7, 22, 52, 123, 129, 392) həmin söz Gəncə-Qazax ləhcəsində məhz bu cür tələffüz edilir. Bu da üç.

İndi inamla deyə bilərəm ki, "Koroğlu" dastanının xalq təfəkküründən süzülüb gəldiyinə şübhə ola bilməz və onun dili də xalqın dili ilə eynidir.

2. Dastanın poetik siqlətini, möhtəşəmliyini görüb xalqın bu cür "şedevr" yarada biləcəyinə şübhə edənlərə aşağıdakı bayatını oxumağı məsləhət görürəm:

Əzizim baxtı yarım,
Baxtımın taxtı yarım.
Üzündə göz izi var,
Sənə kim baxdı, yarım.

Bu bayatını xalq yaradıb. Dördcə misralıq bu bayatı xalqın poetik təfəkkürünün gücünü güzgü kimi göstərir. Mən hələ "Də-

də Qorqud" kimi möhtəşəm eposu demirəm. Onu da xalq yaradıb. Gərək bunu da unutmasınlar.

3. M.H.Təhmasib "Koroğlu" dastanının izahlarında yazmışdır ki, guya hər qolu bir neçə mətn əsasında tərtib etmişdir. Məsələn, "Alı kişi" qolu haqqında yazır: "Bu qolun tərtibində "Koroğlu-Əsəd" (*Tovuzlu Aşıq Əsəddən yazıya alınmış qol*), "Koroğlu-Bozalqanlı" (*Tovuzlu Aşıq Hüseyn Bozalqanlıdan yazıya alınmış qol*), "Koroğlu-Əli" (*Hümmət Əlizadənin qazaxlı Aşıq Əlidən yazıya aldığı və "Koroğlu" dastanının 1941-ci il nəşrinə daxil etdiyi qol*) və "Qaf-Penn" (*A.Xodzkonun Güney Azərbaycanda yazıya alıb (?) Parisə apardığı və 1842-ci ildə Londonda ingilis dilində nəşr etdirdiyi variantdakı qol. Həmin kitabı S.S.Penn 1856-cı ildə rus dilinə çevirib Tiflisdə çıxan "Kavkaz" qəzetinin bir neçə sayında nəşr etdirmişdir. M.H.Təhmasib "Qaf-Penn" deyəndə məhz həmin variantı nəzərdə tutmuşdur*) variantları əsas götürülmüşdür. Qol əsasən Alı kişidən bəhs etdiyinə görə, onun adı ilə də adlandırılmışdır (7, 398).

M.H.Təhmasibin bu sözləri "Koroğlu" dastanına atılan qarayaxmaların, böhtanların müəlliflərinin əllərində yaxşı tutalğac oldu. O zaman Moskvada yaşayan azərbaycanlı alim Xaliq Koroğlu M.H.Təhmasibin həmin cümləsindən yapışaraq yazırdı: "Alı kişi" adlanan birinci dastan Aşıq Əsəd, Bozalqanlı, Əli variantlarından ibarətdir. 1844-cü ildə (1842-ci ildə-İ.S.) ingilis dilində nəşr edilmiş, sonra (1856-cı ildə) rus dilinə tərcümə olunmuş "Qaf" variantı da bura daxil edilmişdir" (8, 66-67). Maraqlıdır, X.Koroğlu M.H.Təhmasibin aşıqların adlarını və "Qaf-Penn" variantını sadaladığı ardıcıllığı da pozmamışdır. Onun yeniliyi bundan ibarət olmuşdur ki, M.H.Təhmasib "Alı kişi" qolunun tərtibində "Qaf-Penn" variantından istifadə etdiyini yazdığı halda, X.Koroğlu qolun bütövlükdə M.H.Təhmasib nəşrinə daxil edildiyini söyləmişdir. Bəri başdan deyə bilərəm ki, X.Koroğlu bu fikirləri söyləyərkən "Qaf-Penn" variantı ilə tanış olmamışdır.

İndi sual doğur: Görəsən M.H.Təhmasib doğrudanmı "Alı kişi" qolunu tərtib edəndə bu dörd variantı bir-birinə qatıb onlar-

dan təzə bir mətn hazırlamışdır? Yaxud X.Koroğlunun dediyi kimi, “Qaf-Penn” variantındakı “Alı kişi” qolunu öz nəşrinə daxil etmişdir? Çox təəssüflər olsun ki, indiyə qədər “Koroğlu” dastanı haqqındakı bu cür qarayaxmalara cavab verilməmişdir. Artıq bu gün onlara cavab verməyin vaxtıdır. Bu məsələ yetərincə aydın olsun deyə M.H.Təhmasib nəşri ilə “Qaf-Penn” variantındakı “Alı kişi” qollarını yanaşı qoyub onların oxşar və fərqli cəhətlərini üzə çıxarmaq bəs eləyir:

| **“Qaf-Penn”də** | **M.H.Təhmasibdə** |
|---|---|
| 1. Koroğlunun atasının adı Mirzə Sərrafdır. | Koroğlunun atasının adı Alıdır. |
| 2. Mirzə Sərraf həm yaxşı ilxıçı, həm də yaxşı münəccimdir. | Alı kişi yalnız yaxşı ilxıçıdır. O, münəccim deyil. |
| 3. Dəryadan bir ayğır çıxır və iki madyanla cütləşir. | Dəryadan iki ayğır çıxır və hərəsi bir madyanla cütləşir. |
| 4.Dəryadan çıxan ayğırı və onun iki madyanla cütləşdiyini Mirzə Sərraf özü görmür. Bunu ona ilxıçı xəbər verir. | Ayğırların dəryadan çıxdığını və iki madyanla çütləşdiyini Alı kişi özü görür. |
| 5.Ayğır Ceyhun çayından çıxır. | Ayğırlar dəryadan çıxırlar, o dəryanın adı bilinmir. |
| 6. Türküstan padşahı dayçalardan yalnız birini Rövşənə - Koroğluya verir. | Həsən xan hər iki dayçanı Alı kişiyə verir. Hərəsini onun bir gözünə qiymət eləyir. |
| 7.Bu qolda Mirzə Sərrafın ilxıçılıq etdiyi Türküstan padşahının adı Sultan Muraddır. | Alı kişi Həsən xanın ilxıçısıdır. |
| 8.Türküstan padşahı Mirzə Sərrafın gözlərini özü çıxartdırır. Burada Hasan paşa və ya başqa birisi yoxdur. | Həsən xan Alı kişinin gözlərini Hasan paşanın sözlərinə görə çıxartdırır. |

| | |
|---|---|
| 9.Atasının gözlərinin əvəzinə Rövşən Türküstan padşahından Mirzə Sərrafın tapşırığına əsasən göy dayçanı istəyir və onu alıb evə aparır. | Həsən xan dayların hərəsini Alı kişinin bir qoluna bağlatdırıb qapısından qovur. Rövşən yalnız Alı kşi evə gələndən sonra bu işdən xəbər tutur. |
| 10. Herat və Xorasan şəhərlərinin adları çəkilir. | Herat və Xorasan şəhərlərinin adları çəkilmir. |
| 11. Rövşənin aldığı göy dayça sonra Qırat olur. | Dayçaların biri Qırat, digəri Dürat olur. |
| 12.Rövşən qisas alarkən Türküstan padşahının sarayına getmir, onunla Ceyhun çayının qırağında görüşür və onu öldürə bilmir. | Rövşən Həsən xanın sarayına gedir və onu öldürür. |
| 13. Birinci məclisdə Misri qılncın qayırılması səhnəsi yerlidibli yoxdur. | "Alı kişi" qolunda Misri qılncın necə qayırılması geniş verilib. |
| 14. Mirzə Sərraf Məşhəddə ölür və orada dəfn olunur. | Alı kişi Çənlibeldə ölür və Koroğlu onu Qoşabulağın yanında dəfn edir. |
| 15. Rövşən bulağın köpüklü suyunu yalnız başına çəkir, yəni içir. Burada bulağın adı yoxdur. | Rövşən Qoşabulağın köpüklü suyunu həm başına tökür, həm də içir. |
| 16. Mirzə Sərraf Rövşənə bir neçə dəfə qarğış eləyir. | Alı kişi Rövşənə bir dəfə də qarğış eləmir. |
| 17. Mirzə Sərraf Rövşənə vəsiyyət eləyir ki, Azərbaycana qayıtsın, İran şahının yanına getsin, onun əmrindən çıxmasın. | Burada İranın adı çəkilmir. Alı kişi Rövşənə İran şahının yanına qayıtmağı vəsiyyət eləmir. Koroğlunun vaxtında İran yoxuydu. |
| 18. Koroğlunun yurd saldığı yer Göyçəbeldir (9). | Koroğlunun yurd saldığı yer Çənlibeldir (5,7). |

Bunlardan başqa, "Qaf-Penn" variantında sazla yanaşı, setarın da adı çəkilir. Mirzə Sərrafın nücum kitabı var, onu qoltuğundan çıxarıb Rövşənə verir və bulaqda o kitabdakı duanı oxu-

mağı tapşırır. Rövşən də bulaqda həmin duanı oxuyur. Mirzə Sərraf Rövşənə tapşırır ki, atı qırx gün dağda-daşda, qırx gün meşədə, qırx gün də suda, palçıqda çapsın. Bu səhnələrin heç biri M.H.Təhmasib nəşrində yoxdur. Əgər M.H.Təhmasib "Qaf-Penn" variantından istifadə etsəydi, bu səhnələr də onun nəzərindən qaçmazdı.

"Qaf-Penn" variantında Mirzə Sərraf iki dəfə oğlu Rövşənə bərk qarğış eləyir. Məsələn, Qoşabulaqdan qayıdanda ona deyir: "Evin yıxılsın, necə ki, məni öz üzünə həsrət qoydun, səni görüm övlad üzünə həsrət qalasan. O köpüklü su mənim gözlərimin dərmanıydı" (9,s.16).

Alı kişi kimi müdrik bir atanın Rövşən kimi oğula qarğış eləməyi ağılabatan deyil və bu səhnənin M.H.Təhmasib nəşrində olmamağı daha təbii görünür.

Göründüyü kimi, "Koroğlu" dastanının M.H.Təhmasib nəşrindəki və "Qaf-Penn" variantındakı "Alı kişi" qolları arasında çox kəskin fərqlər var. Bunlar yalnız yuxarıda sadalananlardan ibarət deyil. M.H.Təhmasib nəşrində elə gözəl, maraqlı, qolun poetik sanbalını gücləndirən və vacib səhnələr var ki, onlara "Qaf-Penn" variantında rast gəlinmir. Məsələn, Rövşənin göydən düşmüş ildırım parçasını buzova atmağı, buzovun daşın yeli dəyən kimi yıxılıb ölməyi, Alı kişinin o daşı gətirtməyi, ondan Misri qılıncı qayırtdırmağı haqqında bir kəlmə də söhbət açılmır. Atların sınaqdan keçirilməsi, Həsən xanın öldürülməsi, Rövşənlə Alı kişinin qaçıb Çənlibelə gəlmələri, yolda əvvəlcə bir dəstə kəhər atlı, sonra bir dəstə qara atlı və sonda bir dəstə ağ atlı qoşunun onların dalınca gəldiyi, Alı kişinin məsləhətilə Rövşənin atları əvvəlcə sulanmış şumluğa, sonra qaratikanlığa, axırda isə daşlığa salmağı, bu yolla düşməndən qurtardıqları səhnələr "Qaf-Penn" variantında yerli-dibli yoxdur.

"Qaf-Penn" variantında Koroğlu cəlali adlandırılır. Tez-tez "Cəlali Koroğlu" ifadəsinə rast gəlinir, halbuki təkcə M.H.Təhmasib nəşrində yox, V.Xuluflu, A.Rəcəbli, Ə.Tahirov və H.Əli-

zadə nəşrlərinin heç birində cəlali sözü yoxdur. Mənim araşdırmalarımda Koroğlunun Cəlalilər üsyanı ilə heç bir bağlılığının olmadığı sübuta yetirilmişdir (10). “Qaf-Penn” variantında Eyvaz küsür, Koroğludan üz çevirib Çənlibeldən çıxıb gedir və Bolu bəyə qoşulur. Quzey Azərbaycan nəşrlərinin heç birində bu səhnəyə rast gəlinmir. Bu nəşrlərdə Türküstan sözü işlənmir və onun padşahı Sultan Muradın da adı çəkilmir. Üstəlik “Qaf-Penn” variantında Koroğlunun dəlilərlə və xanımlarla rəftarını eşidən heç bir qəhrəman, heç bir bəy, xan, paşa qızı Çənlibelin adını tutub, ora gəlmək fikrinə düşməzdi. Onda nə Koroğlu olardı, nə də Çənlibel. Halbuki Koroğlu Çənlibeldə Avropanın bu gün də arzuladığı və hələ də çatmadığı elə bir ideal cəmiyyət yaratmışdı ki, bəylərin, xanların, paşaların, hətta Xotkarın qızı da öz dudmanlarını, yağ içində böyrək kimi bəsləndikləri cah-cəlallarını qoyub Çənlibelə gəlməyə can atır, burada yaşamaq istəyirdilər. Öz yurdlarındakı haqsızlığa, zülmə, istismara dözməyən igid oğlanlar da Koroğlunun adını tutub onun başına toplaşırdılar. İgid oğlanları və qızları çəkib Çənlibelə gətirən buradakı ideal ab-havaydı. Çənlibeldə hər şey insan üçün yaradılmışdı. Burada insan doğrudan da bütün yaranmışların əşrəfiydi ki, qızların könlü olmasaydı, onları zorla ərə verməzdilər. Qızları zorla ərə vermək anlayışı Çənlibeldə yoxuydu, orda bunu heç kim ağlına da gətirmirdi. Saraylardakı qadınlar öz hüquqsuzluqlarını görür, Çənlibeldəki qadınların azadlığına, onlara olan hörmətə, izzətə, qadın ucalığına həsəd aparırdılar. “Qaf-Penn” variantında bunların heç biri yoxdu. Məncə, “Koroğlu” dastanının ən böyük dəyəri Çənlibeldəki cəmiyyətin ideallığında və bənzərsizliyindədir.

Burada yeri gəlmişkən “Qaf-Penn” variantında rast gəlinən söyüşlər haqqında mütləq bir-iki kəlmə demək lazımdır. Koroğlu dəlilərin anasını, arvadını söyür. “Ay arvadı filan-filan...”, “Çobanın dədəsinin kəlləsini...”, “Arvadı qəhbə...”, “Sənin arvadını ...”, “Ay anasını...”, “A köpək oğlanları...”, “Ay it balası...” (9,s.25,26, 27,28,29,100,149) kimi söyüşlər o qədər çoxdur ki,

bu dastanı başqası oxuyub, sən də qulaq assan, elə düşünərsən ki, aşıq məclisinə yox, dəli yığıncağına düşmüsən. Koroğlu dəlilərlə də, xanımlarla da, yad adamlarla da bu cür söyüşlərlə danışır. Bu söyüşlər Eyvazın da üzünə deyilir. Görəsən doğrudanmı Koroğlunun bu söyüşləri öz ağalarının haqsızlığından, zülmündən, kobud davranışından bezib Çənlibelə sığınan mərd, igid, qorxmaz oğlanların canlarına sarı yağ kimi yayılırdı?! Görəsən doğrudanmı Koroğlunun bu söyüşlərini eşidən xanımlar da xoşhal olurdular?! Belə söyüşlərə bütün qollarda və o qədər tez-tez rast gəlinir ki, Çənlibel haqqında yuxarıda dediklərim şübhə doğurur. Ancaq bu söyüşlərə digər nəşrlərdə yox, yalnız "Qaf-Penn" variantında rast gəlinməsi və onların Quzey Azərbaycan nəşrlərində olmamağı Çənlibeldəki ideal ab-hava və bənzərsiz cəmiyyət haqqında deyilənlərə yalnız inam yaradır. Söyüşlərlə bağlı iki məsələyə diqqət yetirmək lazımdır:

1. Aşıq məclisdə bu cür söyüşlər işlədə bilməzdi. Aşıq məclisləri ədəb-ərkan məclisləriydi. Aşıq Ələsgər deyirdi:

Aşıq olub diyar-diyar gəzənin
Əzəl başda pürkamalı gərəkdi.
Oturub-durmaqda ədəbin bilə,
Mərifət elmində dolu gərəkdi (11, 71).

Aşıq məclislərini görənlər yaxşı bilirlər ki, aşığın dilindən bir kəlmə də ədəbsiz söz çıxmaz. Bu məclislər tərbiyə məktəbiydi. Xalq da buna yol verməzdi. "Oturub-durmaqda ədəbini bilməyən, mərifət elmində dolu olmayan" aşıqları xalq məclisə buraxmazdı.

2. Əgər Koroğlu dəlilərin anasını, arvadını söyürdüsə, heç kim bircə gün onun yanında qalmazdı. Uzaq-uzaq yerlərdə Koroğlunun bu sorağını eşidənlər onun başına toplaşmazdılar. Bəy, xan, paşa qızları da bu cür iyrənc bir cəmiyyətdə yaşamağa razı olmazdılar. Onlar sarayda nə qədər hüquqsuz olsalar da, sıxılsalar da, qulaqları bu cür söyüşlər eşitmirdi. Deməli, "Qaf-Penn" variantında rast gəldiyimiz səhnələrin çoxusu reallığı əks etdirmir.

“Qaf-Penn” variantının ən zərərli, bəlkə də qorxulu cəhətlərindən biri dini motivlərin, xüsusilə sünnü-şiə məsələsinin süni şəkildə bilərəkdən dastana daxil edilməsi və onun bilərəkdən qabardılmasıdır. Sözsüz ki, bu motivlər dastana xeyirxahlıqla, xoş niyyətlə daxil edilməmişdir. Bu da dastanın mətnində edilmiş təhriflərin davamıdır (*Sünnü-şiə məsələsi I Pyotrun vəsiyyətlərində ayrıca bir maddədir. Onu I Pyotr ermənilərlə görüşdükdən sonra yazmışdır*). Quzey Azərbaycan aşıqlarından toplanmış nəşrlərin heç birində bu motivlər yoxdur. Bu da onunla bağlıdır ki, Çənlibelin yerləşdiyi və “Koroğlu” dastanının ilk rüşeymlərinin yarandığı dağlıq bölgədə din yoxdu deyiləcək dərəcədə zəif olmuşdur. Həmin bölgədə son vaxtlara qədər məscid yoxuydu. Dastan yarandığı dövrün və mühitin güzgüsüdür.

“Qaf-Penn” variantında Mirzə Sərraf Rövşənə Çənlibel ətraflarında Dəli Həsən adlı bir igidin olduğu haqqında heç nə demir. İkinci məclis başlayanda onun adını ilk dəfə dastanı danışanın dilindən eşidirik. M.H.Təhmasib nəşrində isə Alı kişi vəsiyyət eləyərkən Dəli Həsənin adını çəkir və Rövşənə özünü ondan qorumağı tapşırır. Bir-ikicə cümləlik bu səhnənin dastan poetikası baxımından əhəmiyyətini, vacibliyini diqqətdən qaçırmaq olmaz. Haqqında danışdığımız hər iki nəşrdəki ikinci qolda Koroğlu Dəli Həsənlə qarşılaşır. “Qaf-Penn” variantında bu görüş haqqında əvvəlcədən heç nə bilinmir. M.H.Təhmasib nəşrində isə, əksinə, Alı kişinin xəbərdarlığından sonra Koroğlu da, dinləyici və ya oxucu da bilir ki, ikinci qolda onlar qarşılaşacaqlar. Belə də olur və bu, dastan poetikası baxımından çox vacibdir. İkinci qol haqqında artıq birinci qolun sonunda bilgi verilmişdir. Bu cür bağlılığı M.H.Təhmasib nəşrində bütün qollar arasında görmək mümkündür.

Yuxarıdakı səhnələrin hamısı aşıqların ifasında var və ayrı-ayrı variantlarda da yazıya alınmışdır. Yəni bunların heç birini M.H.Təhmasib özündən uydurmamışdır. Onların “Qaf-Penn” variantında olmamağı sonuncunun poetik sanbalını xeyli azalt-

mışdır. M.H.Təhmasib nəşri ilə yanaşı qoyanda bu zəiflik aydın sezilir.

"Qaf-Penn" variantındakı Çənlibellə M.H.Təhmasib nəşrindən bizim yaddaşımıza həkk olunmuş Çənlibel arasında heç bir oxşarlıq yoxdur. A.Xodzko nəşrindəki Çənlibelin havası adamın könlünü bulandırır. Burada insanın bütün yaranmışların əşrəfi olduğundan, qadın azadlığından və ucalığından, kişilərlə bərabərliyindən, sevginin, məhəbbətin ülviliyindən, Koroğlu, dəlilər və xanımlar arasındakı səmimiyyətdən danışmağa əsas verən heç nə yoxdur. Alı kişidən (Mirzə Sərrafdan) tutmuş Koroğluya qədər bütün obrazlar da bir-birindən o qədər fərqlənir ki, adlarından başqa aralarında oxşarlıq nəzərə çarpmır. Erməni taciri və kilsəsi ilə bağlı motivlər "Qaf-Penn" variantında erməni barmağı olduğunu aydın göstərir.

"Qaf-Penn" variantındakı təhrifləri, uydurmaları, dastançılıq ənənəsindən yayınmaları, qondarılmış zərərli səhnələri M.H.Təhmasib yaxşı görürdü. Ona görə də yazırdı: "A.Xodzko bu əsəri təkcə bir aşıqdan toplamamış, bir sıra aşıqlardan toplanmış materialları sistemə salmış və heç şübhəsiz ki, misal üçün, Şopendə olduğu qədər olmasa da, hər halda özü də buna müəyyən dərəcədə əl gəzdirmişdir. Buna görə də istər hadisələrin gedişində, inkişafında, istərsə də Koroğlu obrazının özündə bir növ ziddiyyət əmələ gəlmişdir. Misal üçün, əsərin ümumi ruhundan görünür ki, Koroğlu xotkarın, şahın, paşaların və xanların qatı düşməni, əməkçi kütlələrin müdafiəçisi, arxasıdır. Lakin eyni zamanda o, Türkiyə sultanının oğlu Bürcü Sultana deyir: "Bu dəqiqədən məni Sultan Muradın ən sadiq nökərlərindən biri hesab elə" (7,s.17).

Xalq belə səhv eləməz. Çünki bu cümlədən sonra Koroğlunun Koroğluluğuna da, dastana da nöqtə qoymaq olar. Deməli, bu mətnə doğrudan əl gəzdirilmişdir.

Görəsən dastanın mətninə əl gəzdirəndə onda ziddiyyətlərin yarandığını bilə-bilə M.H.Təhmasib A.Xodzkonun səhvlərini təkrarlayardımı? Yəqin ki, yox!

M.H.Təhmasib daha sonra yazırdı: "İkinci tərəfdən əsərdə, eləcə də Koroğlunun özündə çox aydın şiəlik, hətta müsəlmançılıq meylləri vardır. Zənnimcə, bunlar hamısı Xodzkonun öz fəaliyyətinin məhsuludur.

Bu gün xalq içərisində yaşayan "Koroğlu" eposunda isə belə şeylər yoxdur" (7,s.18).

Deməli, M.H.Təhmasib A.Xodzko nəşrini də, xalq içərisində yaşayan variantları da yaxşı bilirdi və onların arasındakı fərqləri aydın görürdü.

Mən M.H.Təhmasibin "Alı kişi" qolunu tərtib edərkən "Qaf-Penn" variantından necə istifadə etdiyini aydınlaşdırmaq üçün M.H.Təhmasib və "Qaf-Penn" nəşrlərindəki "Alı kişi" qollarının mətnlərini diqqətlə tutuşdurdum. Yuxarıda deyilən və deyilməyən bu qədər kəskin fərqlərdən sonra M.H.Təhmasibin "Alı kişi" qolunu tərtib edərkən "Qaf-Penn" variantından necə istifadə etdiyi, ondan nəyi götürdüyü yenə qaranlıq qaldı. Bu iki mətn bir-birindən o dərəcədə kəskin fərqlənir ki, "Qaf-Penn" variantında M.H.Təhmasibin götürə biləcəyi heç nə tapmadım.

M.H.Təhmasibin tərtib etdiyi "Alı kişi" qolunun digər variantlardakı eyni mətnlərlə tutuşdurulması zamanı da bu cür çoxlu fərqlər üzə çıxır. M.H.Təhmasib nəşrindəki "Alı kişi" qolu az-çox yalnız H.Əlizadə mətni ilə yaxından səsləşir. Lakin M.H.Təhmasib nəşrindəki bir çox səhnələr H.Əlizadə variantında olmadığına görə, ondan istifadə edildiyi də ağılabatan görünmür. Məsələn, Misri qılıncın qayırılma səhnəsinin olmadığı əvvəldə deyilmişdir. H.Əlizadə nəşrində Koroğlu atlara qırx gün, qırx gecə Çənlibeldə qulluq eləyir, Həsən xandan intiqam almağa da Çənlibeldən gedirlər. M.H.Təhmasib nəşrində isə Alı kişi və Koroğlu Həsən xanı öldürəndən sonra qaçıb Çənlibeldə yurd salırlar.

M.H.Təhmasibin kitaba daxil etdiyi "Alı kişi" qolu yalnız Tovuzlu ustad Aşıq Hüseyn Bozalqanlının danışdığı varianta uyğun gəlir.

Eyni paralelləri digər qollar arasında apardıqda da buna oxşar nəticələr alınır. M.H.Təhmasib nəşri ilə "Qaf-Penn" variantı arasında iki elə qol tapmaq mümkün deyil ki, onlar bir-birilə yaxından səsləşsin. Bu iki variantdakı bütün qollar təxminən "Alı kişi" qolunda olduğu qədər bir-birindən fərqlənir. Bütün bunları M.H.Təhmasib görürdü və hamıdan yaxşı bilirdi. Bəs onda görəsən hər qolu bir neçə variant əsasında tərtib etdiyini niyə yazmışdır?

Bu suala cavab vermək çox çətindir və yəqin ki, çox adam onu bilmir. Ona görə yuxarıdakı müqayisələri də aparmayıblar. Nəticədə bir çox məsələlər qaranlıq qalıb. Bu gün həmin qaranlıq məsələlərin üstünə işıq salıb, onları aydınlaşdırmaq üçün bu sualı cavablandırmaq lazımdır.

M.H.Təhmasib "Koroğlu" dastanını sovetlər dönəmində toplayıb tərtib etmişdir. O zaman kitablar nəşr olunanda həm müəlliflərə, həm də tərtibçilərə qonorar verilirdi. Folklor kitablarına görə, bu qonorarı toplayıcılar və tərtibçilər alırdılar. "Koroğlu" dastanı kitab halında işıq üzü görəndə onun qonorarı toplayıcıya və tərtibçiyə düşürdü. Qonorar haqqında hökümətin qərarları varıydı. Hazırda Azərbaycan SSR Nazirlər Sovetinin 26 aprel 1982-ci il tarixli 218 saylı, 3 fevral 1984-cü il tarixli 39 saylı və 18 fevral 1989-cu il tarixli 94 saylı qərarları mənim əlimdədi. Bu qərarların iki bəndi şifahi xalq ədəbiyyatı örnəklərinin nəşri ilə bağlıdır. Onları olduğu kimi verirəm:

1. *Nəsrdən ibarət xalq yaradıcılığı əsərlərinin yazıya alınması və işlənməsi. 1 çap vərəqi üçün 135-250 manat.*

*2. Şeirdən ibarət xalq yaradıcılığı əsərlərinin yazıya alınması və işlənməsi. 1 misra üçün 0,8-1,75 manat.*

Bu bəndlərdəki *işlənməsi* sözünə diqqət yetirmək lazımdır. Hər şey onun başındadır. Yuxarıdakı məbləğdə qonorarı yalnız tərtibçi hazırladığı kitaba *işləmişdir* sözünü yazanda verirdilər. Bu söz olmayanda nəşriyyat qonorarın məbləğini kəskin şəkildə azaldırdı. Məsələn, mən Səməd Vurğunun aforizmlərini toplayıb

tərtib etmişdim. "Azərnəşr" onu kitab halında 1987-ci ildə nəşr etdi. Həmin kitaba *işlənmişdir* sözünü yazmaq olmazdı, çünki Səməd Vurğunun aforizmlərini işləməyə yol verilmirdi. Ona görə mən 450 manat qonorar aldım. Halbuki kitaba *işlənmişdir* sözünü yazmaq mümkün olsaydı, mən ən azı 2000 manat qonorar ala bilərdim.

M.H.Təhmasib "Koroğlu" dastanının nəşrlərinin sonunda verdiyi izahlarda hər qolu bir neçə variant əsasında işləyib tərtib etdiyini yazmasaydı, ona hər çap vərəqinə görə 250 manat yox, 15-20 manat qonorar ödəniləcəkdi. M.H.Təhmasib də bunu bilirdi. Ona görə yüksək qonorar almaq üçün bu yola əl atmışdır.

İndi demək olar ki, M.H.Təhmasib "Koroğlu" dastanını nəşrə hazırlayarkən ayrı-ayrı qolların tərtibində heç bir variantdan istifadə etməmişdir. Aşıqların ifaları əsasında qolların bütöv mətni yazıya alınmış və onların əsasında M.H.Təhmasib nəşri hazırlanmışdır.

## QAYNAQLAR

1. İslam Sadıq. Koroğlu obrazının genetik kodu yaxud "Koroğlu" eposunun erməni variantı" haqqında. AŞXƏDT. AMEA Folklor institutu. Bakı. 2009, № XXIX s.99-114; İslam Sadıq. Azərbaycan "Koroğlu" eposunun erməni variantı haqqında (ingilis dilində). "Folklor və etnoqrafiya" jurnalı. Bakı, 2005. №1. s. 56-62; İslam Sadıq. Koroğlu obrazının genetik kodu. Azərbaycan MEA Folklor İnstitutu "Ortaq türk keçmişindən ortaq türk gələcəyinə" IV Uluslararası Folklor Konfransının Materialları. Bakı. 2006. s.137-147; İslam Sadıq. Koroğlu obrazının genetik kodu. "Körpü" jurnalı. Bakı. 2006. № 1. c.137-148; İslam Sadıq. Об армянском варианте Азербайджанского epoca "Короглу". "Литературный Азербайджан" журналы. Bakı. 2003. № 6.s.85-89.

2. “Koroğlu” dastanı (H.Əlizadə nəşri). Azərbaycan Ədəbiyyatı İnciləri. Dastanlar. Bakı. 1987. s. 271-420.
3. İslam Sadıq. Xalqın kişilik, mərdlik simvolu ləkə götürməz. “Azərbaycan” jurnalı. Bakı. 2006, № 12. s. 182-193; Elçin Muxtar Elxan. Urus Koroğlusu. “Azərbaycan” jurnalı. Bakı. 2006. № 9. s.112-146.
4. İslam Sadıq. “Koroğlu” eposunun nəşr tarixinə bir nəzər. “Ulduz” jurnalı. Bakı. 2006. № 5. s. 34-48.
5. Koroğlu (Tərtib edəni M.H.Təhmasib). Bakı. 1982.
6. İslam Sadıq. Koroğlu. Hoydu, dəlilərim, hoydu. Azərnəşr. Bakı. 2006.
7. Azərbaycan dastanları. V cilddə. IV cild. “Koroğlu”dastanı (Tərtib edəni M.H.Təhmasib). Bakı. 1969.
8. Х.Короглы. Текстологическая характеристика публикаций эпоса «Гёроглы» и «Гуругли» // Фольклор. Издание эпоса. «Наука». Москва. 1977, с. 65-76.
9. Koroğlu (Paris nüsxəsi). Bakı. 1997.
10. İslam Sadıq. Koroğlu kim olub. “Azərnəşr”. Bakı. 1998; İslam Sadıq. “Koroğlu” eposu və Cəlalilər hərəkatı. AMEA Məruzələri (humanitar və ictimai elmlər seriyası). Cild LXII. Bakı. 2006. № 1. c.99-105.
11. Aşıq Ələsgər. Gözüm bir alagöz xanıma düşdü (Toplayanı İslam Ələsgər; tərtib edəni Muxtar Qaradaşlı). Bakı. “Yazıçı”. 1993.

# M.H.TƏHMASİB VƏ TÜRK QƏHRƏMANLIQ DASTANLARI

**Qumru ŞƏHRİYAR**
*AMEA Folklor İnstitutu*
*nevayi-qumru@rambler.ru*

**Özət**

M.Təhmasibin çoxşaxəli yaradıcılığında dastanlar xüsusi yer tutur. Qədim türk dastanlarında dastan təfəkkürünün istisnasız olaraq bahadırlıq düşüncəsinin obrazlaşmasına yönəldiyini qeyd edən alimin «Kitabi-Dədə Qorqud», «Koroğlu», «Şah İsmayıl-Gülgəz», «Qurbani və Pəri» və s. bu kimi onlarla dastanın tədqiqində əvəzsiz xidmətləri var.

Bütün yaradıcılığı boyu türk dastanlarının böyük bir hissəsini ələ almağa çalışan M.Təhmasib «Koroğlu» dastanını geniş şəkildə tədqiq etmişdir. Buna baxmayaraq, mətn və mövzu baxımından ona yaxın olan «Edigey» dastanı digər qəhrəmanlıq dastanları kimi kölgədə qalmışdır. Türkiyədə, Qazaxıstanda, Özbəkistanda, ümumiyyətlə, Orta Asiyada geniş tədqiq olunan, toplanması, nəşri və tədqiqat tarixinə onlarla sanballı əsərlər, dissertasiyalar həsr edilən «Edigey» dastanı, təəssüf ki, Azərbaycanda tədqiqata cəlb edilməmişdir. Düşünürük ki, bu dastanın araşdırılmaması hər halda «Kitabi-Dədə Qorqud», «Koroğlu» kimi «Edigey» dastanına da qadağaların qoyulmasından irəli gəlir. Qadağalar götürüldükdən sonra isə M.Təhmasib, S.Əlizadə, H.Araslı və b. azərbaycanlı elm adamlarının maraqları «Kitabi-Dədə Qorqud», «Koroğlu» kimi qadağan olunmuş ömür yaşayan qəhrəmanlıq dastanları üzərində yoğunlaşdı. Bu zaman «Edigey» və «Manas» kimi dastanlar, təbii ki, arxa plana keçdi.

Məqalədə M.Təhmasibin yaradıcılığından və onun qəhrəmanlıq dastanları ilə bağlı dəyərli fikirlərindən söz açılacaq, türk

qəhrəmanlıq dastanı olan «Edigey» dastanı haqqında məlumat veriləcəkdirbəhs ediləcəkdir.

**Açar sözlər.** «Edigey» dastanı, türk xalqları, qəhrəmanlıq, dastan, qəlib

## ТЮРКСКИЕ ГЕРОИЧЕСКИЕ ДАСТАНЫ И М.Г.ТАХМАСИБ

**Резюме**

В многостороннем творчестве М.Тахмасиба дастаны занимают особое место. У учённого при исследовании десятков древне-тюркских дастанах таких как «Китаби-Дэдэ Горгуд», «Короглу», «Шах Исмайыл-Гюлгяз», «Гурбани и Пэри» и пр. отметившего безисключительное направление мысли дастана на образования облика богатыря имеет незаменимые заслуги.

На протяжении всей творческой деятельности стремящийся к привлечению большей части тюркских дастанов М.Тахмасиб широко исследовал дастан «Короглу». Не смотря на это близкий к этому дастану с точки зрения темы и содержания дастан «Эдигей» как и другие героические дастаны остались в тени. К сожалению дастан «Едигей», широко исследованный в Турции, Казахстане, Узбекистане и вообщем в Средней Азии, которому посвешены десятки монументальных произведений, диссертаций и исследований в Азербайджане не привлекался к исследованиям. Думаем что не исследование этого дастана как и дастанов «Китаби-Дэдэ Горгуд», «Короглу» объясняется запретами наложенными на их исследования. После снятие запрета М.Тахмасиб, С.Элизаде, Г.Арaслы и пр. азербайджанские учённые усилили исследования героических дастанов таких как «Китаби-Дэдэ Горгуд», «Короглу», переживших запретную жизнь. Естественно такие дастаны как «Эдигей» и «Манас» отошли на задний план.

В статье повествуется об ценных мыслях связанных с творчеством М.Тахмасиба и его героическими дастанами, будут даны сведения и обсуждения об дастане «Эдигей», являюшимся тюркским героическим дастаном.

**Ключевые слова:** дастан «Эдигей», тюркские народы, героизм, дастан, клише

## THE TURKIC HEROIC SAGAS AND M.H.TAHMASIB

**Summary**

Saga plays a special place in the activity of M.Tahmasib. «Saga thought aimed at the image of heroic imaginations in ancient Turkish epic» – saying scientist has invaluable services in the study of many sagaes as «Kitabi-Dede Gorgud», «Koroglu», «Shah Ismayil-Gulgas», «Gurbani and Pari» and others.

M.Tahmasib, who is trying to learn a great deal of Turkish epics has extensively studied the epic «Koroglu» throughout all his activity. Nevertheless, Edigey epic, which is closest to it in terms of text and theme was forgotten like other heroic epics. Although the Edigey epic was widely studied and investigated in Turkey, Kazakhstan, Uzbekistan, and generally in Central Asia, was not investigated in Azerbaijan. We think, the reason for not being investigation of this saga is prohibition for the epic «Edigey», such as «Kitabi-Dede Gorgud», «Koroglu». After the ban was lifted M.Tahmasib, S.Alizade, H.Arasli were directed to heroic epics, such as «Kitabi-Dada Gorgud» and «Koroglu». The epics like «Edigey» and «Manas», of course, went to the background.

The article will talk about M.Tahmasib's activity and his valuable ideas about heroic epics and will be informed about the Turkish heroic epic «Edigey».

**Key words**. The epic «Edigey», Turkish people, heroism, saga, mold

M.Təhmasibin çoxşaxəli yaradıcılığında dastanlar xüsusi yer tutur. Qədim türk dastanlarında dastan təfəkkürünün istisnasız olaraq bahadırlıq düşüncəsinin obrazlaşmasına yönəldiyini qeyd edən alimin «Kitabi-Dədə Qorqud», «Koroğlu», «Şah İsmayıl-Gülgəz», «Qurbani və Pəri» və s. bu kimi onlarla dastanın tədqiqində əvəzsiz xidmətləri var.

Bütün yaradıcılığı boyu türk dastanlarının böyük bir hissəsini ələ almağa çalışan M.Təhmasib «Koroğlu», «Kitabi-Dədə Qorqud» və s. dastanları geniş şəkildə tədqiq etmişdir. Buna baxmayaraq, türk xalqlarının folklorunda özünəməxsus yerlərdən birini tutan, mətn və mövzu baxımından «Koroğlu» dastanı ilə yaxın olan «Edigey» dastanı bir çox türk qəhrəmanlıq dastanları kimi kölgədə qalmışdır.

Türkiyədə, Qazaxıstanda, Özbəkistanda, ümumiyyətlə, Orta Asiyada geniş tədqiq olunan, toplanması, nəşri və tədqiqat tarixinə onlarla sanballı əsərlər, dissertasiyalar həsr edilən «Edigey» dastanı, təəssüf ki, Azərbaycanda tədqiqata cəlb edilməmişdir. Düşünürük ki, bu dastanın araşdırılmaması hər halda «Kitabi-Dədə Qorqud», «Koroğlu» kimi «Edigey» dastanına da qadağaların qoyulmasından irəli gəlir. Qadağalar götürüldükdən sonra isə M.Təhmasib, S.Əlizadə, H.Araslı və b. azərbaycanlı elm adamlarının maraqları «Kitabi-Dədə Qorqud», «Koroğlu» kimi qadağan olunmuş ömür yaşayan qəhrəmanlıq dastanları üzərində yoğunlaşdı. Bu zaman «Edigey» və «Manas» kimi dastanlar Azərbaycan arenası üçün, təbii ki, arxa plana keçdi.

M.Təhmasib Qrimm qardaşları, Avqust Şlegel, Teodor Benfey, Joze Badye, Ramon Tidal, Cuzeppe Kokkiyar və s. kimi məşhur alimlərin dastan və dastan yaradıcılığı haqqındakı ziddiyyətli fikirlərini misal gətirərək yazdığı «Dastan yaradıcılığımız haqqında» («Ədəbiyyat və incəsənət qəzeti», 1967) adlı əsərində anonimlik və müəlliflilik (məsələn, aşıq yaradıcılığı) məsələsinə toxunmuş, paralel təhlillər aparmışdır. Alim digər bir əsərində isə dastanların aşağıdakı kimi təsnifini vermişdir:

- Qəhrəmanlıq dastanları;
- Məhəbbət dastanları;
- Ailə-əxlaq dastanları (1, 225).

Hər xalqın tarixini öyrənərkən mütləq o xalqa məxsus qədim folklor nümunələrinə, etnoqrafik ənənələrə də müraciət etmək vacibdir. «Millətin aynası» adlandırılan «Edigey» dastanı bütün dünyaya nümunə ola biləcək bir türk tarixinin əvəzsiz mənbəyidir. Əvvəla ona görə ki, mənbələr Edigeyin tarixi şəxsiyyət olmasını təsdiq edir. İkincisi də dastanda bir türk əsalətli qəhrəmanın şərəfli ömür yolu əks olunub. M.Təhmasib yazır ki, «yüzillər boyunca türkün həyat tərzinin, duyum və düşüncə biçiminin əsas axarını bahadırlıq, cəngavərlik təşkil etdiyindən etnik-mənəvi sistemin güzgüsü olan folklorda, o cümlədən də dastançılıq ənənəsində qəhrəmanlıq motivinin geniş və qabarıq yer alması təbii-tarixi zərurətdən irəli gəlmişdir» (1, 225). Məhz bu mövqedən baxdığımız zaman «Edigey» dastanının təbii-tarixi zərurətdən yarandığı açıq-aşkar görünür.

Sənədlər göstərir ki, Edigey 1352-ci ildə anadan olmuşdur. Məşhur ərəb tarixçisi İbn Ərəbşah (1389-1450) onun haqqında məlumat verərkən yazır ki, o, «qarabuğdayı, bəstəboy, möhkəm bədən quruluşuna sahib, cəsur, bədheybət görünüşlü, ağıllı, comərd, xoş təbəssümlü, fərasətli, alimləri və savadlı insanları sevən» (10, 473-474) biri idi. Edigey 1377-1378-ci illərdə Toxtamış xanın Göy Ordanın başına keçməsinə yardım etmişdir. 1391-ci ildə isə o, Toxtamış xana qarşı həyata keçirilən uğursuz sui-qəsddən sonra Əmir Teymurun tərəfinə keçmiş və ona qarşı vuruşmuşdur.

Edigey XIV əsrdə Yaik və Emba çayları arasında Noqay Ordası, Manqıt yurdu qurmuşdur. O, Qızıl Ordanın Birliyini quraraq Şadibəyi və Teymur Qutlunun oğlu Bulat Sultanı öz hakimiyyəti altında birləşdirmişdir. 1397-ci ildə Toxtamışa qarşı yenidən baş verən döyüşlər zamanı onun ordusunu Krımdan çıxarmışdır. Edigey 1399-cu ildə Litva şahzadəsi Vitovt və Toxtamış

xanın birləşmiş ordusunu Vorskl döyüşü zamanı məğlub edərək Qızıl Orda əmiri olmuş və onun Qızıl Ordanın birliyi uğrunda apardığı mübarizələr və digər döyüşləri «Edigey» dastanının əsas süjetini təşkil etmişdir.

Edigey 1408-ci ildə Moskvaya yürüş etmiş, şəhərləri dağıtmış və oradan xərac almağa başlamışdır. V.M.Jirmunski yazır ki, «rus əlyazmaları (Novqorod, Pskov, Rostov və Arxangel, xüsusilə də Nikonov küliyyatı) Toxtamış və Edigeyin Moskvaya yürüşündən, Vorskl döyüşündən, az da olsa, Qızıl Ordanın daxili siyasətindən (Mamay, Toxtamış və Edigeyin mübarizəsi) ətraflı bəhs edirlər» (7, 362).

Hələ Edigeyin sağlığında islam tarixçiləri onun siyasi mövqeyini və əldə etdiyi uğurları çox yüksək qiymətləndirirdilər. Edigeyin şəxsi keyfiyyətləri, hərbi uğurları, bir hökmdar kimi nüfuzu, ölkədə sabitliyin və birliyin qorunub-saxlanılması uğrunda verdiyi mübarizələr zaman ötdükcə dillərə düşmüş, onun haqqında bir çox əfsanələrin yaranmasına səbəb olmuşdur. Elə bu da «Edigey» dastanının onun sağlığında yaranmasının bir təsadüf olmadığını sübut edir. İslam tarixçiləri də öz əsərlərində bu əfsanələrdən bir neçəsinin adını çəkir, məsələn, V.V.Bartoldun «Edigeyin atası haqqında əfsanə» əsəri. Şəmsəddin əz-Zəhəvi (1347-?) «onun haqqında uzun-uzadı hekayələrin söyləndiyi»ni (10, 553-554) qeyd edir. İbn Ərəbşah isə Edigey haqqında o dövrdə həqiqətə uyğun olmayan – Edigeyi mənfi obraz kimi qələmə verən hekayələr, rəvayətlər uydurulduğunu yazır. Qeyd edək ki, Əmir Teymura qarşı sərt mövqedə olan İbn Ərəbşahın Edigeyə xüsusi rəğbəti vardı. Əbəs deyil ki, məhz Ərəbşahın verdiyi məlumatlar sayəsində bu gün Edigeyin şəxsiyyətini müəyyən edə bilirik.

Ümumiyyətlə, bütün islam tarixçiləri arasında Edigey haqqında ən geniş məlumatı İbn Ərəbşah vermişdir. Onun əsərlərində Edigeyin şəxsiyyəti, dünyagörüşü, keşməkəşli ömür yolu ən xırda ayrıntılara qədər əks olunmuşdur. Edigeyin şəxsiyyətindən

bəhs edərkən o yazır ki, Edigey «dindarlarla və dərvişlərlə ünsiyyət qurur, onlarla mülayim rəftar edir, zarafatlaşır, oruc tutur, gecə yarısı dua etmək üçün durur, şəriətə riayət edir, Quranı, sünnəni və müdriklərin sözlərini Allahla öz arasında vasitəçi yaradırdı» (10, 473-474).

Edigeyin 1419-cu ildə vətəndaş müharibələrinin birində öldürüldüyü güman edilir. Mənbələrin verdiyi məlumata görə, «onun ən azı 20 oğlu var idi. Onlardan ən məşhurları Mənsur (ölüm tarixi 1427), Nurəddin (ölüm tarixi 1440), Qazi (ölüm tarixi 1428), Naurus, Key Kavad, Sultan Mahmud və Mübarək»dir (11, 90). Ümumiyyətlə, Q.N.Potanin onun haqqında «bir dastan qəhrəmanı olan Edigey tarixi şəxsiyyətdir» (9, 373) deyirdi. Göründüyü kimi, Edigey bir tarixi şəxsiyyət kimi şərəfli, bir o qədər də keşməkəşli ömür yolu keçmişdir.

Qeyd edək ki, «Edigey» dastanı əsas süjet xəttini konkret hər hansı bir döyüşdən aldığını iddia etmək olmaz. Dastan bir şəxsin (bu məqamda konkret Edigeyin) həyatından bəhs edə bilər, amma qəhrəmanın ömrü boyu vuruşduğu onlarla döyüşün içərisində yalnız birinə həsr edilə bilməz, çünki «dastan, hər şeydən əvvəl, bir ədəbi əsərdir və həyatdan götürülmüş hadisələri həqiqət pərdəsinə bürüyərək təqdim edir» (3, 22). Yəni dastan tarixi həqiqətlərin üzə çıxarılması üçün salnamə və ya tarixi əsər deyil, o, sadəcə, xalqın şifahi şəkildə ağızdan-ağıza ötürərək müəyyən bir dövrdə yaşayan qəhrəmanı haqqında yarıuydurulmuş bir hekayədir. Əslində tarixi bir hadisənin dastana çevrilməsi üçün də o hadisənin nəsildən-nəsilə, ağızdan-ağıza ötürülməsi çox vacibdir. Bu zaman da dastan və ya tarixi hadisə əsrlərlə əlavələrə və təhriflərə məruz qalır. Bəzən zamanla dastanın təşəkkülündə rol oynayan kiçik bir hadisə dastanın içərisində arxaikləşir və ya arxaik epizoda çevrilir. M.F.Köprülü bir ədəbi mətnin tarixi sənəd kimi necə istifadə olunmasının yollarını göstərərək yazır ki, «tarixi sadəcə xronologiya və bioqrafiya şəklində görmək əsassız və köhnə fikirdir. Ədəbi əsərlər bəzən öz mənbələrini inkar edir,

lakin bundan istifadə edərkən sağlam ədəbi mədəniyyət, tənqidi yanaşma bacarığının olması da vacibdir» (5, 379-486). V.M.Jirmunski isə öz növbəsində, qəhrəmanlıq dastanları haqqında danışarkən deyir ki, «dastan, xalqın qəhrəmanlığı ideallaşdırması baxımından canlı keçmişidir. Buradan da onun elmi-tarixi dəyəri və eyni zamanda ictimai, mədəni-tərbiyəvi əhəmiyyəti irəli gəlir» (7, 195). M.Təhmasib isə yazır ki, «qədim türk cəmiyyətində dastan təfəkkürü istisnasız olaraq bahadırlıq düşüncəsinin obrazlaşmasına yönəldiyindən həmin mərhələyə məxsus epik ənənənin özəyində qəhrəmanlıq motivi və bu motivin ifadəsi olan çeşidli qəhrəmanlıq süjetləri durur (1, 225-226).

Ümumiyyətlə, dastanda göstərilən bəzi şəxs və coğrafi adlar tarixlə səsləşsə də, bəzən xalqın müqəddəsləşdirdiyi baş qəhrəman tarixin mifoloji təbəqəsinə qədər enir. Məsələn, «Edigey» dastanında Edigeyin və Qara Tiyin Alpın bir ilahədən doğulmaları, «Koroğlu» dastanında Qıratın qanadları və s. onlarla belə misal gətirmək olar.

Edigeyin şəxsiyyəti, keçdiyi həyat yolu, ümumiyyətlə, yaşadığı dövrün ictimai-siyasi hadisələri onlarla dastanın, əfsanənin, rəvayətin yaranmasına səbəb olmuşdur. Edigey yalnız xalqın əfsanələşdirdiyi, müqəddəsləşdirdiyi qəhrəman deyil, elə xalqın içərisindən çıxmış, adi, sadə insandan hökmdara qədər yüksəlməyi bacaran bir tarixi şəxsiyyət və dastan qəhrəmanıdır.

Bütün türk qəhramanlıq dastanlarında cəngavərlik, ərənlik, igidlik ön plana çəkilir. Dastanlarda təsvir edilən qəhrəmanlıq və ya alplıq bu ənənənin sonrakı nəsillərə ötürülməsi missiyasını daşıyır və eyni zamanda epik yaddaşda öz yerini möhkəmləndirir. Burada qəhrəmanın doğuluşundan missiyasının sona yetdiyi və ya öldüyü dövrə qədərki zaman kəsiyi cəngavərlik, alplıq, batırlıq səhnələri ilə zəngin olur. Əslində bu səhnələr xalqın yaddaşında qoruyub-saxladığı qəhrəmanlıq ənənəsindən doğur.

E.Meletinski Sibir türklərinə və monqollara aid dastanlar üzərində tədqiqat apararaq türk dastanlarında izlənilən mərkəzi

qəhrəman tipinin ortaya çıxması və inkişafındakı xüsusları aşağıdakı kimi göstərmişdir:

1. Arxaik yakut və Sibir türk-monqol dastanlarında qarşımıza çıxan mərkəzi qəhrəman tipi mədəni qəhrəman tipidir;

2. Bu tipə digər mədəniyyətlərin mifologiyalarında da rast gəlmək mümkündür;

3. İlk dönəmə aid epik əsərlərdə qarşımıza çıxan qəhrəman tipi bütün dünyada təkdir. Hətta ilk insan olduğu da düşünülür;

4. Bəzən qəhrəmanın Tanrı ilə olan qohumluq bağlarından da bəhs edilir. Məsələn, Yakutların dastan qəhrəmanı Ər-Soqotoxun Yuryun Aar – Toyonun (Böyük Tanrı – Yaradan) oğlu, ya da nəvəsi olduğuna inanılması kimi;

5. Bu qəhrəman tipi, eyni zamanda ilkin ata funksiyasını öz üzərinə götürür;

6. Dastanlarda qəhrəmanın tənha olduğu ana-atasını tanımadığını dilə gətirməsindən anlaşılır. Orta əsr qəhrəmanlıq dastanlarında da bu tənhalıq motivi qəhrəmanı düşmənlə qarşı-qarşıya gətirmək üçün istifadə olunmuşdur. Düşmən tərəfindən soyu məhv edilən qəhrəman tənha qalır. İntiqam almaq üçün təklikdə mübarizə aparır;

7. Bəzən də qəhrəmanın ata-anasının olmamasına baxmayaraq, onun bacıları meydana çıxır;

8. Mədəni qəhrəman tipinin funksiyası dastanın variantlaşmasından asılı olaraq dəyişə bilir. Bu vəziyyətdə ilkin at və ya mədəni qəhrəman tipi qəbilənin qurucusu və qoruyucusu olaraq qarşımıza çıxır. Öz missiyasını tamamlayan və artıq ehtiyac duyulmayan mədəni qəhrəman tipi isə Tanrıların qatına göndərilir;

9. Arxaik dastanlardakı qəhrəman tipinin ən önəmli funksiyası nəsil artıraraq və ya başqa yollarla xalq meydana gətirmək və onlara yaşaya biləcəkləri bir yer yaratmaqdır (8).

Əslində türk dastanlarında qəhrəmanlıq qəlibinin və qəhrəmanlıq tipinin çox sadə formulu var: hər bir etnos məskunlaşdığı

coğrafi ərazidə müxtəlif varlıqlarla və ya düşmən bildiyi digər etnoslarla eyni mühitdə məskunlaşır və yaşayır. Onlar arasında fikir ayrılığı, narazılıqlar və ya xalqın qəbul edə bilmədiyi qorxunc (məsələn, «Dədə Qorqud kitabı»ndakı Təpəgöz kimi) varlıqlar meydana gəlir. Bu zaman etnos artıq özünü qorumaq üçün yol axtarır. Başlanğıcda etnos mübarizəyə hazır olmur və ya özünü müdafiə edə bilmir. Hətta bu etnosun varlığı təhlükə altında qalır. Elə bu zaman da etnosun içərisindən xilaskar funksiyasını yerinə yetirə biləcək bir qəhrəmanın yetişməsinə zərurət yaranır. O, qorxunc varlıqları və qəddar yadelliləri yaratmağı bacaran epik təfəkkür özünü ondan bir şəkildə qorumağın yolunu da tapır. Bu formula mifoloji təfəkkürdəki dastan tipindən ən gənc dastan tipinə qədər bütün türk dastanlarına tətbiq oluna bilən sadə ənənəvi qəhrəman qəlibidir. Fikrimizi isbat etmək üçün müxtəlif türk soylarının dastanlarından bir neçə nümunəyə nəzər salaq.

**«Alpamış» dastanı:** qəhrəman bilinməyən diyarlara səfərlər etmişdir. Əfsanəvi varlıqlarla döyüşmüşdür. Anasının bətnində 12 ay qalmışdır. Yeddi gündə yeddi yaşına gəlmişdir. Ulu bir ağacın təpəsindəki nəhəng quşun balalarını əjdahadan (və ya ilandan) qurtarmışdır. Nişanlısının başqa biri ilə evləndiyini görüb çoban qılığına girir və yanına yaxınlaşır. Sonda nişanlısına qovuşur.

**«Xan Orba» dastanı:** ata-anaları öləndən sonra xalalarının himayəsində böyüyən bacı-qardaş valideynlərinin intiqamını almaq üçün uzun mübarizələrdən keçirlər. Əvvəlcə xalasının qadağalarına məhəl qoymayan qardaş intiqam almaq üçün girdiyi bir neçə döyüşdə qalib gəlir. Sonuncu döyüşdə məğlub olma təhlükəsi ilə üz-üzə qalan qəhrəmanın yardımına bacısı yetişir. Onlar birlikdə qalib gəlirlər və öz ölkələrində xoşbəxt ömür sürürlər.

**«Maaday Kara» dastanı:** Maaday-Kara üzərinə gələn yaddelli işğalçılardan yeni doğulmuş körpəsini qorumaq üçün onun beşiyini dağın başında bitən ağaca bağlayır. Zaman keçir, uşaq böyüyür, ata-anasını və xalqını düşmənin əsarətindən qur-

tarır. Ulduz olub göyə qalxır və oradan xalqının əmin-amanlığını və ölkəsinin sərhədlərini qoruyur.

**«Ural Batır» dastanı:** iki qardaş kimsəsiz adada yaşayırlar. Bir gün valideynləri onlara ölümü tapıb öldürməyi tapşırır. Onlar da ölümü axtarmaq üçün çıxdıqları yolda bir çox çətinliklərlə qarşılaşırlar. Nəhayət, ölümü tapan qəhrəman bir yumruğu ilə ölümü öldürür. O biri qardaş isə bütün yer üzünü su ilə doldurur. Qəhrəman öz xalqını gəmilərə yığaraq xilas edir.

**«Koroğlu» dastanı:** gözləri çıxarılmış ilxıçının oğlu Rövşən atasının intiqamını əvvəl təkbaşına almaq istəyir. Atasının məsləhətinə qulaq asandan sonra əvvəl ulduzlar toqquşanda köpüklənən çaydan içir, sonra başına dəstə toplayaraq xalqı paşaların, xanların zülmündən qorumağa çalışır, xalqın azadlığı yolunda mübarizə aparır.

**«Edigey» dastanı:** atasına və özünə bir quş yumurtasına görə ölüm hökmü kəsən xandan intiqam almağı düşünən qəhrəman başına böyük qoşun toplayaraq xalqı zalım padşahın zülmündən xilas edir və özü taxta sahib olur.

**«Koqutey» dastanı:** Altay qəhrəmanlıq dastanı «Koqutey» xan, bəylərlə xalqın kasıb təbəqəsi arasındakı mübarizədən bəhs edir.

Bu dastanların sırasına qəhrəmanın qadın olduğu dastanları da daxil edə bilərik, məsələn, qırğızların «Canqıl Mirzə», uyğurların «Nözüğüm», başqırdların «Zaya Tülək», xakasların «Altın Arığ» və s. dastanları. Burada baş qəhrəmanın qadın olmasına baxmayaraq, dastanın süjetində ənənəvi qəhrəman tipi mövcuddur.

Adını çəkdiyimiz dastanlarda qəhrəmanlar döyüş zamanı cəngavərlik ənənələrinə yiyələnirlər. Göründüyü kimi, xalq hər zaman öz poetik təfəkküründə qəhrəmanı daha da ideallaşdıraraq ondan mükəmməl epik qəhrəman yaradır.

Ənənəvi qəhrəman tipi bütün türk dastanlarında, demək olar ki, eynidir. Lord Raqlan dastanlarda qəhrəman qəlibi hazırlayarkən psixoloji ünsürləri bu qəlibə daxil etməyi gərəksiz he-

sab etmiş və bu qəlibi qəhrəmanın həyatını əsas götürərək hazırlamışdır (4, 26-27).

M.Təhmasibin dastanlarda qəhrəmanın yoldakı maneələri dəf etməsi ilə bağlı yazdığı təsnifatı və ya qəlibi də diqqəti çəkir. O yazır: «Yol maneələri əsasən üç cür təzahür edir:

a) dastan qəhrəmanı yolda xeyirxah adamla rastlaşır;

b) dastan qəhrəmanı yolda həramilərə, qaçaq-quldura, oğru-əyrilərə, kəlləgözlərə, cin-şəyatinlərə rast gəlir, onlarla ölüm-dirim mübarizəsinə girir.

c) dastanlarda qəhrəman bəzən çox gözəl, igid, ağıllı, fərasətli, qeyri-adi qabiliyyətlərə malik qızlara rast gəlir» (1, 229).

«Edigey» dastanını M.Təhmasibin bu qəlibi üzərində araşdırsaq, görərik ki:

a) Öz oğlunun Edigeyin əvəzinə dar ağacından asılmasına razı olan ilxıçı – bu ilxıçı öz oğlanlarından birini öləcəyini bilə-bilə Edigey adı ilə Toxtamış xana təqdim edir və Toxtamış xan da uşağı dar ağacından asdırır.

b) Edigeyin doqquz yoldaşı ilə getdiyi səyahətdə qarşılarına çıxan doqquz başlı, bir quyruqlu ilan, ikinci dəfə isə doqquz quyruqlu, bir başlı ilan – bu ilanla aparılan mübarizə sayəsində doqquz dostu da Edigeyi özlərinə başçı, rəhbər seçirlər.

c) Şatemir xanın ağıllı, fərasətli, gözəl qızı – bu qızı Edigey Kabartı Alıp batırın əlindən azad etdikdən sonra özünə arvad edir.

M.Təhmasibin bu qəlibini «Koroğlu» dastanı üzərində də tətbiq etmək olar. Orada da eynilə Koroğlunun getdiyi səfərlərdə ona yardım edən və mane olan qüvvələr, qarşısına çıxan gözəl, ağıllı və fərasətli qadınlar mövcuddur.

M.Ergin yazır ki, «hər millətin bir milli dastanı olduğu halda, türklərin milli dastanlarının bu cür çoxluğunun səbəbi onların milli həyatının və tarixi macəralarının bir dastana sığmamasıdır. Bir dastana sığmayan milli həyat və macəralar isə türkün tarixinin nə qədər qədim olduğunu şərtləndirir. Ayrı-ayrı

xalqların müxtəlif dövrlərdəki qəhrəmanlıq eposları heç də ədəbi uydurma olmayıb, ictimai inkişafın, mədəniyyət tarixinin çox mühüm mərhələsidir. Bu mərhələni əksər xalqların tarixində görmək olur (6, 5-6).

## QAYNAQLAR


1. Təhmasib M. Seçilmiş əsərləri. 2 cilddə, I cild, Bakı, Mütərcim, 2010
2. Təhmasib M. Dastan yaradıcılığımız haqqında. «Ədəbiyyat və incəsənət qəzeti, 1967
3. Çobanoğlu Ö. Türk Dünyası Epik Destan Geleneği, Akçağ Yayınları, Ankara, 2007
4. Erhan A. Lord Raglan'ın Kahraman Kalıbı ve Alp Han Orba. Siberian Studies (SAD) 2013, Cilt 2, Sayı 4, Volume 2, Number 4, s.13-30
5. Köprülü M.F. Anadolu Selçuklu Tarihinin Yerli Kaynakları, Belleten, C.VII, 1943, s.379-486
6. Muharrem Ergin. Birinci baskının ön sözü // Oğuz Kağan. İstanbul. 1988
7. Жирмунский В.М. Народный героический эпос. М.-Л., 1962
8. Мелетинский Е. О древнейшем типе героя в эпосе тюрко-монгольских народов Сибири. Проблемы сравнительной филологии. Сборник статей к 70-летию члена-корреспондента АН СССР В.М.Жирмунского. М.-Л.: Наука, 1964. С. 426-443.
   http://www.ruthenia.ru/folklore/meletinsky16.htm
9. Потанин Г.Н. Сага о Соломоне. Т. IV, Москва, 1966
10. Тизенгаузен В.Г. Сборник материалов, относящихся к истории Золотой Орды. Т. I. Извлечения из сочинений арабских. СПб., 1884, стр.473-474
11. Трепалов В.В. История Ногайской Орды. РАН, Москва, 2002

# M.H.TƏHMASİBİN DASTAN STRUKTURU VƏ İFADƏ TEXNOLOGİYALARI İLƏ BAĞLI NƏZƏRİ GÖRÜŞLƏRİ

**Maral YAQUBOVA**
*Filologiya üzrə fəlsəfə doktoru,*
*AMEA Nizami adına Ədəbiyyat İnstitutu*
*yaqubova.maral@mail.ru*

**Özət**

M.Təhmasibin tədqiqatlarının böyük bir hissəsini şifahi xalq ədəbiyyatının dastan janrının müxtəlif istiqamətlərində aparılan araşdırmaları təşkil edir. Azərbaycan dastan yaradıcılığı və onun inkişaf mərhələləri, tipoloji təsnifatı, obrazlar sistemi ilə yanaşı, dastanların poetik strukturu və ifadə texnologiyaları ilə bağlı nəzəri görüşlərini ortaya qoymuşdur. Arxaik və klassik eposun tədqiqində elmi-nəzəri müxtəliflik, epos yaradıcılığında fərdi və kollektiv başlanğıclarla bağlı mübahisəli fikirlər də M.Təhmasibin diqqətini cəlb etmişdir. Canlı ənənənin abidəyə çevrilmə mexanizmini izləmiş, fərdi başlanğıcın dastan strukturunda izlərinə, ifadə texnologiyalarına əsasən öz elmi qənaətini formalaşdırmışdır. Oğuz epik ənənəsini üzə çıxaran poetik ünsür və süjet elementlərinə, motivlərə xüsusi diqqət yetirmişdir. Dastanların mənşəyi ilə bağlı mülahizələrində poetik strukturun özündən çıxış etməyə üstünlük vermişdir.M.Təhmasibin Azərbaycan dastanları ilə bağlı araşdırmalarında dastan struktur tipologiyasını təsnifat, mətn strukturu, motiv və obrazlar sistemi istiqamətlərində nəzəri görüşlərini ortaya çıxarmaq təqdim edilən məruzənin əsas məqsədini təşkil edir. Məruzənin məqsədi folklorşünas alimin dastan və onun strukturuna tarixi-mədəni inkişaf kontekstində baxışının mahiyyətini, dastanlarının təsnifatı prinsipləri və dastan semantikası ilə bağlı mülahizələrininin metodoloji əsaslarını müəyyənləşdirməkdir.

**Açar sözlər:** M.Təhmasib, dastan strukturu, ifadə texnologiyası, folklorşünaslıq

## ТЕОРЕТИЧЕСКИЕ ВЗГЛЯДЫ М.Г.ТАХМАСИБА НА СТРУКТУРУ И ТЕХНОЛОГИЮ ИЗОБРАЖЕНИЯ ДАСТАНА

**Резюме**

Большую часть трудов М.Тахмасиба составляют исследования различных направлений жанра дастана в устном народном творчестве. Помимо типологической классификации, системы образов и этапов развития азербайджанского дастанного творчества, в центре внимания учёного теоретические вопросы, связанные с поэтической структурой и технологией выражения дастанов. Он формулирует научные результаты, прослеживая механизм превращения живой традиции в памятник, следы индивидуальных черт, технологии выражения в структуре дастана. Основное внимание уделено деталям, элементам сюжета, мотивам, восходящим к огузской эпической традиции. В вопросах происхождения дастанов учёный отдавал предпочтение с точки зрения самовыраженности поэтической структуры. Основная цель представленного доклада состоит в выявлении типологической структуры дастана, структуры текста, мотивов и системы образов в исследованиях М.Тахмасиба связанных с азербайджанскими дастанами.

**Ключевые слова:** М.Тахмасиб, структура дастана, технология изображения, фольклороведение

## M.H.TEHMASIB'S THEORETICAL VIEWS ON THE EPOS STRUCTURE AND EXPRESSION TECHNOLOGIES

**Summary**

A majority of M.Tehmasib's researches has been carried out in different directions of epos genre of folklore. Along with the creativity of epos in Azerbaijan and its stages of development, typological classification, the system of images, the scientist has revealed theoretical views on poetic structure of eposes and

expression technologies. He followed the monumental transformation mechanism of the living tradition and came to the scientific conclusion on the basis of signs and expression technologies of individual initiation in the epos structure. He also paid special attention to poetic elements and elements of plot, motifs which revealed the Oguz epic tradition. The scientist prefered the poetic structure in his opinions related with the origin of the eposes.The main purpose of the presented report is to reveal the M.Tahmasib's theoretical views of structural typology of eposes in the direction of classification, text structure, motif and images system in the researches on the Azerbaijani eposes.

**Key words:** M.Tehmasib, epos structure, expression technology, folklore studies

M.Təhmasibin tədqiqatlarının böyük bir hissəsini şifahi xalq ədəbiyyatının dastan janrının müxtəlif istiqamətlərində aparılan araşdırmaları təşkil edir. Azərbaycan dastan yaradıcılığı və onun inkişaf mərhələləri, tipoloji təsnifatı, obrazlar sistemi ilə yanaşı alim, dastanların poetik strukturu və ifadə texnologiyaları ilə bağlı nəzəri görüşlərini ortaya qoymuşdur. Arxaik və klassik eposun tədqiqində elmi-nəzəri müxtəliflik, epos yaradıcılığında fərdi və kollektiv başlanğıclarla bağlı mübahisəli fikirlər də M.Təhmasibin diqqətini cəlb etmişdir. Canlı ənənənin abidəyə çevrilmə mexanizmini izləmiş, fərdi başlanğıcın dastan strukturunda izlərinə, ifadə texnologiyalarına əsasən öz elmi qənaətini formalaşdırmışdır. Oğuz epik ənənəsini üzə çıxaran poetik ünsür və süjet elementlərinə, motivlərə xüsusi diqqət yetirmişdir. Dastanların mənşəyi ilə bağlı mülahizələrində poetik strukturun özündən çıxış etməyə üstünlük vermişdir. M.Təhmasibin Azərbaycan dastanları ilə bağlı araşdırmalarında dastan struktur tipologiyasını təsnifat, mətn strukturu, motiv və obrazlar sistemi istiqamətlərində nəzəri görüşlərini ortaya çıxarmaq təqdim edilən məruzənin əsas məqsədini təşkil edir. Məruzənin məqsədi folklorşünas alimin dastan və onun

strukturuna tarixi-mədəni inkişaf kontekstində baxışının mahiyyətini, dastanlarının təsnifatı prinsipləri və dastan semantikası ilə bağlı mülahizələrininin metodoloji əsaslarını müəyyənləşdirməkdir.

Azərbaycan folkorşünaslığının formalaşması və inkişafında Məmmədhüseyn Təhmasib (1907-1982) öz mövqeyi ilə seçilir və onun adı ilə bağlı folklorşünaslıq məktəbi formalaşmışdır. M.Təhmasibin folkorşünaslıq fəaliyyəti mövsüm və mərasim nəğmələrindən başlayıb Azərbaycan xalq dastanlarına qədər geniş bir sahəni əhatə edir. “M.Təhmasib Azərbaycan folklorunun qəhrəmanları, janrları, süjet və motivləri, başqa sözlə, ən vacib problemləri barədə dəyərli mülahizələr irəli sürmüş, elm adamları üçün qaranlıq qalan bir çox məsələlərə aydınlıq gətirmişdir. Folklorşünaslıqda bir sıra problemlərin öyrənilməsinə M.Təhmasibin araşdırmalarından sonra başlanılmışdır. Folklor mətnlərinə hansı mövqedən yanaşmaqla bağlı bir çox prinsiplər də elm aləminə M.Təhmasibin əsərlərindən yayılmışdır”(10).

M.Təhmasibin 1965-ci ildə elmlər doktoru alimlik dərəcəsi almaq üçün müdafiə etdiyi "Azərbaycan xalq dastanları (orta əsrlər)" adlı dissertasiya 30 illik axtarışın bəhrəsi, Azərbaycan eposşünaslığının fundamental tədqiqinin nəticəsi idi. Həcminin kəmiyyət, məzmununun keyfiyyət göstəricilərinə görə ümumtürk xalqları və eləcə də ümumdünya eposşünaslığında yüksək dəyərləndirilən "Azərbaycan xalq dastanları (orta əsrlər)" elmi ictimaiyyət tərəfindən böyük maraqla qarşılanmışdır. Belə ki, Sovetlər zamanı Özbəkistan SSR EA-nın akademikləri: fəlsəfə elmləri doktoru, professor Vahid Zahidov, filoloji elmlər doktoru, professor Abdullayev, Türkmənistan SSR EA-nın akademiki B.A.Karrıyev, professor A.Kəkilov, filoloji elmlər doktoru, professor M.Y.Çikovani, Qaraqalpaq Ədəbiyyat, Tarix və Dil İnstitutunun professoru K.M.Maksetov, Berlin Humbolt Universitetinin professoru K.Həzayi, Bolqarıstan alimlərindən professor R.Mollof və başqaları "Azərbaycan xalq dastanları" əsərini türkologiya aləmində yaxşı bir təşəbbüs adlandırmış, bütün türk xalqları, hətta, ümumiyyətlə,

Şərq xalqları şifahi ədəbiyyatının tədqiqində onu bir örnək kimi qiymətləndirmişlər. Dastanların müəllif tərəfindən irəli sürülmüş yeni təsnifatını alimlər başqa xalqların eposu üçün də yaxşı bir nümunə kimi qəbul edir, M.Təhmasibin bu əsəri ilə sovet folklorşünaslıq elmini zənginləşdirmiş olduğundan danışırdılar (11).

M.Təhmasibin dastanla bağlı dərin, nizamlı və ardıcıl yanaşmalarla səciyyələnən müşahidələri və araşdırılmaları nəticəsində ortaya çıxardığı konsepsiyanın bəsit olması təbii ki, inandırıcı deyil. Alimin nəzəri görüşləri folklorun mövcud reallığını əks etdirən və onun müxtəlif amilləri arasındakı əlaqələri göstərən idrakın nəticəsidir, intellektual təsvirdir. Nəzəriyyə mütləq olaraq elmi metodlara istinadən işlənir, sistemə salınır və yoxlanılır. Nəzəriyyə ideya və prinsiplərin təlim-təkmil sistemidir, elmi təşkil edən ümumiləşdirilmiş qaydaların məcmusudur, sintetik vəhdətdir. M. Təhmasibin tədqiqatlarında dastanlar toplanılır, sistemləşdirilir, tərtib edilir, təhlil olunur. Bütün sadalanan istiqamətlərin öhdəsindən gəlmək isə, sistemli yanaşma, müxtəlif dastanlar arasında paradiqma oxşarlığını üzə çıxaracaq məzmun-forma səviyyəsində dərin bələdlilik, variant və invariant münasibətlərini tənzimləyən struktur elementləri görmək qabiliyyəti tələb edir. Ümumiyyətlə, M.Təhmasib Azərbaycan dastanlarını struktur təhlilə cəlb edir və bu işi öz nəzəri metodologiyasına ad qoymadan gerçəkləşdirir.

Məlumdur ki, bədii mətnin təhlili adətən, XX əsrin əvvəllərinə qədər ədəbiyyatdan kənar bir sıra meyarlara əsasən aparılırdı. Əxlaq, fəlsəfə, mədəniyyət tarixi, psixologiya, sosiologiya, antropologiyadan qidalanan bu meyarlar əsasında formalaşan bu ənənin yerini XX əsrin əvvəllərində Rus Formalist məktəbinin ədəbi hadisə və faktın öyrənilməsində təklif etdiyi yeni düşüncə paradiqması tutur. Formalizmə görə, varlığın kimliyini müəyyənləşdirən məhz formadır, gerçəkliyi formaya əsaslanaraq qavramaq mümkündür, həqiqətə varmaq mahiyyət və məzmunun dərki ilə mümkün deyil, bu işdə həlledici rolu forma oynayır. Rus formalist məktəbi ədəbiyyatı öyrənən elmin əsas predmeti və hədəfinin bə-

dii əsərə bədiilik qazandıran və onu digər kommunikativ deyimlərdən fərqləndirən xüsusiyyətin təşkil etdiyini bildirirdi (8, 226). Şklovski üçün bədii əsər təmiz formadır və özündən kənarda baş verənlərin və ya verəcəklərin ona heç bir dəxli yoxdur. Hətta bu və ya digər ədəbi məktəbdən özündən əvvəlki məktəbin mövzularından imtina etməsi həmin mövzuların yaranmasını şərtləndirən situasiyaların həyati mövcudluğunu itirməsi ilə deyil, birbaşa əsərin öz quruluşunu yeniləməsi kimi səciyyələndirilir. Onun radikal formalizmində bədii əsər formadır, onun hər bir detalı formanı əxz etdirir. Formalistlərdən V.B.Şklovski, B.M.Eyxenbaum, Y.N.Tınyanovun bu müddəa ətrafındakı mülahizələri Praqa məktəbində R.O.Yakobsonun, Yan Mukarjovskiyin, S.Todorovun nəzəri tezisləri ilə sabitləşdi. Rolan Bart, M.Riffater, J.Jenette, A.Greymas və başqaları yeni bədii mətn təhlil modelləri ortaya qoydular. Semiotikanın ədəbiyyatı tədqiq üsullarına təsir etməyə başlaması ilə, ədəbi mətn təhlilləri tematik araşdırma dairəsindən tamamilə uzaqlaşmış, diqqətini mətnin strukturlarına və strukturlar arasındakı əlaqələrə yönəltmişdir. Mətndəki mövcud anlamların açılışına yönəlmiş ənənəvi təhlillərdən fərqli olaraq, semiotik yanaşma, mətni bir-biriylə qarşılıqlı təsirə girən işarə qəlibləri olaraq gördü və mətnin mənasını bu işarələrin necə meydana gətirdiyi sualı üzərində dayandı. Bu anlamı təbii bir hadisə olmaqdan çıxardı, onu kodlara və ənənələrə söykənən strukturlar olaraq gördü. F.Sossür, Ç.U.Morris, Ç.Pirsin semiotik araşdırmalarında işarə ilə işarə olunan arasındakı həqiqətəuyğunluq – ilkinə uyğunluq münasibətlərinin yeni nəzəri əsasları ortaya qoyuldu. F.Sössür və Çarlz Sanders Pirs "dil xarici referent" dən – şeylər dünyasından imtina edirdilər. Sössür işarənin ixtiyariliyi ideyasından çıxış edərək, dilin avtonomluğunu, işarənin referensial deyil, differensial səciyyə daşıdığını önə sürür. Pirsin semiotik təhlilərində semiozisin qeyri-məhdud məkanında işarə ilə obyekt arasındakı əlaqə itmişdir və interpretasiya cərgəsi işarədən işarəyə doğru gedir və heç vaxt ilkinə vara bilmir (5, 116-117).

Bədii düşüncənin keçdiyi mif-folklor-ədəbiyyat təkamülündə dastan janrının mövqeyi ilə bağlı nəzəri fikirdə formalaşmış mövqeyə görə dastan mif və yazının təmas nöqtəsidir. "Mif və yazının qarşılıqlı münasibətləri dastanda gəlib birləşir. Mifin bütün əzəməti və gücü də məhz burada özünü göstərir, gələcək gücsüzlüyü, zəifləməsi də məhz burada öz ilkin tərpənişinə başlayır. Yazının da eynilə ilkin gücsüzlüyü burda – bu təmas nöqtəsindədir" (1, 318). Qarşılıqlı münasibətlərin poliqonuna çevrilən dastan "mifə məxsus olan özəllikləri – mətnin gizlininə qovduğunu gizlinə qovmuş, yox etdiyini yox etmişdir. Dastanda mifin sabiq əzəmətini duymaq o qədər də çətin deyil. Sadəcə olaraq daha dərinə, mahiyyətə aparan həmin yola düşmək lazımdır" (1, 318). Özündə müxtəlif qatları əks etdirən dastanın janr kimi elmi-nəzəri tədqiqini mövzu-məzmun səviyyəsində aparmaq düzgün nəticələrin əldə edilməsinə maneəçilik törətməkdən başqa bir işə yaramaz. Konkret bir bədii sistemin, məsələn, Oğuz mifoloji dünyagörüşünün oğuz mətnlərində bərpası həmin sistemin hərtərəfli açılışını təmin edəcək təhlil modelini tələb edir. Struktur-sistemin öyrənilməsi zərurətə çevrilir.

M.Təhmasibin nəzəri görüşlərində dastan mətni – süjetli, konfliktli, surətli, səciyyəli, aşiqli, məşuqəli, "bağlama" və "açma"lı, "duvaqqapma" və "ustadnamə"li bir bütöv kimi şərh olunur. Dastanda şeirlə nəsrin növbələşməsi prinsipini rus və Avropa alimləri tərəfindən sadəlik, primitivlik, bəsitlik kimi qəbul edilmısini doğru hesab etmir. Alimin fikrincə, nəzm və nəsrlə ifadə olunma dastan strukturunda iki müxtəlif daxili strukturu formalaşdırır. Dastanın "yurd" hissəsində hadisə, əhvalat, macəra sadəcə nəql olunur, danışılır, təhkiyəvi dillə, yəni nəsr texnologiyası ilə ifadə edilir. Dastan personajları arasındakı dialoqların əsasını təşkil edən müraciətlər, münasibətlər, məhəbbət, iztirab, həyəcan, kədər, sevinc duyğuları, dəyişmə və müşairələr isə qoşmalarla, yəni nəzm texnologiyası ilə öz əksini tapır. Məhz bu tip ifadə texnologiyası dastanı nağıldan fərqləndirən göstərici kimi çıxış edir. Das-

tan strukturunu formalaşdıran nəzm-nəsr növbələşməsi, dastan təhkiyəsinin olmuş hadisə, tarixi həqiqətə uyğunluq üzərində qurulması kimi faktlar nağıl üçün keçərli deyil. Qara nağılın "uydurma", "yalan", "quraşdırma" əsasında formalaşan strukturunda nəsr yeganə özünüifadə formasıdır. Dastanların nağıl motiv və süjetləri əsasında yarana bilmə qabiliyyətini də unutmur, dastanlarla bağlı təhlillərdə həmin nağıl qatını – skeleti aşkara çıxarmağa çalışır. Dastan-oxucu və nağıl-oxucu kontekstləri arasındakı fərqlərlə bağlı fikirlərini pişrov və ustadnamələrin müqayisəsi yolu ilə izah etməyə çalışır. "Pişrov" nağıl dinləyicisini fantastika, fantaziya və xəyal aləminə səyahət üçün hazırlayan bədii priyom funksiyası daşıyır (7, 66). Ustadnamə isə müəllifin ənənəyə sadiqliyini və dastan invariantlığını təsbit etməklə yanaşı, oxucunu olub keçmiş bir hadisə haqqında nəqlə hazırlayır, hadisələrin gerçəkliyinə inandırmaq missiyası daşıyır. Dastanların tarixi xarakter daşıması, onun strukturunda tarixin sistem kimi iştirakını səciyyələndirir, buna görə dastanda mifik qatla yanaşı, tarixi qatın aşkarlanması da vacibdir.

M.Təhmasib dastanın janr kimi təsbitində şifahi xalq ədəbiyyatı müstəvisi ilə məhdudlaşmır, məsələn, Nizaminin məlum məsnəvi ilə yazılmış əsərlərini dastan adlandırmaqda israrlı mövqe sərgiləyir. Şifahi və yazılı ədəbiyyatda dastan janrının kəsb etdiyi struktur-semantik fərqləri ətraflı şərhə cəlb etməsə də, nəzm və nəsr növbələşməsinin folklordakı dastan janrı üçün xarakterik olduğunu bildirir. Şifahi ədəbiyyatda hər bir qoşmanın onu söyləyən surətə bağlılığı faktdır, həmin hissələrsiz dastanın ümumi strukturu pozulur. Yazılı ədəbiyyatın dastanlarında, alim bunu Füzulinin "Leyli və Məcnun" əsərinin timsalında göstərir ki, məsnəviyə daxil edilmiş qəzəllərin ixtisarı mətnin ümumi anlamına və ifadəsinə zərər vermir. Bu, Məmmədhüseyn Təhmasibin personaj-təhkiyəçi ilə müəllif-təhkiyəçi arasındakı incə cizgiləri duymaq qabiliyyətini, hər iki başlanğıcın mətnin strukturuna birbaşa təsiretmə potensialı ilə bağlı sezgilərini nümayiş etdirir.

Yazılı və şifahi ədəbiyyat arasındakı fərqlərə münasibətində M.Təhmasibin nəzəri görüşləri arasında diqqəti cəlb edən bir məqam da var. Belə ki, alim rəssamlıq, heykəltəraşlıq, musiqi, yazılı ədəbiyyat kimi sənət sahələrində yaradıcı prosesin və ya aktın başlayıb bitən, yekunlaşan, son nöqtə qoyulduqdan sonra dəyişməyən mahiyyətdə olduğunu qeyd edir. Rəssam fırçasını yerə qoymaqla, bəstəkar öz əsərini nota, yazıçı öz əsərini yazıya köçürməklə yaradıcılıq prosesinə son qoymuş olur ki, bu M.Təhmasibə görə şifahi xalq ədəbiyyatında, xalq yaradıcılığında tamamilə əksinədir. Şifahi xalq ədəbiyyatı baxımından alim tamamilə haqlıdır. Çünki, "ifa edə-edə yaratmaq, yarada-yarada ifa etmək" şifahi ədəbiyyatı dəyişməzlik və sabitlikdən daima uzaqda tutur. Müasir dövrdə yazılı və şifahi bölgüsündən kənarda istənilən ədəbi mətn daima şərhlərə açıq strukturdur, hər dövrün, mühitin, ən əsası oxucunun potensialının diktə etdiyi fərqli şərhlər bu mətnləri canlı tutur, diri saxlayır. Təhmasibin struktur-semantik metodoloji prinsipində müəllif-mətn-oxucu triadasının birinci ikilisi daha qabarıqdır. Müəllifin mətnlə – özündə sinkretikliyi əks etdirən ozan-varsaq-yanşaq-aşığın dastan strukturu ilə birbaşa münasibətini öyrənmək, bu sinkretikliyin dastanın hansı qatlarında, hansı səviyyələrində aşkara çıxdığını təsbit etmək alimin tədqiqatlarının əsasını təşkil edir. Aşıq kəlməsinin ifadə etdiyi sinkretizm dastan janrının strukturunda müxtəlif başlanğıcların ehtiva olunmasına səbəb olur. Şair, bəstəkar, dastançı, müğənni, çalan, oynayan, aktyor, nağılçı (7, 31) funksiyalarının sinkretikliyində təzahür edən aşığın ozan-yanşaq ad titullarına qalib gəlməsi prosesinin keçdiyi uzun və mürəkkəb yola nəzər salır.

Təhmasibin dastanların struktur təhlili ilə bağlı, daha çox hipoteza, ilkin iddia xarakteri daşıyan mülahizələri daha çoxdur. Məsələn, aşıq adının formalaşma prosesi, dastan sözünün janr kimi sabitləşməsi hadisəsi ilə bağlı fikirləri maraq doğurur. Əslində bu fikirlər gələcək tədqiqatlar üçün öz dövründə fundamental əsaslar hazırlayırdı. Aşıq-İşıq uyğunluğu, aşıq sözünün kökündə türk

mənşəli “aş” sözünün dayanması mülahizəsini önə sürən alim, dastandakı coşqunluğu, aşıb-daşan nəğmələri məhz bu sözün ifadə etdiyi anlamla bağlamağı açıq şəkildə olmasa da, ortaya qoyur. M.Təhmasib, mühitin, ictimai gerçəkliyin zaman baxımından ayrı-ayrı bədii düşüncə sistemlərinə aid dastan strukturlarında iştirakını və yerini anlamağın fərqli yolunu seçir. Dastan təşkilinin ikili səciyyəsini, dastan mətnini təşkil edənin nə olmasını və onu necə təşkil etməsini, əsas götürərək, kontekstin mətndə gerçəkləşməsini şərtləndirən səbəbləri, bu səbəblərin nəticələrini – mətndəki təzahür şəkillərini araşdırmaqla məqsədinə nail olur. Folklor mətnində təzahür şəkillərinin yaratdığı fərqi bədii dilin ifadə özünəməxsusluğu ilə izah edir. Nağıl mətnində “ənənəvi nağıl ifadələri” ni yaradan amillərə diqqət çəkir: yolun çətinliyi, yerin gözəlliyi, vəziyyətin ağırlığı, qəhrəmanın igidliyi, məşuqənin göyçəkliyi, şahın qəddarlığı, cəlladın amansızlığı və.s. Bu kimi məsələlərin təsviri dilin daha ekspressiv ifadələrdən istifadə etməsinə səbəb olur. Nəticədə “Alt dodağı yer süpürür, üst dodağı göy süpürür”, “gül gülü çağırır, bülbül bülbülü”, “getmə gözümdən gedərəm özümdən” və s. kimi istilahların, nağıl mətni üçün artıq qəlibləşmiş ifadələrin yaranması baş verir. M.Təhmasibin nağıl dilinin poetik imkanları ilə bağlı müşahidələri ilə R.O.Yakobsonun nəzəri mülahizələri arasında oxşarlıq var. Dilin özümüzü ifadə etmək, varlıqları ifadə etmək, informasiya vermək kimi vəzifələri ilə yanaşı poetik vəzifəsini də müəyyənləşdirən Yakobson, adi vəziyyətdə biz dil vasitəsilə dinləyici və ya oxucuya məlumat verərkən, sonuncunun diqqəti ötürülən informasiyanın – göndərmənin özünə yönəlir. Dil poetik vəzifəsini yerinə yetirərkən isə, oxucu və ya dinləyici diqqətini göndərilən məlumata deyil, bu məlumatın göndərmə şəklinə, dilin özünə yönəldir (9, 197-198). Mif çağının bitməsindən sonra formalaşan üç müstəqil mətn tipi kimi – nağıl, əfsanə, dastan arasındakı struktur-semantik fərqlər istifadə olunan dilin poetik imkanları ilə ştamplanır. Qeyri-adini, fövqəl gücü ifadəyə yönəlmiş nağılın poetik dil fiqurlarında imkansızlıq, mümkünsüzlük qa-

barıqdır. Əfsanələrin dinlə qeyri-adinin sintezində formalaşan strukturunda dil ifadələri müvafiq səciyyə daşıyır. Dastanda qeyri-adi olanla qəhrəmanın real mübarizəsini sintez etməyə, uzlaşdırmağa ehtiyac məhz dastançının yaranmasına səbəb olmuşdur. Dastan dilində istifadə olunan ənənəvi dil formulları nağıllardan fərqli olaraq, gerçəkliyə uyğunluq sərhədinə yaxındır. Dil və mifologiyanın başlanğıcda ayrılmaz olduğunu metafora ilə izah etməyə çalışan Ernest Kassirerə görə, incəsənət də öz mənbəsində miflə sıx şəkildə əlaqədardır. Mif və incəsənət konkret və bölünməz bir varlığın tərkib hissələri kimi formalaşır. Dünyanın magik modelində söz və obraz magiyası get-gedə zəifləyir. Mifopoetik təfəkkürdə magik elementin ayrılması ilə ümumi obraz müstəqilləşir, bədii ifadənin orijinal forması ortaya çıxır. Metaforanın gücünə əsaslanan mif və dil əlaqəliliyində loqosun üstünləşməsi ilə dil əvvəlki konseptual və emosional məzmununu itirir, yalnız bədii incəsənət sahəsində söz mifopoetik təfəkkürdən gəlmə, metaforik gücünü saxlayır. İlluziya və fantaziya aləmində sözün bədiiləşməsi ilə, bir mənadan başqa mənaya köçürülmə, məna və forma dəyişkənliyi baş verə bilər (4, 83-84). M.Təhmasibin yeganə ideoloji bazası sosializm ideologiyası olan sovet ədəbiyyatşünaslığı kontekstində belə mühüm məsələlərə münasibət bildirməsi, həqiqətən təqdirəlayiqdir. “Belə ənənəvi ştampların özünə görə poetikası da vardır. Bunlardakı vəzn, ahəng, axıcılıq, qafiyə, rədif məsələləri, misra və yaxud hissəciklər arasındakı məntiqi bağlılıq, ifadənin təsvir etdiyi obyektin xarakterinə uyğunluğu, sözlərin təsvir edilən hadisə, iş, surət və yerin xüsusiyyətini verə biləcək səslərdən ibarət olması, misralardakı səslər alliterasiyası və s. xüsusi tədqiqə möhtac maraqlı məsələlərdir” (7, 67). Alimə görə, dastanda bütün bu ştamplar mübaliğə xarakterlidir.Dastan və nağıl strukturlarını fərqləndirən cəhətlərdən biri də mübaliğənin xarakteridir. “Ağlasığan” mübaliğə ilə “uydurma” mübaliğə arasındakı fərqin bütün təfərrüatları mətn strukturuna birbaşa təsir edir (7, 67)

Dastanların yaranması və yayılması ilə bağlı müşahidələrində alim törədici güclərə diqqət çəkir. Şifahi ədəbiyyatın fərdi başlanğıcda yaranma, kollektiv şüurda invariantlaşma hadisəsinə nəzəri münasibət bildirir. Məmmədhüseyn Təhmasib məhəbbət dastanlarının əsasən ustad aşıqların qoşma və gəraylılarından istifadə edilərək, onlardan sonra gələn aşıqlar tərəfindən yaradılması fikrini irəli sürənlərin folklor tədqiqatçıları arasında əksəriyyət təşkil etdiyini və əvvəllər özünün də bu qənaətdə olduğunu etiraf edir. Lakin fikrini davam etdirərək yazır: "...Bir qədər ətraflı araşdırmalar aydın göstərdi ki, bu, bizim məlum-məşhur ustad aşıqlarımıza qarşı haqsızlıq, dastançılıq kimi mühüm bir yaradıcılıq prosesini isə görkəmli, qüdrətli sənətkarların əlindən alıb, təsadüflərə bağlamaq kimi yanlış bir yoldur. Məgər süjetli, konfliktli, surətli, səciyyəli, aşiqli, məşuqəli, "bağlama" və "açma"lı, "duvaqqapma" və "ustadnamə"li dastan yaratmaq kiçik şeirlər, qoşmalar yaratmaqdan çox asandırmı ki, bu ikincini ustadlara, birincini isə təsadüfi "naməlum"lara bağlayırıq?" (7, 22). Söylənmiş, deyilmiş, bitmiş fikir haqqında yenidən söz söyləmək söyləyəndən improvizə etmək qabiliyyəti tələb edir, bu da variantın invariantlar şəklində inkişafına təkan verir. Dastanların yaranmasında, xüsusilə dəyişilməsində kontekstin törədicilik funksiyasının nə qədər əhəmiyyətli olduğunu, orta əsrlər Şərq mühiti fonunda ortaya çıxmış dastan mətnləri əsasında izah edir. Dastan quruculuğunda mühitin təsirlərinin əks sədasının duyula biləcək deformasiyalar yaratdığını buta yolunda "retardasiyalar"ların təcəlli etməsi ilə göstərir. Bu da təhkiyənin ümumi gedişatına təsirsiz ötüşmür.

Ötən əsrin 70-80-ci illərindən konseptual elm sahəsi kimi formalaşan narratologya (təhkiyəşünaslıq) elminin tədqiqat obyektində təkcə bədii ədəbiyyat deyil, daha geniş və ümumi səciyyəli anlayış olan təhkiyə dayanır. Rolan Bart, təhkiyənin əhatə dairəsində mifləri, əfsanələri, təmsil və nağılları, novella, epopeya, faciə, dram, komediya kimi janrları, pantomima, kətandakı rəsm, vitraj, kinomotoqraf, komiks, qəzet xronikaları, tarixin özü-

nü, adi məişət söhbətləri də daxil olmaqla rəngarəng bir dünyanı görürdü. Təhkiyəsi olmayan toplum yoxdur, təhkiyələr hər zaman və hər yerdə var və bəşəriyyətin özü ilə bərabər başlayır (3, 387). Mətn təhkiyəsinin strukturunun müəyyənləşməsi mətnin öz daxilində baş verən hadisədir. Təhkiyənin bir struktur kimi qavranılması – onun süjetinin gedişatının izlənilməsi ilə deyil, təhkiyənin "bağ"ını təşkil edən üfüqi əlaqələrlə yanaşı, implisit şəkildə mövcud olan şaquli proyeksiyanı da sezməklə əlaqədardır (3, 393). Oxuma – əvvəlki sözdən bir sonrakı sözə ardıcıl keçid deyil, özlüyündə bir cərgədən başqa bir cərgəyə keçiddir. Cərgələr nəzəriyyəsi elementlər arası ikili münasibətə əsaslanır: distributiv (bir cərgənin elementlərinin öz aralarındakı əlaqələr) və inteqrativ (fərqli cərgələrin elementləri arasında münasibət) (3, 392). Məna törətməyən distributiv münasibətləri bir kənara qoyan Rolan Bartın struktur analizinin məqsədi təsvirin bir neçə planını seçmək və onların iyerarxik (inteqrativ) perspektivdə izləməkdir. S.Todorov mətn strukturunda iki mühüm cərgəni – personajların məntiqi hərəkətləri və onlar arasındakı sintaktik əlaqədən ibarət, təhkiyənin predmeti kimi çıxış edən hekayə olunanın cərgəsi və təhkiyəvi diskursu müəyyənləşdirir. Onun struktur təhlillərində təhkiyəvi diskurs zaman, növ və forma kimi differensiyalara malikdir. Bartın üççərgəli mətn strukturunun təhlili funksional, hərəkət və təhkiyə cərgələrində gerçəkləşir. Ayrıca, onlar öz aralarında ardıcıl inteqrativ münasibtlər sərgiləyirlər: funksiya-hərəkətlə, hərəkət təhkiyə ilə tamamlanır. Mətnin struktur təhlilində ilk məqam mətn seqmentlərini (formalistlərə görə süjet elementlərinin) müəyyənləşdirməkdir. İstənilən sistem təkcələrin kombinativ yığımıdır. "Mətnin çeşidlənməsi reallaşmış mətnin xronotop differensiyası ilə əlaqəli deyil və ya başqa sözlə, mətn müstəvisində tarixi inkişaf real mətni çeşidləyən dominant faktor deyil... Mətni çeşidləyən başlıca faktor şüurun gerçəkliyə münasibətinin differensiallaşmasıdır...hər bir dünyagörüş və dünyaduyum sistemi ona uyğun mətnlər törədir" (2, 76). Fərqli dünyaduyum və dünyagörüş

sistemlərindən mətnə ötürülən informasiyanın işarələnməsi, mənalanması və funksionallıq əldə etməsi prosesinin fərqli təzahür tipləri vardır. Bu həm də heç bir şəkildə "ölməyən" müəllifin özünün seçdiyi materiala məzmuna yanaşma tərzi ilə xarakterizə olunur. Bədii təhkiyələrin yaranmasını, onun bitkin şəkildə ortaya çıxmasını, ərsəyə gəlməsini şərtləndirən müəyyən prinsiplər, qanunauyğunluqlar, vasitə və üsullar mövcuddur.

M.Təhmasib məhz, dastanın üç hissəli tərkibi – ustadnamə, dastan özü, duvaqqapma – arasındakı əlaqələrin semantik səviyyəsinə diqqət yetirir, süjetlə, təsvir edilən hadisə ilə əlaqəsi olmayan başlanğıc və son kimi çıxış edən parçaların rolunu müəyyən etmək üçün geniş təhlillər aparır. Süjetlə əlaqəsi olmayan əlavələrin dastan strukturuna daxil edilməsinin məqsəd və prinsiplərini müəyyən edir. Qəmli, kədərli bir dastanın ortasında şən, yumoristik nağılın daxil edilməsini adresant-adresat arasındakı münasibətlərlə bağlayır. Bu da, sinkretik xarakterli dastançının dastan mətnində oyunçu-aktyor, rejissor kimi iştirak qatını üzə çıxaran cəhətlərdən biri kimi qəbul edilir. Duvaqqapmanın dastan strukturundakı mövqeyi Təhmasibə görə ikilidir, birincisi, dastanın müəllifliyini təsdiq etmə vasitəsidir, ikincisi, dastanda məzmun xəttinin tamamlanması, son akkordun vurulması funksiyası daşıyır.

M.Təhmasib dastanla bağlı təhlillərində zaman və məkan amilləri ilə bağlı birbaşa fikir irəli sürməsə də, dastanın əsasını təşkil edən mübarizə məsələsini şərh etməklə, bunlara da qismən də olsa, aydınlıq gətirmiş olur. Bundan əlavə, dastanın olmuş əhvalat, baş vermiş hadisə, tarixi həqiqət əsasında yaranması zaman və məkan koordinatlarının nağıl mətninə nisbətdə daha konkret ölçülərdə təzahürünə səbəb olur (7, 67). "Hər bir dastan, yəni əsərin əsas süjeti, məşhur sovet alimi V.Proppun sözləri ilə desək, mübarizədən ibarətdir" yazan M.H.Təhmasib məhəbbət dastanlarının sujetində dörd funksiya olduğunu göstərir" (7, 70).

M.H.Təhmasib dastan süjetində gördüyü dörd hissəni universal sistem kimi dastanların demək olar ki, bütün təsnifat qat-

larına aid edir. O, yazır ki, məhəbbət dastanlarımızın demək olar ki, hamısının, “Kitabi- Dədə Qorqud” və “Koroğlu” kimi qəhrəmanlıq dastanlarımızın da bir sıra boy və qollarının əsas məzmunu, yəni süjeti qəhrəmanın öz butasına çatmaq uğrunda apardığı mübarizənin təsvirindən ibarətdir. Bu süjeti, əhvalatı, əsasən, dörd hissəyə bölmək olar:

- Qəhrəmanın anadan olması və ilk təlim-tərbiyəsi
- Qəhrəmanların, yəni Aşiq və Məşuqənin buta almaları
- Qabağa çıxan maneələr və onlara qarşı mübarizə
- Müsabiqə və qələbə (7, 72)

Məlumdur ki, rus formalistlərindən (eyni zamanda strukturalist) V.Propp arxetipik modelləri tətbiq etməklə, bütün nağılları əhatə edəcək 31 funksiya müəyyənləşdirmişdir. V.Y.Proppun “Nağılların morfologiyası” (1928) əsərində əsas tədqiqat obyekti sehirli nağıllar olmaqla nağıl süjetinin morfoloji funksiyalarının düzülüşü kimi təqdim olunan süjeti ətraflı təsvir olunur.Sehrli nağılın süjet-kompozisiyası V.Y.Propp tərəfindən mükəmməl təsvir edilib və bu mükəmməlliyə nağıl süjetləri hissələrinin bir-biri ilə əlaqəli şəkildə təhlili də daxildir. M.H.Təhmasib dastan süjetini məhz inkişafda götürülmüş epik sxemlər kimi təsvir edir və süjetin bütün elementlərini dastan süjetinin inkişaf dinamikası boyunca araşdırır. Sehrli rus xalq nağıllarını araşdırarkən onların, mövzu müxtəlifliyinə baxmayaraq dəyişməyən ortaq quruluşa sahib olduqlarını aşkarlamış V. Propp araşdırdığı nağıllarda mövzu və insan müxtəlifliyinə baxmayaraq, məhdud sayda funksiya müəyyən edir. V.Propp araşdırdığı nağıllarda otuz bir müştərək funksiya müəyyən edir. Bu funksiyalar, nağıllarda, ikitərəfli ziddiyyətlər (toqquşma – qələbə, qadağa – qadağanın pozulması, izlənmə – yardım, cəzalandırma – evlənmə və s) formasında görünür. Funksiyaların ardıcıllığı əsla dəyişməz, çünki, hadisələr sisteminin necə öz qanunları varsa, bədii nəqlin də buna oxşar qanunları var. M.Təhmasibin dördlü funksiya ilə bağlı mülahizələrinin V. Proppun nağıllar əsasında formalaşmış 31 sxem-funksiyasına qismən

uyğun gəlsə də, fransız alimi A. Greymasın “Aktantlar modeli” ilə demək olar ki, üst-üstə düşür.Greymasa görə, istənilən təhkiyə başlanğıc vəziyyətlə son vəziyyət arasında bir keçiddir, özündə dəyişiklik əxz etdirir. Bu dəyişiklik prosesini gerçəkləşdirənlər – aktantlar müxtəlif funksiyalar və rollar oynayırlar. Aktantlar dəyişiklik prosesində özləri də çevrilir, yenilənir. Dəyişikliyin ən az səviyyədə olduğu təhkiyələrdə belə, başlanğıc olduğu kimi qala bilmir. Təhkiyənin gedişatında dəyişmə hərəkətinə daxil olan hər bir element aktiv gücə – aktantlara çevrilir. Greymasın aktantlar sırası belədir: göndərici, alıcı, obyekt, subyekt, köməkçi, maneə törədici. Məhz bu aktantlardan asılı olaraq, mətndəki hadisələr inkişaf edir. Greymasa görə, təhkiyə 4 mərhələ ilə gerçələşir.

1-ci mərhələ: Hər hansı bir təhkiyənin ilk mərhələsi hadisələr sırasının formalaşmağa başlamaq mərhələsidir. Bu mərhələ adətən əsas dəyişikliyi təmin edəcək, hadisənin axarını istiqamətləndirəcək bir subyektinin axtarıb tapılması başlayır. Qəhrəmanı, subyekti hər hansı bir vəzifəyə göndərən və ya tapşıran adam var. Qəhrəman bu vəzifəni hər zaman zorla, ya da bir başqasının təklifi ilə etməz, bəzən də öz istəyi ilə bu vəzifəni üzərinə götürər. Qısaca desək, bu mərhələni göndərən ilə göndərilən arasındakı əlaqədir. Göndərən müəyyən bir proqramı həyata keçirmək məqsədilə tapdığı və ya tapacağı subyektə təsir etməyə, inandırmağa çalışır və beləliklə göndərənin təhrikiylə, yəni subyekti manipulyasiya etməyi bacarması ilə bu mərhələbaşlamış olur.

2-ci mərhələ: Birinci mərhələ baş verərsə, yəni qəhrəman göndərənin proqramını tətbiq etməyi qəbul etmişsə, deməli bəzi qabiliyyətlərə ya anadangəlmə sahibdir, ya da sonradan qazanması lazımdır. Bu mərhələdə artıq göndərənin funksiyası sona çatmır. Qəhrəman lazım olan bacarıqlarını sınaqlardan keçirir. Qəhrəmanın təhkiyə proqramının axınını təmin edəcək əsas transformasiyasıüçün qabiliyyətləri olmalıdır. Bu qabiliyyətlərdən birinin çatışmazlığı qəhrəmanın uğursuzluğuna səbəb ola bilər. Qəhrəman zəruri qabiliyyətləri əldə edərkən, təhkiyə proqramı içinə

girən bəzi insanlardan (yardım edənlər) yardım görür, bəziləri də (pis adam ya da qarşı çıxanlar) onu əngəlləməyə çalışırlar.

3-cü mərhələ: Qəhrəman lazımi bacarıqları əldə etdikdən sonra təhkiyənin əsas mövzusu olan hərəkəti həyata keçirməyə çıxa bilər. Bu mərhələdən sonra nəticəyə doğru dəyişikliyin baş verəcəyi bir vəziyyətə yanaşılır.

4-cü mərhələ: Bu mərhələdə qəhrəmanın etdikləri, göndərən tərəfindən qiymətləndirilir, təqdir edilir. Burada qəhrəman uğura, ya da uğursuzluğa görə mükafatlandırılır, ya da cəzalandırılır (6, 31-34).

A.Greymasın 4 mərhələli təhkiyə proqramı (qeyd edək ki, “Aktantlar modeli” 1960-cı illərdə formalaşıb) ilə M.Təhmasibin məhəbbət dastanlarında süjetin 4 mərhələli inkişafı prinsipi arasındakı ilk oxşarlıq paradiqması Propp ənənəsinə bağlılıqla səciyyələnir. Növbəti oxşarlıq dəyişikliyin baş verməsinin təsbiti ilə gerçəkləşir. M.Təhmasib qəhrəmanın buta alma mərhələsindən əvvəl və sonrakı həyatı arasında kəskin ziddiyyət olduğunu qeyd edir. Butadan əvvəlki şüursuzluq, biveclikIə butadan sonrakı yenilməz qüdrətin bir-birinə daban-dabana zidd olması, alimin, bunu poetik termin olan təzadın xüsusi forması kimi şərh etməsinə səbəb olur (7, 82). Müəyyən sürüşmələrlə aktantlar modeli və dördlü funksiya arasındakı oxşarlıq özünü xüsusilə mübarizə və mükafat mərhələlərində, təhkiyə qəhrəmanlarına yardım və əngəl yaradan qüvvələrin iştirakında, təhrikedici qüvvənin yönəldici funksiyasında və s. göstərir. Təbii ki, təxminən eyni dövrdə ortaya çıxmış iki nəzəri görüşün bir-birindən xəbəri yox idi. M.Təhmasibin nəzəri görüşlərinin Azərbayan folklorşünaslığında yönləndirici, istiqamətverici mahiyyəti məhz belə məqamlarla xarakterizə edilir. Bugün, müstəqilllik dövründə Azərbaycan folklorşünaslığında folklorun müqayisəli-tarixi öyrənilməsindən ziyadə struktur-semiotik, etnopoetik yanaşmalarla, fonem, morfem, leksem və s. mətn elementlərinin yaddaş daşıyıcı potensialına müraciət etməklə, mifoloji və folklor mətnlərinin tədqiqinə üstünlük

verilir. M.Təhmasibin tədiqatları hələ ötən əsrdə bu ənənənin yaranmasına təkan vermiş, bugünkü foklor nəzəriyyəsinin prinsip və meyarlarının formalaşmasında cığır açmışdır.

## QAYNAQLAR


1. Abdulla K. "Kitabi-Dədə Qorqud" poetikasına giriş. Dansökülən variant. Bakı. RS Poliqraf, 2017. 320 s
2. Ağaverdi X. Paremioloji mətnin strukturuna dair / Struktur-semiotik araşdırmalar.№2, Bakı: Səda, 2002, 178 s. s.73-98,76
3. Барт Р.Введение в структурный анализ повествовательных текстов. / Зарубежная эстетика и теория литературы XIX-XX вв. Трактаты. Статьи. Эссе / Составление, общая редакция и вступит. статья Г.К. Косикова. – М.: Издательство Московского университета, 1987. - 511 с. с.387-422,387
4. Kassirer E. Metaforanın gücü. Tərcümə edəni Yusifli C.// Yusifli Cavanşir. Bədii mətnin sirləri. Bakı, Mütərcim, 1998, 106 s, 83-84
5. Компаньон Антуан. Демон теории. Литература и здравый смысл /Пер. с фран. С. Зенкина. — М.: Изд-во Сабашниковых, 2001, 336 с
6. Rifat.M. Homo Semioticus, İstanbul: Yapı Kredi Yayınları. 1996
7. Təhmasib M.. Seçilmiş əsərləri. 2 cilddə. II cild.Bakı, Kitab aləmi, NPM, 2011, 440 s.
8. Шкловский В. Б. О теории прозы. М., 1983, 384 с. (Шкловский В. О теории прозы. М.: Изд-во «Федерация», 1929
9. Якобсон Р. О. Лингвистика и поэтика // Структурализм: «За» и «Против». М., 1975.
10. http://www.artkaspi.az/az/memmedhuseyn-tehmasibin-yaradicilii-folklorsunasliq-mektebidir-kamran-eliyev-yazir/#.Wg5Fbkpl_IU
11. http://www.muallim.edu.az/www.old/arxiv/2011/04/20.htm

# M.H.TƏHMASİB VƏ "KOROĞLU" DASTANI

**Nailə Əskər**
*Filologiya üzrə fəlsəfə doktoru*
*AMEA Folklor İnstitutu*
*qaracantali@live.com*

**Özət**

M.Təhmasib 50 ilə yaxın bir müddət ərzində folklorşünaslıq sahəsində fəaliyyət göstərmiş, toplama və tədqiqat işləri ilə elmə öz dəyərli töhvəsini vermişdir. Onun həm Azərbaycan xalq dastanlarına həsr olunmuş əsərləri xüsusi çəkiyə malikdir, həm də dastanların tərtibi və nəşri sahəsində böyük əməyi olmuşdur. M.Təhmasibin tərtib etdiyi Azərbaycan dastanlarının 5 cilddə (1965-1972) nəşrini xüsusi olaraq göstərə bilərik. Alimin "Koroğlu" dastanının toplanması, nəşri, tədqiqi sahəsində fədakar əməyi də inkar edilə bilməz. Bu gün M.Təhmasib haqqında yazan bütün alimlər onun adının "Koroğlu" ilə sıx bağlı olduğunu qeyd edirlər. M.Təhmasib "Koroğlu" dastanının XVI-XVII əsrlərdə yaranması fikrini müdafiə etməsi ilə yanaşı, ayrı-ayrı qolların daha qədim tarixi hadisələrlə səsləşdiyini əsaslandırmış, bu qolların yaranmasında yaddaşlarda yaşayan rəvayət və əfsanələrdən bəhrələnildiyini yazmışdır.

Bu məqalədə M.Təhmasibin elmi yaradıcılığına diqqət yetirilir, onun dastanların, xüsusilə "Koroğlu" dastanının toplanması, nəşri və tədqiqi sahəsində gördüyü işlərdən söhbət açılır.

**Açar sözlər:** M.Təhmasib, dastan, "Koroğlu" dastanı, toplama, nəşr

## М.Г.ТАХМАСИБ И ЭПОС "КЕРОГЛУ"

**Резюме**

М.Тахмасиб работал в области фольклора около 50 лет и внес свой ценный вклад в науку со своими сборами и исследованиями. Особое значение имеют работы, посвя-

щенные азербайджанским народным эпосам, но также он внес большой вклад в области компиляции и публикации эпосов. Мы можем конкретно иллюстрировать публикацию 5 томов (1965-1972) азербайджанской эпопеи, составленную М.Тахмасибом. Невозможно отрицать самоотверженный труд ученого в области сбора, публикации и исследования эпоса “Кероглу”. Ученые, которые писали о М.Тахмасибе, отмечают, что его имя тесно связано с “Короглу”. В дополнение к защите идеи создания эпоса Кероглу в XVI-XVII веках М.Тахмасиб обосновал, что некоторые ветви были основаны на более древней истории, и в этих произведениях он получил преимущество от нарратива и легенд.

В этой статье основное внимание уделяется научному творчеству М.Тахмасиба и особенно по сбору, публикации и исследованию эпоса Кероглу.

**Ключевые слова**: М.Тахмасиб, эпос, эпос “Кероглу”, сбор, публикация

## M.H.TAHMASIB AND “KOROGLU” EPOS

**Summary**

M.Tahmasib has been working in the field of folklore for about 50 years and has given his valuable contribution to science with his collecting and research.Not only works dedicated to the Azerbaijani folk epics have a special significance, but also he has had a great contribution in the field of compilation and publication of epics.We can specifically illustrate the publication of V volumes (1965-1972) of the Azerbaijani epics compiled by M.Tahmasib.The scientist's selfless laborin the field of collection, publication and research of the epic "Koroglu" cannot be denied. The scholars who wrote about M.Tahmasib note that his name is closely related to “Koroglu”. In addition to defending the idea of the creation of the Koroglu epic in XVI-XVII centuries, M.Tahmasib, substantiated that some branches

were based on more ancient history and in these writings he derived advantage from narrations and legends.

This article focuses on M.Tahmasib's scientific activity and especially on collection, publication and research of Koroglu epos.

**Key words:** M.Tahmasib, epos, “Koroglu” epos, collection, publication

Məhəmmədhüseyn Təhmasib Azərbaycan folklorşünaslığının banilərindən biridir. O, həyatının təxminən 50 ilini bu elm sahəsində çalışmış, yorulmadan tədqiqat, toplama və nəşr işlərinə əmək sərf etmişdir. Toplama, nəşr işləri kimi, elmi yaradıcılığı da M.Təhmasibin gərgin əməyinin bəhrəsidir. Sovet dövrü folklorşünaslıq elminin inkişafı və formalaşmasında onun çəkdiyi zəhmət nəticəsiz qalmamışdır. M.Təhmasib xalq yaradıcılığı üzrə toplama ekspedisiyalarının tərkibində şəxsən iştirak etmiş, bir çox söyləyicilərlə, xüsusilə, aşıqlarla sıx ünsiyyətdə olmuş, sənət əlaqlərini davam etdirmişdir.

Folklorşünas alim digər xalq yaradıcılığı sahələri ilə yanaşı, ən böyük janr olan dastan yaradıcılığını da diqqətlə təqib etmiş, bu sahədə misilsiz işlər görmüşdür. Bir çox dastanı dövrünün ustad aşıqlarından yazıya almış, onların variantlarını saf-çürük etmişdir. Ən doğru, ən orijinal hesab etdiyi variantları tərtib edərək nəşr etdirmişdir. Bu çox əziyyətli və diqqət tələb edən bir iş idi. Dastanlar aşıq repertuarlarına və bölgə xüsusiyyətlərinə görə çox fərqlilik göstərir. Bəzi aşıqlar öz improvizələrini və bəzən də şəxsi yaradıcılığını dastana daxil etmiş, əhval-ruhiyyələrinə görə bəzən dastanı uzun, bəzənsə müxtəsər ifa etmişlər. M.Təhmasib dastanların variantları üzərində işləyərkən xüsusilə nəzm hissəsində çoxvariantlılıq müşahidə etmişdir.

Dastan ədəbiyyatşünaslıqda ən böyük epik əsər hesab olunur (3, 58). Epos sözü də buradan yaranmışdır. İrihəcmli dastanlara, bir çox qolu və ya variantı olan qəhrəmanlıq dastanlarına epos

deyilmişdir. M.Təhmasibin həm şifahi xalq yaradıcılığının ən böyük janrı olan xalq dastanlarına həsr olunmuş elmi əsərləri xüsusi çəkiyə malikdir, həm də dastanların tərtibi və nəşri sahəsində böyük əməyi olmuşdur. Onun tərtib etdiyi Azərbaycan dastanlarının 5 cilddə (1965-1972) nəşrini xüsusi olaraq göstərə bilərik.

M.Təhmasib həcminə və süjetinə görə xalq romanları adlandırılan dastanlar haqqında yazdığı geniş tədqiqat əsərində bu janrın spesifik xüsusiyyətlərini analiz etmiş və Azərbaycan folklorşünaslığına öz dövrü üçün yeni olan qiymətli fikirlərini gətirmişdir. Alim hər şeydən əvvəl "dastan" sözünün çox mənalığına diqqət çəkmiş, bu sözün ədəbiyyat sahəsində işlənmə yerinə görə təsnifatını vermiş və onu aşıq ədəbiyyatının bir janrı adlandırmışdır:

"Nəhayət, dastan aşıq ədəbiyyatının ən çox yayılmış bir janrının adıdır… Hər şeydən əvvəl qeyd edək ki, bizdə dastan şeirlə nəsrin növbələşməsi prinsipinə əsaslanır… Bu bizim dastanlarımızın çox qədimdən başlayaraq gələn və bu gün də davam edən xüsusiyyətidir" (5, 63).

Müəllifin müdafiə etdiyi fikirlərdən biri də budur ki, müxtəlif məzmunlu bu epik əsərlərə şifahi və yazılı ədəbiyyatda dastan deyildiyi kimi, bəzən müxtəlif zamanlarda dastanlara da oğuznamə, hekayət və ya sadəcə, nağıl deyilmişdir. Dastanların çeşidlənməsi, süjetinə görə təsnif edilməsi məsələsi də həmişə tədqiqatçı-alimin diqqət mərkəzində olmuşdur. Onun fikrincə, təsnifatda əsas bölgü yarandığı dövrə və mövzusuna görə aparılmalıdır. Dastanlar əsas məzmun etibarilə iki bölümə ayrılır: qəhrəmanlıq və məhəbbət dastanları:

"Azərbaycan dastanları həmişə ümumi şəkildə qəhrəmanlıq və məhəbbət dastanları deyə, iki qismə bölünmüşdür. Mütəxəssislərimiz birinci qismi bəzən qəhrəmanlıq dastanları, bəzən tarixi-qəhrəmanlıq dastanları, bəzən boy, bəzən də qəhrəmannamə, məhəbbət dastanlarını isə sevgi dastanı, bəzən aşiqanə dastan, bəzən aşiqanə romantik dastan, bəzən də xalq romanı adlandırmışlar" (5, 120).

Məhəbbət dastanları və ya sevgi dastanlarının süjet xəttini öz butasına çatmaq üçün gərgin mübarizə və çətinliklər təşkil edir. Sonda, bir neçə istisna nəzərə alınmazsa, qəhrəman öz muradına çatır:

"Qeyd edək ki, məhəbbət dastanlarımızın, demək olar ki, hamısının, "Kitabi-Dədə Qorqud" və "Koroğlu" kimi qəhrəmanlıq dastanlarımızın bir sıra boy və qollarının əsas məzmunu, yəni süjeti qəhrəmanın öz butasına çatmaq uğrunda apardığı mübarizənin təsvirindən ibarətdir. Bu süjeti, macəranı, əhvalatı, əsasən, dörd hissəyə bölmək olar:

I. Qərhəmanın anadan olması,
II. Qərhəmanların, yəni aşıq və məşuqənin buta almaları,
III. Qabağa çıxan maneələr və onalara qarşı mübarizə,
IV. Müsabiqə və qələbə" (5, 71).

Məhəbbət dastanlarının süjet xəttini təşkil edən buta, badə ünsürlərini araşdıran M.Təhmasib bunun yaranma səbəblərini ən çox islami həyat tərzi ilə izah edir. Qadınların cəmiyyətdə örtülü gəzmələrini, kişilərdən gizlənmələrini əsas göstərərək buta yolu ilə sevginin yolunun açıldığını göstərir. Bu fikirlərdə sovet ideologiyasının izlərini görsək də, əslində fikir orijinaldır, tarixi-mədəni həyatımızla səsləşir:

"Məlum olduğu üzrə "buta" da çoxmənalı sözlərdəndir. Bu sözün dəvə, qönçə, gül, budaq, nişan, nişanə, hədəf və s. bir sıra mənaları vardır. Bu sözə, hədəf, nişanə, nişan mənasında "Kitabi-Dədə Qorqud"dastanında rast gəlirik" (5, 73).

Alimin "Koroğlu" dastanının toplanması, nəşri, tədqiqi sahəsində fədakar əməyi də inkar edilməzdir. Bu gün M.Təhmasib haqqında yazan bütün alimlər onun adının "Koroğlu" ilə sıx bağlı olduğunu qeyd edirlər. M.Təhmasib "Koroğlu" dastanının XVI-XVII əsrlərdə yaranması fikrini müdafiə etməsi ilə yanaşı, ayrı-ayrı qolların daha qədim tarixi hadisələrlə səsləşdiyini əsaslandırmış, bu qolların yaranmasında yaddaşlarda yaşayan rəvayət və əfsanələrdən bəhrələnildiyini yazmışdır:

"Koroğlu"nun, ümumiyyətlə, XVI-XVII əsrlərdə Azərbaycanda baş vermiş siyasi-ictimai hadisələrlə səsləşən bir epos olduğu şübhəsiszdir. Bunu hətta Orta Asiya varianatlarının tədqiqilə məşğul olan mütəxəssislər də təsdiq edirlər. Lakin bu heç də belə demək deyildir ki, "Koroğlu" ancaq və ancaq bu əsrlərin əsas tarixi-ictimai hadisələrindən faydalanmaqla məhdudlaşmışdır. Şübhəsiz ki, ayrı-ayrı rolların, surətlərin yaradılmasında daha qabaqkı əsrlərdə baş vermiş tarixi hadisələrin hafizələrdə yaşayan rəvayət və əfsanələrindən qidalanma, istifadə də az olmamışdır. Bunun, doğrudan da, belə olduğunu çoxlu misalla nümayiş etdirmək olar" (5, 141).

1965-ci ildən başlayaraq beş cilddən ibarət Azərbaycan dastanları çap olunmağa başlandı. M.Təhmasib I və II cildləri Ə.Axundovla birgə nəşrə hazırlamışdır. IV cildin – "Koroğlu" dastanının tərtibi isə bütünlüklə M.Təhmasibə məxsusdur. Alim bu xalq yaradıcılığının şah əsərini nəşrə hazırlayarkən onu sosializm realizmi ideologiyasının təsirindən xilas etmək lazım olduğunu bilirdi. "Kitabi-Dədə Qorqud"un taleyinin təkrar yaşanmaması üçün "Koroğlu"nu təzyiqlərə məruz qoymamaq lazım idi. Tərtibçi müxtəlif üsullarla onu sovet ideologiyasından xilas edə bildi. Kitab Həmid Araslının redaktorluğu altında nəşr olunmuşdur.

M.Təhmasibin tərtib etdiyi "Koroğlu" dastanı 17 qoldan ibarət idi: "Alı kişi", "Koroğlu ilə Dəli Həsən", "Koroğlunun İstanbul Səfəri", "Dəmirçioğlunun Çənlibelə gəlməsi", "Koroğlunun Ərzurum səfəri", "Eyvazın Çənlibelə gətirilməsi", "Durna teli", "Həmzənin Qıratı aparması", "Məhbub xanımın Çənlibelə gəlməyi", "Koroğlunun Bəyazid səfəri", "Qulun qaçması", "Düratın itməyi", "Koroğlu ilə Bolu bəy", "Koroğlunun Qars səfəri", "Koroğlunun Dərbənd səfəri", "Hasan paşanın Çənlibelə gəlməyi", "Koroğlunun qocalığı". "Koroğlu ilə Dəli Həsən", "Qulun qaçması", "Koroğlunun Qars səfəri", "Hasan paşanın Çənlibelə gəlməyi" qolları bu nəşrdə yeni idi. Hümmət Əlizadə nəşrində bu qollar yoxdur.

“Koroğlu”nun M.Təhmasib variantı Hümmət Əlizadə nəşrindən və əvvəlki nəşrlərdən fərqlənir. Bu nəşrdə “Koroğlu”nun 17 qolu verilir. Burada Hümmət Əlizadə nəşrində olmayan “Koroğlu ilə Dəli Həsən”, “Qulun qaçması”, “Koroğlunun Qars səfəri”, “Hasan paşanın Çənlibelə gəlməsi” qolları da var. Qeyd edildiyi kimi, M.Təhmasib tərtib etdiyi “Koroğlu” dastanının nəşrinə müqəddimə yazmış, kitabın sonunda izah və qeydlər, lüğət vermişdir. Bu cəhətdən M.Təhmasib nəşri irəliyə doğru atılmış uğurlu bir nəşr olsa da, burada bəzi mübahisəli məsələlərə də yol verilmişdir. Belə ki, tərtibçi eyni bir qolun bir hissəsini bir söyləyicidən, digər qismini isə digər söyləyicidən istifadə edərək tərtib etmişdir. Bu isə bəzi folklorşünasların da göstərdiyi kimi, folklorşünaslıq prinsipinə ziddir” (4, 31).

Təhmasib bu cildə müqəddəmə yazmış və izahlar bölməsi əlavə etmişdir. “Müqəddimə”də dastanın yaranma və tədqiqat tarixi, tarixlə səsləşmə faktları, variantları və versiyaları haqqında məlumat vermişdir. 1941-ci il Hümmət Əlizadə nəşrini yüksək qiymətləndirən müəllif, ən doğru varinatın 1949-cu il nəşri olduğunu qeyd edir. Bu da 1941-ci il nəşrinin daha da mükəmməlləşdirilmiş təkrar nəşri idi.

“İzahlar” xüsusi maraq doğurur və qollara açar rolu oynayır. Burada hər qolun əsas variantı göstərilmiş, mövcud fərqlər, nəzm hissələrindəki qoşma fərqləri göstərilmişdir. Nümunə olaraq “Koroğlunun Ərzurum səfəri” qolunu göstərək:

Bu qolun tərtibində “Dəmirçioğlu-Əsəd”, “Dəmirçioğlu-Hüseyn”, “Dəmirçioğlu-İbrahim” variantları əsas götürülmüşdür. Bu sayılanlardan başqa, həmin qolun daha 5 variantı vardır. Ümumiyyətlə, bu qolun variantları öz quruluşlarına görə bir-birindən çox fərqlənir. Aşıqların bəzisi “Dəmirçioğlunun Çənlibelə gəlməsi” qolunu da bununla birləşdirib bir qol kimi deyir, bəziləri isə “Aşıq Cünunun Çənlibelə gətirilməsi” əhvalatını da qoldan ayıraraq hər üçünü müstəqil qol şəklində söyləyirlər (1, 417).

Burada müxtəlif əlyazmalarından "Koroğlu" dastanı ilə bağlı nümunələr verilmişdir. Elyas Muşeqin 1721-ci ildə erməni əlifbası ilə yazılmış "Nəğmələr kitabı"ndan, Əndəlib Qaracadağinin XIX əsrin əvvəllərində Sankt-Peterburqda saxlanılan "Şeirlər məcmuəsi"ndən, 1799-cu ildə erməni əlifbası ilə yazılmış digər əlyazmasından, əsli Gürcüstan Dövlət Muzeyində saxlanılan gürcü əlifbası ilə yazılmış əlyazmasından götürülmüş variantları verilmişdir. Bununla da tərtibçi dastanın qədimliyini, mötəbərliyini, oxucunun nəzərinə çatdırmaq istəmişdir.

"Müstəqil nəğmələr" bölməsində də xalq qəhrəmanı Koroğlu ilə bağlı olduğu hesab edilən, dastandan kənarda heç bir məna ifadə etməyən şeir nümunələri verilmişdir.

Bütün bu əlavə məlumatlar dastanın söyləndiyi və toplandığı zaman və məkan haqqında geniş məlumat verir. Hər bir qolun arxiv nömrəsi göstərilməklə harda, nə vaxt və hansı aşıqdan yazıya alındığı, kim tərəfindən toplanıldığı, daha əvvəl hansı nəşrdə çap olunduğu dəqiqliklə qeyd olunmuşdur. Nümunə olaraq göstərə bilərik:

20. "Bağdad-Bozalqanlı" / "Koroğlunun Bağdad səfəri". Nizami adına Ədəbiyyat və Dil İnstitutunun folklor arxivi, inv. №522. Qeyd: 1932-ci ildə Tovuzda aşıq Hüseyn Bozalqanlıdan toplanılmışdır. İlk dəfə bu əsərin I nəşrində istifadə edilmişdir.

Sonda dastanla bağlı lüğət verilmişdir. Bu, M.Təhmasibin həm də bir leksikoqraf kimi uğurlu işinin göstəricisidir.

M.Təhmasib qolların adını varianatlar arasından seçib təyin edərkən dövürünün sövet təbliğatına önəm vermiş, dastanı repressiyalardan qorumaq üçün kəskin ifadələrdən qaçmağa çalışmışdır. O, qolların adlarında olan Qafqaz və Anadolu yaşayış məskənlərinin adlarının daha az səslənməsinə diqqət etmişdir. Çünki bu adlar oxucuya və ya dinləyiciyə təsəvvüründə dastanın xəritəsini canlandırmağa imkan verirdi. Bu isə sovet ideologiyasına görə yolverilməz idi və dastanın nəşri üçün əngəllər törədəcəkdi. Bütün bunlardan qorunmaq üçün tərtibçi şəhər və məkan

adlarını qol başlıqlarında minimuma endirmiş, alternativ variantlardan istifadə etmiş və digər nəşrlərdən fərqli olaraq, başlıqları süjetə uyğun adlandırmışdır.

M.Təhmasib Koroğlu sözünün haqqında da fikirlərini bildirmiş, eposa əsaslanaraq bu ifadənin etimologiyası və mənşəyinin ehtimallarını izah etmişdir. Dastana görə Koroğlu qəhrəmanın öz adı deyil, atasının kor edilməsindən sonra ona verilmiş ləqəbdir. Tədqiqatçı-alim bunun çox da inandırıcı olmadığını bildirmiş, "Koroğlu və Dəli Həsən" qolundan misallar gətirərək fikrini əsaslandırmışdır:

"Koroğlu və Dəli Həsən" qolunda Koroğlu özünü nişan vermək üçün deyir:

Adımı soruşsan bil Rövşən olu,
Atadan, babadan cinsim Koroğlu.

Demək bu ad ona atasının gözünün çıxarılmasına görə verilməmişdir, bu nəsil, cins, soy, bəlkə də, qəbilə, tayfa, sülalə adıdır" (5, 145).

Bu fikrini daha da əsaslandıraraq dastanın tarixi hadisələrlə səsləşməsini, Qafqaz coğrafiyasında baş vermiş bir çox tarixi faktlarla üst-üstə düşməsini analiz edən alim Koroğlunun Təbriz üsyanındakı xalq qərhəmanlarından biri olduğu ehtimalı üzərində durur. Alimin fikrincə, tarixi səlnamələrdəki bir sıra təfərrüatlar, dövrün siyasi quruluşu, həm şahın, həm xotkarın (sultan) və s. olması faktları dövrün ümumi mənzərəsi fonunda kəndli üsyandakı əsas qəhrəmana işarə edir. Əfsanə və rəvayətlərdən də istifadə edən M.Təhmasib, fikrini müdafiə edərək dastanın Koroğlunun bu hadisələr zamanı yaşanan qəhrəmanlıqlarının şəninə qoşulduğunu bildirir. Fikrimizcə, bu ehtimal üzərində dayanarkən alim daha çox dastanın müqəddəratını düşünmüş, onu dövrün siyasi ideologiyasından mühafizə etmək üçün çıxış yolunu belə bir ehtimalda görmüşdür. Eyni zamanda başqa buna bənzər nəzəriyyələrdə olduğu kimi, ehtimal qüvvəsini itirmir və araşdırmaya açıqdır:

“Bizdə “Koroğlu”nun bünövrəsi XVI əsrin sonu XVII əsrin əvvəllərindəki əzəmətli kəndli hərəkatı illərində qoyulmuşdur. Özü də, heç şübhəsiz ki, indikindən çox kiçik bir dastan imiş. Əlimizdə sənədlə təsbit edəcək əsas olmasa da, biz bu fikirdəyik ki, həmin ilk “müəllif” – şair-aşıq-dastançının adı Rövşən, mənsub olduğu qəbilə ilə bağlı ləqəbi, ayaması isə Koroğlu imiş. Bizim ümumi dastan yaradıcılığı ənənəsinə sadiq qalaraq o da yüzlərlə başqaları kimi özünü öz dastanına qəhrəman etmişdir. Çox ehtimal ki, o, 1610-1630-cu illər hərəkatı iştirakçılarından, bəlkə də, hətta başçılarından imiş” (5, 150).

Nəticə olaraq bildirmək mümkündür ki, M.Təhmasib tərtib etdiyi 17 qoldan ibarət “Koroğlu” dastanında Azərbaycan aşıqlarının dilindən topladığı mətnləri və ondan əvvəl toplanmış bütün arxiv variantlarını nəzərdən keçirmişdir. Alim özündən əvvəl nəşr edilmiş Hümmət Əlizadə nüsxəsini də ciddi araşdırmışdır. Ümumi mənzərəyə nəzər salsaq, çoxvarinatlı və qarışıq qolların olduğunu görərik. Məsələn, “Alı kişi” qolunun müxtəlif aşıqlardan toplanmış 10-15 variantı, məsələn, “Koroğlu-Əsəd”, “Koroğlu-Bozalqanlı”, “Koroğlu-Əli”, “Qaf-Penn” və s. variantları vardır. Bir qolun bəzən 10-15 variantı arasından hadisələri və epizodları saxlamaq şərtilə ortaq nəticəyə gələrək ən mükəmməl bir qol tərtib etmək lazım idi.

“Koroğlu” dastanının tərtibi zamanı M.Təhmasib qarşılaşdığı bütün çətinliklərin öhdəsindən gəlmiş, dövrü üçün ideal hesab edilən bir işə imza atmışdır. Bu gün folklorşünas alimlər tərəfindən ciddi tənqidi fikirlər səsləndirilən bu nəşr o dövrdə dağınıq şəkildə yaddaşlarda və ya arxiv sənədlərində yaşayan bir əsərə yeni həyat vermişdir. Bütün tənqidi fikirlərə baxmayaraq, Azərbaycan dilinin tələblərinə uyğun şəkildə hazırlanmış dastanın çapı mühüm bir ədəbi hadisədir və bu gün bir nəşr olaraq öz aktuallığını qoruyur. “Koroğlu” dastanının keçmiş Sovet İttifaqında yayılması və dünya ədəbiyyatı səviyyəsinə çıxması bu

nəşr və fədakar folklorşünas alim M.Təhmasibin sayəsində mümkün olmuşdur.

## QAYNAQLAR


1. Azərbaycan dastanları. 5 cilddə, IV c. Koroğlu dastanı / Tərtib edən Təhmasib M. Bakı, Çıraq, 2005, 544 s.
2. Dadaşov A. Folklorumuzun ilk doktoru Məhəmmədhüseyn Təhmasib / Elmi redaktoru Qasımlı M. Bakı, Nurlan, 2007, 148 s.
3. Ədəbiyyatşünaslıq terminləri lüğəti / Tərtib edəni Mirəhmədov Ə. Bakı: Maarif, 1988, 268 s.
4. Əliyeva X. Məmmədhüseyn Təhmasibin folklorşünaslıq fəaliyyəti / Elmi redaktoru İsmayılov H. Bakı, Nurlan, 2009, 156 s.
5. Təhmasib M. Seçilmiş əsərləri. 2 cilddə II c. / Elmi redaktoru Abdullayev K. Bakı, Kitab aləmi NPM, 2011, 440 s.

# "SEÇİLMİŞ ƏSƏRLƏRİ"N M.H.TƏHMASİB İRSİNİN ÖYRƏNİLMƏSİ VƏ TƏBLİĞİNDƏ ROLU

**Nizami MƏMMƏDOV-TAĞISOY**
*Filologiya elmləri doktoru, professor*
*Bakı Slavyan Universiteti*
*nizami.mamedov@mail.ru*

**Özət**

Məqalədə Azərbaycan folklorşünaslığında özünəməxsus yer tutmuş Məmmədhüseyn Təhmasibin bir neçə il bundan öncə Bakı Slavyan Universitetinin dəstəyi ilə nəşr olunmuş "Seçilmiş əsərləri"nin onun folklorşünaslıq irsinin daha ardıcıl və dərindən öyrənilməsində əhəmiyyəti vurğulanır.

**Açar sözlər:** M.Təhmasib, folklorşünas, irs, seçilmiş əsərlər, əhəmiyyət

## РОЛЬ ИЗДАНИЯ "ИЗБРАННЫХ СОЧИНЕНИЙ" В ИЗУЧЕНИИ И ПРОПАГАНДЕ НАСЛЕДИЯ М.Г.ТАХМАСИБА

**Резюме**

В статье анализируется издание «избранных сочинений» Мамедгусейна Тахмасиба, сыгравшею важную роль в развитии азербайджанской фольклористики, говорится о значении избранных сочинений в углубленном и последовательном значении изучения наследия крупного фольклориста.

**Ключевые слова:** М.Тахмасиб, фольклорист, наследие, избранные сочинения, значение

## THE ROLE OF "SELECTED WORKS" IN THE STUDYING AND PREACHING OF M.H.TAHMASIB'S HERITAGE

**Summary**

The article emphasizes the importance of Mammadhuseyn Tahmasib's contribution to the more consistent and thorough

study of his "folklore" heritage published several years ago with the support of the Baku Slavic University.

**Key words:** M.H.Tahmasib, folklore critic, heritage, selected works, importance

Azərbaycan mədəniyyəti tarixinə folklorşünas, ədəbiyyatşünas, folklor toplayıcısı və araşdırıcısı, dramaturq, ssenarist, filologiya elmləri doktoru, professor kimi imzasını həkk etmiş Məmmədhüseyn Təhmasibin elmi, nəzəri yaradıcılıq irsi ən çeşidli rakurslardan öyrənilməyə, araşdırılmaya layiqdir.

O, çoxsaylı Azərbaycan folklorunun lirik nümunələri ilə yanaşı, epik növə aid örnəklərin toplanması, aşıq yaradıcılığı nümunələrinin təhlili, Azərbaycan eposunun dəyərli örnəkləri "Koroğlu", "Kitabi-Dədə Qorqud", Azərbaycan dastanlarının təhlili ilə məşğul olmuşdur. Azərbaycanın müxtəlif bölgələrinə həm folklor ekspedisiyaları təşkil etmiş, həm də fərdi şəkildə xalq ədəbiyyatı incilərinin toplanması, araşdırılması və nəşrində yaxından iştirak etmişdir. M.Təhmasibin folklor bağlılığı onun xobbisi deyil, ürəyinin döyüntüsü idi, xalq ədəbiyyatı janrlarına müraciət onun əski etnik kökə bağlılığının ifadəsi idi. O, xalq ədəbiyyatını duymadan, onunla nəfəs almadan, onun müxtəlif növlərini və janrlarını diferensiasiya etmədən, bəlkə də, özünün yaşamasını təsəvvür belə etmirdi.

Məmmədhüseyn Təhmasibin folklorumuza dəyər verməsi heç də milli zəmində qapanıb qalmırdı. O, Sovetlər İttifaqında totalitar rejimin tuğyan etdiyi, erməni şovinizminin heç bir sərhəd tanımadığı dövrdə mərkəzdə nəşr olunan kitablarda "Azərbaycan dastanlarında xalqçılıq problem və onların tədqiq olunmasının müasir vəziyyəti" ilə bağlı SSRİ Elmlər Akademiyasının M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutunda nəşr etdiyi "SSRİ xalqları eposunun öyrənilməsi məsələləri" kitabında (3, 176-178) maraqlı bir məqalə çap etdirmişdi. Məqalə ona görə böyük əhəmiyyətə malik idi ki, digər mədəni-mənəvi abidələrimizə qarşı amansız olduğu kimi, həmin dövrdə dastanlarımıza, şifahi xalq yaradıcılığı nümu-

nələrimizə nəinki SSRİ-də ermənilər və onların havadarları tərəfindən, həm də Azərbaycanın özündə güclü təzyiqlər və təqiblər hökm sürürdü. M.Təhmasibin məqaləsi nəşr olunan bu kitabın redkollogiya üzvləri sırasında İ.Branginski və Çiçerovla yanaşı, xalqımızın, dastanlarımızın, mədəniyyətimizin qatı düşməni A.Petrosyanın da olması məqalənin nəşri üçün kifayət qədər sədlər yaradırdı. Buna baxmayaraq, kitabda Azərbaycan dastanlarında xalqçılığa baxış V.Jirmunski, X.Zarifov, U.Dalqat, Z.Kupriyanova, A.Borovkov, L.Klimoviç kimi folklorşünaslıq, ədəbiyyatşünaslıq və türk xalqları ədəbiyyatının nəhəng tədqiqatçılarının adı ilə eyni sırada M.Təhmasib imzası da dayanırdı. M.Təhmasibin həmin dövrdə bu kitabda yer almış məqaləsi öz konseptuallığı, sistemliliyi, Azərbaycan dastanlarına tarixi və nəzəri planda baxışla yanaşı, həm də inandırıcılığı ilə diqqət cəlb edirdi.Buna görə də A.Petrosyan kimilər faktik olaraq M.Təhmasib qarşısında kapitulyasiyaya uğramağa məcbur qalırdılar.Məqalədə müəllif qəhrəmanlıq və məhəbbət dastanlarını qruplaşdırır, onların araya-ərsəyə gəldiyi dövrü nəzərdən keçirir, onlarla bağlı öz tarixi və nəzəri mühafizələrini irəli sürürdü. "Koroğlu" dastanının mənşəyini təhlil edərkən o, bu dastanının mənşə etibarı ilə sırf Azərbaycan arealı ilə bağlı olduğundan və belə fikirlərin həm də V.Jirmunski, İ.Braginski, İ.Petruşevski və X.Zarifovanın tədqiqatlarında da yer aldığını söyləyirdi (3, 180).

Əlbəttə, M.Təhmasib heç də yalnız Azərbaycan dastanlarının yığılması, nəşri və onların öyrənilməsində nəzəri məsələlərin rolundan danışmırdı, o, həm də folklorumuzun digər janrlarının dərindən təhlili ilə məşğul olurdu.Onun bu baxımdan aşıq sənətinə dair mülahizələri də istənilən qədər vacib idi. Aşıq sənətinin mahiyyətinə nəzər salan M.Təhmasib bu sənətin sinkretikliyini, aşığın ifasında, fəaliyyətində şairliyi, bəstəkarlığı, aktyorluğu, dastançılığı, müğənniliyi uğurla birləşdirib bir insanın şəxsində orkestr yarada bilməsini vurğulamaqla, "varsaq", "ozan", "yanşaq" və "aşıq" anlayışlarının nəyi ehtiva etdiyini, bu anlayışların etimoloji izahını, tutumunu ortaya qoymuş, aşıq yaradıcılığını digər sənət sahələrindən əsaslı şə-

kildə fərqləndirən məsələlərə aydınlıq gətirmişdir.Yeri gəlmişkən qeyd edək ki, M.Təhmasibin bu məslələrə münasibətini digərləri də incələməyə çalışmışlar (2, 36-39). Aşığın yaradıcılıq diapozonuna diqqətçəkən M.Təhmasib onun ifaçılıq baxımından xanəndə və aktyorlardan daha böyük fərqini qeyd etməklə, həm də aşıq sənətinin əhatəli və sərbəst olduğunu söyləmiş, bu yaradıcılığı folklorumuzun müstəqil bir qolu kimi nəzərdən keçirmişdir.Lakin M.Təhmasib aşıq yaradıcılığından danışdıqda, bu yaradıcılığın tam folklor olması ilə də razılaşmır.Aşıq yaradıcılığının şifahi yolla yayılıb yaşaması, anonimliyi, qədimliyə getməsi ilə folklora, müəllifə bağlılığı ilə isə yazılı ədəbiyyata yaxın olduğunu bildirmişdir (4, 51).

Aşıq yaradıcılığının folklorla yazılı ədəbiyyat magistralı üzərində dayanmasına tutarlı nümunələr əsasında sübutları ortaya qoyduqdan sonra, M.Təhmasib həm də yazılı ədəbiyyatla aşıq yaradıcılığının özəl xüsusiyyətlərinə nəzər salmış, aşıqlıq sənətində ustad şəyird ənənəsinin güclü olduğunu nəzərə carpdırmışdır. Bütün mülahizələrini o, konkret aşıqların (Aşıq Ələsgər, Aşıq Şəmşir və başqaları) yaradıcılığına müraciət etməklə sübut edirdi.

Aşıq, aşıq yaradıcılığının spesifik tərəflərinə toxunan M.Təhmasib bu anlamın özündə nəyi ehtiva etdiyinə nəzər salarkən məsələnin tarixi kökünə vardığını, "Kitabi-Dədə Qorqud" dastanları V.Radlov, V.Jirmunski, V.Bartold, A.Kononov, M.Seyidov, və başqa bu kimi mənbə və alimlərin nəzər nöqtələrindən yaradıcılıqla qidalandığını görməmək mümkün deyildir. M.Təhmasib "aşıq" sözünün "işıq" sözü ilə müəyyən əlaqədə olduğunu göstərir, aşıq deyişmələrindən danışır, Aşıq Mıqıc, Aşıq Hüseyn Şəmkirli və başqalarının qıfılbəndlərinin xüsusiyyətlərini açır, aşıq xalq yaradıcılığının kütlələrlə canlı əlaqələrdə olduğuna nəzər salır. Aşıqlıqla fikrini yekunlaşdırarkən M.Təhmasib bir fikri də xüsusi olaraq vurğulayır ki, aşıq bütün əsrlərdə əməkçi xalqın içərisindən çıxmış, maddi və mənəvi cəhətdən də xalqın məhz bu hissəsi ilə bağlı olmuşdur (5, 59).

Əlbəttə, M.Təhmasibin folklorumuzla bağlı araşdırmalarının ümumi mənzərəsinə baxdıqda biz onun nəinki nağıllar və dastanla-

rın (eyni zamanda folklorumuzun bu bəhsini də məsələn, nağıllarda keçəl və div surəti, dastanlarımızda əfsanəvi quşlar, "Dədə Qorqud" boyları ilə bağlı yazdığı fundamental məqalələr, tarixi həqiqətin eposdakı izləri) bir sıra dərinləşdirilmiş təhlillər tələb edən xüsusiyyətləri, həm də geniş şəkildə nəzərdən keçirilən adət, ənənə və mərasimlərlə əlaqədar fikirləri folklorşünaslığımızda öz mövqeyini buraxmış təhlillər kimi göz önündə durmaqdadır. Bəs elm sahəsinin bu istiqamətində belə əsaslı araşdırmalar aparmış M.Təhmasib irsinin son illərə qədər yayılması nə vəziyyətdə idi?! Elə məqalənin yazılmasına səbəb də onun folklorşünaslıq irsinə son illərə qədər münasibətin ürək açan olmaması ilə bağlıdır. Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycan folklorşünaslığının inkişafında əvəzsiz xidmətləri olan prof. Məmmədhüseyn Təhmasibin yaradıcılığı yetərincə fundamentallığı ilə seçilsə də, milli folklorşünaslar onun bu sahədəki fəaliyyətini heç də daim diqqət mərkəzində saxlamağa müvəffəq ola bilməmişlər. Böyük tədqiqatçının əsərlərinə, belə demək mümükünsə, bir müddət etinasızlıq özünü biruzə vermişdir. Halbuki, onun istər folklorumuzun müxtəlif janrları, istərsə də epik nümunələri tədqiqatçının daim diqqət mərkəzində dayanmış, Azərbaycan folklorşünaslığına bəxş etdiyi əsərləri orijinallığı və tamlığı ilə seçilmişdir. M.Təhmasibin elmi yaradıcılığının bu xüsusiyyətlərinin ortaya çıxarılması sahəsindəki boşluq Bakı Slavyan Universitetində hazırlanmış "Azərbaycanşünaslıq etüdləri" seriyasi -1" adı altında "Məmmədhüseyn Təhmasib. Seçilmiş əsərləri"ndə folklorşünasın namizədlik dissertasiyası, məqalələri və türk dastançılığında yeni mərhələ kimi dəyərləndirilən "Azərbaycan xalq dastanları (orta əsrlər)" adlı doktorluq dissertasiyası ilk dəfə olaraq geniş oxucu kütləsinə çatdırılmışdır. Təqdir olunası məqam ondan ibarətdir ki, BSU-da bu nəşrə "yaşıl işıq yandırılmaqla", gənc Azərbaycan alimlərini M.Təhmasib irsi ilə yaxından tanış etmək missiyasını öz üzərinə götürüb, vəzifənin öhdəsindən layiqincə gəlmişdir. Nəfis şəkildə işıq üzü görmüş etüdlər iki cilddən ibarətdir. Birinci cilddə M.Təhmasibin adət, ənənə, mərasim, nağıl və dastanlar, aşıq ya-

radıcılığına dair mülahizələri, xalq lətifələri, uşaq folkloru, Kərkük folkloru (6), ikinci cilddə dastanların təsnifi (onların müxtəlif tipləri) və ayrı-ayrı aşıqlardan topladığı nümunələr yer almışdır (5).

Məmmədhüseyn Təhmasibin "Seçilmiş əsərləri"nə "Ön söz" yazmış Kamal Abdulla haqlı olaraq göstərir ki, M.Təhmasib kimi alimlərin gənc nəslə tanıdılması Azərbaycan xalqının ədəbiyyatının, mədəniyyətinin,elminin inkisafi baxımından çox vacibdir... indiyədək yalnız saralmış qəzet və arxivlərdə yaşayan bu əsərlərin əlçatmazlığından "bəhrələnmək" istəyənlər də az deyildir. İnanırıq ki, M.Təhmasibin "Seçilmiş əsərləri"nin çap olunması ədəbiyyatşünaslığımızın qaranlıq məqamlarının açılmasına da yardım edəcək.

Bu gün M.Təhmasibin əsərlərinin külliyyat halında işıq üzü görməsi filoloq tələbələr və bu sahədə çalışan alimlərimiz üçün dəyərli töhfədir (1, s.3-4). Doğrudan da böyük folklorşünas alimin elmi-nəzəri irsinin iki sanballı kitabda toplanıb elmi ictimaiyyətə çatdırılması xoş məram və məqsədə xidmət edən hadisədir. Belə təfəkkür sahiblərinin elmi-nəzəri irsinin gələcək nəsillərə ötürülməsi təqdirəlayiqdir.

## QAYNAQLAR


1. Abdulla K. Ön söz. // Məmmədhüseyn Təhmasib. Seçilmiş əsərləri. 2 cilddə. 1.c. Bakı, Mütərcim, 2010, s. 3-4
2. Əliyeva X. Məmmədhüseyn Təhmasibin folklorşünaslıq fəaliyyəti. Bakı, "Nurlan", 2009, s. 36-39
3. Тахмасиб М.Проблема народности азербайджансих дастанов и современное состание исследования их // Вопросы изучения эпоса народов СССР. М., "Наука", 1958, с. 176-188
4. Təhmasib M. Azərbaycan xalq dastanları (orta əsrlər). Bakı, Elm, 1972, 399 s.
5. Təhmasib M. Seçilmiş əsərləri. 2 c., 2 c, Bakı, Mütərcim, 2011, 440 s.
6. Təhmasib M. Seçilmiş əsərləri. 2 c., 1c. Bakı, Mütərcim, 2010, 488 s.

# AZƏRBAYCAN NAĞILLARI M.H.TƏHMASİBİN ARAŞDIRMALARINDA

**Oruc ƏLİYEV**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Folklor İnstitutu*
*orucsohraboglu@gmail.com*

**Özət**

Məqalədə XX əsr Azərbaycan folklorşünaslığının ən görkəmli nümayəndələrindən biri olan professor M.Təhmasibin nağıl janrı ilə bağlı araşdırmalarından bəhs olunur.

M.Təhmasib üçcildlik və beşcildlik Azərbaycan nağıllarının I cildlərinin tərtibçisi olmuş, bu cildlərə sanballı ön söz, izah və şərhlər yazmışdır. O, "Azərbaycan nağıllarında keçəl", "Əfsanəvi quşlar", "Azərbaycan xalq ədəbiyyatında div surəti" məqalələrində, eləcə də digər bir sıra əsərlərində nağıl janrının ümumi-nəzəri problemləri, səciyyəvi obrazları barədə dəyərli mülahizələr söyləmiş, tədqiqatlar aparmışdır.

M.Təhmasib nağılın janr xüsusiyyətləri məsələsinə də toxunmuş, bu janrın ənənəvi formullara, ifadələrə görə də seçildiyini göstərmişdir. Folklorun epik növünün janrları içərisində bir-birinə ən yaxın olanı nağılla dastanı hesab edən müəllif, bu janrlar arasındakı qarşılıqlı əlaqə, oxşar və fərqli xüsusiyyətlərə də aydınlıq gətirmişdir. M.H.Təhmasib toplayıcı və nağılçı məsələsinə də toxunmuş, folklor nümunələrinin nəşri ilə bağlı bəzi məqamlara da münasibətini bildirmişdir. Görkəmli folklorşünasın digər əsərləri kimi, nağıllara dair tədqiqatları da bu gün də öz el-mi aktuallığını saxlayır.

**Açar sözlər:** nağıl, dastan, əsatir, sehr, əfsanəvi quşlar, div, keçəl, söyləyici

## АЗЕРБАЙДЖАНСКИЕ СКАЗКИ В ИССЛЕДОВАНИЯХ М.Г.ТАХМАСИБА


**Резюме**

В статье рассматриваются исследования одного из самых видных представителей азербайджанской фольклористики XX в. М.Тахмасиба, связанных с жанром сказки. М.Тахмасиб был составитель первых томов трехтомника и пятитомника Азербайджанских сказок и им были написаны предисловия и комментарии этим томом. Он в своих статьях «Плешивы в Азербайджанских сказках», «Легендарные птицы», «Образ дива» в азербайджанской народной литературе а так же в ряде научных трудах в вел исследования высказал ценные наблюдения об общетеоретических проблемах, характерных образов жанра сказки.

М.Тахмасиб так же затронул вопрос жанровых особенностей жанра сказки и отметил, что этот жанр выдается из числа других жанров относительно традиционных формул и выражений считающийдастана наиболее близким жанром сказке среди жанров эпического вида фольклора так же высказался по поводу взаимосвязей, схожих и отличительная особенностей между этими жанрами. М.Тахмасиб так же затронул и вопроса собирателя и сказителя высказал свое отношение к некоторым фольклорных образцов. Исследования видного фольклориста посвящённых сказкам как и другие его труды и сегодня сохраняют свою актуальность.



**Клечевые слова:** сказка, дастан, миф, волшебство, легендарные птицы, дев, плешивый, сказитель.


## THE AZERBAIJANI TALES IN THE INVESTIGATIONS BY M.H.TAHMASIB


**Summary**

In the article it is talked about one of the famous representatives of Azerbaijan folklore-study, Mammadhuseyn Tahmasib

dealing with tales. M.Tahmasib was a compiler of the first volume of three volume and five volume of Azerbaijani tales, he wrote a perfect preface, explanation and commentaries to them. In the articles such as: “The bald in Azerbaijani tales”, “The legendary birds”, “The image of giant in Azerbaijani folk literature” and in some other works he hold investigations dealing with the general-theoretical problems, typical images of the tale genre.

M.Tahmasib also touched upon the problems of the genre peculiarity of tale and noted that this genre is distinguished according to the traditional formulas, expressions. Among these epic genres of folklore he considered tales and dastan as genres closer to each other and he brought clarity to the similar and distinctive peculiarities, mutual relations between these genres. M.H.Tahmasib also touched upon the problem of informatory and narrator and some moments dealing with the publications of folklore samples. Like other works of the great folklorist, his investigation dealing with the tales keeps its relevance today.

**Key words:** tale, epos, myth, legendary birds, bald, narrator

XX əsrin 30-cu illərindən folklorşünaslıq fəaliyyətinə başlayan M.Təhmasib yarım əsrə yaxın bir dövrdə Azərbaycan folklorunun toplanması, sistemləşdirilməsi, nəşri, tədqiqi ilə ardıcıl şəkildə məşğul olmuş, Azərbaycan folklorunun ən mühüm məsələlərinə dair tədqiqat əsərləri yaratmışdır.

M.Təhmasibin çoxşaxəli elmi yaradıcılığında Azərbaycan nağıllarının toplanması, sistemləşdirilməsi və tədqiqi də mühüm yer tutur.

M.Təhmasib XX əsrin 40-cı illərində nəşr olunan üçcildlik Azərbaycan nağıllarının I cildinin və 1960-1964-cü illərdə nəşr olunan Azərbaycan nağıllarının I cildinin tərtibçisi olmuş, bu cildlərə mükəmməl ön söz, izah və şərhlər yazmışdır.

N.Seyidov 1941-ci ildə M.Təhmasibin tərtibində nəşr olunan Azərbaycan nağıllarının əvvəlki nağıl nəşrlərindən fərqləndiyini xüsusi olaraq qeyd etmişdir:

“Burada demək olar ki, folklorşünaslıq qaydalarına müəyyən qədər riayət edilmişdir. Xüsusilə ayrı-ayrı nağılların şivə xüsusiyyətlərinin saxlanılmasına mümkün qədər fikir verilmiş, nağılçıların üslubu mühafizə edilmiş, onların adı, yaşı, peşəsi və sairə göstərilmiş, geniş müqəddimə, şərh, lüğət və qeydlər verilmişdir” (5, 63).

Bu cilddə ən yaxşı cəhətlərdən biri də budur ki, burada nağılların “Aarne-Andreyev” göstəricisinə uyğun süjet nömrəsi verilir, müqayisə nəticəsində bir çox Azərbaycan nağıllarının bu göstəricidə qarşılığına təsadüf olunmadığı nəticəsinə gəlinir (1, 487).

Bunun isə sonrakı tərtib işləri və müqayisəli araşdırmalara yeni yol açdığını xüsusilə qeyd etməliyik.

“...Məmmədhüseyn Təhmasib sadəcə şifahi xalq ədəbiyyatı nümunələrini toplayıb tərtib etməkdən savayı elmi əsaslandırmanı önə çəkməklə folklorun məhəlli çərçivəsini dünyəvi dəyərlərin tələbinə uyğun olaraq təhlilə cəlb etmiş geniş təfəkkürlü bir nəzəriyyəçidir. Odur ki, folklor nəzəriyyəçisi kimi bu elmi istiqamətin yeganə avanqardı, pioneri olan Məmmədhüseyn Təhmasibin özündən əvvəlki elmi araşdırmaların sistemləşdirilməsi, özündən sonrakı tədqiqatçılar üçün isə proqram mahiyyətli irs qoyub getməsi danılmaz faktdır” (3, 200).

M.Təhmasib “Azərbaycan nağıllarında keçəl” (6, 135-139), “Əfsanəvi quşlar” (7, 93-101), “Azərbaycan xalq ədəbiyyatında div surəti” (8, 79-92) və digər əsərlərində nağıl janrının səciyyəvi obrazları, nəzəri problemləri barədə axtarışlar aparmış, dəyərli mülahizələr söyləmişdir.

M.Təhmasib beşcildliyin I cildinə yazdığı müqəddimədə (2, 5-16) nağılların mənşəyi, məzmunu, səciyyəvi xüsusiyyətləri barədə yığcam məlumat verir, ən geniş yayılmış süjetlər, obrazlar barədə söhbət açır, totemizm və animizmə əsaslanan əsatiri obrazların səciyyəvi xüsusiyyətlərindən bəhs edir.

M.Təhmasib nağıl janrının ilk rüşeymlərinin, bəlkə də ən qədim nümunələrinin sinifsiz cəmiyyətdə yaranmış olduğunu söyləyir.

Nağıl janrının ən qədim növünün heyvanlar haqqındakı nağıllar olduğunu ehtimal edən müəllif yazır:

"Nağıl janrının ən qədim növü heyvanlardan danışan nağıllardır. Bu növ nağıllar ibtidai icma dövründə yaranmış, qədim ovçu, eləcə də qəbilə və tayfalarda uzun müddət xüsusi əfsun vasitəsi kimi istifadə edilmiş, daha sonralar isə alleqorik nağılların və təmsillərin yaranmasında çox əhəmiyyətli rol oynamışlar.

İndi ancaq uşaqlar arasında yaşayan bu nağıllarda bəzən doğrudan da çox uzaq keçmişlərlə bağlı adət və ənənələrin, inam və etiqadların, hətta çox qədim "dini" görüşlərin izlərini, əlamətlərini tapmaq mümkün olur" (2, 5-6).

İnsanın ən qədim "dini" təsəvvürünün totemizm şəklində təzahür etdiyini göstərən tədqiqatçı bu qədim, hətta ibtidai insana mənsub olan təsəvvürün qalıqlarının "Göyçək Fatma", "Fatmanın inəyi", "Fatma və giyov", "Ovçu Pirim" adlı nağıllarda aydın göründüyünü göstərir. M.Təhmasib bu nağıllarda totemizmin əks olunduğunu, bunların bəzilərinin isə artıq totemə inamın zəifləməyə başladığı dövrün məhsulu olmaq əlamətlərini yaşadığını güman edir.

Məlum olduğu üzrə, inkişaf nəticəsində insanın təbiətə, heyvanlara, canlı aləmə münasibəti getdikcə dəyişməyə doğru getmişdir. Bunlar isə müxtəlif xalq yaradıcılığı nümunələrində, o cümlədən nağıllarda da özünü büruzə vermişdir.

Konkret nümunələr üzərində təhlil nəticəsində M.Təhmasib totemist görüşlərlə səsləşən nağıllara nisbətən animist görüşlərlə bağlı olan nağılların daha geniş yayıldığı qənaətinə gəlir:

"Totemizmin qalıqlarını yaşadan nağıllar çox qədim dövrlərlə əlaqədar olduqları üçün nisbətən azdırsa, daha sonrakı dövrlərin animist görüşləri ilə səsləşən nağıllar daha çoxdur.

Ümumiyyətlə, bütün xalq yaradıcılığının və ya onun ayrı-ayrı növlərinin, janrlarının mənşəyini əsatirdə görmək doğru deyildir. Lakin bu heç də o demək deyildir ki, şifahi ədəbiyyatın ən qədim janrlarından biri olan nağılların əsatirlə heç bir əlaqəsi olmamışdır.

Bizim, xüsusilə çox zəngin və rəngarəng olan sehrli nağıllarımızda animizmə (təbiət qüvvələrini canlı təsəvvür etmək) əsaslanan əsatiri surətlər az deyildir. Belə surətlərə misal olaraq divləri, pəriləri, əjdahaları, simurqları, dövlət quşlarını və başqalarını göstərmək olar" (2, 10-11).

M.Təhmasib "Əfsanəvi quşlar" (7, 93-101) məqaləsində Azərbaycan nağıllarında möcüzəli xüsusiyyətlərə malik xeyirxah bir qüvvə kimi təsvir olunan Simurq quşu obrazı barədə maraqlı axtarışlar aparmışdır.

Məlum olduğu kimi, xeyirlə şərin mübarizəsi sehrli nağılların əsas mövzusunu təşkil edir. Xeyiri və şəri təmsil edən qüvvələr ənənəvi obrazlarda əks olunurlar. Sehrli nağılları personajların vəzifələrinə görə araşdıran V.V.Propp aşağıdakı başlıca obrazları müəyyənləşdirmişdir: ziyankar (qəhrəmana, onun ailəsinə ziyan vurur, onunla çarpışır, onu izləyir), sehrverici (qəhrəmana sehrli vasitə verir), köməkçi (qəhrəmanın yerini dəyişdirir, ziyankarla çarpışmada ona kömək edir), şahzadə qız (müdafiə olunan surət), yola salan, qəhrəman, yalançı qəhrəman (4, 72-73).

M.Təhmasib Simurq quşunun qəhrəmanın köməkçisi funksiyasında çıxış etdiyini, şərə qarşı dayandığını göstərir. Simurq obrazı barədə bir çox tədqiqatçıların fikirlərini təhlil süzgəcindən keçirən müəllif göstərir ki, bu quş ayla bağlı obrazdır.

Ayın Simurq və Səməndər şəklində əsatirdə təzahür etdiyi nəticəsinə gələn M.Təhmasib çox məşhur olan dövlət quşunun da bu qəbildən olan əsatiri surətlərdən olduğunu göstərir:

"Bütün nağıllardan və əfsanələrdən görünür ki, bu quşun iki əsas xüsusiyyəti vardır. Bunlardan birincisi bundan ibarətdir ki, bu quşun kölgəsi bəxtiyarlıq və səadət rəmzidir. Onun kölgəsi kimin başı üzərinə düşsə, o, dünyada mütləq ən bəxtiyar adam olur. Bunun nəticəsi olaraq bu quşun ikinci xüsusiyyəti meydana gəlmişdir. O, kimin başına qonarsa, həmin adam padşah, yəni dövlət, hökumət başçısı olur. Göründüyü üzrə, birincidən doğmuş bu ikinci xüsusiyyət, eyni şeyin nağıl və əfsanə yaradıcılığı xüsusiyyət-

lərinə uyğunlaşdırılmış şəklidir. Başqa cür desək, bu xüsusiyyət birincinin daha sonrakı dövrə aid olan inkişaf formasıdır" (9, 159).

Nağıl və dastanlarımızda əksini tapan "dövlət quşu" anlayışı tayfa birləşmələrinin, yəni ilkin dövlətlərin yaranması dövründə mifoloji donundan tədricən uzaqlaşmış, əcdad-ağsaqqal kultu olaraq dövlətçilik elementinə çevrilmişdir. Lakin bu dövlətçilik elementinin mahiyyətində ciddi dəyişiklik baş vermişdir. Padşah seçilməsində hökmdar nəslindən olanların haqqı tanınmaqla yanaşı, nağıllarda onlar çətin sınaqlardan çıxarılır, uğurlar qazanır, ədalətli, xalqın taleyini düşünən, tədbirli olur, sanki bundan sonra hökmdar olmağa haqq qazanır.

"Dövlət quşu" hər adamın başına qonmur, bunun üçün nağılın müsbət qəhrəmanı olmaq lazımdır. Nağılçının, xalqın sevgisini, rəğbətini qazanmayan şəxsin başına "dövlət quşu" heç zaman qona bilməz. Bu sevgini qazanan nağıl qəhrəmanının başına "dövlət quşu" qonur, o,camaatın gözü qarşısında, meydana yığışan əhalinin, ağsaqqalların köməyi və məsləhətilə padşah seçilir.

M.Təhmasib bu quşun adındakı "dövlət" sözünün "sərvət-var" mənası daşıması, müəyyən dövrlərdə "ağıl" mənasında, həm də "övlad" mənasında işləndiyini, bunun isə haqqında danışılan məna ilə sıx şəkildə bağlı olduğunu ehtimal edir.

Dövlət quşunun bir adının da humay, yaxud hüma olduğunu göstərən müəllif bir sıra lüğətlərə, abidələrə, bu sahədə araşdırmalar aparan tədqiqatçıların mülahizələrinə, həm də bu barədəki xalq inanclarına söykənərək bu əsatiri surətin nə ilə bağlı yaranmış olduğunu aydınlaşdırır:

"Bütün bu deyilənlərdən Umayın və yaxud onun başqa şəklindən ibarət olan Humayın əslində, doğrudan da, uşaq və hamilə, zahı qadınlar ilahəsi olduğu görünməkdədir. Hətta bir çox xalqlarda onun doğrudan-doğruya qadın-ana şəklində təsəvvür edilməsi də məlumdur. Bəllidir ki, Humay quşunun kölgəsinin bəxtiyarlıq və dövlət rəmzi səbəbi olması da həmin bu xüsusiyyətinin inkişafı məhsuludur. Buradakı kölgə himayə mənasını daşımaqdadır" (9, 162).

“Azərbaycan xalq ədəbiyyatında div surəti” (8, 79-92) məqaləsində “Əfsanəvi quşlar” məqaləsində araşdırılan məsələlər davam etdirilir. Bu məqaləsində M.Təhmasib əsatirçilər məktəbinə öz münasibətini bildirir. Bu məktəbi Rusiyada F.Buslayev, A.F.Afanasyev, V.Müller kimi alimlərin davam və inkişaf etdirdiyini göstərən müəllif bu məktəbin Azərbaycanda da özünü göstərdiyini qeyd edir.

Əsatirçilərin metodologiyasının doğru olmadığını bildirən M.Təhmasib bununla bərabər əsatirçilər məktəbinin müsbət cəhətlərini də unutmur:

“Lakin bu heç də o demək deyildir ki, bu məktəb heç bir müsbət iş görə bilmədi. Hər şeydən əvvəl bu məktəb müxtəlif ölkələrdə xalq ədəbiyyatı nümunələrinin küllü miqdarda toplanmasına, onların müqayisəli üsul ilə tədqiqinə, xüsusilə bu əsərlərdə ibtidai, qədim mədəniyyətə aid olan müxtəlif ünsür və əlamətlərin təyininə çox kömək etmiş oldu.

Bu məktəbin təsiri Azərbaycanda da özünü göstərdi. Əvvəlcə qeyd etmək lazımdır ki, XIX əsrdə, ümumiyyətlə, Avropada və xüsusilə Rusiyada oyanmış maraq bütün Qafqaz, o cümlədən Azərbaycan xalq ədəbiyyatının müxtəlif növlərinə aid bir çox nümunələrin toplanıb çap olunmasına səbəb oldu. Bu işdə Azərbaycanın Firudin bəy Köçərli, Rəşid bəy Əfəndiyev, M.Vəzirov, İ.Bağırov, Bayraməlibəyov və b. bu kimi görkəmli müəllim və ziyalıları iştirak etdilər. Bir çox qüsurlarına baxmayaraq, bunların görmüş olduqları bu iş bu gün çox böyük elmi dəyərə malikdir” (9, 125-126).

Əsatirçilər məktəbinə tənqidi yanaşan müəllif bir çox folklor örnəklərinin qədim əsatir ilə əlaqəsinin olduğunu da söyləyir. Belə ki, nağıllarda əsatir qalıqlarının hələ də yaşamaqda olduğunu ehtimal edir.

M.Təhmasib Ay və Günəş haqqında bir sıra əfsanə və rəvayətlərə əsaslanaraq divlərlə Günəş arasında mübarizə əsatirinin izlərinin, qalıqlarının yaxın zamanlara qədər xalq etiqad və inamlarında yaşamaqda olduğunu göstərir.

Gözəl qızların divlərin əlində əsir olması motivinə onlarca nağıllarda təsadüf etmək olar. Çox vaxt gözəl qızları divlər öz qalaçalarına oğurlayaraq gətirirlər. "Kəl Həsənin nağılı", "Reyhanın nağılı" və bir çox digər nağıllarda bu motiv xüsusi yer tutur. Bu tipli nağıllarda əsas hadisələr gözəl qızın div tərəfindən oğurlanmasından sonra başlayır.

Məlum olduğu kimi, bir çox xalqlarda, o cümlədən Azərbaycan xalqının folklorunda Günəş qız şəklində təsvir olunur, divlər isə zülməti, qaranlığı təmsil edirlər. Buradan aydın görünür ki, nə üçün divlər gözəl qızları oğurlayıb zülmət qalaçasında gizlədirlər. Bu məsələdən bəhs edən M.Təhmasib yazır:

"Qaranlığı və onun təbii səbəblərini, eləcə də onları məhv edən Günəş və Ayı canlı varlıq kimi təsəvvür etmək, bəllidir ki, ümumiyyətlə, inkişafın müəyyən pilləsində təbiət qüvvələrinə, göy əcramına olan animist baxışın nəticəsidir. Buradan aydın görünür ki, qədim azərbaycanlı da başqa bir çox xalqlarda olduğu kimi, bunlara yaşayan canlı varlıq kimi baxmış, hətta hər birinə öz xüsusiyyətlərinə uyğun bir şəkildə insani səciyyə və şəkil də vermişdir" (9, 126-127).

M.Təhmasib nağılın janr xüsusiyyətləri, digər janrlarla oxşar və fərqli cəhətləri, qarşılıqlı əlaqə və təsiri məsələlərinə toxunmuş, bu barədə də öz mülahizələrini bildirmişdir.

Nağılların bədii vasitələrə görə də digər janrlardan seçildiyini qeyd edən müəllif nağılların bu cəhətdən də xüsusi araşdırmaya ehtiyacı olduğunu diqqətə çəkir:

"Alt dodağı yer süpürür, üst dodağı göy süpürür; gül gülü çağırır, bülbül bülbülü çağırır; getmə gözümdən, gedərəm özümdən; çəkdi çarığın dabanını, girdi yerin damarın, günə bir mənzil, təyyi-mənazil, təpələrdən yel kimi, dərələrdən sel kimi, az getdi, üz getdi, dərə-təpə, düz getdi və s. Azərbaycan nağılları bu ənənəvi üslubi ifadələrə görə də zəngindir. Mübaliğəsiz demək olar ki, bizim xüsusilə sehrli nağıllarımızda yüzlərlə belə ifadəyə təsadüf edilir. Belə ənənəvi ştampların özünə görə poe-

tikası da vardır. Bunlardakı vəzn, ahəng, axıcılıq, qafiyə, rədif məsələləri, misra, yaxud hissəciklər arasındakı məntiqi bağlılıq, ifadənin təsvir etdiyi obyektin xarakterinə uyğunluğu, sözlərin təsvir edilən hadisə, iş, surət və ya yerin xüsusiyyətini verə biləcək səslərdən ibarət olması, misralardakı səslər alliterasiyası və s. xüsusi tədqiqə möhtac maraqlı məsələlərdir" (10, 66-67).

M.Təhmasib nağılla dastanı bir-birinə ən çox yaxın olan janrlar hesab edir. O göstərir ki, dastan əsatirdən, əfsanədən, rəvayət, təmsil, lətifə və sairədən daha çox nağıla yaxındır. Bu barədə fikirlərini davam etdirən görkəmli folklorşünas onu da qeyd edir ki, dastanlar bəzən birbaşa nağıllardan istifadə ilə də yaradılırlar. Müəllif onu da göstərir ki, yaradanlar da, ifa edənlər, dinləyənlər də dastanı çox zaman sadəcə nağıl adlandırmaqdadırlar. O, dastanla nağılın fərqli cəhətlərini belə izah edir:

"Hər şeydən əvvəl, yuxarıda da qeyd edildiyi kimi, dastan şeirlə nəsrdən, nağıl isə ancaq nəsrdən ibarət olur. Bu, nağılla dastanın əsas fərqlərindən biridir. Şeirsiz, qoşmasız dastan yoxdur. Eyni zamanda bizdə ancaq şeirdən ibarət dastan olmadığı kimi, ancaq nəsrdən ibarət nağıl da aşıq yaradıcılığına daxil deyildir. Çalmaq və oxumaq tələb etməyən əsərlər aşıqları heç zaman maraqlandırmamış, onların repertuarına daxil olmamışdır. Aşıqlar bəzən kiçik həcmli gülməli nağıl, qaravəlli, lətifə və sairədən ancaq məclisi əyləndirmək vasitəsi kimi istifadə edirlər..." (10, 65).

Aşıqların dastan yaradarkən nağıl süjetlərindən də istifadə etdiyini, bu yaradıcılıq prosesini araşdıran M.Təhmasib maraqlı nəticələrə gəlir. Onun ehtimalına görə, bu istifadənin ən qədim şəkli ondan ibarətdir ki, dastan düzüb-qoşan aşıq nağıl ehtiyatından özünə nə lazımsa seçib götürür, onlara yeni məna verərək dastan yaradır.

Görkəmli folklorşünas "Şah İsmayıl-Gülzar", "Şəms-Qəmər", "Ovçu Pirim", "Kəlbi", "Təhmiraz", "Adgözəl" və başqa bir sıra dastanların nağıl süjetlərindən istifadə yolu ilə yaradıldığını ehtimal edir.

Bu məsələnin xüsusi tədqiqata ehtiyacı olduğunu və mürəkkəbliyini nəzərə alaraq onlardan yalnız biri üzərində dayanır. Müəllifin qənaətinə görə, "Şəminin nağılı" adlı nağıldan istifadə ilə yaradılmış bir dastanın üç versiyası, hər versiyanın da müxtəlif variantları ortaya çıxmışdır. Bunlar, əsasən, ekspozisiyalarına, qoşmalarına və surətlərinə görə, ən əsası isə qəhrəmanın adına görə bir-birindən fərqlənir. M.Təhmasib belə güman edir ki, bu sonuncu dastanın belə fərqli versiyalar şəklində yayılmasının səbəbini izah etmək üçün tutarlı bir açar ola bilər. Bunu əlində əsas tutan tədqiqatçı "Şəminin nağılı" əsasında yaradılmış bir dastanın üç variantı üzərində dayanaraq bu bölümə daxil olan dastanların xüsusiyyətlərini nəzərdən keçirir və bir nağıldan üç dastançının istifadə etdiyini, onların hər birinin bu nağılı öz zövqünə uyğun bir şəkildə dastanlaşdırdığını ehtimal edir:

"Bizcə, bu dastançıların hər üçü milli dastançılıq ənənəmizə sadiq qalaraq özlərini öz dastanlarına qəhrəman intixab etmiş, buna görə də qəhrəmanların adları müxtəlif olmuşdur. Başqa sözlə deyilsə, bu versiyalardan birinin "müəllifi" "İbrahim", ikincisinin "müəllif"i Təhmiraz, üçüncüsünün "müəllif"i isə Adgözəl imiş" (10, 223).

Nağıllar üzərində bir sıra araşdırmalar aparan M.Təhmasib belə ehtimal edir ki, qədim görüşlərin, etiqadların öyrənilməsində nağıl özünə görə xüsusi əhəmiyyətə malik bir sahə, xalqın bədii söz yaradıcılığıdır.

O, nağıllarımızın öz qəhrəmanlarını uzaq, bəzən də mifik yerlərdən gətirdiyi halda, bunların hamısının Azərbaycanın öz ictimai-siyasi varlığı içərisində yaranmış, adət-ənənələri içərisində qurulmuş olduğunu söyləyir. Azərbaycan nağıllarını şimal nağılları ilə müqayisə edən tədqiqatçı hər bir xalqın nağıllarının həm də özünə aid bir coğrafiyaya malik olduğunu da göstərir.

Əski çağlardan bəri yaranıb formalaşmış bu xalq yaradıcılığı nümunələrinə ilkin görüşləri, adət-ənənələri öyrənmək üçün zəngin informasiya qaynağı kimi baxan M.Təhmasib yazır:

“Nağıllar uzaq keçmişin əlamətlərini özündə çox saxlamış olan bir janrdır. Biz orada ictimai quruluş olaraq patriarxal dövrün qalıqlarına, ibtidai insanın müxtəlif təbii və ictimai hadisələr haqqında olan primitiv əlaqələrinə, insanı daşa döndərə bilən, istədiyi heyvan şəklinə sala bilən sehr və əfsun qüvvələrinə rast gəlirik. Əlbəttə ki, bunlar ilk baxışda insana mənasız və boş bir fantaziya kimi görünür. Lakin unudulmamalıdır ki, bunların hamısı keçmiş insanın obyektiv həyata olan münasibəti nəticəsində doğmuş təsəvvürlərdir” (9, 119).

M.Təhmasibin digər əsərləri kimi nağıllarla bağlı əsərləri də bu gün öz elmi aktuallığını saxlamaqdadır.

## QAYNAQLAR


1. Azərbaycan nağılları. 3 cilddə, I cild /Tərtib edəni M.Təhmasib. Bakı: Azərb. SSR EA Az. Fil. Nəşriyyatı, 1941
2. Azərbaycan nağılları. 5 cilddə, I cild /Tərtib edəni M.Təhmasib. Bakı: Azərb. SSR EA Nəşriyyatı, 1960
3. Dadaşov A. Folklorumuzun ilk doktoru. Bakı: Nurlan, 2007
4. Пропп В.Я. Морфология сказки. Москва: Наука, 1969
5. Seyidov N. Azərbaycan nağılları haqqında /Azərbaycan şifahi xalq ədəbyyatına dair tədqiqlər, I kitab. Bakı: Azərb. SSR EA Nəşriyyatı, 1961, s. 52-117
6. Təhmasib M. Azərbaycan nağıllarında keçəl // “Revolyutsiya i kultura” jurnalı, 1939, №1-2, s. 135-139
7. Təhmasib M. Əfsanəvi quşlar // “Vətən uğrunda” jurnalı, 1945, №5, s. 93-101
8. Təhmasib M. Azərbaycan xalq ədəbiyyatında div surəti // “Vətən uğrunda” jurnalı, 1946, №1, s. 79-92
9. Məmmədhüseyn Təhmasib. Seçilmiş əsərləri: 2 cilddə, I cild. Bakı: Mütərcim, 2010
10. Məmmədhüseyn Təhmasib. Seçilmiş əsərləri: 2 cilddə, II cild. Bakı: “Kitab aləmi” NPM, 2011

# MƏMMƏDHÜSEYN TƏHMASİB VƏ SƏDNİK PAŞA PIRSULTANLI İRSINDƏ AZƏRBAYCAN DASTANLARI

**Sahibə SƏDNİKQIZI**
*AMEA Folklor İnstitutu*
*psahiba@mail.ru*

**Özət**

Azərbaycan folklorunun tədqiqatçılarından olan M.Təhmasib və S.P.Pirsultanlı elmi yaradıcılıqlarında şifahi xalq ədəbiyyatı janrlarından olan dastanları da araşdırmış, dastan yaradıcılığının poetik özünəməxsusluqlarına aydınlıq gətirmişlər.

**Açar sözlər:** M.H.Təhmasib, S.P.Pirsultanlı, Azərbaycan folkloru, dastan, qəhrəmanlıq dastanları, məhəbbət dastanları, ailə-əxlaq dastanları

## АЗЕРБАЙДЖАНСКИЕ ЕПОСЫ В ТВОРЧЕСВЕ М.Г.ТАХМАСИБ И СЕДНИК ПАША ПИРСУЛТАНЛЫ

**Резюме**

М.Тахмасиб и С.Пирсултанлы являются выдающимися исследователями азербайджанского фольклора. Они также изучали эпосы , являющиеся одним из жанров устного народного творчества, а также в своих научных трудах раскрывали поэтические особенности эпоса.

**Ключевые слова:** М.Г.Тахмасиб, С.П.Пирсултанлы, азербайджанский фольклор, эпос, героические эпосы, любовные эпосы, семейно-моральные эпосы

## THE AZERBAIJANI EPOSES IN THE M.H.TAHMASIB'S AND S.P.PIRSULTANLI'S HERITAGES

**Summary**

M.Tahmasib and S.P.Pirsultanli were the outstanding investigaters in Azerbaijan folklore. Within their research they

studied the epic genre of the oral folk literature and clarified the poetic peculiarities of this genre.

**Key words**: M.H.Tahmasib, S.P.Pirsultanli, Azerbaijani, folklore, heroic eposes, love eposes, family-ethic eposes

Rəngarəngliyi və zənginliyi ilə seçilən şifahi xalq ədəbiyyatı özündə xalqın bütöv keçmişini, yaşadığı və yaşayacağı dövrün bu və ya digər xüsusiyyətlərini, insanların istəklərini, ən xoş arzularını əks etdirir.Xalqın ruhundan süzülüb gələn,özünə məxsus xüsusiyyətləri ilə fərqlənən, onun həyat tərzi və məişəti ilə sıx bağlı olan bu milli mədəniyyətin janrlarından biri də dastandır.Dastan bir carçı kimi xalqın taleyini, poetik düşüncələrini dinləyicilərə çatdırır, eyni zamanda müəyyən tarixi-ictimai şəraitdən çıxış edərək real məzmun daşıyır.

Türk-oğuz epik ənənəsinin əsas daşıyıcısı olan həm İslama qədərki dastanlar ("Əfrasiyab", "Şu", "Hun", "Göytürk", "Oğuz Xaqan", "Uyğurdur"), həm də İslamdan sonrakı dastanlar ("S-atuq Buğra xan", "Manas", "Kitabi-Dədə Qorqud") erkən orta çağlardan başlayaraq Şərq-İslam konteksti daxilində öz əvvəlki fəal tarixi mövqeyini itirməyə başlamış, XV-XVI əsrlərdə isə demək olar ki, arxa plana çəkilmiş və unudulmaq dərəcəsinə gəlmişdir."Yaranan hər bir epos müəyyən zaman içində yaşayaraq yeni qəhrəmanlıq eposunu doğurmuş, özü isə tarixin arxivinə ötürülmüşdür" [1, s.233].

Azərbaycan xalqının dastan yaradıcılığı uzun bir dövr keçərək günümüzə qədər gəlib çatmışdır. Bu janrın X-XI əsrlərin hadisələri ilə səsləşən abidələrindən biri "Kitabi-Dədə Qorqud" boyları olmuşdur. X-XVI əsrlərdə isə məhəbbət dastanlarının ən gözəl nümunələri yaranmışdır. XIX-XX əsrlərdə də dastan janrı zəifləməmiş, yaşamaqda davam etmişdir.

Şifahi söz sərvətimizin toplanması, tədqiqi və nəşri istiqamətində bir çox folklorçuların böyük xidmətləri olmuşdur. Abdulla Şaiq, Əmin Abid, Hənəfi Zeynallı, Bəkir Çobanzadə və digər

tanınmış elm adamlarının araşdırmaları bu sahədə ilk elmi mənbələr kimi qəbul edilmişdir. Dastanların tədqiqi əsasən, "Dədə Qorqud" boylarının və "Koroğlu" eposunun ayrı-ayrı nəşrlərinə yazılmış müqəddimələr, qeydlər, eləcə də bu əsərlərlə əlaqədar olan qədim abidələr, qalalar, dağlar, qəbirlər və xalq içərisində gəzən rəvayətlər haqqında verilən məlumatlarla başlanmışdır.

Azərbaycanda Dədə Qorqud dastanları haqqında aparılacaq tədqiqatların əsasını akademik Həmid Araslının 1939-cu ildə tərtibi, redaktəsi ilə çap edilən "Kitabi-Dədə Qorqud" dastanına yazdığı müqəddimə qoymuş oldu.

XX əsr Azərbaycan folklorşünaslığının görkəmli nümayəndələri sırasında özünəməxsus yer tutan professor Məmmədhüseyn Təhmasib "geniş və çox sahəli fəaliyyəti ilə bütün həyatı boyu Azərbaycanda elmin və mədəniyyətin inkişafına xidmət etmişdir" [2, s.3].Professor M.H.Təhmasib folklorşünaslığımızda eposşünaslığın əsasını yaratmışdır. "O, elm tariximizdə silinməz izlər qoyub getmiş, uzun müddət folklorşünaslığın inkişafını koordinasiya etmişdir..." [7, s.8].M.H.Təhmasib dastanlarımızın təhlili, onların qədim mifoloji kökləri haqqında ətraflı araşdırmalar aparmışdır.

Tədqiqatçı alim "Kitabi-Dədə Qorqud"u Azərbaycan xalqının salnaməsi və Azərbaycan xalqının etnoqrafiyasını öyrənmək üçün əvəzedilməz mənbə hesab etmişdir. O, elmi yaradıcılığında "Dədə Qorqud" boylarının tədqiqinə mühüm yer vermiş, bu qoca ozanın kim olduğunu öyrənmək üçün qədim etiqadları müxtəlif şəkildə yada salmış və Dədə Qorqudun əsas xüsusiyyətlərini gözdən keçirməyi lazım bilmişdir. Professor M.H.Təhmasib "Dədə Qorqud boyları haqqında" adlı məqaləsində "Dədə Qorqud" boylarının sonrakı dövr dastanlarımıza təsiri faktlarına toxunmuş, gələcəkdə aparılacaq yeni elmi araşdırmalar üçün bir növ istiqamət vermişdir. Təhmasibə görə "Basatın Təpəgözü öldürdüyü boy" yaranma tarixinə, mənşəyinə görə daha qədimdir və "... bu boy əslində oğuzların etnonimi hesab edilən əsatiri Oğuz xanın özü ilə bağlı"dır [6, s.113].

M.H.Təhmasibin tədqiqatları yalnız "Kitabi-Dədə Qorqud"la məhdudlaşmır.O, "Şah İsmayıl", "Aşıq Qərib", "Abbas və Gülgəz", "Şəhriyar" kimi bir çox dastanlarımızı ideya və bədii cəhətdən təhlil etmiş və onları qəhrəmanlıq dastanları, məhəbbətdastanları, ailə-əxlaq dastanları şəklində qruplaşdırmışdır.

M.H.Təhmasib məhəbbət dastanlarını təhlil edərək onların qəhrəmanlıq dastanlarından fərqli xüsusiyyətlərinə belə aydınlıq gətirmişdir: "Məhəbbət dastanlarımız sevgidən, məhəbbətdən danışır, bunları təsvir və tərənnüm edir... Məhəbbət dastanları... iqtisadi, siyasi məsələlərdən daha çox azad sevgi məsələsi qoyur..." [6, s.177]

M.H.Təhmasib "Tahir və Zöhrə", "Aşıq Qərib", "Yaxşı-Yaman" kimi onlarla dastanda qılıncı sazın, mizrağı mizrabın, oxları saysız-hesabsız qafiyələrin, rədiflərin, cinasların, qıfılbəndlərin əvəz etdiyini diqqətə çatdırmışdır. O, "Kitabi-Dədə Qorqud", "Koroğlu" kimi dastanlarda döyüş səhnələri ilə yanaşı, sevgi səhnələrinin mövcud olduğunu söyləmiş, ox atan, at çapan, qılınc vuran, düşmənlə mübarizə aparan, elini-obasını, anasını, qızını, qadınını qoruyan igidlərin zərif hisslərini də önə çəkərək təhlilini aparmışdır.

Məmmədhüseyn Təhmasibin araşdırmalarından aydın olur ki, "Şah İsmayıl və Gülzar xanım", "Novruz-Qəndab", "Mehr-Mah", "Tahir və Zöhrə", "Məhəmməd və Güləndam", "Dilsuz-Xəzangül" dastanı kimi bir çox məhəbbət dastanlarımız qəhrəmanlıq dastanlarından məhəbbət dastanlarına keçid mərhələsini təşkil edir.

Professor M.H.Təhmasib ailə-əxlaq dastanları kimi ilk dəfə olaraq "Alı xan və Pəri" dastanına müraciət etmiş, burada Azərbaycan xalqının sahib olduğu şərəf, namus, heysiyyət, sədaqət kimi bir çox əxlaqi dəyərlərdən söhbət açıldığını söyləmişdir.

Azərbaycan koroğluşünaslığında M.H.Təhmasibin adını xüsusilə qeyd etmək lazımdır. O, qədim əsatiri görüşlərlə səsləşən dastanlardan biri sayılan "Koroğlu" ilə yaxından maraqlanmışdır. Alim dastanın ayrı-ayrı qollarının, surətlərinin yaradıl-

masında hafizələrdə yaşayan rəvayət və əfsanələrdən də istifadə edildiyinə xüsusi diqqət yetirmiş, Koroğlu, Ərəb Reyhan kimi obrazların təhlilini vermiş, bədii-mifoloji, həm də tarixi baxımdan Cavidan, Babək, Şah İsmayıl kimi qəhrəmanların təhlilini aparmış, dastanda baş verən hadisələrə aydınlıq gətirmiş, onların haqqında yaranmış rəvayətləri tarixi abidələrdə baş verən hadisələrlə müqayisə etmişdir. Beləliklə, M.H.Təhmasib"... qəhrəmanlıq, məhəbbət və ailə-əxlaq tematik vahidlərini bir-birindən dastanların mətni, süjet, poetik strukturu səviyyələrində fərqləndirmişdir" [7, s.15].

Dastanların təhlili və araşdırılması, müxtəlif qol və variantlarının toplanaraq nəşr edlməsi işində filologiya elmləri doktoru, professor Sədnik Paşa Pirsultanlının da çox böyük xidmətləri olmuşdur. Sədnik Paşa Pirsultanlı öz ömrünü folklorumuzun öyrənilməsinə və toplanılaraq nəşr edilməsinə həsr etmişdir. "Onun elmi tədqiqatının əsas məqsədi Azərbaycan xalq əfsanələrinin, folklorun müstəqil janrı kimi öyrənilməsini, o cümlədən onun epik ənənələrinin (eposların, dastanların) formalaşmasında və yazılı ədəbiyyatda, klassiklərin yaradıcılığında rolunu müəyyənləşdirmək idi" [8].

Professor Sədnik Paşa Pirsultanlı nəinki dastanlar, həm də bu dastanları yaradan insanlar haqqında, eyni zamanda Azərbaycan aşıq sənətinin Qurbani, Tufarqanlı Abbas, Sarı Aşıq, Aşıq Alı, Ağdabanlı Qurban, Aşıq Ələsgər, Aşıq Şəmşir kimi bir çox ustadlarla bağlı araşdırmalar aparmışdır. O, eyni zamanda bir sıra dastanlarımıza tarixi müstəvidən yanaşmış, burada olan İslami görüşləri üzə çıxara bilmişdir. Tədqiqatçı alim Sədnik Paşa Pirsultanlı həm də dastanların türk xalqları arasında yayılma coğrafiyasını da göstərmiş, dastanların təhlili zamanı yalnız folklorşünas kimi deyil, həm də tarixçi, qəhrəmanların yaşadığı, səyahət etdiyi ölkələrin təbii gözəlliklərini verən coğrafiyaçı alim, həmin ölkə və xalqların adət-ənənələrini, məişətini yaxşı bilən etnoqraf kimi çıxış etmişdir. Alimin yaradıcılığında "Kita-

bi-Dədə Qorqud” və “Koroğlu” epos-dastanları tədqiqata cəlb olunmuşdur. Hər iki dastana münasibət tədqiqatçının bu sözlərində öz əksini belə tapmışdır: “Epos qəhrəmanı olan Dədə Qorqud da, Koroğlu da eyni milli zəminə, eyni folklor qaynağına bağlıdır. Hər iki abidəyə aid bədii materiallar əsrlərdən bəri daimi yeniləşmə, təkmilləşmə, zənginləşmə prosesi keçirmişdir. Hər iki abidə ilə bağlı əsatir və əfsanələrlə, epos və dastanlarla yanaşı, atalar sözü, xalq məsəlləri, bayatılar və s. yaranmışdır. Bu, o deməkdir ki, həmin obrazlar xalqımızın mənəvi varlığından doğmuş, onun ədəbi tarixinə və məişətinə möhkəm daxil olmuş milli sərvətdir”[4, s.9].

Folklorşünas alim Sədnik Paşa Pirsultanlı öz elmi rəhbəri Məmmədhüseyn Təhmasibin “Azərbaycan xalq dastanları” monoqrafiyasında adı çəkilən orta əsr dastanlarımızın daha ətraflı şəkildə təhlilini aparmış, daha az öyrənilən dastanlara müraciət etmişdir. Sədnik Paşa Pirsultanlı “Arzu-Qəmbər” dastanı ilə bağlı maraqlı araşdırmalar aparmış və əldə etdiyi nəticələr haqqında 2013-cü ildə nəşr etdirdiyi “Arzu-Qəmbər” dastanının yayılma coğrafiyası və poetikası” adlı monoqrafiyasında ətraflı məlumat vermişdir. Dastanın Qafqaz və Orta Asiya variantları üzə çıxarılmış və təhlil olunmuşdur. Türk xalqları arasında geniş yayılmış“ Arzu-Qəmbər” dastanını tədqiq edərkən müəllif üç məqama xüsusi diqqət yetirməyi məsləhət görmüşdür:

“1.Dastan hansı dövrdə, hansı tarixdə yaranıb meydana çıxmışdır;

2.Dastanın toplanılması hansı əsrə, hansı illərə düşür;

3.Dastan haqqında elmi məxəzləri araşdırmaq” [3, s.4].

M.H.Təhmasibin Kərkükdə yaşayan Azərbaycan türkləri ilə ədəbi-folklor əlaqələrinin maraq doğurması və onların dastanlarımızda öz əksini tapması fikirini Sədnik Paşa Pirsultanlı “Arzu-Qəmbər” dastanının ətraflı təhlili vasitəsilə sübut etmişdir ki, “Arzu-Qəmbər” qədim türk-kərkük bayatılı dastanıdır və

dastanda verilmiş xoryatlar bizim bayatılarla tamamilə eyniyyət təşkil edir, onlardan heç nə ilə fərqlənmir.

"Məhəbbət dastanlarının təhkiyəsi nağıl təhkiyəsinə yaxın olduğu üçün burada nağıl elementlərindən çox istifadə olunur. Məhəbbət dastanlarında qəhrəmanın göstərdiyi şücaətin sehrli-magik xüsusiyyət daşıması almanın və digər sehirli qüvvənin sherli-fantastik və magik əlamətə malik olması ilə bağlıdır"[1, s.224].Bu baxımdan professor S.P.Pirsultanlının "Novruz-Qəndab" və digər məhəbbət dastanlarının müqayisəli tədqiqi" monoqrafiyası (Bakı, 2009) çox maraq doğurur. Tədqiqatda "Novruz-Qəndab" dastanı qəhrəmanlığın sərhədində dayanan məhəbbət dastanı kimi nəzərdən keçirilmiş, "Səyyad və Sədət", "Abdullah və Cahan", "Məsim və Diləfruz" kimi digər məhəbbət dastanları ilə müqayisəli şəkildə araşdırmalar aparılmışdır.

Saz və aşığın qarşılıqlı münasibətləri, sazla sözün, musiqi ilə şeirin vəhdəti professor Sədnik Paşa Pirsultanlını həmişə düşündürmüşdür. Tədqiqatçı alim göstərir ki, aşıq sənəti, aşıq yaradıcılığı, yəni aşığın həm sazı, həm də sözü müxtəlif adlarla olsa da, "Kitabi-Dədə Qorqud"a qədər də, sonra da daimi bir inkişaf prosesi keçmiş, aşıq şeirinin hər bir növü müəyyən çalğı aləti ilə əlaqəli şəkildə meydana gəlmiş, təşəkkül tapmış və inkişaf etmişdir. "Professor Sədnik Paşa Pirsultanlının onilliklər ərzində gerçəkləşdirdiyi elmi irs o qədər zəngindir ki, onu sistemləşdirməyin, hətta ən asan halda tematik təsnifatını verməyin özü belə çox çətin işdir. Çünki bu gün Azərbaycan folkloreşünaslıq və filoloji düşüncəsinn dövriyyəsində "Sədnik Paşa Pirsultanlı" "möhürü" ilə 80-ə yaxın kitab və saysız-hesabsız məqalə vardır..." [5, s.18].

Beləliklə, Azərbaycan folkloru adlı dağın iki zirvəsi - M.H.Təhmasib, S.P.Pirsultanlı, Azərbaycan folklorunda özünəməxsus cığır açmış hər iki alim xalqımızın tarixi yaşayan dastanlarımızın tədqiqini, təhlilini özlərinin vətəndaş və alim borcları hesab etmişlər.

# QAYNAQLAR


1. Əliyev R. Azərbaycan şifahi xalq ədəbiyyatı (Müasir aktual problemlər). Bakı: Çıraq, 2014, 350 s.
2. Əliyeva X. Məmmədhüseyn Təhmasibin folklorşünaslıq fəaliyyəti. Bakı: Nurlan, 2009, 156 s.
3. Pirsultanlı S.P. "Arzu-Qəmbər" dastanının yayılma coğrafiyası və poetikası. Gəncə: GDU, 2013, 272 s.
4. Pirsultanlı S.P. "Novruz-Qəndab" və digər məhəbbət dastanlarının müqayisəli tədqiqi. Bakı: Azərnəşr, 2009, 108 s.
5. Rzasoy S. Azərbaycan folklorşünaslıq tarixi və Sədnik Paşa Pirsultanlı. Bakı: Nurlan, 2008, 240 s.
6. Təhmasib M. Azərbaycan xalq dastanları: orta əsrlər. Bakı: Elm, 1972, 397 s.
7. Təhmasib M. Seçilmiş əsərləri. I cild. Bakı: Mütərcim, 2010, 488 s.
8. Sədnik Paşa Pirsultanlı-www.sednik-pasa-pirsultanli.net

# FOLKLORŞÜNASLIQDA VƏTƏNDAŞLIQ MİSSİYASI

**Sevda QASIMOVA**
*AMEA Folklor İnstititu*
*sevdaqasimova61@gmail.ru*

**Özət**

"Milli ziyalı, vətəndaş alim" adlı məqalədə şifahi xalq ədəbiyyatımızın bilicilərindən olan, görkəmli elm xadimi, elmi ictimaiyyətin yaddaşında həm xalq ədəbiyyatı nümunələrinin toplayıcısı,tədqiqatçısı, həm də folklor nəzəriyyəçisi kimi qalan Məmmədhüseyn Təhmasibin yaradıcılığının müxtəlif istiqamətlərinə nəzər yetirilir, alimin ədəbiyyatımızdakı yeri və mövqeyi müəyyənləşdirilir. Bununla yanaşı, folklorşünas alimin sovetlər dönəmində xalq ədəbiyyatı örnəklərimizi, xüsusilə də keçən əsrin 50-ci illərində nəşri və təbliği qadağan edilən "Kitabi-Dədə Qorqud"u müdafiə və mühafizə edən vətəndaş alim mövqeyi də araşdırma predmetinə çevrilir.

**Açar sözlər:** folklor, xalq, ədəbiyyat, nümunə, toplayıcı, tədqiqatçı, elm, müdafiə, mühafizə, oğuz eli

## ГРАЖДАНСКАЯ МИССИЯ В ФОЛЬКЛОРИСТИКЕ

**Резюме**

В статье рассматриваются основные направления творчества, а так же роль и место в истории азербайджанской литературы одного из видных деятелей науки, знатока устного народного творчества, собирателя и исследователя шедевров народной литературы, выдающегося фольклориста Мамедгусейна Тахмасиба. Наряду с этим, предметом исследования данной статьи является гражданская позиция выдющегося ученого, защищавшего в советское время от нападков официальных властей такие памятники народного творчества, как например запрещенный в 50-е годы эпос «Деде Коргуд».

**Ключевые слова:** фольклор, народ, литература, пример, собиратель, исследователь, наука, защита, охрана, огузский край

## THE CITIZENSHIP MISSION IN FOLKLORE STUDIES

**Summary**

In the article named “National intellectual scholar”, the authoress defines the occupation and position of Mammadhusein Tahmasib in our literature, üho is one of the first scholars of our folklore, outstanding scholar, who remains in the memory of scientist community not only as a collector of samples of people’s literature and an investigator, but also as a theorist. The authoress casts a glance at different directions of his creative activity as well. Besides it, the civil attitude of the scholar who protected and guarded “Kitabi-Dede Gorgud”, the propaganda and publication of which was prohibited in the soviet period,espassially, in the 50s of the previous century.

**Key words:** folklore, people, literature, sample, collector, investigator, science, protect, guard, the nation of oghuz.

XX əsrin əvvəllərində Azərbaycanın məşhur tənqidçilərindən Abdulla Sur yazırdı: «Füzulinin namı yad olundumu dərhal xatirə qəzəl düşür. Bir dəfə Füzuli demək, bir qəzəl deməyə, bir qəzəl demək, bir dəfə Füzuli deməyə bərabərdir» (5). Həmin formula bu günün prizmasından yanaşanda cəsarətlə demək olar ki, «bir dəfə folklorşünas demək, bir dəfə Məmmədhüseyn Təhmasib deməyə, bir dəfə Məmmədhüseyn Təhmasib demək, bir dəfə folklorşünas deməyə bərabərdir».

Professor Kamran Əliyevin təbirincə desək Azərbaycan folklorşünasları arasında məktəb yaratmaq (8) şərəfinə nail olan alimlərimizdən biri də görkəmli folklorşünas alim Məmmədhüseyn Təhmasibdir. Tərəddüd etmədən deyə bilərik ki, o, istər bədii yazılarında, istər ssenarilərində, istərsə də elmi yaradıcılığın-

da təpədən dırnağa folklorşünasdır. M.Təhmasib yaradıcılığına hansı prizmadan yanaşsaq yazıçıdan, ssenaristdən öncə böyük bir folklorşünas görərik. Ona görə də bu gün folklorşünas deyəndə ilk öncə yada düşən Məmmədhüseyn Təhmasib olur.

Xalqımızın şifahi xalq ədəbiyyatının bilicilərindən olan görkəmli elm xadimi elmi ictimaiyyətin yaddaşında həm xalq ədəbiyyatı nümunələrinin toplayıcısı, həm tərtibçisi, həm tədqiqatçısı və həm də folklor nəzəriyyəçisi kimi qalmışdır.

Azərbaycan elminə böyük töhfələr verən Məmmədhüseyn Təhmasibin folklorla bağlı elmi nəzəri fikirləri bu gün də öz aktuallığını qoruyub saxlayır. Belə ki, alimin Azərbaycan şifahi xalq ədəbiyyatında geniş yayılmış səməni sözü və səməni mərasimi, Simurq quşu, Xızır İlyas, nağıllarımızdakı Div surəti haqqında düşüncələri, keçən əsrin 40-cı illərində söylənmiş fikirləri elmiliyi ilə seçilir. Tanınmış alim Əbülfəz Quliyev internetdə yerləşdirdiyi "Ömrünü elmi fəaliyyətə, ədəbi-bədii yaradıcılığa həsr edən böyük alim – Məmmədhüseyn Təhmasib" adlı məqaləsində yazırdı ki, "Ötən əsrin qırxıncı illərində repressiyalar zahirən başa çatsa da, bu proses ideoloji sahədə hələ də davam etməkdə idi. Sovet rəhbərliyi SSRİ xalqlarının dini və milli dəyərlərinin, ümumiyyətlə, onların milli mədəniyyətinin öyrənilməsində maraqlı deyildi. Buna baxmayaraq, o dövrdə Məmmədhüseyn Təhmasibin başçılığı ilə Azərbaycan folklorçuları xeyli miqdarda xalq yaradıcılığı nümunəsini: nağıllarımızı, dastanlarımızı, bayatılarımızı, lətifələrimizi toplamış, tədqiq və nəşr etdirmişlər. Bu toplama və nəşrlər içərisində görkəmli folklorçu alimimizin toplayıb tərtib etdiyi və nəşrə hazırladığı 17 qoldan ibarət "Koroğlu" dastanı xüsusilə diqqəti cəlb edirdi. Milli məsələlərə çox həssas və qısqanc yanaşan dövlətin ideoloji rəhbərliyi bu dastanı sovet cəmiyyətinin mənəvi aləminə uyğunlaşdırıb çap etdirməyi tədqiqatçılar qarşısında bir vəzifə kimi qoymuşdu" (4).

Fikirlərini davam etdirən alim göstərirdi ki, Məmmədhüseyn Təhmasibin böyük zəhmət bahasına toplayıb redaktə etdiyi

“Koroğlu” dastanı da ideoloji buxovlardan qurtula bilməmişdi. 1949-cu ildə akademiyanın vitse-prezidenti akademik Heydər Hüseynov bu əsəri yüksək qiymətləndirmiş, onun təcili olaraq rus dilinə tərcümə olunub Moskvada nəşr edilməsini tapşırmışdı. Lakin Moskvada “Epos Narodov SSSR” nəşriyyatının rəhbəri Arfa Avetisovna Petrosyan əsərin çapına mane olaraq hətta öz erməni xislətini göstərərək azərbaycanlı alimlərdən bu dastanın çap edilməsinə qarşı mənfi rəy almağa nail olmuş, onun işıq üzü görməsinə imkan verməmişdi.

Məmmədhüseyn Təhmasibin tədqiqatları özünün genişliyi, dərinliyi, əhatəliliyi və konseptuallığı ilə seçilir. Alimin tədqiqatları ona görə maraq doğurur və qəbul olunur ki, o, özünəqədərki araşdırmaları dərindən bilir və problemə yaradıcı yanaşır. Məsələn, Təhmasib müəllim müxtəlif məna çalarlarına malik olan dastan sözü barədə yazır: “Klassiklərimiz bu sözü əhvalat, hekayə, macəra, tərifnamə, tərcümeyi-hal, hətta tarix mənalarında işlətmişlər. Eyni zamanda bu söz rəvayət, hətta xalq romanı, xalq kitabı mənalarını da daşımışdır. Şifahi ədəbiyyatımızda dastan bəzən böyükhəcmli mənzum macəra, bəzən tərifnamə, bəzən isə hətta əsli olmayan yalan mənasında işlənmişdir. Nəhayət, dastan aşıq ədəbiyyatının ən çox yayılmış bir janrının adıdır”.

Göründüyü kimi, o məsələyə hazır stereotip kimi yanaşmır, mövcud olanları göstərməklə yanaşı, özünün də elmi-məntiqi mühakimələrini yürüdür.

M.Təhmasib təkcə elmi prinsipiallığı ilə deyil, vətəndaş prinsipiallığı ilə də seçilən alimlərdən olmuşdur. Moskvanın ssenarisinə uyğun olaraq Azərbaycanda bir çox alimlər “Kitabi-Dədə Qorqud”un nəinki marksizmə, hətta xalqa zidd bir əsər olduğunu, M.C.Bağırova istinadən “Dədə Qorqud”un Azərbaycan xalqı və onun dili ilə heç bir əlaqəsi olmadığını, bu eposun Azərbaycan xalqının adət-ənənələrinə, mədəniyyət tarixinə, eləcə də dilinə tamamilə yad olduğunu sübüt etməyə çalışırdılar (4). Hətta onlar “Kitabi-Dədə Qorqud”un qəhrəmanlarının bəy

və xan nəslindən olduqlarını bəhanə gətirərək yazırdılar: "Dədə Qorqud"un əsas qəhrəmanları "vaxtlarını qarətdə, soyğunçuluqda və ovda keçirən məşhur feodallar bəylərdir. Tayfanın başçısı Bayandur xan – varlı feodaldır; onun kürəkəni Salur Qazan da belə feodallardandır. Bu "qəhrəmanlar" öz var-dövlətlərini dinc qonşu erməni və gürcü xalqlarının üzərinə vəhşicəsinə hücumu və soyğunçuluğu nəticəsində toplamışlar. Onlar təkcə soyğunçuluq ilə məşğul olmurdular, müsəlman olmayan qonşularını amansızcasına qırırdılar" (6).

1952-ci ildə Böyük Sovet Ensiklopediyasında göstərilirdi: «Kitabi-Dədə Qorqud» XI əsrdə Zaqafqaziyaya qaniçən işğalçılar kimi soxulan köçəri Oğuz tayfa başçılarının soyğunçuluq yürüşlərinə, həyat tərzinə, adət-ənənələrinə həsr edilmiş epik əsərdir. Bəzi tədqiqatçılar son vaxtlaradək «Dədə Qoqud»a xalq eposu kimi baxır, onu məşhurlaşdıraraq Azərbaycan və türkmən xalqlarının adına yazırdılar» (3).

Diqqət çəkən məqamlardandır ki, bizi (azərbaycanlıları – S.Q.) Zaqafqaziyaya qaniçən işğalçılar kimi soxulan köçəri Oğuz tayfası adlandırır, erməniləri isə aborigen elan edirdilər. "Dədə Qorqud" qəhrəmanları heç zaman erməni və gürcülərə qarşı qətliamlar həyata keçirməmişlər. Professor C.Qasımov bu xüsusda yazır: "Sovet mətbuatı dastanı milli münaqişə salan zərərli burjua nümunəsi hesab edirdi. Dastanda milli münaqişədən söhbət belə gedə bilməz. Dastanda Ermənistan anlayışı yoxdu, lakin nədənsə ermənilər daha çox qabardılır. Şübhəsiz ki, bu təsadüfi deyil (2, 27). Dastandan çıxan ümumi nəticə də belədir ki, "Dədə Qorqud" qəhrəmanları iki cəbhədə, iki düşmən qüvvəsinə qarşı vuruşurlar. Birincisi xarici düşmənlər – bunlar Doqquztümən Gürcüstan və Anadolu ərazisində hələ Osmanlı türklərinin ora gəlməsindən qabaqkı Trabzon, Diyarbəkir, Düzmürd və s. Anadolu təkurlarıdır. İkincisi isə məhz ölkə daxilində, hələ islamiyyəti qəbul etməmiş Albaniya məlikləridir: Qıbçaq məlik, Buqacıq məlik, Qara Aslan məlik, Qara Təkin məlik, Suni San-

dal məlik və s. Adlarından göründüyü kimi, həmin məliklərin hamısı türk etnik qrupuna daxildir" (1, 5).

Bu nümunələri verməkdə məqsədimiz odur ki, «Kitabi-Dədə Qorqud» yasaqlandığı bir dövrdə onu müdafiə edən Azərbaycanın dörd görkəmli ziyalısı arasında M.Təhmasib də vardı.Bu dörd nəfərin yəni, professor H.Araslı, professor Ə.Dəmirçizadə, professor M.Arif və dosent M.H.Təhmasibin fikrincə, «əsərdə təsvir edilən müharibələrin müəyyən hissəsi «kafirlərə» qarşı aparılır. Lakin kafir sözü hər yerdə din ayrı düşmən mənasında işlədilmir. Əsərdəki qəhrəmanlar daxildə öz aralarında müharibələr, döyüşlər apardıqları kimi, xarici basqınçılara da qarşı vuruşurlar. Diqqət edilsə, belə vuruşmalardan bəhs edən dastanların əksəriyyətində «kafir» adlanan bu düşmənlər ölkəyə basqın edir, qəhrəmanlar da bunlara qarşı vuruşmaq üçün ayağa qalxırlar («Qazan xanın evinin yağmalanması», «Bamsı Beyrək», «Bəkil oğlu Əmran», «Uruzun əsir olması» və s.). Qalan dastanlardan «Dirsə xan oğlu Buğac»da qırx namərdin xəyanəti nəticəsində ata ilə oğul arasında salınan ziddiyyətdən, «Dəli Domrul» boyunda ailə-məişət məsələsindən, xüsusilə qadının öz ərinə məhəbbətindən, hətta Əzrailə qalib gələn qüdrətindən, «Təpəgöz»də xalqın ümumi fəlakətinə səbəb olan qara qüvvələrlə (yemək üçün gündə beş yüz qoyun, iki adam tələb edən Təpəgözlə) mübarizədən, «Qanturalı» boyunda «kafirlərdən» qız sevib evlənməkdən, qadın qəhrəmanlığından, son boyda isə bu qəhrəmanların öz aralarında gedən çəkişmələrdən danışılır. Beləliklə, on iki dastandan beşi basqınçılara qarşı mübarizə, beşi əsatir, ailə-məişət məsələsi mövzularına həsr edilmişdir. İki dastanda isə («Yegnək» və «Segrək») basqınçılıq əhval-ruhiyyəsi vardır. Lakin bu iki dastanda da düşmən kimi verilən tərəf konkretlikdən çox uzaqdır. Misal üçün «Yegnək» dastanında qəhrəmanların mübarizə apardıqları tərəfin başçısı «Altmış arşın qaməti» olan «Arşın oğlu Dirəkdir» (7).

Maraqlıdır ki, M.Təhmasib müəllim 1971-ci ildə nəşr etdirdiyi "Azərbaycan xalq dastanları (orta əsrlər)" monoqrafiyasında, eləcə də digər tədqiqatlarında «Dədə Qorqud» abidəsinin böyüklüyünü, ululuğunu, həmişəyaşarlığını, onun təkcə oğuz türklərinin həyat həqiqətlərini yox, eləcə də bəşər mədəniyyətinin etnik universal dəyərlərini özündə əks etdirməsini elmi dəlillərlə sübuta yetirmişdir.

Bütün bunlar göstərir ki, M.Təhmasib yalnız böyük folklorşünas alim deyil, eyni zamanda xalqımızın milli- mənəvi dəyərlərinin keşiyində dayanmağı ləyaqətlə bacaran vətəndaş alim idi.

## QAYNAQLAR


1. Şamil Cəmşidov. «Kitabi-Dədə Qorqud». Bakı, 1997.
2. Cəlal Qasımov. «Kitabi-Dədə Qorqud»un yasaqlanması. Bakı, 2013.
3. BSE. XIII cild. Moskva, 1952.
4. Əbülfəz Quliyev. (internetdə yerləşdirdiyi) "Ömrünü elmi fəaliyyətə, ədəbi-bədii yaradıcılığa həsr edən böyük alim – Məmmədhüseyn Təhmasib"
5. Abdulla Sur. Füzuliyə bir nəzər, "Füyuzat" jurnalı, 1907, №30.
6. Литературная газета. 7 июль, 1951
7. «Kommunist» qəzeti. 26 mart 1957
8. Kamran Əliyev. "Kaspi" qəzeti, 16 sentyabr, 2017.

# PROF. AYDIN DADAŞOV M.H.TƏHMASİB İRSİNİN TƏDQİQATÇISI KİMİ

**Şəbnəm MƏMMƏDLİ**
*AMEA Folklor İnstitutu*
*shebnem.memmedova1981@mail.ru*

**Özət**

Prof. Aydın Dadaşov Azərbaycan dramaturgiyasının müxtəlif problemlərinin öyrənilməsində, milli kinoşünaslığında yetərincə uğurlu tədqiqatlar aparmış alimlərdəndir. Azərbaycan folklorşünaslığının əsasını yaratmış prof. Məmmədhüseyn Təhmasiblə bağlı tədqiqatı daha da əhəmiyyətlidir. M.Təhmasibin folklor sevgisi, onun xalq nağılları və dastanlar üzərində apardığı müşahidələri təhlil edir, müharibə dövrü yaradıcılığının bir sıra tərəflərini öyrənir, pyeslərinin mövzu xüsusiyyətlərini araşdırır və folklorşünaslığımızın ilk doktoru kimi yetişməsinin əhəmiyyətini vurğulayır.

**Açar sözlər:** folklorşünas, nağıl, dastan, pyes, kinossenari

# ПРОФ. АЙДЫН ДАДАШОВ КАК ИССЛЕДОВАТЕЛЬ НАСЛЕДИЯ М.Г.ТАХМАСИБА

**Резюме**

Проф. Айдын Дадашов является одним из тех, кто последовательно изучал разные проблемы азербайджанской драматургии, а также вел исследования в области азербайджанского киноведения. Его исследования помимо отмеченных, имеют важное значение и в изучении наследия М,Г.Тахмасиба. Отметим, что любовь к разным жанром фольклора, привела М.Г.Тахмасиба и к изучению народных сказок, дастанов и т. д. Айдын Дадашов с большой ответственностью привлекает к анализу целый пласт творческого

наследия крупного фольклориста, определяет его роль в развитии национальной фольклористики.

**Ключевые слова:** фольклорист, сказка, дастан, пьеса, киносценарии

## PROF. AYDIN DADASHOV IS A RESEARCHER OF M.H.TAHMASIB'S HERITAGE

**Summary**

Prof. Aydin Dadashov is one of the scientists who have successfully studied various problems of the Azerbaijani drama and has done enough research in the national cinema. His research which aboutprof. Mammadhuseyn Tahmasib's who establishedthe basis of Azerbaijan folklore studies is also important. He analyzes M.Tahmasib'sviews to folklore, his observations on folk tales and epos, learns some aspects of the war era of his activity, explores the peculiarities of his plays and emphasizes the importance of growing up as the first doctor of our folklore studies.

**Key words:** folklore, fairy tale, epos, play, film script

Prof. Aydın Dadaşovun folklorumuzun öncül simalarından biri Məmmədhüseyn Təhmasiblə bağlı apardığı tədqiqatın mövzusu, məzmunu və mahiyyətinə varmadan onun özü haqqında bəzi məlumatlar verməyi məqsədəuyğun hesab edirəm. Aydın Dadaşov 1mart 1952-ci ildə Ağdamda anadan olub, o vaxtkı Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun İqtisadiyyat fakültəsini bitirmişdir. Müxtəlif illərdə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında bədii film direktoru, rejissor və redaktor kimi işləmişdir. 1980-ci ildə Leninqrad Dövlət Teatr, Musiqi və Kinematoqrafiya İnstitutunu, 1982-ci ildə Moskvada ikiillik ssenaristlər və rejissorlar kursunu bitirmiş, 1989-cu ildən Bakı Dövlət Universitetinin Jurnalistika, Televiziya və Radio kafedra-

sında müəllim, 2000-ci ildən dosent, 2006-cı ildən professor vəzifəsində işləmişdir və paralel olaraq Azərbaycan Mədəniyyət və İncəsənət Universitetində çalışmışdır. Bu illərdə A.Dadaşov 30-a yaxın dərslik və müxtəlif mövzulu kitablar hazırlamışdır ki, onların arasında "Dramaturgiya", "Ssenaristin yaradıcılığı", "Televiziya tənqidi", KİV-də reklam və marketinq problemi" və s. qeyd etmək olar. Aydın Dadaşov fəaliyyəti dövründə kinoşünas, rejissor kimi tanınmaqla, əməkdar mədəniyyət xadimi, Dövlət Mükafatı Laureatı, filologiya elmləri doktoru, Bakı Dövlət Universitetinin professoru olmuşdur. 15 mart 2017-ci ildə Aydın Dadaşov dünyasını dəyişmişdir. Onun qiymətli əsərlərindən biri də məqaləmizdə bəhs edəcəyimiz Məmmədhüseyn Təhmasibə həsr etdiyi "Folklorumuzun ilk doktoru" monoqrafiyasıdır.

A.Dadaşovun Məmmədhüseyn Təhmasibə həsr etdiyi bu araşdırma AMEA-nın müxbir üzvü, prof. Azad Nəbiyevin "Ön söz"ündən başlamaqla "Giriş", on iki fərqli və maraqlı bölümlər ("Folklorun cazibəsi", "Müharibə dövrü yaradıcılığı", "Nağıllar, dastanlar dünyası", "İlıqlaşma dövrünün pyesləri", "Koroğlu yoxsa, kor kişinin oğlu", "Cəfər Cabbarlıyla dönüş", "Folklora söykənən ssenarilər ekranda", "Folklorşünaslığımızın ilk doktoru" və s.), "Nəticə" və "İstifadə olunmuş ədəbiyyat" siyahısından ibarətdir.

Bəri başdan qeyd edim ki, Məmmədhüseyn Təhmasibin folklor sevgisini göstərmək üçün A.Dadaşov türklərin dünya meydanına gəldiyi dövrdən başlayaraq, Azərbaycan türklərinin başına gətirilmiş dəhşətləri, sovet totalitarizminin ayrıseçkilik siyasətinə nəzər salır, S.Mümtaz, V.Xuluflu, H.Zeynallı, Ə.Münib, Ə.Abid, H.Əlizadə, Y.V.Çəmənzəminli və başqa bu kimi görkəmli alimlərdən sonra Məmmədhüseyn Təhmasibin tədqiqatçı kimi yetişməsinin dinamikasını Naxçıvanda doğulduğu 1907-ci ildən taki 1926-cı ildə Bakıya gəlməsi, onun burada təhsil alması, 1933-cü ildə ailə qurması, Kürdəmir, Əlibayramlı və

Göyçayda müəllimlik etməsi, Nizami adına Ədəbiyyat, Dil və Tarix İnstitutunda folklor şöbəsində laborant işləməsi və s. konkret mənbələr əsasında nəzərdən keçirir.

A.Dadaşov prof. M.Təhmasibin həyat və yaradıcılığının bir sıra fraqmentlərini nəzərdən keçirərkən onun heç də fərdi tərəflərini öyrənmir, paralel olaraq qardaşı rejissor Rza Təhmasibin yaradıcılığı ilə əlaqəli şəkildə təhlil edir.

A.Dadaşov M.Təhmasibi universal təfəkkürlü yaradıcı insan kimi, elmi axtarışlarında folklor və bədii yaradıcılığı üzvi surətdə bir-birinə bağlamağı bacaran düşüncə sahibi kimi təqdim edir. Belə ki, M.Təhmasib, bir tərəfdən, müxtəlif folklor janrlarının tədqiqi ilə məşğul olur, kinossenarilər, pyeslər, bədii tərcümələr edir (məsələn, rus yazıçıları İ.İlf və Y.Petrovun “12 stul” əsərini dilimizə çevirir), Ədəbiyyat İnstitutunda folklor şöbəsində işləyə-işləyə, Azərbaycan Dövlət Universitetində folklordan mühazirələr oxuyur, bədii yaradıcılıqla məşğul olur (3, s. 43). “Koroğlu” eposunun tərtibini həyata keçirir, “Qaçaq Nəbi” dastanı ilə bağlı materiallar toplayır. Digər tərəfdən, Azərbaycan nağıllarının təsnifatını aparır, “Revolyusiya və kultura” jurnalında məqalələr çap etdirir, M.Təhmasibin folklor motivləri əsasında Bakı kinostudiyasının sifarişi ilə yazdığı “Nəbi” adlı (“Qaçaq Nəbi” yox, çünki həmin dövrlərdə Qaçaq Nəbi kimiləri təbliğ etmək olmazdı, bu, sovet ideologiyasına zidd idi – Ş.M.) kinossenarisi Qaçaq Nəbinin fotoşəkli ilə birgə nəşr olunduğunu qeyd edir (2, s.50).

A.Dadaşov M.Təhmasibin folkor motivlərinə söykənən detektiv janrı ilə sintez edib araya-ərsəyə gətirdiyi, dramaturgiya sahəsində ilk qələm təcrübəsi olan “Bahar” pyesindən bəhs edir, onun gənc rejissor Mehdi Məmmədov tərəfindən ilk dəfə tamaşaya qoyulması, Bakıda Dövlət Dram Teatrında uğurla bir sıra adlı-sanlı aktyor və aktrisalar tərəfindən (Sona Hacıyeva, Barat Şəkinskaya, İsmayıl Dağıstanlı, Ağasadıq Gəraybəyli, Hökümə Qurbanova, Məhluqə Sadıqova, Əli Qurbanov, Həsənağa Sa-

layev) səhnədə nümayiş etdirilməsi məsələsinə və onların obrazlarının tamaşaçı rəğbətinə səbəb olmasından söhbət açır.

A.Dadaşov M.Təhmasibin müharibə dövrü yaradıcılığını ayrıca bir bölümdə nəzərdən keçirir. M.Təhmasibin bu dövrlərdə krım-tatarlarının alman faşistlərinə qarşı apardığı mübarizəni əks etdirən "Aslan yatağı" pyesindən, əsərin səhnədə uğur qazanmasından, M.Təhmasibin tərtib etdiyi 15 çap vərəqli "Bayatı" kitabının M.Hüseynin müqəddiməsi ilə çap olunmasından, "Koroğlu"nu ərsəyə gətirmişdir. Hümmət Əlizadənin xalq düşməni kimi həbs olunaraq, onun adını silib M.Təhmasibin adıyla bağlasa da, Təhmasib bu kitabı heç bir əsərlərinin siyahısına daxil etməməişdir, 2 cildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin ortaya çıxmasında xidmətlərindən, "Xalq ədəbiyyatımızda mövsüm və mərasim nəğmələri" mövzusunda hazırladığı namizədlik dissertasiyasından, müharibə illərində Əhliman Axundov, Əliheydər Orucov kimi alimlərlə birlikdə Şuşa-Laçın bölgəsinə folklor nümunələri toplamaqla bağlı yaradıcılıq ezamiyyətindən, 1945-ci ilin payızında Elmlər Akademiyasının folklor şöbəsinə rəhbərlik etməsi ilə yanaşı, nəinki Azərbaycanı, həm də qonşu respublikaları kəndbəkənd gəzib ağız ədəbiyyatı, folklor nümunələrini toplayıb, tərtib edib, nəşrə hazırlamasından danışır (4, 59-65).

Aydın Dadaşovun kitabında M.Təhmasibin nağılları və dastanları araşdırması ilə bağlı məsələlərə həssaslıqla yanaşması da təqdirəlayiqdir. Məhz bu bölümdə A.Dadaşov böyük folklorşünas alimin Azərbaycan nağılları, onların mövzu, məzmun özəlliyi, xüsusiyyətləri, bəzilərinin tarixi kökləri ilə bağlı irəli sürdüyü mülahizələri əsərində qabartması da məqsədə uyğun hesab edilməlidir. Dadaşov bir şeyi də tədqiqatında daim diqqət mərkəzində tutur. Doğrudan da, M.Təhmasibin kabinet folklorşünası yox, xalq içində olub, eli-obanı dolaşıb, onun söz sərvətinə qayğı ilə yanaşıb, həmin nümunələri göz-bəbəyi kimi qoruyub elmimizə bəxş etmiş sənətkar və tədqiqatçı-alim olduğunu

sübut edir. Aydın Dadaşov M.Təhmasibin Ə.Axundovla birgə Göyçə və Kəlbəcər ərazilərində Aşıq Ələsgərin nəvəsi Bilal, el şairlərivə aşıqlardan Musa, Nəcəf, Zodlu Usta Abdulla, Növrəs İman, Mirzə Əli, Mirzə Bəylər, Uğurlu Salman, Şahmalı, Allahverdi, Nəbi və başqalarından topladığı nümunələrin tarixi yaddaşımıza ötürülməsində rolundan danışır (1. 75).

Prof. A.Dadaşov öz monoqrafik tədqiqatında M.Təhmasibin "ılıqlaşma" dövründə (yəni 50-ci illər) qələmə aldığı bir sıra pyeslərin("Çiçəkli dağ", "Kəlilə və Dimnə" əsasında yazdığı "başqasına quyu qazan, özü düşər" ideyasını daşıyan "Hind nağılı", "Gülən gözlər" və s.) folklor qaynaqlarından rişələnib gənc nəslin mənəvi tərbiyəsində əhəmiyyətini qabartmışdır.

A.Dadaşov əsərin başqa bir bölməsini M.Təhmasibin "Koroğlu" dastanı ilə bağlı fəaliyyətinə həsr etmişdir. Monoqrafiya müəllifi 50-ci illərdə dastanımıza olan basqılardan, sovet ideologiyasının bu dastanlarda öz təbliğini tapmadığından ermənilərin, Mircəfər Bağırov kimilərin xoşuna gəlmədiyindən onların antisovet ideyalarının guya təbliğ etdiyindən qadağan olunmasından, "Dədə Qorqud" kimi "Koroğlu" üzərində də qatılaşan buludlardan söhbət açmaqla, Təhmasibin milli təəssübkeşliyini sübut etmişdir (2, 97-106).

M.Təhmasibin öz dram yaradıcılığında C.Cabbarlıdan yetərincə yararlandığını A.Dadaşov kitabının "Cəfər Cabbarlıya dönüş" bəhsində nəzərdən keçirmişdir. Çünki C.Cabbarlının nəinki dramlarında, həm də nəsr yaradıcılığında şifahi xalq ədəbiyyatı nümunələrindən istifadə edildiyi kimi, böyük folklorşünasın folklora söykənmiş pyeslərinin oxucular və tamaşaçılar tərəfindən hərarətlə qarşılandığını da söyləmişdir.

A.Dadaşov haqlı olaraq göstərir ki, folklora vurğunluq M.Təhmasibi, doğrudan da, bədii yaradıcılığa sövq etmiş, onun bir sıra əsərlərinə teatr səhnələrində və ekranlarda həyat vəsiqəsi vermişdir. Odur ki, M.Təhmasibin "Çiçəkli dağ"pyesi əsasında hazırlanmış "Bir qalanın sirri" ssenarisi sovet ideologiyasının tənəsinə tuş gəlsə də, uşaq, yeniyetmə və gənclərin sevimli filminə

çevrildi. Onun nəinki Azərbaycanda, həm də Qafqazda və Orta Asiya teatrları səhnəsində oynanılmış "Bahar" pyesi əsasında qardaşı Rza Təhmasibin quruluş verdiyi "Onu bağışlamaq olarmı?" ssenarisi folklor elementlərindən istifadə edilməklə tamaşaçıların ixtiyarına verilmişdi. A.Dadaşov "Koroğlu" filmində M.Təhmasibin tərtib etdiyi dastanın ana qolunu təşkil etməsi və s. kimi məqamların birbaşa böyük folklorşünas alimin irsinə müraciəti ilə bağlılığını qeyd etmişdir (2, 121-131).

Aydın Dadaşov M.Təhmasibin folklor irsimizin toplanmasında, araşdırılmasında, nəşrə hazırlanmasında rolundan danışarkən eyni zamanda istedadlı folklorçunun Azərbaycanda folklorşünaslıq üzrə ilk elmlər doktoru olduğunu göstərir, onun milli folklorşünaslığımızın müxtəlif istiqamətlərinin inkişafında əvəzsiz xidmətlərini göz önünə gətirmişdir.

Aydın Dadaşovun Məmmədhüseyn Təhmasibə həsr etdiyi bu araşdırmanın məziyyətləri haqqında çox danışmaq olar. Onlardan hər birinin Azərbaycan ədəbiyyatının müxtəlif problemlərinin öyrənilməsində rolu böyükdür.

## QAYNAQLAR


1. Axundov Ə. Xatirələrim. Bakı, 2003
2. Dadaşov A. Folklorumuzun ilk doktoru (Məmmədhüseyn Təhmasib). Bakı, "Nurlan", 2007, 209 s.
3. Данилов М., Советский восток. Газ. "Правда", 08.03, 1927
4. Talıblı B. Seçilmiş əsərləri. Bakı, 1983

# “ABBAS-GÜLGƏZ” DASTANI MƏMMƏDHÜSEYN TƏHMASİBİN TƏDQİQATINDA

**Vüsalə MƏMMƏDOVA**
*AMEA Folklor İnstitutunun doktorantı*
*vusala3@mail.com*

**Özət**

Azərbaycan məhəbbət dastanları arasında geniş yayılan, özünəməxsus yeri olan “Abbas-Gülgəz” dastanının nəşr edilməsi məsələsi XIX əsrin sonlarından qismən də olsa folklorşünasların diqqətini cəlb etməyə başlamışdır. XX əsrin əvvəllərindən başlayaraq “Abbas-Gülgəz” dastanına aid olan şeirlər, daha sonra bu dastanın tam mətni nəşr olunmağa başlandı. “Abbas-Gülgəz” dastanı haqqında ən geniş və ətraflı məlumata görkəmli folklorşünas M.H.Təhmasibin araşdırmalarında rast gəlirik. Müəllif Azərbaycan məhəbbət dastanlarını araşdırarkən “Abbas-Gülgəz” dastanının üzərində xüsusi dayanmış, onun formalaşması, yayılması, məzmunu, tarixi motivləri, süjet-kompozisiyası və s. kimi məsələləri diqqət önünə çəkərək öz dəyərli şərhlərini vermişdir. Prof. M.Təhmasib “Abbas-Gülgəz” dastanının yalnız bir variantı üzərində dayanmamış, dastanın bir neçə variantından söz açmış, onların qısa məzmunlarını vermiş, söyləyicilərindən bəhs etmişdir.

“Abbas-Gülgəz” dastanının yaranması məsələsi də tədqiqatçının diqqət mərkəzində olmuşdur. M.Təhmasib bu dastanın məhz Abbas Tufarqanlının özü tərəfindən yaradılması fikrindədir.

Aşıq Abbas Tufarqanlı haqqında ikinci bir dastan olan “Abbas” dastanı da M.Təhmasibin tədqiqatında yer alıb. Bu dastan haqqında təkcə M.H.Təhmasibin “Azərbaycan xalq dastanları” monoqrafiyasından məlumat ala bilirik. Müəllif “Abbas-Gülgəz Pəri” adını uyğun gördüyü bu dastanın Lerikli müəllim İdris Qubadov tərəfindən Aşıq Qurbanəlidən toplandığını bildirir.

**Açar sözlər**: folklorşünas, Məmmədhüseyn Təhmasib, məhəbbət dastanları, dastanların tədqiqi, "Abbas-Gülgəz" dastanı, "Abbas" dastanı

## СКАЗАНИЕ «АББАС-ГЮЛЬГЯЗ» В ИССЛЕДОВАНИЯХ МАМЕД ГУСЕЙНА ТАХМАСИБА

**Резюме**

Широко распространенное среди азербайджанских любовных сказаний, имеющее своеобразное место сказание «Аббас-Гюльгяз» нашло свое отражение в исследованиях Мамедгусейна Тахмасиба. Самое распространенное исследование сказания «Аббас-Гюльгяз» встречаются в изысканиях М.Г.Тахмасиба. Автором рассказывается о нескольких вариантах этого сказания, дается их краткое содержание и говорится об их сказателях. Вместе с этим М.Г.Тахмасибом рассказывается о зарождении, формировании, основных героях и исторических мотивах этого сказания. М.Г. Тахмасиб в книге «Азербайджанские народные сказания» отмечает, что получено семь вариантов этого сказания. В книге дается краткое содержание шести из них. Но только трех из них указываются собиратели и сказатели. А про седьмой вариант нет никаких сведений. Вопрос зарождения сказания «Аббас-Гюльгяз», также является центром внимания исследователя. По мнению М.Т.Тахмасиба это сказание создано самим Аббасом Туфарганлы. Известно, что второе сказание об Аббасе Туфарганлы под названием «Аббас», также имело место в исследованиях М. Тахмасиба. Это сказание по сей день в отдельности не исследовалось. Об этом можно получить информацию только из монографии профессора М.Г.Тахмасиба под названием «Азербайджанские народные сказания». Автор, считавший подходящим название «Аббас-Гюльгяз Пери» для этого сказания, отмечает, что оно было собрано учителем Идрисом Губадовым из Лерика от Ашыга Курбанали.

**Ключевые слова:** фольклорист, Мамедгусейн Тахмасиб, любовные сказания, сказание «Аббас-Гюльгяз», сказание «Аббас», исследование эпосов

## THE EPOS "ABBAS AND GULGAZ" IN MAMMADHUSEYN TAHMASIB'S ACTIVITY

**Summary**

The epos "Abbas and Gulgaz" spread among the Azerbaijan love eposes very much and having its special place has taken part in the famous folklorists Mammadhuseyn Tahmasib's investigations. One can meet the greatest investigation of the epos "Abbas and Gulgaz" till nowadays in M.H.Tahmasib's activity. The author has told about some variants of this epos, has given their short contents and showed the tellers. Besides this M.H.Tahmasib has told about the formation, the main heroes and the historical motifs of this epos. In the book "Azerbaijan folk eposes" M.H.Tahmasib notes that there were seven variants of the epos. He gives the short contents from six variants. Only in three of them the collectors and tellers are shown. There is no any word about the seventh variant. The problem of the formation of the epos "Abbas and Gulgaz" was also in the investigator's attention. M.Tahmasib thinks that this epos has just been created by Abbas Tufarganli.

It is known that the second epos "Abbas" about Ashug Abbas Tufarganli has also taken part in M. Tahmasib's investigations. That epos has not been investigated separately till nowadays. One can get information about it only from the monographic book "Azerbaijan folk eposes" by M.H.Tahmasib. The author mentions that the teacher Idris Gubadov from Lerik has been collected this epos corresponding the name "Abbas and Gulgaz Pari" from Ashug Gurbanali.

**Key words:** folklore-study, Mammadhuseyn Tahmasib, love eposes, the epos “Abbas and Gulgaz”, the epos “Abbas”, research of epics

XX əsr Azərbaycan folklorşünaslığının ən görkəmli nümayəndələrindən olan prof. Məmmədhüseyn Təhmasib Azərbaycan folklorunun toplanması, sistemləşdirilməsi, nəşri və tədqiqi sahəsində böyük fəaliyyət göstərmişdir. O, bir sıra xalq ədəbiyyatı nümunələrini, o cümlədən bayatıları (13), nağılları (11; 12; 25), lətifələri (18; 19; 23; 24) toplayıb nəşr etdirmişdir. Bunlarla yanaşı Azərbaycan dastanlarının toplanması, tərtibi və nəşri sahəsində də M.H. Təhmasibin əvəzsiz rolu olmuşdur. 5 cildlik “Azərbaycan dastanları”nın nəşrində o, tərtibçi, yaxud redaktor kimi fəal işlər görmüşdür (3; 4; 5; 6; 7; 10). M.H.Təhmasib öz tədqiqatlarında Azərbaycan dastanlarına geniş yer vermiş, onların yaranması, yayılması, spesifikası, təsnifatı ilə bağlı dəyərli mülahizələr irəli sürmüşdür.

Azərbaycan məhəbbət dastanları içərisində xüsusi yer tutan “Abbas-Gülgəz” dastanı da prof. M.H.Təhmasibin tədqiqatından yayınmamışdır. Bu dastan XVI əsrin sonu XVII əsrin əvvəllərində yaşadığı güman edilən Aşıq Abbas Tufarqanlının adı ilə bağlıdır. Aşıqların qənaətinə görə, “Abbas-Gülgəz” dastanların “padşahı”, “Qurbani” isə vəziridir. Aşıqlar arasında hətta belə bir fikir formalaşıb ki, “Abbas-Gülgəz” dastanını bilməyən aşığa aşıqlıq sənətinin çörəyi halal sayılmır. “Abbas-Gülgəz” dastanı yarandığı dövrdən bu günədək aşıqların repertuarından düşməmiş, daha da geniş bölgələrə yayılmışdır. Uzun tarixi yol keçmiş bu dastan hər ifaçının dilində yeni bir xüsusiyyət qazanaraq fərqli variantlarda səslənmişdir. Bu səbəbdən də bu gün dastanın bir çox versiya və variantları mövcuddur. “Abbas-Gülgəz” dastanı bu günədək ayrılıqda xüsusi bir tədqiqat obyekti olmamışdır. Amma bütövlükdə dastanlarımızın, eləcə də məhəbbət dastanlarının tədqiqi zamanı bu dastan da bir çox aspektdən təh-

lil edilmişdir. “Abbas-Gülgəz” dastanı haqqında daha geniş və ətraflı məlumata görkəmli folklorşünas M.H.Təhmasibin araşdırmalarında rast gəlirik.

“Abbas-Gülgəz” dastanının nəşr edilməsi məsələsi XIX əsrin sonlarından qismən də olsa folklorşünasların diqqətini cəlb etməyə başlamışdır. XX əsrin əvvəllərindən başlayaraq “Abbas-Gülgəz” dastanına aid olan şeirlər, daha sonra bu dastanın tam mətni nəşr olunmağa başlandı. İlk növbədə dastanın mətninin toplanması və nəşri sahəsində bir sıra işlər görülüb. “Abbas-Gülgəz” dastanının bir variantını M.H.Təhmasib əvvəlcə Əhliman Axundovla (4, 111-176.), daha sonra Təhmasib Fərzəliyev, İsrafil Abbasov və Nurəddin Seyidovla birlikdə tərtib edərək nəşr etdirmişdir (10, 261-308). Qeyd edək ki, həmin variant sonradan təkrar çap edilmişdir (8, 119-186; 9, 359-374).

M.H.Təhmasib Azərbaycan məhəbbət dastanlarını araşdırarkən “Abbas-Gülgəz” dastanının üzərində bir qədər ətraflı dayanmış, Azərbaycan folklorunun önəmli nümunəsi olan belə bir dastanın formalaşması, yayılması, məzmunu, tarixi motivləri, süjet-kompozisiyası və s. kimi məsələləri diqqət önünə çəkərək öz dəyərli şərhlərini vermişdir. M.H.Təhmasibin “Abbas-Gülgəz” dastanı üzərində araşdırdığı məsələlərdən biri də bu dastanın Şah Abbasla bağlı olmasıdır. Məlumdur ki, dastanlarımızda Şah Abbasa münasibət ziddiyyətli olmuşdur. O gah müsbət, gah da mənfi tip olaraq təsvir edilir. Bu fərqli münasibətləri araşdırmaq üçün M.H.Təhmasib xarakterik nümunə olaraq “Abbas-Gülgəz” dastanı üzərində təhlillər aparmışdır. O, ilk öncə dastanın Aşıq Abbas Tufarqanlı ilə əlaqədar olması məsələsi üzərində dayanır, dastanı kimin yaratdığını tədqiq etməyə çalışır. Müəllif hesab edir ki, sözügedən dastanın Aşıq Abbasın əsəri olduğu, yaxud onun öz sevgilisi haqqında dediyi qoşmalar əsasında sonradan başqaları tərəfindən qoşulmuş olduğu mübahisəli məsələdir. M.H. Təhmasib bunun təkcə Aşıq Abbasla əlaqədar olmayıb, bütövlükdə dastan yaradıcılığımıza aid ümumi məsələ

olduğunu hesab edir (22, 255). Ə.Cəfəroğlu (16, 232), H.Əlizadə (2, 5), A.Nəbiyev (20, 166), M.İbrahimov (17, 34-35), Ə.Axundov (21, 11), H.Araslı (1, 13), P.Əfəndiyev (14, 296-297) “Abbas-Gülgəz” dastanının Abbas Tufarqanlının şeirləri əsasında sonradan başqa aşıqlar tərəfindən qoşulması qənaətindədirlər. Bunların əksinə olaraq, M.H.Təhmasib “Abbas-Gülgəz” dastanı barədə belə fikrə gəlmişdir ki, Aşıq Abbas qüdrətli aşıq-şair olmuş, dəyərli şeir parçaları ilə yanaşı, dastanlar da qoşmuş, o cümlədən öz dövrünün ən çirkin hadisələrindən birini, yəni “gözəl qızların güclə saraya aparılması” məsələsini məharətlə bir dastançı kimi işləmiş, yaxşı bir əsər yaratmışdır. Sonralar yaradıcı aşıq dəstəsi bu dastanı müxtəlif variantlar şəklinə salmışlar (22, 259). M.Təhmasib Abbasın doğrudan da dastançı-şair-aşıq olduğunu sübut edən dəlil kimi Abbasla bağlı ikinci bir dastanı nümunə gətirir və onun da məhz Abbas Tufarqanlının özü tərəfindən qoşulduğunu bildirir (22, 259). Buradan da aydın görünür ki, M.H.Təhmasib bizə yalnız dastandan məlum olan, haqqında başqa bir mənbədən məlumata rast gəlmədiyimiz Aşıq Abbas Tufarqanlını tarixi şəxsiyyət olaraq qəbul edir, hətta onun yaşadığı dövrü dəqiqləşdirməyə çalışır. Müəllifin ehtimalına görə, Aşıq Abbas Tufarqanlı XVII əsrdə yaşamış, yaşca Şah Abbasdan xeyli cavan olmuş, dastanı da Şah Abbas öldükdən çox sonralar, hər halda, Bağdadın türklər tərəfindən işğal edildiyi 1638-ci ildən sonra yaratmışdır (22, 276).

Prof. M.H.Təhmasib “Abbas-Gülgəz” dastanının yalnız bir variantı üzərində dayanmamış, dastanın bir neçə variantından söz açmış, onlar üzərində qruplaşdırma aparmış, qısa məzmunlarını vermiş, söyləyicilərindən bəhs etmişdir.

M.H.Təhmasib “Azərbaycan xalq dastanları” kitabında dastanın yeddi variantının əldə olduğunu qeyd edir (22, 263). Bu variantlardan birincisinin (müharibədən qabaq toplanıb institut arxivində 871-ci nömrə ilə saxlandığı göstərilir) qısa məzmunu belədir:

Tufarqanda Həsən və Hüseyn adlı iki qardaş vardır. Bunlardan birinin Abbas adlı oğlu, ikincisinin isə Gülgəz adlı qızı olur. Hələ körpəlikdən göbəkkəsmə edilən uşaqlar böyüyür, bir məktəbdə oxuyur, həddi-buluğa çatdıqdan sonra kəbinləri də kəsilir. Atalar ziyarətə gedir, orada da ölürlər. Abbasla Gülgəzin toyu olur. Lakin Abbas əhd edibmiş ki, gərdəyə girməmiş Həzrət Sahaba ziyarətə getsin. Belə də edir. O, ziyarətdə olduğu zaman Sarı Xoca buraya gəlib çıxır. O, Şah Abbas üçün gözəl yığır. Otuz doqquzunu toplamış, qırxıncını axtarır. Bir yoxsul qarı Gülgəzi ona nişan verir. Sarı Xoca onu da götürüb karvanını düzəldir, yola düşür. Abbas ziyarətdən qayıdır, işi belə görüb onların dalınca gedir. Yolda bir sıra hadisələr baş verir. Gülgəz gah Abbası rədd edir, gah qəbul edir. Onu gah döyürlər, gah başını yarırlar və s. Nəhayət, Sarı Xoca Abbasın haqlı olduğunu görüb Gülgəzi qaytarır. Lakin şahın yanına getməyin lazım olduğunu söyləyir. Şah Abbas da məsələni bildikdən sonra qızı Abbasa verib Tufarqana yola salır (22, 264).

İkinci variantın müharibədən sonra Laçın rayonunda Haqverdi Mirzəyevdən toplandığı göstərilir. Bu variantın toplayıcısının həmin rayonun ədəbiyyat müəllimi Çingiz Mehrəliyev olduğu qeyd edilir. Həmin varianta görə, Abbasla Gülgəz əmiuşağıdırlar. Qoca bir qarı Şah Abbasa məsləhət görmüşdü ki, başındakı qırx dənə ağarmış tük üçün qırx nəfər gözəl qız almalıdır.

Sarı Xoca ilə Qul Abdulla Gülgəzi başqa bir qarının vasitəsilə aldadıb aparırlar. Abbasın sədaqətli nökəri Lüt Qənbər ona xəbər çatdırır. Abbas onların dalına düşür. Yolboyu yenə də cürbəcür hadisələr baş verir. Hər yerdə Lüt Qənbər ona kömək edir. Nəhayət, gəlib İsfahana çatırlar. Şah qızları dindirir. Gülgəz aldadılıb gətirildiyini deyir. Şah sınaq məclisi düzəldir. Gülgəzə hərdən bir rəng paltar geydirib qızların içərisinə salırlar. Abbas hər dəfə, hətta gözübağlı onu tanıyır. Şah Abbas qızı Abbasa qaytarır, Sarı Xoca ilə Qul Abdullanı isə asdırır (22, 264-265).

Bunlara uyğun üçüncü variantın Laçın rayonunda Müseyib Zeynal oğlundan yazıldığı göstərilir. Dastanı toplayan müəllim Bəhmən Şirinovdur. Bu variantda da Abbasla Gülgəz əmiuşağı və göbəkkəsmə adaxlıdırlar. On altı yaşa çatdıqda Abbasın atası ölür. Əmisi öz qızını ona vermək istəmir. Abbas nəzir deyir ki, əgər əmisi qızı ona versə, gərdəyə girməmiş qırx gün məsciddə namaz qılsın. Onun namaz qıldığı vaxtda Gülgəzi aparırlar. Burada da yol uzunu cürbəcür hadisələr baş verir. Onu döyürlər, baş-gözünü yarırlar, nəhayət, daşqalaq edirlər. Birinci dəfə onu nökər xilas edir. Daşqalaqdan Qaçaq Məhəmməd onu qurtarır, başı yarılanda isə bir qarı öz evinə aparır, sağaldıb yola salır. Sarayda Gülgəz üzünü açmaq istəmir. O, güclə gətirildiyini deyir. Abbası tapıb gətirirlər. Lakin şah Gülgəzə o qədər məftun olur ki, Abbası quyuya saldırır. Ağası Əli Abbasa kömək edir. O, quyudan çıxdıqdan sonra şahın keçəçisinə şagird olur. Gözəl bir keçə salır, üstünə də işarələr qoyub Gülgəzə göndərir. Şah dəhşətli bir yuxu görür. Abbasın haqq aşığı olduğunu başa düşüb qızı qaytarmağa məcbur olur (22, 265).

"Azərbaycan xalq dastanları (orta əsrlər)" monoqrafiyasında növbəti üç variantın toplayıcısı və söyləyəni haqda heç nə deyilmir. Həmin variantların birlikdə ümumi məzmunu belə göstərilir:

Abbas Tufarqanlı, Gülgəz Pəri isə Təbrizlidir. O, Batmanqılınc Məmməd xanın bacısıdır. Onlar bir-birilərini yuxuda görür, eşq badəsi içirlər. Abbas Təbrizə gedir, xanın aşıqlarını bağlayır, böyük müvəffəqiyyət qazanır. Xandan bacısı Gülgəz Pərini istəyir. Qızı öz oğluna almaq istəyən vəzirin narazılığına baxmayaraq, xan bacısını Abbasa verir. Onların kəbinləri də kəsilir. Bu zaman şah Abbas Allahverdi xanı, Becanı və Sarı Xocanı göndərib Pərini İsfahana apartdırır. Abbas karvanın dalına düşür. Yoldakı hadisələr bir qədər geniş və müfəssəl şəkildə təkrar olunur. Şah onu quyuya saldırır. Yoldakı Xoca Yaqub quyusundan xilas edildiyi yol ilə bu quyudan da xilas edilir. Bunların

hamısını edən, onu İsfahana çatdıran, sonrakı sınaqlarda ona kömək edən, eləcə də xəyanətlə öldürmək istədikləri zaman Abbası sirlərdən agah edən ağası Həzrət Əli olur (22, 266).

Sonda dördüncü varianta görə, Məmməd xan qəflətən hücum edib onu dar ağacından, Pərini də saraydan qurtarıb qaçırır. Beşinci varianta görə, Məmməd xanın ordusu şah ordularına qalib gəlib onları azad edir. Altıncı varianta görə isə Abbas öz ağıllı, məntiqli cavabları ilə şahı Gülgəzi geri qaytarmağa məcbur edir (22, 266).

M.H.Təhmasib bu variantları Şah Abbasa münasibətə görə qruplaşdıraraq iki qismə ayırır. Birinci qismə üç variantı aid edir. Həmin variantlarda Şah Abbasın müsbət planda verildiyini göstərir. İkinci qismə aid etdiyi dördüncü, beşinci və altıncı variantlarda isə əksinə, Şah Abbasın çox zülmkar, ədalətsiz, tamahkar təsvir edildiyindən bəhs edir. Müəllif belə qənaətə gəlir ki, birinci qrupun 2-ci və 3-cü variantları Şah Abbas kultuna hüsnrəğbət bəsləyən aşıqlar məktəbi, ikinci qrupun 4-cü və 5-ci variantları vətənpərvər Təbriz aşıqları tərəfindən yenidən işlənmiş, dəyişdirilmişdir. İkinci qrupun altıncı variantı isə əsl orijinala daha yaxındır. O, əsl orijinal dedikdə, Aşıq Abbasın özünün yaratdığı variantı nəzərdə tutur (15, 78). Həmin variantda Abbas nə sadəlövh və kordur, nə də qılınc-qalxanlı üsyançıdır (22, 267).

M.H.Təhmasib dastanın əldə etdiyi yeddinci variantı haqqında ayrıca məlumat verir. Şamaxının Muğanlı kəndində Əlisahib Cəfərov tərəfindən Həbiş Mürsəl oğlundan yazılmış həmin variantın məzmunca digərlərindən fərqləndiyini əsas götürərək bu barədə xüsusi danışmaq lazım olduğunu da qeyd edir (22, 273-274). Bu varianta görə, Gülgəzlə Abbas hər ikisi Tufarqan elindəndir. Onlar əmiuşağı, göbəkkəsmədirlər. Birlikdə böyüyüb, birgə məktəbə gedirlər. Günlərin birində aşıqlar kimi saz çalıb oxuya bilmək üçün niyyət namazı qılıb yuxuya gedirlər. Yuxuda hər ikisi eşq badəsi alır. Amma Abbas səhvən öz badə-

sini Gülgəzə içirtdiyindən badəni uzadanın qəzəbinə tuş gəlir, dili, qulağı tutulur. Gülgəzin sonsuz yalvarışlarından sonra Abbasın dərdinə əlac göstərilir. Belə ki, Abbas Bağdada gedib orada yeddi ildən bir dolan quyunun suyundan içməli olur. Abbas Bağdadda olarkən Gülgəzi saraya aparmaq istəyirlər. O, bundan xəbər tutur, tez özünü Tufarqana yetirir və seyid övladı qismində kəcavənin önündə gedir. Sonda sevgililər birlikdə Şah Abbasın hüzuruna gəlirlər. Şah onların sevgisinə inanıb hər ikisini azad edir.

M.H.Təhmasib bu variantı digərlərindən fərqləndirmək üçün ona "Tufarqanlı Abbas" adını verir, "Abbas-Gülgəz" adı ilə məşhur olan o biri variantlara isə qızın əsərdəki adı ilə bağlı olaraq "Abbas-Gülgəz Pəri" adını uyğun görür. Alim bütün bu variantlardan fərqli olaraq Aşıq Abbas Tufarqanlı haqqında yaranmış ikinci bir dastanı elm aləminə təqdim edir. O, həmin dastanın "Abbas" adlandırıldığını bildirir və onun qəhrəmanlarının adlarına görə "Abbas-Gülgəz" adlandırılmasını daha düzgün hesab edir (22, 263). Başqa mənbələrdə "Abbas" dastanı haqqında məlumata rast gəlmirik. Bu dastan Lerikli müəllim İdris Qubadov tərəfindən Aşıq Qurbanəlidən toplanıb. Həmin dastana görə, Abbas şahın Duxarxandakı "tikməsi" Vəli bəyin oğludur. O, atasının ölümündən sonra onun yerinə keçir. Gülgəz Osmanlı İbrahim paşanın qızıdır. O, Abbasla buta ilə deyil, gerçək həyatda tanış olur. Abbas Şah Abbasın əmri ilə Dahaduruz adlı bir pəhləvanı qovub Osmanlı ərazisində öldürür, başını kəsib Şah Abbasa aparmaq üçün götürür. Buna şahid olan Osmanlı xotkarının paşası İbrahim paşa Abbası çox bəyənir, onu evinə qonaq aparır. Abbasla Gülgəzin ilk tanışlığı orada baş tutur. "Abbas" dastanında qəhrəmanlar bir-birinə qovuşmaq üçün Şah Abbasla deyil, Gülgəzin atası İbrahim paşa ilə mübarizə aparırlar. Bu dastanda Gülgəz də bahadır surətində təqdim edilir. O, atasının Abbası edam edəcəyini eşidib kişi libasında sevgilisinin Osmanlıdan qaçmasına şərait yaradır. Abbas yolda Sarı Xoca və Qul Abdul-

lah ilə qarşılaşır. Onlar Abbasın köhnə düşmənləridir. "Abbas-Gülgəz" dastanından fərqli olaraq, burada vəzirlər Abbası quyuya salmırlar, əksinə, Abbas onlarla döyüşüb ölümcül hala salır. O, Qul Abdullahı son anda Gülgəzin xahişi ilə öldürmür, azad edir. Bu dastanın sonuncu epizodunda "Abbas-Gülgəz" dastanının bütün versiya və variantlarında olduğu kimi, qəhrəmanlar Şah Abbasın sarayında olurlar, onun xeyir-duası ilə Tufarqana (mətndə Duxarxan) yola düşüb toy edirlər. Amma bu dastanda Şah Abbas Abbasla Gülgəzi ayırmaq, sınamaq niyyətində olmur. Abbas Dahaduruzun başını gətirdiyi üçün şah böyük bir məclis qurur, qarşılığında Abbasa Duxarxan mahalını, çoxlu hədiyyə və Abbasın düşmənləri olan Sarı Xoca ilə Qul Abdullahı verir.

"Abbas-Gülgəz" dastanının əldə etdiyimiz tam mətnlərini tədqiq edərkən M.H.Təhmasibin qısa məlumat verdiyi bu variantları müqayisə etdik və belə nəticəyə gəldik ki, alimin göstərdiyi yeddi variantın "Abbas-Gülgəz Pəri" adlandırdığı ilk altısı dastanın əsas versiyasına, "Tufarqanlı Abbas" adını verdiyi yeddinci variant Şirvan versiyasına, "Abbas-Gülgəz" adlanmasını məsləhət gördüyü ikinci dastan isə "Abbas" dastanına aiddir.

M.H.Təhmasibin "Abbas-Gülgəz" dastanı üzərində apardığı araşdırmanı dastan üzərində bu günədək aparılmış ən qiymətli tədqiqat işi, dastanın formalaşması, yayılması, variantları haqqında ən dəyərli bilgi mənbəyi hesab edirik. "Abbas-Gülgəz" dastanı üzərində hər hansı bir tədqiqat işi aparmaq üçün ilk növbədə M.H.Təhmasibin bu dastan barədə verdiyi şərhlərlə tanış olmaq, onun qeydlərindən bəhrələnmək lazımdır.

## QAYNAQLAR


1. Araslı H. Aşıq yaradıcılığı. Bakı: Birləşmiş, 1960, 135 s
2. Aşıqlar, (toplayanı H. Əlizadə), Bakı, Azərnəşr, 1937, 523 s

3. Azərbaycan dastanları: 5 cilddə, I cild / Tərtib edənlər Ə. Axundov, M. H. Təhmasib. Bakı: Azərb. SSR EA Nəşriyyatı, 1965, 383 s.
4. Azərbaycan dastanları: 5 cilddə, II cild / Tərtib edənlər Ə. Axundov, M. H. Təhmasib. Bakı: Azərb. SSR EA Nəşriyyatı, 1966, 478 s.
5. Azərbaycan dastanları: 5 cilddə, III cild / Toplayanı və tərtib edəni Ə. Axundov. Bakı: Azərb. SSR EA Nəşriyyatı, 1967, 340 s.
6. Azərbaycan dastanları: 5 cilddə, IV cild / Tərtib edəni M.H.Təhmasib. Bakı: Azərb. SSR EA Nəşriyyatı, 1969, 508 s.
7. Azərbaycan dastanları: 5 cilddə, V cild / Tərtib edəni Ə.Axundov. Bakı: Azərb. SSR EA Nəşriyyatı, 1972, 448 s
8. Azərbaycan dastanları. Beş cilddə, II cild, Bakı, "Çıraq", 2005, 440 s
9. Azərbaycan dastanları. Beş cilddə, II cild, Bakı, "Lider nəşriyyatı", 2005, 448 s
10. Azərbaycan məhəbbət dastanları / Tərtib edənlər M.H.Təhmasib, T. Fərzəliyev, İ. Abbasov, N. Seyidov. Bakı: Elm, 1979, 504 s.
11. Azərbaycan nağılları: 3 cilddə, I cild / Tərtib edəni M.H.Təhmasib. Bakı: SSRİ EA Az. Fil. Nəşriyyatı, 1941, 490 s.
12. Azərbaycan nağılları: 5 cilddə, I cild / Tərtib edəni M.H.Təhmasib. Bakı: Azərb. SSRİ EA Nəşriyyatı, 1960, 328 s.
13. Bayatılar / Tərtib edəni M.H.Təhmasib. Bakı: SSRİ EA Az. Fil. Nəşriyyatı, 1943, 268 s.
14. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı, Bakı: Maarif, 1981, 1992, 477 s
15. Əliyeva X. Məmmədhüseyn Təhmasibin folklorşünaslıq fəaliyyəti, Bakı, "Nurlan", 2009, 156 s.
16. Həsənqızı A. Azərbaycan mühacirət folklorşünaslığı. Bakı, Elm və təhsil, 2016, 448 s.

17. İbrahimov M. Aşıq poeziyasında realizm. Bakı: Elm, 1966, 83 s., 34-35
18. Molla Nəsrəddin lətifələri / Tərtib edəni M.H.Təhmasib. Bakı: Azərb. SSR EA Nəşriyyatı, 1965, 336 s.
19. Molla Nəsrəddin lətifələri / Tərtib edəni M.H.Təhmasib. Bakı: Yazıçı, 1978, 219 s.
20. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı, II cild, 2006, Bakı: Elm, 618 s.
21. Telli saz ustadları (tərtib edəni Ə. Axundov), Bakı, Azərnəşr, 1964, 159 s
22. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər). Bakı: Elm, 1972, 399 s.
23. Анекдоты Молла Насреддина / Составитель М.Г.Тахмасиб. Баку: Изд. АН Азерб. ССР,1958, 339 с.
24. Анекдоты Молла Насреддина / Составление и предисловие М.Г.Тахмасиба. Москва: Государственное издательство художественной литературы, 1962, 239 с.
25. Азербайджанские сказки, т. II / Составитель М.Г.Тахмасиб. Баку: Изд. АН Азерб. ССР, 1947, 516 с.

# MƏMMƏDHÜSEYN TƏHMASİBİN "ÇİÇƏKLİ DAĞ" PYESİ MİFOLOJİ ÜNSÜRLƏRİN İFADƏSİ KİMİ

**Zümrüd MƏNSİMOVA**
*Filologiya üzrə fəlsəfə doktoru*
*AMEA-nın İctimai Elmlər*
*Bölməsinin elmi katibi*
*zumrudibrahimqizi@gmail.com*

**Özət**

Məqalədə Azərbaycanın istedadlı folklorşünas alimi Məmmədhüseyin Təhmasibinin "Çiçəkli dağ" pyesi Azərbaycan nağılları ilə müqayisəli analizi verilir. Müəllif xalq yaradıcılığının ənənə, motiv və düşüncələrini tədqiq edir.

**Açar sözlər:** M.Təhmasib, "Çiçəkli dağ", folklor, nağıl

## ПЬЕСА "ЦВЕТОЧНАЯ ГОРА" МАМЕДГУСЕЙНА ТАХМАСИБА КАК ВЫРАЖЕНИЕ МИФОЛОГИЧЕСКИХ ЭЛЕМЕНТОВ

**Резюме**

В статье анализируется пьес «Цветочная гора» талантливого азербайджанского фольклорного ученого М.Г.Тахмасиба с азербайджанскими сказками. Автор исследует традиции, мотивы и созерцание народного творчества.

**Ключевые слова:** М.Г.Тахмасиб, «Цветочная гора», фольклор, сказка

## THE PLAY "FLOWERY MOUNTAIN" BY MAMMADHUSEYN TAHMASIB AS AN EXPRESSION OF THE MYTHOLOGICAL ELEMENTS

**Summary**

In this article "Flowery Mountain" play by the famous folk scientist M.H.Tahmasib was comparatively analysed with

Azerbaijani tales. Author"s benefit of the tradition of folk creativity, the ways of using motives are investigated together with the modernity.

**Key words:** M.H.Tahmasib, "Flowery Mountain", folklore, tale

Görkəmli alim, istedadlı dramaturq, gözəl müəllim Məmmədhüseyn Abbasqulu bəy oğlu Təhmasibin 2017-ci ildə 110 illiyi tamam olur. Ziyalı ailəsində anadan olmağı onun uşaq yaşlarında elmə olan həvəsini daha da artırmışdır.

O, Azərbaycan coğrafiyasına, tarixinə, etnoqrafiyasına yaxından bələd olduğu kimi şifahi xalq ədəbiyyatına canıyla, ruhuyla sıx bağlı olmuş, xalqa məxsus söz sərvətini toplayıb üzə çıxartmaq, onu ayrı-ayrı məqalələrində, tədqiqat əsərlərində yaşatmağı hər zaman özünə bir alimlik, vətəndaşlıq borcu bilmişdir. Bir alim, bir insan kimi vətəndaşı olduğu ölkə üçün bundan böyük xidmət ola bilməz.

Təhmasib stol arxasında oturub yazan alimlərimizdən olmayıb, o həm də Azərbaycanımızı kənd-kənd, oba-oba gəzmiş sinədəftər nənələrimizin, ağsaqqal babalarımızın söz boğçasındakı dəyərli folklor nümunələrini, mövsüm və mərasim nəğmələrini, əfsanə və rəvayətlərimizi, dastanlarımızı, toplamış və nəşr etdirmişdir.

"Xalq ədəbiyyatımızda mövsüm və mərasim nəğmələri" Azərbaycan folklorşünaslığında ilk irihəcmli elmi-tədqiqat əsəri, ilk namizədlik dissertasiyası olmuş, eləcə də "Seçilmiş əsərləri 2 cildə", "Azərbaycan xalq dastanları" onun iri həcmli tədqiqat əsərlərindəndir. Onun Molla Nəsrəddin lətifələrinin, nağılların, dastanların toplanıb nəşr edilməsi, tədqiq edilməsi, aşıq yaradıcılığı haqqında fundamental araşdırmalar aparmış, elmi baxımdan araşdırılmasında böyük xidmətləri olmuşdur. Akademik Kamal Abdulla qeyd edir ki, "Məmmədhüseyn Təhmasib Azərbaycan xalqının tarixini, həyat tərzini, mənəvi dəyərlərini ifadə edən ən müxtəlif regionlara səpələnmiş folklor nümunələrini toplayıb

ümumləşdirməklə yanaşı, xalq yaradıcılığının mənalar aləmini, bədii xüsusiyyətlərini də böyük ustalıqla açmışdır” (4, 3).

"Bahar", "Aslan yatağı", "Çiçəklənən arzular", "Hind nağılı", "Rübailər aləmində", “Çiçəkli dağ” və b. pyes-nağılları respublikanın teatr səhnələrində müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur. Eləcə də"Koroğlu", "Molla Nəsrəddinin lətifələri", "Aşıq Ələsgər", "Kitabi-Dədə Qorqud", "Azərbaycan dastanları" və digər xalq incilərinin toplanması, tərtib edilməsi və nəşr olunmasında fəal çalışmışdır.

Professor Məhərrəm Qasımlı qeyd edir ki, “M.H.Təhmasib Azərbaycan folklorşünaslığının tarixində silinməz izlər qoymuşdur. Folklorşünaslıq elmimiz inkişaf etdikcə onun əsərlərinin aktuallığı daha da artacaqdır”. (3, s-17)

Bu məqalədə əsas məqsədimiz Təhmasibin “Çiçəkli dağ” pyesinin əsasında onun necə mifoloji dünyagörüşə malik olmasını, xalq yaradıcılığına yaxından bələd olmasını araşdırmaqdır. Məşhur “Bir qalanın sirri” filminin ssenarisi də “Çiçəkli dağ” pyesinin motivləri əsasında yazılmışdır.

Azərbaycan nağılları əsasında yazılmış, xalq ruhundan qidalanmış “Çiçəkli dağ” pyesi əvvəldən sonadək tapmaq, düşünmək, elmli olmaq, xalq inanclarını dərindən bilmək, xalq mifoloji dünyagörüşünə bələd olmaq, simvolik ünsürləri anlamaq, dərk etmək, mətnaltı izahlarını düşünərək aça bilmək kimi düşündürücü, müqəddəs dəyərlərə malikdir. Bu pyesdə yaşayan milli və simvolik dəyərlər minillər keçsə də yenə də öz orijinallığını qoruyacaqdır. Çünkü hadisələr xalq ruhunda yazılmış, xalqın mifoloji dünyagörüşü, rəngarən şəkildə əks olunmuşdur. Belə ki ayrı-ayrı obrazların adlarından başlamış digər mifik ünsürlərə qədər rəngarəng və orijinaldır. Pyes şər və xeyir qüvvələrin əhatəsi baxımından da 2 hissəyə bölünür. Məsələn, bir tərəfdə xalqın dərdinə şərik çıxan, dar günündə belə öz canlarının bahasına da olsa onların arxasında duran Usta, Elşən, Mətanət kimi igid, mərd, qəhrəman obrazlar durur. Digər tərəfdə daima insanlar arasında nifaq salan, nağıllarımızda

yarıtmaz şah və onların fırıldaqçı vəzirlərini xatırladan, şəri, qara qüvvələri təmsil edən "Simnar", "Göy göz kosa" obrazları durur.

Bildiyimiz kimi, nağıl süjeti əsasında yazılmış "Çiçəkli dağ" pyesində xalqın əlindən torpağını və suyunu almış amansız və qəddar hökmdara qarşı kasıb, lakin namuslu və qeyrətli insanların mübarizəsindən söhbət açılır. Alim-həkim Eldostu, onun sədaqətli şagirdi Mətanət, igid və cəsur gənc usta Elşən, Kamran baba bu qəhrəmanlıq mübarizəsinin önündə dururlar. Pyesdə əldə olunan əsas nəticə el gücü və xalqın birliyidir. Elmlə gücün birliyi Simnar xan, Göygöz kosa kimi şər, bədxah qüvvələr üzərində zəfər çalır. Müəllif xalq yaradıcılığında olan qədim mifik ünsürlər əsasında yazsa da, mətnaltı mənada insanların azadlıq istəklərini, yaşam tərzləri ilə bağlı arzularını dilə gətirir. Pyesdə həkimin dilindən Simnar xan haqqında deyilən ifadələrdə həm də xalqın azadlıq istəkləri öz təsdiqini tapır.

Həkim: "Kəndlərə su çəkmək lazımdır, usta! Simnar xan ona görə qudurur ki, kəndin suyu onun ixtiyarındadır. İstəyəndə verir, istəməyəndə kəsir. Kəndin özünün suyu olmalıdır. Qaraqayanın arxası ilə axıb gedən suyu kəndlərə çəkmək lazımdır.. Dədələrimiz, babalarımız həmişə bu arzu ilə yaşayıblar. Ancaq bu mümkün deyil, oğlum"! ..

Keçmişdəki, şah üsul idarəsini və yaşadığı Sovet postməkanını müqayisəli şəkildə əks etdirən müəllif əslində nağıl elementlərini pyesə gətirməklə, mövcud durumu hədəf tutmuş, insanların, hər zaman əzilən, zəhmətkeş kəndlinin mübarizə, azadlıq arzularını göstərməyə çalışmışdır.

Burada verilmiş hər bir mifik simvolun arxasında bir müdriklik, açılışına ehtiyacı olan fikir dayanır. Eləcə də burada izaha ehtiyacı olan müəmmalar, genetik əlaqələrlə bağlı məqamlar çoxdur. Fikrimizi sübuta yetirmək üçün pyesin nağıl obrazları ilə müqayisəli təhlilinə, oradakı obrazlara dərindən diqqət yetirməliyik

Pyes tam olaraq Azərbaycan şifahi xalq ədəbiyyatından, nağıllarımızdan, atalar sözlərindən qaynaqlanaraq yazılmışdır. Bu

pyesin tərkibində istənilən qədər atalar sözlərinə, öyüd-nəsihətə, bayatıya təsadüf etmək mümkündür. Məsələn, həkimin dilindən, “Dost üçün dost var, düşmən üçün düşmən”! Ustanın dilindən “İlanın, bir də xanın gözü torpaqdan doymaz”, Kosanın dilindən “Qorxaqlıq olmasaydı, dostlar düşmənlərə satılmazdı”, Həkimin dilindən “Gücsüz, qüvvətsiz bilik daşa dönür” ,“Elm, bilik kəməridir”, “Qüvvət gözəl şeydir, amma elmsiz, biliksiz bir heçdir” və yaxud “Təcrübəsiz bilik heçdir, biliksiz qüvvət” (5, 8-9).

Göründüyü kimi, xalq ruhundan qidalanan “Çiçəkli dağ” pyesini əvvəldən sonadək müdriklik çələngi adlandırmaq olar.

Bu pyesdə ikinci bir xüsusiyyət nar, sim, kəmər, mücrü ilə əlaqədar yaranır. Bu cür mifoloji ünsürlər xalq ədəbiyyatında, xüsusən nağıllarda çox yer alır. Bir sualın cavabını tapmaq üçün qəhrəman çox ellər gəzir, dolaşır, çox çətin sınaq mərhələlərindən keçir. Eynən “Abbas və Gülgəz”, “Aşıq Mədət və Bəhrinazın dastanları” və s. Xalq ruhuna yaxın olan Təhmasib bu dəyərləri “Çiçəkli dağ” pyesində də çox gözəl, əhatəli və məzmunlu şəkildə yerinə qoya bilmişdir.

“Ümumiyyətlə, folklorumuzun elə bir forması yoxdur ki, miflərdən, nağıllardan, əfsanə və rəvayətlərdən bəhrələnməsin. Yazılı ədəbiyyatda mövcud olan əsərlərdəki mifik qüvvələr folklor örnəklərinin – sehrli nağılların, əfsanələrin, rəvayətlərin məntiqi davamıdır. Bu tipli nağıllarda insan zəkası dəhşətli, qorxunc sehrli qüvvələrə qarşı qoyulur. Sehrli qüvvələr nə qədər güclü olsalar da, nəticə etibarilə insan ağlı hər şeyə qalib gəlir (6).

Azərbaycan xalq nağıllarında olduğu kimi, “Çiçəkli dağ” pyesində də mifoloji ünsürlər kifayət qədərdir. Nağıllarda xalça, üzük, sehrli süfrə nağıl qəhrəmanının ağlı, düşüncəsi ilə hərdəmxəyal, ağılsız divlərin əlindən alınır. Məsələn, “Gül sumana neylədi” nağılında olduğu kimi...Bu pyesdə mifoloji obrazlara diqqət edək: “Elşən bağlamanı açır. Bağlamadan bir alma, bir iynə, bir bıçaq, bir soğan, bir qayçı, bir parça da kağız çıxır”. İynənin izləri Azərbaycan nağıllarından başlamış, dastanlara, mərasim folkloruna qədər

öz əksini müəyyən adətlərdə yaşayır. Nağıl qəhrəmanlarını məqsədlərinə çatdırmaq üçün müəyyən quşlar, heyvanlar köməyə gəlir. İt, at insana dəyər verən vəfalı dost kimi, hikmət sahibi olan göyərçinlər yol göstərən xilaskar kimi diqqəti cəlb edirlər. Bunu Azərbaycan nağıllarına diqqət etsək görərik: "Məlikməmməd", "Şahi-Cəmşid ", "Üç bacı", Sehrli başmaq", "Nəsirin nağıl"ları.

Azərbaycan nağıllarında başlıca mövzulardan biri də məzlum, əzilmiş, cəhalətdə qalmış yoxsul kəndlilərin, şahlara, hökmdarlara qarşı daima mübarizə aparmasıdır. Şahlar, onların vəzir-vəkili vasitəsi ilə kəndlilərin haqlarının, hüquqlarının tapdalanması nağıllarımızda açıq şəkildə verilir. "Balıqçı oğlunun nağılı", "Ağ balığın nağılı", Bu süjet xətti M.H.Təhmasibin yaratdığı "Çiçəkli dağ" pyesində də eynən qorunur. Qanlıdaş qalasının ətraf əraziləri kəndlilərdən alınıb, suyun qarşısını kəsən şah və onun əyanları, "Göygöz" kosa kəndlilərə zülm verir, onları təpki içərisində yaşadırlar.

Pyesdə verilmiş Mətanət obrazı sevgisinə sadiq, mərd, hünərli, cəsarətli, düşmən əsirliyində olsa belə düşmənindən qorxmayan bir el qızıdır. Müəllif bu obrazın simasında çox böyük məğrur və həm də gözəl, sadiq, sirr saxlamağı bacaran, özündən sonrakı nəsillərə örnək ola biləcək əsl Azərbaycan qızının obrazını yaratmışdır.

Bir-birilərinə xarakter baxımından əks qütbdə dayanan Hadı və Bıdının timsalında qorxaq və cürətli, ağıllı, çevik və tənbəl obrazlar durur. Hadı nə qədər çox kitab oxumağa maraqlıdırsa, Bıdı bir o qədər tənbəl, yeməyə və yatmağa meyillidir...

Bu pyesdə sehr, cadu, tilsim, sehirli nağıllarda olduğu kimi əsas amil kimi götürülür. Sehrli qüvvələrə, tilsimlərə, əşyalara, fetişə, əfsuna, caduya bağlı sehirli nağıllar da vardır. Bu tip nağıllardan "Sehrli üzük", "Ax-vax", "Vəfalı dostlar" "Keçəlin Uffaya qələbəsi", "Ovçu Pirim", "Hatəmin nağılı" və s. nağılları misal göstərmək olar. Bu nağıllarda sehrli qüvvələr – div, əjdaha, sehr, cadu, əfsun, sehrli xalça, sehrli üzük, papaq qəhrəmanın köməkçisidir. Sehrli nağılların əsas atributu tilsim, daşa dönmə və s.-dir.

Namusun nişanəsi kimi diqqəti cəlb edən “Əgrəyin dustaq olduğu boy”da qardaşının dustaq olmasını Səgrək öz namusuna sığışdırmır. Bunu ona tənə edəndə qardaşının xilası üçün yollar axtarır. Ata-anası onu bu yoldan çəkindirmək üçün evləndirmək istəyirlər. Toy axşamı Səgrək gəlinlə öz arasına qılınc qoyur. Onun boyda dediyi şeir parçası qılıncı araya qoymasının səbəbini ifadə edir. Dastanda namus məsələsi qadın və qızların öhdəsinə düşən, Oğuz qızlarının xarakterini açmağa kömək edən əsas faktordur. Banuçiçək Beyrəyin yolunu 16 il ona görə gözləyir ki, adına başqa söz deyilməsin. “Çiçəkli dağ” pyesində də eynən Elşən Mətanəti Qanlıdağdan qurtarmayınca gözünə yuxu getmir. Açılmayan sirri ağılla, elmlə dərk edib tapmağa çalışır.

Nağıl və dastan ənənəsində olduğu kimi burada da simvolik obrazlardan yetərincə istifadə olunmuş, alma, nar, sim kimi obrazlar pyesə qədim və mifik bir rəng qatmışdır. Burada soğan müəllifin sonrakı təxəyyülünün məhsuludur. “Məni bu kağız kimi parça-parça doğrasalar, bədənimi bu alma kimi deşik-deşik deşsələr, dərimi bu soğan kimi soysalar da, bu sirri heç kimə açmayacağam”.

Pyesdə simvolik obraz kimi kəmərin özünəməxsus yeri var. Bütün kitabları oxuyub heyvanların, quşların dilini öyrənən Elşən həm də bundan sonra kəməri belində saxlaya bilir. O kəmər ona çətin, qaranlıq gecədə işıq verir, düşməninin yerini nişan verir.

Həkim: O ki sənin belində dayandı, demək ki, kitablar sənə hər şeyi öyrədiblər. İndi o qaranlıqda işıq salıb sənə yol göstərəcək. Düşmən səni tilsimə salmaq istəsə parıldayıb işıq verəcək” (5, 43). Mifoloji obrazlara gəldikdə “Pərilər padşahının qızı” nağılında üzük, “Üzüyü tutarsan mağaranın ağzına, o saat mağaradan bir qoca qarı çıxacax” (1, 170) “Sehirli üzük” nağılında “biz üç div iki qiymətli şey tapmışıq, biri həzrət Süleymanın xalçası, biri də üzüyüdü. üzükdən nə dilək istəsən, hazır olacaq. Bu iki şeyi üç divin arasında bölə bilmirik” (11). Və yaxud alma, nar, sim bu mifik obrazlarla əlaqədar da nağıl və dastanlarımızda kifayət qədər nümunəyə təsadüf etmək mümkündür.

Məsələn, "Vəfalı dostlar" nağılında Dərviş bir alma çıxarıf padşaha verib didi: Bu almanı iki yerə bölərsən. Bir parçasını sən öz arvadınla yiyər. Bundan sora sənin bir uşağın olar (1, 181)

Nar da mifoloji simvol kimi, nağıl və dastanlarımızda çox işlənib. Pyesdə nar da alma kimi hər hansı bir gizli bir sualın cavabını tapmaq üçün düşünülmüş şəkildə qoyulmuş qəhrəmandan ağıl, düşüncə, güc, bilik tələb edir ki, gizli sirri aşkar etsin. Eynən "Gündən qorxan Əhməd"in nağılında olduğu kimi "Bundan soram bu xəzinə sənindi. Atam da nə bağışlıyar, bağışlıyar. Qız oğlana 7 nar verdi sovqat kimi. Didi oğlan, bu nar hər açılıf paylanan nar deyil. Bunda sirr var. Ho ancax öydə açılmalıdı. Hələlıx sənə bunu ənam veririh. (12, 181). Nağılda göstərilir ki, sovqat göndərilən nardan şah qızı Əhmədin kasıb komasının əvəzinə böyük və əsrarəngiz bir imarət ucaldır. İllər sonra Əhməd qayıdıb gəldiyində öz evini tanımır. Anasından və xanımından bunun sirrini soruşduqda məlum olur onun göndərdiyi narın içindən çıxan qiymətli ləllərin vasitəsi ilə bu cah-calala nail olublar. Anası qonşulara da vermək istədikdə şah qızı mane olub ki, qoy bir əvvəlcə özümüz baxaq dadına, sonra qonşulara paylayarıq... Məlum olur ki, bu nağılda da Əhmədin elm və bilik, qiymətli kəlamlar öyrənməyi və qadının ağlı və düşüncəsi, zəkası sayəsində ailə böyük var-dövlət əldə edir. Bununla ağıl, düşüncə, müdriklik və səbr ilə insan zəkası qalib gəlir. Ağıl, düşüncə ilə düşmənə qalib gəlməyə "Naxırçı ilə padşah qızı" nağılında təsadüf edirik. "Divlər naxırçıya didilər: Bizim üç sehrli əşyamız var. Onu bizim aramızda böl. Biri xalça, biri süfrə, araxçın". Burada insan zəkası ağlın və aldığı elmin gücü ilə qələbə çalır. "Çiçəkli dağ" pyesində də Həkimin özündən sonra yerini nişanə üçün mücrüdə iz qoyub getdiyi bir dənə nar, bir qıfıl, bir parça sim, bir dənə də qanlı daş... Elşənlə Mətanət qanlı daşla ustanın zorla aparıldığını başa düşürlər. Amma digər simvolik ünsürlərin mənasını açmaq üçün ona çoxlu kitab oxumaq və çiçəklərin, heyvanların dilini bilmək lazımdır. Kamran baba Elşənlə birgə aldıqları elmin, oxuduqları kitabın gücünə bu tapmacanın cavabını tapırlar. Anlayırlar ki,

Simnar xan həkimi Qanlıdaş qalasında qıfil altında dustağa salıb. Xalq nağıllarında bəzən kömür kimi əvəzləmələrə də təsadüf edirik. “Vəfalı dostlar” nağılında Xanım qarıya bir parça kömür verib didi: Qarı xanımın verdiyi kömürü gətirib qonaqlarına verdi. Didi bunu xanım sizə göndərib. Dostum qız bununla bizə dimax istiyir ki,onun yanına gündüz yox gecə gedax” (1,184).

Nümunələrdən göründüyü kimi xalq ədəbiyyatında bəhrələnən müəllif pyesdə qədimliklə müasirliyi ümumləşdirmiş, amma ənənəvi olaraq şərə qalib gəlmişdir. Burada müəllif mifik obrazlara müəyyən yerinə düşən çevrilmələr, əlavələr etməklə pyesə yeni nəfəs vermişdir. Burada məkan və zaman göstərici əsas amil kimi götürülür.

M.H.Təhmasib nağıllarda tez-tez təsadüf edilən daşa dönmə motivindən də məharətlə istifadə etmişdir. Bu səhnəni oxuyan hər kəs özünü sanki nağıllar aləmində zənn edir. Mətanət: “Sən darıxma, həkim baba. Qoy məni tamam daşa döndərsinlər. Sən də daş kimi möhkəm ol”.

Bu motivə “Gündən qorxan Əhməd”in nağılında çox təsadüf edirik. Belə ki, bu nağılda illərdir divin zülmüylə daşa çevrilən qəhrəmana kömək etmək məqsədi ilə “Bax bu qədər daşlar hamısı adamdı. O quş gəlib qəfəsdə oxuyanda vursan onda bu daşlar da insan olacax, əyər vura bilməsən, sən də birinci dəfə dizəcən, ikinci dəfə qurşağacan, üçüncü dəfə bütöv daş oliciyhsən.” (12, 180). “Gündən qorxan Əhməd”in nağılında olduğu kimi “Daş qız” nağılında “Ey pəhlivan məni öldürmə. 40-cı otağa get o otaqda üç çubux var, ağ, qırmızı bir göy. Ağ çubuxla ağ qoşuna, qırmızı çubuxla qırmızı qoşuna, göy çubuxla göy qoşuna vurarsan. Onlar hamısı dirçələcax (8).

Daşa dönmə motivi qədim mifik düşüncə tərzinə köklənir.

“Çiçəkli dağ” pyesində əski türk mifologiyasından, eləcə də Azərbaycan nağıllarından qaynaqlanan, daş kultunun və daşa dönmə motivinin izlərini görürük.

Məlum olduğu kimi, daşa dönmə motivi türk xalqlarında çox geniş yayılmış motivlərdən biridir.

Mirəli Seyidovun yazdığına görə, qədim insanlar inanırmış ki, onqon, ilahi, Tanrı hər bir canlıda, cansızda cüz halında var və onlar kökə görə qohumdurlar. Bu cüzün gücü ilə canlı, cansız şəklini dəyişir. Daş insan olur, insan heyvan və sair (10, 262).

Daşa dönmə insanların əski mifoloji dünyagörüşünün ifadəsidir. Bu prosesdə müəyyən vəziyyətlərdə dualar, güclü tilsimlər, baş verir. Nağıllarda öz yarının, dostunun, qardaşının arxasınca gedən igidlər, divlər, küpəgirən qarılar tərəfindən daşa çevrilmişlər. Məsum gözəllərin bədheybət əjdahalardan, divlərdən qurtuluş yolu daşa dönmə olmuşdur. Çiçəkli dağ pyesində daşa dönmə motivi daha çox ictimai funksiya daşıyır. Xalq azadlığı, məhəbbəti, motiv seçərək onun ətrafında bədii təxəyyülünü formalaşdırmışdır.

Daşa dönmə motivini "Hatəmin nağılı"nda əvəlldən sona kimi izləmək mümkündür (12, 207-214).

"Çiçəkli dağ" pyesində heyvanların, atın itlə sədaqətli dostluğundan, göyərçinin Elşənə yol göstərməsindən bəhs olunur. Bu da təbii ki, ənənədən gələn motivdir. Pyesin qəhrəmanlarından biri olan Elşən kitabları oxumaqla onların dilini asanlıqla başa düşür. Göyərçin nağıllardakı sehrli, yolunu azana yol göstərən, mələk cildinə girmiş əfsanəvi quşları xatırladır.

Pyesdə mənfi obraz kimi birinci yerdə duran hiyləgər, acgöz xan obrazıdır. Şah, xan kimi obrazların əksəriyyəti nağıllarımızda mənfi və müsbət planda verilir. Pyesdə verilmiş bir xalq bayatısında bu təbəqəyə qarşı münasibət çox böyük ustalıqla ifadə olunmuşdur:

Rast gəlmədim düz xana,
Döndərmədim üz xana.
Bir itimi vermərəm
Min soltana, yüz xana (5, 48)

"Azərbaycan nağıllarında başlıca mövzulardanbiri də məzlum, əzilmiş, cəhalətdə qalmış kəndli kütləsinin bütün hökmran və

istismarçı təbəqələrə qarşı apardığı müxtəlif mübarizələrdir. Bu cəhətdən nağıl əməkçi kütlənin yeni nəsillərində zalımlara – ağalara qarşı kin və ədavət bəsləmək üçün ən kəskin bir alət olur" (2. 18).

Pyesdəki maraqlı obrazlardan biri də Göygöz kosa obrazıdır. Göygöz kosa dərviş libasına girib Hadı ilə Bıdı Mətanətin yanına gəlir. Onlara özünü gələcəkdən xəbər verən dərviş kimi göstərir. Cilddən cildə, dondan dona girmək nağıllarda, əfsanə və rəvayətlərdə əsaslı yer tutur. "Vəfalı dostlar": Padşah sarayda cadugər qarı saxlayırdı. Onu çağırıb tədbir tökməyi, oğlunu hiylə ilə öldürməyi əmr etdi (1,185). Simnar xan Göy göz kosanın sehri və tilsimin vasitəsi ilə elm və bilik, təcrübə bahasına əldə edilən dərmanın sirrini öyrənərək öz xeyrinə istifadə etməyə çalışır. Biz nağıllarımızda, dastanlarımızda övlad payı verən, gələcəkdən xəbər verən, qəhrəmanı sevgisinə qovuşdurmaqda köməklik göstərən dərviş obrazlarına çox təsadüf edirik. Bununla yanaşı, "Çiçəkli dağ" pyesində olduğu kimi, nağıllarımızda yarı yardan eləyən, ölünü diri, dirini ölü eləyən köpək qarılara da təsadüf edirik. Məsələn, "Nazlı qızın" nağılında "Köpək qarı dərin bir dolçada şah oğlu Cəmşid üçün zəhər bişiriy..."

Pyesdə də xalq ruhuna yaxın olan M.H.Təhmasib bu ənənəni böyük məharətlə qorumuşdur. Göy göz kosa dərviş libasına girərək qarşı tərəfdən hiyləgərcəsinə söz çəkməyə çalışır. Qəhrəmanın köməkçisi funksiyasını daşıyan it də pyesin sonunda ölmüş Göygöz kosa libasını geyinərək onun dilini bilən yiyəsi Elşənlə birgə Simnar xana kələk gəlməyə çalışır. Bununla müəllif göstərir ki, xalqına quyu qazan sonda özü də öz kələkbazları ilə birgə qazdığı quyuya düşür. Xalq yaratdığı dastanda, nağılda öz qəhrəmanını ucalardan uca görmək istəyir. Folklorşünas alim, akademik Muxtar İmanov sehrli nağıllar üçün belə bir qeyd edir. "Məsələ burasındadır ki, xalq öz qəhrəmanını yenilməz görmək və sehrli nağılda bu yenilməzliyi ifadə etmək istəyir. Xalq qəhrəmana "Qouz" ("Oğuz") adı verməklə onun qeyri-adi fiziki gücünə işarə etmiş olur. Amma yenilməzlik üçün fiziki gücün yetərli ol-

madığını nəzərə alan xalq öz qəhrəmanını həm də sehrli aləmlə əlaqələndirmək istəyir. Özünü gizlədib başqa dona girməyin ən arxaik mənası qəhrəmanın dəyişib o dünya sakinlərinin görkəminə uyğun bir görkəm alması inamı ilə bağlıdır" (6, 9).

Nağıl poetikasından irəli gələn div, əjdaha surətləri sehrli nağıllarda olduğu kimi pyesdə bir o qədər də dərin iz buraxmır. Əjdaha mifoloji surətinin bir neçə yerdə ötəri adı keçir. Kamran babanın dilindən: "Ona görə ki, suyun qabağını kəsən Qaraqaya, deyilənlərə görə heybətli bir əjdahadır. Özü də elə qəzəblidir ki, suyuna toxunmaq istəyəni bir qırpımda yoxa çıxardır. Deyirlər ki, keçmişdə ona gündə bir qız qurban verirmişlər ", "Qanlıdağ əjdaha olub həkimi udub" və s. Burada müəllif sovet hakimiyyətinin boyunduruğu altında yaşadığı dövrə işarə vurur. Əjdaha simvol kimi pyesə gətirilsə də, əslində yaşadığı dövrə, hakimiyyətə qarşı çıxanların aldıqları cəzanın göndəriləcəkləri məkanın mühacirət olduğu bəllidir. Məhz müəllif bu baxımdan nağıl süjetlərindən istifadə etməklə həm xalqla bağlı arzularını məharətlə dilə gətirmiş, həm də qədim ənənəni pyesdə yaşatmağa bacarmışdır. Folklorşünas alim Seyfəddin Rzasoy qeyd edir ki, "Azərbaycan öz milli folklor dəyərlərində, milli düşüncə yaddaşında bütün tarixi əzəməti ilə bütövdür. Xalqın faciəsi o vaxt başlanır ki, milli yaddaş korlaşır: Onda bütövlüyün milli sxemləri tədricən silinir. Milli yaddaş heç bir zaman və heç bir halda korşalmamalıdır. Millətin ən böyük vəzifəsi bu yaddaşı qorumaqdır (9, 3). Xalqın arzu və istəklərini nəzərə alaraq, keçmişdən gələn ənənəni, müasir çalar qataraq yaşatmaq, o ənənələri, adətləri, daima gündəmdə saxlamaqla düşmənlərimizə zəfər çalmaq hər bir yazarın amalı və qarşıya qoyduğu məqsədi olmalıdır. Bizə bu yol keçmişimizi, adət-ənənlərimizi, milli-mənəvi dəyərlərimizi yaşatmağa və qorumağa stimul yaradar. Bu baxımdan M.H.Təhmasibin "Çiçəkli dağ" pyesi hər dövr üçün öz orjinallığı ilə yaddaşlarda yaşayacaq.

# QAYNAQLAR

1. Azərbaycan folkloru antologiyası. IV kitab, Şəki folkloru, I cild, Bakı. Səda, nəş, 2009, 490 səh).
2. Azərbaycan nağılları 5 cilddə, I cild, Bakı, Şərq-Qərb, 2005, 306 səh.
3. Cəfərli Məhəmrəm. Seçilmiş əsərləri I cild, Bakı, Mütərcim 2010, 488 səh, səh-17
4. Məmmədhüseyn Təhmasib. Seçilmiş əsərləri, 2 cildə, I cild, Bakı, Mütərcim, 2010, 488 səh.
5. Məmmədhüseyn Təhmasib. Çiçəkli dağ. Nağıl-pyeslər, Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1965.
6. İmanov Muxtar. Folklorda obrazın ikiləşməsi (monoqrafiya). Bakı: "Elm" nəşriyyatı, 2011, 228 səh.
7. Məmmədov Rövşən. Azərbaycan uşaq nəsrində div surəti. http://edebiyyat-az.com/?p=10623).
8. *Mənbəyi göstərilməyən nümunələr arxivimizdədir*
9. Rzasoy Seyfəddin. Mifologiya və folklor: nəzəri-metodoloji kontekst. Bakı, «Nurlan», 2008. – 188 səh.
10. Seyidov M. Azərbaycan xalqının soy kökünü düşünərkən. Bakı, Yazıçı, 1989. 496 səh.).
11. http://www.nagillar.az/article/a-170.html)
12. Zaqatala folklor örnəkləri. I cild. Bakı: Sabah, 2017

# MÜNDƏRİCAT


## *Konfransın açılış məruzələri:*

**İsa Həbibbəyli**
Folklor nəzəriyyəsinin görkəmli yaradıcısı ........................... 5

**Kamal Abdulla**
Ustad xoşbəxtliyi ................................................................. 13

**Muxtar Kazımoğlu (İmanov)**
Məmmədhüseyn Təhmasib və folklorumuzun bəzi ağrılı nöqtələri .......................................................................................... 16

**Kamran Əliyev**
Məmmədhüseyn Təhmasib məktəbi ..................................... 35

**Məhərrəm Qasımlı**
Folklor karvanımızın ulu sarvanı .......................................... 45

**Tahirə Məmməd**
M.H.Təhmasib tədqiqatlarında adət, ənənə və mərasim probleminə konseptual baxış ............................. 53

**Seyfəddin Rzasoy**
Azərbaycan folklorşünaslıq tarixində M.H.Təhmasibin yeri . 60

## *Məruzələr:*

**Afaq Qasımova**
M.H.Təhmasib və qaçaq dastanları....................................... 66

**Ağaverdi Xəlil**
M.H.Təhmasibin tədqiqatlarında mərasim məsələləri ........... 74

**Aygül Qurbanova**
M.H.Təhmasibin araşdırmalarında “Kitabi-Dədə Qorqud” soylamaları ...................................... 83

**Aynur İbrahimova**
M.H.Təhmasib yaradıcılığında yazıçı və folklor problemi .... 90

**Aysel Qurbanova**
Pəri obrazındakı duallıq (M.H.Təhmasibin tədqiqatları kontekstində) .......................................................................... 100

**Aytac Abbasova**
M.H.Təhmasib irsində keçəl obrazının tipologiyası .............. 107

**Elçin Qaliboğlu**
Adət-ənənə, mərasim və bayramlar etnopsixoloji ruhun ifadə forması kimi (M.H.Təhmasibin yaradıcılığı əsasında).. 116

**Əpoş Vəliyev**
M.H.Təhmasib: Aşıq Ələsgər yaradıcılığına yeni baxış ........ 126

**Gülnar İsmayılova**
M.H.Təhmasib və Kərkük folkloru...................................... 134

**Gülnar Məmmədova**
M.H.Təhmasib və uşaq folkloru məsələləri .......................... 141

**Gülnar Osmanova**
M.H.Təhmasib: mifoloji obrazlara ilkin elmi münasibət....... 147

**Gülsümxanım Hasilova**
M.H.Təhmasib və Novruz bayramı ...................................... 155

**Günel Məmmədova**
M.H.Təhmasibin dram əsərlərində ara sözlər və əlavələr (“Çiçəkli dağ” və “Hind nağılı” pyeslərinin materialları əsasında) ............................................................................ 165

**Xəyalə Ağayeva**
Azərbaycan folklorunun toplanmasında M.H.Təhmasibin rolu .......................................................... 175

**Xuraman Kərimova**
M.H.Təhmasibin tərtibçilik fəaliyyəti.................................. 199

**İslam Sadıq**
M.H.Təhmasib və folklor mətnləri ........................................ 210

**Qumru Şəhriyar**
M.H.Təhmasib və türk qəhrəmanlıq dastanları ..................... 233

**Maral Yaqubova**
M.H.Təhmasibin dastan strukturu və ifadə texnologiyaları
ilə bağlı nəzəri görüşləri ....................................................... 246

**Nailə Əskər**
M.H.Təhmasib və "Koroğlu" dastanı .................................. 264

**Nizami Məmmədov**
"Seçilmiş əsərləri"n M.H.Təhmasib irsinin öyrənilməsi
və təbliğində rolu ............................................................... 275

**Oruc Əliyev**
Azərbaycan nağılları M.H.Təhmasibin araşdırmalarında ...... 281

**Sahibə Sədnikqızı**
M.H.Təhmasib və Sədnik Paşa Pirsultanlı irsində
Azərbaycan dastanları ......................................................... 293

**Sevda Qasımova**
M.H.Təhmasib və folklorşünaslıqda vətəndaşlıq missiyası ... 301

**Şəbnəm Məmmədli**
Prof. Aydın Dadaşov M.H.Təhmasib irsinin
tədqiqatçısı kimi .................................................................. 308

**Vüsalə Məmmədova**
M.H.Təhmasibin tədqiqatlarında "Abbas və
Gülgəz" dastanı .................................................................... 315

**Zümrüd Mənsimova**
M.H.Təhmasibin "Çiçəkli dağ" pyesində mifoloji ünsürlər... 328

**Görkəmli Azərbaycan folklorşünası**
**Məmmədhüseyn Təhmasib**

Bakı, Elm və təhsil, 2017.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Nəşriyyat redaktoru:
**Gülnar Osmanova**

Korrektorlar:
**Aytac Abbasova**
**Gülnar İsmayılova**

Kompüterdə yığdılar:
**Şəbnəm Məmmədova**
**Nigar İmaməliyeva**

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompüter Mərkəzində yığılmış, səhifələnmiş,
“Elm və təhsil” NPM-də ofset üsulu ilə
hazır diapozitivlərdən çap olunmuşdur.